HƏBİBƏ SOLTANOVA, CABİR MƏMMƏDOV

# YAXIN VƏ ORTA ŞƏRQ ÖLKƏLƏRİNİN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI

**(Dərslik)**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 29.03.2008-ci il tarixli 353 saylı əmri ilə dərslik kimi təsdiq edilmişdir.**

**«Bakı Universiteti» nəşriyyatı 2008**

Rəycilər:
BDU-nun iqtisadi coğrafiya kafedrasının professoru,
c.e.d. **İsmayılov Ç.N.**
AMEA-nın Coğrafiya İnstitutunun iqtisadi və sosial coğrafiya şöbəsinin müdiri, c.e.n. **Paşayev N.**

**Soltanova H.B., Məmmədov C.A. «Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası» (dərslik).** Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 304 səh.

Ana dilimizdə ilk dəfə çap olunan bu dərslikdə tələbələri vətənimizə həm coğrafi, həm də tarixi keçmiş baxımından çox yaxın olan ölkələr ilə yaxından tanış etmək məqsədi güdür. Üç hissədən ibarət olan kitabın birinci hissəsi Yaxın və Orta Şərq regionu barədə təbii, iqtisadi, tarixi məlumatlara həsr olunmuşdur. İkinci hissə Yaxın Şərq (16 dövlət), üçüncü hissə isə Orta Şərq dövlətlərinin (2 dövlət) icmalına həsr olunmuşdur. Kitabın sonunda əlavələr hissəsində region dövlətlərinin bəzi sosial, iqtisadi və siyasi göstəricilərini özündə əks etdirən cədvəllər verilmişdir.

Uzun illər bu regionun tədrisi və tədqiqi ilə məşğul olan müəlliflər müəyyən dövrlərdə regionun bəzi ölkələrində işləmiş, elmi məzuniyyətlərdə olmuş və elmi məruzələrlə çıxış etmişlər.

Kitabın bu qəbildən olan digər dərsliklərdən fərqi ondadır ki, coğrafiyada qəbul olunmuş ənənəvi ardıcıllığa riayət olunmaqla regionun və onun ayrı-ayrı ölkələrinin iqtisadi coğrafi səciyyəsi ilə yanaşı siyasi coğrafi səciyyəsi də verilir. Başqa sözlə, oxucu dövlət barədə iqtisadi-coğrafi məlumat əldə etməklə yanaşı, həmin dövlətin qısa tarixi, müasir idarəolunma sistemi, yürütdüyü xarici siyasət, iştirak etdiyi regional təşkilatlar və Azərbaycan Respublikası ilə münasibətlərindən də konkret məlumat əldə edə bilər.

Dərslikdən coğrafiya, tarix, beynəlxalq münasibətlər, regionşünaslıq və diplomatiya sahəsində ixtisaslaşan bakalavr və magistr pilləsinin tələbələri istifadə edə bilər. Regionşünaslıqla maraqlanan geniş oxucu kütləsi üçün də bu kitab faydalı sayılır.

$$S\frac{1805010000-13}{M-658(07)-019}-019-2008$$

*© «Bakı Universiteti» nəşriyyatı, 2008*

## Müəlliflərdən

Yaşadığımız keşməkeşli dünyanın çox əlverişli geosiyasi və hərbi strateji mövqeyində yerləşən Yaxın və Orta Şərq regionu XX əsrin əvvəllərindən, yəni böyük ehtiyatları olan neft yataqlarının kəşfindən sonra beynəlxalq aləmin siyasi və iqtisadi həyatında mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.

Üç qitənin «yol ayrıcında» qərarlaşmış qədim tarix və sivilizasiyaya malik olan bu region həmişə Qərb dövlətlərinin maraq dairəsində olmuş və indi də olmaqdadır. Kimi bu dövlətlərin əlverişli coğrafi və hərbi strateji mövqeyinə görə, kimi sərvətlərinin bolluğuna, kimi dünyəvi dinlərin (buddizm istisna olmaqla) yarandığı məkan olmağına görə, kimi bu regiondan keçən beynəlxalq kommunikasiya sistemlərinə görə bu regiondan pay umur.

Azərbaycan xalqını bu region ilə bağlayan cəhətlər də az deyil. Ümumi və oxşar tarixi keçmiş, mənəvi, dini və adət-ənənə yaxınlığı hələ qədimdən azərbaycanlıları bu regionu tədqiq etməyə sövq etmişdir. Məşhur səyyah və mütəfəkkirlərimizin region ölkələrinə etdiyi səfərlər, gördüklərini və eşitdiklərini qələmə almaları indi də öz əhəmiyyətini itirməmişdir.

Regionu tədqiq edən mütəxəssisələrin ümumi fikri belədir ki, o dünyanın çox təzadlı bir məkanıdır. Siyasətşünaslar onu hər an «partlamaq» təhlükəsi olan «barıt çəlləyi»nə bənzədirlər (bu günlərdə bu oxşarlıq özünü qabarıq şəkildə büruzə verir). İqtisadçılar onu «dünyanın neft anbarlarına bənzədirlər», o da qeyd olunmalıdır ki, region ölkələri təbii sərvətlərin bolluğuna, sosial-iqtisadi və mədəni infrastrukturuna, siyasi idarəetmə qurluşuna görə bir-birindən çox fərqlənir. Burada Bəhreyn, Qətər və Kipr kimi kiçik dövlətlərlə yanaşı Səudiyyə Ərəbistanı, Misir, İran və Türkiyə kimi böyük əraziyə malik dövlətlər də mövcuddur. Ölkələr dövlət quruluşuna görə bir-birindən kəskin fərqlənirlər. Mütləq və konstitusiyalı monarxiyalar, demokratik respublikalar ilə yanaşı, İslam respublikaları, sultanlıq və əmirliklər eyni məkandadırlar.

Neft çıxaran dövlətlərlə yanaşı, İsrail, Turkiyə və Kiprdə adambaşına düşən milli gəlir inkişaf etmiş ölkələrdə adambaşına düşən milli gəlirə yaxınlaşsa da, Əfqanıstan, Yəmən onlarla müqayisədə sox geridədir. Bundan başqa regiondaxili əlaqələr konstruktiv əməkdaşlığa deyil, qarşılıqlı ittihamlara və barışmaz



mövqelərə meyillidir.

Azərbaycan Respublikasında Yaxın və Orta Şərq digər xarici regionlarla müqayisədə yaxşı tədqiq olunmuşdur. Bu sahədə dilçilərin, ədəbiyyatçıların və tarixçilərin rolu danılmazdır. Son illərdə region ölkələrinin coğrafi cəhətlərinin öyrənilməsinə də diqqət artırılmışdır. Amma indiyə qədər coğrafi baxımdan regionun bütöv şəkildə kitabı işıq üzü görməyib. Biz bu çətin işi öz üzərimizə götürməyi qərara aldıq. Buna səbəb olan amillər isə o idi ki, birimiz regionun bir ölkəsi ilə əlaqədar namizədlik dissertasiyasını yerinə yetirmiş, digərimiz uzun illər regionun bir ölkəsində dərs demişdik. Bundan əlavə hər ikimiz region ölkələrinin coğrafiyasına dair ilk tədris proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin müəllifləri olmuşuq.

Üç hissədən ibarət olan dərslik xarici ölkələrdə və ölkəmizdə nəşr olunan ən yeni məlumatlar əsasında yazılmışdır. Birinci hissədə region barədə ümumi coğrafi məlumat öz əksini tapmışdır. İkinci hissə Yaxın Şərq, üçüncü hissə isə Orta Şərq ölkələrəinə həsr olunmuşdur. Kitabın sonunda region dövlətləri barədə bəzi sosial-iqtisadi göstəricilərini əks etdirən xüsusi cədvəllər verilmişdir.

Müəlliflər Respublika Xarici İşlər Nazirliyinin müşavirləri tərəfindən tərtib olunmuş «Neydər Əliyev və Şərq» adlı altı cildlik kitabından (Bakı, 2003-2005), BMT-nin İnsan İnkişafının Proqramı (PROON), insan potensialının inkişafına dair nəşr etdirdiyi xüsusi statistik məlumatlardan, ABŞ-da nəşr olunan «The World Almanac» məcmuəsindən, Ə.Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» (Bakı, 2005), eləcə də müəlliflərin regionun ayrı-ayrı dövlətlərinə dair nəşr etdikləri dərslik, monoqrafiya və elmi məqalələrindən, internet saytları və digər köməkçi mənbələrdən faydalanmışdır.

Dövri nəşr olunan jurnallardan «Мировая Економика и Международное Отношение», «Эхо планеты», «Азии и Африка сегодня», «Dirçəliş-XXI əsr», regiona və ölkələrə dair verilən məlumatlardan istifadə edilmişdir.

Dərsliyə dair qeyd və təkliflərinizi Bakı Dövlət Universitetinin «Xarici ölkələrin siyasi iqtisadi coğrafiyası və turizm» kafedrasına göndərən həmkarlarımıza qabaqcadan təşəkkürümüzü bildiririk.

# I HİSSƏ

# YAXIN VƏ ORTA ŞƏRQ REGİONU BARƏDƏ ÜMUMİ MƏLUMAT

## 1.1. Regionun geosiyasi mövqeyi və təbiəti

Asiyanın qərbində yerləşmiş Yaxın və Orta Şərq regionuna Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Əfqanıstan, Ürdün, İraq, İran, İsrail, Yəmən, Kipr, Küveyt, Livan, Misir, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Türkiyə və hələ müstəqil dövlət kimi tam formalaşmamış Fələstin daxildir. İran və Əfqanıstan Orta Şərqə, digər dövlətlər isə Yaxın Şərqə aid edilir. Regional bölgü, həmçinin regionun adı şərtidir və müxtəlif müəlliflər tərəfindən müxtəlif şəkildə dəyişdirilir*.

Geosiyasi, mədəni və coğrafi termin olan Yaxın və Orta Şərq ingilis dilində də bu anlayışı ilk dəfə ABŞ dəniz donanmasının admiralı olmuş, politoloq Alfred Mehen (1840-1914) tərəfindən işlədilmişdir. On səkkiz dövlətin (o cümlədən, 13 ərəb dövlətinin) daxil olduğu Yaxın və Orta Şərq regionunun ərazisi 7,3 mln. kv.km, əhalisi 350,0 mln. nəfərdir (əlavə 1).

Yaxın və Orta Şərqin dünya mədəniyyəti, siyasəti və iqtisadiyyatında mühüm rol oynaması onun geosiyasi mövqeyinin üstünlüyü, maye yanacağı sərvətlərilə zəngin olması ilə izah olunur.

**Regionun geosiyasi mövqeyi.** Yaxın və Orta Şərq regionu üç qitə – Asiya, Avropa, Afrika və iki okean hövzəsinin qovşağında yerləşir. Enlik istiqamətində 4400 km (Pamir dağlarından Aralıq dənizindəki İmroz adasınadək), meridian boyu 3300 km (Qara dənizdəki Sinop burnundan Bab-əl-Məndəb boğazınadək) məsafədə

---

* Bəzi mənbələrə görə Yaxın və Orta Şərq regionu Misir və Sudan istisna edilməklə Cənub – Qərbi Asiya; Kipr, Misir, Sudan istisna edilməklə Ön Asiya; Levant (bura Yaxın Şərq dövlətləri və bəzi hallarda Balkan yarımadasının cənubu aid edilir) adlandırılır.

Misirdən Şərqə doğru ərəblərin yaşadıqları ölkələr – Bəhreyn, BƏƏ, Qətər, Ürdün, İraq, Yəmən, Küveyt, Livan, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Fələstin Məşriq dövlətləridir.



uzanır. Yaxın və Orta Şərq regionunun Aralıq, Xəzər, Qara və Qırmızı dənizlərə çıxışı vardır. Bu isə bir tərəfdən onun Cənubi Qafqaz bölgəsinə, Rusiyanın daxili rayonlarına təsirinin artmasına imkan yaradır, digər tərəfdən regionu Rusiyanın geosiyasi marağının «hədəfinə» çevirir.

Mesopotamiya ilə Misir arasında quru tranzit keçid əlverişli coğrafi mövqeyə malik olan sahədir. Bu sahə Anadolu yaylası və Fərat çayının orta axınından Sinayadək uzanan dağlararası dərələr və dağ ətəklərini əhatə edir. Üç qitə arasındakı regionun vasitəçilik rolu «Bərəkətli Aypara» adlanan bu sahədə daha qabarıq nəzərə çarpır. Dünyanın qədim vasitəçilik – ticarət mədəniyyəti (Finikiya) məhz burada meydana gəlmişdir. Finikiyalıların ticarət-vasitəçilik və sələmçilik fəaliyyətindəki məharətini sonralar Fələstində məskunlaşmış yəhudilər, levantlılar əxs etmişlər. Coğrafi mövqeyin əlverişliliyi səbəbindən baş verən müharibələr bu bölgənin sakinlərini dünyanın digər regionlarına «dərbədər» etmiş, iki əsas qüvvə – yəhudi və ərəb diasporu yaranmışdır.

**Region təbiətinin xüsusiyyətləri.** Təbii landşaftın müxtəlifliyinə görə Yaxın və Orta Şərq regionu bir neçə hissədən ibarətdir. Təbii rayon əmələ gətirən areallar – Nil vadisi, Dəclə və Fərat çaylararası* allüvial düzənliyidir. Bu iki massiv qədim suvarma əkinçiliyinin mövcud olduğu sivilizasiya mərkəzləridir. Hər iki massiv nisbətən çətin keçilən təbii maneələrlə əhatələnir. Mesopotamiya şimaldan və şərqdən Anadolu və İran yaylalarının çıxıntıları ilə əhatə olunmuşdur. Nil vadisini Məğrib** bölgəsindən məskunlaşmamış Liviya səhrası ayırır. Nil vadisi və Mesopotamiya arasında birbaşa əlaqələrin yaranmasına maneçilik törədən səthi qızmar günəşdən qarsalanmış Ərəbistan səhraları yerləşir. Nil vadisi və Mesopotamiya yalnız şimalda qədimdən becərilən və nisbətən əhalisi sıx olan nalabənzər zolaqla birləşir. Bu zolaq Bərəkətli Aypara adlanır.

Bərəkətli Aypara, Anadolu yaylası və Fərat çayının orta axınından Sinay yarımadasınadək uzanan dağlararası dərələr və dağ yamaclarını əhatə edir.

---

* **Çaylararası** düzənlik Mesopotamiya adı ilə də məlumdur. Mesopotamiya yunan sözüdür. «Mezos» - orta, mərkəz «potamos» - çay deməkdir.

** **Məğrib** (ərəbcə günbatan) qərb mənasını bildirir. Məğrib ölkələrinə Mərakeş, Əlcəzair, Tunis, Mavritaniya, Qərbi Səhra və bəzən Liviya aid edilir.

Yaxın və Orta Şərq regionu təbiətinin mühüm xüsusiyyəti səhra (Rub-əl-Xali, Böyük Nəfud, Kiçik Nəfud, Dəşt-e Kəvir, Dəşt-e Lut, Dəşt-e Naümid, Dəşt-e Mərğ və b.) landşaftının üstünlüyüdür. Landşaftın yeksənəqliyi əhalinin məskunlaşması və təsərrüfatın formalaşmasına təsir etmişdir. Şəhər həyatı hələ qədimdən sahil boyu bölgələrdə, xüsusilə qərbdə cəmlənmişdir. Cənubda isə rütubətlə nisbətən yaxşı təmin olunan Yəməndə əhali sıxdır. Köçəri və yarımköçəri heyvandarlıq, suvarma əkinçiliyi region ölkələri əhalisinin tarixən ənənəvi məşğuliyyət sahələri olmuşdur.

**Faydalı qazıntıları.** Yaxın və Orta Şərq neft və təbii qazla zəngindir. Regionda aşkar olunmuş neft ehtiyatı 100 mlrd. tondur. Dünya neft ehtiyatının (156,7 mlrd. ton) 64 faizi, neft istehsalatının (3,1 mlrd. ton) 29,6 faizi Yaxın və Orta Şərq regionunun payına düşür. Regionda 500 mln. ton neft çıxarılmışdır. Region daxilində İran körfəzi neft-qaz hövzəsi, xüsusilə seçilir (cədvəl 1).

**Cədvəl 1**

**İran körfəzi hövzəsinin nəhəng və nadir neft yataqları* (2005-ci il)**

| Yataqlar | Ölkə | İlkin ehtiyat mlrd. ton | Yataqlar | Ölkə | İlkin ehtiyat mlrd. ton |
|---|---|---|---|---|---|
| Havar | S.Ərəbistanı | 11,9 | Bibi – Hakimə | İran | 1,1 |
| Ağa–Cari | İran | 10,0 | Zubayr | İran | 1,0 |
| Böyük Bürhan | Küveyt | 9,3 | Dəmmam | S.Ərəbistanı | 0,8 |
| Səfaniyə | S.Ərəbistanı | 3,5 | Berri | S.Ərəbistanı | 0,8 |
| Kərkük | İraq | 3,0 | Husaniyə | S.Ərəbistanı | 0,8 |
| Rumeyla | İraq | 2,8 | Abu – Hədriyə | S.Ərəbistanı | 0,8 |
| Raudatayn | Küveyt | 2,0 | Vəfra | Küveyt | 0,7 |
| Abkayk | S.Ərəbistanı | 1,6 | Murban | BƏƏ | 0,6 |
| Qoçsaran | İran | 1,5 | Duhan | Qətər | 0,6 |
| Marun | İran | 1,4 | Məscide – Soleyman | İran | 0,5 |
| Fereydun– | İran, | 1,3 | Bu – Həza | BƏƏ | 0,5 |
| Mərcan | S.Ərəbistanı | | | | |
| Əhvaz | İran | 1,2 | | | |
| Katif | S.Ərəbistanı | 1,2 | | | |

* Neft geologiyası sahəsindəki mütəxəssislər ehtiyatı 500-1000 mln. ton olan yataqları nəhəng, 1 mlrd. tondan artıq olanları nadir yataqlar adlandırır.



XX əsrin 70-ci illərinədək region dövlətlərində neft istehsalına Qərb dövlətlərinin iri şirkətləri nəzarət edirdi. 1973-cü ildə neft çıxaran dövlətlər OPEK* çərçivəsi daxilində fəaliyyət göstərərək beynəlxalq şirkətlər mübarizədə öz maraqlarını qorumaq məqsədilə neftin qiymətini bir neçə dəfə qaldırır.

Satılan neftə qiymət qoyulması, neft satışından gəlirin yüksəldilməsi sahəsində neft ixrac edən ölkələrin marağının birgə müdafiəsinə qulluq edən OPEK ölkələri arasında narazılıqlar da olur. Ötən əsrin 80-ci illərində üzv dövlətlərdən İraq, Küveyt, BƏƏ arasında baş verən narazılıq gərginləşərək 1990-cı ildə «Səhrada fırtına» əməliyyatınadək böyüyür. İraq OPEK üzvü olan qonşu dövlətləri neftin satışında bu təşkilat tərəfindən təyin edilmiş həddi qaldırdıqları və nefti aşağı qiymətə satdıqları üçün təqsirləndirir. İqtisadiyyatını «neft dolları» hesabına dirçəltmək istəyən İraq üçün bu sərfəli deyildi. Digər tərəfdən Küveyt gizli yolla İraqın Rumeyla yatağından neft çıxarmaqda günahlandırılır. Nəticədə 1990-cı il avqustun 1-də İraq Küveyti işğal edir. Ölkənin 7 ay müddətində işğalı dünya bazarında neftin qiymətinin dəyişilməsinə səbəb olur. İraq ordusu Küveytə soxulmazdan əvvəl neftin 1 tonu 130-140 dolar, Küveyt işğal edildikdə 220, daha sonra 250-280 dollar təşkil edirdi. «Səhrada fırtına» əməliyyatına başlanılması ilə bu, 220 dollara, qələbədən sonra 130-140 dollara enmişdi. Qeyd edək ki, 2007-ci ildə neftin qiyməti çox qeyri-stabil olmuşdur.

Yaxın Şərqdə neft çıxaran xarici şirkətlər üzərində milli nəzarətin yaradılması region xalqlarının həyatında mühüm tarixi hadisə kimi qiymətləndirilə bilər. Nəticədə İraq hökuməti ölkədə neft çıxarılması, emalı və ixracını tam milliləşdirdi, Səudiyyə Ərəbistanı, Küveyt, Qətər, BƏƏ, Oman, Bəhreyn xarici neft şirkətlərinin ölkədəki fəaliyyətini xeyli zəiflətdi. Yaxın və Orta Şərqdə təbii qaz

* **OPEK** – 1960-cı ildə İraq, İran, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuelanın təşəbbüsü ilə neft ixrac edən dövlətlərin maraqlarının birgə müdafiəsi məqsədilə yaradılmışdır. Sonralar təşkilata Əlcəzair, Qabon, İndoneziya, Liviya, Nigeriya, Ekvador, BƏƏ, Qətər daxil olmuşdur. İqamətgahı Vyana (Avstriya) şəhərindədir.

ehtiyatı (71,7 trilyon kub m.) da çoxdur. Dünya qaz ehtiyatının (175,8 trilyon kub m.) 40,8, istehsalının 9,8 faizi bu regionun payına düşür.

Yaxın və Orta Şərqdə xromit, dəmir filizi, mis, qurğuşun, manqan, sink, molibden, sürmə, boksit, təbii kükürd, kalium və xörək duzu, tikinti materialları yataqları aşkar edilmişdir. Bu faydalı sərvətlərin bəzilərinə görə region dövlətləri dünya bazarında mühüm yer tutur. Məsələn, Türkiyə xromit ehtiyatlarına görə dünyada dördüncü (Zimbabve, CAR, Filippindən sonra) yerdədir. İsrail və Ürdün kalium duzu ehtiyatı ilə zəngindir. İraq və Suriyada zəngin fosforit yataqları vardır.

Yaxın və Orta Şərq regionu aqroiqlim sərvətlərilə də zəngindir. Təbiət buraya bol istilik və günəş işığı, regionun əksər dövlətləri üçün həyati əhəmiyyətə malik olan zəngin yeraltı su sərvəti bəxş etmişdir.

Region dövlətləri tropik və subtropik qurşaqda yerləşir. Ərazisinin genişliyi, relyefin müxtəlifliyi, hava kütlələrinin sirkulyasiyası regionda istilik və rütubətin kəskin fərqinə səbəb olmuşdur. Türkiyənin Aralıq və Egey dənizləri sahillərində isti yayı, yağmurlu qışı ilə səciyyələnən Aralıq dənizi iqlimi regionun qərbi və cənubu istiqamətində quru tropik iqlimlə əvəz olunur. Yalnız Ərəbistan yarımadasının ucqar cənub-qərbi musson küləklərinin təsirinə məruz qaldığından nisbətən çox rütubət alır. Regionda və həmçinin ayrı-ayrı ölkələrdə yağıntı və temperatur fərqi mövcuddur. Məsələn, İranın şimalına Xəzər dənizi sahillərinə il ərzində 2000 mm yağıntı düşdüyü halda, ölkənin səhra rayonlarına illərlə yağıntı düşmür.

Türkiyənin mərkəzi əyalətlərində yanvarın orta temperaturu 0°C, iyulunku 23°C təşkil edir. Ərəbistan yarımadasının düzən sahil əyalətlərində, Aralıq dənizi sahillərində mülayim qış temperaturu hakimdir: Səudiyyə Ərəbistanının qərb hissəsində - Ciddədə yanvarın orta temperaturu 24°C, iyulunku isə 31°C-dir. Ərəbistan yarımadası, İran, İraq və Misirin daxili əyalətlərində yayda çox yüksək temperatur ( 45°C-dən artıq ) mövcud olur.

İqlim şəraiti kənd təsərrüfatının yerləşdirilməsinə, əkinə yararlı sahələrdən səmərəli istifadə olunmasına, aqrar istehsalın sahəvi strukturuna təsir göstərir. Bu baxımdan mülayim qurşaq bölgələrindən fərqli olaraq Yaxın və Orta Şərq termik sərvətlərlə yaxşı



təmin olunduğundan eyni ərazidən il ərzində 2-3 dəfə məhsul götürmək imkanlarına malikdir. Aqroiqlim amillərdən ərazinin rütubətlə yaxşı təmin olunmaması mühüm xüsusiyyətlərdəndir. Türkiyənin sahillərinə, Levant ölkələrinə yağıntı ilin əsasən qış fəslində düşür. Lakin qışın isti keçməsi bu ərazilərdə həm taxıl, həm də tropik bitkiləri (şəkər qamışı, xurma və b.) becərilməsinə imkan verir.

Regionun müasir iqlim şəraiti onun ərazisinin xeyli hissəsini əhatə edən səhra və yarımsəhralarda çay şəbəkəsinin inkişafı üçün yararsızdır. Lakin burada uzunluğu 100 km-lə olan quru çay dərələri – uedlər(vadi) vardır ki, bunlar güclü yağışlardan sonra belə suyunu hövzəyə çatdıra bilməyib, səhranın qumları arasında itib-batır. Yaxın və Orta Şərq ölkələri yerüstü axınlarla zəngin olmasalar da, Nil, Dəclə, Fərat, Araz, Səfidrud, Harun regionun mühüm çayları hesab edilir.

İsrailin şimalında İordan çayı ilə qidalanan Qaliley dənizi (Tiberiad gölü) ölkədə yeganə şirin su mənbəyidir. Yerüstü axından məhrum olan ərazilər yeraltı sularla zəngindir. Dağətəyi rayonlarda yeraltı sular Yaxın və Orta Şərq regionunda ənənəvi sayılan kanallarla (kəhrizlərlə) səthə çıxarılır. Yeraltı suların dərin quyular qazaraq səthə çıxarıldığı ərazilər də çoxdur. Uedlər və yeraltı suların səthə çıxdığı səhralarda vahələr (oazis) mövcuddur.

Su ehtiyatlarının məhdud olması, içməli su qıtlığı, suvarma və su enerji mənbələrinin kasadlığı regionun bir sıra ölkələrində daha kəskindir. İçməli su problemi Küveyt, BƏƏ, Səudiyyə Ərəbistanında təmizləyici qurğular tikilməklə həll edilsə də, region dövlətlərinin böyük əksəriyyəti bu problemin həlli yollarını hələ də axtarır.

Regiondakı siyasi münaqişələr su sərvətləri üzərində nəzarətdən də kənarda qalmamışdır. 1967-ci ildə İsrail İordan çayının Qərb sahilini və 1982-ci ildə Livanın cənubunu zəbt etdikdən sonra İordan çayının yuxarı axını, Qaliley dənizi, Litani və Baniyas çaylarına nəzarəti də ələ keçirir. Digər tərəfdən İsrail hökuməti buraya köçmüş yahudilərə Qərb sahildə yeni su quyuları qazımağa icazə verdiyi halda, bunu fələstinlilərə qadağa edirdi. Ərəblər və yəhudilər arasında hər hansı bir sülh müqaviləsi su təchizatına nəzarət problemi ilə də üzləşir.

Fərat çayından istifadə olunmasında da mübahisəli məsələlər vardır. Türkiyə, Suriya və İraq ərazisindən axan Fərat çayından bu 3

ölkə irriqasiya və enerji məqsədləri üçün istifadə edir. 1984-cü ildə su təsərrüfatının inkişafı layihəsinin həyata keçirilməsi məqsədilə Türkiyə tərəfindən Fərat üzərində 2 bənd inşa edildi. Bu, Suriya ərazisində axının azalmasına səbəb oldu. Suriyada bəndin tikilməsi isə öz növbəsində İraqın su təchizatında «əngəlliklər» yaratdı, bu ilk növbədə ölkənin kənd təsərrüfatına mənfi təsir göstərdi və 1975-ci ildə İraq və Suriya arasında kəskin münaqişəyə səbəb oldu.

### 1.2. Regionun qısa tarixi və çağdaş siyasi problemləri

Yaxın və Orta Şərq dünyanın qədim mədəniyyət ocaqlarından biridir. Hələ eramızdan əvvəl IX-VIII minilliklərdə Fələstində heyvandarlıq və əkinçiliklə məşğul olmağa başlamışlar. Mesopotamiya, İran və Misirdə IV-III minilliklərdə suvarma sistemləri yaradılmışıdr. Kiçik Asiya, Şimali Mesopotamiya və regionun digər rayonlarında qədim metallurgiya ocaqları aşkar edilmişdir. Eramızdan əvvəl IV-I minilliklərdə Yaxın və Orta Şərqdə quldarlıq dövlətləri yaranır: Mesopotamiyada qədim Babil çarlığı, Qərbi İranda Elam, Kiçik Asiyada Hett, Misirdə Nom, Aşağı və Yuxarı Misir padşahlıqları, Levantda finikiyalıların şəhər-dövlətləri, Ərəbistanın cənub-qərbində Main, Səba, Ermənistan yaylasında Urartu dövlətləri və b.

Yaxın və Orta Şərq dövlətləri orta yüzilliklərin mədəni həyatında mühüm rol oynamışlar. Belə ki, Ərəb Xilafətininin yaranması ilə elm, texnika, incəsənət inkişaf etmiş, Avropa xalqları ərəb, İslam mədəniyyətinin təsirinə məruz qalmışdır. Uzun müddət sivilizasiyanın dayağı kimi inkişaf edən Yaxın və Orta Şərq ölkələri orta yüzilliklərin sonunda zəifləməyə başlayır. Buna səbəb bir tərəfdən köçəri tayfalarının dağıdıcı hücumları, digər tərəfdən Qərb dövlətlərinin təcavüzkar siyasəti idi ki, bunun da nəticəsində region dövlətləri müstəmləkə və yarımmüstəmləkələrə çevrilmişlər.

Osmanlı-Türk imperiyasının yaranması nəticəsində Aralıq dənizinin şərqində «hərbi-siyasi sədd» formalaşır. Avropa və Asiya arasında yeni yolun kəşfi Məşriq dövlətlərini dünya iqtisadi magistral əlaqələrdən kənarda qoyur.

XIX yüzillikdə Qərbdəki texniki tərəqqi Osmanlı – Türk imperiyasının zəifləməsinə səbəb olur və imperiya Avropanın



qüdrətli ölkələrindən asılı vəziyyətə düşür. Avropa dövlətləri «Yaxın Şərq səddini» həm siyasi, həm də təbii-coğrafi cəhətdən keçməyə nail olur. Aralıq dənizinin şərqində yerləşmiş Yaxın və Orta Şərq çıxılmaz vəziyyətdə çox qala bilməzdi. XIX yüzilliyin ortalarında Fransa diplomatı mühəndis Ferdinand Lesseps Misir və Türkiyə hökumətlərindən Aralıq dənizini Qırmızı dənizlə birləşdirəcək kanalın tikintisi üçün imtiyaz alır. On ildən artıq davam edən tikinti 1869-cu ildə başa çatır və həmin ilin 17 noyabr tarixində gəmiçilik üçün açılır.

Kanalın açılması ilə həm də dünya yəhudilərinin Fələstinə qayıtması hərəkatı güclənir. 1948-ci ildə İsrail dövlətinin yaranması regionda siyasi vəziyyəti gərginləşdirdiyindən Yaxın və Orta Şərq dünya dövlətlərinin bu regionu zəbt etməsi üçün daimi geosiyasi yarış meydanına çevrilir.

Münaqişələrin «sıxlığına» görə Yaxın və Orta Şərq dünyada yeganə regiondur və təsadufi deyil ki, onu həmişə partlamağa hazır olan «barıt çəlləyinə» bənzədirlər. Münaqişələrin ucbatından region dövlətləri əlverişli coğrafi mövqelərindən, gəlir imkanlarından lazımi səviyyədə istifadə edə bilmir.

**Fələstin problemi yeni mərhələdə.** Yaxın Şərqdə Fələstin Mandatlığı ərazisində Ərəb və Yəhudi dövlətinin yaradılması BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarı ilə qanuniləşdirilir.1948-ci il mayın 15-də Fələstin torpağının bir hissəsində İsrail dövləti yaranır.

Fələstin ərəbləri BMT Baş Məclisinin bu qərarını qəbul etmir. Fələstin xalqı azadlığı uğrunda 50 ildən artıq müddətdə İsrail təcavüzünə qarşı siyasi və silahlı mübarizə aparır. Nəhayət, 1988-ci il noyabrın 15-də Əlcəzair şəhərində Fələstin Milli Şurasının 19-cu sessiyasında qəbul edilmiş siyasi bəyannamədə Fələstin dövlətinin yaradılması elan edilir. O cümlədən, Qüdsün (Yerusəlimin) şərq hissəsi daxil olmaqla 1967-ci ildə işğal olunmuş bütün fələstin və ərəb torpaqlarını İsrailin tərk etməsi, o müddətdə İsrail tərəfindən salınmış yaşayış məskənlərinin dağıdılması tələbi irəli sürülür. Beləliklə, fələstinliləriin yaratmağa çalışdıqları dövlətin coğrafi sərhədləri İordan çayının Qərb sahili (sahəsi 5879 kv.km), Qəzza bölməsi (sahəsi 378 kv.km), həmçinin paytaxt – Şərqi Qüdsü əhatə edir. Həmin vaxt bu ərazilərdə 2,8 milyon fələstinli ərəb (İordan çayının Qərb sahilində – 1,5 mln.-dan artıq, Qəzza bölməsində – 1

mln., Şərqi Qüdsdə – 240 min nəfər) və 100 min İsrail mühaciri yaşayırdı.

1991-ci ildə Fələstin Azadlıq Təşkilatının (FAT) rəhbərliyi Yaxın Şərq problemi üzrə Madriddə keçirilmiş konfransda Qərb sahildə və Qəzza bölməsində fələstinlilərin yaşamasına icazə verildiyini bəyan edir.

1993-cü ilin sentyabrında Vaşinqtonda Yaxın Şərq sülh prosesləri çərçivəsi daxilində İsrail dövləti və Fələstin Azadlıq Təşkilatı arasında İordan çayının Qərb sahili və Qəzza bölməsində keçid dövrü müddətində Fələstin üçün müvəqqəti özünüidarəni nəzərdə tutan bəyannamə imzalanır. Keçid dövrünün 1999-cu ildə başa çatdırılması və bu müddət ərzində danışıqlar yolu ilə Fələstin ərazisinə tam siyasi status verilməsi göstərilirdi. 1994-cü il may Bəyannaməsinə müvafiq olaraq fələstinlilərin Qəzza bölməsi və İerixon rayonunda özünüidarə hüququ, 1995-ci ilin sentyabrında İordan çayının Qərb sahilində fələstinlilərin muxtariyyat hüquqlarının genişləndirilməsi və fələstin torpaqlarında demokratik seçkilər aparılması haqda müqavilə imzalanır.

1996-cı il yanvarın 20-də aparılmış seçkilərdə 88 nəfərdən ibarət Fələstin qanunverici şurası (Fələstin Muxtariyyat Şurası) seçilir. Bu orqan Fələstinin nəzarəti altında olan rayonlarda müəyyən qanunvericilik səlahiyyətlərinə malik idi. Fələstin milli muxtariyyətinin başçısı vəzifəsinə Y.Ərəfat seçilir.

1998-ci il noyabr ayında Uay-Planteyşndə (ABŞ) İsrail-Fələstin danışıqları baş verir. İsrail tərəfdən İordan çayının Qərb sahilində 764 kv. km ərazidən (ərazinin 13 faizi) 3 ay müddətində üç mərhələdə qoşunların çıxarılması vəd edilir. Əvəzində Y.Ərəfat burada yaşayan yəhudilərin təhlükəsizliyini təmin etməyi vəd edir. Fələstin ərazisinə tam status verilənədək danışıqlara mane ola biləcək halları qaydaya salmaq nəzərdə tutulur. İsrailin nəzarəti altında olan ərəb torpaqlarında tikinti işlərinin saxlanılması, Fələstin Milli Şurası tərəfindən isə İsrailə qarşı qərarların ləğv edilməsi nəzərdə tutulur. Təəssüflə qeyd etməliyik ki, müqavilənin həyata keçirilməsi İsrail tərəfindən əlavə tələblərin irəli sürülməsi ilə bağlı çətinliklərlə üzləşir.

2007-ci ilin noyabr ayının sonlarına yaxın ABŞ prezidenti C.Buşun təşəbbüsü ilə Birləşmiş Ştatların Anapolis şəhərində İsrail – Fələstin münaqişəsinin çözülməsinə dair Beynəlxaq sülh konfransı



çağrılır. 40-dan artıq dövlətin iştirak etdiyi bu konfransda İsrail ilə Fələstin arasında 60 illik münaqişənin aradan qaldırılması yolları geniş müzakirə olunmuş və belə qərara alınmışdır ki, münaqişənin çözülməsinə dair İsrail və Fələstin rəhbərliyi mövqeləri arasında yaxınlaşma meylləri var.

Konfransın qərarına əsasən İsrail dövlətinin rəhbərliyi ilə Fələstin muxtariyyətinin rəhbərliyi arasında bu problemin həlli üçün 2008-ci ilin sonlarına qədər danışıqlar aparılmalıdır ki, problem hər iki dövlətin mənafelərinə uyğun olaraq tam həll olunsun.

**Kipr problemi**. Anadolu türklərinin Kiprə miqrasiyası XVI yüzillikdə adanın Osmanlı imperiyası tərəfindən işğalı ilə başlayır. Kiprin müxtəlif rayonlarında xristianlarla əhatə olunmuş müsəlman kəndləri salınır. Kəndlərdə olduğu kimi şəhərlərdə də türklər tərəfindən xüsusi məhəllələr salınır. Yunan dilinin üstünlüyü və gündəlik münasibətlərin mövcudluğu şəraitində icmalar bir-birinə qaynayıb-qarışmır, bunlar arasında mədəni yaxınlıq baş vermir, qarışıq nigaha isə nadir hallarda rast gəlmək olurdu.

Mədəni və sosial cəhətdən icmaların qapalı yaşaması iqtisadiyyata mənfi təsir edirdi. Osmanlı hakimiyyətinin Kiprin provaslav əhalisinə etinasız yanaşması və müsəlman hakimlərin zorakılığı kiprli yunanların narazılığının mənbəyi olur.

1821-ci ildə kiprli yunanların türk qaydalarına qarşı silahlı mübarizəsi Nikosiya və digər şəhərlərdə xristianların kütləvi qırğını ilə yatırılır. Baş keşiş Kiprianos və digər din xadimləri edam edilir.

1878-ci ildə Kiprə ingilislərin daxil olması ilə etnik-siyasi vəziyyət dəyişir. Kiprli türklər hakim mövqelərini itirir, sayca onlardan çox (əhalinin təqribən 80 faizi) və iqtisadi cəhətdən güclü olan yunan icması ilə müqayisədə azlıq təşkil edən xalqa çevrilir.

İcmalar arasındakı ziddiyyət onların birləşərək Böyük Britaniyaya qarşı mübarizəyə qalxmasına mane olurdu. Hər iki icmanın birləşməsinə mane olan səbəblərdən biri də yunanların yaşadıqları ərazilərin, o cümlədən, Kiprin Yunanıstana birləşdirilməsi (enozis) şüarı oldu. Bu isə kiprli türklərin narahatlığına və onların Böyük Britaniya hökumətinə yaxınlaşmasına səbəb olur.

Kiprin statusunun gec-tez dəyişməsini başa düşən ingilislər adada hərbi mövqelərini itirməmək məqsədilə enozis planını qəbul etmir. Bu məqsədlə Türkiyə Böyük Britaniya ilə müttəfiq olaraq 1955-ci ildə rəsmən bildirir ki, Anadolu sahillərindən 60 km aralıqda

yerləşmiş Kiprin Yunanıstana birləşdirilməsi Türkiyə dövlətinin təhlükəsizliyi baxımından yol verilməzdir.

Əgər iki dünya müharibəsi arasındakı dövrdə kiprli türk liderləri enozis şüarına cavab olaraq adada ingilis hakimiyyətinin saxlanılması və ya onun Türkiyəyə qaytarılmasını tələb edirdilərsə, İkinci Dünya müharibəsindən sonra onlar adanın bölüşdürülərək (taksim) Türkiyə və Yunanıstana birləşdirilməsini irəli sürürlər. Bu ideya Türkiyə hökuməti tərəfindən də müdafiə olunurdu. Yunanıstan hökuməti və kiprli yunanlar taksim planını rədd etdilər. Ona görə də türklər ingilislər tərəfindən onların (türklərin) marağının qorunması şərtilə adaya müstəqillik verilməsi ideyasını xoş qarşılayırlar.

1959-cu ildə Böyük Britaniya, Türkiyə və Yunanıstan arasındakı Kiprin gələcək statusu haqda saziş imzalanır. Sürix-London müqaviləsinə əsasən adada vahid müstəqil Kipr dövlətinin yaradılması qərara alınır. Böyük Britaniya, Türkiyə və Yunanıstan Kiprin müstəqilliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə zəmanət verir. Yunanıstan və Türkiyə adada ordu saxlamaq, Böyük Britaniya isə Dekeliya və Akrotiri hərbi bazalarının yerləşdiyi 150 kv. km ərazini suverenliyi altında saxlamaq hüququ qazanır.

Əfsuslar olsun ki, 1959-cu ildə imzalanmış müqavilə adanın vahidliyini təmin edə bilmir və onu etnik münaqişə ocağına çevirir. 1974-cü il iyunun 15-də Kiprin mürtəce qüvvələri Afina hərbi xuntasına arxalanaraq adanın Yunanıstana birləşdirilməsi cəhdilə dövlət çevrilişi həyata keçirir. Çevrilişdən sonra adada vəziyyət gərginləşir. Kiprdə yaşayan türklərin hüquqlarını qorumaq və onları müdafiə etmək məqsədilə Türkiyə dövləti adaya ordu çıxarır və onun 37 faizini zəbt edir.

Yunanıstan və Türkiyə arasında ziddiyyət yaranır. NATO çərçivəsi daxilində Yunanıstan – Türkiyə arasında Cenevrə danışıqları baş tutmur. Türkiyə adada hərbi fəaliyyətini genişləndirir. 1974-cü il avqustun 16-da türk ordusu özünümüdafiə qüvvələri ilə birgə ötən əsrin 60-cı illərində nəzərdə tutulan bölgü xəttinə çatır. Münaqişə zamanı adanın şimalından cənubuna 200 yunan, cənubundan şimala 40 min türk köçməyə məcbur olur.

1975-ci ilin fevralında kiprli türklər nəzarətləri altında olan ərazidə birtərəfli qaydada Kipr Federativ Türk Respublikasının (KFTR) yaradılmasını elan edir. Qanunverici məclis və hökumətin yaradılması elan olunur, konstitusiya qəbul edilir. Şimalda yaşayan



yunanlar xarici vətəndaş sayılır. Mülkləri müsadirə edilir. Yunan mənşəli adlar (şəhər, küçə, kənd) dəyişdirilir, o cümlədən, Nikosiyanın türklərə məxsus yaşayış məhəllələri Levkoşa adlandırılır.

Beynəlxalq cəbhədə mövqeyini möhkəmləndirmək və iqtisadiyyatın inkişafı məqsədilə KFTR-nın türk liderləri «İslam həmrəyliyindən» istifadə edir. KFTR İslam Konfransı Təşkilatında müşahidəçi statusu alır. Ötən əsrin 80-ci illərinin əvvəllərində Səudiyyə Ərəbistanının məliki Məhəmməd əl-Feysəl əs Səudun təşəbbüsü ilə KFTR-da İslam Bankı və iqtisadiyyatı Beynəlxalq İnstitutu, Feysəl adına Kipr İslam Bankı açılır. KFTR ilə Pakistan, İran, Ürdün və digər ölkələr arasında münasibətlər yaranır.

1983-cü ilin iyununda KFTR qanunverici orqanı muxtariyyət hüquqları barədə qərar qəbul edir. 1983-cü il noyabrın 15-də Şimali Kıbrıs Türk Cümhuriyyəti dövlətinin (Şimali Kipr Türk Respublikası) elan olunur. NATO dövlətləri tərəfindən dəstəklənmək məqsədilə Şimalda ABŞ hərbi bazasının yerləşdirilməsinə imkan yaradılır. 1986-cı ildə Lefkoşada 500 mln. dollar vəsait sərf edilməklə ABŞ tərəfi təyyarə limanını inşa etdirir. İqtisadiyyatına Türkiyə, ABŞ, Böyük Britaniya, AFR, Danimarka, Səudiyyə Ərəbistanı və digər ölkələr sərmayə qoyur. Bu sərmayə mənzil tikintisi, yollar çəkilməsinə (Levkoş-Girna), liman inşası (Girnada), məscidlərin bərpasına və d. sahələrə sərf edilir*.

Şimali Kıbrıs Türk Cümhuriyyətinin (ŞKTC) prezidenti R.Denkdaşın müxtəlif ölkələrlə iqtisadi və hərbi əməkdaşlığı Kipr probleminin həllini mürəkkəbləşdirir.1986-cı ildə Türkiyə ilə ŞKTC arasında iqtisadi əməkdaşlıq, 1990-cı ildə pasport nəzarətinin ləğv edilməsi və gömrük əlaqələrinin genişləndirilməsi, siyasi və iqtisadi sahədə əməkdaşlıq barədə deklarasiya imzalanmışdır. 1997-ci ilin iyununda Türkiyə və ŞKTC arasında iqtisadi, maliyyə, müdafiə, xarici siyasət və təhlükəsizlik sahələrində inteqrasiya tədbirləri haqda müqavilənin imzalanması isə Kipr probleminin həllini daha da

---

* Türkiyə dövlətinin maliyyə yatırımına baxmayaraq, türk icması çətinliklərlə rastlaşır, sənaye istehsalı və kapital qoyuluşunun həcmi azalır, büdcədə kəsr mövcuddur. Ümumdaxili məhsulun 70 faizi xidmət sahəsi, 7,5 faizi kənd təsərrüfatı, 13,5 faizi sənaye, 5 faizi turizmin payına düşür. Əmək qabiliyyətli əhalinin 10 – 12 faizi işsizdir.

dərinləşdirir.

Azərbaycan Respublikası və ŞKTC arasında münasibətlər yaradılmışdır. Bakıdan Levkoşaya təyyarə xətti açılmış, respublikamızın iş adamları Kiprin türklərin məskunlaşdığı ərazilərdə, kiprli türklər isə Azərbaycanda öz sərmayələri ilə biznes qurmağa başlamışlar. Azərbaycanda turizmin və subtropik meyvəçiliyin inkişafına kiprli türklərin yardımı böyükdür. 2007-ci ilin noyabr ayında Bakıda keçirilmiş Türk dövlətləri və cəmiyyətlərinin növbəti qurultayında kiprli türklərin rəhbəri çıxış edərək rəsmi Bakının onlara göstərdiyi yardımı müsbət qiymətləndirmişdir.

Beynəlxalq ictimaiyyət Kipr probleminin həllinə cəhd göstərmişdir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində adanın bölüşdürülməsinə imkan verməmək, xarici dövlətlərin adada hərbi iştirakına yol verməmək, respublikanın daxili işlərinə qarışmamaq göstərilir.

BMT Baş Katibliyinin vasitəçiliyi ilə türk və yunan icmaları arasında danışıqlar aparılır. Kipr probleminin nizama salınmasının əsas məramını siyasi cəhətdən bərabərhüquqlu iki icmanın daxil olduğu vahid suveren dövlətin yaradılması təşkil edir.

### 1.3. Regionun əhalisi və demoqrafik problemlər

Yaxın və Orta Şərq regionunda 400,0 mln. əhali yaşayır. Demoqrafik göstəricilər regionun bir sıra ölkələrində (Əfqanıstan, bəzi əmirliklər, Yəmən) siyahıyaalma aparılmadığından BMT-nin təxmini məlumatlarına əsaslanır. Yaxın və orta Şərq regionu əhalisinin 60 faizindən çoxu Türkiyə, İran və Misirdə yaşayır.

Antropoloji cəhətdən region əhalisi avropoid irqinin cənub qrupuna aid edilir. Antropoloji və etnik mənsubiyyət bir-birinə uyğun gəlmir. Belə ki, türklər, oturaq həyat keçirən ərəblər, kürdlər, yəhudilərin böyük qismi, Ön Asiya, Əfqanıstanın əksər xalqları Hind-Pamir, İran xalqları birinci qrupdan ikinciyə keçid müşahidə edilir. Aralıq dənizi bölgəsinin antropoloji xüsusiyyətləri qərbi türklər və köçəri ərəblərdə daha parlaq əks olunur. Yaxın və Orta Şərq regionunda monqoloid (həzarələr, türklər və ərəblərin bir qrupu), zənci (Cənubi Ərəbistanda ərəblərin bir qismi) və avstraloid (İran və



Əfqanıstandakı brahuilər) elementlərinin qarışığı var.

Yaxın və Orta Şərq xalqlarının böyük əksəriyyəti sami, iran, türk dil qruplarına aid edilir.

Sami dil qrupuna 13 ərəb dövləti (Bəhreyn, BƏƏ, Qətər, İraq, Ürdün, Yəmən, Küveyt, Livan, Misir, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Fələstin) əhalisinin böyük qismi, həmçinin İsrail, Türkiyə, İranda yaşayan ərəblər aiddir. Geniş xalq kütləsinin işlətdiyi danışıq ərəb dili ilə ədəbi ümumərəb dili arasında mühüm fərq var. Yaxın və Orta Şərqdə ərəb dialektinin 3 – Suriya (Suriya-Fələstin), İraq və Ərəbistan növü mövcuddur. Sami dil qrupuna İranın qərbində, İraq və Suriyanın şimal rayonlarında yaşayan assuriyalılar (aysorlar) aid edilir. Bu qrupa, həmçinin İsrailin dövlət dili sayılan müasirləşdirilmiş qədim yəhudi dili – ivrit aid edilir. Lakin ölkənin yəhudi əhalisinin əksəriyyəti bu dildən az istifadə edir və idiş dilində danışır.

İran qrupu dillərində farslar, puştular, taciklər, kürdlər, bəluclar, lurlar, bəxtiyarilər, həzarələr, digər xalqlar və tayfalar danışır. Farslar və puştular əsasən İran və Əfqanıstanda, taciklər Əfqanıstanın şimal-qərbində, İranın Xorasan əyalətində, kürdlər Türkiyə, İran, İraq, Suriyada, bəluclar İran, Əfqanıstanda, lurlar və bəxtiyarilər İranda, həzarələr Əfqanıstanda yaşayırlar. Fars və tacik (Əfqanıstanda bu farsi-kabuli və ya dəri dili adlandırılır) dilləri bir-birinə yaxındır.

Türk dillərində türk, azərbaycanlı , özbək, türkmən və digər xalqlar və etnik qruplar danışır. Türklər – Türkiyə, Kipr, azərbaycanlılar İran, İraq, özbəklər Əfqanıstanda, türkmənlər İran, Əfqanıstanda yaşayır. Türk dilləri bir-birinə çox yaxındır. Yaxın və Orta Şərq regionunda ədəbi ənənələrə malik türk və Azərbaycan dilləri üstünlük təşkil edir.

Digər dil qruplarından olan xalqlar Kiprdə yaşayan yunanlar, regionun bir sıra ölkələrinə səpələnmiş ermənilərdir. Regionda gürcülər, lazlar, Hindistan, Pakistan və Şərqi Afrikadan olanlar da yaşayır.

Yaxın və Orta Şərq regionu əhalisinin böyük əksəriyyəti (90 %-i) İslam dininə etiqad edir. İslam region ölkələrinin (İsrail və Kipr istisna olmaqla) dövlət dini olmaqla yanaşı, sosial-iqtisadi, siyasi və

mədəni həyatın müxtəlif sahələrinə təsir edə bilmişdir. Yaxın və Orta Şərq müsəlmanlarının əksər hissəsi sünni məshəbinə* aiddir.

İran müsəlmanlarının 90, İraqın 62, yəmənlilərin 50 faizi şiələrdir. İran körfəzi əmirliklərində də şiələr yaşayır. Dünya müsəlmanlarının müqəddəs saydıqları Məkkə və Mədinə Səudiyyə Ərəbistanında, Kərbəla və Ən-Nəcəf İraqda, Məşhəd və Qum şəhərləri İrandadır.

Yaxın və Orta Şərq regionu əhalisinin 4 faizi xristianlardır. Xristianların böyük əksəriyyəti Misirdə yaşayır. Misir xristianları Qibti kilsəsinə aid edilir. İraq, Livan, Suriya, Kiprdə yaşayan xristianlar iki: ortodoksal (erməni, yunan, suriya) və katolik (yunan, maronit və suriya) qruplarına bölünür.

İudaizm region dövlətlərindən yalnız İsraildə hakim dindir. Üç dünyəvi dinin mərkəzi sayılan Yerusəlim (Qüds) İsraildədir.

Yaxın və Orta Şərq regionu xalqlarının mədəniyyətində oxşar xüsusiyyətlər çoxdur. Bu təbii-coğrafi və sosial-iqtisadi şəraitin uyğunluğu, qarşılıqlı mədəni təsirlə izah olu.

Region ərazisində tarixən mədəni-təsərrüfat fəaliyyəti suvarmadan istifadə etməklə əkinçilik və arid zonada köçəri və yarımköçəri heyvandarlıq üstünlük təşkil etmişdir. Təsərrüfatın bu növü sami, fars, türkdilli xalqlar arasında yayılmışdır. Bu xalqlar arasındakı qarşılıqlı əlaqələr regionda mədəni xüsusiyyətlərin orijinallığını müəyyən edir.

Yaxın və Orta Şərq xalqlarının mənəvi mədəniyyətinin səciyyəvi cəhəti – orta yüzilliklərdə ərəblər və onlar tərəfindən işğal olunan xalqların qarşılıqlı münasibəti nəticəsində formalaşmış ərəb mədəniyyətinin bu və ya digər xüsusiyyətlərinin saxlanılmasıdır. Region xalqlarının əksəriyyətinin dilində ərəb və fars terminləri və sözləri çoxdur. Türk və kurmanc dilində danışan kürdlərdən başqa

* Bu məshəbin tərəfdarları özlərini əhl – əs – sünnə (sünnə adamları) adlandırır və belə hesab edirlər ki, Məhəmməd (S) peyğəmbərin ənənələrinə məhz onlar əməl edir, şiələr isə həmin ənənələri təhrif edirlər. Teologiyada ərəbcə yol, nümunə mənasını bildirən sünniliyi şiyəlikdən ayıran başlıca fərq budur ki, sünnilər Məhəmmədin vəfatından sonra Allahla insanlar arasında vasitəçiliyin mümkünlüyünü qəbul etmir, Əlinin xüsusi təbiəti və onun xəlifələrinin (ərəbcə varis, müavin) imam olmağa, icmaya rəhbərlik etməyə xüsusi hüquqi haqqında ideyanı inkar edirlər.



islam xalqları ərəb əlifbasından istifadə edir. Bu xalqların təhsil sistemi, ədəbiyyatı, incəsənəti İslamın təsirinə məruz qalmışdır.

Yaxın Şərqdə VII-XII yüzilliklərdə müsəlman hüquq normaları və dini qanunlarının məcmusu kimi yayılmış şəriət* bu gün də regionun müsəlman xalqlarının ailə-məişət həyatında dərin kök salmışdır.

XX əsrin sonlarından etibarən İslamın sosial əxlaq və məişətdə təsiri bir qədər «yumşalır». Bunun müsbət təzahürlərindən ən mühümü gender bərabərliyində əks olunur. Belə ki, qadınlar təhsil almaq, şəhər mərkəzlərində sosial tələbatlarını reallaşdırmaq və s. imkanlara nail olurlar.

İslam fundamentalizmi mühitində ərəb dövlətləri xalqlarının siyasi həyatında və mənəvi ideologiyasında Xilafət mənəviyyatı hələ də yaşayır.

Region əhalisinin 2 faizini təşkil edən yəhudilər mühüm mədəni qrupu təşkil edir. İsraildə yaşayan yəhudilərin təqribən yarısının burada doğulmasına baxmayaraq, onların valideynləri, baba və nənələri XX əsrdə dünyanın 100-dən artıq ölkəsindən gələnlərdir. Əhatəsində olduqları mühitin müxtəlifliyi səbəbindən onların dilləri də 2 qrupa (ənənəvi və müasir) bölünür.

Yaxın və Orta Şərq xalqlarının müasir mədəniyyətində də ümumi cəhətlər çoxdur. Bu yerli ənənəvi və müasir qərb elementlərinin yanaşı olduğu şəhərlərdə parlaq nəzərə çarpır. Qədim saraylar və məbədlər, azan səsləri ucalan minarələrlə yanaşı çoxmərtəbəli binalar, mehmanxanalar təzad təşkil edir. Qoşqu qüvvəsi hərəkət edən yollar asfalt döşənmiş magistrallarla əvəz olunmuş və bu yollarda müasir, ən yeni markalı avtomobillər «şütüyür». Regionun sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində ədəbiyyat, incəsənət və memarlıq sahələrində müasirliklə milli ənənələrin qarışdırılması meyli parlaq nəzərə çarpır.

Yaxın və Orta Şərq regionunun əhalisi yüksək təbii artımı ilə seçilir. Bununla yanaşı, həyat səviyyəsi aşağı olduğu şəraitdə region ölkələrində hər 1000 nəfərə ölənlərin miqdarı inkişaf etmiş ölkələrlə

* **Şəriət** – ərəbcə «şəraa» – istiqamətləndirmək deməkdir. Şəriətə görə azyaşlılar arasında nigah, çoxarvadlılıq, boşanarkən yalnız kişinin hüquqlarının qorunması, nigahın satın alınması və s. qanuniləşdirilmişdir.

müqayisədə yüksəkdir (İsraildə 8, Misirdə 71, Yəməndə 75 nəfər). Təbii artım sürəti ildə 2,4 faizdir. Artımın yüksək olması region əhalisinin sayının son 20 ildə iki dəfədən çox artmasına səbəb olmuşdur.

Yaxın və Orta Şərq regionunun əhalisinin orta ömür müddəti bir neçə ölkədə (Türkiyə, İran körfəzi əmirlikləri, Kipr,İsrail, Misir, Ürdün) 70-74 yaşdır. Əfqanıstanda, Yəməndə bu göstərici çox aşağıdır (45-50 yaş). Təbii artımın yüksək və orta ömür müddətinin aşağı olması əhalinin yaş strukturuna təsir etmişdir. Regionun bəzi ölkələrində (İraq, İran, Suriya, Misir) əhalinin 40 faizindən çoxu 15 yaşadək olanlardır (əlavə 5). Region ölkələri üzrə əhalinin 4,5 faizi (Kiprdə 10 faizi) 65 yaşdan yuxarı olanlardır.

Əhalinin sayına immiqrasiyalar da təsir göstərir. Küveyt, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, İsraildə immiqrantların sayı daha çoxdur. İsrailə immiqrantlar Avrasiya, Amerika ölkələrindən gəlmişlər. İran körfəzi sahilindəki əmirliklərdə (Küveyt, Qətər, BƏƏ, Bəhreyn və Səudiyyə Ərəbistanında) immiqrantların sayı neft «hay-küyü» ilə əlaqədar artmışdır. Küveyt əhalisinin təqribən yarısını Ərəb ölkələri, İran və digər müsəlman ölkələrindən olan immiqrantlar təşkil edir. Fələstin ərəblərinin 4 milyonu qonşu (Livan, Suriya, Misir, Ürdün) və digər ərəb ölkələrində yaşayır.

Regiondan emiqrasiya da mövcuddur. XIX yüzilliyin sonlarında Livandan, Fələstindən Amerika, Afrika və qonşu ərəb ölkələrinə köçənlər çox olmuşdur.

Yaxın və Orta Şərq əhalisinin ölkələr və ayrı-ayrı ərazilər üzrə paylanmasında regional fərqlər vardır. Əhalinin orta sıxlığının yüksək olmasına görə Bəhreyn, Livan, İsrail, Küveyt seçilir. Səudiyyə Ərəbisatnı, Oman, Əfqanıstanda əhali seyrəkdir. Regionun xeyli hissəsini tutan yarımsəhra və səhralarda daimi yaşayış məskənləri yoxdur. Əksinə, Aralıq dənizi, Qara, Mərmərə, Xəzər, Qırmızı dənizin sahilləri, Nil, Dəclə və Fərat, Araz, Kabul çayları vadiləri, həmçinin vahələrdə əhali sıxdır. Belə yerlərdə əhalinin sıxlığı 1 kv. km-də 500-1000 nəfərə çatır. İsrail əhalisinin 2/3 hissəsi ölkə ərazisinin 10 %-də, İraq əhalisinin yarıdan çoxu ərazisinin 15 %-də, Misir əhalisinin 98 %-i ölkə ərazisinin cəmi 5 %-də yaşayır. Türkiyə və İranda əhalinin yerləşməsində kəskin regional fərqlər vardır.

Yaxın və Orta Şərqin əhalisinin xeyli hissəsi kəndlərdə yaşayır



(ötən əsrin 70-ci illərdə bu göstərici 60 faiz idi). Urbanizasiya prosesi sürətlə gedir. İsrail əhalisinin 80, BƏƏ, Qətər, Küveyt əhalisinin 85-90, Türkiyə əhalisinin 70 faizi şəhərlərdə yaşayır. Əfqanıstan, Yəmən, Omanda şəhər əhalisinin miqdarı 40 faizdən yüksək deyil. Şəhər əhalisi, təbii artım, daxili və xarici miqrasiya nəticəsində artır.

Əhalinin sayına görə Yaxın və Orta Şərqdə orta və kiçik şəhərlər üstünlük təşkil etsə də, milyonçu (Qahirə – 13, Tehran – 12, İstanbul – 12, Ankara – 4, Bağdad – 3,5 milyon nəfər və b.) olanları da var.

Yaxın və Orta Şərq ölkələrində əmək ehtiyatlarının miqdarı ümumi əhalinin sayı ilə müqayisədə azdır. 15 yaşadək olanların sayı əhalinin 45 faizini təşkil edir, şəriət adətlərinə görə qadınlar ictimai istehsala cəlb olunmur, ixtisaslı kadrlar (texnik, mühəndis, həkim) çatışmır, əmək qabiliyyətli əhali arasında savadsız olanları vardır. Region ölkələrinin əksəriyyətində təhsilin ibtidai və orta pillələri mövcuddur. Universitet təhsili azaddır, ali təhsilə tələbatı olanlar üçün maddi yardım da ayırılır.

İbtidai təhsil regionun bütün ölkələrində məcburi olsa da, bəzi səbəblər ucbatından (daxili münaqişələr, bəzi əyalətlərin şəhər mərkəzlərindən uzaqlığı və s.) buna hamı yiyələnə bilmir. Digər tərəfdən isə məktəb yaşlı qızlar ibtidai və orta təhsil alsalar da, onların çox az hissəsi təhsillərini universitetlərdə davam etdirə bilir. Səudiyyə Ərəbistanı, Qətər, BƏƏ kimi daha çox mühafizəkar ölkələrdə isə təhsilin bütün pillələrində (ibtidai, orta, ali) qızlar və oğlanlar üçün tədris ayrılıqda aparılır.

XX əsrin 60-70-ci illərindən etibarən əhalinin savadsızlığının aradan qaldırılması tədbirlərinə baxmayaraq, regionun bir sıra ölkələrində 15 və ondan yuxarı yaşda olan əhali arasında savadlıların sayı Qərbi Avropa ölkələri ilə müqayisədə aşağıdır (Yəmən – 38, Misir – 51, İraq – 58, Səudiyyə Ərəbistanı – 63, Suriya – 71, İran – 72 %). Neft sənayesinin inkişafı və bununla əlaqədar müasirləşmə regionun bir çox rayonlarında ənənəvi həyat tərzinə də təsir etmişdir. Məsələn, köçərilərin sayı azalmış və hazırda region əhalisinin cəmi 1%-ni təşkil edir.

Suriya, İran, Səudiyyə Ərəbistanının geniş səhralarında bir qrup əhali köçəri həyat tərzi sürür, bəzi kürd və fars tayfaları isə yay və qış otlaqları arasında miqrasiya edir. İstehsala yararlı əhalinin çox hissəsi işləməyə az meyllidir. Yerli əhali arasında yüksək milli gəlirin

bölüşdürülməsi onları heç bir zəhmət çəkmədən həyat tərzi sürməyə sövq etmişdir. Gənclərin digər hissəsi isə Qərb dövlətlərində təhsil almaq üşün ölkəni tərk edirlər. Ona görə də Yaxın və Orta Şərq ölkələrinin bəzilərində işləyənlərin böyük əksəriyyəti immiqrantlardır (cədvəl 2).

«Neft dollarları» hesabına əldə edilmiş kapitalın bolluğu şəraitində bu ölkələr nisbətən yüksək əmək haqqı verməklə immiqrant işçilər cəlb edə bilmişlər. İmmiqrant işçilər təkcə neft mədənlərində deyil, həmçinin, istehsalın digər sahələrində də çalışırlar. İran körfəzi əmirliklərində nəhəng tikinti işləri immiqrant işçilər tərəfindən aparılmışdır.

Əhalinin məşğuliyyət strukturundakı dəyişikliklər sübut edir ki, neft çıxaran dövlətlərdə, həmçinin, Türkiyə, İsrail, Ürdun, BƏƏ, Kiprdə xidmət sahələrində çalışanların sayı sürətlə artmışdır (əlavə 7).

**Cədvəl 2**

**Yaxın və Orta Şərq ölkələrində immiqrant işçilərin sayı**

| Ölkələr | İmmiqrant işçilərin sayı min nəfərlə | Ümumi məşğul olanların miqdarına görə %-ilə |
|---|---|---|
| Səudiyyə Ərəbistanı | 4560 | 72 |
| Küveyt | 1020 | 81 |
| BƏƏ | 930 | 90 |
| Oman | 210 | 42 |
| Qətər | 190 | 82 |
| Bəhreyn | 130 | 58 |

### 1.4. Region təsərrüfatının ümumi icmalı

İnkişaf etməkdə olan ölkələrdə olduğu kimi Yaxın və Orta Şərq regionunda XIX əsrin ortalarında iqtisadi inkişaf xarici bazar üçün istehlak malları və avadanlıqları istehsalına yönəldilmişdi. XIX və XX əsrin əvvəllərində bunlar əsasən kənd təsərrüfatı məhsulları idi: Misirdə pambıq, Livanda ipək, Türkiyə, İraq, Suriya və onların qonşularında müxtəlif növ buğda və s. Sonralar regionda mühüm ixracat məhsulunu neft və həm də ucuz işçi qüvvəsi əvəz etdi. Artıq



XX yüzilliyin ortalarında Yaxın və Orta Şərq dünyanın həm siyasi, həm də iqtisadi xəritəsində mühüm mərkəzlərdən birinə çevrilir. XX əsrin ikinci yarısından başlayaraq dünyada gedən siyasi proseslər və regionun əksər ölkələrinin qeyri-sabit vəziyyəti nisbətən inkişaf etmiş region dövlətlərini (Türkiyə, İsrail, İran, İraq, Səudiyyə Ərəbistanı, Misir) hərbi sənaye sahələrinin və silah-sursat istehsalını inkişaf etdirməyə məcbur etmişdir.

Müasir iqtisadiyyatın mühüm energetika xammalı olan neft ehtiyatlarına görə Yaxın və Orta Şərq regionu dünyada birinci yerdədir. Dünya neft ehtiyatının təqribən 65, təbii qaz ehtiyatının 26 faizi Qətər, Səudiyyə Ərəbistanı, İraq, İran, Küveyt, Qətər və BƏƏ-nin payına düşür. Dünyada istehsal olunan neftin 26, təbii qazın isə 5 faizi bu ölkələrin payına düşür.

Regionun neft çıxaran iri dövlətlərində (Səudiyyə Ərəbistanı, İran, İraq, Küveyt, BƏƏ) neft ixracatından gələn gəlir milli iqtisadiyyata sərf edilməklə yanaşı, çox saylı əhali arasında bölüşdürülür. Neft gəlirinin milli mənimsənilməsi bir istiqamətə yönəldilmiş istehlak məhsulları idxalına sərf olunmuşdur. Bu sahədə digər addım tikinti «hay-küyü» olmuşdur: göydələnlər, inzibati və infrastruktur tikintilər, səhrada iri beynəlxalq təyyarə meydanları, avtomobil magistralları, enerji təchizatı sistemləri, su təchizatı qurğuları, hökumət və parlament binaları, böyük otellər, monarxlar üçün iqamətgahları inşa edilmiş və diplomatik məhəllələr salınmışdır.

Ötən əsrin 80-ci illərində inkişaf etmiş Qərb dövlətləri 1973-cü ildə olduğu kimi neftin qiymətinin kəskin artması halları təkrar olunmasın deyə kompleks tədbirlər hazırlayırlar. Regionun siyasi durumundan asılı olaraq neftin qiyməti dünya bazarında bəzən düşməyə, bəzən qalxmağa başlayır. Enerji xammalına əvəz axtarılması və enerji toplama texnologiyasına diqqət edilməsi neft ixrac edən dövlətləri narahat edə bilməzdi. Yaxın və Orta Şərqdə neft ehtiyatının çox olması sübut edilsə də (əlavə 3), onun tükənən sərvət olması da məlumdur. Neft «xoşbəxtliyinin daimi olmaması» ilk növbədə ehtiyatı az olan Bəhreyndə özünü göstərir. Onun ardınca neft ixrac edən digər əmirliklər neftdən sonrakı inkişaf əsrinə hazırlıq məqsədilə mövcud kapitaldan və sərvətin tükənməsinədək qalan vaxtdan səmərəli istifadə etmək barədə düşünməyə başlayırlar.

Beləliklə, Yaxın və Orta Şərq regionunda neft ixrac edən dövlətlərin gələcək iqtisadi siyasətinin əsasını 3 istiqamət müəyyən

edir:

- birinci, təsərrüfatın diversifikasiyası*, yəni «monokultur» neft ixtisaslaşmasından uzaqlaşmaq cəhdi;
- ikincisi, xarici ölkələrdə uzun müddətə və mötəbər kapital yerləşdirməklə iri maliyyə-investisiya əməlyyatları həyata keçirmək;
- üçüncü, mühüm məşğuliyyət sahələrində müasir dövrə uyğunlaşan xüsusi intellektual – mədəni mühit yaratmaq cəhdi ilə kadrların milliləşdirilməsi siyasəti.

Milli iqtisadiyyatın diversifikasiyası həm istehsal, həm də qeyri-istehsal sahələrində aparılır. İqtisadiyyatın diversifikasiyasında ilk istiqamət bir sıra ölkələrdə olduğu kimi ixracat strukturunun dəyişdirilməsidir. Ölkələrdə xam neft və təbii qaz ixracından neft-kimya məhsulları ixracatına keçilməsinə başlanılmışdır. Məsələn, Küveytin neftemalı müəssisələri çıxarılan neftin 90 faizini emal edir. Həmçinin neft məhsulları ixracatından gələn gəlir xam neft ixracatından gələn gəlirdən üstündür. Yanacaq ixracatının enerji tutumlu məhsulların ixracı ilə əvəz olunması meyli də müşahidə edilir.

İri neftemalı və neft-kimya kompleksləri Səudiyyə Ərəbistanında Əl-Cubeyl və Yanbu, Küveytdə Əş-Şueyl, BƏƏ-də (Əbu Dabi əmirliyində) Rubays, Qətərdə Umm-Səid, İraqda Ər-Rumeyla, İranda Abadan, Bəndər-Xomeyni və digər şəhərlərdə inkişaf etmişdir. Yerli yanacaq və idxal olunan filiz əsasında metal istehsalı artır. İdxal olunan xammalla işləyən enerji tutumlu metallurgiya müəssisələri yaradılmışdır. Bəhreyn və BƏƏ-də alüminium istehsalı müəssisələri, Bəhreyndə dəmir lövhələr istehsalı müəssisəsi, Qətərdə tam dövriyyəli metallurgiya kombinatı, Omandakı misəritmə zavodu bunlara misaldır.

Məhsuldar qüvvələrin diversifikasiyasında ikinci mühüm və eyni zamanda müqabil istiqamət idxal olunan xammal və hissələrdən əsasən istehlak məhsulları istehsal edən emal sənayesinin kiçik və orta müəssisələrinin inkişafına təkan verməklə bağlıdır. Emal sənayesinin inkişaf etdirilməsi məqsədilə bu ölkələrə xarici sahibkarlar cəlb olunur.

---

* **Diversifikasiya** – struktur dəyişikliklərlə mürəkkəbliyin artmağı prosesi.



Neft ixrac edən varlı dövlətlər transmilli korporasiya kanalları ilə xammal, avadanlıq, təkmilləşmə və xüsusilə texnologiya hazırlamaqda maraqlıdırlar. Transmilli korporasiyaya daxil olmağın üsulu kapitalın 50 faizdən çox iştirakı ilə qarışıq müəssisələr, həmçinin ayrı-ayrı səhmdar fəaliyyət formaları yaratmaqdır.

XX əsrin 50-ci illərinədək region iqtisadiyyatında kənd təsərrüfatı üstün mövqe tutduğu halda, əsrin sonunda bir sıra dövlətlər ərzaq məhsulları idxalını dayandırır. Hazırda Suriya, Yəmən, İran, Misir və Türkiyə iqtisadiyyatında kənd təsərrüfatı öz əhəmiyyətini hələ də saxlayır və ümummilli məhsulun 15-25 faizini təşkil edir. Bu göstəricilər aqrar məhsullara olan yerli tələbatın hələ tam ödənilməsi demək deyildir (xüsusilə regionun yoxsul ölkələrində). Ərzaq məhsullarına tələbatın artması əhalinin yüksək təbii artımı, kəndlərdən şəhərə miqrasiya, sənayeləşmə strategiyası və digər səbəblərlə izah olunur. Digər tərəfdən Yaxın və Orta Şərqdə qiymətli kənd təsərrüfatı xammalı istehsal olunan region dövlətlərinin əksəriyyəti dünya bazarında kənd təsərrüfatı malları ilə iştirak edir. Məsələn, Türkiyə yun, üzüm, qoz, fındıq, dərman bitkiləri, biyan ixrac edir. Əfqanıstan qaragül və qaraкülçə dəriləri, Yəmən qəhvə (Mokko növü) ixrac edir. Dünya xurma istehsalının böyük bir hissəsi İraqın payına düşür. İran və İraqda bərk arpa növü becərilir (pivə hazırlanmasında və makaron istehsalında işlədilir). İran dünya bazarına quru meyvə (kişmiş, badam, püstə və b.) çıxarır.

Aqrar bölmənin inkişafı sahəsində çoxsaylı layihələr xüsusi qeyd edilməlidir. Əhalisinin böyük əksəriyyətinin hələ qədimdən heyvandarlıqla məşğul olan, iqlim şəraiti əkinçilik üçün yararsız olan quraq ölkələrdə dünya bazarından asılılığı zəiflətmək məqsədilə bitkiçiliyin inkişafı üçün iri şirkətlər yaradılır.

Yaxın və Orta Şərq ölkələrində əkinçilik süni suvarmaya əsaslanır. Suni suvarma Misir, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Suriya, İsrail kimi iri dövlətlərdə müasir qurğulardan istifadə edilirsə, Ərəbistan yarımadası əmirliklərində enerji tutumlu şirin su qurğuları və nasos stansiyaları mühüm rol oynayır. Bu isə sübut edir ki, İES-lər və içməli su komplekslərində neft və qaz yandırılması imkanları olmasa səhrada əkinçilik barədə söz açmaq lazım gəlməzdi. Səudiyyə Ərəbistanı buğda (taxılla özünü təmin edir, bəzən ixrac da edir), Küveytdə tərəvəz, gül, meyvə (Qərbi Avropaya səhləb çiçəyi ixrac edilir), BƏƏ-də, Omanda, Ürdündə çiyələk yetişdirilir. Onu da qeyd

etmək lazımdır ki, bu ölkələrdə aqrotexnologiya idxal olunur, suvarma qurğuları sistemi xarici mütəxəssislərin rəhbərliyi ilə immiqrant fəhlələr tərəfindən yaradılmışdır, əkinçilik üçün zəruri sayılan materiallar və avadanlıq isə Qərbi Avropa ölkələri və Yaponiyadan gətirilir.

Deməli, məhsuldar qüvvələrin strukturunun diversifikasiyası istiqamətlərinin əksəriyyəti son nəticədə neftə əsaslanır. Neftdən sonrakı iqtisadiyyat da neftin «əsiri» olaraq qalır.

Beləliklə, Yaxın və Orta Şərq ölkələrinin milli təsərrüfatının inkişafı üçün əlverişli coğrafi mövqe, təbii şərait və faydalı sərvətlər mövcuddur. Ölkənin təbii sərvətlərindən istifadə olunması və sənayeləşdirilməsində Türkiyə, İsrail, İran, Ürdün, Misir, Suriya böyük nailiyyət əldə etmişlər.

Küveytin və həmçinin BƏƏ-nin neft çıxaran digər əmirliklərinin milli bankları neft dollarlarını xarici banklarda yerləşdirmək üçün investisiya əməliyyatı üzrə ixtisaslaşmışdır. Onu da qeyd edək ki, tarixən tacirlik ənənələri olan Dubay əmirliyinin bankları əsasən ticarət banklarıdır və idxal-ixrac əməliyyatına xidmət üzrə ixtisaslaşmışdır.

Yaxın və Orta Şərq ölkələrinin əksəriyyətində turizm sektoru iqtisadiyyatın dinamik inkişaf edən sahəsinə çevrilmişdir. Regionun bir çox dövlətlərində (Türkiyə, Səudiyyə Ərəbistanı, MƏR, BƏƏ, Suriya, Livan və s.) hökumətin dəstəyi, turizm infrastrukturunun daim inkişaf etdirilməsi, nisbətən ucuz hava nəqliyyatı, turizm sektoruna qoyulan şəxsi və dövlət investisiyaları, sərhəd keçid məntəqələrinin açılması sayəsində inkişaf edən əməkdaşlıq beynəlxalq, regional və ölkədaxili turizmin inkişafına səbəb olmuşdur. Regionun «neft dolları» olan dövlətləri turizm sektorunu inkişaf etdirməkdə daha çox maraqlıdırlar. Tükənən sərvət olan neftdən əldə edilən gəlir hesabına bu ölkələrdə Avropa standartlarına cavab verən dəbdəbəli otellər inşa edilmiş, qonaqpərvərlik sənayesinin yenidən qurulmasında yeni nailiyyətlər əldə edilmişdir.

Yaxın Şərq regionuna 1990-cı ildə 9,6 mln. turist gəlmişdirsə, 2000-ci ildə bu göstərici 24,2 mln., 2006-cı ildə isə 40,7 mln. nəfərə çatmışdır*. 2006-cı ildə Türkiyəyə 18,9 mln., Kiprə 2,4 mln., İrana isə 1,6 mln., turist gəlmişdir. Yaxın Şərq ölkələri içərisində gələn turistlərin sayına görə Səudiyyə Ərəbistanı (9,0 mln. nəfər), Misir (8,2 mln. nəfər) qabaqcıl yerdədir. Regiona gələn turistlərin sayı 2005-ci illə müqayisədə 2006-cı ildə 10 faizdən çox artmışdır, bu göstəriciyə görə Yaxın və Orta Şərq 3 ildir ki, Afrika regionundan irəlidədir. (2006-cı ildə Afrika regionuna gələnlərin sayı 36,7 mln. nəfər olmuşdur). Yaxın Şərq regionuna 2010-cu ildə 527,3 mln., 2020-ci ildə 717 mln. turistin gəlməsi proqnozlaşdırılır.

Region ölkələrinin bəzilərinin iqtisadi cəhətdən dirçəlməsində onların sabiq Sovet İttifaqı və Qərb ölkələri ilə iqtisadi əməkdaşlığının rolu az olmamışdır. İttifaqın tərkibində ikən Azərbaycan mütəxəssisləri Suriyada, Misirdə, İraqda, Əfqanıstanda, Cənubi Yəməndə neft-qaz yataqlarının kəşf edilməsində, mədənlərin salınmasında, neft kəmərləri çəkilişində, neft və qaz emalı müəssisələrinin tikintisində iştirak etmişlər. Azərbaycan Respublikası Yaxın və Orta Şərq ölkələri üçün milli mütəxəssis kadrlar hazırlanmasında böyük fəallıq göstərmişdir.

### 1.5. Regionun nəqliyyatı və xarici-iqtisadi əlaqələri

Yaxın və Orta Şərq regionunun əlverişli coğrafi və geosiyasi mövqeyi beynəlxalq əhəmiyyətli nəqliyyatın bütün növlərinin inkişafına səbəb olmuşdur. Dünya beynəlxalq iqtisadi əlaqələrində Atlantik və Hind okeanı hövzələrini birləşdirən Süveyş kanalının əhəmiyyəti böyükdür. Süveyş kanalının inşası fikri hələ orta yüzilliklərdə ərəblər tərəfindən irəli sürülmüşdür. Sonralar bu fikir Fransada XIV Lüdovik və Napoleonun hakimiyyəti dövründə yenidən baş qaldırır. Yalnız XIX yüzilliyinin ortalarında (1859-cu ildə) kanalın tikintisinə başlanır. 1869-cu il noyabrın 17-də kanalın təntənəli surətdə açılışı olur. Kanal şimal-cənub istiqamətində Port-Səiddən Süveyşədək 93 km məsafədə uzanır. Eni 190-365 metr, dərinliyi 20 metrdir. Gəmilər kanaldan 11-12 saata keçir. Kanaldan

* Qeyd edək ki, Ümumdünya Turizm Təşkilatında Dünya regionları üzrə Yaxın Şərq haqda göstəricilər verilir. Yaxın və Orta Şərq regionuna daxil olan Türkiyə, Kipr, İran isə digər subregionlara daxil olan ölkələr sırasındadır.

gün ərzində 50 gəmi keçə bilir. Dənizlər arasındakı səviyyə fərqi az (23 sm) olduğundan kanal şlüzsüzdür. Kanalla şimala və əks istiqamətə gedən gəmilər Böyük Acı göldə ayrılır.

XX yüzilliyin əvvəllərində kanaldan 4 min gəmi (daşınan yüklərin miqdarı 20-30 mln. ton) keçibsə, 60-cı illərin ortalarında 20 min gəmi 250 mln. ton yük daşımışdır. Bu onu sübut edir ki, Süveyş kanalı Avropa və Asiya ölkələrini əlaqələndirən başlıca dəniz yoludur*. Kanaldan daşınan yük əsasən nefdir. Ona görə də cənubdan daşınan yüklərin miqdarı əks istiqamətə daşınan yüklərdən 4 dəfə artıqdır.

1956-57-ci illərdə Fransa və Böyük Britaniyaya məxsus Süveyş kanalı şirkəti milliləşdirildikdən sonra bu ölkələrin təcavüzü və 1967-75-ci illərdə Ərəb-İsrail müharibəsi nəticəsində kanalın bağlanması sayəsində kanalla daşınmalardan gələn gəlir 2 dəfə azalır. 1975-ci il iyunun 5-də kanal yenidən açıldıqdan sonra gəmi və yük dövriyyəsi sürətlə artır, ötən əsrin 90-cı illərində kanaldan 20 min gəmi 350 mln. ton yük daşımışdır. 1990-91-ci ildəki İraq-Küveyt və 2003-cü ildəki ABŞ-İraq münaqişəsi kanaldan daşınan yüklərin azalmasına təsir göstərdi. BMT tərəfindən İraq və Küveyt neftinin daşınmasına embarqo qoyulması dünya bazarına 300 mln. ton neftin daşınmasına mane oldu. Bu neftin çox hissəsi Süveyş kanalından daşınırdı.

Kanalın yenidən rekonstruksiyası (enliləşdirilməsi və dərinliyinin 20 metrə çatdırılması) hazırda daha iri gəmilərin hərəkətinə imkan yaratmışdır. Buna baxmayaraq, Yaxın Şərq neftini daşıyan super-tankerlərin çoxu Afrika ətrafından keçir. XXI yüzilliyin əvvəlləri üçün dünya dəniz nəqliyyatı ilə daşınan yüklərin 14 faizi (440 mln. ton) Süveyş kanalının payına düşür.

Qara, Mərmərə, Qırmızı dəniz və İran körfəzinə çıxacaqda növbətçi, (keşikçi) olan Bosfor (İstanbul), Dardanel (Çanaqqala), Bab-əl-Məndəb və Hörmüz boğazlarının da iqtisadi və strateji əhəmiyyəti böyükdür. Beynəlxalq dəniz yollarına İstanbul (Türkiyə), İsgəndəriyyə (Misir), Beyrut (Livan) kimi portlar xidmət edir. Yaxın

---

* London – Bombey arasında dəniz yolu Afrika sahilindən keçməklə 10721 dəniz milidirsə, kanaldan keçməklə 6260 dəniz mili Liverpul – Lokaqama arasında isə 14436 dəniz mili təşkil edir.



və Orta Şərqdə neft çıxarılan ölkələrdə neft ixracı üzrə ixtisaslaşmış portlar vardır. Məsələn, Səudiyyə Ərəbistanında Ras-Tənnurə, Küveytdə Mina-əl-Əhmədi, İranda Hərq, İraqda Fao, Um-Qəsr və b. Neft ixracı çox olan dövlətlərdə bu portların yük dövriyyəsi dünyanın ən iri portu olan Rotterdamdan (Niderland) çox olur.

Yaxın və Orta Şərq regionunda nefti Aralıq dənizinin şərq sahillərinə nəql edən kəmərlər də çəkilmişdir.

Yaxın və Orta Şərqdə dini turizm və neft dolları ilə sıx bağlı olan xarici turizm sürətlə inkişaf edir. Dini turizm sahəsində müqəddəs ziyarətgahların yerləşdiyi Səudiyyə Ərəbistanı, İran, İraq xüsusilə seçilir. Xarici turizm sahəsində Bəhreyn, Ürdün, İsrail, BƏƏ daha irəli getmişlər. Neft ehtiyatının az olması hökuməti onun çıxarılmasını dondurmaq və çox kapital tələb etməyən inkişaf yolları axtarmağa sövq edir. Neft dolları fontanı zonasında əlverişli coğrafi mövqeyi olduğundan Bəhreyn ərazisində bir çox bank və şirkətlər yerləşdirmişdir. Buna ölkənin həm ada və həmçinin saat qurşağında mövqeyi – London və Sinqapur birjaları arasında yolun təxminən yarısında yerləşməsi də təsir edir.

Bəhreynin Yaxın və Orta Şərqdə mühüm maliyyə mərkəzinə çevrilməsinin digər səbəbi də əvvəllər region dövlətləri ilə dünya ölkələri arasında maliyyə vasitəçiliyi funksiyasını həyata keçirən Livanın İsrail tərəfindən təcavüzə məruz qalması olmuşdur. Səudiyyə Ərəbistanı bir sıra maliyyə əməliyyatlarını Bəhreyn vasitəsilə həyata keçirir. Bu əməliyyatları Səudiyyə Ərəbistanı özü-nün mühafizəkar qanunvericiliyi ucbatından Səudiyyə Ərəbistanı öz ərazisində həyata keçirə bilmir. Ona görə də Səudiyyə Ərəbistanı ilə Bəhreyn arasında xüsusi münasibətlər formalaşmışdır. Bunu İran körfəzində bənd tikilməsi və onun üzərində şosse yolunun çəkilməsi ilə adanın Ərəbistan yarımadasının bir hissəsinə çevrilməsi bir daha sübut edə bilər.

Neft ixrac edən daha varlı Əmirliklər Qərb iqtisadiyyatına kapital qoymağa müvəffəq olmuşlar. Kapitalı faizlə qoymaqla onlar məqsədyönlü yatırıma keçmiş (transmilli korporasiya və iri beynəlxalq maliyyə təşkilatları strukturunda), qiymətli səhmlər əldə etmişlər. Bunlar isə yuxarı təbəqlərin idarəetmə və mühüm məsələlərin həllində şəxsi iştirakına imkan verir. Səudiyyə Ərəbistanının xarici kapital qoyuluşunun həcmi yüzlərlə mlrd. dollarla hesab olunur. Bunun xeyli hissəsi ABŞ-a yönəldilir.

Küveyt Qərb ölkələrində fəaliyyət göstərən onlarla şirkətin müştərək sahibkarıdır. Bunlara «Britiş Petroleum», «Ceneral Motors», «İBM», «Ceneral Elektrik», «Kodak», «Lurci», «Xexct», «Total», «Xitaçi», «Mitsubisi» və «Soni» misal ola bilər. Küveyt öz ərazisindəki neftemalı zavodlarından başqa Danimarka, Niderland, İtaliyada bir neçə emal zavodunun sahibidir. Danimarka, İsveç, Böyük Britaniya, İtaliya və Norveçdə onlarla yanacaq doldurma stansiyası ona məxsusdur. Özünün 25 tankeri olan donanması çıxarılan neftin xeyli hissəsini satmaq üçün şəbəkə yaratmışdır. Küveytin xarici kapital qoyuluşunun həcmi 100 mlrd. dollardan artıqdır. Xarici kapital qoyuluşundan gələn gəlir valyuta gəlirinin mühüm mənbəyinə çevrilmişdir.

Göstərilənlər bir daha sübut edir ki, Yaxın və Orta Şərq siyasi, iqtisadi və sosial təzadları olan regiondur. İqtisadi geriliyi aradan qaldırmaq, sərvətlərin tam milliləşdirilməsi, dövlət müstəqilliyinin qorunmasında region xalqalarının ümumi marağı vardır.



# II H İ S S Ə

# YAXIN ŞƏRQ DÖVLƏTLƏRİ

## BƏHREYN* DÖVLƏTİ

### 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe**. Sahəsi və əhalisinin sayına görə Yaxın və Orta Şərq ölkələri arasında ən kiçik, lakin iqtisadi inkişaf baxımından məşhur olan Bəhreyn dövləti İran körfəzinin təxminən mərkəzində, eyni adlı arxipelaqda yerləşir. Bəhreynin coğrafi və hərbi – strateji mövqeyi əlverişlidir. Dünyanın mikrodövlətlərindən biri hesab edilən Bəhreynin sahəsi 690 kv. km-dir. Bu arxipelaq 33 ada və adacıqdan ibarətdir. Bu adalardan ancaq beşi məskunlaşıb. Ən iri ada olan Bəhreynin uzunluğu 50, eni isə 16 km-dir. Nisbətən digər iri adaları Mühərrək, Sitra, Umm-Nəsən, Umm-əs-Sübhan və Ciddədir. Bəhreyn adası Mühərrək və Sitra adaları ilə torpaq bəndlər vasitəsilə birləşdirilmişdir. 1986-cı ilin noyabrında Bəhreyn adasını Səudiyyə Ərəbistanı ilə birləşdirən körpü salınmışdır. Asiyada ən uzun (25 km) 7 torpaq bənddən və onları birləşdirən 5 körpüdən ibarət olan həmin yolun su üzərində ümumi uzunluğu 12,5 km-dir. Ən böyük torpaq bəndin uzunluğu 2,3 km-dir.

İki ərəb dövləti arasında dayaz körfəzin üstündən körpü salmaq fikri çox əvvəllərdən meydana çıxmışdır. İlk dəfə bu məsələ dövlət rəhbərliyi səviyyəsində 1970-ci ilin ortalarında müzakirə edilmiş və fikrin həyata keçirilməsində Səudiyyə Ərəbistanı məliklərinin xidməti böyük olmuşdur. 1968-ci ildə Məlik Feysəlin dövründə layihələrin öyrənilməsi barədə ilk işçi qrupu yaranmışdır. Feysəli

* Ərəbcə «**Daulat əl-Bəhreyn**» iki dəniz mənasını bildirir. Sözün mənşəyi dəqiq məlum deyil. Lakin çox qədim zamanlarda Şərqi Ərəbistan və Bəhreynin İran körfəzinin suları altında qaldığı və Bəhreynin sahildən geniş dəniz boğazı ilə ayrıldığı ehtimal olunur.

əvəz edən məlik Xaled proqramın həyata keçirilməsi üçün 1976-cı ildə sarayda xüsusi komitə yaratmış və beş ildən sonra Bəhreyn əmiri ilə tikintinin başlanması barədə müqavilə imzalamışdır. Layihə Səudiyyə Ərəbistanı – Danimarka müştərək şirkəti tərəfindən hazırlanmış və tikintisi Hollandiya şirkəti tərəfindən həyata keçirilən bu nəhəng və nadir mühəndis qurğusunun başa çatması isə Səudiyyə Ərəbistanı məliki Fəhdin adı ilə bağlıdır. Ona görə də Səudiyyə Ərəbistanını Bəhreyn ilə birləşdirən bu magistralı bəzən «Məlik Fəhd yolu»da adlandırırlar.

Yolun tən ortasında süni ada salınmışdır. Burada hər iki dövlətin gömrükxanaları və sərhəd xidmətçilərinin məntəqələri, digər inzibati binalar, məscidlər, restoranlar yerləşir. Sürətli liftlər arzusunda olan hər kəsi, 65 metr hündürlüyü olan süni yaradılmış təpəyə qaldırır. Oradan həm Səudiyyə Ərəbistanının, həm də Bəhreynin yaraşıqlı sahillərini seyr etmək olar.

Körpü hər iki dövlət tərəfindən istifadə edilir. Hündürlüyü dəniz səviyyəsindən 5 metrdən 15 metrə qədər olan körpüdən hər ay orta hesabla 10 minlərlə avtomobil keçir. Avtomobillərin hər iki istiqamətə hərəkəti üçün iki yol ayrılmışdır. Yüngül avtomobillər üçün keçid haqqı 6, avtobuslar üçün 15 ABŞ dollardır. Yük avtomobillərinin sahibləri isə daşınan 1 ton yükə 1 dollar gömrük haqqı verməlidir. Yeri gəlmişkən deyək ki, daşınan yüklərin həcmi 45 tondan artıq olmamalıdır. Beləliklə, ərəb dövlətləri arasında yeganə ada dövləti olan Bəhreyn süni yolla materikə birləşdirilmiş və yarımadaya çevrilmişdir.

Bəhreyn ilə Qətər əmirliyi arasında (bu iki dövləti eni 33,5 km olan körfəz ayırır) uzun müddətdir ki, ərazi və sərhəd münaqişələri davam edir. Havar və onun yaxınlığındakı bir qrup adalar, həm də məhəlli suların bölünməsi məsələsi bu dövlətlərin münaqişəsinə səbəb olmuşdur.

Məsələ ondadır ki, Böyük Britaniya hökuməti bu regiona nəzarət etdiyi vaxtlarda Bəhreynə nisbətən Qətərə daha yaxın yerləşmiş Havar adasını rəsmi London ilə daha yaxşı münasibətləri olan Bəhreynə vermək barədə qərar çıxarır. 1994-cü ilin noyabrında Havar adasını qaytarmaq məqsədilə Qətər hökuməti Beynəlxalq Məhkəməyə müraciət edir. Lakin bu məsələ indiyə qədər həll olunmadığından dövlətlər arasında gərginlik yaradır.

**Səth quruluşu və faydalı qazıntıları**. Bəhreyn arxipelaqda



yeganə adadır ki, geoloji quruluşu qonşu Ərəbistan yarımadasının sahil hissəsinə oxşardır. Arxipelaqın digər adaları isə mərcan mənşəlidir. Bu adalar dayaz laqunlar və sualtı qayalarla əhatə olunmuşdur. Adalar arasında hərəkət edən sürətli qayıqların sükançısı böyük ustalığa malik olmalıdır ki, vaxtında və xətasız bu maneələri dəf edə bilsin.

Bəhreyn adasının sahil xətti girintili-çıxıntılı olduğundan bir növ dişləri sınmış mişara bənzəyir. Maili qum çimərlikləri tez-tez qayalar və qarma-qarışıq şəkildə üst-üstə yığılmış daşlarla əvəz olunur. Onun mərkəzi hissəsi hündürlüyü 35 metrə çatan əhəng daşlı təpəlikdir. Adanın ən hündür yeri isə onun şimalındadır (135 m.). Digər adaların dəniz səviyyəsindən orta hündürlüyü 15-30 metrdir. Bəhreyn adasının əlverişli sahillərində bir neçə dəniz limanı salınmışdır. Onlardan biri ölkənin paytaxtı Manama yaxınlığında, digərləri isə Mühərrək adası ilə ensiz torpaq örtüyü ilə birləşən ər-Rümman (Sülmən) və Sitra adalarında yerləşir. Bu limanlara ən müasir okean gəmiləri daxil ola bilər. Xatırladaq ki, hələ qədim dövrlərdə də əcnəbi yelkənli gəmilər məhz bu yerlərdə lövbər salardılar. Rəvayətə görə «Min bir gecə» nağıllarının qəhrəmanı məşhur dənizçi Sindbad da Bəhreyn adasında yaşamışdır. İtaliyalı tacir və səyyah Marko Polo, məşhur ərəb tədqiqatçısı və coğrafiyaşünası İbn Bəttutə Bəhreyn arxipelaqında olmuşlar.

Bəhreynin təbii sərvətləri içərisində nisbətən gözə gəlimlisi təbii qaz və neftdir. Ehtiyatı 210 mlrd. kub m. olan təbii qaz yataqları həm quruda, həm də körfəzin dibində aşkar edilmişdir. Təbii qaz ilə müqayisədə neft ehtiyatı tükənmək üzrədir (ehtiyatı cəmi 14 mln. tondur). Digər faydalı qazıntıların (gips, əhəngdaşı, gil və s.) ehtiyatı az olduğundan sənaye əhəmiyyətinə malik deyillər. Mirvari ehtiyatı arxipelaqın şimalında və şərqində 10–12 metr dərinlikdə yerləşir.

**İqlimi və hidroqrafiyası**. Ərəbistan yarımadasının digər ölkələri kimi Bəhreyn də şimal yarımkürəsinin subtropik səhra bölgəsində yerləşir. Buna görə də Bəhreyn təbiəti quraq və isti iqlimə malik olub flora və fauna aləminin yoxsulluğu, daimi axar çaylarının olmaması ilə səciyyələnir.

Bəhreyndə iki iqlim mövsümü: may ayından oktyabra kimi isti və quraq keçən yay (iyul – avqust aylarının orta temperaturu $37^0$S), nisbətən yağmurlu keçən payız (yanvar – may) mövsümlərin dəyişməsi o qədər də hiss olunmur. İran körfəzində yerləşən başqa

əmirliklərdən fərqli olaraq Bəhreyndə yay aylarında gecə və gündüz temperaturu arasında fərq $4^0$-dən artıq olmur. Yayda havanın rütubətliliyi yüksək olduğundan adamı taqətdən salan üzücü istilər olur. Yağışlar əsasən dekabr – may aylarında, İran körfəzi üzərindən nisbətən soyuq hava kütlələrinin keçdiyi vaxtlara təsadüf edir. Yağıntı qısa müddətdə leysan şəklində düşür. Orta hesabla adalara ildə 100 -110 mm yağıntı düşür.

İl ərzində əsən şimal-qərb küləkləri (ərəblər bunu «şemal» küləyi adlandırırlar) hərdən o qədər güclü olur ki, İran körfəzində kiçik gəmilərin hərəkətinə çətinlik törədir. Bu küləklər Ərəbistan səhraları üzərindən qumları göyə sovuraraq İran körfəzi tərəfə qovur. Qonşu ərazilərin, o cümlədən adaların üzərini narın toz dumanı bürüyür. Toz dumanının arxasında, hətta Günəş də tutqun görünür. Tozlu isti hava adama şiddətli hərarət gətirir.

Bəhreyn arxipelaqında yerüstü su mənbəyi olmasa da adalar, xüsusilə Bəhreyn, Mühərrək, Sitra, Umm–Nəsən qrunt suları ilə zəngindir. Keçmişdə burada yaşayan əhali quyu qazımaq və «kuanats» adlandırılan yeraltı kanallar vasitəsilə qrunt sularını istədikləri yerə gətirib çıxara bilirdilər. Bəhreyn adasında tarixi abidə kimi qorunan kuanatslar (yeraltı kanal) eramızın IV yüzilliyinə aid edilir. Son vaxtlar neft-qaz, metallurgiya və digər sənaye sahələrinin inkişafı ilə əlaqədar ölkədə «su qıtlığı» baş verir. Qrunt sularının ehtiyatı isə azalır.

**Torpaq və bitki örtüyü**. Bəhreyndə tropik səhra landşaftı mövcuddur. Adalarda zəif humuslu torpaqlar yayılmışdır. Rütubətin çatışmaması və olduqca isti iqlim burada zəngin bitki örtüyünün inkişafına imkan vermir. Bəhreynin başlıca bitki örtüyü quraq iqlimə və şoranlaşmış torpağa dözümlü alçaq boylu kollar və cod otlarla təmsil olunur. Nisbətən geniş yayılmış bitkilər dəvətikanı və yovşandır. Adalarda quşlar, gəmiricilər və sürünənlər üstünlük təşkil edir. Sahil sularında müxtəlif balıq növləri, dəniz tısbağası, xərçəng molyuskası çoxdur. Bəhreyndə əl – Əreyn adlanan milli təbiət qoruğu yaradılmışdır.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi

Bəhreyn qədim tarixə malik olan ölkədir. Adalar haqqında ilk



məlumat eramızdan əvvəl III minilliyə aiddir. Bu ərazi müxtəlif dövrlərdə Dilmun, Sasanilər, Ərəb xilafəti və Ğərmətilər dövlətləri tərəfindən işğal olunaraq onların tərkibinə daxil edilmişdir. İlk ekspedisiyalarda arxioloqların diqqətini Bəhreyn ərazisində sərdabələr cəlb etmişdir. Bu sərdabələrin tədqiqinə 1879-cu ildə başlanılmışdır. Arxioloqların muzeylərə verdikləri tapıntılar Bəhreynin qədim tarixini açmağa, bir vaxtlar çiçəklənən şəhərlərin mənzərəsini təsvir etməyə imkan verir.

Bəlkə buna görə də qədim şumerlər onu «əbədi cənnətə» bənzədərək Dilmun adlandırmışlar. Şumerlərin bizim günlərə qədər qalmış yazılarında, Dilmun, iri ticarət və mədəniyyət mərkəzi kimi xatırlanır. Arxipelaqın əlverişli coğrafi mövqeyi, İran körfəzinin hər yerində ticarətə ağalıq etmək istəyənləri həmişə özünə cəlb etmişdir. Tarixi tədqiqatlar göstərir ki, şumerlər, finikiyalılar və aşşurlar daim bu adalarda görünmüşlər. Finikiyalılar ticarət məntəqəsi kimi adalardan daha çox istifadə etmişlər. Buraya Aralıq dənizi regionundan bitki yağı, taxıl, şərab, silah və parça gətirirdilər. Əks istiqamətdə isə Yaxın Şərq ölkələrinin qiymətli ədviyyatı, dəri, xəz, xalça, Çin çörəyi və şəkər qamışı yola salınardı. Bir vaxtlar Bəhreyn həm də qızıl ticarəti üzrə tranzit məntəqə rolunu oynayırdı. Sonradan qızıl və qiymətli daş-qaş alveri başqa əmirliklərin əlinə keçmiş, Bəhreyn isə təbii mirvari istehsalçısı kimi dünyada məşhur olmuşdur.

İslam dininin 638-ci ildə qəbul edilməsinə baxmayaraq Bəhreyndə ilk məscid 740-cı ildə tikilmişdir. Bu məscid tarixi abidə kimi indiyə qədər qorunub saxlanılır.

Özünün çoxəsrlik tarixində Bəhreyn, ya vahid dövlət olmuş, ya da kiçik şəhər – dövlətlərə parçalanmışdır. Bəhreyn tarixinin ən maraqlı səhifələrinə burada Ğərmətilər dövlətinin yaranması dövrünü aid etmək olar. İsmaililər məshəbinə etiqad edən Ğərmətilər özlərini İslam dinini yayan və «ədalət uğrunda çıxış edən» mübariz kimi qələmə verərək döyüşkən ordular yaratmışlar. Ğərmətilər müharibə etməklə yanaşı, həm də kənd təsərrüfatı və ticarətlə də məşğul olurdular. Bu dövrdə Bəhreyn çiçəklənirdi. Lakin sonralar Ğərmətilər dövləti tənəzzülə uğramış və artıq XI əsrdə bir dövlət kimi yoxa çıxmışdır.

1515-ci ildə İran körfəzində peyda olmuş portuqallar Bəhreyn üzərində öz bayraqlarını qaldırmışlar. Portuqallar bu regionda çox qalmamışlar. Daha təcrübəli müstəmləkəçi dövlət olan İngiltərə

mühüm strateji mövqeyə malik olan İran körfəzinə daxil olmaq və qədim Ərəbistan torpaqlarını ələ keçirmək üçün müxtəlif bəhanələr axtarırdı. Regionda getdikcə artmaqda olan quldurluq və qul alveri bu bəhanələrə səbəb oldu. «Quldurluğa və qul alverinə qarşı» şüar irəli sürən İngiltərə müstəmləkəçiləri İran körfəzi sahillərindəki ərazilər uğrunda mübarizəyə başladılar.

Ucuz hədiyyələrlə yerli şeyxlərin «könlünü alaraq» və «Bəhreynin təhlükəsizliyinin qayğısını çəkmək barədə» vədlər verərək, İngiltərə İran körfəzində gəmilərinin sərbəst hərəkət etmək hüququnu qazandı.

Bəhreyn ilə İngiltərə arasında ilk müqavilə 1820-ci ildə bağlanmışdır. Bu müqavilə Bəhreyni İngiltərədən tam asılı vəziyyətə salmışdır. Sonradan rəsmi London ilə Bəhreyn arasında ingiltərənin xeyrinə bir-birinin ardınca bir neçə müqavilə imzalanır. 1900-cü ildə ingilis müstəmləkəçiləri ölkədəki bütün hakimiyyəti öz əllərinə keçirirlər. O vaxtdan etibarən bütün sorğu, məlumat kitablarında Bəhreyn rəsmi olaraq Böyük Britaniyanın protektoratı kimi qeydə alınmışdır. Belə vəziyyət 1934-cü ilə qədər davam etmişdir. O vaxtlar ölkəni Böyük Britaniyanın İran körfəzi regionundakı rezidenti idarə edirdi. 1971-ci ilin axırınadək Böyük Britaniyanın İran körfəzindəki rezidentinin* nümayəndəliyi Manamada yerləşmişdir. Beləliklə, Ərəb Şərqində özünün müstəmləkəçilik siyasətini həyata keçirmək üçün Bəhreyn, Böyük Britaniyanın strateji forpostuna** çevrilmişdir.

Arxipelaqda, xüsusilə Mühərrək adasında Böyük Britaniyanın hərbi hava, Manama yaxınlığında isə hərbi dəniz bazaları yerləşirdi. Bəhreyndə hərbi bazaların saxlanılması hər il İngiltərə büdcəsinə 10 mln. funt sterlinqə başa gəlirdi. Lakin İran körfəzi əmirliklərində hasil edilən neft isə ingilis inhisarçılarına ildə 200 mln. funt sterlink təmiz gəlir gətirirdi. O vaxtlar ingilislərin bu regiondan çıxıb getməsi ağılasığmaz bir iş kimi görünürdü. Bununla belə 1960-cı illərin axırları üçün London rəsmiləri başa düşür ki, Bəhreynə müstəqillik verilməsindən heç cür qaçmaq mümkün olmayacaq. Bunu zaman özü tələb edirdi.

---

* **Rezident** – diplomatik rütbə.
** **Forpost** – Ön mövqe, ön istehkam.



1971-ci ilin 14 avqustunda Bəhreyn özünü müstəqil dövlət elan etdi. Amma «gələcəyi nəzərə alan» peşəkar ingilis siyasətçiləri İran körfəzində baş verən siyasi iqlimin dəyişməsindən faydalanmağa nail ola bilmişlər. Onlar Bəhreyn ilə «Dostluq barədə» müqavilə imzalamışlar. Bu müqavilədə dövlətlərarası «məsləhətlərin keçirilməsi», «ümumi mənfəət», regionda «sabit vəziyyətin saxlanılması» və s. məsələlər nəzərdə tutulmuşdur.

Siyasətçilər yeni müqaviləni İngiltərənin Bəhreyndə öz keçmiş mövqeyini saxlamaq təşəbbüsü kimi qiymətləndirmişlər. Həqiqətən də uzaqgörən London diplomatiyası regionda apardığı siyasətdə bu dəfə də yanılmadı. Bəhreyn indi də Böyük Britaniya (həm də ABŞ) ilə sıx siyasi və iqtisadi əlaqələrə malikdir.

**Dövlət quruluşu**. Bəhreyn konstitusiyalı monarxiyadır. 2001-ci ildə keçirilmiş referendumda dövlətin yeni konstitusiyası qəbul olunmuşdur. Bu konstitusiyaya görə 1975-ci ildə buraxılmış parlamentin (Milli Məclis) fəaliyyəti yenidən bərpa olunmuşdur. 1782-ci ildən Bəhreyn əl-Xəlifə sülaləsi tərəfindən idarə olunur. Qanunverici hakimiyyət əmirə və bir palatalı Milli Məclisə məxsusdur. İcraedici hakimiyyət əmirin qardaşının rəhbərlik etdiyi Nazirlər Şürasına məxsusdur.

Ölkədə Bəhreynin Xalq Cəbhəsi adlanan bir siyasi partiya fəaliyyət göstərir. Digər siyasi partiya və həmkarlar təşkilatının fəaliyyəti qadağan edilmişdir. Ərəb əmirliklərinin hamısında olduğu kimi, Bəhreyndə də hakimiyyət bir sülalənin əlindədir. Həmin sülaləyə məxsus olan ailələr çox dəbdəbəli həyat tərzi keçirirlər.

Bəhreyn özünəməxsus xarici siyasət yeritməyə təşəbbüs göstərir. O, beynəlxalq münasibətlərdə güc işlətməmək barədə müqavilənin bağlanması, bütün dövlətlərlə dinc yanaşı yaşamaq və heç bir dövlətin daxili işlərinə qarışmamaq ideyasını müdafiə edir. Bəhreyn dövləti – BMT, Ərəb Dövlətləri Cəmiyyəti, İslam Konfransı Təşkilatının, başqa beynəlxalq və regional təşkilatların fəaliyyətində iştirak edir. Bəhreynin xarici siyasət mənafeyi əsasən region dövlətləri çərçivəsində uzlaşır. O, öz siyasətini İran körfəzinin başqa Ərəb dövlətləri, ilk növbədə Səudiyyə Ərəbistanı ilə uzlaşdırır. Buna görə də Bəhreyn 1981-ci ildə İran körfəzi Ərəb dövlətlərinin Əməkdaşlıq Şurası adlanan regional təşkilatın yaradılmasının fəal tərəfdarı olmuşdur.

Bəhreynlə yanaşı bu təşkilata Qətər, BƏƏ, Küveyt, Oman və

Səudiyyə Ərəbistanı da daxil olmuşdur. Şuranın əsas məqsədi siyasi, iqtisadi və digər sahələrdə birgə fəaliyyəti tənzimləməkdir.

Əməkdaşlıq Şurası çərçivəsində müxtəlif sahələrə də (sənaye, maliyyə, sığorta, ticarət, nəqliyyat, rabitə və s.) inteqrasiya üzrə birgə komissiyalar yaradılmışdır. Bəhreyn üçün regionla iqtisadi əməkdaşlıq, ölkənin gələcək sənayeləşdirilməsinə və inkişafına təsir edə bilən əsas vasitədir. Bəhreynin kiçik daxili bazarı, onun istehsal etdiyi metallurgiya və neft məhsullarını istehlak etmək qabiliyyətinə qadir deyildir. Əməkdaşlıq Şurası çərçivəsində inteqrasiya isə bu məhsulların satışını asanlaşdıra bilər. Şura tərəfindən qəbul edilən öhdəçilikdən biri də neft sənayesi ilə bağlıdır. Bu öhdəçiliyə əsasən, Şuranın üzvü olan hər hansı ölkədə bu və ya digər səbəblər üzündən neft hasilatı dayandırılarsa, digər üzvlər ona köməklik göstərməlidirlər. Bu da tamamilə Bəhreynin xeyrinədir.

Bəhreynin hakim dairələri Şura çərçivəsində vahid infrastrukturun, ümumi bazarın, hərbi qüvvələrin uzlaşdırılmasının zəruri olduğunu bildirirlər. Həm də mədəniyyət və təhsil sahəsində sıx əməkdaşlığın yaradılması nəzərdə tutulur.

Əməkdaşlıq Şurasının digər üzvləri kimi Bəhreyn də işğal edilmiş bütün Ərəb torpaqlarından İsrail qoşunlarının tam çıxarılmasını, paytaxtı əl-Qüds (Yerusəlim) olmaqla müstəqil Fələstin Ərəb dövlətinin yaradılması və Fələstin xalqının yeganə qanunu nümayəndəsi Fələstin Azadlıq Təşkilatının hüququnun saxlanılmasını tələb edir. Əməkdaşlıq Şurasının fəaliyyəti Bəhreynin xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir edir və Bəhreyn bir qayda olaraq onun qərarlarına tabe olur.

Son vaxtlar Bəhreyn – ABŞ münasibətləri güclənir. 1949-cu ildən etibarən Bəhreyn ABŞ-ın İran körfəzi bölgəsində yerləşdirdiyi hərbi qüvvələrin labüdlüyünü qəbul edir. Birləşmiş Ştatların 5-ci hərbi dəniz donanmasının bir qisminin əsas baza kimi Bəhreyndə yerləşdirilməsinə icazə verilmişdir. İraq – Küveyt müharibəsindən sonra 1990-cı ilin avqustunda Bəhreyn hökuməti amerkanlıların adalarda hərbi hava qüvvəllərinin bazalarını yaratmağa icazə verdi.

Manama ilə Vaşinqton arasında birgə müdafiə barədə bağlanmış sazişə əsasən hər ikisi birgə hərbi təlimlər keçirilməklə yanaşı regionda hərbi-siyasi vəziyyətin gərgin hallarında isə ABŞ-na icazə verilir ki, buraya əlavə silah və qoşun hissələri gətirsin.

Bəhreyn dövləti ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 1996-cı ilin 6 noyabrında yaradılmışdır. Dövlətin milli bayramı onun müstəqillik günüdür (16 dekabr 1971).



### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Bəhreyində əhalinin siyahıya alınması ilk dəfə 1941-ci ildə keçirilmişdir. Həmin vaxtla müqayisədə, ölkə əhalisinin sayı bir neçə dəfə artaraq 680 min nəfərə çatmışdır (2005). Əsrimizin ortalarına qədər ölkədə təbii artım aşağı idi. Sonrakı illərdə neft və digər sənaye sahələrinin inkişafı ilə əlaqədar olaraq başqa ölkələrdən gələn mühacirlərin hesabına əhalinin miqdarı xeyli artmışdır. Lakin digər Ərəb ölkələri ilə müqayisədə bu göstərici Bəhreyində hələ aşağıdır. Əhalinin təqribən 30 faizini yaşı 15-ə qədər olanlar, 68 faizini yaşı 15 – 65 arasında olanlar, 3,2 faizini yaşı 65-i keçənlər təşkil edir. Milli tərkibinə görə əhalinin 75 faizini ərəblər (yerlilər və mühacirlər), qalanını Pakistan, İran (10 faiz) və İngiltərədən (8 faiz) gələnlər təşkil edir.

İslam dini dövlət dinidir. Əhalinin 90 faizi müsəlmandır. Sünni və şiələrin sayı bərabərdir. Əhalinin qalan hissəsi digər dinlərə sitayiş edir. Şiə müsəlmanları arasında «Xomeyniçilər» də vardır. Onlar İran İslam İnqilabını müdafiə edir. Bəhreyində də «İslam hökumətinin» yaradılmasını tələb edənlər var. Bəziləri isə Bəhreynin İrana birləşdirilməsi şüarı ilə çıxış edirlər. Bütün bunlar Bəhreynin daxili siyasi həyatına əhəmiyyətli dərəcədə təsir edir.

Dövlət dili ərəb dilidir. 1971-ci ilədək rəsmi dövlət dili sayılan ingilis dili də geniş yayılmışdır. Bəhreyndə əhalinin orta sıxlığı hər kv. km-də 996 nəfərdir. Bu göstəriciyə görə Ərəb ölkələri arasında birinci yeri tutur. Əhalinin 3/4 hissəsindən çoxu Bəhreyn adasının şimalında və Mühərrək adasının cənubunda cəmləşmişdir. Bəhreyn orta ömür müddəti kişilər üçün 71, qadınlar üçün isə 75 ildir. Hər min nəfərə doğulanların sayı 20,6, ölənlərin sayı isə 3,9 nəfərdir. Əhalinin 87 faizi savadlıdır. Ölkədə iki universitet fəaliyyət göstərir. Bəhreyndə şəhər, kənd və kiçik balıqçı qəsəbələrinə bölünən yaşayış məntəqələri vardır. Şəhər əhalisinin xüsusi çəkisi 90 faizi keçmişdir. Nisbətən böyük şəhərləri Manama, Mühərrək, İssa və Sülməndir.

Manama ölkənin ən böyük şəhəri və dəniz limanıdır. Şəhərdə təqribən 200 min əhali yaşayır (2005). Şəhərin cənubunda neft-emalı və neft-kimya zavodları salınmışdır. Manama ölkədə kustar

sənətkarlığın mühüm mərkəzidir. Şəhərdə böyük gəmi tərsanələri var. Şəhərin dəniz sahilində balıq ovlanır, mirvari və sədəf əldə edilir. Manama avtomobil yolu ilə (körpü vasitəsilə) Mühərrək şəhəri ilə əlaqə saxlayır. Şəhərdə universitet, pedaqoji, peşə və orta təhsil məktəbləri fəaliyyət göstərir. Əmirin igamətgahı, ölkənin ən böyük inzibati və ticarət idarələri, xarici şirkət və səfirliklərin yaraşıqlı binaları, müasir memarlıq üslubu ilə tikilmiş mehmanxanalar, məscidlər, parklar, xurma ağacları şəhərə xüsusi yaraşıq verir. Şəhərdə beynəlxalq səviyyəli telekommunikasiya sistemi fəaliyyət göstərir.

Manamada portuqaliyalıların tikdiyi qalaların qalıqları (XVI əsr), qədim məscidlər indiyədək saxlanılır. Şəhərdə Bəhreyn sənətkarlarının qızıl, sədəf və mirvaridən məharətlə işləyib hazırladıqları qiymətli zinət əşyaları satılan Şərq bazarı, xüsusilə cəlb edicidir. Manama şəhərinin qərb hissəsində körfəzin 2000 kv. km. dayazlıq hissəsi süni sürətdə doldurulmuş və burada Yapon şirkətlərinin iştirakı ilə paytaxtın yeni ticarət mərkəzi – supermarket tikilmişdir.

1978-ci ildən fəaliyyət göstərən İran körfəzi əmirliklərinin (Bəhreyn, İraq, Qətər, Küveyt, BƏƏ və Səudiyyə Ərəbistanı) iri informasiya agentliyinin mənzil qərargahı Manamada yerləşir.

## 4. İqtisadiyyatı

Qədim dövrlərdən Bəhreyn ticarət mərkəzi kimi tanınır. Əhali vahələrdə xurma, həmçinin digər meyvə tərəvəz yetişdirir, heyvandarlıq və mirvari ovu ilə məşğul olurdu. Sənətkarlar isə birdorlu gəmilərin inşası ilə məşğul olurdu. 1932-ci ildə ölkədə neft aşkar olunduqdan və onun çıxarılmasına başlanıldıqdan sonra ənənəvi təsərrüfat sahələri arxa plana keçdi. Müstəqillik əldə etdikdən sonra ölkənin siyasi və sosial-iqtisadi həyatında əsaslı və keyfiyyətli dəyişikliklər baş vermişdir.

Müstəmləkəçilər özlərindən sonra ölkədə qəbilə-tayfa və feodal münasibətlərinin qalıqları ilə yüklənmiş köhnə ictimai struktur qoyub getmişlər. Bütün bunlara baxmayaraq Bəhreyndə kapitalist ictimai münasibətləri İran körfəzinin digər Ərəb ölkələrindən əvvəl yaranmışdır. Qətər, BƏƏ, Küveyt ilə yanaşı, Bəhreyn də yerli



ixtisaslı kadrların az olması ilə əlaqədar mühacir işçi qüvvəsindən istifadə etməyə məcburdur. Ölkədə işləyən əhalinin yarıdan çoxu (56 faiz) mühacirlərdir. Bəhreynin ümumdaxili məhsulunun (ÜDM) dəyəri 2004-cü ildə 10,0 mlrd. ABŞ dolları həcmində olmuşdur. Adambaşına düşən illik gəlir isə 18 min dollara yaxındır. ÜDM-nin illik artımı təqribən 3 faizə bərabərdir. ÜDM-un 64 faizi xidmət, 34 faizi sənaye, 1 faizi isə kənd təsərrüfatının payına düşür.

Ölkənin əmək ehtiyatları təqribən 300 min nəfərdir. Bunların təqribən 80 faizi xidmət, sənaye və ticarət sahələrində, 20 faizi idarəçilik sistemində, 1 faizi isə kənd təsərrüfatında çalışır.

**Sənayenin aparıcı sahələri**. İran körfəzinin başqa ölkələri kimi Bəhreyn də sosial-iqtisadi inkişafı və hətta əmirliyin siyasi həyatı neft və təbii qaz hasilatı ilə bağlıdır. Dövlət büdcəsinə gələn gəlirin təqribən yarısı neft və qaz sənayesi hesabınadır. Ölkədə sənaye əhəmiyyətli neft çıxarılmasına 1932-ci ildən başlanılmışdır. Artıq 1934-cü ilin dekabrında Bəhreyn nefti ilə yüklənmiş ilk tanker İran körfəzindən çıxmışdır. İlk mərhələlərdə neftdən ölkəyə gələn gəlir çox cüzi idi (hasil edilən 1 ton neftə cəmi 1,05 dollar verilirdi).

1979-cu ilə qədər neft yataqlarını Amerika şirkəti «Bəhreyn petroleum kompani» (BARKO) istismar edirdi. Səudiyyə Ərəbistanının «Arabiyen Amerikan oyl Kompanii» (ARAMKO) şirkəti də Bəhreyn adasındakı məhəlli sulardan neft çıxarırdı. 1979-cu ildən başlayaraq neft və qaz sənayesinə Bəhreyn Milli neft şirkəti (BANOKO) tam nəzarət edir. Bəhreyndə neftin ehtiyatı az olduğundan onun hasilatı ildən-ilə aşağı düşür. 2005-ci ildə cəmi 2 mln. ton neft çıxarılmışdır. Lakin neft emal edən müəssisələrin istehsal gücü ildə 14-15 mln. tondur. Bu zavodlarda Səudiyyə Ərəbistanından sualtı kəmərlə gətirilən neft emal edilir. Bəhreynin neft emalı müəssisəsi Yaxın Şərqin bu qəbildən olan ən iri müəssisələrindən biridir.

Hasilat sənayesində təbii qaz istehsalının əhəmiyyəti getdikcə artır. Ölkədə ildə 4,0 mlrd. kub $m^3$ qaz çıxarılır. Təbii qazdan butan və propan kimi qiymətli məhsullar istehsal edən müəssisə (illik istehsal gücü 280 min ton) tikilmişdir.

Alüminium istehsalı Bəhreynin sənaye sahələri arasında əhəmiyyətinə görə ikinci yeri tutur. Bu sahənin inkişafı üçün yerli yanacaqla (təbii qaz) işləyən istilik elektrik stansiyalarında alınan ucuz elektrik enerjisi geniş imkanlar açır. Manama da yerləşən

alüminium zavodu Avstraliyadan idxal olunan boksit əsasında işləyir. Ötən əsrin 90-cı illərinin birinci yarısından ilkin alüminium istehsalı üzrə ALVA şirkətinə məxsus yeganə zavodun genişləndirilməsi həyata keçirilir. Zavodun istehsal gücü 210 min tondan (1992) 460 min tona qədər (2003) artırılmışdır. Layihənin həyata keçirilməsi 1,4 mlrd. dollara başa gəlmişdir. ALVA dövlət şirkəti zavodun istehsal gücünün artırılması üçün lazım olan vəsaitin bir hissəsini Almaniyadan (12 il müddətinə 290 mln. dollar borc) və Bəhreynin bütün iqtisadi inkişaf planlarının plana keçirilməsində ona əhəmiyyətli maliyyə köməkliyi göstərən Səudiyyə Ərəbistanından almışdır. İran körfəzi regionunda baş vermiş müharibələr ilə əlaqədar bəzi layihələrin vaxtında yerinə yetirilməsi mümkün olmamışdır.

Bəhreyndə sənayenin nisbətən inkişaf etmiş digər sahəsi gəmiqayırma və gəmi təmiridir. OPEK üzvü olan Ərəb dövlətlərinin iştirakı ilə Bəhreyndə gəmiqayırma tərsanəsi və gəmi təmiri müəssisəsi tikilmişdir. Ölkədə fəaliyyət göstərən neft-kimya kompleksi Səudiyyə Ərəbistanı və Küveyt kapitalının köməyi ilə yaradılmışdır. Bəhreyndə qazma avadanlığı, boru, maye oksigen istehsal edən müəssisələr, dəniz suyunu təmizləyən qurğular və bir neçə istilik elektrik stansiyaları vardır.

Bəhreyndə kustar sənətkarlığın tarixi qədimdir. Ölkədə yaşayan əhali çoxdan bəridir ki, dənizdən mirvari çıxarmaq vərdişinə yiyələnmişdir. Bəhreynin qara mirvarisi, yaxud yerlilərin «balıq gözü» adlandırdıqları mirvari barədə əfsanələr vardır. Bu qiymətli mirvarinin qədrini bilən ingilis müstəmləkəçiləri uzun illər ölkənin bu sərvəti üzərində ağalıq etmişlər. Neft və təbii qaz ehtiyatlarının kəşfinə qədər mirvari ovu və onun ixracatı ölkə əhalisinin əsas gəlir mənbəyi olmuşdur. Təsərrüfatın bu sahəsi ötən əsrin 30-cu illərində ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Sonradan yaponların dünya bazarına süni mirvari çıxarması Bəhreyndə mirvari vətəgələrinin azalmasına və bu sahənin tənəzzülünə səbəb olmuşdur. Lakin buna baxmayaraq bəhreynlilər bu qədim peşələrini unutmamışlar. Dənizdən yenə də mirvari, süngər çıxarılır, balıq ovlanır. Neft sənayesinin inkişafı, həm də son illərdə regionda baş vermiş müharibələrin ağır ekoloji nəticələri ilə əlaqədar İran körfəzinin çirklənməsi balıqçılıq təsərrüfatına böyük ziyan vurmuşdur.

Bəhreyn hökuməti ölkənin əlverişli coğrafi mövqeyindən və formalaşan siyasi-iqtisadi imkanlarından (inkişaf etmiş nəqliyyat



infrastrukturu, rabitə və b.) istifadə etməklə Yaxın və Orta Şərq regionunda başlıca işgüzar və maliyyə mərkəzinə çevrilmək barədə müəyyən tədbirlər həyata keçirir. Ölkədə beynəlxalq yarmarka üçün iri sərgi kompleksi müvəffəqiyyətlə işləyir. 2005-ci ildə Bəhreynə 2,5 mln. nəfər xarici turist və işgüzar adamlar gəlmişdir. Onların tələbatlarını ödəmək üçün mehmanxana, restoran və başqa xidmət sahələri genişləndirilir.

**Kənd təsərrüfatının apırıcı sahələri**. Bu sahə zəif inkişaf etdiyindən əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmir. O, ümummilli məhsulun cəmi 1 faizini verir. Əkinçilik yalnız süni suvarma şəraitində mövcuddur. Ölkə ərazisinin cəmi 4 faizi kənd təsərrüfatı üçün yararlıdır. Bu sahənin isə 2/3 hissəsi xurma plantasiyalarına ayrılmışdır. Kənd təsərrüfatına yararlı olan digər torpaq sahələrində sitrus meyvələri, bostan-tərəvəz, az miqdar isə dənli bitkilər (buğda, arpa, qarğıdalı) becərilir. Bağlarda ərik, armud, gavalı, manqo, üzüm yetişdirilir. Ölkənin paytaxtının yerləşdiyi sahə yaşıllığına görə, xüsusilə seçilir. Yollar və küçələr boyunca, parklarda və həyətyanı sahələrdə xurma, qoz, püstə ağacları əkilmişdir. Ölkədə hər il 40-45 min ton xurma yığılır.

Otlaq sahələri məhdud olduğundan heyvandarlıq da zəif inkişaf etmişdir. Ölkədə qaramal, qoyun və keçi saxlanılır. İldə orta hesabla 4-5 min ton ət istehsal edilir.

Bəhreyndə kənd təsərrüfatı və əhalinin ərzaq təminatı problemləri üzrə məşğul olan xüsusi komissiya işləyir. Komissiya kənd təsərrüfatı istehsalının müxtəlif, o cümlədən suvarma məsələlərini öyrənir. Komissiyanın fikrincə əgər «neft dollarları» bir tərəfdən əhalinin həyat səviyyəsini artırmışsa, digər tərəfdən isə əvvəllər kənd təsərrüfatı məqsədilə istifadə edilən torpaq sahələrində şəhərlərin və iri müəssisələrin salınması və genişləndirilməsi, əkin sahələrinin suvarılması üçün istifadə edilən suyun getdikcə daha çox sənaye və məişət xidmət sahələrinə verilməsi, kənd təsərrüfatı məhsullarının azalmasına səbəb olmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində əhalinin ərzaq məhsullarına olan tələbatının 90 faizi idxal hesabına ödənilirdir. Ölkə əhalisinin ərzaq məhsulları ilə təmin edilməsi imkanları üzrə aparılan tədqiqatların nəticələrindən əldə olur ki, 2005-ci ildə ərzaq məhsulları istehsalı 50 faiz artmış, faraş tərəvəzə olan tələbat 26 faiz, süd və süd məhsullarına 30 faiz, yumurta və balığa olan tələbat 100

faiz ödənilmişdir.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi**. Bəhreyndə nəqliyyatın başlıca sahəsi gəmiçilikdir. Manamada beynəlxalq miqyasda dəniz gəmiçiliyi ilə məşğul olan ondan artıq xarici şirkətin şöbələri vardır. Beynəlxalq standartlara cavab verən liman Salman şəhərindədir. Digərləri isə Manama və Sitra şəhərlərindədir. Sitra limanından əsasən neft və qaz məhsulları ixrac edilir. Bütün limanlarda yenidənqurma işləri aparılır. Belə ki, gəmilərin ərzaq və su təhcizatı üçün anbarlar tikilir, tranzit gəmilər üçün körpülər genişləndirilir, yükləmə-boşaltma mexanizmləri təkmilləşdirilir. Bütün bunların İran körfəzi ölkələrinin iqtisadiyyatının sürətli inkişafı sayəsində Bəhreyn limanlarının yük dövriyyəsi ildən-ilə artır.

Bəhreyndə dəmir yolu yoxdur. Avtomobil yollarının uzunluğu 3200 km-ə bərabərdir. Bunun 2430 km-i bərk örtüklü yollardır. Ölkədə 3 təyyarə meydanı fəaliyyət göstərir. Beynəlxalq dərəcəli təyyarə meydanı Mühərrək adasında yerləşir.

Bəhreyn həm xarici, həm də daxili rabitə vasitələri (İran körfəzində ən güclü radiostansiya, yerin süni peykindən istifadə etməklə teleks və telefon əlaqələri stansiyası) ilə yaxşı təchiz olunmuşdur.

**Xarici ticarət**. Bəhreyni adətən «İran körfəzinin ticarət evi» adlandırırlar. Ticarət mərkəzi kimi o, çox-çox əvvəllərdən şöhrət qazanmışdır. Məhdud təbii ehtiyatlara malik olan, lakin əlverişli coğrafi mövqedə yerləşən kiçik ölkə üçün ticarət iqtisadiyyatın həmişə mühüm tərkib hissəsi olmuşdur. Əsrlər boyunca bu kiçik arxipelaq ticarət məntəqəsi kimi, burada yaşayan əhali isə tacir, dənizçi və mirvari ovçusu kimi tanınmışdır. Mirvari ovu tənəzzülə uğrasa da ticarət əvvəlki kimi ölkə iqtisadiyyatında böyük rolunu saxlamaqda davam edir. İqtisadçıların fikrincə müasir dövrdə Bəhreynin regional ticarət mərkəzi kimi «çiçəklənməsinin» başlıca amili İran körfəzində ağır sənayenin inkişafı ilə də əlaqədardır. Məhz elə bu amil Bəhreynin geri ixrac (reeksport) məhsulları mərkəzi kimi rolunu gücləndirir.

Geri ixrac əməliyyatından ölkə xeyli miqdarda gəlir əldə edir. Geri ixracatda parça, paltar, ev əşyaları, ərzaq məhsulları, oduncaq, dəzgah, metal avadanlıqları, sement və s. məhsullar üstünlük təşkil edir. Digər ölkələrdən alınan bu məhsullar Küveyt, Qətər, Səudiyyə Ərəbistanı və İrana satılır. Bəhreyn idxal etdiyi məhsullarının 40 faizini ixrac edir.



Bəhreyn neft, neft məhsulları, alüminium, plastik kütlə və s. ixrac edir. Başlıca olaraq sənaye və kənd təsərrüfatı avadanlıqları, nəqliyyat vasitələri, ərzaq məhsulları, sənaye malları və tikinti materialları idxal edilir. Ticarət etdiyi ölkələr Yaponiya, ABŞ, Böyük Britaniya, Almaniya, Hindistan, Səudiyyə Ərəbistanı, Avstraliya İttifaqı və başqalarıdır.

**Maliyyə sistemi**. 1975-ci ildən sonra Bəhreyn beynəlxalq bank mərkəzinə çevrildi və 2000-ci ilədək ölkədə 80-dən artıq xarici bank filialı açıldı. Ərəb ölkələrinin ticarət banklarının əksəriyyətinin Bəhreyndə şöbələri fəaliyyət göstərir. Ölkənin milli gəlirinin təqribən 20 faizi müxtəlif maliyyə əməliyyatlarından əldə edilən gəlirin payına düşür. İran körfəzində son illərdə baş vermiş böhranlarla əlaqədar digər Ərəb əmirlikləri kimi Bəhreyn də müəyyən mənada zərər çəkmişdir. Ölkənin maliyyə bank sisteminə və sənayesinə xüsusilə böyük ziyan dəymişdir. Bu zərərin bir hissəsinin neftdən gələn gəlirin hesabına ödənilməsinə baxmayaraq maliyyə vəsaitinin çatışmaması ilə əlaqədar Bəhreyn ölkənin iqtisadi inkişafı üzrə nəzərdə tutulan bəzi layihələrin həyata keçirilməsini müvəqqəti dayandırmağa məcbur olmuşdur.

Ölkənin pul vahidi Bəhreyn dinarıdır. Təsbit edilmiş kursa görə 0,38 dinar 1 ABŞ dollarına bərabərdir (2005). 1975-ci ildən etibarən Bəhreyndə offşor bank əməliyyatlarının keçirilməsinə icazə verilmişdir. Hazırda ölkədə onlarca offşor bank fəaliyyət göstərir.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ*

### 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqeyi.** Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Ərəbistan yarımadasının şərq hissəsində, İran və Oman körfəzləri sahillərində yerləşir. Ölkə qərbdən və cənubdan Səudiyyə Ərəbistanı Məlikliyi və Oman Sultanlığı ilə həmsərhəddir. Lakin bu sərhəd Rub-əl-Xali səhrası boyunca keçdiyindən dəqiq müəyyənləşdirilməyib. Əmirliklərin quru sərhədlərinin uzunluğu 867, dəniz sərhədlərinin uzunluğu isə 1318 km-dir. Sahil xəttindən materikin daxilinə doğru ölkənin ərazisi 100-150 km məsafədə uzanır.

* Ərəbcə adı «əl-İmarat əl-Arabiyyə əl-Muttəhidə»dir.

Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik: Abu-Dabi, Dubay, Şərca, Əcman, Rəs-əl-Heymə, Umm-əl-Qayveyn və Füceyrə daxildir. İran körfəzindəki onlarca böyük və kiçik ada BƏƏ-nin ərazisinə daxildir. Ölkənin ümumi ərazisi 83,6 min kv. km-dir*. Ərazicə ən böyük əmirlik Abu-Dabi (federasiya ərazisinin 87 faizi), ən kiçik isə Əcmandır (ərazinin 0,3 faizi).

Əmirliklərin qonşu dövlətlərlə ərazi mübahisələri mövcuddur. 1974-cü ilin avqustunda ərazi və sərhəd məsələləri üzrə BƏƏ və Səudiyyə Ərəbistanı arasında bağlanan müqaviləyə əsasən Abu-Dabi əmirliyinin şimal-qərbində yerləşən ərazinin bir hissəsi Səudiyyə Ərəbistanına verilmişdir. Eni 50 km-dən 80 km-ə qədər olan bu «dəhliz» Səudiyyə Ərəbistanın daxili hissəsini İran körfəzi ilə birləşdirir. Bu «dəhliz» hesabına Səudiyyə Ərəbistanın Qətər yarımadasının şərqindən İran körfəzinə çıxış əldə edə bilmişdir. Lakin «dəhliz»-in daxil olduğu məhəlli və şelf suları əvvəllər olduğu kimi yenə də BƏƏ-nin tam tabeliyindədir.

1999-cu ildə Oman Sultanlığı ilə sərhədlərin dəqiqləşdirilməsi barədə danışıqlara başlanılmışdır. İran körfəzində yerləşən Abu Musa Böyük Tombe– Bozorq adalarının BƏƏ-nə və ya İrana məxsus olması barədə mübahisələr davam etməkdədir, baxmayaraq ki, rəsmi Tehran 2000-ci ildə əlveşli strateji mövqedə yerləşən bu adaların ona məxsus olması barədə bəyanat vermişdir.

BƏƏ-nin coğrafi və geosiyasi mövqeyinin əlverişliliyi onun Yaxın Şərq regionu neftinin daşındığı əsas yolların yaxınlığında, İran və Oman körfəzləri sahilində yerləşməsi ilə müəyyən edilir. Xüsusilə İran körfəzini Hind okeanı ilə birləşdirən ensiz Hörmüz boğazına çıxışın iqtisadi və strateji əhəmiyyəti böyükdür. Ölkənin ən iri limanları Abu-Dabi, Rəşid, Cəbəl-Əli, Şərca, Rəs-əl-Heymə, Füceyrə, İran və Oman körfəzləri sahillərində yerləşir.

**Səth quruluşu və faydalı qazıntıları.** Əmirliklərin ərazisi İran körfəzinin cənub sahili boyunca Qətər yarımadasından Müsəndam yarımadasınadək 700 km məsafədə uzanır. Sahillərinin kəskin parçalanması nəticəsində bir sıra qumlu dillər əmələ gəlmişdir. Təbii-coğrafi xüsusiyyətlərinə görə ölkədə 4 təbii bölgə ayrılır: İran körfəzi sahili; Materik yaylası; Oman körfəzi sahili; Dağlıq ərazi.

İran körfəzi sahili təbii bölgəsi ensiz, hamar düzənlikdir. Düzənliyin dəniz səviyyəsindən orta hündürlüyü 30-50 metrdir. İran körfəzi sahili bölgəsinin qərbindəki şoranlıqlar qumlu-çınqıllı sahələrlə növbələşir. Bölgənin şərq hissəsi qərbinə nisbətən dərətəpəlidir.

Materik yaylası təbii bölgəsi İran körfəzi sahili təbii bölgəsindən cənubda yerləşir. Yaylanın dəniz səviyyəsindən orta hündürlüyü 100-150 metrdir. Əmirliklərin ərazisinin 2/3 hissəsini əhatə edən materik yaylasının şimalını əd-Dəfra təbii sətti tutur. Yayladakı şoranlıqlar daşlı və qumlu səhralarla əvəz olunur. Səhralarda hərəkət edən qumlar Əmirliklərin əksəriyyəti üçün təbii «bəla» sayılır. Şərqə və cənuba doğru qum təpələri daha geniş sahədə yayılmışdır. Nisbətən məhsuldar torpaqları ilə fərqlənən əl-Batin düzənliyinin cənubunda Səudiyyə Ərəbistanı, Oman və Yəmən dövlətlərinin ərazisinə qədər uzanan qum təpələri qərbdə Rub-əl-Xali səhrası ilə qovuşur. Yaylada vahələr çoxdur. Abu-Dabi əmirliyində yerləşən əl-Ayn və Liva ölkənin ən böyük vahələridir. Təqribən 100 km məsafədə uzanan əl-Ayn vahəsini İran körfəzindən qumlu tirələr ayırır. Əvvəllər bu sahəni keçmək üçün dəvələrdən istifadə edilirdi və bu yol yorucu sayılırdı. İndi isə vahəyə sürətli avtomobil magistralı çəkilmişdir.

Vahə yaxınlığında yerləşən yaşayış məskənləri dağlardakı bulaq sularından istifadə edirlər. Vahənin indiki sakinlərinin əcdadları orijinal yeraltı kanalllar sistemi tikmişlər. Daşla hörülmüş kanallar su mənbələrindən vahəyə qədər 30 km uzanır. Su öz təbii axarı ilə gəlir. Vahənin özündə kanalın dərinliyi 10-15 metrə çatır. Əvvəllər yeraltı çənlərə yığılan suyu adi quyularda olduğu kimi çıxarırdılar. İndi suyu nasoslar vasitəsilə səthə qaldırırlar. Vahənin özü də yeraltı sularla zəngindir.

Abu-Dabi əmirliyinin paytaxtından təqribən 150 km cənub və cənub-şərqdə yerləşən Liva vahəsi əslində zəncirvarı halda düzülmüş 30 kiçik vahələrdən ibarətdir. Bu vahələr səhranın qum təpəlikləri arasında qövs şəklində təqribən 60-80 km məsafədə uzanır. Vahələrdəki yeraltı sular səthə çox yaxın yerləşmişdir. Torpaqların yüksək dərəcədə şoranlaşdığı bu vahələrdə Şərqi Ərəbistanın ən iri ağacı sayılan xurma palmaları yaxşı böyüyür. Hündür gövdəsi və lələkli çətiri olan palma səhralarda az-az görünən yaşıl vahələrə

* Bəzi mənbələrdə ölkənin ərazisi 83,6 min kv. km, digərlərində isə 78 min kv. km göstərilir.

xüsusi mənzərə verir.

Demək olmaz ki, BƏƏ-nin təbii mənzərəsi yekrəngdir, cansıxıcıdır. İndi səhraya «hücumlar» edilir, burada yeni-yeni sənaye müəssisələri, kənd təsərrüfatı fermaları, yaşayış qəsəbələri salınır. Səhralarda uzanan neft buruqlarını, betondan tikilmiş boz rəngli müəssisələri, tez-tez tünd yaşıl rəngə bürünmüş vahələr əvəz edir. Bu vahələr səhraya sərilmiş yaşıl xalçaya bənzəyir və ətrafa gözəllik verir.

Oman körfəzi sahili təbii bölgəsi (bu bəzən əş-Şemaliyə vadisi də adlanır) şimalda və cənubda Əmirliklər ilə Oman arasındakı sərhəd boyunca yerləşir. Şərqdə zəif parçalanmış sahil xətti, qərbdə isə Oman dağ sistemindən ayrılan qollarla həmsərhəddir. Əş-Şemaliyə vadisinin uzunluğu 75-80, eni isə 10-15 km-dir. Füceyrə rayonunda vadinin eni 25 km-ə çatır.

Dağlıq təbii bölgəsi Oman körfəzi sahili boyunca uzanan dağ sisteminin bir hissəsini əhatə edir. Bu bölgənin ən hündür yeri əl-Əhdar dağlarındadır (məsələn, Şam dağında hünd. 3353 m). Əl-Əhdar dağları ilə Müsəndam yarımadasındakı bölgədə Qərbi Həcər (hünd. 1643 m) və Ruus-əl-Cəbəl (hünd. 2194 m) dağları yerləşir. Qərbi Həcər dağları Füceyrəni digər Əmirliklərdən ayırır. Dağ dərələri və dağətəyi sahələrdə aşınma nəticəsində illər boyu yığılan aşınma materialları məhsuldar torpaq örtüyünün yaranmasına səbəb olmuşdur.

Birləşmiş Ərəb Əmirliklərində qiymətli faydalı qazıntılar – neft, təbii qaz, dəmir filizi, daşduz, uran, xromit, nikel, mis, platin, boksit, maqnezit, asbest və s. aşkar edilmişdir. Neft və təbii qaz yataqları daha tez mənimsənilmiş, digərləri isə hələ də tədqiq edilməkdədir. Məsələn, dağlıq bölgədə yerləşmiş Rəs-əl-Heymə əmirliyinin faydalı qazıntılarla zəngin olması məlumdur.

Əmirliklərin ən mühüm sərvəti dünyəvi əhəmiyyətə malik olan neft və təbii qazdır. Əmirliklərin ərazisində və ona məxsus şelf zonasında İran körfəzi neft-qaz hövzəsinə aid iki areal (Qətər-Hörmüz və Murban) yerləşir. Qətər – Hörmüz arealında Umm – Şeyf, Əl-İdd-Əş-Şarqi, Murban arealında isə Bu – Qəza, Abu Cidu, Murban ən böyük neft-qaz yataqlarıdır. Murban, Bu – Qəza və Adu Cidu yataqlarının hər birinin neft ehtiyatı təqribən 500 mln. tondur. Ölkə üzrə neft ehtiyatı isə 12,95 mlrd. tondur. Bu göstəriciyə görə Yaxın və Orta Şərq regionunda 5-ci yeri (Səudiyyə Ərəbistanı, İran,



İraq, Küveyt) tutur. Təbii qaz ehtiyatı isə 6,0 trln. kub metrdən çoxdur (2005).

**İqlimi və hidroqrafiyası.** Əmirliklərin ərazisində iqlim xüsusiyyətlərinə görə bir-birindən fərqlənən Qərb və Şərq zonası ayrılır. İran körfəzi bölgəsinə aid edilən Qərb zonasında qış mövsümündə (dekabr-fevral) gündəlik temperatur müsbət 20-35 dərəcəyə çatan mülayim isti, yayda isə (iyul-avqust) temperatur tərəddüdü 38-50 dərəcə olan çox isti hava hakim olur. Bu zonada çox nadir hallarda temperatur müsbət 5-10 dərəcəyədək aşağı düşür. Qərb zonasında həm qışda, həm də yayda gecə və gündüz temperatur tərəddüdü nisbətən kəskin olur. Yayda gecə temperatur 20, qışda isə 15 dərəcəyədək aşağı düşür. Sahildə rütubət yüksək olduğundan (85 – 95 faiz) nəfəs almaq belə çətinləşir.

Oman körfəzi bölgəsinə aid edilən Şərq zonası tropik qurşaqda yerləşdiyindən burada bütün il boyu tropik hava kütlələri hakim olur. Ona görə də bu zona quraqlığı və yayda tozlu hava axınının üstünlüyü ilə seçilir. Şərq zonasında iqlimin formalaşmasına Oman körfəzi ilə birlikdə Ərəbistan dənizindən gələn yay və qış mussonları da böyük təsir göstərir. Qış mussonlarının təsiri ilə Oman körfəzinin sahil bölgələrində temperatur 20, dağlıq rayonlarında isə 10 dərəcəyədək aşağı düşür. Əl-Batin ovalığı, Qərbi Həcər və Ruus-əl-Cəbəl dağlarının ətəkləri yay mussonlarının təsirinə məruz qaldığından iyul ayında sahildə və dağ dərələrində temperatur 25-26 dərəcə təşkil edir. ölkənin qərbinə il ərzində 100 mm (daxili səhralarda 70-80 mm) yağıntı düşür. Burada yerləşmiş Rəss-əl-Heymə ən çox yağıntı alan əmirlikdir (200-300 mm). Ölkənin şərqində yağıntıların miqdarı Qərbə nisbətən çoxdur (il ərzində 200-250 mm).

Birləşmiş Ərəb Əmirliklərində çay, göl və digər yerüstü su mənbələri yoxdur. Yeraltı sular yeganə həyat mənbəyidir. Hələ qədim zamanlarda burada yaşayan tayfalar quyu qazıb yeraltı sulardan istifadə vərdişlərinə yiyələnmişlər. Quyular ətrafında vahələr yaranmışdır. Bunlardan ən böyükləri Liva və Büreym vahələridir. Vahələrdə yaşayış məntəqələri salınmış, sonralar bu məntəqələr böyüyərək şəhərlərə çevrilmişdir. Abu-Dabi, Dubay, Şərca vahələrdə yaranan şəhərlərdir.

Qətərdə olduğu kimi yeraltı sular ölkənin bəzi yerlərində o qədər çoxdur ki, qumlar və daşlar arasında bataqlaşmış sahələr əmələ

gətirmişlər. Ölkədə yeraltı suların olmasına baxmayaraq su problemi çox kəskindir. Suya olan tələbatı ödəmək üçün dəniz suyunu təmizləyən qurğular tikilir.

**Torpaq və bitki örtüyü.** BƏƏ səhraları daşlı-çınqıllı, daşlı-qumlu səth örtüyünə malikdir. Sahildə bataqlaşmış və lilli sahələr, şoranlıqlar (səbhlər) üstünlük təşkil edir. Dağ dərələrində, Əş-Şemaliyə vadisində məhsuldar dağ-qırmızı torpaqlar, Rəss-əl-Heymə əmirliyi və əl-Büreym rayonunda qırmızı-qonur torpaqlar yayılmışdır.

BƏƏ quru səhra və yarımsəha, çılpaq qayalı dağlar, vahələr və nisbətən məhsuldar dağ vadiləri olan ölkədir. Ərazisində təbii meşə massivi yoxdur. Bəzi yerlər kol bitkilərindən də məhrumdur. İran və nisbətən Oman körfəzi sahillərində kserofit səhra çöl bitki örtüyü, sahildən materikin daxilinə doğru uzaqlaşdıqca səhranın yarımkol bitkiləri, dağların ətəkləri və vadilərdə subtropik bitkilər yayılmışdır. Vahələr və vadilərdə xurma və meyvə ağacları bitir. Ölkənin İran körfəzi sahillərindən 10 km-lə aralı yerləşən əraziləri şoranlaşmış qumlarla örtülmüşdür. Yeraltı sular səthə çox yaxın yerləşdiyindən tezliklə buxarlanan nadir yağışlardan sonra, günəşin qızmar şüaları altında geniş sahələr qar kimi ağ duz ilə örtülür.

Yerli torpaq örtüyü ilə tanış olan xarici mütəxəssislər, əkin və biçin üçün bu torpaqların yararsız olduğunu sübut etməyə çalışırdılar. Lakin ölkənin hakim dairələri inanırlar ki, əmirliklərin gələcək nəsli bağ-bağçaya bürünmüş bir ölkədə yaşayacaqlar. Artıq indinin özündə BƏƏ-də 80 mln.dan artıq ağac əkilmişdir. BƏƏ ilə oxşar iqlimə malik olan Avstraliya, Cənubi Amerika və Cənub Şərqi Asiya bölgələrindən gətirilən bitkilərin yetişdirilməsi üçün ölkədə bir neçə meşə təsərrüfatı sahələri yaradılmışdır. BƏƏ-də təbiətə qayğı ilə yanaşırlar. Onu qorumaq məqsədilə Əmirliklərdə qoruq və yasaqlıqlar yaradılmışdır.

Əmirliklərin heyvanat aləmi həddən artıq kasıbdır. Burada ceyran, dovşan, sürünənlərdən isə kərtənkələ və ilanların müxtəlif növləri yayılmışdır. İran körfəzin sahilində quşlar çoxdur. Oman körfəzi müxtəlif növ balıqla zəngindir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Müasir BƏƏ-nin ərazisi çox qədimdən məskunlaşmışdır.



Qazıntılar zamanı tapılan insan və heyvan heykəlləri, həm də başqa tikililərin qalıqları, vahələrin əkinçiliklə məşğul olan əhalisinin yüksək mədəniyyətə malik olduqlarını sübut edir.

XVI əsrin başlanğıcında İran körfəzi sahilində yerləşən ölkələrin tarixində əsaslı dönüş baş vermişdir. Bu dövrdən körfəzin sahillərində ilk Avropa müstəmləkəçiləri görünməyə başlamışdır. 1507-ci ildə Hörmüz boğazına daxil olan Portuqaliya hərbi donanması bu yerləri zəbt edərək İran körfəzinin Ərəbistan sahillərində Portuqaliya ağalığını bərqərar etdi. Lakin Osmanlı imperiyası bu regionda öz mövqeyini əldən verməmək üçün, XVI əsrin axırlarına qədər Portuqaliya ilə mübarizə aparmışdır. Sonradan İran körfəzi regionuna sahib olmaq üçün yeni iddiaçılar: İngiltərə və Niderland meydana çıxır.

İran ilə Portuqaliya arasındakı ziddiyyətlərdən bacarıqla istifadə edən İngiltərə portuqaliyalıları bu regiondan sıxışdırmış və 1623-cü ildə sonradan özlərinin İran körfəzində başlıca dayaq məntəqəsi olan Hörmüzü tuta bilmişdir. İngiltərə və Portuqaliya arasında gedən rəqabət 100 ildən artıq davam etmiş və İngiltərənin qələbəsi ilə bitmişdir. Bu dövrdə İngiltərə İran körfəzində Niderlandı da sıxışdırıb aradan çıxara bilmişdir.

XVIII əsrin axırları və XIX əsrin əvvəllərində Osmanlı imperiyasının zəifləməsi ilə əlaqədar İngiltərənin İran körfəzi bölgəsini zəbt etmək cəhdləri daha da güclənir. Yerli tayfalar İngiltərəyə kəskin müqavimət göstərirdilər. Regionun dənizçi və təcrübəli döyüşçülər olan sakinləri dəniz ticarəti üzərindəki mübarizəsiz heç kəsə vermək fikrində olmadığından daima ingilis gəmilərinə hücum edirdilər. Beləliklə, İngiltərə «dəniz quldurlarına» qarşı mübarizə etmək bəhanəsi ilə əslində müstəmləkəçiliyə qarşı çıxan yerli əhalinin müqavimətini qıra bilmiş və İran körfəzi bölgəsinin ticarət yolları üzərində nəzarəti öz əlinə ala bilmişdir. XVIII-XIX əsrlərdə Avropa müstəmləkəçiləri İran körfəzi bölgəsində ərəb tayfalarının ciddi müqaviməti ilə qarşılaşdıqlarından buranı «Quldur sahili» adlandırmışlar. 1853-cü ildə İngiltərə hökuməti bu xoşagəlməz adı «Müqavilələli sahil» adı ilə əvəz etmişdir. Bir qədər sonra isə onu «Müqavilələli Oman» adlandırmışlar.

İran körfəzi perspektivli neftli bölgələrinə nəzarət uğrunda mübarizənin kəskinləşdiyi ötən əsrin 30-cu illərində, London protektorata daha çox fikir verməyə başlayır.

İkinci dünya müharibəsi zamanı əmirliklərin bir sıra hərbi obyektlərində ingilis nizamlı silahlı qüvvələrinin yerləşdirilməsi, həm də ABŞ qoşunlarının Bəhreynə çıxarılması həyata keçirilir.

1968-ci ilin 18 fevralında Abu-Dabi hakimi Şeyx Zahid ilə Dubay hakimi şeyx Rəşidin görüşü, Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaradılmasında ilk addım oldu. İki əmirliyin federasiyasının yaradılması barədə razılığa gələn şeyxlər regionun gələcək tarixinin müdafiəsi işində birgə fəaliyyətin işlənib hazırlanması üçün Müqaviləli Omanın digər əmirliklərinin və həmçinin Bəhreyn və Qətərin də bu işə cəlb edilməsini məsləhət bildilər.

Abu-Dabi və Dubay hakimlərinin görüşündən bir həftə sonra Müqaviləli Omanın 7 əmirliyinin, Qətər və Bəhreyn hakimlərinin müşavirəsi keçirildi. iştirakçılar Ərəb Ölkələri Federasiyasının (ƏÖF) yaradılması barədə müqavilə imzaladılar. İran körfəzinin mühafizəkar üsul-idarəsi tərəfindən ƏÖF-in yaradılması müsbət qiymətləndirilirdi. Federasiyanın monarxiya xarakteri daşıması isə bir sıra ictimai təşkilatların etirazına səbəb oldu.

1971-ci ildə Bəhreyn və Qətər özlərini müstəqil dövlət elan etdilər. 1971-ci ilin dekabr ayının 2-də 7 əmirliyin hakimlərinin Dubayda keçirilən qapalı müşavirəsində Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) yeni federativ dövlətin yaranması elan olundu. Əslində yeni dövlət 6 əmirlikdən ibarət idi. Çünki, Rəs-əl-Heymə əmirliyi federasiyanın tərkibinə 1972-ci ilin fevralın 10-da daxil oldu.

Əmirliklərə siyasi müstəqillik verən Böyük Britaniya BƏƏ-də güclü mövqeyini saxlamışdır. İngilislər hüquq sistemində, dövlət aparatı və orduda müşavir və mütəxəssis kimi qalmışlar. Böyük Britaniya əvvəllər olduğu kimi Şərca əmirliyində yerləşən hərbi bazalardan istifadə edir, dövlətinin silahlı qüvvəllərinə hərbi texnika, silah göndərən başlıca ölkədir. İngilis şirkətləri ilə BƏƏ arasında iqtisadi əlaqələr getdikcə daha da artır. Federasiyanın idxalatının, infrastruktur sahələrinin yaradılması üzrə sifarişlərin böyük hissəsi Böyük Britaniya tərəfindən təmin olunur.

**Dövlət quruluşu.** Birləşmiş Ərəb Əmirlikləri mütləqiyyət formalı federasiya şəklində idarə olunan dövlətdir. 1971-ci ildən müvəqqəti konstitusiya fəaliyyət göstərir.

Dövlətin başçısı Ali Federal Şura tərəfindən 5 il müddətinə seçilən prezidentdir. Prezidentin bir neçə dəfə seçilməsinə məhdudiyyət qoyulmur. 1971-ci ildən 2004-cü ilin sonlarına qədər ölkənin prezidenti



Şeyx Zahid ben Sultan ən-Nəhayyan olmuşdur. Hazırda bu vəzifəni onun böyük oğlu Şeyx Xəlifə Bin Zaid al Nəhayyan tutur.

Ali Federal Şura 7 əmirlik rəhbərlərindən ibarətdir. Şura dövlətin siyasətini müəyyənləşdirir, federal qanunvericiliyi təsdiq edir, toplantısı ildə 4 dəfə keçirilir. Abu-Dabi və Dubay rəhbərləri veto hüququna malikdirlər.

Qanunverici hakimiyyət birpalatalı Milli Federal Şuraya məxsusdur. Şuranın üzvləri (40 nəfər) əmirlik rəhbərləri tərəfindən 2 il müddətinə təyin edilir. Milli Federal Şura bütün federal siyasətin işlənib hazırlanmasına, prezidentə təqdim edilməsinə qədər qərarların, beynəlxalq razılaşma və müqavilələrin təsdiq edilməsinə, Baş nazirin, prezidentin, Ali məhkəmə üzvlərinin təyin edilməsinin və onların hər birinin istefasının razılaşmasına məsuliyyət daşıyır.

Prezident Milli Federal Şuranın hər hansı qərarına veto qoymaq hüququna malikdir. Prezident Milli Federal Şuranın sesiyasını açır, ona sədrlik edir və onu bağlayır. O, Milli Federal Şura tərəfindən bəyənilmiş qanunları, fərman və qərarları təsdiq edir, Baş naziri, onun müavinlərini, Nazirlər şurasının üzvlərini təyin edir və nazirlərin istefasını qəbul edir və s.

Ayrı-ayrı əmirliklərin hökumətlərində əsas vəzifələri hakim sülalənin nümayəndələri tutur. Abu-Dabidə bu ailə Nəhayyanlar, Dubayda Maktumlar, Şərcada və Rəs-əl-Heymədə Qasimilər, əl-Füceyrədə Şərqilər, Umm-əl-Qayveyndə Maallalar, Əcmanda Naimilərdir.

İcraedici hakimiyyət Nazirlər şurasına məxsusdur. Baş nazir Şeyx Rəşid ben Səid əl-Maktumdur (Dubayın əmiri). Müvəqqəti konstitusiyaya əsasən BƏƏ-nin mərkəzi orqanlarına nümayəndələr əmirliklərin əhalisinin sayına və iqtisadi potensialına görə müəyyən edilir. Ölkədə siyasi partiyaların və təşkilatların fəaliyyəti qadağan olunmuşdur. Dövlətin ictimai həyatında İslam qanunlarının təsiri güclüdür.

İran körfəzinin 7 əmirliyinin federasiyası olan BƏƏ çoxəsrlik gerilikdən ən müasir və güclü iqtisadiyyatı olan ölkəyə olduqca qısa müddətdə çevrilmişdir. Belə inkişafa, əsasən ölkə rəhbərliyinin xidməti sayəsində nail olunmuşdur. Məhz prezidentin göstərişi ilə neft sənayesindən qənaətlə və düzgün istifadə edilməsi ölkənin sosial-iqtisadi inkişafına səbəb olmuşdur. Ölkəyə 33 il rəhbərlik etmiş Şeyx Zahid ben Sultan ən-Nəhayyanı ölkədə əldə edilən

nailiyyətlərin «baş memarı» adlandırırlar.

Əmirliklər özünə məxsus xarici siyasət yeritməyə can atsalar da, bu siyasət haradasa Səudiyyə Ərəbistanı Məlikliyi, İran İslam Respublikası və OPEK-in siyasəti ilə uzlaşır. Beynəlxalq miqyasda onlar rəsmi Vaşinqton və Londonun siyasəti ilə həmahəng olmağa çalışırlar.

**Azərbaycan Respublikası ilə münasibətlər**. BƏƏ İran körfəzi sahil dövlətlərinin əməkdaşlıq şurasının digər ölkələri ilə birlikdə respublikamızın dövlət müstəqilliyini rəsmi olaraq ilk tanıyan dövlətlərdən biridir. Respublikamız ilə BƏƏ arasında əlaqələr tədricən inkişaf etməkdədir. 1991-ci ildə Abu-Dabidə Azərbaycan mədəniyyəti sərgisi, 2005-ci ildə isə turizm sərgisi təşkil edilmişdi. BƏƏ-nin televiziya qrupu respublikamıza gəlmiş, Azərbaycan barədə film çəkmiş və həmin filmi İran körfəzinin bütün ölkələrində bir neçə dəfə nümaiş etdirmişdir. Bununla yanaşı BƏƏ-nin prezident sarayında və Qırmızı Aypara Cəmiyyətində Qarabağda baş verən hadisələri, qaçqınların vəziyyətini, erməni terrorçularının törətdikləri cinayətləri əks etdirən foto sərgilər təşkil edilmişdir.

Azərbaycanda baş verən hadisələri düzgün və olduğu kimi dünya ölkələrinə çatdırmaq məqsədilə respublikamıza ərəb, o cümlədən BƏƏ müxbirləri tez-tez gəlirlər. BƏƏ-nin Qırmızı Aypara Cəmiyyəti respublikamızda erməni faşistlərinin törətdikləri cinayətlərdən əziyyət çəkən uşaqlara, qaçqınlara və döyüş meydanlarında yaralanan əsgərlərə ərzaq, geyim və zəruri dava-dərmanlar göndərir. BƏƏ-də Azərbaycan Respublikasına humanitar yardımın uzunmüddətli proqramı hazırlanmışdır.

BƏƏ ilə Azərbaycan Respublikası arasında əlaqələrin mühüm formalarından biri də xarici ticarətdir. Respublikamızın Asiya ölkələri ilə ticarət əlaqələrində idxalatın 6-7, ixracatın isə 3-4 faizi BƏƏ-nin payına düşür (2005). Azərbaycana BƏƏ-dən kimya və neft-kimya, maşınqayırma məhsulları, elektrotexnika avadanlığı, yüngül və yeyinti sənaye məhsulları gətirilir. Respublikamızdan BƏƏ-nə isə kimya və neft-kimya sənaye məhsulları, yeyinti sənayesi və metallurgiya məhsulları ixrac edilir.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

BƏƏ-də əhalinin ilk siyahıya alınması 1968-ci ilin mart-aprel aylarında aparılmış (o vaxt ölkə Müqaviləli Oman adlanırdı) və 180



min nəfər sakin qeydə alınmışdı. «Neft hay-küyü»ilə əlaqədar əhalinin sayı təbi artım, xüsusilə xarici mühacirlərin qonşu Ərəb ölkələri, Hindistan və İrandan gələn fəhlələrin kütləvi axını hesabına sürətlə artmış və 2005-ci illərin əvvəllərində təxminən 4,0 mln. nəfərə çatmışdır. Əhalinin ilk siyahıya alınmasından XXI əsrin əvvəllərinə qədər ölkədə yaşayanların sayı 20 dəfədən çox artmışdır. Demoqrafların hesablamalarına görə 2015-ci ildə ölkədə əhalinin sayı 6,0 mln. nəfərə qədər arta bilər.

Yerli sakinlər arasında orta illik artım sürəti digər Ərəb ölkələrində olduğu kimi, 3-3,5 faiz təşkil edir. 1968-1992-ci illər ərzində əhalinin ümumi orta illik artım sürəti isə 4,6 faiz olmuşdur. Yerli əhali arasında təbii artımın yüksəldilməsi üçün dövlət tərəfindən müxtəlif tədbirlər görülür. Məsələn, dövlət hər doğulan uşaq üçün ailəyə xeyli miqdarda pul verir. Bu tədbirlərə baxmayaraq son illər ölkənin iqtisadiyyatının sürətli inkişafı ilə əlaqədar buraya gələn immiqrantların sayı artmış və nəticədə BƏƏ-inn ümumi əhalisinin sayında yerli sakinlərin miqdarı 1968-ci ildə 40 faizdən, 1975-ci ildə 36 faizə, 2005-ci ildə isə 20 faizə enmişdir. Təsadüfi deyil ki, son illər BƏƏ hökuməti immiqarsiyanın məhdudlaşdırılması üzrə bir sıra tədbirlər həyata keçirir, ölkəyə gizli yolla gələnlər ilə mübarizəni gücləndirir. Ölkədə hər min nəfərə anadan olanların sayı 17,5, ölənlərin sayı isə 4,0 nəfərdir. Ölkə üçün orta ömür müddəti kişilər üçün 72, qadınlar üçün isə 77 yaşdır.

Birləşmiş Ərəb Əmirliklərində əhalinin ərazi üzrə orta sıxlığı 1968-ci ildə 1 kv. km-də 1,1; 1975-ci ildə 7,7 nəfər olduğu halda; 1992-ci ildə bu göstərici 35,4; 2005-ci ildə isə 40,0 nəfərə çatmışdır. Ölkədə əhali olduqca qeyri-bərabər yerləşir. Federasiyanın tərkibinə daxil olan 2 böyük əmirlikdə, Abu-Dabi və Dubayda ölkə əhalisinin təqribən 3/4, qalan bölgələrdə isə cəmi 1/4 cəmləşmişdir.

Əhalinin qeyri-bərabər yerləşməsinin birinci səbəbi federasiyanın tərkibinə daxil olan əmirliklərin iqtisadi inkişaf imkanlarının müxtəlfiliyi və bununla əlaqədar immiqrant işçi qüvvəsinə tələbatın olmasıdır. İkinci səbəb urbanizasiya prosesinin olduqca sürətlə getməsidir. Məsələn, 1968-ci ildə əhalinin ilk siyahıyaalınmada şəhərlərdə yaşayanlar ölkə əhalisinin 67,2 faizini, 1975-ci ildə (ikinci siyahıyaalınmada) 84 faizini təşkil edirdisə, 2005-ci ilin əvvəllərində bu rəqəm 90 faizi keçmişdir. Üçüncü səbəb ölkədəki yaşayış məntəqələrinin əksəriyyətinin daha əlverişli olan

körfəz sahili ərazilərdə, vahələrdə, vadilərdə və s. yerləşməsi ilə əlaqədardır.

BƏƏ-nin əhalisi müxtəlif irqi-etnik qruplardan formalaşmışdır. «Neft hay-küyünə» qədər digər ölkələrdən, ilk növbədə İrandan və Şərqi Afrikadan gələnlərin qarışığından formalaşan İran körfəzi sahilinin əhalisi Ərəbistanın daxili rayonlarında yaşayan köçərilərdən xeyli fərqlənirdilər. Sahil ərazidə yaşayan əhalinin görkəmində və bədənlərinin rəngində neqroid, şəhərlərə köçən bədəvilərdə isə avropoid irqinə yaxınlıq hiss olunur.

«Neft hay-küyü» dövründə BƏƏ əhalisinin milli tərkibi mürəkkəbləşdiyindən əmirliklər çoxmillətli ölkəyə çevrilmişdir. Əhalinin milli tərkibində ərəblərin üstünlük təşkil etməsinə baxmayaraq, yerli ərəblər cəmi 400 min nəfərdir. Qalanlar isə müvəqqəti, yaxud daimi yaşayan mühacirlərdir. Bunlara dövlət aparatında, pedaqoji fəaliyyətdə, kənd təsərrüfatında, sənayedə, mətbuatda çalışan misirlilər, Fələstin ərəbləri, iraqlılar, suriyalılar, yəmənlilər aid edilir.

Hindlilər və pakistanlılar ticarətdə özlərinin mövqeylərini möhkəmləndirmiş və hətta Əmirliklərdə bir sıra müəssisələr tikmişlər. Mehmanxana və restoranlarda bir qayda olaraq filippinlilər, yol işlərində əfqanlar və pakistanlılar çalışır. Orduda ürdünlilər, omanlılar, mərakeşlilər və bəluclar xidmət edir. Avropalıların əksəriyyəti ingilislərdir. Ölkədə iranlıların sayı çoxdur. Təkcə Dubay və Şərca əmirliklərində onların sayı 50-60 min nəfərə çatmışdır. Mühacirlər arasında yalnız ərəblərin BƏƏ vətəndaşlığı hüququ almağa ixtiyarı var. Ölkə əhalisinin milli tərkibi barədə dəqiq məlumatlar yoxdur.

Ölkənin rəsmi dövlət dili ərəb dilidir. Fars və urdu dilləri də geniş yayılmışdır. BƏƏ-nin əhalisinin 95 faizi İslam dininə etiqad edir. Yerli ərəblər arasında sünnilər (80-85 faiz) geniş yayılmışdır, Əmirliklərdə yaşayanların 75 faizi savadlıdır. Orta təhsil məcburidir. Ölkədə 4 universitet və bir neçə texnoloji kollec fəaliyyət göstərir.

BƏƏ-də məşğuliyyət probleminin xüsusiyyətləri Şərqi Ərəbistanın digər əmirlikləri üçün səciyyəvi olan əlamətləri xatırladır. İqtisadi cəhətdən fəal əhalinin 80 faizdən çoxu immiqrantların payına düşür. İşləyənlər arasında qadınların xüsusi çəkisi 3-4 faizdir. İqtisadi cəhətdən fəal əhalinin 85 faizdən artığı, daha yüksək inkişaf etmiş 3 əmirlikdə Abu-Dabi, Dubay və Şərcada



cəmləşmişdir.

Bizim günlərdə planetimizdə baş verən hər hansı bir hadisə çətin ki, insanı heyrətləndirsin. Hətta bu yaxın vaxtlara qədər xəyal sayılan Venereya (Zöhrə) və yaxud Marsa uçuş belə, indi heç kəsdə təəcub doğurmur. Lakin Ərəbistan səhrasında qısa, cəmi 30-35 il müddətində ən yeni xəritə və atlaslara belə düşməyən müasir şəhərlərin salınması, onların istirahət guşələri, təmizliyi bura gələnlərin hamısını təəcübləndirir. Həqiqətən möcüzədir. Möcüzənin sirri isə neftdir, «qara qızıl»dır.

Ölkənin paytaxtı **Abu-Dabinin** işgüzar Dubay, yaxud turizm mərkəzinə çevrilən Şərca ilə qarışıq salmaq olmaz. Bu şəhərlərin oxşar cəhətləri yalnız onların küçələrinin enli olması, avtomobillərin çoxluğu və təmiziliyidir.

Şəhərlərdəki dükanlar (supermarketlər) sanki beynəlxalq ərzaq və istehlak mallarının sərgisini xatırladır. Yeri gəlmişkən deyək ki, dükanların piştaxtalarında digər ət məhsulları ilə yanaşı, İslam aləmində qadağan edilən donuz əti də səliqə ilə düzülür. Ölkədə spirtli içkilərin qadağan edilməsinə baxmayaraq Səudiyyə Ərəbistanı, Liviya və Küveytdə ən fərqli olaraq BƏƏ-nin mehmanxanalarında onu baha qiymətə almaq olar. Məscidlər, yamyaşıl parklar, müasir avtomobilqayırma sənayesinin nailiyyətlərini nümaiş etdirən ən yeni avtomobillərin enli küçələrdə hərəkəti, şəhərlərə xüsusi yaraşıq verir.

Binaların və ofislərin ətrafındakı ərazilərin abadlaşdırılması üzrə bütün işləri, o cümlədən ümummilli proqram kimi qəbul edilmiş yaşıllaşdırmaya sərf olunan vəsaiti dövlət öz üzərinə götürmüşdür. Əl-Ayn şəhəri ətrafında kənd təsərürfatı təcrübə stansiyasında hər il 1,3 mln. ədəd dekorativ və meyvə ağaclarının tingləri yetişdirilir. Yetişdirilmiş ağac tingləri şəhərlərin, eləcə də əmirliklərin paytaxtlarını birləşdirən magistral yolların hər iki tərəfinin 200 metr enində yaşıllaşdırılması, həm də kənd təsərrüfatında meyvəçiliyin inkişaf etdirilməsi məqsədilə əhaliyə pulsuz paylanır.

Ölkənin təhsil sistemində əl-Ayn şəhərində (Büreym vahəsi) 1977-ci ildə tikilib istifadəyə verilmiş universitet mühüm rol oynayır. Ölkənin digər ali məktəblərindən fərqli olaraq əl-Ayn universitetində qadınlar üçün xüsusi bölmə fəaliyyət göstərir. Bu bölmədə də bütün fakültələr təmsil olunmuşdur. Mühazirələri eyni professor-müəllim heyəti aparır, qızlar onlar üçün ayrılmış xüsusi günlərdə eyni laboratoriyalardan və kitabxanalardan istifadə edirlər. Onlar idman

klublarına getmir. Bunun əvəzində isə qadına ailə həyatında lazım ola biləcək peşələrə yiyələnirlər. Universitetdə, demək olar ki, körfəzin bütün ölkələrindən gələn qızlar oxuyur.

Abu-Dabi Əmirliyinin və eləcə də ölkənin ən iri şəhəri onun paytaxtı Abu-Dabidir (əhalisi 750 min nəfər). Şəhərin köhnə qala tikililərinin qalıqlarından Abu-Dabinin 1793-cü ildə salındığı güman edilir. Abu-Dabi əmirliyinin sahil adalarının birində yerləşən bu şəhər yaxın vaxtlara qədər, yəni 50 il əvvəl o qədər də abad olmayan tipik Şərq yaşayış məntəqələrindən biir idi. «Neft dövründən» sonra Abu-Dabinin maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmış, şəhər 500 metrlik körpü ilə materikə birləşdirilmiş və sürətlə yenidən tikilməyə başlamışdır.

Şəhərin tikintisində Qərbin ən yaxşı layihə və tikinti şirkətləri iştirak edib. Ötən əsrin 80-ci illərinin əvvəllərində tikinti işlərinə yerli şirkətlər də qoşulmuşlar. Şəhərin mərkəz və sahil hissələrində yerli və federal hökumət idarələri tərəfindən tutulan çoxmərtəbəli müasir binalar ucaldılmışdır. Burada bankların, sığorta şirkətlərinin binaları, əmirin və onun sülaləsinin sarayları yerləşir. Ticarət mərkəzi, mehmanxana, klub və kinoteatrların binaları da buradadır.

Şəhərdə xəstəxana, ali məktəblər, üzgüçülük hovuzu və bir sıra başqa idman və istirahət obyektləri tikilmişdir. Şəhər, demək olar ki, avropalaşdırılmışdır. Əmirliyin hakim dairələri məscidlərin tikintisinə xüsusi fikir verirlər. Məscidlər radiolaşdırılmış və elektrikləşdirilmişdir. BƏƏ-nin başqa şəhərlərində olduğu kimi Abu-Dabidə də yaşıllaşdırma işləri geniş miqyasda aparılır. Şəhərin yaxşı təchiz edilmiş dəniz limanı və beynəlxalq aeroportu vardır. Paytaxt demək olar ki, BƏƏ-nin bütün yaşayış məntəqələri ilə birləşdirilmişdir. Abu-Dabi nəinki ölkənin, həm də İran körfəzi bölgəsinin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayır.

Əmirliyin daxili ərazilərində əsaslı dəyişikliklər edilir. Onların arasında Əl - Büreym vahəsi, xüsusilə Abu-Dabidən 160 km cənubda yerləşən əl – Ayn şəhəri sürətlə inkişaf etdirilir. Şəhərdə İES, sement zavodu, evtikmə kombinatı və s. fəaliyyət göstərir. Əl – Ayn Abu-Dabidən sonra əmirliyin ikinci işgüzar mərkəzinə çevrilmişdir. İran körfəzi sahilində yerləşən şəhərin 20 – 25 mərtəbəli binaları ən müasir Qərb memarlıq üslubunda tikilmişdir.



## 4. İqtisadiyyatı

Neft yataqlarının kəşfinə qədər Dubay və ondan bir qədər geridə qalan Şərca, Müqaviləli Omanın iqtisadiyyatında başlıca yer tuturdular. Bu ilk növbədə onların mirvari və digər dəniz məhsullarının satışında Qərb ölkələri məhsullarının tranzit daşınmasında özünü göstərirdi. İkinci Dünya müharibəsindən sonrakı illərdə qaçaq mal ticarəti Dubay üçün əsas gəlir mənbəyi olmuşdur. Avropadan gətirilən zərgərlik məmulatları, saat, elektrik məişət məhsulları bu əmirliyin ərazisindən gizli olaraq Cənub və Cənub-Şərqi Asiya ölkələrinə, həmin ölkələrdən isə Avropaya qiymətli daş-qaş və müxtəlif metallar daşınırdı. Həmin vaxtlar neft Dubay üçün ikinci dərəcəli gəlir mənbəyi hesab edilirdi. Dubaydan fərqli olaraq Abu-Dabi əmirliyi isə neft yataqları kəşfinə qədər kasıbçılıq içərisində yaşayırdı.

Abu-Dabidə, Dubayda və Şərcada neft yataqlarının kəşfi bu əmirliklərdə iqtisadi vəziyyətin əsaslı surətdə dəyişməsinə, sosial və demoqrafik irəliləmələrə səbəb olmuşdur. Açıq bazar iqtisadiyyatı yolu ilə irəliləyən BƏƏ ötən əsrin 70-ci illərindən başlayaraq regionda zəif inkişaf etmiş dövlətdən yüksək həyat səviyyəsinə və texnologiyalara malik bir dövlətə çevrilmişdir.

Abu-Dabi əmirliyi neft-qaz çıxarılması və emalı, Dubay ticarət kommersiya və nəqliyyat qovşağı, Şərca yüngül sənaye və kommunikasiya mərkəzi kimi, ölkə bütölükdə xarici turizm mərkəzi kimi ixtisaslaşır. 2004-cü ildə ölkənin Ümumdaxili məhsulunun (ÜDM) dəyəri 54,0 mlrd. ABŞ dollarını keçmişdir. ÜDM-da adambaşına orta göstəricisi 1995-ci ildəki 9985 dollardan 2005-ci ildə 23 min dollara qədər artmışdır. Bu göstəricəyə qədər BƏƏ regionda birinci yeri tutur.

İkinci Dünya müharibəsindən sonra Küveyt və Səudiyyə Ərəbistanı neft sənayesi ilə əlaqədar yüksək iqtisadi inkişaf səviyyəsinə çatmaq üçün 10 illərlə vaxt sərf etmişlər. Onlardan fərqli olaraq həmin inkişaf yolunu Abu-Dabi, Dubay və Şərca əmirlikləri cəmi 8-10 ilə keçmişdir. Ölkənin belə «sıçrayışında» yerli hakimlərin ağıllı və məqsədyönlü siyasətini də yüksək qiymətləndirmək lazımdır.

Dövlət rəhbərlərinin dünya iqtisadiyyatında baş verə biləcək dəyişiklikləri düzgün qiymətləndirməsi və uzaqgörənliyi sayəsində

əmirliklər qısa tarixi müddətdə «neft hay-küyünün» bəhrəsindən məharətli istifadə edə bilmiş və ölkənin sosial-iqtisadi simasını əsaslı sürətdə dəyişdirə bilmişlər. Ölkə, tikintisi böyük vəsait tələb edən iri infrastruktur sahələrini və sənaye müəssisələrinin çoxunu «neft hay-küyü» dövründə yarada bilmişdir. 1970-ci illərin «neft dollarları yağışı» dövründə neft çıxaran digər ölkələrdən fərqli olaraq əmirliklərdə lazımsız, lakin «nüfuzlu» obyektlərin, yəni «neft erasının piramidası» kimi obyektlərin tikintisinə vəsait ayrılmamışdır. Burada başlıca olaraq «XXI əsrə sıçrayış» üçün start meydançasına çevrilə bilən əsası və uzunmüddətli müəssisələrin tikintisinə kapital qoyulmuşdur.

Neft-qaz və onunla əlaqədar olan neft-kimya sənaye sahələrinin inkişafına əsaslanan BƏƏ qısa müddətdə ölkə iqtisadiyyatının təməlini qomuşdur. Ən müasir texnika və avadanlıqla təchiz olunmuş neftemalı və neft-kimya müəssisələri, aliminium, sement zavodları, təbii şəkildə və neftlə yanaşı çıxarılan qazların mayeləşdirilməsi üzrə müəssisələr, su təmizləyici qurğular, elektrik stansiyaları, polad əridən zavodlar, mineral gübrə, yuyucu maddələr və s. istehsal edən müəssisələr tikilmiş və istifadəyə verilmişdir. Yüngül və yeyinti sənaye sahələri də sürətlə inkişaf edir. Sənaye sahələrinin inkişafı ilə yanaşı, səhrada kənd təsərrüfatı plantasiyaları, heyvandarlıq fermaları yaradılmış, geniş avtomobil magistralları salınmış, dəniz və hava limanları tikilmişdir.

BƏƏ-nin milli iqtisadiyyatının özünəməxsus səciyyəvi xüsusiyyəti vardır. Bu xüsusiyyət inkişaf etməkdə olan, xüsusilə neft və digər xammal ixrac edən ölkələr üçün xarakterikdir. Ümumdaxili məhsulun strukturunda 51 faiz sənayenin, 45 faiz xidmət sahələrinin, 4 faiz isə kənd təsərrüfatının payına düşür.

**Sənayenin aparıcı sahələri**. BƏƏ-nin təsərrüfatında milli gəlirin 80 faizdən artığı neft və qaz sənayesinin, qalanları isə digər sənaye sahələrinin payına düşür. Neft axtarışı və çıxarılması ilə xarici şirkətlər məşğul olur. Onların fəaliyyətinə əmirliklərin dövlət şirkətləri nəzarət edir.

Ölkənin milli sərvəti sayılan neftin aşkar edilmiş ehtiyatı 2005-ci ilin məlumatlarına əsasən təqribən 12,95 mlrd. ton və ya dünya neft ehtiyatının 10 faizini təşkil edir. Əgər ölkədə indiki həcmdə neft və qaz çıxarılsa bu ehtiyatlar XXII əsrin əvvəllərinə qədər kifayət edər. Neft ehtiyatları başlıca olaraq Dubay və Abu-Dabi



əmirliyində cəmlənmişdir. Ölkədə hər il 65-70 mln. ton neft çıxarılır. Neft hasilatının 95 faizi iki əmirliyin Abu-Dabi (75 faiz) və Dubayın (20 faiz) payına düşür. Neft ixracatından əldə edilən gəlir onun dünya bazarındakı qiymətlərindən asılı olaraq dəyişir. Ölkədə ümumi gücü ildə 11 mln. tondan artıq olan neftemalı müəssisəsi fəaliyyət göstərir.

Birləşmiş Ərəb Əmirlikləri OPEK-in (neft ixrac edən ölkələrin təşkilatı) digər üzvləri kimi neft ehtiyatlarından səmərəli istifadə edir. Çıxarılan neftin dünya bazarı tələbatından artıq olmaması məqsədi ilə OPEK neft hasil edən hər bir ölkə üçün norma (kvota) müəyyənləşdirir.

Abu-Dabi, Dubay və digər əmirliklərdə neftlə yanaşı təbii qazda çıxarılır (ehtiyatı 5,3 trln. kub.m). Neft-qaz və onunla bağlı olan neft-kimya sənayesinin inkişafı ilə əlaqədar əmirliklərdə iri və müasir texniki tələbatlara cavab verən müəssisələr istifadəyə verilmişdir. Məsələn, Abu-Dabi əmirliyinin Umm-əl-Nar adasında neftemalı zavodu, Das adasında mayeləşdirilmiş qaz istehsal edən kompleks tikilmişdir. Dubay və Şərca əmirliklərində də müvafiq olaraq neftemalı və mayeləşdirilmiş qaz istehsal edən müəssisələr yaradılmışdır. Ölkənin digər şəhərlərində də neft və qaz ilə əlaqədar müxtəlif sənaye sahələri fəaliyyət göstərir.

Ölkədə əmək qabiliyyəti olan adamların təqribən 50 faizi neft-qaz sektorunda və ya həmin sektora xidmət sahələrində çalışır. Dubay əmirliyindəki alüminium zavodu (illik istehsal gücü 600 min ton) istehsal etdiyi məhsulun, demək olar ki, hamısını Yaponiyaya və digər ölkələrə ixrac edir. 2005-ci ildə ölkədə fəaliyyət göstərən 10 sement zavodu (Abu-Dabi, Dubay, əl-Ayn, Rəs əl-Heymə və digər şəhərlərdə) birlikdə 7 mln. ton məhsul istehsal etmişdir. Onun 4 mln. tonu ölkənin tələbatına, qalanı isə Küveytin İraq ilə münaqişəsi zamanı dağılmış binalarının, infrastruktur obyektlərinin və müəssisələrinin bərpası üçün sərf edilmişdir.

Ölkədə fəaliyyət göstərən istilik elektrik stansiyalarında hər il təqribən 20-21 mlrd. saat elektrik enerjisi istehsal edilir. Bu da ölkənin tələbatını tam ödəyir.

Ölkədə dövlət bölməsinə məxsus istehsal ilə yanaşı xüsusi bölməyə aid olan milli sənaye sahələri (sement, yeyinti, toxuculuq, kağız-selliloz və s.) də inkişaf etdirilir. Yeyinti sənayesində başlıca yeri sərinləşdirici içkilər, balıq konservi, un istehsalı tutur. Kustar sənətkarlıq, əsas etibarilə xalçaçılıq, yun parça toxuculuğu, zərgərlik

və gümüş üzərində döymə (naxışsalma) inkişaf etmişdir.

Ölkədə iki iri sənaye bölgəsi: Rusvaye (Abu-Dabidə) və Cəbəl-Əli (Dubayda) formalaşmışdır. 1985-ci ildə Dubayın 35 km-dəki, Cəbəl-Əli bölgəsində sahəsi 100 kv. km olan «Azad iqtisadi zona» yaradılmışdır. Bu bölgədə 180-dən artıq orta və kiçik müəssisə vardır. Bunların da əksəriyyəti xüsusi bölməyə (ABŞ, Yaponiya) məxsusdur. Cəbəl-Əli bölgəsində yüngül sənaye müəssisələri (toxuculuq və tikiş) üstünlük təşkil edir. Cəbəl-Əli liamının müasir səviyyədə təchizatı, qiymətlərin, o cümlədən su və enerji təminatının ucuzluğu, fəhlə qüvvəsinin bolluğu «Azad iqtisadi zonanın» əsas üstünlüyüdür.

Cəbəl-Əli «Azad İqtisadi zonasının» (AİZ) ixtisaslaşmasında ticarət-kommersiya əməliyyatları (74 faiz), sənaye (22 faiz) və xidmət sahələri üstünlük təşkil edir. Cəbəl-Əli AİZ-nın qısa müddətdə əldə etdiyi nailiyyətlər BƏƏ hökumətini yeni AİZ-lar yaratmağa sövq edir. İndii ölkədə 9 AİZ fəaliyyət göstərir. Bu göstəriciyə görə o, Ərəb ölkələri sırasında birinci yeri tutur.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Ölkədə ekstremal təbii şərait, ilk növbədə su ehtiyatları cəhətdən kasadlıq əkinçilik və heyvandarlığın inkişafını uzun müddət ləngitmişdir. Son illər şəhərlərə sürətli axın ilə əlaqədar kənd təsərrüfatı bölgələrində əhali olduqca seyrəlmişdir. 1980-ci illərin əvvəllərindən etibarən dövlət tərəfindən aparılan tədbirlər sayəsində kənd təsərrüfatında yararlı torpaq sahələri və ərzaq məhsulları istehsalı getdikcə artır.

Ölkədə becərilən torpaqların sahəsi 1980-ci ildə 4,3 min hektardan XXI əsrin əvvəllərində 40 min hektara qədər artırılmışdır. Kənd təsərrüfatına zəruri olan təbii su mənbələrinin olmaması ilə əlaqədar, ölkədə tikilmiş 22 sutəmizləyici qurğunun çoxu əkin sahələrinin suvarılmasına xidmət edir. Dövlət, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün fermerlərə pulsuz torpaq sahəsi ilə yanaşı təsərrüfata lazım olan bütün texnikanı, gübrələri və s. verir. Hətta ilk vaxtlar təsərrüfatın təşkili üçün fermerlərin iki köməkçisinin ikiillik əmək haqqının ödənilməsini də öz üzərinə götürür.

Ölkədə əsasən yüksək dərəcədə avtomatlaşdırılmış broyler, süni iqlim yarada bilən mexaniki qurğularla təchiz edilmiş südçülük təsərrüfatı və istixanalarda tərəvəzçiliklə məşğul olan təsərrüfatların inkişafına daha çox fikir verilir.

Şərca, Rəs əl-Heymə və Umm əl-Qayveyndə vahə əkinçiliyi



mövcuddur. Abu-Dabinin Büreym vahəsi kənd təsərrüfatının inkişafı üçün olduqca əlverişlidir. Son illər yeraltı sulardan istifadə etməklə burada kənd təsərrüfatı məhsulları istehsalı bir neçə dəfə artırılmışdır. Bu vahədə taxılçılıq və heyvandarlıq ilə yanaşı xurma plantasiyalarının, üzüm, sitrus meyvələri və tərəvəz əkini sahələri xeyli genişləndirilmişdir. Vahədə yetişdirilən çiyələk Avropa bazarlarında müvəffəqiyyətlə satılır. Füceyrə və Şərca əmirliklərində ənənəvi kənd təsərrüfatı məhsulları ilə yanaşı yüksək keyfiyyətli tütün də becərilir. Son zamanlar gülçülüyə diqqət artırılır. Ölkədə getdikcə iri təsərrüfatlar formalaşır.

BƏƏ-nin dağlıq ərazilərində qoyun-keçi, Rəs əl-Heymədə qara-mal saxlanılır. Sahil bölgələrdə isə balıq və mirvari ovlanılır.

Kənd təsərrüfatı məhsullarının ümumi illik yığımı 900 min t. çatmışdır. Onun 500 min t. tərəvəz (pomidor, soğan, gül kələm, şirin kartof, badımcan, xiyar və s.). 400 min t. isə meyvə təşkil edir. İldə orta hesabla 50 min t. çox ət, süd və quş əti istehsal edilir, 70 min t. artıq balıq ovlanır. BƏƏ-nin kənd təsərrüfatı əhalinin tərəvəzə olan tələbatını tam təmin edir. Taxıl və ət məhsullarına olan tələbatın isə hələ ki böyük hissəsi idxal hesabına ödənilir.

Ölkə həqiqətən «neft hay-küyü» dövründə bağ-bağçaya çevrilmişdir. Burada ağac əkini hər hansı bir Avropa ölkəsində olduğundan çoxdur. İndi, demək olar ki, elə bir meyvə və tərəvəz yoxdur ki, BƏƏ-də yetişdirilməsin. Müstəqillik əldə olunduqdan sonra əmirliklərdə 150 mln. ağac və 30 mln. xurma palması əkilmişdir.

Turizm son illərdə ölkə iqtisadiyyatın mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Əmirliklərdə turistlərə xidmət göstərən 300-dən artıq (o cümlədən yüksək səviyyəli) otel fəaliyyət göstərir. Ölkəyə hər il 3 mln. nəfərdən artıq turist gəlir. Xarici turizmdən 2,2 mlrd. ABŞ dolları gəlir əldə edilmişdir (2005). Turizmin işgüzar və digər növləri inkişaf etdirilir.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** 1960-cı illərin axırlarına qədər BƏƏ-də yeganə rabitə vasitəsi kabotaj gəmiçiliyi (bir ölkənin limanları arasında daşınan yüklər) və qoşqu nəqliyyatı idi. Başqa sahələrdə olduğu kimi «neft hay-küyü» dövründə bu sahədə də əsaslı dəyişikliklər edilmişdir. Xüsusilə xaricə yük daşınmasında başlıca rol oynayan dəniz nəqliyyatı sürətlə inkişaf etdirilmişdir. 2005-ci ildə əmirliklərin ticarət donanmasında irili-xırdalı 60-a qədər gəmi olsa da yüklərin əsas hissəsi xarici gəmilərlə

daşınır. Ölkənin keçmiş balıqçı məntəqələrində yeni limanlar tikilmiş, köhnə limanlarda isə yenidənqurma işləri aparılmışdır.

Ölkənin ən iri portları Abu-Dabi, Min ər-Rəşid və Cəbəl-Əlidir. Bu portların inkişafına və təkmilləşdirilməsinə, yükləmə-boşaltma avadanlıqlarının alınmasına 100 minlərlə vəsait sərf edilir. Min ər-Rəşid və Cəbəl-Əli portlarının həm də tranzit əhəmiyyəti vardır. Körpülərin sayına görə (102) hər ikisi dünyanın ən iri portları sırasına daxildir. Bu portlar dünyanın 120-dən artıq ölkəsi ilə müntəzəm gəmi yolu xəttinə malikdir. 2005-ci ildə Min ər-Rəşid və Cəbəl-Əli portları birlikdə təqribən 5,5 min gəmi qəbul etmişdi. Ölkədə birinci yer tutan Min ər-Rəşid portunun yük dövriyyəsi ildə 15 mln. tonu ötüb keçmişdir. Dubayda iri tankerlərin təmiri müəssisəsi fəaliyyət göstərir.

Ölkədə neft və qaz yataqlarını portlarla, neftemalı və mayeləşdirilmiş təbii qaz istehsal edən müəssisələrlə və həmin müəssisələri şəhərlərlə birləşdirən ümumi uzunluğu 2000 km-dən artıq olan onlarca boru kəmərləri çəkilmişdir.

Daxili yük daşınmasında avtomabil nəqliyyatının rolu getdikcə artır. Federasiyanın tərkibinə daxil olan əmirliklərin paytaxt şəhərləri bir-birilə yüksək keyfiyyətli avtomobil magistralları ilə birləşdirilmişdir. Avtomobil yollarını ümumi uzunluğu 500 min km-dən artıqdır. Ölkədə dəmir yolu yoxdur.

BƏƏ-də beynəlxalq əhəmiyyətli bir neçə hava limanı vardır. Abu-Dabi, Dubay və Şərcanın hava limanları ildə təxminən bir neçə mln. sərnişinə xidmət edir. Yerli əhəmiyyətli təyyarə meydanları əsasən İngiltərəyə məxsus olan keçmiş hərbi hava bazalarında yaradılmışdır. Əmirliklər hava nəqliyyatı vasitəsilə qonşu Ərəb ölkələri, həmçinin London, Beyrut, Tehran, Bakı, Moskva, Qahirə və digər şəhərlərlə müntəzəm əlaqə saxlayırlar.

**Xarici ticarət**. BƏƏ-nin başlıca ixracat məhsulları neft və ya mayeləşdirilmiş qaz, alüminium, sement, gübrə, xurma, mirvari və tütündür. İdxalatının əksər hissəsini maşın və avadanlıq, nəqliyyat vasitələri, yarımfabrikatlar, tikinti materialları, həm də əhali arasında geniş istehlak xarakteri daşıyan sənaye və ərzaq məhsulları təşkil edir. Ölkənin ticarətində, xüsusilə geri ixracın əhəmiyyəti böyükdür. Geri ixracın 75 faizi Səudiyyə Ərəbistanı, Qətər, Ürdün və Bəhreynə istiqamətləndirilir. Bu ölkələrə başlıca olaraq minik və yük avtomobilləri, tütün məmulatları, qaz turbinləri, qaldırıcı və yükləmə-



boşaltma mexanizmləri daşınır.

Əmirliklərin xarici ticarətinin 45 faizi neft və neft məhsullarının payına düşür. Ölkənin ixrac etdiyi məmulatların dəyəri 1993-cü ildəki, 23,6 mlrd. ABŞ dollarından 2005-ci ildə təqribən 60,0 mlrd. dollara qədər artmışdır. İxracatda Yaponiya (29.1 faiz), Koreya Respublikası (14,2 faiz), Hindistan (5,4 faiz), Oman (3,7 faiz), İran (2,2 faiz) kimi ölkələr üstünlük təşkil edir.

İxrac olunan məmulatların dəyəri artdığı kimi idxal olunan məmulatların da dəyəri artır. Məsələn, 1999-cu ildə idxalatın dəyəri 27,5 mlrd. olduğu halda, 2004-cü ildə bu rəqəm 33,1 mlrd. dollara çatmışdır.

Ölkənin idxal-ixrac əməliyyatlarında ABŞ (6,9 faiz), Almaniya (6,7 faiz), Yaponiya (6,5 faiz), Fransa (6,3 faiz), Çin (6,1 faiz), Böyük Britaniya (5,9 faiz), Koreya Respublikası (5,5 faiz) ilə əməkdaşlıq daha sıxdır.

BƏƏ-nin dünya ölkələri ilə iqtisadi əlaqələrinin mühüm forması xarici ölkələrə böyük miqdarda kapital qoyuluşudur. Bütün bunlar da ölkəyə gəlir gətirir. Bununla yanaşı 1971-ci ildə Abu-Dabidə yaradılmış Ərəb İqtisadi İnkişaf fondu adlanan təşkilatda BƏƏ fəal iştirak edir. Bu fonddan Asiya və Afrikanın müxtəlif ölkələrinə göstərilən köməkliklər bir neçə mlrd. dolları ötüb keçmişdir. Ölkənin pul vahidi federal dirhəmdir.

**Maliyyə sistemi.** Federasiyanın yaranmasına qədər onun tərkibinə daxil olan Əmirliklərin maliyyə sistemi müəyyənləşdirilməmişdi. Əmirliklərin xəzinəsinin o vaxtkı mədaxilini əhalidən yığılan vergi, töycü, gömrük haqqı, nadir hallarda isə Böyük Britaniya hökuməti tərəfindən verilən vəsait təşkil edirdi. Bu vəsaiti isə əmirliklərin hakimləri istədikləri kimi xərcləyirdilər.

Keçmiş Müqaviləli Oman şeyxlərinin milli valyutaları yox idi. Burada pul vahidi kimi hind rupisindən istfadə olunurdu. Kağız pullar da Böyük Britaniyanın Şərqi Ərəbistan protektoratları üçün xüsusi buraxılışını sübut edən nişanə qoyulurdu. Pul dövriyyəsində Səudiyyə rialı, İraq rialı, ingilis funt sterlinqi, ABŞ dolları və s.-dən istifadə edirdilər. 1959-cu ildə Hindistanın milli Bankında Böyük Britaniyanın Şərqi Ərəbistan protektoratları üçün «Qalf rupi» xüsusi pul vahidi buraxılmışdır.

1969-cu ildə hind rupisinin və onun ardınca «Qalf rupinin» de-

valvasiyası ilə əlaqədar Müqaviləli Omanın şeyxləri bu valyutadan imtina etmişdi və «Qalf rupi» Səudiyyə Ərəbistanı rialı ilə əvəz olundu. Təqribən 2 ildən sonra aydın oldu ki, bu valyutadan istifadə edilməsi Əmirliklərdə Səudiyyə Ərəbistanının mövqeyini gücləndirir. Elə buna görə də ingilis müdiriyyətinin təkidi ilə Səudiyyə rialı dövriyyədən yığıldı və yeni pul vahidinə keçildi. Yeni pul vahidi Qətər və Dubay rialı adlanırdı. Adından göründüyü kimi bu pul, həm Qətər rialından fərqlənirdi, həm də o vaxtlar Müqaviləli Oman şeyxləri arasında Dubayın ticarət – maliyyə mərkəzi kimi rolunun yüksək olduğunu göstərirdi. Müqaviləli Omanın tərkibinə daxil olan əmirliklərin bütün maliyyə sisteminə əvvəllər olduğu kimi «Britiş of Midl İst» şirkəti rəhbərlik edirdi.

1971-ci ildə federasiyanın yaradılmasından sonra əmirliklər ümumi pul vahidinin qəbul edilməsi barədə razılığa gəlmişlər. Dirhəm federasiyanın yeni pul vahididir. O, 1973-cü ilin 18 mayında dövriyyəyə buraxılmışdır.

Neftdən əldə edilən gəlirlərin getdikcə artması, milli iqtisadiyyatın inkişafı, yerli əhalinin gəlirinin, həm də daxili yük dövriyyəsinin və xidmət sahələrinin genişlənməsi ilə əlaqədar ölkədə pul kütləsi getdikcə çoxalır. Ölkə daxilində kağız pul kütləsi nə qədər çoxalsa da, eyni zamanda BƏƏ-nin milli bankının hesabında olan xarici valyuta və qızılın artması dirhəmin alıcılıq qabiliyyətinin sabit saxlanılmasına imkan verir.

Federasiyada ən iri banklar Dubay əmirliyindədir. Onun federasiyada iri maliyyə mərkəzinə çevrilməsi heç də təsadüfi deyildir. Bu əmirlik 10 illərlə keçmiş Müqaviləli Omanda ticarət, ticarət-nəqliyyat və maliyyə mərkəzi olmuşdur. Əmirliyin maliyyə fəaliyyəti «neft çiçəklənməsi» dövründə daha da güclənmişdir. Abu-Dabinin digər əmirliklərə nisbətən «neft dollarlarına» daha tez nail olmasına baxmayaraq, burada maliyyə fəaliyyəti ləng getmişdir.

1980-ci ildə Abu-Dabi və Dubay əmirləri neftdən əldə etdikləri gəlirin 50 faizini federal büdcəyə keçirəcəkləri barədə öz aralarında müqavilə imzalamışlar. Bu addım, federasiya iqtisadi inteqrasiyanın güclənməsi üçün Dubayın siyasətində əsaslı dəyişiklik idi. Bununla da federasiyanın 2 ən iri əmirliyi arasında uzun müddət davam edən başlıca ziddiyyət aradan qaldırılmış oldu. Hazırda ölkənin ümumi xərclərinin 1/4 federal büdcədən keçir. Federal büdcə gəlirinin 85 faizini ölkədə başlıca mövqe tutan və federasiya



əhalisinin yarıdan çoxu cəmləşən Abu-Dabi və Dubay əmirliklərinin payına düşür.

Federal büdcənin yarıya qədəri cari xərclərə və sosial-iqtisadi inkişafa sərf edilir. Büdcənin hər il 20 faizə qədəri ölkənin müdafiə əhəmiyyəti daşıyan silahlı və hərbi polis qüvvəllərinin ehtiyacları üçün xərclənir. Müstəqillik əldə etdikdən sonra nisbətən iri əmirliklərin bir neçə il federal ordu ilə yanaşı xüsusi orduları mövcud olmuşdur. Həmin ordularda xidmət edən hərbi qulluqçuların geyim formaları da müxtəlif idi. Federasiyanın bütün sahələrdə, o cümlədən hərbi sahədə də inteqrasiyanın güclənməsi ilə əlaqədar 1976-cı ildə əmirliklərin silahlı qüvvəlləri (quru, hərbi hava və hərbi dəniz) vahid orduda birləşmişdir.

Hərbi xərclərin böyük bir hissəsi silah, hərbi texnika alınmasına, müdafiə və təhlükəsizlik qüvvəllərinin təşkilinə sərf edilir. Qərb ölkələrindən alınan silahlar hesabına, ölkə özünün müasir hərbi texnika ilə təchiz olunmuş silahlı qüvvəllərini yarada bilmişdir.

## FƏLƏSTİN MUXTARİYYƏTİ

**Coğrafi mövqe.** Fələstin Aralıq dənizi hövzəsinin şərqində yerləşir. Sahəsi iki ayrıca hissədən ibarətdir: Urdun çayının Qərb sahili (ərazisi 5,9 min kv.km). Qəzza sektoru [sahəsi 0,4 min kv.km] və Şərqi Qüds. Qərb sahili adlanan ərazidə Yerixon, Nablus, Ramallah və Xevron şəhərləri yerləşir. Bu hissə üç tərəfdən: şimalda, qərbdə və cənubda İsraillə həmsərhəddir (sərhədin uzunluğu - 307 km), şərqdə isə Urdun ilə qonşuluqdadır. (sərhədin uzunluğu 97 km).

Qəzza sektoru qərb tərəfdən Aralıq dənizi sularına qovuşur. (sahil zolağının uzunluğu – 40 km), cənubdan Misirlə həmsərhəddir. (sərhədin uzunluğu – 11 km), şərqdə isə İsraillə qonşuluqdadır. (sərhədin uzunluğu 51 km).

**Əhali.** 2005-ci ilin ortalarına olan məlumatlara görə Qərb sahili ərazisində 2,5 mln nəfər yerli əhali yaşayırdı. Bundan əlavə Qərb sahildə təqribən 200 min, Şərqi Qütsdə isə 190 minə yaxın israilli məskunlaşmışdır. Qəzza sektorunda 2005-ci ildə 1,4 mln. nəfər yerli sakin və 5 mindən çox İsrail vətəndaşları məskunlaşmışdır. 2005-ci ilin avqust ayından İsrail hökuməti Qəzza zolağına köçürülənləri

evakuasiya etməyə və qərb sahildən bir neçə yəhudi məskənlərini boşaltmağa başladı.

Fələstin Muxtariyyətində yaşayan fələstinli ərəblərin sayı təqribən 4,0 mln nəfərə yaxındır. Rəsmi dil – ərəb dilidir. İslam dini üstünlük təşkil edir. (sünni və şiyələrin sayı təxminən bərabərdir). Bundan başqa 400 min nəfərə yaxın fələstin ərəbi qaçqın kimi başqa ölkələrdə (Ürdün, Suriya, Livan, Misir, Səudiyyə Ərəbistanı, Küveyt və s.) yaşayır. Ötən əsrin 90-cı illərində əhalinin artım tempi 4,0 faizə yaxın olmuşdur. Sonrakı illərdə bu 3,0 faizə qədər enmişdir. Fələstin ərəblərinin təhsil səviyyəsi xeyli yüksəkdir. Ali təhsilli şəxslərin payı çoxluq təşkil edir.

Hər iki hissədə əhalinin əsas hissəsi fələstin ərəbləridir. Yəhudilər Qərb sahildə əhalinin 17 və Qəzza sektorunda təqribən 1 faizini təşkil edirlər. Qərb sahilində məskunlaşan əhalinin 8 faizi, Qəzzada isə təqribən 1 faizi xristianlardır. Əhali ərəb və ivrit dillərində danışır, ingilis dili də geniş yayılmışdır.

İsraillə Fələstin Azadlıq Təşkilatı (FAT) arasında bağlanmış (1993-98-ci illərdə) bir sıra sazişlərə müvafiq olaraq Fələstin ərəblərinə müvəqqəti özünüidarə statusu verilmişdir, əslində statusun son taleyi İsrail və Fələstin tərəfləri arasındakı birbaşa danışıqlar nəticəsində formalaşmalıdır.

1994-cü ildən qüvvədə olan muxtariyyət rejimi çərçivəsində Fələstin hakimiyyət orqanları formalaşmışdır. Onlara Qərb sahildə və Qəzza sektorunda idarəetmə funksiyaları tədricən verilir. 2002-ci ildən Fələstində faktiki olaraq Prezident Respublikası rejimi fəaliyyət göstərir.

Fələstin Muxtariyyətinin rəhbəri əhali tərəfindən birbaşa seçkilərdə müəyyənləşdirilən Prezidentdir. O, həm də Muxtariyyətin silahlı qüvvələrinin baş komandanıdır. 1994-2004-cü illərdə bu vəzifəni Yasir Arafat tutmuş, 2005- ci ilin yanvarında isə Mahmud Abbas prezident seçilmişdir.

**Qısa inkişaf tarixi.** 1947-ci ildə BMT-nin Baş Assambleyası Fələstin ərazisinin ərəb və yəhudi dövlətlərinin torpaqları və Qüdsü də beynəlxalq zona qismində bölünməsinə qərar vermişdir. 1948-ci ilin may ayında yəhudi dövləti olan İsrailin yaranması elan edilmişdir. Ərəb rəhbərliyi və qonşu ərəb dövlətləri Fələstinin bölünməsini tanımaq istəməmişlər. Bunun nəticəsində yaranmış qarşıdurma müharibəyə gətirib çıxarmış və nəticədə ərəb dövlətinin təşkili üçün



nəzərdə tutulmuş ərazi İsrail, Transiordaniya (Ürdün çayının Qərb sahili, Şərqi Qüdslə birgə) və Misir (Qəzza sektoru) arasında bölüşdürülmüş-dür. Yüz minlərlə fələstinli ərəb qonşu müsəlman ölkələrində yaradılmış qaçqın düşərgələrində məskunlaşmışlar. İsrail indiyədək onların və varislərinin öz ərazilərinə qayıdış hüququnu tanımır.

1949-cu ildə Transiordaniya (indiki Ürdün Haşimilər Məlikliyi) Ürdün çayının Qərb sahilini və Qüdsün Şərq hissəsini işğal etdikdən sonra bu ərazilər Transiordaniyanın tərkibində olmuşlar. 1967-ci il iyun ayında Ərəb-İsrail müharibəsi nəticəsində Qərb sahil, Şərqi Qüds və Qəzza bölgəsi İsrail ordusu tərəfindən işğal olunmuşdur. Bu ərazilərdə İsrail hərbi idarəetməsi tətbiq edilmiş, Şərqi Qüds isə 1980-ci ildə İsrail tərəfindən rəsmən anneksiya olunmuşdur. 1987-ci ilin dekabırından İsrailin işğal altında saxladığı ərazilərdə kütləvi çıxışlar (intifad) başlanmışdır. İştirakçılar işğala son qoyulmasını və Fələstin dövlətinin yaradılmasını tələb edirdilər. Bu kütləvi aksiyalar 1993- cü ilədək davam etmişdir.

1994-cü ildə Ramallahda Fələstin idarəetmə strukturu yaradılmışdır. 1996-cı ilin yanvarında Fələstində prezident və Qanunverici Şura seçkiləri baş tutmuşdur. Y.Arafat muxtariyyətin rəhbəri seçilmişdir. Qanunverici Şuradakı 88 yerdən 55-i onun lider olduğu FƏTH partiyasına mənsub olmuş, daha 7 nəfər onlarla həmrəy namizədlər, qalanları isə müstəqil mövqeli sayılanlar olmuşlar. Qahirə sazişinə (1994-cü il may) müvafiq olaraq İsrail Qəzza sektorunda və Yerixondakı idarəetməni fələstinlilərə vermişdir.

Sonrakı sazişlərə görə və 1998-ci il oktyabr memorandumu eləcə də 1999-cu il Şərm-əş-Şeyx sazişinə görə Qərb sahilin əlavə əraziləri də fələstinlilərin ixtiyarına verilmişdir.

1999-cu ilin sentyabrında (3 il gecikməklə) son nizamlama ilə bağlı İsrail-Fələstin danışıqları başlanmışdır. 2000-ci ildəki Kemp-Devid danışıqları da bir nəticə verməmişdir. 2002-ci ildə ABŞ, Avropa İttifaqı, Rusiya və BMT Fələstin münaqişəsinin nizamlanmasına dair «Yol xəritəsi» adlı plan təklif etmişlər. Bu plana görə münaqişə danışıqlar yolu ilə mərhələlərlə nizamlanmalı və nəticədə İsraillə yanaşı Fələstin ərəb dövlətidə yaradılmalıdır. Bununla belə Qərb dövlətləri və İsrail terrorizm aktlarının tam ləğvini tələb etmişlər. Bu təzyiqlər altında M.Abbas Muxtariyyətə Baş nazir təyin olunmuş, az sonra (2003-cü il sentyabr) o istefa verməli olmuşdur.

Fələstin Muxtariyyəti hakimiyyətində korrupsiya hallarının baş alıb getməsi və idarəetmənin qeyri-səmərəliliyi daxildən də tənqidlərə məruz qalmışdır. Bu vəziyyət, iqtisadi çətinliklər və İsraillə qarşıdurmanın zirvəyə çatması sayəsində Həmas təşkilatından olan islam ekstremistlərinin mövqeləri möhkəmlənmişdir. 2005-ci ilin yanvarındakı prezident seçkilərində (Yasir Arafatın vəfatından sonra) FƏTH namizədi olan Mahmud Abbas tutarlı qələbə qazandı. Az sonra fələstin muxtariyyətinin yeni hökuməti formalaşdı. Yeni prezident İsrail tərəfi ilə zorakılığa son qoyulmasına dair razılığa gəldi. M.Abbas «Həmas» təşkilatındakı ekstremist qüvvələrə yerli parlament seçkilərində iştirak imkanı vəd etməklə onların da bu razılaşmaya (yəni qeyri-zorakılıq) qoşulmasına nail oldu. 2005- ci ildəki bələdiyyə seçkilərində Həmas təşkilatı qəti qələbə qazandı. Bunu görən M.Abbas parlament seçkilərini 2006-cı ilə keçirdi.

2005-ci ilin martından İsrail Yerixon, daha sonra Tulkarm, Ramallah, Kəlkiyyə və Vifleyem üzərindəki nəzarəti Fələstin Muxtariyyətinə təhvil verdi. 2005-ci ilin avqustunda Qəzza zolağındakı və Qərb sahildəki bir neçə İsrail yaşayış məskənlərinin (sonradan salınmış) əhalisini İsrailin içərilərinə evakuasiya etdi. 2005-ci ilin sentyabrında Qəzza sektorundan İsrail qoşunlarını çıxarmaqla 38 ililk işğala son qoydu.

Lakin Həmas təşkilatının 2006-cı il parlament seçkilərindəki tam qələbəsi vəziyyəti olduqca kəskinləşdirdi və əldə edilmiş uğurları puç etdi. Hökumətdə rəhbərliyi ələ keçirmiş «Həmas» İsrail dövlətinin varlığını belə tanımaq istəmir. Dünya ölkələrinin təzyiqlərinə görə «Həmas» təşkilatı öz fəaliyyətində «Yol xəritəsinə» istinad etməlidir. Lakin «Həmas» təşkilatının qəzəb doğuran mövqeyi, hətta Fələstin muxtariyyəti daxilində də qarşıdurmalara gətirib çıxarmışdır.

Məhz «Həmas» rəhbərliyinin mövqeyi və Livandakı terrorizm yuvası olan «Hizbullahın» onunla həmrəyliyi səbəbindən İsrail həm Fələstin muxtariyyəti ərazilərinə, həm də Livanın cənubuna hərbi qüvvələr yeritməli olmuşdur. (2006-cı il iyul). Hazırda Livanın işğal olunmuş cənub bölgəsində (Hizbullahın bir qayda olaraq İsrailə hücum etdiyi zolaqda) BMT sülhməramlı qüvvələrinin yerləşdirilməsi ilə İsrail-Livan münaqişəsinin qarşısının alınması razılaşdırılır. FƏTH-dən fərqli olaraq Fələstinin «Həmas» hökuməti beynəlxalq ictimaiyyət tərəfindən tanınmır. Muxtariyyətin 100-dən



çox ölkə ilə diplomatik əlaqələri vardır.

**İqtisadiyyat.** Ümumdaxili məhsulun həcmi 2003-cü ildə 5,5 mlrd. dollar (adam başına 1500 dollar) olmuşdur. Ödənişlər İsrail şekeli, ABŞ dolları və Ürdün dinarı ilə aparılır.

Fələstin iqtisadiyyatı əsasən ölkə hüdudlarından kənardakı maliyyə mənbələrinə arxalanır: Ərəb ölkələrinin, Fələstin diasporasının və beynəlxalq təşkilatların 1998- ci ildə əvəzsiz maliyyə yardımının həcmi təqribən 3,0 mlrd dollar olmuşdur. Bununla belə işsizlik səviyyəsi 2003-cü ildə 60 faiz olmuşdur. Fələstin əhalisinin təqribən 30 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır.

Ölkənin Ümumdaxili məhsulunun 9 faizi kənd təsərrüfatının, 28 faizi sənaye və tikintinin, 63 faizi isə xidmət sahələrinin payına düşür. Sənayedə aparıcı sahə geyim, ayaqqabı, dəri məmulatları, məişət ləvazimatı və ərzaq istehsalıdır. Bəzək inşaat daşları istehsalı ilə çox məşhurlaşmışdır. Belə daşlar xeyli sayda ölkələrə ixrac olunur.

Kənd təsərrüfatında əsas çətinlik suvarma sularının çatışmazlığıdır. Bu səbəbdən Fələstin torpaqlarının ancaq dörddə biri becərilir. Sitrus bitkiləri, zeytun, tərəvəz, üzüm və bostançılıq məhsulları yetişdirilir. Heyvandarlıqda qoyunçuluq üstünlük təşkil edir. Liman və beynəlxalq dərəcəli təyyarə portu Qəzza sektorunda fəaliyyət göstərir.

2003-cü ildə Muxtariyyətdən mal ixracının həcmi 700 mln dollar (o cümlədən sənaye məhsulları 75 faiz, kənd təsərrüfat məhsulları 25 faiz), idxal həcmi isə 2,0 mlrd dollardan artıq olmuşdur. İxracatın 80 faizi İsrailə göndərilir. İdxalın 90 faizi də İsrailin payına düşür.

# İRAQ RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe.** İraq, (ərəbcə «Əl-Cumhuriyyət əl-İrakiyyə») Cənub-Qərbi Asiyada Dəclə və Fərat çaylarının orta və aşağı axınında yerləşmişdir. Əlverişli iqtisadi və siyasi-coğrafi mövqeyi olan ərazisindən beynəlxalq əhəmiyyətli quru və hava yolları keçir. İraq şimaldan cənuba təqribən 1000, qərbdən şərqə 700 km məsafədə uzanır. Quru sərhədlərinin uzunluğu 3300 km-dir. Ucqar cənub-şərqdə

50 km məsafədə İran körfəzinə çıxışı var. Ölkə şimalda Türkiyə, şimal-qərbdə Suriya, Ürdün, cənub-qərbdə Səudiyyə Ərəbistanı və Küveytlə, şərqdə isə İranla həmsərhəddir. Türkiyə, Küveyt və İran ilə sərhədi sabit deyil, münaqişə ocağıdır. Göstərilən sərhədlər daxilində İraqın sahəsi 437 min kv. km-dir. Bu göstəriciyə görə dünya ölkələri arasında 57-ci, Yaxın və Orta Şərq ölkələri içərisində isə 5-ci yeri tutur.

**Səth quruluşu və faydalı qazıntıları**. Relyefinə görə İraq, əsasən düzən ölkədir. Ərazisinin çox hissəsini Cənub-Qərbi Asiyada ən böyük ovalıq sayılan Mesopotamiya* tutur. Ovalığın səthində çökəkliklər çox vaxt daşqın və yeraltı sularla dolur və müvəqqəti göllər əmələ gətirir. Cənuba doğru getdikcə ovalıq genişlənir və delta ilə qurtarır. Dəclə, Fərat çaylarının orta axarında yerləşən ərazinin səthi dərə-təpəlikdir. Qərbdə bu ərazi Suriya ərazisinə daxil olur. İran körfəzinə tədricən enən Mesopotamiya ovalığı Bağdaddan bir qədər şimalda Babilistan ovalığı ilə əvəz olunur. Ölkənin şimal və şimal-şərq hissəsi çətin keçilən dağlıq, qərb hissəsi isə səhra tipli relyefə malikdir. Fiziki-coğrafi xüsusiyyətlərinə görə İraqda dörd təbii rayon – Aşağı Mesopotamiya; Yuxarı Mesopotamiya; Şimali İraq dağlıq bölgəsi və Əl-Bədiyə adlanan səhra ayrılır. İraqın ən hündür yeri (3598 m) İranla həmsərhəd bölgələrdədir.

İraq təbii sərvətlər, ilk növbədə neft və təbii qaz ilə zəngin ölkələrdən biri hesab olunur. Neft yataqları əsas etibarilə ölkənin şimalında (Kərkük, Mosul, Xanəkin şəhərlərinin yaxınlığında) və cənubunda (Bəsrə, Əl-Rumeyla, Əz-Zübeyr və s.) yerləşir. Kəşf olunmuş neft ehtiyatlarına görə İraq dünyada qabaqcıl, Yaxın və Orta Şərq ölkələri içərisində isə Səudiyyə Ərəbistanı və İrandan sonra ikinci yeri tutur (əlavə 3).

Neftlə yanaşı ölkədə böyük ehtiyatı olan təbii qaz yataqları da mövcuddur. Əhəmiyyətinə görə İraqın ikinci qiymətli sərvəti kükürddür. Mütəxəssislərin hesablamalarına görə Yaxın və Orta-Şərq regionunda ehtiyatı məlum olan kükürd yataqlarının təqribən 2/3 hissəsi İraqdadır. Ən iri kükürd yatağıMişrak ətrafındadır. Mosul ətrafında aşkar edilmiş kükürd yataqlarındakı filizin tərkibində

---

* **Mesopotamiya** (yunanca mənası mərkəzində çay olan ərazi deməkdir) – ərəbcə isə beynənnəhreyn (iki çayın arasında) adlanır.



kükürdün faizi 23-ə çatır. Bunlardan başqa İraqda fosfat, daşduz, müxtəlif tikinti materialları yataqlarının da olması məlumdur.

**İqlimi və hidroqrafiyası**. Ölkənin iqlimi şimalda və mərkəzdə subtropik kontinental Aralıq dənizi tipli, cənubda tropikdir. Həm dağlıq rayonlarda, həm də Mesopotamiya ovalığında yay qızmar, quru, qış isə yumşaq və rütubətli keçir. İyul ayının orta temperaturu Mosulda (ölkənin şimalında) 38, Bağdadda (mərkəzdə) 34, Bəsrədə (cənubda) 33 dərəcədir. Yayda cənubda havanın hərarətinin 50 dərəcəyədək qalxmasını tez-tez müşahidə etmək olar. Yanvar ayının orta temperaturu Mosulda müsbət 5-7, Bağdadda 9-10 dərəcə olur. Şimaldakı dağlıq rayonlarda temperaturun 15 dərəcəyədək azalması hallarına da rast gəlmək olar. İraqda tez-tez quru şimal və şimal-qərb küləkləri əsir. Həmin külək ildə 50 gün davam etdiyinə görə «xəms»in (xəms ərəbcə 50 deməkdir) adlanan külək əsdiyi vaxt hər yer bozarır. Hava sarı rəngə çalır. Küləklə gələn qum adamı göz açmağa qoymur. Bu küləyi şimal ölkələrində qar yağan zaman baş verən çovğunla müqayisə etmək olar.

Ölkə üzrə illik yağıntıların orta miqdarı 300 mm-ə yaxındır. Şimala, xüsusilə, dağlıq rayonlara yağıntı (500 mm), cənuba isə az (100 mm) düşür. Ən az yağıntı (60 mm) Mesopotamiyanın cənub-şərqinə düşür. Yuxarı Mesopotamiyada dekabr ayında başlayan və tədricən ölkənin şərqini əhatə edən leysan yağışlar əksər hallarda güclü daşqınlarla nəticələnir.

İslam ölkələrinin əksəriyyətindən fərqli olaraq İraq daxili sularla zəngindir. Yaxın Şərqin ən böyük çayları olan Dəclə (uz. 1718) və Fəratın (2300 km) orta və aşağı axınları İraq ərazisindədir. Şimal-qərbdən cənub-şərq istiqamətində axan Dəclə və Fərat Əl-Qürnə şəhəri yaxınlığında birləşərək Şətt-ül-Ərəb (mənası Ərəb çayı) adı altında İran körfəzinə tökülür. Fərat axını boyu heç bir qol qəbul etmir. Dəcləyə isə mənbəyi Kürdüstan və Zaqros dağlarında yerləşən Böyük Zab, Kiçik Zab, Diala çayları tökülür və İraq ərazisində onun ən böyük qolları sayılır. Dəclə və Fərat qolları ilə birlikdə Mesopotamiya ovalığına 70 kub metr həcmində su gətirir.

Tez-tez baş verən daşqınlar Dəclə və Fəratın aşağı axınında bataqlaşmış sahələr əmələ gətirmişdir. Hidrotexniki qurğuların tikintisi çaylarda su sərfini xeyli nizama salmışdır. Misir üçün Nil, Pakistan üçün Hind çayının iqtisadi əhəmiyyəti nə qədər böyükdürsə, İraq üçün də Dəclə və Fərat bir o qədər əhəmiyyətlidir. Bu çaylar

Mesopotamiya ovalığının məhsuldar torpaqlarını suvarmaqla yanaşı əhalinin içməli su ilə təmin olunmasında da böyük rol oynayır. Çayların nəqliyyat arteriyası kimi də əhəmiyyəti böyükdür. Şətt-ül-Ərəb çayında mövcud dərinlik (9 metr) dəniz gəmilərinin Bəsrə şəhərinə qədər qalxmasına imkan yaradır.

**Torpaq və bitki örtüyü**. İraqda müxtəlif torpaq növləri yayılmışdır. Yuxarı Mesopotamiya torpaqlarının tərkibində humusun miqdarı çox, Aşağı Mesopotamiyada isə nisbətən azdır. Ovalıqda torpaqların şoranlaşması yeraltı suların tərkibində duzun miqdarının çox olması və nəhayət küləklər vasitəsilə səhralardan Mesopotamiyaya gətirilən duzların yığılması nəticəsində baş verir. Suvarılan torpaqlarda şoranlaşma daha sürətlə gedir.

İraqda təbii bitki örtüyü zəif inkişaf etmişdir. Şimaldakı dağların yamaclarında təbii yem bazası sayılan Alp çəmənləri arasında tək-tük ağaclar bitir. Aşağı Mesopotamiyaya, əsasən Şətt-ül-Ərəb və Diala çaylarının dərələri üçün xurma ağacları xarakterikdir. Qışda və baharın əvvəllərində yağışlardan sonra Mesopotamiya yaşıl örtüyə bürünür. Bataqlaşmış sahələrdə hündürlüyü 7-8 metrə çatan bərk gövdəli qamış bitir. Bu həmin qamışlardır ki, məşhur Norveç etnoqrafı və arxeoloqu Tur Heyerdal 1977-78-ci illərdə onlardan «Tiqris» adlandırdığı gəmini inşa edərək İraqın Əl-Qürnə şəhərindən, Hind çayı mənsəbinə, oradan isə Cibutiyə səyahət etmişdir.

İraq ekoloji baxımdan dünyanın ən gərgin bölgələrindən biridir. Ölkədə baş verən daxili çəkişmələr, terror aktları, xarici müdaxilələr, vətəndaş müharibəsi onun təbiətinə çox böyük ziyan vurmuşdur. 1996-98-ci illərdə onun ərazisinə raket-bomba zərbələri endirilib. 2003-cü ilin yazında ABŞ başda olmaqla onun müttəfiqlərinin hərbi qüvvələri ərazini tamamilə zəbt edirlər. Müharibələrə məruz qalan ölkələrdə isə ekologiyadan və təbiəti mühafizədən danışmaq olmaz. Təbiətə dəymiş ziyanı aradan qaldırmaq üçün bir neçə onillər lazım gələcək.

### 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi

Müasir İraqın ərazisi dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. İraqın Kürdüstan dağlıq rayonunda qədim Daş dövründə yaşamış insan məskənlərinin izləri (Şonidar mağarası), Mesopotamiyada isə eramızdan əvvəl beşinci minilliyə aid olan mis



alətlər, qab-qacaq aşkar edilmişdir. İraqın dağlıq ərazilərində məskunlaşan tayfaların heyvandarlıq, Mesopotamiyada yaşayanların isə əkinçiliklə qədim zamanlardan məşğul olmaları məlumdur.

Qədim İraq mədəniyyətinin ilk yaradıcıları burada yaşayan şumer tayfaları olmuşdur. Sonradan bu yerlərdə akkad, babil, assur və sasanilərin hökmranlığı qüvvətlənir. VII yüzilliyin 30-cu illərində isə İraqda ərəbləşmə prosesi geniş vüsət alır, İslam dini hakim dinə çevrilir. Ərəb xilafətinin paytaxtı Dəməşqdən Bağdada köçürüldükdən sonra Bağdad İslam dünyasının mühüm siyasi və mədəni mərkəzinə, İraq isə o dövrün ən inkişaf etmiş ölkələrindən birinə çevrilir. XVI yüzilliyin axırlarından Birinci Dünya müharibəsinin sonunadək İraq Osmanlı imperiyasının tərkibində idarə olunmuşdur.

XIX əsrin axırları, XX əsrin əvvəllərində Mosul rayonunda neft yataqlarının aşkar edilməsi və Bağdad dəmir yolunun çəkilişi ilə əlaqədar İraq Qərb dövlətlərinin (Almaniya, Böyük Britaniya) rəqabət obyektinə, 1920-ci ildə isə rəsmi şəkildə Böyük Britaniyanın mandatlı ərazisinə çevrilir. Geniş xalq kütlələrinin inadkar mübarizəsi nəticəsində 1958-ci il iyulun 14-də ölkədə monarxiya rejimi devrilir və İraq respublika elan olunur. 1959-cu ildə o, Bağdad paktından* çıxır, ərazisindəki hərbi bazaları ləğv edir və iqtisadiyyatın müxtəlif sahələrində demokratik dəyişikliklər həyata keçirməyə başlayır.

Lakin 1960-cı ildən dövlət rəhbərliyində diktatura rejimi meyli qüvvətləndiyindən demokratik təşkilatların fəaliyyəti məhdudlaşdırılır və 1961-ci ilin sentyabrında kürdlərə qarşı müharibə başlanır. 1968-ci ilin 17 iyulunda o vaxtdan həmin gün Milli bayram-İnqilab günü qeyd olunur, hakimiyyətə gələn Ərəb Sosialist Dirçəliş partiyasının rəhbərliyi ölkədə mütərəqqi sosial iqtisadi dəyişikliklər həyata keçirməyə başlayır. 1970-ci il martın 11-də İraq hökuməti kürd probleminin dinc yolla nizama salınması barədə bəyanat verir və kürdlərə qarşı 10 ildən artıq davam edən müharibəyə son qoyulur.

* **Bağdad paktı** – Böyük Britaniyanın təşəbbüsü və ABŞ-ın köməyi ilə yaranan təcavüzkar hərbi blok. 1995-ci ilin fevralın 24-də Bağdadda İraq və Türkiyə arasında qarşılıqlı əməkdaşlıq barədə müqavilə imzalandı. Sonradan bu pakta Böyük Britaniya, İran və Pakistan da qoşuldu. İraq bu paktın tərbindən çıxdıqdan sonra o, əslində fəaliyyətini dayandırdı.

1974-cü ildə isə kürdlərə milli muxtariyyət verilməsi barədə Qanun qəbul edilir.

1980-ci ilin sentyabrında İraq-İran münasibətləri olduqca kəskinləşərək uzun sürən dağıdıcı müharibəyə çevrilən hərbi toqquşmaya səbəb oldu. Kökü çox uzaq tarixi keçmişə gedən İraq-İran münaqişəsinin əsasını dini, siyasi və ərazi xarakterli ixilaflar təşkil edirdi. Bu müharibə bir tərəfdən ABŞ-a Yaxın Şərqdəki itirilmiş mövqeyini möhkəmlətməyə imkan verdi. Digər tərəfdən isə siyasi baxımdan «barıt çəlləyinə» bənzəyən Yaxın Şərqdəki vəziyyəti lap gərginləşdirdi.

Dünya mətbuatında İraq-İran müharibəsi müxtəlif cür «tanker müharibəsi», «qeyri-adi müharibə», «iqtisadiyyatı əldən salmaq müharibəsi» və s. adlandırılıb. İran körfəzində 7 il 6 aydan artıq davam edən bu müharibə XX əsrdə Asiyada ən uzun və dağıdıcı müharibə olmuşdur. Bu müharibənin vurduğu ziyanı dəqiq hesablamaq olduqca çətindir. Müharibə nəticəsində hər iki ölkə özlərinin inkişaf səviyyəsini ən azı 15-20 il geri atıblar.

1988-ci ilin 20 avqustunda İraq-İran cəbhəsində barışıq barədə razılaşma əldə olunur. Bu hadisədən 5 gün əvvəl isə İraq prezidenti Səddam Hüseyn, İran prezidenti Haşimi Rəfsancaniyə 1975-ci il Əlcəzair müqaviləsi əsasında sülh bağlamaq müraciətini edir. Həmin müqaviləyə əsasən ölkələr arasında mübahisəli sərhəd xətti Şətt-ül-Ərəb çayının talveqindən (ortasından) keçirdi. Bağdadın müraciəti Tehran tərəfindən qəbul olunur və avqustun 17-22-si arasında İran öz qoşunlarını İraq sərhədindən uzaqlaşdırır. 1990-cı ilin oktyabrında isə hər iki ölkə diplomatik münasibətlərini bərpa edirlər.

İranla müharibədən sonra iqtisadi cəhətdən zəifləməsinə baxmayaraq İraq 1990-cı ilin 2 avqustunda qonşu Küveytə qarşı hərbi təcavüzə başlayır. Küveyt İraq ilə birlikdə (onun Bəsrə vilayəti kimi) uzun müddət Osmanlı İmperiyasının tərkibində olmuşdur. 1899-cu ildə Küveytin əmiri İngiltərə ilə «Dostluq» haqqında müqavilə bağlamış və bununla da faktiki olaraq (rəsmi sürətdə 1914-cü ildən) onun protektoratlığına çevrilmişdir. Bütün bunları İraq hökuməti irad tutaraq, sübut etməyə çalışmışdır ki, Osmanlı imperiyası dövründə Küveyt Bəsrə vilayətinin bir hissəsi kimi İraqın tərkibində olmuş sonralar isə zorla ingilis müstəmləkəçiləri tərəfindən Bəsrə vilayətindən qoparılmışdır.

Müharibə başlayandan sonra BMT-nin Təhlükəsizlik Şurası



İraq təcavü-zünü pisləyən bir neçə qətnamə qəbul edir. Həmin qətnamələrdə Küveytin qanuni hökumətini bərpa etmək və İraqa qarşı beynəlxalq sanksiyaları qəbul etmək məsləhət bilinir. Qətnamələrdə həmçinin müdaxilənin hüquqi cəhətdən qeyri-qanuniliyindən də bəhs edilir.

BMT-nin Təhlükəsizlik Şürası İraqa zəbt etdiyi ərazidən öz qoşunlarını geri çəkmək üçün 1997-ci ilin 15 yanvarına qədər vaxt vermişdir. Bir gün sonra, daha doğrusu, yanvarın 16-dan 17-nə keçən gecə tərkibi əsasən ABŞ, Böyük Britaniya, Fransa və bəzi ərəb ölkələrinin qoşunlarından ibarət çoxmillətli hərbi qoşun kontingenti Küveytin ərazisinə daxil olub İraqla müharibəyə başlayır və qısa müddət ərzində Küveyt ərazisi İraq qoşunlarından təmizlənir. 1994-cü ilin 19 noyabrında İraq, Küveytin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin beynəlxalq statusunu tanıdığını rəsmi şəkildə elan edir.

Bununla «ürəyi soyumayan» BMT-nin Təhlükəsizlik Şürası İraqa qarşı daha sərt tədbirlərə əl atır və müxtəlif sanksiyalar tətbiq etməyə başlayır. Başqa sözlə desək İraqdan hər cür xammal və hazır məhsulun çıxarılmasına ilk növbədə neftin və təbii qazın ixracına, eləcə də ərzaq və dərman məmulatları istisna olmaqla İraqa xammalın, hazır məhsulların, xüsusilə hərb sənayesinə kömək edəcək məmulatların idxalına qadağa qoyulur. 1998-ci ilin dekabrında ABŞ və Böyük Britaniya hərbi hava və hərbi dəniz qüvvələri İraqı, ilk növbədə Bağdadı raket atəşinə tutur. Bu zorakılıq dünya ictimaiyyəti tərəfindən birmənalı qarşılanmır.

Sonrakı illər İraq üçün daha faciəli olmuşdur. Ölkədə atom silahının olmasını və hökumətin rəsmi dairələrinin beynəlxalq terrorizmə dəstək verməsini bəhanə edərək (əslində məqsəd İraq neftinə sahib olmaq və rəsmi Vaşinqtonun istəklərinə məhəl qoymayan Səddam Hüseyn hökumətini devirmək idi) ABŞ və onun tərəfdarları öz hərbi hava qüvvələrini İraqa göndərir. Ölkə tamamilə zəbt olunur. Səddam Hüseyn həbs edilir və 2005-ci il dekabrın 30-da edam edilir.

Ölkədə rəsmi Vaşinqtonun nəzarəti altında parlament və prezident seçkiləri keçirilsə də sülh və əminamanlıq bərpa olunmayıb. Artıq bir neçə ildir ki, İraqda vətəndaş müharibəsi səngimir. Xalq və dünya ictimaiyyəti xarici qoşunların ölkədən çıxarılmasını tələb edir.

**Dövlət quruluşu**. Dövlət quruluşuna görə İraq respublika şəklində idarə olunan ölkədir. 2003-cü ilin aprelinə qədər – yəni ABŞ və onun tərəfdarlarının hərbi qüvvələri İraqı tam zəbt edənə qədər dövlət idarəçiliyinin ali orqanı İnqilabi Komandanlıq Şurası idi. Şuranın sədri eyni zamanda ölkə prezidenti və hərbi qüvvələrin baş komandanı vəzifələrini yerinə yetirirdi (1979-cu ilin iyulundan bu funksiyalar Səddam Hüseynin əlində idi).

İraqda Səddam Hüseyn rejimi devrildikdən sonra parlament (30 yanvar 2005) və prezident (6 aprel, 2005) seçkiləri keçirilmişdir. Prezident seçkilərində kürd mənşəli Cəlal Təlabani qalib gəlmişdir. Ölkənin ali icraedici orqanı Baş Nazirin rəhbərlik etdiyi Nazirlər kabinəsidir.

İraqda S.Hüseyn dövründə hakimiyyətdə olan siyasi partiya qısaca şəkildə BƏ'S adlanan Ərəb Sosialist Dirçəliş Partiyası idi. XXI əsrin əvvəllərində İraq çoxpartiyalı dövlətə çevrilir. Ölkədəki şiə müsəlmanları İbrahim əl-Cəfərinin rəhbərlik etdiyi «Birləşmiş İraq Alyansı», kürdlər Cəlal Təlabaninin rəhbərlik etdiyi «Kürd alyansı», ərəblər isə «İraq Milli sazişçilik» partiyalarını yaratmışlar.

### 3. Əhali və şəhərlər. Paytaxtın qısa səciyyəsi

İraqda yaşayanların sayı 28,0 mln. nəfəri keçmişdir. Bu göstəriciyə görə dünyanın 40-cı dövlətidir. Ölkədə 1920-ci ildən əhalinin siyahıyaalınması işləri aparılır. 1965-95-ci illərdə ölkə əhalisinin sayı təqribən iki dəfə artmışdır. Orta illik artım 3 faizdən aşağı düşmür. Etnik tərkibinə görə əhalinin 70 faizini İraq ərəbləri, təqribən 15 faizini isə kürdlər təşkil edir. Onlardan başqa yerli ərəblərin «turkman» adlandırdıqları türkdilli əhali (Ağqoyunlular və Səfəvilər dövründə Azərbaycandan İraqa köçənlər), həmçinin farslar, aysorlar və digər xalqların nümayəndələri yaşayır. Ərəblər şimal əyalətləri istisna olmaqla ölkənin hər yerində məskunlaşmışlar. Oturaq həyat tərzi keçirən ərəblərin əsas kütləsi Dəclə-Fərat çayları arasında yaşayır. Kürdlər əsasən İraq Kürdüstanı adlanan bölgədə yaşayır.

İraqda kürd problemi uzun illərdir mövcuddur. 1974-cü ildə kürd xalqının muxtariyyəti barədə qanun qəbul edilmişdir. İlk dəfə olaraq kürdlər ölkənin başqa vətəndaşları ilə bərabər hüquqa malik oldular. Onların milli-mədəni dil xüsusiyyətlərinin müdafiə olunması təmin olundu. Kürd dili ölkənin ikinci rəsmi dili elan edildi.



İraq-İran müharibəsi ərəfəsində İraq hökuməti kürdlərə qarşı münasibətini birdən-birə dəyişərək Kürdüstanın muxtariyyətinin tanınması barədə yenidən danışıqlara başlamağı qərara alır. Beynəlxalq təşkilatların yenidən kürd probleminə qarışması İraq hökumətini əksəriyyəti xaricə qaçmış kürdlərə əfv barədə dekret qəbul etməyə məcbur etdi və BMT qoşunlarının nəzarəti altında kürdlər öz daimi yaşayış yerlərinə qayıtdılar.

Süleymaniyədə yaşayanların 90, Kərkük, Ərbil, Neynəvə əyalətlərində yaşayanların isə 50-60 faizi kürdlərdir. Kürdlərin oturaq həyata keçməsinə baxmayaraq bəzi iri nəsillər tayfa bölgüsünü saxlamışlar. Ərbil şəhəri Kürdüstan muxtar rayonunun inzibati mərkəzidir.

İraqda rəsmi dövlət dili ərəb və kürd, hakim din İslamdır. Müsəlmanların yarıdan çoxu şiələrdir. İraqda şiələrin 2 müqəddəs şəhəri Kərbəla və Ən Nəcəf yerləşir. Fərat çayı vadisində yerləşən Kərbəla şəhəri imam Hüseynin tərəfdarları ilə xəlifə Yəzidin qoşunları arasında vuruşma yerində salınmışdır. Həmin döyüşdə öldürülmüş imam Hüseynin qəbri Kərbəlada yerləşir. Qəbrin üstündə türbə, ətrafında isə məscid və mədrəsə tikilmişdir. Həzrəti Abbasın məscid türbəsi də Kərbəladadır. İmam Hüseynin qəbrini ziyarət edən müsəlmanlara kərbəlayi titulu verilir. Məhəmməd Füzuli bu müqəddəs şəhərdə doğulmuşdur.

Ən Nəcəf Kərbəla əyalətində Fərat çayının sağ sahilində yerləşir. Ən Nəcəf VIII yüzilliyin ikinci yarısında İmam Əlinin Kufə ətrafında dəfn edildiyi yerdə salınmışdır. Şəhərdə imam Əlinin məscid məqbərəsi (hünd. 32 m) yerləşir.

İraqda əhalinin orta sıxlığı hər kv. km-ə 60 nəfərdən artıqdır. Dəclə, Fərat və Şatt-ül-Ərəb çayları vadisində, şimaldakı dağətəyi bölgələrdə əhali sıx, ölkənin qərb və cənub bölgələrində isə seyrəkdir. Daxili miqrasiya kənd yerlərindən şəhərlərə istiqamətlənir. İşləmə qabiliyyəti olanların təqribən 40 faizi kənd təsərrüfatı, qalanları isə xidmət və sənaye sahələrində çalışır. İraq İslam dövlətləri içərisində urbanizasiya səviyyəsi yüksək olan ölkələrdən biridir. Ölkə əhalisinin 70 faizindən çoxu şəhərlərdə yaşayır. Bağdad, Mosul, Bəsrə, Kərkük, Ən Nəcəf ölkənin böyük şəhərləridir.

Bütün göstəricilərə görə ölkənin ən böyük şəhəri – əhalisinin sayı 4,0 mln. nəfəri ötmüş paytaxtı Bağdaddır. Dəclə çayının hər iki sahilində yerləşmiş şəhərin əsasını 762-ci ildə Abbasilər dövlətinin

paytaxtı kimi xəlifə Cəfər əl-Mənsur qoymuş və ona Mədinət əs-Səlam (sülh şəhəri) adı vermişdir. Sürətlə inkişaf edən şəhər IX yüzillikdə ən yüksək mərhələyə çataraq ticarət, sənətkarlıq və orta əsr ərəb-islam mədəniyyət mərkəzinə çevrilmişdir.

Bağdad ölkənin sənaye, ticarət, maliyyə və mədəniyyət mərkəzidir. O, Aralıq dənizi ölkələrini Orta Şərq və Cənubi Asiya ilə əlaqələndirən yollar kəsiyində mühüm nəqliyyat qovşağıdır. Bağdad həm də əlverişli çay portudur. Ölkədə mövcud olan sənaye müəssisələrinin üçdə biri Bağdad və onun ətrafında cəmlənmişdir. Bağdadda iki Elmlər Akademiyası (İraq və Kürd), universitet və digər təhsil ocaqları fəaliyyət göstərir. Bağdad Milli Muzeyi nəinki ölkənin eləcə də Ərəb Şərqinin ən böyük muzeylərindən biridir. Orta əsrlərdə İraq-Azərbaycan mədəni əlaqələrində Bağdad mühüm rol oynayıb. Azərbaycanın bir çox şairləri, o cümlədən, Xətib Təbrizi, Məhəmməd Füzuli Bağdadda yaşayıb yaratmışlar. Müharibə və terror aktları Bağdadın əvvəlki görkəminə xeyli ziyan vurmuşdur.

## 4. İqtisadiyyatı

XXI əsrin başlanğıcında İraq mədən sənayesi inkişaf etmiş, ortasəviyyəli sənaye-aqrar ölkə idi. 2001-ci ildə ölkənin Daxili Məcmui Məhsulunun dəyəri 60-65 mlrd. ABŞ dollarına yaxın idi. O vaxt ölkənin milli valyutası olan bir dinar təqribən 3 ABŞ dollarına bərabər tutulurdu. 2001-ci ildən sonra ölkə iqtisadiyyatı güclü dəyişikliklərə məruz qaldı. Müharibələr, kamekadzelərin törətdikləri partlayışlar və terror aktları, ölkəyə qarşı yönəldilmiş iqtisadi sanksiyalar, başqa qadağalar, maliyyə vəsaitlərinin həbs edilməsi və xoşagəlməz başqa səbəblər iqtisadiyyata viranedici zərbə vurdu.

Hazırda İraq hökuməti iqtisadiyyatı bərpa etmək sahəsində aşağıdakı vəzifələri həyata keçirməyi planlaşdırır:

- əvvəllər fəaliyyətdə olmuş bütün müəssisələri ilk növbədə energetika və mədən sənaye müəssisələrini yenidən işə salmaq;
- ölkədə yaşayan xalqlar və dini icmaların həmrəyliyinə nail olmaq;
- insanlar üçün şəhər və kəndlərdə yeni iş yerləri yaratmaq;
- əhalini ərzaq, içməli su, dərmaq preparatları ilə təmin etmək;
- səhiyyə və maarif sistemlərinin işini bərpa etmək;
- ölkənin təhlükəsizlik qüvvəllərini yaratmaq;



- qonşuları ilə münasibəti mehriban məcraya yönəltmək.

XIX əsrin sonlarına qədər zəngin neft ehtiyatı hesabına neft sənayesi ilə əlaqədar köməkçi təsərrüfat sahələri: yanacaq, elektroenergetika, neft-kimya, tikinti materialları istehsalı sənaye sahələri yaradılmışdır. Neftdən gələn böyük gəlirlər hesabına hərbi infrastruktur və ən yeni silahların və hərbi sursatların alınması işi geniş vüsət almışdı.

**Sənayenin aparıcı sahələri**. İraqı məşhurlaşdıran, həm də iqtisadi cəhətdən irəliləməsinə səbəb, onun mədən sənayesi, ilk növbədə neftçıxarma olmuşdur. Ölkədə aşkar edilmiş 70-dən artıq neft yatağında neftin ehtiyatı 15 mlrd.tondan artıqdır. Bu göstəriciyə görə regionda ancaq Səudiyyə Ərəbistanından geri qalır. Başlıca neft rayonları: Ər-Zubeyr, Ər-Rumeyla, Mosul, Xanakin, Nefte-Xare və cənub bölgələridir. Ölkədə ən iri neft yataqları Kərkük və Rumeyladır.

İraqın problemsiz illərində bu iki yataqdan ildə orta hesabla 40-43 mln. ton neft çıxarılırdı. O vaxtlar həmin yataqların nefti güclü kəmərlər vasitəsilə Aralıq dənizi sahilinin Trablis (Livan) və Bəniyaz (Suriya) limanlarına nəql edilirdi. Çıxarılan neftin bir hissəsi Kərkük şəhərinin müəssisələrində emal olunurdu. Ölkənin cənubundakı yataqlardan çıxarılan neft gəmilər vasitəsilə Fao və Umm-Qəsr limanlarına nəql edilirdi. Oradan da tankerlər vasitəsilə dünya bazarına çıxarılırdı. Bəsrə şəhərində iri neft emalı müəssisəsi fəaliyyət göstərirdi. Neft emalı müəssisələrində təyyarə və avtomobil benzini, reaktiv mühərriklər üçün yanacaq, məişətdə işlədilən ağ neft, dizel yanacağı, sürtkü yağları və s. istehsal olunurdu.

Neftlə yanaşı ölkədə böyük ehtiyata malik təbii qaz yataqları da var. Təbii qazın ehtiyatı 30 trilyon kub m-dən artıqdır. 1980-ci ildə ölkənin şimalında və cənubundakı yataqlardan təbii qazın yığılması və mayeləşdirilməsi üzrə qurğu sisteminin tikintisi planlaşdırılmışdı. Şimal sistemi ölkənin daxili tələbatı üçün, cənub sistemi isə əsasən xaricə mayeləşdirilmiş qaz (balon qazı) ixracatı üçün nəzərdə tutulmuşdu. Cənub layihəsini Yaponiya şirkəti yerinə yetirirdi və bu iş 1982-ci ildə başa çatdırılmalı idi. Əfsuslar olsun ki, 1980-ci ilin payızında İranla, 1990-cı ilin avqustunda Küveyt ilə baş vermiş müharibələr və ondan sonrakı qadağalar, ərazinin raket atəşinə tutulması və s. qaz sənayesində əldə edilə biləcək inkişafı xəyala çevirdi.

Bu yanacaq sərvətlərindən əlavə İraqda böyük ehtiyata malik kükürd və fosfat yataqları da var. Ötən əsrin sonlarına qədər ölkədə fosfat xammalının emalı üzrə ümumi gücü 700 min ton olan bir neçə sənaye müəssisəsi tikilmişdi. Kükürd hasilatının yalnız 10 faizi daxili tələbat üçün istifadə edilirdi, qalan hissəsi ixrac olunurdu. İraq kükürdünün idxalatçıları əsasən Hindistan, Misir, Çin və Banqladeş idi. Başqa sahələr kimi mədən sənayesinin bu sahələri də iflic vəziyyətindədir.

Ölkənin emaledici sənayesi ilk növbədə idxal olunmuş hissələrdən avtomobil yığma, kənd təsərrüfatı maşınları, elektrotexniki məmulat, əczaçılıq, tikinti materialları istehsalı və s. ilə məşğul olurdu. Ötən əsrin axırları üçün ölkənin elektrik stansiyalarının gücü 1,7 mln. kvt-a bərabər idi. 90-cı illərin ortalarından başlayaraq İraq 6 mlrd. kv saat elektrik enerjisi istehsal edirdi. Dokan şəhərində xarici əsasən rus mütəxəssislərinin köməyi ilə «Yusifiyə» adlanan istilik elektrik stansiyası tikilib istifadəyə verilmişdi.

Xarici kapitalın və xarici mütəxəssislərin yardımı ilə İraqda yeni sənaye sahələrinin yaradılması işinə başlanılmışdı. 1978-ci ildə Nəsiriyyə şəhərində ölkənin ilk alüminium istehsalı müəssisəsi işə salındı. Süvürrada əczaçılıq məhsulları istehsal edən müəssisə, əl-Tağidə elektrik lampaları zavodu, müxtəlif şəhərlərdə kənd təsərrüfatı maşınları və avadanlıqları istehsal edən müəssisələr, Kərbəla şəhərində müxtəlif konservlər istehsal edən zavod, Ramadidə şüşə zavodu, Küt-əl-Ömərdə pambıq-parça istehsal edən fabrik tikilib istifadəyə verilmişdir. Yüngül və yeyinti sənayesi İraqın ənənəvi inkişaf etmiş təsərrüfat sahələridir. Toxuculuq, xalçaçılıq, kişi və qadın üst geyimləri, gön-dəri məmulatları nisbətən yaxşı inkişaf etmişdi. Yeyinti sənaye müəssisələrinə ölkənin bütün yaşayış məntəqələrində rast gəlmək olardı. Regionun başqa ölkələrində olduğu kimi İraqda da sənətkarlıq (xüsusilə zərgərlik və toxuculuq) yaxşı inkişaf etmişdir.

**Kənd təsərrüfatının aparıcı sahələri**. İraq tarixən böyük kənd təsərrüfatı ölkəsi kimi tanınmışdı. Əvvəlki illərlə müqayisədə kənd təsərrüfatı istehsalı hazırda xeyli azalmışdır. Kənd təsərrüfatına yararlı torpaq sahələri başlıca olaraq Aşağı Mesopotamiyada və Şimali İraqın dağətəyi rayonlarındadır. Qədim suvarma mədəniyyətinə malik olmuş İraqda müharibələr nəticəsində suvarma



sistemləri sıradan çıxmışdır. Ölkənin torpaq iqlim şəraiti isə elədir ki, əkinlərin hamısı süni suvarmaya möhtacdır.

Ölkənin başlıca əkinçilik rayonları Dəclə və Fərat çaylarının vadiləridir. İraqın cənubunda Şətt-ül-Ərəb çayı boyunca xurma plantasiyaları geniş sahələri tuturdu. Xurma ağaclarının sayına, xurma istehsalında, ixracatında İraq dünyada birinci yeri tuturdu. İraq-İran müharibəsinə qədər dünya bazarına çıxarılan xurmanın 30 faizi İraqın payına düşürdü.

Xurma iraqlıların, ümumiyyətlə ərəblərin məişətində mühüm əhəmiyyətə malikdir. Ağacın yarpaqlarından, lifindən həsir, süfrə, səbət, tabaq, kəndir, yelpik və s. toxunur. Xurma salxımları təmizləndikdən sonra onun saçaqlarından içki çəkilir. Ağacın budaqları və gövdəsindən tikinti materialları, tapul adlanan qalın qabığından isə oduncaq kimi istifadə olunur. Bunlardan əlavə ağacı və onun budaqlarını kəsərkən içindən tökülən qatı ağ kütlə yeyilir. Xurma pendiri adlanan bu qatı şirənin alıcıları çox olur.

Əkin sahələrinin 80 faizində taxıl bitkiləri, xüsusilə buğda, arpa, çəltik əkilir. Taxıl bitkilərinin istehsalına görə ölkənin şimal rayonları fərqlənir. Ölkənin cənub hissəsində, çay vadilərinin bataqlaşmış hissələrində çəltik becərilir. Diala çayının vadisi boyunca pambıq plantasiyaları yerləşir. Mesopotamiya ovalığının su olan hər yerində bağçılıq, üzümçülük inkişaf etmiş, tərəvəz, bostan bitkiləri geniş yayılmışdır. Ölkənin şimal hissəsində az miqdarda tütün yetişdirilir.

Heyvandarlıq ekstensiv yolla inkişaf etdirilir. Ərazinin təqribən 60 faizini əhatə edən səhra və yarımsəhralardakı təbii otlaqlarda yarımköçəri heyvandarlıq mövcuddur. Yuxarı Mesopotamiyada ölkənin qərbi və cənubundakı səhralarda heyvandarlığın inkişafı üçün əlverişli təbii şərait var. Qaramal ölkənin şimal bölgələrində, davar isə hər yerdə bəslənilir. Böyük şəhərlərin ətrafında quşçuluq təsərrüfatı yaradılmışdır.

İraqın kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına (xurma istisna olmaqla) olan tələbatını təmin etmədiyindən ölkə hər il ərzaq məhsullarının idxalına 3-4 mlrd. dollar vəsait sərf edir.

**Nəqliyyatı və xarici ticarəti**. Başqa qonşu ərəb ölkələri ilə müqayisədə İraq nisbətən sıx dəmir, avtomobil yollarına və boru-kəmər şəbəkəsinə malik olub. Bu yollar əvvəl ingilis müstəmləkəçilərinin hərbi-strateji planlarına əsasən tikilmişdir.

Köhnə yol şəbəkəsi ölkənin sürətlə inkişaf edən milli iqtisadiyyatının tələbatını təmin etmədiyindən onun yenidənqurmaya və genişləndirməyə böyük ehtiyacı var idi.

Müstəmləkəçilik illərində bu işləri müəyyən dərəcədə həyata keçirmiş İraq hökuməti ötən əsrin axırları və yeni əsrin əvvəllərində baş vermiş daxili münaqişələr və xarici müdaxilələr nəticəsində bütün nəqliyyat sisteminin dağılmasının və qismən sıradan çıxmasının şahidi oldu.

Ölkədaxili yük və sərnişin daşımalarında avtomobil nəqliyyatının rolu böyükdür. Ölkədaxili bütün daşımaların təqribən 80-85 faizi avtomobil nəqliyyatının payına düşür. Avtomobil yollarının ümumi uzunluğu 40 min km-dən bir qədər artıqdır. Bu yolların üçdə iki hissəsi bərk örtüklü yollardır. Kərbəla və Ən Nəcəf dini mərkəzlərini Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərləri ilə birləşdirən «Zəvvar yolu» xüsusilə əhəmiyyətlidir.

Əksəriyyəti dağılmış vəziyyətdə olan dəmir yollarının ümumi uzunluğu 2032 km-dir. İlk dəmir yolunun (Bağdad dəmir yolu) çəkilişinə 1858-ci ildə almanlar tərəfindən başlanılmış, 1934-1941-ci illərdə isə həmin yolun inşası Fransa və Böyük Britaniya şirkətləri tərəfindən tamamlanmışdır. Ötən əsrin ikinci yarısında Bağdad-Əl Qasım, Bağdad-Bəsrə istiqamətində yeni yollar çəkilmişdir.

İraqda böyük əhəmiyyətli boru kəmərləri (həm neft, həm qaz) də mövcud idi. İndi onların bəziləri sıradan çıxmışdır. İraq hökuməti bu kəmərlərin fəaliyyətini bərpa etməyə başlamışdır.

**Xarici ticarət.** Ölkədə neft daşıyan gəmilərin donanması da yaranmışdı. Bəsrə, Fao, Umm-Qəsr ölkənin neft ixrac edən başlıca portlarıdır. Bağdad yaxınlığında beynəlxalq dərəcəli aeroport fəaliyyət göstərir.

Müstəqillik illərində ölkənin xarici ticarətinin strukturunda dəyişikliklərə baxmayaraq, xarici ticarət bir tərəfli inkişaf edirdi. 2001-ci ildə ölkə ixracatının dəyəri 15,8 mlrd. dollara bərabər olmuşdur. Bu da əsas etibarilə dünya bazarlarına çıxarılan neft satışından əldə olunmuş gəlir idi. Rusiya, Fransa, Çin və Türkiyə İraq neftinin əsas alıcıları idi. İraq baykot olunana qədər neftlə yanaşı dünya bazarına xurma, gön-dəri, zərgərlik və xalça məmulatları çıxarırdı. İraq idxalatının əsasını ərzaq, dərman və əhali tərəfindən gündəlik işlədilən məmulatlar təşkil edir. Qoyulmuş qadağa (embarqo) ölkənin xarici ticarət coğrafiyasının genişləndirilməsinə



imkan vermir. Ölkənin milli pul vahidi dinardır, 1 dinar 100 filəmə bərabərdir.

# İSRAİL DÖVLƏTİ

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe.** İsrail Yaxın və Orta Şərq regionunda yerləşmiş iki qeyri müsəlman ölkəsindən biridir. 1947-ci ilin 29 noyabrında BMT-nin Baş Məclisinin keçmiş Britaniya müstəmləkəsi olmuş Fələstin ərazisinin 14,1 min kv km-ni müstəqil Yəhudi dövlətini yaratmaqdan ötrü bu bölgədə yaşayan yəhudi xalqına vermişdi. Son 50-60 ildə İsrailin yerləşdiyi ərazi zəbt etdiyi torpaqlar hesabına xeyli dəyişkənliyə məruz qalmışdır. Beynəlxalq ictimaiyyət isə BMT tərəfindən müəyyən edilmiş ərazi və sərhədləri tanıyır.

1948-49-cu illərdə İsrail BMT tərəfindən müstəqil ərəb dövləti yaratmaq üçün ayrılmış 11,1 min kv km ərazinin 5,7 min kv km-ni zəbt edib öz torpağına qatır. 1949-cu ildə İsrailə onun qonşuları Misir, Ürdün, Suriya və Livan arasında demarkasiya sərhədi barədə razılıq əldə olunsa da, sonrakı illərdə İsrail bu razılığı tez-tez pozur. Beləliklə, İsrailin ərazisi 20,8 min kv km-ə çatır. 1967-ci ildə İsrail Ürdün çayının qərb sahilini, Qəzza bölgəsini və Suriyanın Colan təpəlikləri ərazisini də zəbt edir. 2005-ci ildə öz qoşunlarını Ürdün çayının qərb sahili və Qəzza bölgəsindən çıxarır.

Qurudan 4 müsəlman dövləti (əslində Fələstin də daxil olmaqla 5 dövlət olmalı idi) ilə həmsərhəd olan İsrailin qərbdən 188 km məsafədə Aralıq dənizinə, şərqdən 56 km məsafədə Ölü dənizin cənub-qərb bölgəsinə, cənubdan 10 km məsafədə Qırmızı dənizin Əqəbə körfəzinə çıxışı var.

**Səth quruluşu və faydalı qazıntıları.** Təbiətinin mühüm xüsusiyyəti ölkənin dənizlər, dağlar və səhralar arasında yerləşməsidir. İsrailin ərazisi ki-çik olsa da səth quruluşunda müxtəliflik hiss olunur. Qaliley yaylası adlanan hissə ölkənin şimal və qərb bölgəsini tutur. Əslində bu yayla hündür düzənliyi xatırladır. Burada hündürlük 600-700 m-dən artıq deyil. Ölkənin şimali-şərqini Ürdün çayının dərəsi tutur. Mərkəzi hissə Aralıq dənizi sahili boyunca yerləşmiş alçaq ovalığı xatırladır. Burada sahil xətti zəif parçalandığından ovalığın şimal hissəsində yerləşmiş Xayfa körfəzi

istisna olmaqla təbii körfəz və buxtalar yoxdur.

Ölkə ərazisinin əksər hissəsini Neqev yaylası tutur.Bu yayla şimalda alçaq dağ massivlərinə, şərqdə isə Qhor tektonik çöçəkliyinə yaxınlaşır. Bu çöçəkliyin ən dərin yerində okean səviyyəsindən 392 m. aşağı olan Ölü dəniz yerləşir. Bu dənizlə Qırmızı dəniz arasında qalan ərazidə Aqava dərəsi yerləşir.

İsrailin ərazisi faydalı qazıntılarla zəngin deyil. Əsasən mezazoy dövrünün çöküntüləri ilə örtülüdür. Nisbətən hündür yerlərdə karst hadisələrinə və mağaralarına rast gəlmək olar. Ölkədə qeyri-metal sərvətlər metal və yanacaq sərvətlərindən çoxdur. Qeyri-metal faydalı qazıntılar içində Ölü dənizdəki kalium duzları, natrium və brom çoxdur. Neqev yaylasında fosforit, gips, tikinti materialları və kvars qumları aşkar edilmişdir. Müxtəlif yerlərdə ehtiyatı az olan dəmir və mis filizi, neft və təbii qaz yataqları aşkar edilmişdir. Ölü dənizdən əldə edilən təbii sərvət – potaş, xlorlu maqnezium, xörək və kalsium duzları, xüsusilə, əhəmiyyətlidir. Bu bölgədə beynəlxalq əhəmiyyətli kurortlar yerləşir.

**İqlimi və hidroqrafiyası.** İsraildə Aralıq dənizi iqlim tipi hakimdir. Ərazidə yay ayları quraq və isti,qış isə mülayim və rütubətli keçir. Yazda və yayda İsrail üzərində tropik, payızda və qışda isə mülayim enliklərin hava kütlələri hakimdir.Səth quruluşunun müxtəlifliyi ölkədə iqlim fərqlərinin yaranmasına səbəb olur.

Ölkənin qərbindən şərqinə getdikcə yağıntıların miqdarı kəskin şəkildə azalır. Məsələn, qərbdə yerləşmiş Qaliley yaylasına il ərzində 1000 mm-ə qədər yağıntı düşdüyü halda, şərqdə yerləşmiş Eylat bölgəsinə 50 mm yağıntı düşür. Ölkənin mərkəzi bölgələrinə 500 mm-ə qədər, Ölü dənizin sahillərinə isə 70-80 mm yağıntı düşür. Yanvar, fevral ayları ən çox yağış yağan aylardır.

Aralıq dənizi sahil bölgəsində orta illik temperatur müsbət 20 dərəcə olduğu halda, dağlıq bölgələrdə bu göstərici bir neçə dərəcə aşağıdır. Orta temperatur yüksək olduğundan Aralıq dənizinin çimərliklərindən ilin 7-8 ayı istifadə etmək olar. Ölkənin ən isti yeri onun cənubundadır. Burada orta illik temperatur 23 dərəcədən aşağı düşmür. Cənubda ilin yay aylarının orta temperaturu 32-33 dərəcəyə çatır. Qış aylarında mənfi temperaturlar da müşahidə olunur. Hündür ərazilərdə qış aylarının orta temperaturu mənfi 5 dərəcəyə uyğun gəlir. Ölkənin mərkəzi bölgələrində ilin 300 günü orta temperatur müsbət 15 dərəcəyə bərabərdir.



Ərazi üçün şimal və qərb küləklərinin əsməsi səciyyəvidir. Yazda və yayın əvvəllərində Ərəbistan yarımadasından quru və isti xəmsin küləkləri əsir. Tozlu və dəhşətli isti havaya Neqev səhrasında rast gəlinir.

İsrail səth suları ilə zəif təmin olunmuş ölkədir. Ərazinin qərb hissəsindən axan kiçik çaylar Aralıq dənizi hövzəsinə aiddir. Bu çayların əksəriyyəti ilin isti aylarda quruyur. Ölkənin şərq hissəsi axarsızdar. Ərazinin şimal-şərqindəki tektonik dərə ilə daima sulu İordan (Ürdün) çayı axır. Xermon massivindən başlanğıcını götürən bu çay Ölü dənizə tökülür.Tiveriad gölünə qədər bu çay ensiz dərə ilə, qalan hissələrdə isə allüvial düzənliklə axır. Okean səviyyəsindən 200 metr alçaqda yerləşmiş Tiveriad (yaxud Qaliley) gölünün uzunluğu 21 km, maksimal dərinliyi 48 metrdir. Gölün suyu duzlu olmadığından ondan içməli su mənbəyi kimi istifadə olunur.

1000 kv. km ərazisi olan Ölü dənizin (uzunluğu 76, eni 16 km) 250 kv. km-i İsrailə məxsusdur. Bu kiçik ərazidən İsrail hökuməti maksimum faydalanır. Ərazidə qiymətli mineral duzlar çıxarılmaqla yanaşı kurort təsərrüfatı inkişaf etdirilir.

Sənaye, kənd təsərrüfatı və əhalinin suya olan tələbatını ödəmək məqsədilə su təchizatı və irriqasiyanın mərkəzləşdirilmiş sistemi yaradılmışdır. Bu sistemdə başlıca su kəmərlərinin uzunluğu 150 km-ə çatır, Tiveriad gölünün şimal-qərb sahillərindən Roş-xa-Ayin məntəqəsinədək davam edir, burada 106 km uzunluğunda olan Yarkon- Şimali Neqev xəttilə birləşir.

Mütəxəssislər ölkənin içməli su ehtiyatlarının 1,8 mlrd. kub metr oldu-ğunu hesablamışlar. Bu suyun 1,1 mlrd. kub metri kiçik çayların və bulaqların 320 mln. kub metri Ürdün çayının İsrailə aid olan hissəsinin, 200 mln. kub metri Yarkon çayının suları təşkil edir. Ümumiyyətlə, İsrail hökuməti içməli su təminatında böyük müvəffəqiyyətlər əldə etmişdir. Onun bu təcrübəsindən başqa quraq ölkələr də istifadə edir.

**Torpaq və bitki örtüyü.** Ölkənin nisbətən çox yağıntı alan qərb hissəsində quru subtropik meşə və kolluqların qəhvəyi torpaqları, mərkəzi və şərq bölgələrində boz qəhvəyi torpaqlar, cənubunda isə subtropik səhra torpaqları yayılmışdır. Dağlıq ərazilərin bəzi yerləri torpaq örtüyündən məhrumdur. Sahil bölgələrin torpaqları nisbətən məhsuldardır. Belə torpaqlarda humusun miqdarı 24 faizə çatır.

Ölkənin Aralıq dənizi sahili mövqeyi florasının zənginliyinə səbəb olmuşdur. Endemik bitki növləri üstünlük təşkil edir. Baharda yağıntılardan sonra ölkənin landşaftı füsünkar olur. Qaliley ölkənin tarixi-təbii baxımdan gözəl yeri sayılır. Çünki bu rayonun iqlimi yumşaq, rütubətli, torpaqları məhsuldardır. Əvvəllər meşələrlə örtülü olan Qalileydə hazırda təbii landşaftdan nadir izlər qalmışdır. Kənd təsərrüfatına yararlı sahələrdə və yamaclarda meşələr salınmışdır. Meşələr ərazinin cəmi 5 faizində yayılmışdır. Neqev səhrasının həyatsız görünüşü vardır. Onu dik qayalar və dərin dərələr «bəzəyir».

İsrail təbiətinin mühafizəsinə,ekoloji mühitinin sağlamlığına diqqətlə yanaşan ölkələrdən biridir. Hökumət Ölü dəniz bölgəsini Milli qoruq elan etmişdir. Amma ərazidə uzun illər aparılan müharibələr və terrorçuların fəaliyyəti ölkənin həm təbii, həm də antropogen landşaftına böyük ziyan vurmuşdur.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Hələ keçmişdə Fələstin adlanan ərazidə yəhudilər yaşamışlar. Onlar burada müxtəlif zamanlarda yəhudi padşahlıqları da yaratmışlar. İsrail müstəqil dövlət kimi 1948-ci ilin 14 mayında (o vaxtdan həmin gün Milli bayram kimi geniş qeyd olunur) Fələstin ərazisində müstəqil yəhudi və ərəb dövlətlərinin yaradılmasına dair BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. Qərarda göstərildiyi kimi hər iki dövlət öz ölkəsində sayca azlıqda qalan millətlərin hüququnu təmin edəcək demokratik konstitusiya qəbul etməli idi.

Yəhudi dövləti üçün qarışıq əhalisi (497 min ərəb və 498 yəhudi) olan 14,1 kv. km ərazi (Fələstinin ümumi ərazisinin təqribən 56 faizi) ayrılmışdı. Qüds şəhərinə isə BMT idarəsi altında xüsusi beynəlxalq rejimli inzibati vahid statusu verildi.

1948-ci ilin may ayında təşkil edilmiş İsrailin müvəqqəti hökumətinə yalnız sionist (qatı millətçi) partiyaların nümayəndələri daxil oldu.Yeni yaradılmış hökumətin ilk aktı olan «İstiqlaliyyət bəyannaməsində» sionizm doktrinası İsrail dövlətinin rəsmi ideologiyası və siyasəti elan edildi.

İsrail dövləti yarandığı gündən imperialist dövlətləri (əsasən ABŞ və Böyük Britaniya) və beynəlxalq sionizmin köməyi ilə qonşu



ərəb ölkələrinə qarşı işğalçılıq müharibəsinə başladı.Bu müharibədə İsrail BMT-nin qərarı ilə Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin əksər hissəsini (6,7 min kv. km ) və Qüdsün qərb hissəsini işğal edərək 1,2 mln-dan çox fələstinli ərəbi torpaqlarından qovdu və o vaxtdan Fələstin qaçqınları anlamı meydana gəldi.

Qərb dövlətləri, ilk növbədə, ABŞ və onlarla bağlı olan sionist dairələri İsrailin ərəb dövlətlərinə qarşı mübarizədə alət və imperializmin Yaxın Şərqdəki dayaq məntəqəsi kimi istifadə etməyə başladılar.

1956-cı ildə İsrail Böyük Britaniya və Fransa ilə birlikdə Misirə qarşı təcavüz etmiş, 1958-ci ildə ABŞ və Böyük Britaniyanın Livan və Ürdünə qarşı müdaxiləsinə yardım göstərmişdi. 1967-ci ilin iyunun 5-də İsrail Misir,Suriya və Ürdünə planlı basqın edərək ərəb ərazilərini (təqribən 70 min kv km) zəbt etdi.BMT-nin təhlükəsizlik şurasının işğal olunmuş ərazilərdən İsrail qoşunlarının çıxarılması barədə 292 saylı qətnaməsinə (1967-ci il, 22 noyabr) məhəl qoymayaraq ərəb torpaqlarını işğal altında saxlamaqda davam etdi.

1973-cü il oktyabrın 6-da İsrail ərəb ölkələrinə qarşı yeni təcavüzkar müharibəyə başlasa da dünya ictimaiyyəti bu müharibənin daha geniş miqyas almasına imkan vermədi. Sonradan Misir-İsrail (1974) və Suriya-İsrail (1974) sazişlərinə əsasən İsrail, Süveyş kanalının qərb sahilini və 1973-cü ildə işğal olunmuş Əl-Qüneytra bölgəsini Suriyaya geri qaytardı.

1978-ci ilin yazında Livan ərazisinə soxularaq yeni təcavüzə başladı və ölkənin İsraillə həmsərhəd olan cənub bölgələrini bir neçə ay işğal altında saxladı.ABŞ-ın vasitəçiliyi ilə Kemp-Deviddə davam etdirilən (1978-ci il, 5-17 sentyabr) seperat danışıqlar və sonrakı Misir-İsrail sövdələşmələri Yaxın Şərqdə vəziyyətin nizama salınmasında əsaslı dəyişikliklər yaratmadı.

2005-ci ilin martında knessetin (parlament) Kemp-Deviddə bağlanmış sazişlərə əsasən Fələstinin Qəzza bölgəsindən qoşunlarını çıxarmalı idi. Lakin nə parlament nə də hökumət bu işi yerinə yetirməyə tələsmirdi. Çünki İsrail işğal etdiyi bütün ərazilərdə, o cümlədən Qəzza bölgəsində yəhudi məskənləri salmışdı. Ərəb torpaqlarında məskən salmış ev-eşik qurmuş yəhudilər isə nə o yerləri tərk etmək istəmirdilər və hökumətə qarşı etiraz aksiyaları keçirirdilər. Nəhayət, yəhudi məskənlərinin Qəzza bölgəsindən köçürülmə əməlyyatlarına 2005-ci ilin 15 avqustundan başlanıldı və

Qəzza bölgəsi yəhudilərdən təmizləndi.

2006-cı ilin iyulun ortalarında İsrail Livana qarşı yeni hərbi əməliyyatlara başladı. Ölkənin cənubunu zəbt etməklə yanaşı Beyrutu və digər böyük şəhərləri raket atəşinə tutdu. İsrail rəsmiləri bu hərəkətlərini onunla əsaslandırırlar ki, Livanda Fələstinin Hizbullah və Həmas terorçu təşkilatları fəaliyyət göstərir və bu isə İsrail üçün ciddi təhlükə mənbəyidir. Beynəlxalq ictimaiyyətin və dünyanın aparıcı dövlətlərinin İsrailin Livana müdaxiləsinin mənfi reaksiyasına baxmayaraq İsrail terrorçu saydığı təşkilatları və onların üzvlərini tamamilə məhv etdikdən sonra cənubi Livandan çıxacağını bildirmişdi.

**Dövlət quruluşu**. Dövlət quruluşuna görə İsrail parlament respublikasıdır. Dövlətin başçısı knesset tərəfindən 7 illik müddətə seçilən prezidentdir. Ölkə prezidentinin hüquqları o qədər də böyük deyil. Qanunvericilik hakimiyyəti birpalatalı knessetə məxsusdur. 120 üzvü olan knesset deputatlarının fəaliyyət müddəti 4 ildir. İcraedici hakimiyyət Baş nazir başda olmaqla Nazirlər Kabinetinə məxsusdur. Baş Nazir ümumi səsvermə yolu ilə 4 il müddətinə seçilir.

İsraildə dünyəvi qanunvericiliklə yanaşı talmudizm (yəhudilərin əsas dini kitabı) hüququ da geniş yayılmışdır. İsrail 1957-ci ildən BMT-nin üzvüdür. İnzibati ərazi cəhətdən ölkə 6 dairəyə bölünmüşdür.

İsraildə bir neçə partiya fəaliyyət göstərir.Bunlar içərisində ən böyükləri A.Peres lider olduğu sosialist-demokratik «İsrail Əmək Partiyası» (Abbreviaturası Avoda); B.Netanyahunun rəhbərlik etdiyi «Likud» partiyası; X.Eretsin rəhbərlik etdiyi və bir neçə partiyanın birliyindən yaranmış «Merets» alyansı; E.İşayın rəhbərlik etdiyi dini yönümlü «ŞAS» partiyası; İ.Livenin rəhbərlik etdiyi Milli dini yönümlü «Mafrad» partiyasıdır.

Ölkədə rəsmi Konstitusiya mövcud deyil. «Dövlətin yaranması haqqında Deklarasiya» (1948-ci il), «Parlamentin əsas qanunları» və «İsrail vətəndaş hüququ» adlı sənədlərlə idarəçilik funksiyaları müəyyən edilir.

**Azərbaycan Respublikası ilə münasibətləri.** İsrail dövləti ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 1992-ci ilin 7 aprelində qurulmuşdur. İsrail dövlətinin Azərbaycanda səfirliyinin açılması və aktiv fəaliyyət göstərməsi müsbət haldır.



Səfirliyin fəaliyyəti ölkələrimiz arasında əlaqələrin inkişafına kömək edir. Hər iki ölkənin bütün sahələrdə əlaqələrinin genişləndirilməsinə imkanlar var. İndiyədək görülən işlər xüsusən iqtisadiyyat və mədəniyyət sahəsində həyata keçirilməsi nəzərdə tutulan layihələr əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldıracaqdır.

Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, vaxtilə respublikamızda yaşamış, sonradan İsrailə köçmüş yəhudilər Azərbaycanı çox böyük məhəbbətlə yad edirlər və dövlətlər arasındakı əlaqələrin inkişafına kömək edirlər.

İsraillə əməkdaşlığın ölkəmizə xarici sərmayə axınının genişləndirilməsinə, Dağlıq Qarabağ münaqişəsinin həllində yəhudi lobbisinin dəstəyindən istifadə edəcəyinə, eyni zamanda İsrailin hərbi-sənaye kompleksinin imkanlarından bəhrələnə bilər. ABŞ-da yaşayan yəhudi lobbisi Azərbaycan üçün önəmli olan beynəlxalq problemlərin həllində Azərbaycanı ardıcıl olaraq dəstəkləyir.

İsraildən Azərbaycana gətiriləcək yeni texnologiyalar əsasən kənd təsərrüfatı sahəsini əhatə edəcək. İndiyə qədər İsrail tərəfi Azərbaycanda bir sıra layihələr həyata keçirib. Bunlar əsasən kadr hazırlığı və kadr mübadiləsi ilə bağlı olub. Ölkəmizdə fəaliyyət göstərən İsrail şirkətləri əsasən səhiyyə və aqrar sektorla bağlıdır. Qeyd edək ki, Azərbaycanın Asiya ölkələrinə ixrac etdiyi məhsulların 50 faizindən çoxu İsrailin payına düşür. Bu məhsullar sırasında yanacaq 99 faiz təşkil edir. İsraildən isə respublikamıza əsasən elektrotexnika (79 faiz), maşınqayırma və metal emalı sənaye məhsulları (17 faiz) gətirilir.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

İsrail əsasən gəlmələr və ərəb mənşəli əhalinin yüksək təbii artımı hesabına əhalisi sürətlə artan ölkələrdən biridir. Məsələn, 1971-ci ildə ölkədə 3,0 mln,1990-cı ildə 5,0 mln, 2005-ci ildə isə 6,7 mln nəfər yaşamışdır. Mütəxəssislərin hesablamalarına görə 2015-ci ildə ölkədə 7,8 mln. nəfərin yaşaması gözlənilir.Fələstin ərəbləri ölkədə qədim zamanlardan məskunlaşmış finikiya, xanaan və digər sami xalqlarının nəsilləridir.Fələstin ərazisi ərəblər tərəfindən işğal olunduqdan sonra yerli xalqlar ərəblərlə qarışmış və ərəb dilini qəbul etmişlər. Bunların əksəriyyəti müsəlmandır (sünni). Aralarında xristianlar da vardır. Bunlar arasında olan druzlar Qərbi və Mərkəzi

Qalileydə, Hayfa ətrafında yaşayırlar.

İsrail hökumətinin ölkənin ərəb əhalisinə qarşı ayrı-seçkiliyi siyasi, iqtisadi və sosial problemlərin meydana gəlməsinə səbəb olmuşdur. İsrail dövlətinin sərhədləri daxilində yaşamaqla ərəblər bu problemlərin – xüsusilə sosial problemlərin həlli qarşısında acizdir. Neqev səhrasında tayfa bölgüsünü saxlamış köçəri və yarımköçəri həyat tərzi sürən ərəblər (təqribən 65 min) iqtisadi və sosial inkişafdan çox geri qalmışlar. Karaimlər kiçik etnik qrup olub, iudaizmi qəbul etmişlər. Əsasən Raml şəhəri və onun ətrafında yaşayırlar.

Çərkəzlər Fələstində türklər tərəfindən XIX yüzilliyin axırlarında məskunlaşmışlar. Onlar Qalileyin iki kəndində icma halında yaşayırlar. Müsəlmandırlar (sünni) və etnik ənənələrini qoruyub saxlayırlar.

İsrailin yəhudi əhalisi əsasən immiqrasiya nəticəsində folrmalaşmışdır. Fələstinə yəhudilərin immiqrasiyası XIX yüzilliyin 2-ci yarısında qüvvətli olmamışdır. 1914-cü ildə yəhudi əhalinin ümumi sayı 85 min idi. Birinci və ikinci dünya müharibələri arasında immiqrasiya qüvvətlənir. Xüsusilə Almaniya və onun işğal etdiyi ölkələrdə yəhudilər təqib edilir. Bunun nəticəsində 1948-ci ildə Fələstində yaşayan yəhudilərin sayı 655 minə çatır. İsrail dövləti yarandıqdan sonra ilk 4 il ərzində ölkəyə 700 min immiqrant gəlir. Ölkədə iqtisadi çətinliklər, həmçinin Yaxın Şərq böhranının kəskinləşməsi immiqrasiyanın zəifləməsinə, emiqrasiyanın artmasına səbəb olur. 1975-ci ildə immiqrantların sayı 17 min olmuşsa, ölkəni tərk edənlər 20 min təşkil etmişdir. 1948-73-cü illər ərzində ölkəni 300 min nəfər tərk etmişdir. 1989-96-cı illərdə MDB ölkələrindən İsrailə 800 min yəhudi köçmüşdür. Hazırda əhalinin 80 fazini Şərqi Avropa və MDB ölkələrindən,həmçinin Aralıq dənizi və Afrikada ərəb dövlətlərindən gələn imminqrantlar, eləcə də İsraildə doğulan yəhudilər təşkil edir. Əhalinin təqribən 20 faizi ərəb mənşəli fələstinlilərdir.

Ölkədə orta ömür müddəti 79 yaşdır. Kişilər üçün bu rəqəm 77, qadınlarda isə 80 yaşa uyğun gəlir. Hər 1000 nəfərə anadan olanların sayı 19,3, ölənlərin sayı 6,3 nəfərdir.

Əhalinin orta sıxlığı barədə dəqiq məlumat vermək mümkün deyil. Əgər İsrail ərazisinin 20,8 min kv. km olmasının qəbul etsək, bu halda hər kv. km-ə orta hesabla 300 nəfərdən artıq adam düşəcəkdir. Əhali ərazi üzrə çox qeyri-bərabər şəkildə yerləşmişdir.



Məsələn, Təl-Əviv mahalında hər kv. km-ə 200 nəfərə yaxın, Qüdsdə 1000 nəfərdən artıq, cənub mahallarına isə hər kv. km-ə orta hesabla 50 nəfər düşür.

İsraildə rəsmi dil ivritdir. Fələstin ərəblərinin yığcam yaşadığı ərazilərdə ərəb dili işlədilir. Bu iki dildən başqa idiş, rus, ingilis və digər Avropa dillərindən də geniş istifadə olunur. İmminqrantlar əsasən gəldikləri dövlətin dilində danışırlar. İsraildə sayı 1,2 mln nəfər olan güclü rus dilli diaspora yaranmışdır.

İvrit dilinin geniş yayılması və hamı tərəfindən işlədilməsi üçün dövlətin xüsusi siyasəti mövcuddur. Ərəb dili ölkənin rəsmi dili olsa da, dövlət ərəb məktəblərinin ibtidai və natamam orta məktəblərində ivritin tədrisini məcburi sayır. Ölkəyə yeni gəlmiş immiqrantlara ivrit dilini öyrətməyin xüsusi sistemi yaradılmışdır. Bu işlərlə ivrit dili Akademiyası məşğul olur.

İsraildə əsasən iki dinin yəhudi və islamın tərəfdarları yaşayır. Əhalinin təqribən 80 faizi iudaizm dininə etiqad bəsləyir. Dindarların 19 faizi sünni məshəbinə mənsub olan ərəblər, təqribən 1 faizi xristianlardır.

İsrailin yaşlı əhalisinin 96 faizi savadlıdır. Nisbətən sanballı təhsil müəssisələri bunlardır: Hayfadakı İsrail Politexnik İnstitutu, Qüdsdəki Yəhudi Universiteti, Təl-Əvivdəki Universitet. Məşğulluğu olan hər 1000 nəfərə 135 alim və mühəndis düşür. Müqayisə üçün qeyd edək ki, bu göstərici ABŞ-da 70, Almaniyada isə 48-dir.

1983-cü ildə qəbul olunmuş yeni təsnifata görə əgər ölkənin hər hansı bir yaşayış məntəqəsində 2 min nəfərdən artıq əhali yaşayırsa o məntəqə şəhər sayıla bilər. Əhalisinin sayı 2000 nəfəri ötməmiş məntəqələr isə kənd hesab olunur. Belə təsnifata görə ölkə əhalisinin sayı 100 min nəfəri ötmüş 15-ə qədər şəhər vardır. Bunlardan ən böyükləri Yerusəlim (Qüds), Təl-Əviv, Hayfa, Bat-Yam və Xolondur. Bu şəhərlərin hər birinin əhalisinin sayı 200 min nəfəri ötmüşdür.

Sonradan ölkənin paytaxtı elan olunmuş Yerusəlim bütün göstəricilərə görə ölkənin ən böyük mübahisəli şəhəridir. Üç dinin mərkəzi hesab olunan Yerusəlimə ziyarətçilərin axını çox güclüdür. 2005-ci ildə şəhər əhalisinin sayı 700 minə yaxınlaşmışdı. Yerusəlim dünyanın ən qədim şəhərlərindən biridir. Ölü dənizdən qərbdə, yarımsəhra iqlimli yaylada yerləşmiş Yerusəlim ölkənin böyük sənaye, ticarət və nəqliyyat mərkəzidir. Şəhərdə metal istehsalı, al-

maz cilalanması, toxuculuq, əczaçılıq, poliqrafiya, yeyinti sənaye müəssisələri, məişət texnikası istehsal edən iri müəssisə fəaliyyət göstərir.

Şəhər haqqında ilk məlumat eramızdan əvvəl ikinci minilliyin ortalarına təsadüf edir. Kənanilərin qalası olmuş Qüdsü eramızdan əvvəl təqribən 1000-ci ildə yəhudi padşahı Davud işğal etmiş və şəhər İsrail-Yəhudi padşahlığının sonradan isə Yəhudi padşahlığının paytaxtı olmuşdur. Eramızın IV əsrində Yerusəlim xristianların «müqəddəs» şəhərinə çevrildi. Eramızın 638-ci ilində şəhər ərəblər tərəfindən işğal edilmiş və Məkkədən sonra müsəlmanların ikinci «müqəddəs şəhəri» olmuşdur. 1099-cu ildə səlibçilər şəhəri işğal etmiş, 1187-ci ildə Səlahəddin Əyyubi şəhəri geri ala bilmişdi. Sonradan şəhər təqribən 400 il Oısmanlı imperiyasının tərkibində olmuşdur.

1917-ci ilin sonlarında İngiltərə qoşunları şəhəri tutdu və özünün Fələstin mandatlı ərazisinin inzibati mərkəzi etdi. 1947-ci ildə BMT Baş Məclisinin qərarı ilə Qüds şəhəri BMT-nin idarəsi altında beynəlxalq xüsusi rejimli müstəqil inzibati vahid statusu aldı. Lakin sonradan baş vermiş İsrail-Fələstin və İsrail-Ərəb müharibələri nəticəsində Yerusəlim şəhəri iki hissəyə bölündü. Qərb (ərazicə böyük hissə) İsrailə, şərq hissə isə Ürdünə verildi.

1950-ci ildə İsrail qeyri-qanuni olaraq şəhərin qərb hissəsini özünün paytaxtı elan etdi. 1967-ci ildə İsrail qoşunları şəhərin şərq hissəsini də zəbt edib öz ərazisinə qatdı. BMT-nin ilk növbədə, ərəb ictimaiyyətinin bu məsələyə mənfi münasibətlərinə baxmayaraq İsrail rəhbərliyi Qüds şəhərini öz paytaxtı kimi genişləndirib inkişaf etdirir.

Qüdsdə həm müsəlman, həm yəhudi, həm də xristian dini abidələri vardır. Şəhərin şərq hissəsində qədim dövr abidələrinin qalıqları, daha doğrusu xarabalıqları qalmaqdadır. Ömər və Əl-Əqsa məscidləri, müqəddəs Anna, müqəddəs İakov kilsələri bir neçə darvazası olan şəhər divarları (o cümlədən Dəməşq darvazası) Qüdsün maraqlı memarlıq abidələrindəndir.

Şəhərin qərb hissəsi XIX əsrin ikinci yarısından tikilməyə başlamışdır. Burada çoxsaylı ictimai binalar, yeni Universitet kompleksi, tibb mərkəzi, otellər, hökumət binaları, muzey və kitabxanalar və s. inşa edilmişdir.



## 4. İqtisadiyyatı

İqtisadi cəhətdən İsrail regionun ən inkişaf etmiş dövlətidir. Isıtehsal qüvvələrinin sosial-iqtisadi strukturuna və istehsalın xarakterinə görə İsrail inkişaf emiş ölkələr qrupuna aid edilir. Ölkənin qısa müddət ərzində sürətli inkişaf etməsinin əsas səbəbləri iri imperialist dövlətlərin və beynəlxalq sionizm dairələrinin ölkəyə güclü maliyyə, iqtisadi, texniki və siyasi yardımı, immiqrantlar arasında çox savadlı mütəxəssislərin olması idi.

2005-ci il üçün İsrailin ümummilli məhsulun dəyərcə həcmi 110 mlrd. ABŞ dollarını ötmüşdü. Adambaşına düşən gəlir isə 20 min dollara yaxınlaşmışdır. 1995-2000-ci illərdə ölkədə iqtisadi inkişaf sürəti 5-6, 2000-2005 ci illərdə isə 2-3 faizə bərabər olmuşdur.

Müstəqilliyin ilk 10 illiklərində iqtisadi siyasətdə nəhəngmiqyaslı dövlətə və həmkarlar ittifaqına məxsus mülkiyyətə çox fəal dövlət tənzimlənməsi müşahidə olunurdusa, ötən əsrin 90-cı illərinin əvvəllərində hökumət yeni iqtisadi siyasət konsepsiyasını həyata keçirməyə başlamışdır. Bu konsepsiyada yenilik azad rəqabətə və qiymətlərin sərbəstliyinə yol açmış, dövlət şirkətlərin tənzimləyici fəaliyyətini minimuma endirmişdir. Dövlət həmkarlar ittifaqı mülkiyyətinə məxsus zəif şirkətləri özəlləşdirir, xarici investisiyalar üçün əlverişli şərait yaradırdı.

İsrail elmə və elmi tədqiqatlara xüsusi fikir verən ölkələrdən biridir. Ümumdaxili məhsulun illik dəyərinin təqribən 3 faizi elmi tədqiqatlara və eksperimental işlərə yönəldilir. Neqev səhrasında ABŞ-ın Silikon vadisinin analoqu yaradılmışdır. Bu sahənin inkişafına hər il 1,2 mlrd. dollar xarici investisiya yönəldilir. İsrail dünyada günəş enerjisindən istifadədə, kənd təsərrüfatında tətbiq edilən geneaoloji mühəndislikdə, pilotsuz kəşfiyyatçı təyyarələrin istehsalında liderliyini qoruyur. İsrail 1988-ci ildə ilk peykini kosmosa çıxarmışdır. Ölkənin milli istehsalı olan nüvə silahı və atom energetikası texnologiyası vardır.

İnkişaf etmiş ölkələrin əksəriyyətində olduğu kimi İsraildə də işsizlik mövcuddur. İşsizlik səviyyəsi 2004-cü ildə 9-10 faiz həddində olmuşdur. İsrail zəhmətkeşlərinin mənafeyini Histadrut Həmkarlar İttifaqı birliyi müdafiə edir. Bu təşkilatda 1,5 mln nəfər işçi birləşir və o bir çox müəssisə və şirkətlərin sahibi və ya ortağıdır.

**Sənayenin aparıcı sahələri.** İsrail faydalı qazıntılarla zəif

təmin olunduğundən onun hasilat sənayesi o qədər də inkişaf etməmişdir. Hasilat sənayesinin əsasını Ölü dənizdəki natrium və brom duzları və Neqev səhrasındakı fosfor istehsalı təşkil edir. Çıxarılan fosfatın üçdə iki hissəsi Nxal-Sin yataqlarının payına düşür. İsrail nəinki fosfata olan daxili tələbatını tam ödəyir, hətta onu dünya bazarına da çıxarır. Bunun üçün Aşdod şəhərində xüsusi liman tikilmişdir. Ölü dənizdən çıxarılan müxtəlif duzların bir qismi ölkənin daxili tələbatını ödəmək üçün, bir qismi isə ixrac üçün istifadə olunur.

İsrail yanacaq sərvətləri ilə təmin olunmadığından onun energetika sənayesi istilik elektirik stansiyalarının istehsal etdiyi enerjiyə əsaslanır. Ölkədə irili-xırdalı 60-a qədər istilik elektrik stansiyası mövcuddur. Bu stansiyalar il ərzində 30 mlrd. kvt saata qədər elektrik enerjisi istehsal edə bilirlər. Bu hasilatın 95%-ni idxal olunmuş mazutla işləyən stansiyalar verir.

Ölkədə arid iqlim mövcud olduğundan israillilər günəş enerjisindən də maksimum istifadə edirlər. Günəş batareyaları məişət cihazlarının enerjiyə olan tələbatlarının 40%-ni ödəyir. İsraildə kiçikhəcmli bir neçə atom elektrik stansiyaları da fəaliyyət göstərir.

İsraildə su təchizatı ayrıca bir sənaye sahəsi kimi fəaliyyət göstərir. Dövlətin nəzarəti altında olan bu sahə ilə 40-a qədər təmizləyici müəssisə məşğul olur.

Emaledici sənaye İsrailin inkişaf etmiş sənaye sahələrindən biridir.Metal emalında müştərək kapitala malik yığma müəssisələri üstünlük təşkil edir. Belə müəssisələrdə elektron texniki cihazlar, tibbdə işlədilən cihaz və avadanlıqlar, avtomobillər, kənd təsərrüfat avadanlıqları və maşınları, müxtəlif təyinatlı dəzgahlar və s. istehsal olunur. Akkoda şəhərində yerləşən metallurgiya müəssisəsində gətirilmə filizlərdən istifadə etməklə ildə 130-140 min tona qədər polad əridilir və ölkənin polada olan tələbatını tam ödəyir. Əlvan metallurgiya Təl-Əvivdəki alüminium prokatı istehsal edən zavodla, həmçinin Timna və Təl-Əvivdəki iri mis əritmə zavodları ilə təmsil olunur.

Kimya sənayesi İsrailin dünya standartları səviyyəsində inkişaf etmiş sənaye sahəsidir. Ölkənin kimya müəssisələrində yüzlərcə müxtəlif kimyəvi məmulatlar istehsal edən onlarca müəssisə var. İsrailin kimya sənayesi məhsulların (mineral gübrələr, yağ-boya məmulatları, dərman preparatları və s.) dünya bazarlarına ayaq aça



bilmişlər. Məsələn, əczaçılıq sənayesi müəssisələrinin 75%-i ölkədən ixrac olunur. Son illərdə İsraildə şin istehsal edən iki böyük müəssisə tikilib istifadəyə verilmişdir. Ölkənin Xayfa və Aşdod şəhərlərində idxal olunan xam neftlə işləyən iki böyük neftemalı zavodu fəaliyyət göstərir. İsrail dünyada almaz və brilliant istehsalı ilə də məşhurdur. Dünyada cilalanan almazların 40 %-i İsrailin payına düşür.

İsrail müstəqilliyinin ilk illərində hərbi sənaye sahələrinin inkişafına xüsusi fikir verir. Ölkədə olan hərbi zavodlarda tank, təyyarə, kater tipli hərbi gəmilər, raketdən müdafiə sistemləri və orta məsafəli raketlər istehsal olunur. Hazırlanmış silahların təqribən yarısı dünya bazarına çıxarılır.

Ölkənin bütün yaşayış məntəqələrində yüngül(əsasən toxuculuq, ayaqqabı və gön dəri istehsalı) və yeyinti sənaye müəssisələri fəaliyyət göstərir. Yeyinti sənayesi əsasən meyvə-tərəvəz və ət konservləri müəssisələri ilə təmsil olunmuşdur.

**Kənd təsərrüfatının aparıcı sahələri**. İsrailin kənd təsərrüfatını qonşu ərəb ölkələrinə nisbətən yüksək dərəcədə mexanikləşdirilmiş və avtomatlaşdırılmışdır. Torpaqlar gübrə ilə yaxşı təmin olunmuşlar. Çatışmayan cəhət ancaq su problemidir. Bunu da işlənilmiş suları yenidən təmizləmək və ondan qənaətlə istifadə etmək hesabına ödəyirlər.

Ölkənin əsas kənd təsərrüfatı məhsullarına (un, bitki yağları, ət və şəkərdən başqa) olan tələbatını ödəməklə yanaşı hər il orta hesabla 600-700 mln. dollar dəyərində kənd təsərrüfat məhsulları da ixrac edir. İsraildə torpaq dövlət mülkiyyətindədir. Kənd təsərrüfatında aparıcı sahə yüksək məhsuldarlı heyvandarlıqdır. Təbii otlaqları olan uzaq ərazilərdə, həmçinin ərəb mənşəli əhalinin təsərrüfatlarında qoyunçuluq geniş yayılmışdır. İribuynuzlu qaramal əsasən tövlə şəraitində saxlanılır. İsrail bu sahədə Qərbi Avropa ölkələrinin təcrübəsindən maksimum istifadə edir.

Ölkədə əkin sahələrinin ümumi sahəsi 700 min hektardır. Bunun 250 min hektarı suvarılır, qalanlarında isə dəmyə əkinçiliyi inkişaf etmişdir. Taxılın məhsuldarlığı yüksəkdir. Orta hesabla hər hektardan 35 sentner taxıl məhsulu əldə edilir. Texniki bitkilərdən yağverən bitkilərin (əsasən günəbaxan, yer fındığı, pampıq) becərilməsinə xüsusi fikir verilir. Bitkiçilikdən gələn gəlirin təqribən 15%-i tərəvəz məhsullarının payına düşür. Ölkədə meyvəçilik, o cümlədən, sitrus meyvəçiliyinin inkişafına xüsusi fikir verilir.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** İxracatında çay nəqliyyatı istisna olmaqla nəqliyyatın bütün növləri inkişaf etmişdir. Dəmir yollarının ümumi uzunluğu 610 km, avtomobil yollarının uzunluğu təqribən 16,0 min km, boru kəmərlərinin uzunluğu isə 998 km-dir. Hava nəqliyyatı əsasən beynəlxalq daşımalarla məşğuldur. Dəniz nəqliyyatı beynəlxalq yük və sərnişin daşımalarına xidmət edir. Ölkədə Xayfa, Aşdod və Eylat kimi üç müasir port fəaliyyət göstərir.

Xidmət sahəsində üstünlük turizm və bank sektorlarının əlindədir. Ümumdaxili məhsulun təqribən 3-4 faizini yaradan turizm sənayesi Tövrat və İslam məbədlərinin ziyarətçilərinə və kurort-istirahət zonalarındakı turistlərə xidmət edir. 2005-ci ildə İsrailə 2,0 mln. nəfər turist gəlmişdir. Onlardan əldə olunan gəlir isə 2,9 mlrd. dollara yaxın olmuşdur.

Ölkənin xarici siyasətinin ən tutarlı cəhətlərindən biri ABŞ və Qərbi Avropanı strateji müttəfiq görməkdir. Bununla belə ötən əsrin 90-cı illərinin ortalarından Cənub-Şərqi Asiyada, Latın Amerikasında və Qərbi Avropada işgüzar fəallığın artması gözə çarpmağa başlamışdır.

2003-cü ildə ölkədən ixrac olunan malların dəyəri 32 mlrd. dollar həcmində olduğu halda idxal, həmçinin dəyəri 36 mlrd. dollar təşkil etmişdir.

İxracat potensialına malik əsas sahə yüksək texnologiya və hərbi sənaye məhsullarıdır. Elmi tutarlı ixracat göstəricisinə görə İsrail ancaq ABŞ-dan geri qalır. İdxal strukturunda yanacaq, cilalanmış almaz, nəqliyyat təyyarələri və vertolyotlar, sənaye avadanlıqları və hərbi ləvazimatlar üstünlük təşkil edir. ABŞ ölkənin başlıca ticarət ortağı olaraq qalır. İsrailin xarici ticarət dövriyyəsinin təqribən 20%-i ABŞ-ın payına düşür.

ABŞ İsrailə hər il orta hesabla əvəzsiz olaraq 3 mlrd. dollar həcmində maddi yardım göstərir. 2003-cü ildə ölkədə cəmləşən xarici investisiyaların həcmi 52 mlrd. 2003-cü ildə ölkənin xarici borclarının miqdarı 71 mlrd. dollara çatmışdır.

Son zamanlar İsrail Yaxın Şərqin mühüm maliyyə mərkəzlərindən birinə çevrilməkdədir. Ölkənin milli pul vahidi yeni şekeldir. Məzənnəyə görə 1 yeni şekel 1 ABŞ dollarına bərabər tutulur. Bir şekel isə 100 aqora bərabərdir.



# KİPR RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqeyi**. Kipr (ölkənin adı latınca (kuprus) mis mənasını bildirir. Adada hələ qədim zamanlarda mis yataqları mövcud olmuşdur.Kipr Respublikası Aralıq dənizinin şərq hissəsində, Türkiyənin cənubunda eyniadlı adada yerləşir. Kiprdən Türkiyə sahillərinə ən yaxın məsafə 65 km, Suriya və Livana 110 km, Misirə 370 km-dir. Adanın sahəsi 9,2 min kv. km-dir. Adanın qərbdən şərqə maksimal uzunluğu 225 km, orta eni isə 60 km-dir.

Adanın çox əlverişli coğrafi və hərbi-strateji mövqeyi var. Üç qitənin yaxınlığında yerləşmiş Kipr adası Avropadan Yaxın Şərqə və Şimali Afrika ölkələrinə gedən beynəlxalq dəniz və hava yolları üzərində yerləşmişdir. Ada iki hissəyə parçalandığından onun ərazisinin 3355 kv. km-i kiprli türklər, 5500 kv. km-i kiprli yunanlar tərəfindən idarə olunur.

**Səth quruluşu və faydalı qazıntıları.** Kipr füsunkar təbiətə malik ölkələrdən biridir. Bütün ilboyu ada üzərində açıq günəşli səma mövcud olur. Adanın sahilləri Aralıq dənizinin ılıq suları ilə yuyulur. Ada səthinin çox hissəsi alçaq dağlar və yaylalar ilə örtülmüşdür. Şimalda Kireniya ( hünd. 1000 m.) dağları uzanır. Bu dağlar çöküntü mənşəli suxurlardan, əhəng və qum daşlarından ibarətdir. Dağlar sahilə doğru maili və sıldırımlıdır. Ancaq bəzi yerlərdə qumlu çimərliklərə də rast gəlinir. Adanın cənub-qərb hissəsində Troodos adlanan daglar yerləşir. Adanın ən hündür zirvəsi də elə burdadır (Olimp dağı 1950 m). Əsasən vulkanik suxurlardan ibarət Troodos dağlarının səthi cavan süxurlarla (əhəng və qum daşları, mergenlər) örtülmüşdür. Dağlar çox da yüksək olmadığı üçün hələ qədim zamanlardan insanlar tərəfindən məskunlaşmışdır. Dağların hamar yamaclarında bağlar, üzümlükdər salınmış, mal-qara üçün otlaq kimi istifadə olunur.

Dağlar arasında səthi dərə-təpəli Mesoariya düzənliyi yerləşir. Bu düzənlik ölkənin əsas kənd təsərrüfatı rayonu və Kiprin taxıl anbarı sayılır.

Troodos dağları bölgəsi Kiprin əsas faydalı qazıntılarının toplandığı ərazidir. Burada ehtiyatı xeyli azalmış mis, dəmir, xrom

filizləri, asbest, gips və müxtəlif tikinti materiallarının olması məlumdur. Olimp dağı ətrafında xrom filizi çıxarılır. Adanın cənubunda Limasol və Larnaka şəhərləri yaxınlığında duz mədənləri vardır. Kiprdə qədim zamanlardan umba (qiymətli gil növü) çıxarılır. Kirsniya və Troodos bölgələrində mərmər, qum və başqa tikinti materialları çıxarılır.

**İqlimi və hidroqrafiyası.** Ölkənin iqlimi subtropik, Aralıq dənizi tiplidir. Qış ayları rütubətli, mülayim, yay isə quraq və isti keçir. İyun ayının orta temperaturu müsbət 25°, yanvarınkı isə müsbət 12° C-dir. Adaya düşən yağıntıların orta illik miqdarı düzənliklərdə 300-500 mm, dağlarda isə 800-1000 mm-dir. Ölkəyə çox nadir hallarda qar yağır. Yağıntılar əsasən noyabrdan-aprelə qədər düşür. Maydan oktyabra qədər yağıntı, demək olar ki, olmur.

Aralıq dənizi hövzəsinin digər ölkələrində olduğu kimi Kiprin də yay ayları isti keçir, oktyabrdan başlayaraq isti havalar azalır. İsti iqlim və Aralıq dənizi iqlimi bütün il ərzində müxtəlif mədəni bitkilərin yetişdirilməsinə şərait yaradır. Kiprdə çimərlik mövsümü 7-8 ay davam edir. Ümumiyyətlə, Kipr xarici turistlərin çox sevdiyi bir yerdir. Çünki burada ilin orta hesabla 280 günü aydın və günəşli keçir. Kipr hökuməti təbiətin bəxş etdiyi bu nemətdən maksimum səviyyədə istifadə edərək ölkədə beynəlxalq dərəcəli onlarca turizm obyektləri-çoxulduzlu mehmanxanalar, yaxşı təchiz olunmuş iaşə müəssisələri və digər istirahət ocaqlarının tikintisinə icazə vermişdir. Dəniz sahillərinə çıxışı olan digər ölkələrdən fərqli olaraq Kiprdə istirahət etmək bir qədər ucuzdur.

Kiprdə daimi axara malik olan çaylar, demək olar ki yoxdur. Mənbələrini dağlardan götürən az sulu çaylar qışda və yaz yağışları hesabına bir müddət axırlar. Çayların əksəriyyəti qısadır, ən uzun çay 50-70 km məsafədə axır. Qışda yağıntıların miqdarı çox olduğundan çaylar daşır və təsərrüfata ziyan dəyir. Yayda isə onların əksəriyyəti quruyur, qalanlarının isə suyu azalır. Kiprdə nisbətən əhəmiyyətli çaylar Akaki və onun qolu Merikidir. Troodos dağlarından cənub istiqamətində qısa və astanalı dağ çayları axır.

Adada qrunt suları bir qədər dərin qatlarda yerləşdiyi üçün çayların sularından suvarma ilə yanaşı, məişətdə də istifadə olunur. Sahil düzənliklərində Larnaka körfəzi, eləcə də Limasol şəhəri yaxınlığında dayaz, şirin və şor sulu göllər var.



Kiprlilər suyun qiymətini yaxşı bilirlər. Çünki ölkədə faktiki olaraq daimi axara malik olan çaylar olmadığından, dağlara yağmış qarların əriməsindən sonra əmələ gələn axar suların «ömrü» bir neçə gün, hətta bir neçə saat olduğundan su problemi son yüzilliklərdə həmişə ən kəskin problemlərdən biri olmuşdur. Suyun çatışmamasına isə digər səbəb rütubət saxlayan meşələrin vəhşicəsinə qırılması olmuşdur.

**Torpaq və bitki örtüyü.** Kiprin bitki örtüyü bir qədər zəngindir. Keçmiş zamanlarda adanın hər tərəfi həmişəyaşıl hündür meşələrlə örtülü olub. Kiprdə tədarük olunan oduncağa isə qonşu ölkələrdə tələbat gündən-günə artırdı. Kipr oduncağı əsas etibarilə Misirə göndərilirdi. Qədim finikiyalılar Kiprdən gətirilən ağaclardan gəmi hazırlayırdılar. Sonralar meşələr qırılır, ağaclardan tikinti materialları, eləcə də yanacaq kimi istifadə edilirdi.

Hazırda ada ərazisinin cəmi 15-16 faizi meşələr ilə örtülmüşdür. 500 metrə qədər olan dağların yamacları və düzənliklər həmişəyaşıl kolluqlarla, Kireniya və Karpas dağlarının cənub yamacları isə çöl bitkiləri ilə örtülmüşdür. Ən əhəmiyyətli meşələr Troodos dağlarının qərb hissəsində qalmışdır. Dağların yamacları hələb şamı, vələs, şabalıd, yunan qozu, püstə, sərv ağacları ilə örtülüdür. Düzənliklər və sahil bölgələri bağlar, üzümlüklər, sitrus meyvələri və zeytun ağacları ilə örtülüdür.

Kiprin torpaqları məhsuldar torpaqlar hesab olunur. Humusun miqdarı çox olan bu torpaqlarda istiliksevən və quraqlığadavamlı bitkilərlə yanaşı mülayim qurşağın bitkiləri də yaxşı yetişir.

Kipr öz təbiətinin qorunmasına biganə qalan ölkə deyil. Çünki ölkə iqtisadiyyatında təbii amillərin rolu böyukdur. Amma adanın iki hissəyə bölünməsi, burada gedən çəkişmələr təbiətin mühafizəsini bir qədər arxa plana keçirir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi, Azərbaycan Respublikası ilə münasibətləri

Kipr dünyanın qədimdən məskunlaşan ərazilərindən biridir. Mütəxəssislərin fikrincə məskunlaşma neolit* dövrünə təsadüf edir.

* **Neolit** – yeni Daş dövrünün son mərhələsi. Bu dövrdən yığılıcıq və

Arxeoloqların adada aşkar etdikləri qədim tapıntılar eramızdan əvvəl üçüncü minilliyin ortalarına təsadüf edir. Bu qazıntılara XİX əsrin axırında alman və ingilis arxeoloqları tərəfindən başlanılmışdır.

Kipr tarixi krit-miken, yunan və türk sivilizasiyalarının bir hissəsidir. Eramızdan əvvəl ikinci minillikdə Kipr yunan tayfaları tərəfindən zəbt edilir. Bu hadisə adada yunan mədəniyyəti və yunan dilinin yayılmasına səbəb olur.

Arxeoloqlar Kiprdə Afroditanın** çoxlu heykəl təsvirini tapırlar. Adanın qərb hissəsində Afrodita məbədinin qalıqları da qalmaqdadır. Sonralar Kipr misirlilərin, assuriyalıların, farsların, romalıların, bizanslıların təsiri altında idarə olunub

1489-1570-ci illərdə Kipr Venesiya Respublikasının tərkibinə daxil edilmişdir. Öz gəmilərini Kiprin dəniz quldurlarının basqınından müdafiə etmək üçün Osmanlı sultanlığı 1570-ci ildə Venesiya Respublikasına qarşı müharibəyə başladı və bir il ərzində Kipri tam zəbt etdi. Adanı tutmuş təqribən 30 min türk əsgərinə tutduqları ərazidə torpaqlar bəxşiş verilirdi. Türk sərkərdələrinin bəziləri yerli feodal mülkədarlara çevrilirdilər. Kiçik Asiyadan Kiprə türk miqrasiyası sonrakı illərdə müşahidə olundu. Adada turk əhalisinin formalaşması prosesi belə başlanmışdı.

1878-ci ildə adanın coğrafi və hərbi-strateji mövqeyinin üstünlüklərindən öz xeyrinə istifadə etməyə çalışan İngiltərə Kipri işğal etdi. 1925-ci ildə isə ona rəsmən ingilis müstəmləkəsi statusu verilir və ada Boyük Britaniyanın xammal bazasına çevrilir. İkinci dünya müharibəsindən sonra güclənən milli azadlıq hərəkatı Böyük Britaniyanı Kipri müstəqil dövlət kimi tanımağa məcbur edir. Lakin Kiprin Dekeliya və Akrotiri rayonlarında Böyük Britaniya hərbi bazaları (sahəsi 99 kv mil*) saxlanıldı.

1960-cı il avqustun 16-da Kipr rəsmi şəkildə Böyük Britaniyadan istiqlaliyyət almışdı. Həmin ilin sentyarında o Birləşmiş Millətlər Təşkilatının üzvü seçilir. Eyni zamanda Böyük Britaniyanın rəhbərlik etdiyi «Birlik» təşkilatına daxil edildi. Az keçməmiş

heyvandarlığa keçid başlamışdır.

** **Afrodita –** qədim yunan mifalogiyasında məhəbbət, gözəllik ilahəsi, yunan allahlarından Zevsin qızı. Romalılarda Venera ilə eyniləşdirilir.

* **Mil** – uzunluq vahidi. 1 quru mili təqribən 1,6 km-ə, 1 dəniz mili 1,8 km-ə bərabərdir.



adadakı etnik qruplaşmalar arasında başlanan ziddiyyətlər yunan və türk mənşəli kiprlilər arasında silahlı toqquşmalara gətirib çıxardı.

Son nəticədə 1974-cü ildə adanın şimal-şərq hissəsi qalan ərazidən təcrid olunmuş (Yunanıstan meylli mülki qvardiya tərəfindən törədilən hərbi çevrilişdən sonra adanın şimal hissəsinə Türkiyə qoşunları yeridilməsi nəticəsində) və nəhayət, 1983-cü il noyabrın 15-də Şimali Kipr Türk Respublikası elan edilmişdir. Uğurlu hərbi əməliyyatlar nəticəsində türk qoşunları ada ərazisinin təqribən 40 faizini tutdular.

Kiprdə yaranmış vəziyyətlə əlaqədar BMT-nin Təhlükəsizlik Surası 1974-cü il qətnaməsinə əsasən bütün xarici qoşunları Kiprdən çıxarmağa çağırırdı. Şimali Kipr respublikasını ansaq Türkiyə Respublikası tanımışdır.

Zaman keçdikcə kiprli yunan və türk icmaları bir-birindən təcrid olunur və bir-birinə düşmən münasibəti bəsləyirdilər. Yeni hərbi toqquşmaların baş verməsinin qarşısını almaq üçün BMT sülh məramlı qoşun kontingentini adaya göndərməyi qərara alır. Bu gün adanın hər iki hissəsində BMT qüvvələrinin koməyilə ayırıcı xətt müəyyənləşdirilmişdir. Yaşıl xətt adanın bu xətt ada ərazisinin 4 faizini təşkil edən ensiz bufer zonası şəklindədir. Adanın yunanlar yaşayan hissəsində Böyük Britaniyanın iki hərbi bazası qorunub saxlanılır. Bu hissədə, həmçinin Yunanıstanın hərbi kontingenti də yerləşir. Türklər yaşayan hissədə isə Türkiyəyə məxsus hərbi kontingent vardır. Adanın yunanlar yaşayan hissəsi 2004-cü ildə birtərəfli qaydada Avropa İttifaqına qəbul edilmişdir. Bu hadisə türk icması tərəfindən çox pis qarşılandı.

**Dövlət quruluşu.** İdarəolunma formasına görə Kipr respublikadır. Adanın hər iki hissəsində parlament demokratiyası fəaliyyətdədir. Yunanlar yaşayan hissədə dövlətə və hökumətə prezident rəhbərlik edir. O, Nazirlər Kabinəsinin tərkibini formalaşdırır. Yunan icmasında ali qanunvericilik hakimiyyət prezidentə və birpalatalı (56 yer) parlamentə məxsusdur. Ölkə prezidenti və parlament deputatları 5 il muddətinə seçilir.

Ölkənin türklər yaşayan hissəsində prezident və Baş nazir vəzifələrini ayrı-ayrı adamlar tutur. Yunan icmasında olduğu kimi burada da prezident və birpalatalı parlament (50 yer) 5 il müddətinə seçilir.

İnzibati ərazi cəhətdən Kipr 6 dairədən ibarətdir. Vahid olkənin

paytaxtı Nikosiyadır. Bu şəhər yunan və türk icmaları hissələrinə bölünmüşdür. Bütün dairələrin adları orada yerləşmiş böyük şəhərlərin adı ilə eynidir. Famaqusta (iki hissəyə bölünmüşdür), Kireniya (türk icması ərazisindədir), Pafos, Larnaka və Limosol (yunan icması ərazisindədir) belə dairələrdəndir.

Milli bayram müstəqillik günü olan 1 oktyabrdır (1960). Dövlət iki hissəyə bolündüyündən onun siyasi partiyaları da ayrı-ayrı hissələrdə fəaliyyət göstərən müxtəlif yönümlü partiyalardır. Yunanlar yaşayan hissədə nisbətən böyük siyasi partiyalar 1976-cı ildə yaradılmış Demokratik partiya; 1946-cı ildə yaradılmış Kipr Zəhmətkeşlərinin Mütərəqqi partiyası (abbreviaturası AKEL); 1969-cu ildə yaradılmış Sosial-Demokratlar Hərəkatı partiyası və b.-dır.

Türk icmasının yaşadığı bölgələrdə isə 1975-ci ildə yaradılmış Milli Birlik partiyası; 1990-cı ildə yaradılmış Demokratik partiya; 1970-ci ildə yaradılmış Türk Respublikası partiyası və b.-dır. Yunan icması parlamentinin deputatlarının böyük əksəriyyəti Demokratik və AKEL partiyasının üzvləridir. 2003-cü ildə icmada keçirilmiş prezident seçkilərində Demokratik partiyanın lideri Tasos Panadopulos prezident seçilmişdir.

Türk icması parlamentində Milli Birlik və Demokratik partiya nümayəndələri üstünlük təşkil edirlər. Milli Birlik partiyasının lideri Şimali Kipr Türk Respublikasının (ŞKTR) Baş naziri, Demokratik partiyanın lideri isə ŞKTR-nın prezidenti vəzifəsini tutur.

Hər iki Kipr icmasının xarici siyasətində birtərəflik və bütün ölkələrlə dostluq münasibətlərini inkişaf etdirmək məsələləri sözdə ön plana çəkilir.

Kipr probleminin həlli dünya istimaiyyətinin, xüsusilə BMT-nin nəzərindən yayınmır. Bu problem dəfələrlə BMT-də, onun Təhlükəsizlik Şurasında müzakirə olunub və müəyyən qətnamələr qəbul edilib. Əgər qəbul olunan qətnamə yunan icmasının xeyrinə olubsa onu turk icması rədd edib, türk icmasının xeyrinə olan qətnamələrə isə yunan icması yox deyib.

1997-ci ilin əvvəllərində Kipr Respublikası Rusiyadan «yersəma» tipli orta mənzilli idarə olunan raketlər almaq istədiyini bildirdi. Yunanıstan bu işdə ona yardımçı olacağını elan etdi. Onda Türkiyə ŞKTR-də yerləşdirdiyi ordu kontingentinin sayını artıracağını bildirdi. Kipr Respublikası Yunanıstan ilə sıx yaxınlaşmaya can atdığı vaxtda ŞKTR Türkiyə ilə inteqrasiyaya üstünlük verirdi.



2002-ci ilin noyabrında BMT Kiprin federal sistemdə yenidən birləşdirilməsini nəzərdə tutan yeni sülh proqramını irəli sürdü. Həmin ilin dekabrında Avropa İttifaqı (Aİ) bildirdi ki, Kipr təşkilata üzvlüyə Avropa İttifaqının 2004-cü ildəki növbəti genişləndirmə raundunda qəbul ediləcək.

Kiprdəki sülh danışıqlarını dəstəkləyərək Avropa Ittifaqı, həmçinin bildirir ki, əgər sülh əldə olunmazsa yalnız beynəlxalq aləmdə tanınmış Yunan Kipri təşkilata üzv qəbul olunacaqdır

2003-cü ilin fevralındakı prezident seçkilərində mərkəzi Demokratik partiyanın lideri Tassos Papadopulos qalib gəldi. Bir ay sonra BMT-nin nəzarət etdiyi danışıqlar baş tutmadı. Həm yunanlar, həm də türklər təklif olunan plandan ehtiyat etdiklərini bildirdilər. 2003-ün aprelində kiprlilər bufer zona boyu hərəkətin məhdudluğunu sadələşdirdilər. Hər iki icmadan minlərlə kiprli dərhal xətti keçdi. O vaxtdan bəri çoxlu Kipr türkü daha inkişaf etmiş cənuba işləməyə getdi. 2004-ün fevralında Yunan və Kipr liderləri güclü beynəlxalq təzyiq altında BMT-nin vasitəçilik etdiyi sülh danışıqlarını yekunlaşdırmağa razılıq verdilər və beləliklə, Kipr vahid dövlət kimi Avropa İttifaqına üzv oldu. Apreldə adanın hər iki hissəsində keçirilən referendumda Kipr yunanlarının 75 faizdən çoxu BMT-nin yenidən birləşmə planından imtina etdilər, Kipr türklərinin 65 faizi isə planı bəyəndi. Hər iki tərəfin liderləri plana qarşı çıxdılar.

Plandan imtina yalnız Yunan Kiprinin 2004-cü ilin mayın 1-də Avropa İttifaqına üzv olması ilə nəticələndi. Bununla belə, Türkiyə Kiprinin birləşmə planını bəyənməsi sülhə doğru konstruktiv bir addım idi. Bu bəyannamə Türkiyə Kiprinə öz meyvə, tərəvəzlərini cənuba və eləcə də, Ümumi bazarına tarifsiz daxil etməyə imkan verdi. Türkiyə hököməti özünün Avropa İttifaqına üzvlük qrafikinə əlavə olaraq Kipr respublikasının Avropa İttifaqının üzvü kimi tanımağa razılıq verdi lakin tam diplomatik tanıma yoxdur.

### 3. Əhali və şəhərlər. Paytaxtın qısa səciyyəsi

Kiprdə əhalinin sayı həm təbii yolla, həm də miqrasiya hesabına artır. 1946-cı ildə Kiprdə yaşayanların sayı 442 min, 1990-da 700 min, 2005-ci ildə təqribən 900 min nəfər olmuşdur. Ölkə üçün illik artım təqribən 1 faiz həddindədir. Əsas etnik qruplara yunanlar (ümumi əhalinin 78 faizi) və türklər (18 faiz) aid edilir. Bu etnoslar

ayrı-ayrılıqda məskunlaşmışlar. Yunan icması ölkənin cənub qərbində (ərazinin 60%-i), türk icması şimal şərqində (40 faiz) məskunlaşıb. Yunan provaslav kilsəsi dindarların 78 faizini əhatə edir. İslam dininə etiqad edənlər 18 faizdir. Gözlənilən uzunömürlülük 78 ildir (kişilər üçün 74, qadınlar üçün 79 yaş). Hər 1000 nəfərə anadan olanların sayı 13, ölənlərin sayı 8 nəfərdir. Ölkənin hər $km^2$-də orta hesabla 80 nəfər adam yaşayır. Əhalinin sıxlığı Mesoariya düzənliyində və sahil bölgələrində nisbətən sıx, Karpas və Troodos dağlıq ərazilərində nisbətən zəifdir.

Ən sıx əhali paytaxt dairəsində yaşayır. Kiprdə təhsilin səviyyəsi region miqyasında yüksək hesab oluna bilər. Yaşlı əhalinin 97 faizi savadlıdır. Şəhər əhalisinin sayının sürətlə artmasına baxmayaraq Kiprin şəhərləri o qədər də böyük deyil. Bütün göstəricilərinə görə ölkənin ən böyük şəhəri **Nikosiyadır.** Şəhər Mesoariya düzənliyində 150 m hündürlüklü Pedisos çayı sahilində yerləşmişdir.

Kipr yunanlarının Nikosiya, Kipr türklərinin Levkoşa adlandırdıqları şəhərdə 200 mindən bir qədər artıq adam yaşayır. Əlverişli mövqeyi olan şəhər böyük nəqliyyat qovşağıdır. Dəmir və avtomobil yolları Nikosiyadan ölkənin hər tərəfinə çəkilmişdir. Şəhərin yaxınlığında beynəlxalq dərəcəli aeroport fəaliyyət göstərir.

Nikosiya Kiprin əsas iqtisadi, siyasi mədəni mərkəzidir. Şəhərdə metal emalı, dəri-ayaqqabı, toxuculuq, yeyinti, poliqrafiya sənaye müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrlə yanaşı Nikosiyada dulusçuluq xalq sənətkarlığı da inkişaf etdirilimişdir. Paytaxtın muzeyləri, tarixi memarlıq və arxitektura abidələri turistlərin çox xoşuna gəlir. Şəhərin əsası eramızdan əvvəl təqribən VII əsrdə qoyulmuşdur. Eramızdan əvvəl 58-ci ildə Roma imperiyasının sonralar Bizansın tərkibinə daxil edilib. Əvvəllər şəhər Ledra adlanırdı. Nikosiya adı şəhərə XIII əsrdə verilmişdir. Nikosiya qədim yunanların qələbə allahı hesab edilən Nikinin şərəfinə verilmişdir.

## 4. İqtisadiyyatı

Kipr adasında faktiki 2 dövlət mövcud olduğundan orada bir-birindən o qədər də kəskin fərqlənməyən 2 icmanın iqtisadiyyatından danışmaq lazımdır. Ümumiyyətlə, Kiprdə beynəlxalq turizm, yeyinti sənayesi, bank-maliyyə sistemi azad iqtisadi zonalar fəaliyyəti yaxşı



inkişaf etmişdir. Daxili milli məhsulun həcmi 2004-cü il göstəricilərinə görə bütün ada üçün14 mlrd. dollardan artıq olub. Bu məhsuldan əhalinin hər nəfərinə orta hesabla 18 min dollar vəsait düşür. Bu rəqəm türklər yaşayan hissədə 6 min dollardan çox deyil, yunanlar yaşayan hissədə isə iki dəfə çoxdur. Adanın yunanlar yaşayan hissəsində yerli hökumətin iqtisadi siyasəti Avropa və Yaxın Şərqlə mövcud olan əlaqələrindən asılıdır və AİT üçün zəruri hesab edilən meyarların əldə edilməsinə yönəldilmişdir.

Adanın türklər yaşayan hissəsində yerli hökümətin iqtisadi siyasəti Türkiyə ilə əlaqələrlə bağlıdır.Yunanlar yaşayan hissədə ÜDM-un 72 faizi xidmətin, 29 faizi sənayenin, 6 faiz kənd təsərrüfatının payına düşür. Türklər yaşayan hissədə ÜDM-nun 68 faizi xidmət, 20 faizi sənaye, 12 faizi isə kənd təsərrüfatının payına düşür.

**Sənayenin aparıcı sahələri.** Kipri vahid dövlət kimi götürdükdə onun əmək qabiliyyətli əhalisinin 2/3 hissəsi xidmət, sənaye və tikinti sahələrində çalışır. Ötən əsrin 80-ci illərindən sonra Kipr sənayesinin strukturu böyük dəyişikliklərə məruz qalmışdır. Emal-edici, xidmət və mədən sənaye sahələri dünya standartları səviyyəsinə qədər yüksələ bilmişdir. Buna baxmayaraq ölkədə xırda kustar tipli müəssisələr hələ çoxdur.

İri müəssisələrin əksəriyyəti xarici kapitalın (əsasən yunan, türk və ingilis) əlində cəmləşib. Kiprdə mədən sənayesi ilə çox qədim zamanlardan məşğul olurlar. Ölkənin əsas sərvəti mis filizidir. Onun kəşf olunmuş ehtiyatı təxminən 400 min tondur. Filizin çıxarılması və ilkin emalı ilə ABŞ və Böyük Britaniya şirkətləri məşğul olurlar. Mədən sənayesinin yerli istehsal sahələri və yerli bazar ilə əlaqələri çox zəifdir.

Çıxarılan faydalı qazıntının çox hissəsi ilkin emalı keçdikdən sonra dünya bazarına çıxarılır. Sənaye sahələrinin yaxşı inkişaf etməməsinin bir səbəbi də energetika bazasının zəifliyi ilə bağlıdır. Kipr yanacağı idxal edir. İdxal olunan yanacaqla ölkədə İES-lər fəaliyyət göstərir. Ərəb ölkələrindən gətirilən neftin hesabına Larnaka şəhərində neft emalı zavodu inşa olunub. Kiprdə elektirik enerjisi istehsalı 5 mlrd kv/saat-dan çox deyil. Bütün ölkədə yeyinti, toxuculuq, mebel, metal emal edən müəssisələrə rast gəlmək olar.

Xidmət sahəsində turizm və əcnəbi gələnlərin qeydiyyatı mühüm əhəmiyyət kəsb edir. Ölkədə gəmiqayırma sənayesi inkişaf

etməsə də Kipr bayrağı altında əsasən Yunanıstana, Almaniyaya, Rusiyaya və Latviyaya məxsus irili-xırdalı 1500-ə qədər gəmi üzür.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Kənd təsərrüfatı Kipr sənayesinin həmişə aparıcı sahələrindən olub. Əmək qabiliyyətli əhalinin təqribən 20 faizi kənd təsərrüfatı sahələri ilə məşğul olur. Suvarılan torpaqlarda 2-3 dəfə məhsul götürmək mümkündür. Əkinçilik Kipr kənd təsərrüfatının başlıca sahəsidir. Əkilən qiymətli texniki, sitrus və başqa meyvələr yüksək əmtəəlik dərəcəsi ilə seçilir və toplanan məhsulun əksər hissəsi ixrac edilir. Buna baxmayaraq kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmir.

Kiprdə torpaqların 1/3-i dövlətin dini müəssisələrinin, eləcə də iri sahibkarların əlində cəmləşib. Adada böyük torpaq sahibkarı provaslav kilsəsidir. Türk icmasının dini təşkilatına məxsus olan vəqf torpaqları o qədər də çox deyil. Adada kənd təsərrüfatı istehsalının inkişafı üçün irriqasiya vacib əhəmiyyət kəsb edir.

Hazırda bütün şumlanan torpaqların yalnız 15 faizi daima suvarılır. Kənd təsərrüfatı daima güclü quraqlığa məruz qalır. Kiprin su təchizatı probleminə irriqasiyaya, meliorasiyaya hər iki icma çoxlu vəsait sərf edir.

Kiprdə müxtəlif kənd təsərrüfatı bitkiləri yetişdirilir. Onları 2 qrupa ayırmaq olar. Birinci qrupa dənli, paxlalı, zeytun və tərəvəz bitkiləri daxildir ki, onlardan adanın əhalisi istifadə edir. İkinci qrupa sitrus, üzüm, giləmeyvələr və s. aiddir ki, onların əksər hissəsi ixrac olunur. Kipr əkinçiliyində sürətlə inkişaf edən sahələrdən sitrus meyvələrinin (portağal, mandarin, limon, qreyfrut) becərilməsidir. Ən əhəmiyyətli sitrus plantasiyaları adanın cənub hissəsində – Famaqusta dairəsində, Limasol ətrafında yerləşir. Elə bu şəhər-portlar vasitəsi ilə sitrus meyvələr ixrac olunur.

Ölkədə yetişdirilən sitrus meyvələrinin təqribən 75 faizi ixrac olunur. Qalanı isə ölkə müssisələrində konservləşdirilir və onlardan kompotlar istehsal olunur. Kiprin digər ixracat bitkisi üzümdür. Üzüm adanın əksər hissələrində yetişdirilsə də əsas üzüm palntasiyaları adanın cənub qərb hissəsində yerləşir. Üzüm plantasiyalarının ümumi sahəsi 40 min hektardır. Istehsal olunan üzümün 1/3-i yerli müəssisələrdə emal olunur. Bir hissəsindən isə şərab istehsal olunur. Kiprin «Kommandarı» çaxırı çox məşhurdur. Şərabla bərabər ölkədən kişmiş və üzümün süfrə sortları da ixrac olunur.

Zeytun əkinlərinə adanın hər yerində rast gəlmək olar. Zeytun



kiprlilərin əsas qida rasionunun tərkib hissəsidir. Ölkə zeytun yağına olan daxili tələbatını tam ödəyir. Kipr üçün heyvandarlıq kənd təsərrüfatının mühüm sahələrindən biri olsa da əkinçiliklə müqayisədə o bir qədər geridir. Ölkə heyvandarlığında xırda buynuzlu heyvanlar yetişdirilməsi üstünlük təşkil edir çünki təbii otlaqlar və çəmənliklər azdır. Yemin çatışmaması ilə xəstəliklər də heyvandarlığa böyük zərər verir. Baytarlıq xidməti lazımı səviyyədə deyil. Ölkənin böyük təbii imkanlarına baxmayaraq balıqçılıq lazımı səviyyədə inkişaf etməmişdir. Əsas səbəbi balıq donanmasının zəif olmasıdır.

**Nəqliyyat, Xarici ticarəti, maliyyə sistemi.** Nəqliyyat baxımından ölkə pis təmin olunmayıb. Adanın daxili yük və sərnişin daşımalarında avtomobil nəqliyyatı əsas yeri tutur. Amma adanın 2 hissəyə parçalanması vahid nəqliyyat sistemini iflic vəziyyətə salmışdır. Xarici əlaqələrdə dəniz və hava nəqliyyatının rolu böyükdür. Nikosiyadan başqa ölkənin bütün böyük şəhərləri həm də dəniz limanlarıdır. Adada beynəlxalq və yerli əhəmiyyətli aeroportlar da fəaliyyət göstərir. Ölkənin iqtisadiyyatı üçün xarici iqtisadi əlaqələrin rolu böyükdür.

Adanın yunanlar yaşayan hissəsinin xarici iqtisadi əlaqələri Böyük Britaniya, Yunanıstan və Qərbi Avropanın digər dövlətləri istiqamətindədir. Kipr yunanlarının mal ixracat həcmi 1,3 mlrd. dollar həcmində idi. Bu ixracatda əsas məhsullar sitrus meyvələri, üzüm, şərab, kartof, tikiş məhsulları və ayaqqabılardır.

Adanın türklər yaşayan hissəsinin ixracat həcmi 100 mln. dollardan bir qədər artıqdır. Bu bölgədən əsasən sitrus meyvələri, kartof və toxuculuq məhsulları ixrac olunur. Adanın yunanlar yaşayan hissəsində pul vahidi Kipr Funtudur. Türklər yaşayan hissədə pul vahidi kimi türk lirəsindən istifadə olunur.

Son illərdə Kiprdə Azad İqtisadi Zonaların yaradılmasına və offşor fəaliyyətinə xüsusi fikir verilir. Bu işlər adanın hər iki hissəsində aparılır. Bu fəaliyyət adanın yunan payı hissəsində daha fəaldır. Bu ərazi Qərbi Avropa və Rusiya investorları üçün ən məşhur zonalardan biri kimi dəyərləndirilir.

Offşor qanunvericiliyi 1975-ci ildə qəbul edilmişdir. Offşor şirkətlər əsasən beynəlxalq biznes-şirkətlər (İnternational Busines Company) statusuna malikdirlər. Burada qeydiyyata alınan offşor şirkətlər 4,25 faiz miqdarında gəlir vergisi ödəyirlər. Onlarda

nizamnamə kapitalı 1000 kipr funtundan az olmamalıdır. Şirkətin katibi Kiprə məxsus fiziki yaxud hüquqi şəxs olmalıdır. Ölkədə minlərlə offşor şirkəti qeydiyatdan keçmişdir. Onlardan cəmi 10 faizinin adada ofisləri vardır. Həmin ofislərdə əsasən əcnəbilər olmaqla 5 min nəfər çalışır. Ölkə ikiqat vergi tutmaqdan azad olmaq barədə 30 ölkə ilə müqavilə bağlamışdır.

İnvestorlar üçün çox güzəştli sayılan müqavilələr siyahısında Rusiya da vardır. Bununla belə Kiprin mərkəzi bankı çirkli pulların yayılması ilə mübarizə çərçivəsində ölkədə Rusiya banklarının şəbəkələrinin açılmasının qarşısını almış və 10 mln dollardan çox məbləğdə köçürmələrin ödənilməsinə qərar vermişdir.

# KÜVEYT DÖVLƏTİ*

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe.** Sahəsinə görə kiçik ərəb dövlətlərindən biri olan Küveyt Ərəbistan yarımadasının şimal-şərqində yerləşir. Küveyt cənub və cənub-qərbdə Səudiyyə Ərəbistanı (250 km), şimal və şimal-qərbdə İraq (240 km) ilə həmsərhəddir. Şərqdə onun ərazisi 195 km məsafədə İran körfəzinin suları ilə əhatələnir. Sərhədin ümumi uzunluğu 685 km-dir. Ölkə ərazisi şimaldan cənuba 200 km, şərqdən qərbə doğru isə təqribən 170 km məsafədə uzanır. İran körfəzinin Küveytə yaxın yerləşmiş Bubiyan, Feyləkə, Varbə, Məskan, Auxa, Qaru, Kubbar, Umm-ən-Nəmil, Umm-əl-Məradim və Kureyn adaları ölkənin tərkibinə daxildir.

Rəsmi məlumatlara görə ölkənin ərazisi 17,8 min kv. km, əsasən ərəb mənbələrinə görə isə 20,2–20,7 min kv. km təşkil edir. Belə fərq Küveytin Səudiyyə Ərəbistanı və İraq ilə dəqiq sərhədlərinin olmaması ilə izah olunur. 1960-cı illərin axırlarına qədər Küveyt ilə Səudiyyə Ərəbistanı arasında sərhəd məsələsi üstündə ixtilaflar mövcud idi. Hər iki tərəf İran körfəzi sahilinin bir sıra sərhəd ərazilərini özünün hesab edirdi. Məsələ ondadır ki, Küveyt və Səudiyyə Ərəbistanının köçəri əhalisi bu mübahisəli

* Ərəbcə adı Daulət əl-Küveytdir.



ərazilərin otlaq sahələrindən və içməli su mənbələrindən daima birlikdə istifadə edirdilər.

Hələ 1922-ci ildə Küveytin, İraqın və Nəcdin (indiki Səudiyyə Ərəbistanının bir əyaləti) nümayəndələri arasında sərhəd ziddiyyətlərinin nizama salınması məqsədi ilə danışıqlar keçirilmişdir. Bu danışıqlara görə Küveyt ilə Səudiyyə Ərəbistanı arasında sahəsi 5,7 min kv. km olan xüsusi «keçid» bölgəsi yaradılmışdır.

1942-ci ilə qədər bu bölgə «Bitərəf bölgə» adlandırılırdı. Bitərəf bölgədə zəngin neft yataqları aşkar edildikdən sonra bu ərazilər uğrunda mübahisələr yenidən qızışır. Yalnız 1969-cu ildə Səudiyyə Ərəbistanı ilə Küveyt arasında çətin və uzun sürən danışıqlardan sonra hər iki dövlətin nümayəndələri «Bitərəf bölgə»nin bölüşdürülməsi qərarına gəlmişlər.

Küveyt və İraq arasında da sərhəd mübahisələri mövcuddur. Bu mübahisələr nəinki İraq və Küveyt arasında münasibətləri kəskinləşdirmiş, hətta silahlı toqquşmalara səbəb olmuşdur. Məsələn, 1973-cü ildə İraq qoşunları Umm-Qəsr limanı yaxınlığında yerləşən Küveyt ərazisinin bir hissəsini işğal etmişlər. İraq həm də Umm-Qəsr hərbi-dəniz bazasının girəcəyinə yaxın yerləşən Vərba və Bubiyan adalarının ona məxsus olduğunu iddia edir. Bu sərhəd münaqişələri, həm də İraq ilə Küveyt arasında mövcud olan başqa problem məsələlər 1990-cı ilin avqustunda daha kəskin xarakter almış və müharibə ilə nəticələnmişdir.

Ərazi mübahisələri Küveyt ilə İran arasında da mövcuddur. İran Auxa və Kubbar adalarının ona məxsus olduğunu iddia edir. Eyni zamanda qitə şelfi və məhəlli sulardan istifadə edilməsi məsələlərində də region dövlətləri arasında mübahisələr var.

**Səth quruluşu və faydalı qazıntıları.** Küveytin səthi qumlu və daşlı (xüsusilə qərbdə) səhralarla örtülüdür. Çox da yüksək olmayan səhra yaylası şərqə doğru getdikcə alçalır, sahil xəttində isə bataqlaşmış ovalıqlara çevrilir. Ovalığın ayrı-ayrı hissələri, dəniz sularının buxarlanması nəticəsində əmələ gələn şoranlıqlar ilə tutulmuşdur. Səth quruluşuna görə ölkə ərazisi materik yüksəkliyi, mərkəzi təpəliklər və sahil düzənliyi təbii bölgələrinə ayrılır.

Materik yüksəkliyi təbii bölgəsi dəniz səviyyəsindən 200-300 m hündürlükdə olub, ölkənin cənub-qərbini əhatə edir. Materik yüksəkliyi şimal-qərbdə İraq sərhəddinə qədər uzanan əl-Batin vadisinə qovuşur.

Mərkəzi təpəliklər təbii bölgəsi nisbətən geniş sahəni əhatə edərək şimal-qərbdən cənub-şərq istiqamətində uzanır. Bu isə hündürlüyü 25-30 m olan maili təpəliklər və çox saylı quru vadilər ilə səciyyələnir. Mərkəzi təpəliklər təbii bölgəsi cənub-şərqdə qumlu sahillərlə əvəz olunur.

Sahil düzənliyi təbii bölgəsi Səudiyyə Ərəbistanı ərazisində yerləşən əl-Həsa ovalığının davamıdır. Düzənliyin səthi qumla örtülüdür, sahil xətti kəskin parçalanmışdır. Qabarma vaxtı düzənliyin xeyli hissəsini su basır, Küveyt körfəzi sahillərindən şimalda isə geniş sahədə şoranlıq əmələ gəlmişdir.

Geoloji baxımdan Küveyt ərazisi Ərəbistan platformasının bir hissəsidir. Bu ərazilərdə zəngin neft-qaz ehtiyatı toplanmışdır. Neft ehtiyatına görə (13,0 mlrd. t, dünya ehtiyatının 10 faizi) Küveyt region ölkələri arasında Səudiyyə Ərəbistanı İran və İraqdan sonra dördüncü yeri tutur. Müasir neftçıxarmanın səviyyəsi olduğu kimi qalsa belə onun ehtiyatı ölkəyə 180-200 ilə çatar.

Neft ölkənin cənub (Böyük Burhan, Minaqiş, Vəfra yataqları) və şimal (Raudateyn, Bəhrə, Muğribə) bölgələrində çıxarılır. Ehtiyatına görə ikinci böyük sərvəti təbii qaz olsa da, bəzi hallarda təbii qaza olan daxili ehtiyacını idxalat hesabına ödəyir. Küveytin digər təbii sərvətləri zəif öyrənilmişdir. Neft kəşfiyyatı zamanı kvars qumları, təbii asfalt, əhəngdaşı və s. aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Subtropik zonada yerləşən Küveytin iqlimi üçün il boyu yüksək temperatur və yağıntıların az düşməsi səciyyəvidir. Yanvar ayının orta temperaturu müsbət $11^0$C, iyulunki isə $34^0$C-dir. Qışda orta aylıq temperatur 5-13 dərəcə arasında tərəddüd edir. Nadir hallarda temperatur $0^0$C-yə enir. Şimal-qərb küləklərinin rütubətli cənub-qərb küləkləri ilə əvəz olunduğu hallarda isə qış aylarında temperatur $20^0$C-dən yuxarı olur. Baharda Küveyt üzərində əs-Suheyl adlanan isti cənub-qərb küləkləri hakim olan zaman havanın temperaturu $40^0$C-dək yüksəlir. Bir neçə saat davam edən bu küləklər zamanı göyün üzü qum və toz buluduna bürünür.

Yazın axırlarında yerli əhalinin «Əs-Sarayt» adlandırdığı qum tufanları baş verir. Günün ikinci yarısı və çox zaman gecə başlayan bu tufanlardan sonra qısa müddətli leysan yağışlar yağır. Yay fəslinin əvvəlləri çox quraq keçir. Yay mövsümündə Ərəbistan yarımadasının



səhra və yarımsəhralarından əsən səmum* küləkləri narın qumları və tozu havaya qaldıraraq İran körfəzi sahillərinə qovur və temperaturu 44-$46^0$C, bəzən isə 50 dərəcəyədək qaldırır. Səmum küləkləri əsərkən Küveytdə dövlət müəssisə və idarələri ancaq səhər və axşam, hava nisbətən sərin olan vaxtlarda işləyirlər. Yayın axırlarında Küveyt üzərində şərq və cənub-şərq küləkləri hakim olur və havada mütləq rütubətlilik artır. Payızda havalar sərinləşməyə başlayır və temperatur 20-25 dərəcə arasında dəyişir. Küveytə yağıntı nadir hallarda düşür və illik miqdarı 100-200 mm-dən artıq olmur. Yağmursuz keçən illərdə isə 30 mm yağıntı düşür. Yağıntıların fəsillər üzrə paylanmasında da fərqlər böyükdür. Yağıntılar əsasən qış mövsümündə olur. Bəzən il boyu düşən yağıntı cəmi bir neçə günün ərzində düşür.

Küveyt yerüstü sulardan məhrum olan ölkələrdəndir. Ölkədə yalnız qış mövsümündə müvəqqəti axara malik vadilər mövcud olur. Yağmursuz dövrlərdə vadilər tamamilə quruyur. Küveytə içməli su uzun illər İraqdan axan Şətt-əl-Ərəb çayından xüsusi qayıqlarla daşınırdı. Əhalinin içməli suya olan tələbatı artdıqca onun müntəzəm daşınması çətinləşirdi. Küveyt yeraltı sularla zəngindir. Yerli əhalinin yeraltı sulardan istifadə vərdişlərinin olmasına baxmayaraq bu suların həddindən artıq duzlu olması onun istər məişətdə, istərsə də suvarmada istifadə olunmasını məhdudlaşdırır. Qızmar iqlim və suyun çatışmaması çox qədimlərdən İran körfəzi sahilində belə bir xalq məsələnin geniş yayılmasına səbəb olmuşdur: «Duzlu suyu olan çay bir səhəng içməli sudan ucuzdur». Hazırda müasir texnoloji üsullarla İran körfəzi sahillərində dəniz suyunun təmizləməklə əhalinin və təsərrüfatın suya olan ehtiyacı ödənilir.

**Torpaq və bitki örtüyü.** İqlimin quraq, su ehtiyatının məhdud olması ölkədə torpaq və bitki örtüyünün zəif inkişaf etməsinə səbəb olmuşdur. Şimalda çınqıllı, mərkəz və cənub bölgələrində qumlu səhra torpaqları yayılmışdır. Yeraltı suların səthə çıxdığı yerlərdə – vahələrdə xurma ağacları üstünlük təşkil edir. Səhralarda dəvətikanı, yovşan, dəvəqulağı (süpürgə), sahil zonada yulğun bitir. Küveytdə akasiyanın müxtəlif növləri və curcub* geniş

---

* **Səmum** – «samma» felindən götürülmüşdür. «Zəhərlənmək» mənasını bildirir.

* **Curcub** – çətirli, yarpaqları qoşa tikanlı ağacdır.

yayılmışdır. Səhraların flora aləmi qış mövsümündə simasını tamamilə dəyişir və qum üzərində «yaşıl xalça» kimi sərilir. Səhranın əlvan güllər açan ot bitkiləri (efemerlər) cəmi 5-6 həftə ömür sürür və günəş şüalarının yandırıcı təsiri ilə quruyur.

Fauna aləmi kasıbdır. İran körfəzi sahili ovalığında çəyirtkə və quşlar çoxdur. Kənd təsərrüfatına böyük ziyan verən çəyirtkələrin yayılmasının qarşısı müxtəlif kimyəvi maddələrin tətbiqi ilə alınır. Küveytin sahil suları balıqla zəngindir. İran körfəzində mollyusk, xərçəng də ovlanır.

Küveyt təbiətinin qeydinə qalan, ona biganə olmayan dövlətdir. Səhra landşaftı ekoloji baxımdan çox həssas və tez pozulan bir landşaft olduğundan ona qarşı daima diqqətli olmaq lazımdır. Körfəzdə baş vermiş müharibələr, xüsusilə İraqla müharibə nəticəsində başqa sahələrdə olduğu kimi ekologiya sahəsinə böyük ziyan dəymişdir. Dövlət bu ziyanı aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Küveytin qədim və orta əsrlər tarixi zəif tədqiq olunmuşdur. Eramızdan əvvəl III minillikdə müasir Küveyt ərazisi Dilmun adlanan dövlətin tərkibinə daxil idi. Dilmun mədəniyyətinin izləri Feyləkə adasında aşkar olunmuşdur. Küveytin qədim tarixi Babilistan, Assuriya, Finikiya və Ərəbistan yarımadasının şimal-şərqində mövcud olmuş qədim ərəb dövlətlərinin tarixi ilə bağlıdır. Sasanilər dövlətinin inkişafı dövründə İran körfəzi ərəblər və iranlılar arasında mübarizə meydanına çevrilir.

XVI əsrin başlanğıcında İran körfəzi sahillərində ilk avropalı müstəmləkəçilər – portuqaliyalılar peyda olmuşlar. Yerlilərlə müqayisədə daha yaxşı silahlanmış portuqaliyalılar Bəhreyni və İran körfəzinin qərb sahillərinin digər əmirliklərini zəbt edə bilsələr də əhalisi Bəni Xaled tayfasının ətrafında birləşən Küveyti özlərinə tabe etdirə bilməmişlər. Portuqaliyalılara qarşı mübarizədə Bəni Xaled tayfasının başçıları Osmanlı imperiyasınınköməkliyindən istifadə edirlər.

XVII əsrin əvvəllərində İngiltərə, Fransa və Hollandiyanın İran körfəzinə daxil olması Küveytdə vəziyyəti daha da



mürəkkəbləşdirmişdir. Bu bölgədə rəhbərliyə İran dövləti də iddia edirdi. Bu ölkələr arasında gedən mübarizələr nəticəsində (XVII əsrin ortalarında) Küveyt Türkiyənin nəzarəti altına düşür və Əl-Həsa, Cənubi İraq, Bəhreyn ilə birlikdə o, Bəsrə vilayətinin tərkibində Osmanlı imperiyasına qatılır. Vahid Küveyt əmirliyinin yaranması XVIII yüzilliyin ortalarına təsadüf edir. Bu ərazidə yaşayan və daim bir-birilə mübarizə aparan qəbilə başçıları Səbah ibn Caber əs-Səbahı (1756–1762) özlərinin əmiri elan edirlər. Səbahlar sülaləsinin başçısı Küveyt ərazisində yaşayan tayfaları birləşdirərək müstəqil Küveyt əmirliyini yaradır, 1760-cı ildə əmirliyin mərkəzi hesab edilən əl-Küveyt şəhəri hasara alınır və ölkə miqyasında dəniz ticarətinin mühüm mərkəzinə çevrilir.

Küveytin əlverişli coğrafi mövqeyi İslam və Şərq ölkələrinə can atan İngiltərənin marağını daha çox cəlb edir. 1776-cı ildə əl-Küveyt limanına Ost-Hind ingilis şirkətinə məxsus ilk gəmi daxil olur. İngiltərə Küveytlə «dostluq münasibətləri» yaratmağa nail olur. Napaleonun Misir yürüşünü (1798–1801) və Səudilər dövlətinin güclənməsini bəhanə edən İngiltərə İran körfəzi bölgəsində öz dayaq məntəqələrini və dəniz bazalarını yaratmağa başlayır.

XIX əsrin birinci yarısında İngiltərə bilərəkdən İran körfəzi rayonunda yerli əhəmiyyətli müharibələr törədir. Nəticədə İngiltərə bir sıra əmirliklərlə (Məsqət, Bəhreyn, Oman) özünün mənafeyini güdən müqavilələr bağlamağa, 1899-cu ilin 23 yanvarında isə Küveytlə gizli müqavilə imzalamaqla ölkə üzərində tam nəzarəti ələ keçirməyə nail olur. 1914-cü ilin noyabrında isə Küveyt «Britaniya protektoratlığı altında müstəqil əmirlik» elan edilir.

Birinci Dünya müharibəsi illərində Küveyt İngiltərənin tam nəzarəti altında olmuşdur. O vaxtlar Nəcd əmirliyi ilə bir neçə dəfə baş vermiş silahlı toqquşmalarda Küveyti müdafiə edən İngiltərə onu özündən tam asılı vəziyyətə salmış və ölkə əslində onun müstəmləkəsinə çevrilmişdir.

İkinci Dünya müharibəsindən sonra Küveytdə milli-azadlıq hərəkatının qüvvətlənməsi Böyük Britaniyanın protektoratlıq barədə imzaladığı müqaviləni ləğv etməyə məcbur idi. 1961-ci il iyunun 19-da Küveyt müstəqil dövlət elan olunur. Müstəqil dövlət elan olunduğu vaxtdan 70-ci illərə qədər Küveytdə daxili siyasi vəziyyət qeyri-sabit idi. İraqın Küveytin müstəqilliyini tanımaması «Küveyt böhranı» adlanan problemin yaranmasına səbəb olur. Bundan istifadə

edən İngiltərə Küveytə hərbi qüvvə çıxarır və İran körfəzi sahillərində yerləşən digər ərəb ölkələrinin daxili işlərinə müdaxilə etməyə başlayır.

1961-ci ilin avqustunda Ərəb Ölkələri Cəmiyyəti Küveytin müstəqilliyini qorumaq məqsədilə oraya öz ordusunu göndərir. İngiltərə ordusu Küveytdən rəsmi olaraq geri çağrılır. 1963-cü ildə isə Ərəb Ölkələri Cəmiyyətinin qoşunları Küveytdən çıxarılır. Daxili vəziyyətin kəskinləşdiyini görən Küveyt hökuməti bir sıra tədbirlər həyata keçirməyə başlayır. Xüsusi bölməni genişləndirir, qarışıq şirkətlər yaradır, neft ixac edən ölkələr təşkilatının (OPEK) fəaliyyətində fəal iştirak edir, Ərəb Şərqində iri bank mərkəzlərindən birinə çevrilir.

Küveytin hakim dairələri xarici siyasət sahəsində də fəaliyyətlərini genişləndirməyə başlayır. Misir-Səudiyyə Ərəbistanı, Səudiyyə Ərəbistanı-İraq, Səudiyyə Ərəbistanı-İran arasında münasibətlərin normal hala salınmasında iştirak edir, Asiya və Afrika ölkələri ilə əlaqələr yaratmağa başlayır. İsrailin təcavüzündən zərər çəkmiş Misir, Suriya və Ürdinə maliyyə yardımı göstərir. 1980-cı illərdə İran və İraq arasında baş verən münaqişə Küveyti də narahat edir və 1981-ci ildə İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurası yaradılır.

1990-cı ilin iyul ayında Küveyt ilə İraq arasında münasibətlərdə gərginlik son həddə çatır. Gərginliyi törədən səbəblər dünya bazarında Küveyt tərəfindən neftin qiymətinin aşağı salınması və bununla da İraqın zəiflədilməsinə yönəldilmiş ABŞ-sionist qəsdini həyata keçirmək cəhdləri İraq-Küveyt arasında sərhəd münaqişəsi və s. idi. Göstərilən və digər səbəblər 1990-cı il avqustun 2-də İraqın Küveytə qarşı təcavüzünə səbəb olur və Küveyt İraqın 19-cu mühəfəzəsi (əyaləti) elan edilir. 1991-ci ilin əvvəllərində İraq ilə Küveyt, daha doğrusu ABŞ-ın rəhbərlik etdiyi çoxmillətli qüvvələr ilə İraq arasında müharibə başlanır. 42 gündən sonra İraq ordusu Küveytdən çıxarılır və Küveytin müstəqilliyi yenidən bərpa olunur.

**Dövlət quruluşu.** Küveyt konstitutsiyalı parlamentli monarxiyadır (irsi əmirlik). Dövlətin başçısı əmirdir. Konstitutsiyaya görə əmir əs-Səbahlar sülaləsindən olmalıdır. 2006-cı ilin 29 yanvarından əmir şeyx Sabah əl-Əhməd əl Cabir əl-Sabahdır. Vəliəhd-şeyx Həvvaf əl Əhməd əl-Sabahdır. Əmir öz hakimiyyətini Nazirlər Şurası vasitəsilə həyata keçirir. O, Baş nazir və Nazirlər Kabinəsinin



üzvlərini təyin edir. Hüquqları Milli Məclis tərəfindən formal olaraq məhdud olsa da əmir dövlət başçısı kimi geniş səlahiyyətə malikdir. O, Milli Məclis tərəfindən bəyənilmiş bütün qanunları təsdiq etməklə bərabər, eyni zamanda hərbi qüvvələrin baş komandanı və ali məhkəmənin sədri funksiyalarını yerinə yetirir.

Qanunverici hakimiyyət Əmirə və birpalatalı Milli Məclisə məxsusdur. Milli Məclisin deputatları əhali tərəfindən ümumi, gizli və müstəqil seçki yolu ilə 4 il müddətinə seçilir. 2006-cı ilin iyununda Küveyt Milli Məclisinə keçirilən seçkilərdə ilk dəfə qadınlara da seçkilərdə iştirak etmək hüququ verildi. Bu vaxta qədər seçkilərdə ancaq kişilər iştirak edə bilərdilər.

İcraedicilik Nazirlər Şurasına məxsusdur. Nazirlər Şurası Baş nazir tərəfindən təyin olunur və dövlət başçısı tərəfindən təsdiq edilir. Şura ölkənin daxili və xarici siyasətini müəyyən edir və onun həyata keçirilməsini təmin edir. Nazirlər Şurasında məsul şəxslər (Baş nazir, Xarici İşlər, Daxili İşlər, Müdafiə nazirləri) əs-Səbah sülaləsindəndir.

Küveytdə siyasi partiyaların fəaliyyəti qadağan olunsa da, uzun illər əhalinin müxtəlif təbəqələrinin marağını müdafiə edən təşkilatlar fəaliyyət göstərmişdir. Ötən əsrin 30-cu illərində yaranmış gənc-küveytlilər hərəkatı təşkilatı ölkənin müstəqilliyi uğrunda mübarizə aparsa da, 1939-cu ildə dağıdılmışdır. Lakin onların ideyaları ölkədə geniş yayılmışdır.

Küveyt müstəqil dövlət elan olunduqdan sonra ziyalılar, xırda və orta burjua nümayəndələrindən ibarət ərəb millətçiləri hərəkatı təşkilatı yaradılır. Bu təşkilatın ölkənin siyasi həyatında rolunun olmasına baxmayaraq parlamentə seçkilərdə müvəffəqiyyət qazana bilməmişdir.

Küveytdə 1978-ci ildə yaradılan Xalq İttifaqı Partiyası gizli fəaliyyət göstərir. Küveyt fəhlələri və qulluqçularının Ümumittifaqı ölkədə kütləvi ictimai təşkilatdır. İnzibati cəhətdən ölkə 3 qubernatorluğa bölünür.

1950-ci ildən etibarən hər ilin 25 fevral günü Küveytdə Milli bayram günü kimi qeyd olunur.

1970-ci illərdən başlayaraq ölkənin daxili və xarici siyasətinin əsas istiqamətləri müəyyənləşdirilir. Daxili siyasətdə monarxiya hakimiyyət üsulunun möhkəmlənməsi, dini-tayfa ənənələrinə əsaslanaraq neftdən gələn gəlirin bir hissəsi hesabına küveytlilərin həyat səviyyəsinin yüksədilməsi, immiqrant fəhlələrin narazılıqlarının

aradan qaldırılması və digər mühüm problemlər ön plana çəkilir. 1991-ci ildə əməkdaşlıq barədə Küveyt-ABŞ sazişi imzalanmışdır.

**Azərbaycan Respublikası ilə münasibətdləri.** Azərbaycan Respublikası ilə Küveyt əmirliyi arasında diplomatik münasibətlər 1991-ci ilin 7 oktyabrında yaradılmışdır. Küveyt əmirliyi BMT və İslam Konfransı Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü və ölkəmizə iqtisadi və humanitar yardımın göstərilməsi ilə bağlı qərarların qəbul edilməsində Azərbaycanı həmişə dəstəkləyir.

Küveyt Azərbaycan Respublikası ilə də iqtisadi əlaqələrin yaradılmasına və inkişafına maraq göstərir. Bu məqsədlə 1992-ci ilin mart ayının 1-də Bakıya gələn Küveytin maliyyə naziri respublikamıza böyük məbləğdə kredit verməyə hazır olduğunu bildirmişdir. O, həm də qeyd etmişdir ki, Küveyt kapital qoyuluşundan əlavə Azərbaycana dünya standartları səviyyəsində mütərəqqi texnologiyalar da təklif edə bilər. Tərəflər razılığa gəlmişlər ki, əməkdaşlığın başlanması üçün müvafik infrastruktur, o cümlədən, avtomobil və hava nəqliyyatı, telefon rabitəsi yaratmaq lazımdır. Küveyt tərəfinə təklif edilmişdir ki, Bakıda yeni beynəlxalq aeroportun tikintisini müəyyənləşdirmək imkanını nəzərdən keçirsin. İkitərəfli iqtisadi əməkdaşlığın digər məsələləri də müzakirə edilmişdir.

Küveyt Azərbaycan Respublikası ilə də iqtisadi əlaqələrin yaradılmasına və inkişafına maraq göstərir. Bu məqsədlə 1992-ci ilin mart ayının 1-də Bakıya gələn Küveytin maliyyə naziri respublikamıza böyük məbləğdə kredit verməyə hazır olduğunu bildirmişdir. O, həm də qeyd etmişdir ki, Küveyt kapital qoyuluşundan əlavə Azərbaycana dünya standartları səviyyəsində mütərəqqi texnologiyalar da təklif edə bilər. Tərəflər razılığa gəlmişlər ki, əməkdaşlığın başlanması üçün müvafiq infrastruktur, o cümlədən, avtomobil və hava nəqliyyatı, telefon rabitəsi yaratmaq lazımdır. Küveyt tərəfinə təklif edilmişdir ki, Bakıda yeni beynəlxalq aeroportun tikintisini maliyyələşdirmək imkanını nəzərdən keçirsin. İkitərəfli iqtisadi əməkdaşlığın digər məsələləri də müzakirə edilmişdir.

## 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Əhalisinin sayına görə region ölkələri içərisində 14-cü yerdədir. 1957-ci ildə ölkədə 995 min, 2005- ci ildə isə 2,3 mln nəfər



əhali yaşayırdı. Ölkə əhalisinin 60 faizi başqa ölkələrdən gələnlərdir. Küveytdə digər ərəb ölkələri, Pakistan, Hindistan və Asiyanın başqa ölkələrindən olan immiqrantlar çoxdur.

Əhalinin təbii artım sürəti 1957-ci ildə 11 faizdən 2005-ci ildə 3,0 faizə qədər azalmışdır. «Ailənin planlaşdırılması» adlı demoqrafik siyasət aparan «üçüncü dünya» dövlətlərindən fərqli olaraq Küveyt uşaq doğumunu artırmaq məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir. Proqnozlara görə 2015-ci ildə ölkə əhalisinin sayının 3,4 mln. nəfərə çatması gözlənilir.

1930-cu ildə Küveytdə neft yataqlarının kəşfi və xüsusilə İkinci Dünya müharibəsindən sonra onun istismarına başlanılması ölkəyə digər ölkələrdən, əsasən müsəlman dövlətlərindən əhali axınına səbəb olur. Hazırda ölkə əhalisinin 90 faizi yerli və gəlmə ərəblərdir. Lakin immiqrant ərəblərin uşaqları Küveytdə doğulsalar da, həmin ölkənin vətəndaşı sayılmırlar, Küveytdə yaşayan immiqrantların hüquqları o qədər də geniş deyil.

Küveyt əhalisinin orta ömür müddəti 77 yaşdır (kişilər üçün 76, qadınlar üçün 78). Küveyt hökuməti əhalinin oturaq həyata keçməsi üçün gördüyü tədbirlər nəticəsində ölkədə köçərilərin sayı kəskin sürətdə azalmışdır*. Ölkə əhalisinin təqribən 1 faizi köçəridir.

Küveytdə rəsmi dövlət dili ərəb dilidir. Ziyalılar arasında və işgüzar dairələrdə ingilis dili geniş yayılmışdır.

Hakim din İslam dinidir. Əhalinin 95 faizi islam dininə, o cümlədən, 70 faizi sünni, qalanı isə şiə məshəlinə etiqad edir.

Ölkənin ictimai-siyasi və mədəni həyatında islam dini olduqca böyük rol oynayır. Dövlətin başçısı eyni zamanda Küveyt müsəlmanlarının ali ruhani rəhbəri hesab edilir. Bütün dövlət ümumtəhsil məktəblərində Quran və şəriət qanunları öyrədilir. Küvet universitetində islam fakültəsi fəaliyyət göstərir. Bununla yanaşı bəzi küveytlilər özlərini dini təhsillərini dünyanın ən iri müsəlman

* Küveytdə əhalinin oturaq həyata keçməsi digər ölkələrlə müqayisədə hökumətin məcburiyyəti nəticəsində baş verir. Ölkənin neft mədənlərində əmək ehtiyatlarının çatışmaması, əhalinin müəyyən hissəsinin isə köçəri həyat tərzi sürməsi Küveyt hökumətini qısa müddət ərzində neftdən gələn gəlir hesabına sosial imkanları genişləndirməyə məcbur edir. Oturaq həyata keçməyə həvəsi olmayan bədəvilərin əksəriyyəti müasir evlərlə təmin edilərək daimi işə cəlb olunur.

universitetlərində, məsələn, Misirin məşhur əl-Əzhar universitetində, Məkkənin ali ruhani məktəblərində artırırlar.

Küveytdə yaşlı əhalinin 85 faizi savadlıdır. Dünyanın hər hansı ölkəsindən asılı olmayaraq orada təhsil alan küveytli gəncin təhsil xərcini dövlət öz üzərinə götürür.

Küveyt beynəlxalq və regional təşkilatlarda, xüsusilə İslam Konfransı Təşkilatı (İKT) və İslam İnkişaf Bankının (İİB) işində fəal çıxış edir. İKT-nin başlıca vəzifəsi islamı müdafiə etmək və müsəlmanlar arasında həmrəyliyi gücləndirməkdir. İİB müsəlman dövlətlərinin iqtisadi və sosial tərəqqisinə köməklik məqsədi ilə yaradılmışdır. Küveyt 1963-cü ildən BMT-nin üzvüdür.

İmmiqrasiya prosesinin sürətli inkişafı sayəsində əhalinin ölkə üzrə sıxlığı da sürətlə artır. Hazırda Küveyt Ərəbistan yarımadasının sıx məskunlaşan ölkələrindən birinə çevrilmişdir. Bununla yanaşı əhali ölkə üzrə olduqca qeyri-bərabər məskunlaşmışdır. İran körfəzi sahilində, əsasən Əl- Küveyt şəhəri və onun ətrafında, dənizsahili qəsəbələrdə, neft mədənləri bölgələrində əhali daha sıxdır. Məsələn, paytaxt mahalında əhalinin 1 kv. km-də sıxlığı 2500-2700 nəfər təşkil edirsə, əl-Əhmədi və Cəhrə əyalətlərində bu göstərici 600 və 300 nəfərdir. İşləyən əhalinin çoxu xidmət sahələrində, tikinti və sənayedə (xüsusilə neftçıxarmada) çalışır.

1970-ci ilə qədər Küveytdə əmək ehtiyatları «qıtlığı» mövcud olduğu halda neft istehsalının azalması ilə əlaqədar olaraq işsizlərin sayı artır. Küveyt hökuməti ölkəyə immiqrant axınını məhdudlaşdırmaq məqsədilə bir sıra qanunlar qəbul etmişdir. Küveyt dövlətinin təbəəliyinə keçmək (xüsusilə qeyri-ərəb mənşədən olanlar üçün) çox çətindir.

Ölkə əhalisinin 80 faizi şəhərlərdə yaşayır. Ən böyük şəhərləri əl-Küveyt, Mina əl-Əhmədi, əs-Salamiyyə, əl-Cəhrə və Mina-Səuddir.

**Əl-Küveyt** ölkənin paytaxtıdır. Küveyt körfəzi sahilində yerləşmiş şəhərin bünövrəsi 1680-ci ildə qoyulmuşdur. Ətrafı ilə birlikdə əl-Küveytdə 1,5 mln nəfər (2005) əhali yaşayır. Müasir əl-Küveyt ənənəvi ərəb-müsəlman şəhərlərinə bənzəmir. Xarici görünüşünə görə o, Avropa şəhərlərinə daha çox oxşayır. Yeni tikililər hesabına şəhər sürətlə böyüyür.

Paytaxtın ən böyük sənaye müəssisələrində neft-kimya, yeyinti məhsulları, sement istehsal olunur, avtomobil, televizor və soyuducu-



lar quraşdırılır. Əl-Küveytin Şüveyx adlanan rayonunda gəmiqayırma və gəmi təmiri müəssisələri, istilik-elektrik stansiyası yerləşir. Şəhərdə dəniz suyunu içməli suya çevirən müəssisə var.

Əl-Küveyt mühüm dəniz limanı, ölkənin böyük nəqliyyat qovşağıdır. Şəhərdə beynəlxalq əhəmiyyətli təyyarə meydanı yerləşir. Əl-Küveytdə universitet, milli muzey fəaliyyət göstərir. Paytaxtda onlarca qəzet, jurnal nəşr edilir. Milli televiziya və radio mərkəzi, KUNA adlanan hökumət informasiya agentliyi fəaliyyət göstərir.

## 4. İqtisadiyyatı

Regionun neft çıxaran başqa ölkələri kimi Küveyt də ötən əsrin 70-ci illərinin enerji böhranının «bəhrəsindən» öz xeyrinə istifadə edə bilmişdir. Neftin qiymətinin kəskin surətdə qalxması bu ölkənin «iqtisadi-sosial taleyini» əsaslı surətdə dəyişdirmiş, milli təsərrüfatın ləng inkişafı qısa müddətdə onun sürətli artımı ilə əvəz olunmuşdur. Gildən tikilmiş orta əsr şəhər və kəndlərinin yerində bir neçə il ərzində çoxmərtəbəli yaşayış evləri, bank, mehmanxana və digər inzibati binaları olan müasir şəhərlər salınmışdır.

Şəhərlərdə ən müasir texnika və texnologiya ilə təchiz olunmuş neft emalı və neft-kimya müəssisələri, sement zavodları, su təmizləyici qurğular, müxtəlif məişət malları istehsal edən müəssisələr, məktəblər, xəstəxanalar və s. tikilmişdir. Ölkədə kənd təsərrüfatı plantasiyaları genişləndirilmiş, yaxın vaxtlara qədər karvan yollarının keçdiyi səhralarda müasir və geniş avtomobil magistralları çəkilmiş, dəniz və hava limanları təkmilləşdirilmişdir.

1989-cu ildə ölkədə gündəlik neft hasilatı 230 min ton, onun satışından əldə edilən gəlir isə 9250 mln. dollar təşkil etmişdir. Küveytin İraq tərəfindən işğal edilməsi və sonradan azadlıq uğrunda gedən müharibənin nəticələri (1990-1992) ölkənin iqtisadiyyatına, xüsusilə onun neft sənayesinə (neft buruqlarının yandırılması, boru kəmərlərinin partladılması, neft anbarlarının, neft emalı zavodlarının dağıdılması və s.) olduqca böyük ziyan vurmuşdur.

1990-cı ildə ölkədə orta gündəlik neft hasilatı 130 min tona enmiş, yəni 1989-cu il səviyyəsindən 37 faiz azalmış, neftdən əldə edilən gəlir isə 6850 mln. dollara enmişdir. 1991-ci ilin ortalarından xarici şirkətlərin fəal iştirakı ilə ölkədə neft sənayesi və təsərrüfatın digər sahələrinin bərpası üzrə işlərə başlanılmış və qısa müddətdə

əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Bərpa işlərinin həyata keçirilməsi üçün 8,5-10 mlrd. dollar vəsait və iki-üç il vaxt lazım olmuşdur. Artıq 1992-ci ilin axırında ölkədə neft hasilatı 1989-cu ilin səviyyəsinə çatmışdır. Dağıdılmış iqtisadiyyatın bərpası üçün Küveyt xarici kredit almağa məcbur olmuşdur. Bu krediti Küveyt İran körfəzi dövlətlərinin əməkdaşlıq Şurasının üzvləri olan ölkələrdən, xüsusilə Səudiyyə Ərəbistanı və BƏƏ-dən almışdır.

Küveytin milli təsərrüfatının inkişaf xüsusiyyətləri neft ixrac edən digər ölkələrin əlamətlərinə oxşardır. Bu ölkədə də başlıca kapital iqtisadiyyatın daxili inkişafı hesabına deyil, neft ixracatı nəticəsində əldə edilən vəsait hesabına formalaşır. Müstəqillik əldə etdikdən sonra dövlət bu vəsaitlərdən müştərək müəssisələrinin yaradılması üçün fəal istifadə edir. İran körfəzinin başqa əmirliklərində olduğu kimi Küveyt də sürətlə sənayeləşdirməyə və iqtisadi strukturunun mürəkkəbləşdirilməsinə daha çox fikir verir. Belə təsərrüfat mexanizminin yaradılmasında məqsəd «neft erasının» başa çatmasından sonra ölkənin tələbatını təmin edə bilən milli iqtisadiyyatı formalaşdırmaqdadır.

Öz planlarını həyata keçirmək üçün, yəni əsaslı sənaye sahələrinin tikintisi, infrastrukturun yaradılması, ixtisaslı milli kadrların hazırlanması və s. üçün Küveyt Qərb şirkətlərinin köməyindən geniş istifadə edir və onlar ilə birlikdə müştərək müəssisələr yaradır. Xarici sahibkarlara bu və yaxud başqa müəssisə səhmlərinin yalnız 49%-nə şərik olmaq imkanı verilir. Bununla yanaşı Küveyt neft ixracatından əldə etdiyi olduqca böyük vəsaitin hamısını ölkənin daxili iqtisadiyyatında istifadə etmək imkanına qadir deyil. Buna görə də əldə etdiyi kapitalın getdikcə böyük hissəsini faydalı şəraitdə Qərb ölkələrinin iqtisadiyyatına və banklarına yönəldir.

Ölkənin milli sərvəti olan neftdən gələn gəlirin yerli küveytlilər arasında eyni miqdarda paylaşdırılması prinsipi qəbul olunmuşdur. İqtisadiyyatın dövlət tərəfindən tənzim olunması ön plana çəkilir. Ümumdaxili Məhsulun təqribən 75%-i dövlət bölməsində əldə edilir.

Xaricə yönəldilən kapitaldan və oradakı avuarlarından ölkə əhəmiyyətli dərəcədə valyuta əldə edir və neft ixracatından «asılılığı» keçdikcə zəifləyir. Ümumi daxili məhsulun formalaşmasında neft sənayesinin əvvəlki kimi başlıca rol oynamasına baxmayaraq, son on ildə onun payı bir qədər azalmışdır. Emaledici sənaye, tikinti, ticarət



və bank əməliyyatının isə payı xeyli dərəcədə artmışdır. Küveyt iqtisadiyyatının başlıca xüsusiyyəti ölkədə bol və ucuz enerjinin, böyük investisiya imkanlarının olması, həmçinin yerli əmək ehtiyatlarının çatışmamasıdır.

Küveytdə ÜDM-un 54 faizi sənayenin, 45 faizi xidmət sahələrinin, 1 faizə yaxını isə kənd təsərrüfatının payına düşür.

**Sənayenin aparıcı sahələri.** Ölkə iqtisadiyyatının və onun maliyyə gəlirinin əsasını neft sənayesi təşkil edir. Neft yataqlarının ötən əsrin 30-cu illərində kəşf edilməsinə baxmayaraq, onun hasilatına yalnız 1946-cı ildə başlanılmışdır. Neft çıxarılması, nəql edilməsi və satılması hələ 1934-cü ildə yaradılan ABŞ və İngiltərə kapitalının nəzarəti altında olan «Küveyt oyl Kompani» şirkətinin əlində idi. 1948-ci ildə ABŞ-ın «Aminoyl» şirkəti «Birtərəf bölgə» də və Küveytə məxsus bir sıra adalarda neft kəşfiyyatı və çıxarılması işlərinə başlayır. 1960-cı ildən milli «Küveyt neşnl petroleum kompani» şirkəti yaradılır. Ölkədə neft çıxarılması və onun ixracatı üzərinə dövlət nəzarəti tədricən artır. Ölkənin siyasi müstəqillik əldə etdiyi onillikdə neft hasilatı tədricən artmış və 1972-ci ildə ən yüksək səviyyəsinə (165 mln. ton) çatmışdır. Neft hasilatının artması nəinki onun böyük ehtiyatı, həm də onun əlverişli təbii-geoloji şəraiti (səthə yaxın yerləşməsi, buruqların fontan vurması, yəni neftin yığılma məntəqələrinə boru kəmərləri vasitəsilə öz-özünə axması və s.) və bununla da hasilahatın maya dəyərinin olduqca aşağı olması ilə izah olunur.

Nəzərə almaq lazımdır ki, ölkədə fəaliyyət göstərən xarici neft şirkətləri başlıca olaraq daha zəngin yataqları istismar etməyə cəhd göstərirdilər. Bu da az vəsait sərf etmək və zəruri texniki tədbirləri həyata keçirmədən neft hasilatını artırmağa imkan verirdi.

Küveyt öz təbii sərvətlərinin tam sahibi olandan sonra, hökumət bir tərəfdən neft hasilatının azaldılmasına, digər tərəfdən isə xam neftin ixracatının neft məhsulları ilə əvəz edilməsinə yönəldilən siyasət aparmışdır. Nəticədə 1973-cü ildən 1987-ci ilə qədər neft hasilatı bir qədər azalmışdır. Neft ixracatının əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, dünya bazarında neftin qalxması ilə əlaqədar onun ixracatından əldə edilən gəlir artmışdır.

Ölkədə hər il təqribən 100 mln. ton neft hasil olunur. Məlumdur ki, dünya bazarında xam neftin qiyməti, neft məhsullarına nisbətən 4-5 dəfə ucuzdur. Bununla əlaqədar Küveyt neft ixracatın-

dan əldə etdiyi vəsaitin əhəmiyyətli hissəsini ölkə neftinin emalı və neft-kimya sənayesinin yaradılmasına istiqamətləndirmişdir. Ölkənin ilk neft təmizləmə müəssisəsi 1949-cu ildə Mina əl-Əhmədi şəhərində tikilmişdir. 1986-cı ildə bu müəssisənin istehsalat gücü xeyli genişləndirilmişdir. 1958-ci ildə Mina-Abdulla və 1968-ci ildə Əş-Şüeyb neft emalı zavodu tikilmişdir.

Küveytdə fəaliyyətdə olan neft emalı müəssisələrinin ümumi gücü 45 mln. tondur. Neft emalı zavodları avtomobil, təyyarə, mühərrik yanacaqları, bir sıra sürtkü yağları və s. istehsal edir. Başqa sözlə desək, yüksəkkeyfiyyətli texnika və müasir texnologiya ilə təchiz edilən neft emalı müəssisələri təbii xammalı kompleks şəkildə emal edir.

Təbii qaz Küveytin ikinci mühüm sərvətidir və əsasən neftlə birgə çıxarılır. Qaz istehsalı 1961-ci ildə 0,98 mlrd. kub m-dən 2003-cü ildə 11,0 mlrd. kub m-ə çatdırılmışdır. Qazı «Küveyt oyl kompani» və «Arabiyen Oyl» şirkətləri çıxarır. Mina əl-Əhmədi, Əş-Şüeyb, Mina-Abdulla şəhərlərindəki emal müəssisələrində istehsal olunan propan, butan, mayeləşdirilmiş qaz əsasən ixrac olunur.

Emaledici sənayedə neft-kimya, xüsusilə inkişaf etmişdir. Bu sahə başlıca olaraq ölkənin dövlət bölməsi çərçivəsində yaradılmış və inkişaf etməkdə davam edir. Ötən əsrin 70-ci illərində dünya bazarında neftin qiymətinin qalxmasından sonra neft-kimya sənayesi daha sürətlə inkişaf etmişdir. İlk növbədə Əş-Şüeyb və Mina əl-Əhmədidə fəaliyyət göstərən neft-kimya müəssisələri yenidən qurulmuş və yeni müəssisələr tikilmişdir. Bu müəssisələrdə xammal kimi əsasən tərkibində etan və propan olan neftlə yanaşı çıxan qaz, həm də neft emalı nəticəsində əldə edilən qazdan istifadə olunur.

Küveytin iqlim şəraitinin xüsusiyyətləri, yəni tarixən mövcud olan içməli «su qıtlığı» ölkədə iqtisadiyyatın xüsusi sahəsinin – dəniz suyunun təmizlənməsi üzrə təmizləyici qurğular ölkə iqtisadiyyatının mühüm sahəsidir. İlk su təmizləyici qurğu 1950-ci ildə Mina əl-Əhmədidə, sonralar isə əş-Şüeyb və əş-Şüveyxdə tikilmişdir. Ölkənin paytaxtında həm də çirkab suların təmizlənməsi üçün dörd zavod fəaliyyət göstərir. Çirkab sular təmizləndikdən sonra onlardan əkin sahələrininin suvarılmasında, landşaftın yaşıllaşdırılmasında geniş istifadə edilir. Təmizləyici qurğuların sayının və gücünün artırılması elektrik enerji istehsalı ilə sıx əlaqədardır.

1970-ci ilə qədər Küveytdə elektrik enerjisi neft və qaz



əsasında işləyən istilik elektrik stansiyalarında istehsal olunurdu. 1970-ci ildən isə su təmizlənərkən elektrik enerjisi alınmasına başlanılmışdır. Hazırda ölkədə hər il 19-20 mlrd. kv / saat elektrik enerjisi istehsal olunur.

Son illər ölkədə günəş enerjisinə maraq artır. 1980-ci ildə Sülaybitəhdə günəş enerjisi ilə işləyən elektrik stansiyası yaradılmışdır. Enerjinin bu növü Küveytin iqlim şəraiti üçün, xüsusilə, əlverişlidir. Hesablamalara görə ölkə ərazisinin cəmi 1,0%-ində günəş enerjisinin toplanması (akkumulyasiyası) hər birinin gücü 1 min MVT olan onlarla elektrik stansiyalarına bərabər olardı.

İqtisadiyyatın sürətli inkişafı, sənayeləşdirilmə, kənd əhalisininin şəhərlərə köçməsi, şəhərlərin genişləndirilməsi və yeni şəhərlərin salınması, infrastruktur sahələrinin yaradılması milli tikinti sənayesinin yaradılmasına və sürətli inkişafına səbəb olmuşdur.

Ölkədə həyata keçirilən tikinti işləri, xüsusilə şəhər tikintilərinin, liman təsərrüfatının genişləndirilməsi, yaşayış məntəqələri yerləşən sahil bölgəsinin yenidən qurulması, yeni sənaye obyektlərinin tikintisi və s. həddindən artıq tikinti materialları tələb edir ki, bunu da nə yerli istehsal, nə də idxal hesabına ödəmək mümkün deyildi. Buna görə də ölkə tikinti materialları istehsalını gücləndirmək məqsədi ilə tikinti sənayesinin inkişafına daha böyük miqdirda vəsait ayırmağa məcbur olmuşdur. Xüsusilə İraq-Küveyt müharibəsində dağıdılmış Küveyt şəhərlərinin bərpası üçün daha çox tikinti materialları tələb olunmuşdur. Bu məqsədlə qonşu ərəb ölkələri, xüsusilə BƏƏ Küveytə tikinti materialları ixracatını artırmışdır.

«Neft erasına» qədər yüngül və yeyinti sənayesinin əsasını çoxlu sayda kiçik müəssisələr və emalatxanalar təşkil edirdi. Bu müəssisələrin əksəriyyəti demək olar ki, şəhərlərdə, ilk növbədə paytaxt mahalında yerləşirdi. Ötən əsrin 70-ci illərində bu sahələrdə xüsusi bölmənin fəaliyyətini gücləndirmək üçün dövlət bir sıra tədbirlər həyata keçirmişdir. Məsələn, yüngül və yeyinti sənaye müəssisələrinin tikintisi üçün ayrılan torpaq sahələri güzəştli qiymətlə verilmiş, onlar üçün zəruri olan infrastruktur sahələrinin tikintisini dövlət öz üzərinə götürmüş, sahibkarları bəzi vergilərdən azad etmiş və onlara aşağı faizlə kredit vermişdir. Belə şəraitdə yüngül və yeyinti sənaye sahələrinin müəssisələrinin sayı sürətlə artmışdır. İndi ölkədə bir neçə iri toxuculuq və tikiş fabriki, dəri

məmulatları, ayaqqabı istehsal edən müəssisə fəaliyyət göstərir. Sintetik lif, polietilen, çit məhsulları istehsalı Küveytin yüngül sənayesinin yeni sahələridir. Yeyinti sənayesinin 400-dən artıq müəssisəsində un, çörək, şirniyyat, süd, spirtsiz içki, süni buz və dondurma və s. istehsal edilir.

Digər sənaye sahələri başlıca olaraq məişət metal məmulatları və ağac emalı müəssisələri, metal boru, şüşə, avtomobil şinləri, sabun, kağız, dəftərxana məmulatları istehsal edən müəssisələr ilə təmsil olunur. İrili-xırdalı belə müəssisələrin sayı bir neçə minə çatmışdır.

Ölkənin sənaye müəssisələrinin böyük əksəriyyəti sənayeləşdirilmiş Əş-Şüeyb bölgəsində cəmlənmişdir. Əş-Şüeyb sənaye bölgəsinin yaradılmasına ötən əsrin 60-cı illərində başlanmış və 70-ci illərinin ortalarında başa çatmışdır. Hazırda Əş-Şüeyb iki bölgədən – ümumi sahəsi 10 kv. km olan və paytaxtdan 44 km cənubda yerləşən Şərq (Əş-Şüeyb sənayeləşdirilmiş bölgə) və ümumi sahəsi 13 kv. km olan və paytaxtdan 50 km cənubda yerləşən Qərb (Mina əl-Əhmədi sənayeləşdirilmiş bölgə) hissələrdən ibarətdir.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Ümummilli məhsulun cəmi 1 faizi bu sahənin payına düşür. Orta illik temperaturun yüksək olması, yağıntıların az düşməsi, suyun çatışmaması, qeyri-məhsuldar torpaqlar və tez-tez baş verən qum tufanları kənd təsərrüfatının inkişafında, xüsusilə, əkinçilikdə böyük maneələrdir. Şumluq torpaq sahələri ölkə ərazisinin cəmi 3 faizini təşkil edir.

Küveyt hökuməti ötən əsrin 60-cı illərində hidropon* üsulla kənd təsərrüfatı məhsulları yetişdirməyə başlayır. Artıq ilk təcrübədən məlum oldu ki, bu yolla yetişdirilən tərəvəzin məhsuldarlığı adi yolla yetişdirilən tərəvəzə nisbətən yeddi dəfə yüksək olur, sudan istifadə isə yarıya qədər azalır. Küveytin iqlim şəraiti üçün isə bunun olduqca böyük əhəmiyyəti var.

Yaponiya şirkətlərinin köməyi ilə ölkədə kənd təsərrüfatı sahəsində bir neçə dövlət ferması yaradılır. Bu təsərrüfatlarda

* Bitkilərin süni mühitdə torpaqsız becərilməsi. Bu zaman bitkinin kök sistemi suda və yaxud rütubətli havada inkişaf edir. Bitkilər qidanı kökləri əhatə edən qidalı məhluldan alırlar. Hidropon üsulu ilə bitki becərmək torpaqdan bitki becərməkdən az zəhmət tələb edir, su və qida maddələri qənaətlə sərf olunur.



pomidor, xiyar, kahı, çiyələk, gül becərilir. Yığılan pomidor, çiyələk ilk növbədə qonşu ərəb ölkələrinə ixrac edilir.

Küveyt və eləcə də, İran körfəzinin digər əmirlikləri qarşısında əlverişsiz iqlim şəraitində kənd təsərrüfatını iqtisadiyyatın faydalı sahəsinə çevirmək kimi mühüm məsələ durur. Bu məqsədlə ölkədə süni iqlim qurğuları ilə təchiz olunmuş, yüksək dərəcədə mexanikləşdirilmiş və avtomatlaşdırılmış dövlət eksperimental heyvandarlıq və quşçuluq fermaları yaradılmışdır. Bu nümunəvi fermalar özünü doğrultmuşdur. Kənd təsərrüfatının daima inkişaf etdirilməsi sayəsində ölkə, əhalinin ərzaq məhsullarına olan tələbatının 35 faizini ödəyir.

Müasir, yüksək səviyyədə təchiz olunmuş dövlət fermaları və plantasiyaları ilə yanaşı kənd təsərrüfatında ənənəvi vahə əkinçiliyi də mövcuddur. Vahə əkinçiliyi əl-Cəhra və əl-Əhmədi rayonlarındadır. Heyvandarlıq son vaxtlara qədər kənd təsərrüfatının çox geri qalmış ənənəvi sahəsi hesab olunurdu. Ekstensiv istiqamətdə olan bu sahədə bədəvilər dəvə, davar saxlamaqla məşğul olurdu. Neft istehsalına başlanılması, müasir nəqliyyat şəbəkəsinin yaradılması bədəvi təsərrüfatlarının əhəmiyyətini getdikcə itirir. Küveyt hökumətinin və xarici mütəxəssislərin köməyilə heyvandarlıqda müasir bölmə yaradılır.

Niderlanddan və Belçikadan məhsuldar cins inəklər gətirilir, dövlət fermalarında xırdabuynuzlu mal-qara inkişaf etdirilir. Ölkədə ət, süd, yun istehsalı artırılır. Quşçuluq fermalarının yaradılması əhalinin quş əti və yumurtaya olan tələbatının 60-65 faizinin ödənilməsinə səbəb olmuşdur.

Balıqçılıqla İran körfəzi sahillərində yaşayan əhali hələ qədimdən məşğuldur. Bu sahədə əhəmiyyətini tədricən itirməkdə olan ənənəvi bölmə ilə yanaşı müasir dövlət bölməsi də fəaliyyət göstərir. Dövlət bölməsi qüvvətli balıq ovu donanmasına, balıq emalı, süni buz istehsalı, hazır məhsulu qablaşdıran və saxlayan müasir müəssisələrə malikdir.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** Cəmi bir neçə on il əvvəl Küveytdə ənənəvi nəqliyyat növləri kimi quruda dəvə, dənizdə isə kiçik yelkənli «dou» gəmiləri üstünlük təşkil edirdi. Ölkənin nəqliyyat şəbəkəsinin əsasını karvan yolları təşkil edirdi. İkinci dünya müharibəsindən sonra neft hasilatının artımı, onun ixracat limanlarına daşınmasının zəruriliyi, xarici neft şirkətlərinin

fəaliyyətinin genişlənməsi, iqtisadiyyatın inkişafı təcili olaraq müasir nəqliyyat və rabitə sisteminin yaradılmasını tələb etmişdir.

Əgər əvvəllər xarici şirkətlər yalnız neft hasilatına xidmət edən nəqliyyat şəbəkəsinin yaradılması ilə məşğul olurdularsa, artıq 50-60-cı illərdə Küveyt hökuməti milli təsərrüfat mexanizminin tərkib hissəsini təşkil edən nəqliyyat şəbəkəsinin yaradılmasına başlamışdır. Nəqliyyatın ayrı-ayrı növlərinə, xüsusilə avtomobil və dəniz nəqliyyatının inkişafına daha çox fikir verilmişdir. Bu dövr ərzində bir çox atomobil magistralları çəkilmiş, dəniz və hava limanları təkmilləşdirilmiş və yenidən tikilmişdir. Demək olar ki, dəniz ticarət və mülki hava donanması yenidən yaranmışdır.

Küveytdə dəmir yolu olmadığından avtomobil nəqliyyatı mühüm əhəmiyyətə malikdir. Bərk örtüklü avtomobil yollarının ümumi uzunluğu 3600 km-dir. Beynəlxalq əhəmiyyətli ən mühüm şosse yolları: əl-Küveyt – Cəhra – Səfvan – Bəsrə (uz. 118 km), Mina əl-Əhmədi- Əş-Şüeyib – Əş-Şüveyx – Mina-Abdulla – Mina-Səud (uz. 107 km), Əl-Küveyt – Əs-Səlmi (uz. 95 km) istiqamətindədir. Bu yollar ölkənin yaşayış məntəqələrini birləşdirməklə yanaşı qonşu ölkələrlə də (İraq, Səudiyyə Ərəbistanı) əlaqə yaradır. Əl-Küveyt – Bəsrə yolu vasitəsilə Bağdad, Dəməşq və Beyrut arasında olan magistrala çıxmaq mümkündür. Neft mədənləri rayonlarına xidmət edən Əl-Küveyt – Əl-Əhmədi – Burkan – Mina-Abdulla – Vəfra yollarının əhəmiyyəti böyükdür.

Dəniz nəqliyyatı əsasən xarici ticarətə xidmət edir. İdxalın 90, neft ixracatının 100%-i dəniz nəqliyyatının payına düşür. Küveyt qüvvətli milli dəniz donanması yaratmışdır. Ən mühüm dəniz ticarət limanları Əş-Şüveyx (paytaxt rayonunda), Əş-Şüeyb Umm-Qəsrdir. İran – İraq və İraq – Küveyt münaqişələri ölkənin dəniz limanlarının yük dövriyyəsinin azalmasına səbəb olmuşdur. Buna baxmayaraq Küveyt hökuməti dəniz limanlarının (xüsusilə, Əş-Şüveyx, Əş-Şüeyb) inkişafına xüsusi fikir verir. Ölkənin iqtisadi həyatında Mina-Abdulla, Mina əl-Əhmədi, Mina Səud limanlarının da əhəmiyyəti böyükdür. Küveyt region ölkələri arasında ən iri dəniz ticarət donanmasına malikdir (ümumi su tutumu 3,4 mln. ton olan 100 gəmi).

Boru nəqliyyatı şəbəkəsi neft istehsalının inkişafı ilə əlaqədar sürətlə genişləndirilmişdir. Boru kəmərləri ölkənin neft və qaz yataqlarını limanlarla əlaqələndirir. Boru yollarının ümumi uzunluğu



880 km-dir. Raudateyn-əl-Əhmədi, Umm-Qudeyr – Əş-Şüeyb, Vəfra – Mina-Abdulla mühüm neft və qaz kəmərləridir. Münaqiş – Əl-Əhmədi, Burkan – Əl- Əhmədi, Məqva – əl-Əhmədi istiqamətində də boru kəmərləri vardır. Boru nəqliyyatı «Küveyt oyl kompani» şirkətinə məxsusdur.

Hava nəqliyyatı 1953-cü ildən müntəzəm fəaliyyət göstərir. 1962-ci ildə Küveyt hökuməti hava nəqliyyatı üzərində nəzarəti öz əlinə alır. 1980-cı ildə paytaxtda yeni təyyarə limanı istifadəyə verilmişdir. Yaxın Şərqdə ən mühüm hava nəqliyyatı mərkəzlərindən biri sayılır. Ölkədə 8 təyyarə meydanı var.

**Xarici ticarət.** Regionun başqa ölkələri kimi Küveyt də xarici ticarət əlaqələrindən çox asılıdır. 2003-cü ildə Küveyt ixracatının dəyəri 21,5 mlrd. idxalatın dəyəri isə 7 mlrd. ABŞ dolları olmuşdur. Xarici əlaqələr bir tərəfdən valyuta, digər tərəfdən isə müasir təsərrüfatın əsasını yaratmaq üçün zəruri olan maşın və avadanlıq əldə etməyin mənbəyini təşkil edir.

Uzun illərdir ki, Küveyt azad ticarət siyasəti aparır və olduqca aşağı gömrük vergisi təyin edir (orta hesabla idxal edilən məhsulun dəyərinin 4-5 faizi). Bir sıra məhsullar, məsələn təzə meyvə və tərəvəzin bəzi növləri, ət məhsulları, diri qaramal, hökumət müəssisələri tərəfindən sifariş verilən mallar (tikinti materiallarının bəzi növləri, istehsal məqsədi ilə maşın və avadanlıqlar, müxtəlif növ elektron hesablayıcı qurğular, yanğın söndürən maşınlar və s.) ölkəyə gömrük haqqı alınmadan daxil olur. Lakin yerli istehsal məhsulları ilə rəqabət apara biləcək bəzi idxal məhsullarına isə (şirniyyat, undan hazırlanmış məmulatlar, yuyucu tozlar, bəzi meyvə və tərəvəz, sərinləşdirici içkilər və s.) dəyərin 10-15 faizinə qədər vergi qoyulur. Silah və sursat, partladıcı və narkotik maddələr (yerli əzcaçılıq sənayesi üçün zəruri olan maddələr istisna olmaqla), zəhər və zəhərli maddələr (ölkənin kənd təsərrüfatında istifadə olunanlardan başqa), spirtli içkilər, islam ənənəsinə, ölkənin dövlət quruluşuna və əhalinin mənəviyyatına ziyan vura bilən kino və vidiofilmlər, bu yönümlü çap məmulatları, donuz əti və ondan hazırlanmış müxtəlif məhsulların idxalı qadağan edilir.

Ölkənin ticarət əməliyyatı müvafiq xarici şirkətlər ilə bilavasitə əlaqə saxlayan milli şirkət və təşkilatlar tərəfindən həyata keçirilir. Küveytin xarici ticarətinin əlamətdar xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, idxalat dəyərinin artmasına baxmayaraq xarici

ticarət dövriyyəsində 1961-ci ildən 2005-cü ilə qədər dəyərinə görə ixracat idxalatdan üstün olmuşdur.

Küveytin başlıca ixracat məhsulu yanacaqdır. Ayrı-ayrı illərdə ixracat gəlirinin 80 faizə qədəri neftin payına düşmüşdür. Yanacaq ixracatında neft məhsulları hesabına xam neftin payı xeyli aşağı düşmüşdür. Küveyt inkişaf etmiş ölkələr arasında – ən iri ticarət ortaqları Avropa İqtisadi Birliyinin üzvü olan ölkələr və Yaponiyadır. Qonşu ərəb ölkələri, xüsusilə Səudiyyə Ərəbistanı, Pakistan, Sinqapur, Filippin, Braziliya, Türkiyə, Hindistan və digər dövlətlərlə də ticarət əlaqələri saxlayır. Ölkənin pul vahidi Küveyt dinarlarıdır.

**Maliyyə sistemi.** Ölkədə milli maliyyə sisteminin əsası müstəqillik əldə olunduqdan sonra qoyulmuşdur. 1961-ci iln 13 mayında dinar ölkənin qanuni pul vahidi kimi təsdiq edilmişdir. Dövlət büdcəsi gəlirinin 90 faizə qədərini ənənəvi olaraq neft və neft məhsulları ixracatından əldə edilən vəsait təşkil edir. Küveyt neftdən gələn gəlirin bir hissəsini ənənəvi olaraq Qərb ölkələrindən qiymətli kağız almağa sərf etmiş və onların banklarında saxlamışdır. 1974-cü ildən başlayaraq Küveyt kapitalının bir hissəsi Qərb dövlətlərinin sənaye, kənd təsərrüfatı və s. infrastruktur sahələrində istifadə edilməsinə istiqamətləndirilir.

## QƏTƏR DÖVLƏTİ*

### 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe.** Qətər əmirliyi Ərəbistan yarımadasının şimal-şərqində, İran körfəzinin sahilində eyniadlı yarımadada yerləşir. Yarımadanın şimaldan cənuba uzunluğu 145 km, qərbdən şərqə 85 km, sahil xəttinin uzunluğu isə 410 km-dir. Yarımadanın yaxınlığındakı məskunlaşan və məskunlaşmayan bəzi adalar və adacıqlar (Aneybar, Xəlul, əl-Mərakkat, əl-Cəzirət əl-Əliyə, əl-Cəzirət əs-Sufliya, İbruk) və b. Qətər əmirliyinin tərkibinə daxildir. Qətərin qərbində yerləşən Davaxil arxipelaqının Havar adası və onun qonşuluğundakı bir sıra kiçik adacıqların hansı dövlətə məxsus

* Ərəbcə adı Daulət əl-Qətərdir.



olması hələlik həll olunmamışdır. Ölkənin hakim dairələri bu ərazilərin Qətərə məxsus olduğunu iddia edirlər. Son rəsmi məlumatlara görə Qətərin sahəsi 11,3 min kv. km-dir. O, yalnız Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə quru sərhədlərə malikdir. Qətərin quru sərhədlərinin ümumi uzunluğu 80 km-dir.

**Səth quruluşu və faydalı qazıntıları.** Səth quruluşuna görə Qətərdə şərti olaraq üç təbii-coğrafi bölgə (sahil, keçid və mərkəz) ayırmaq olar.

Qətər yarımadasının sahil xətti olduqca girintili-çıxıntılıdır. Sahil bölgəsinin dəniz səviyyəsindən hündürlüyü 1 m-dən 10-15 metrə qədərdir. Bu bölgədə şoranlıqlar (səbhlər), əhəngdaşlı qayalar, qum təpələri, narın qumlu çimərliklər vardır. Yarımadanın cənub-qərb qurtaracağında yerləşən şoranlıq (Səbh əs-Səlva) cənub və cənub-şərq istiqamətində 10-12 km məsafədə uzanır. Qərbdə bu şoranlıq Ukayr-Səlva yüksəkliyinin yamaclarına, şərqdə isə Duhan yüksəkliyinə qədər davam edir. Səbh əs-Səlvadan şimala əs-Səlva körfəzinin sahili boyunca Ubeynat burnuna qədər (85-90 km məsafədə) çimərliklər uzanır. Çimərlik quruda Duhan yüksəkliyinin yamacları ilə əhatələnir. Sahil bölgədə buxtalar çoxdur (Şakik, Doha, əs-Səlva və b.). Sahil zona mərcan rifləri ilə əhatə olunmuşdur.

Sahil xəttindən təqribən 30-35 km aralı yerləşən keçid bölgədə hündürlük tədricən 20-40 metrə qədər yüksəlir. Bölgənin eni şimalda 5-10, bəzi yerlərdə isə 30 km-ə çatır. Mərkəzi bölgədə hündürlük 40-60, Duhan, əl-Kərrar, əs-Səvab yaxınlığında isə 60-80 metrə qədər artır.

Qətər dünya əhəmiyyətli təbii qaz ehtiyatları ilə zəngindir. Bu ərazidə təbii qazla bərabər neft də çıxarırlar. Neftin başlıca yataqları qurudadır. Ölkədə çıxarılan neftin demək olar ki, 50 faizi Duhan şəhərinin yaxınlığında yerləşmiş yataqların payına düşür. Neft yataqları əsasən 1300-3500 metr dərinliklərdə yerləşir. Ötən əsrin 90-cı illərindən etibarən ölkənin gələcək iqtisadi inki-şafında böyük rol oynayacaq təbii qaz ehtiyatlarının əhəmiyyəti getdikcə artır. Şelf sularında kəşf edilmiş və istismara verilmiş Port-Fild dünyanın ən iri təbii qaz yataqlarından biridir (ehtiyatı 10 trilliyon kub metr). Bu zəngin yatağın kəşfindən sonra təbii qaz ehtiyatına görə Qətər Rusiya, ABŞ və İrandan sonra dördüncü yerə çıxmışdır. Dünya üzrə təbii qaz ehtiyatının təqribən 8 faizi Qətərdə cəmləşmişdir. Təsadüfi

deyil ki, təyyarə ilə Doha şəhərinə enən sərnişinin gözünə ilk növbədə dəyən obyekt nəhəng təbii qaz çənləri olur. Təbii qaz Qətərin yeni iqtisadi rəmzidir və gələcəkdə ölkənin gerbindəki əyri yelkənli qayığı dəyişdirməyə qadirdir.

Qətərdə bu vaxta kimi digər faydalı qazıntı yataqlarının kəşfi üzrə geniş işlər aparılmamışdır. Lakin bununla belə neft kəşfiyyatı zamanı fosfor, kükürd, asbest və manqan filizi yataqları aşkar edilmişdir. Kəşf edilmiş bu yataqların ehtiyatları hələlik dəqiq qiymətləndirilməmişdir.

**İqlimi və hidroqrafiyası.** Qətərdə tropikdən subtropikə keçid xarakterli iqlim hakimdir. Ölkədə bütün ilboyu havalar isti və rütubətli keçir. Yayda üzücü istilər olur. İyul-avqust aylarının orta temperaturu 44 dərəcə olsa da, Ərəbistan və İranın səhra və yarımsəhralarından gələn hava axını temperaturun əksər hallarda 50 dərəcəyədək yüksəlməsinə səbəb olur. Qışda temperatur aşağı düşür. Dekabr və fevral aylarının orta temperaturu 10-20 dərəcə arasında tərəddüd edir.

Yay və qış aylarında gündəlik temperatur fərqi 10 dərəcəyə çatır. Qətərdə ilin on ayında şimal-qərb (yerli əhali bunu «şemal» küləkləri adlandırır) küləkləri əsir. Bu küləklər qışda yağıntı, yayda isə qonşu ərazilərin səhra və yarımsəhralarından toz və qum gətirir. Yağıntı mövsümü noyabrdan başlayır və marta qədər davam edir. İlin başqa vaxtlarında yağıntı düşmür. Ölkənin cənubunda il ərzində düşən yağıntıların miqdarı 60 mm, şimalına isə 130 mm-dir. Yağıntılar noyabrdan marta qədər olan dövrdə də qeyri-bərabər düşür. Bəzən bütün ilboyu düşən yağıntı bir-iki gün ərzində düşür.

Qətərdə çay, göl və digər yerüstü su mənbəyi yoxdur. Ərazidə kiçik quru yataqlar (vadilər) vardır. Yağışlardan sonra su ilə dolan bu vadilərdəki su ya tezliklə buxarlanır, ya da torpağa hopur. Paytaxtın yaxınlığında yerləşmiş Məşrib ölkənin ən böyük vadisidir. Qətərdə yeraltı suların əhəmiyyəti böyük olsa da, bu sərvət tükənmək üzrədir. Ölkənin şimalı cənuba nisbətən yeraltı sularla yaxşı təchiz olunmuşdur. Şimalda yeraltı sular atmosfer mənşəli olduğundan şirindir. Cənuba getdikcə yeraltı sular həm şorlaşır, həm də onların debiti azalır.

XX yüzilliyin əvvəllərində ölkədə 25 min əhali yaşayan zaman 20-30 su quyusu olduğu halda, 50-ci illərdə 286, 60-cı illərdə 433, 70-ci ildə 1205, 1980-cı ildə 1589 artezian quyusu qazılmışdır. Buna



uyğun olaraq çıxarılan suyun miqdarının artmasına baxmayaraq 70-ci illərin ikinci yarısından «su qıtlığı» daha kəskin problemə çevrilir. Qətər hökuməti dəniz suyunun təmizlənməsinə də xüsusi fikir verir.

**Torpaq və bitki örtüyü.** Sahil zonada bataqlıq, şoranlıq torpaqları, keçid zonasında çox zəif və az məhsuldar torpaqlar yayılmışdır. Lakin keçid zonasının şimal və şimal-şərqində, mərkəzdə və yarımadanın cənubunda əkinçiliyə yararlı sahələr də vardır. Bu sahələr daşdan, çınqıldan təmizləndikdən sonra və yeraltı sulardan müntəzəm istifadə nəticəsində suvarma tətbiq etməklə əkinçilik areallarına çevrilə bilər.

Bitki örtüyünü əsasən kserofit, halofit (şoranlıqlarda bitən bitkilər) və istiyə davamlı bitkilər təşkil edir. Kserofitlər ölkənin hər yerində, halofitlər və istiyə davamlı bitkilər isə məhdud ərazidə yayılmışdır. Yarımadanın mərkəzi hissəsində tikanlı bitkilər, yemlik taxıl, yovşan, qumotu, gəvən, qrunt və şosse yolları boyunca bağayarpağı, yamac və dərələrdə quraqlığa davamlı quzuqulağı, çobanyastığı, leylək otu, qarayonca, qaranquşotu və s. bitir. Çınqıl və qumla örtülü dəniz sahilləri bitki örtüyündən məhrumdur. Vahələrdə xurma və müxtəlif meyvə ağacları üstünlük təşkil edir.

Qətərin fauna aləmi zəngin deyildir. Ərəbistan ceyranının nəsli kəsilməkdədir. Bu heyvanı artırmaq məqsədilə xüsusi fermalar yaradılmışdır. Mərkəzi yaylalarda dovşan, sürünənlər, sahildə isə quşların müxtəlif növləri vardır. Sahil suları dəniz heyvanları ilə zəngindir. Böyük Mirvari sayı (dayazlığı) adlandırılan bölgəni Qətər adası şərq və qərb hissəyə ayırır. Burada sənaye əhəmiyyətli 70 növdən artıq balıq və müxtəlif dəniz heyvanları yaşayır.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Qətərin ərazisi qədim dövrlərdən məskunlaşmışdır. Eramızdan əvvəl III minillikdə bu ərazi İran körfəzi bölgəsində hakim olan və paytaxtı Bəhreyndə yerləşən əfsanəvi Dilmun dövlətinin tərkibinə daxil idi. VII yüzillikdə Qətər Ərəb xilafətinin tərkibinə qatılır. Xilafət dağıldıqdan sonra IX yüzilliyin axırlarından XII yüzilliyin sonlarınadək Qətər Ğərmətilər dövlətinin tərkibində olur. XIII-XIV yüzilliklərdə Bəhreyn əmirliyinin hakimiyyəti altına düşür.

XVI yüzilliyin əvvəllərində Bəhreynlə birlikdə Qətəri portuqaliyalılar, sonra isə türklər işğal edir. XVIII yüzillikdə Qətər ərazisində başda Tani feodal şeyx sülaləsi olmaqla kiçik əmirlik yaradılır. Sonrakı yüzillikdə əmirlik bütün Qətər yarımadasını öz təsiri altına salır. Qətər əmiri ilə Bəhreyn əmiri əl-Xəlifə arasında hakimiyyət uğrunda mübarizə başlayır. Bundan istifadə edən İngiltərə 1868-ci ildə Qətərlə «müttəfiqlik» barədə müqavilə bağlayır.

Ölkənin formal hakimi türk qubernatoru olsa da, əslində 1878-ci ildən Qətəri ət-Tani qəbiləsinin başçısı olan şeyx Kasim ben-Məhəmməd ət-Tani idarə etməyə başlayır. Şeyx bir-biri ilə düşmənçilik edən tayfaları barışdırmış və nisbətən müstəqil siyasət apara bilmişdir. İngilislərin dəfələrlə Şeyx Kasimi İran körfəzində İngiltərə və Hindistan gəmilərinin qarət edilməsində təqsirləndirilməsinə baxmayaraq o, ömrünün axırınadək (1913) İngiltərənin protektoratlığını qəbul etməmişdir. Qətərin belə müstəqil siyasət yeritməsi ilə İngiltərə heç cür razı ola bilmirdi.

İngilislər yaxşı başa düşürdülər ki, Qətərin nisbətən müstəqil siyasət yeritməsi İran körfəzinin digər əmirliklərinə də «pis təsir» göstərə bilər. Birinci dünya müharibəsi ərəfəsində Türkiyənin mövqeyinin zəifləməsindən istifadə edən İngiltərə onu bir sıra mübahisəli məsələlərin nizamlaşdırılması üzrə danışıqlar keçirməyə məcbur etdi. 1913-cü il iyulun 29-da İngiltərə–Türkiyə arasında bağlanmış müqaviləyə əsasən, Türkiyə Qətər ərazisinə iddiadan imtina etmiş, yarımadanın əmir və onun varisləri tərəfindən idarə edilməsinə etiraz etmədiyini bildirmişdi.

Lakin Qətərin müstəqil inkişafı çox çəkmədi. 1916-cı il noyabrın 3-də Böyük Britaniya Qətər hakimini ingilis protektoratlığını qəbul etmək barədə müqaviləni imzalamağa məcbur idi.

Böyük Britaniya İran körfəzi əmirliklərinin hamısını siyasi cəhətdən özünə tabe etdirməklə qısa müddətdə bu regionda iqtisadi mövqeyini gücləndirdi. XX əsrin birinci rübünün axırlarında İran körfəzi bir növ «Britaniya malikanəsinə» çevrildi. Artıq bu dövrdə İngiltərə körfəzin məhəlli sularında mirvari ovu, neft kəşfiyyatı və hasilatı üzrə əmirliklərlə konsessiya müqavilələri imzalamışdır. 1930-cu ildə Qətərdə neft ehtiyatı aşkar olunmuş və İkinci Dünya müharibəsindən sonra onun çıxarılmasına başlanıldı.



İran körfəzi sahili əmirliklərin ərazisindən çıxmağa hazırlışan Böyük Britaniya gələcəkdə də bu regionda öz nüfuz dairəsini saxlamaq üçün əmirliklərdə hakimiyyəti ona sadiq olan sülalələrə verməyə təşəbbüs göstərirdi. Vəziyyəti sabit saxlamaq məqsədi ilə rəsmi London əmirliklərin rəhbərlərinə İran körfəzində federal dövlətin yaradılmasını məsləhət gördü. Federasiyaya 9 əmirlik daxil olmalı idi.

İran körfəzi sahili əmirlikləri başçılarının 1969-ci ilin fevralında keçirilən birgə konfransında keçmiş müqaviləli Omanın 7 əmirliyi, Bəhreyn və Qətər də daxil olmaqla martın 30-da federasiya yaradılmasını rəsmiləşdirdi. Lakin federasiyanın Ali Şurasının həmin ilin mayında keçirilən birinci sessiyasında Abu-Dabi və Qətər əmirlikləri arasında ziddiyyət yarandığından bu məsələ öz müsbət həllini tapa bilmədi. Yaranmış vəziyyət Böyük Britaniyanın özünün federasiyaya qarşı münasibətini dəyişdirir. O, Bəhreyn və Qətərdə müstəqil dövlət yaratmağa razı olur. Federasiyanın yaradılması cəhdlərinin baş tutmadığını görən şeyxlər müstəqil dövlət yaratmağa hazır olduqlarını bildirirlər. 1971-ci ilin sentyabrın 1-də Qətər müstəqil dövlət elan edilir.

**Dövlət quruluşu.** Qətər mütləq monarxiyadır. Dövlətin başçısı böyük hüquqları olan əmirdir. Qətər dövlətinin əmiri, 1972-ci il fevralın 22-də dövlət çevrilişi nəticəsində hakimiyyəti öz əlinə alan Şeyx Xəlifə ben Xamad ət-Tanidir. Qanunverici hakimiyyət əmirə, icraedicilik isə əmir və onun tərəfindən yaradılmış hökumətə məxsusdur. Dövlətin 1970-ci ildən (1972-ci ildən düzəlişlərlə) müvəqqəti konstitusiyası qüvvədədir. Ölkənin yüksəkrütbəli bütün vəzifələri ət-Tani sülaləsinin əlindədir.

Ölkədə siyasi partiyaların və ictimai təşkilatların fəaliyyəti qadağandır. 1971-ci ildən 3 sentyabr Milli bayram – müstəqillik günü kimi qeyd edilir.

Qətər müstəqillik əldə etdikdən sonra BMT, bir sıra beynəlxalq və regional təşkilatların tərkibinə daxil olmuşdur. Qətərin hakim dairələri ölkənin sosial-ictimai həyatının İslam xarakterli olmasını qeyd edir, müsəlman ölkələrinin həmrəyliyinin güclənməsinə daha çox fikir verirlər. İslam ölkələri ilə maliyyə-iqtisadi və hərbi-strateji əməkdaşlıq sahələrində fəal iştirak edən Qətər beynəlxalq aləmdə nüfuzunu qaldırmaqla yanaşı, həm də özünün neft, qaz, neft-kimya, metallurgiya sənaye məhsullarının satış bazarını və kapital ixracının

coğrafiyasını genişləndirməyə təşəbbüs göstərir.

Qətərin xarici siyasəti üçün onun ərəb ölkələri ilə münasibətinin əhəmiyyəti böyükdür. Ərəb həmrəyliyinin qəti tərəfdarı olan Qətər Yaxın Şərq probleminin nizamlanmasında prinsipial mövqe tutur. İsrail tərəfindən işğal olunmuş bütün ərəb torpaqlarının qaytarılmasını və müstəqil Fələstin dövlətinin yaradılmasını tələb edir. O, həmçinin İran körfəzində sabit vəziyyətin qorunub saxlanılmasının tərəfdarıdır. Qətərin xarici siyasətində İran körfəzi sahilinin digər ərəb ölkələri ilə münasibəti xüsusi yer tutur. 1981-ci ildən İran körfəzi ərəb dövlətlərinin Əməkdaşlıq Şurası yaradıldıqdan sonra bu münasibətlər keyfiyyətcə yeni səviyyə almışdır. Qətərin hakim dairələri qeyd edirlər ki, Şura çərçivəsində əməkdaşlıq ölkənin müstəqil iqtisadi inkişafını və təhlükəsizliyini təmin edir. Qətər dövləti də Şuranın üzvü olan ölkələrin «Ümumi bazar»ının yaradılmasının fəal tərəfdarıdır.

Bununla yanaşı Qətərin hakim dairələri sənaye cəhətdən inkişaf etmiş ölkələrlə də hərtərəfli münasibətlərini genişləndirməyə çalışırlar. Belə ki, ABŞ-dan Qətərə silah göndərilməsi və İran körfəzində fövqəladə vəziyyət yaranarsa, neft mədənlərinin müdafiəsi üçün ABŞ-ın yaratdığı «çevik silahlı qüvvələrdən» istifadə edilməsi barədə müqavilələr imzalamışdır.

**Azərbaycan Respublikası ilə münasibətləri.** Azərbaycan Respublikası ilə Qətər dövləti arasında diplomatik münasibətlər 1994-cü ilin 14 sentyabrında yaradılmışdır. Qətər beynəlxalq təşkilatlar (BMT, İKT və s.) çərçivəsində Ermənistan Respublikasının Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı qətnamələrin qəbul edilməsində Azərbaycanın mövqeyini daim dəstəkləmişdir. Azərbaycan Respublikasının 28 sentyabır 2002-ci il tarixli fərmanına əsasən Respublikamızın Səudiyyə Ərəbistanındakı səfiri eyni zamanda Qətər dövlətində səfir təyin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü ilin 30 noyabrından dekabrın 1-dək Qətər dövlətinin başçısının dəvəti ilə Qətərdə rəsmi səfərdə olmuşdur. Səfər zamanı Xarici İşlər Nazirlikləri arasında turizm, mədəniyyət, iqtisadi, ticarət və texniki sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. Hazırda iki ölkənin rəhbərlikləri arasında mütamadi məktub mübadiləsi aparılır.



### 3. Əhalisi və şəhərləri, paytaxtın qısa səciyyəsi

Qətərdə əhalinin siyahıyaalınması ilk dəfə 1970-ci ildə aparılmış və ölkədə 111 min nəfərin yaşaması qeydə alınmışdır. O dövrdən bəri əhalinin sayı 7 dəfədən çox artmış və 2005-ci ildə 800 min nəfəri ötmüşdür. 1985-2005-ci illərdə əhalinin orta illik artımı 2,5% təşkil etmişdir. Qonşu əmirliklərdə olduğu kimi Qətərdə də əhalinin sürətli artımı, Qərbdə adlandırıldığı kimi «neft erası» mərhələsi ilə bağlı olmuşdur. Qətərdə orta ömür müddəti 73 ildir. Kişilər üçün bu müddət 70, qadınlar üçün isə 75 yaşdır. Ölkənin əhalisi əsasən immiqrantlar hesabına artmışdır. 1930-cu illərin axırlarında Qətərdə zəngin neft yataqlarının kəşfindən sonra, xarici şirkətlər buraya hər vasitə ilə mühacir axınını gücləndirmişlər.

1940-60-cı illərdə neft hasilatının sürətli artımını və daşınmasını təmin etmək üçün xarici mütəxəssis və fəhlələr zəruri idi. Qətər siyasi müstəqillik əldə etdikdən sonra ölkəyə mühacir axını daha da sürətlənir. Ölkənin iqtisadi inkişaf layihələrinin həyata keçirilməsində xarici mütəxəssislərin rolu böyük idi. Son nəticədə gəlmələr, yəni Asiya, Afrika, Avropa və hətta Amerikanın müxtəlif ölkələrindən gələn mühacirlər, habelə müvəqqəti yaşayış qeydiyyatı hüququna malik olan və Qətər vətəndaşı sayılmayanlar yerli əhalinin sayını 3 dəfədən çox ötüb keçdi. Qeyd edək ki, İran körfəzinin bütün əmirliklərində olduğu kimi, Qətərdə də xarici mühacirlər xüsusi sahibkarlıq hüququna malik olmasalar da ölkəyə mühacir axını davam edir. Yerli hökumət mühacirlərin kortəbii axınının qarşısını almaq məqsədi ilə müəyyn tədbirlər görür və prosesi ciddi nəzarət altına almağa təşəbbüs göstərir. Əhalinin indiki artımı göstərir ki, 2015-ci ildə Qətərdə 1,0 mln. nəfərin yaşaması gözlənilir.

Qətərin mürəkkəb tarixi keçmişi, onun əhalisinin milli tərkibinə də müəyyən təsir göstərmişdir. Ölkə ərazisində ərəblər, hələ İslama qədərki dövrdən məskunlaşmağa başlamışlar. Bu tayfaların bəziləri (davasir, amamar, maadidlər və b.) oturaq, digərləri isə (maxand və b.) köçəri həyat tərzi keçirirdilər. Tarixən bu ərazidə ərəb tayfaları bir-birini sıxışdırmış, bəziləri isə buradan qovulmuşlar. Yalnız XIX əsrin axırlarında Qətərdə hakimiyyət maadid tayfasının ət-Tani nəslindən olan şeyxlərinin əlinə keçir.

Neftin kəşfi İran körfəzi sahilinin digər əmirliklərində olduğu kimi, Qətərdə də sosial problemlər yaratmışdır. Bu da ölkə əhalisi

arasında qeyri-ərəb xalqlarının (hindli, pakistanlı, fars, avropalı, amerikalı və b.) xüsusi çəkisinin getdikcə artmasında əks olunur. Hazırda ölkə əhalisinin 40 faizini ərəblər (onun da yalnız yarısını qətərlilər), qalanını qeyri-ərəb millətlərin nümayəndələri təşkil edir. Qeyri-ərəb millətləri arasında pakistanlı, hindli və iranlıların birlikdə payı təqribən 85-90 faizdir. Əhalinin milli tərkibində yaranmış belə vəziyyət Qətərin hakim dairələrinin ölkənin mövqeyini islam aləmində möhkəmləndirmək və Qətəri «ərəbləşdirmək» tədbirləri barədə düşünməyə vadar edir.

Bu məqsədlə ölkəyə ərəb mütəxəssis və fəhlələrinin əsasən işçi qüvvəsi kimi cəlb edilməsinə baxmayaraq, Qətərdə qeyri-ərəb immiqrantların sayı getdikcə artır. Bunun da başlıca səbəbi ölkəyə ərəb mənşəli mütəxəssis və fəhlələrin cəlb edilməsi məsələsinin xüsusi şirkətlərə tapşırılması idi. Onlar üçün isə ölkəyə qeyri-ərəb (hindli, pakistanlı) mütəxəssis və fəhlələrin cəlb edilməsi iqtisadi cəhətdən daha faydalı idi. Çünki ərəblərdən fərqli olaraq gəlmələr ən aşağı əmək haqqı ilə işləməyə hazır olduqlarını bildirirdilər. Bu isə dövlətin apardığı immiqrasiya siyasətinə uyğun gəlmirdi. Qətər hökuməti ötən əsrin 80-cı illərinin əvvəllərində immiqrasiya məsələsini dövlətlərarası səviyyəyə qaldırmış və bir sıra ərəb dövlətləri ilə (Misir, Mərakeş, Sudan, Tunis) ölkəyə fəhlə qüvvəsinin göndərilməsi barədə müvafiq müqavilələr bağlamışdır. Ölkədə rəsmi dil ərəb dilidir. 1971-ci ilədək dövlət dili sayılan ingilis dilində də danışanlar hələ çoxdur. Ölkədə hakim din İslam dinidir.

Sürətli inkişaf yoluna qədəm qoyduqdan sonra Qətər ictimaiyyəti tədricən müasir həyatın bütün sahələrində tərəqqiyə nail olmağa səy göstərir. Bu sahədə atılan addımlardan biri 1973-cü ildə milli universitetin yaradılmasıdır. Universitet Qətərin yeniləşdirilməsində, onun iqtisadiyyatının yüksəlməsində fəal rol oynayır. Qətərdə yaşlı əhalinin 85 faizi savadlıdır. Təhsil bütün pillələrdə (o cümlədən, xaricdəki təhsil) pulsuzdur.

Ölkənin sosial-iqtisadi inkişafı əhalinin təfəkkürünə də təsir etmiş, milli mədəniyyətin yeni formalarının yaranmasına şərait yaratmışdır.

Qətərdə və eləcə də İran körfəzinin digər əmirliklərində iqtisadi cəhətdən fəal əhalinin formalaşması və inkişafının özünəməxsus xüsusiyyətləri vardır. Əvvəla, əhalinin yarıya qədərini təşkil edən işləyənlərin əksəriyyəti mühacirlərdir (87-90 faiz).



Nisbətən yüksək həyat səviyyəsinə çatmış, dövlət tərəfindən hər cür güzəşt və imtiyazlar alan yerli əhali «ərköyünçülüyündən» istehsal sahələrində çalışmaqdan yayınırlar. Onlar ticarət, maliyyə və s. xidmət sahələrində çalışmağı üstün tuturlar. Üçüncüsü, ölkədə qeyri-istehsal sahəsində çalışanların xüsusi çəkisi ildən-ilə artır.

Təkcə dövlət aparatında çalışanlar iqtisadi cəhətdən fəal əhalinin 25 faizə qədərini təşkil edir. Əhalinin məşğuliyyəti ölkədəki ictimai həyatı daha parlaq əks etdirir. Məsələn, kənd təsərrüfatı və dəniz təsərrüfatında işləyənlərin xüsusi çəkisi olduqca azdır. Bunun da obyektiv səbəbləri var. Məsələn, əkinə yararlı torpaqların məhdudluğu, suyun çatışmamazlığı, kənd təsərrüfatının müasir texnika ilə təchizatı bu sahədə çalışanların sayını azaldır. Dəniz təsərrüfatında isə «yapon sehrbazlarının» fəaliyyəti nəticəsində mirvari ovunun azalması, körfəzin çirklənməsi bu sahənin də tənəzzülünə təsir etmişdir.

Statistik məlumatlara görə, Qətərdə iqtisadi cəhətdən fəal əhalinin yalnız 30-35%-i maddi nemətlər istehsalında, qalanı isə xidmət sahələrində çalışır.

Qətərdə əhali ərazi üzrə qeyri-bərabər yerləşmişdir. Orta hesabla hər kv. km-ə 70 nəfər adam düşür. Əhali əsasən İran körfəzinin sahillərindəki şəhərlərdə və ölkənin daxilindəki vahələrdə yaşayır. Şərqi Ərəbistanın digər əmirliklərində olduğu kimi Qətərdə də əhalinin 80 faizdən çoxu şəhərlərdə yaşayır. Hökumət bütün Qətər vətəndaşlarını rahat mənzillə, yaxud fərdi evlərlə təmin edir. Əhali arasında fərdi tikililərə daha çox meyl vardır. Bu təşəbbüskarlığı müdafiə edən dövlət fərdi tikililər üçün torpaq sahəsi ayırır, tikintiyə sərf olunan vəsaitin 70 faizini 20-25 il müddətinə borc verir.

Ölkənin ən iri şəhərləri Doha, Umm-Səid, Umm-Baba və Duhandır. Başqa ölkələrdə olduğu kimi Qətərdə də paytaxt bir növ ölkənin simasını müəyyən edir. **Doha** ölkənin qədim şəhəri olub, yarımadanın şərqində dayaz buxta sahilində yerləşir. Əvvəllər şəhərin yerində əl-Bida adlanan kiçik yaşayış məntəqəsi olmuş, XVIII əsrdən etibarən bu məntəqə böyüməyə başlamışdır. Ötən əsrin 50-ci illərinin əvvəllərinə kimi şəhər nizamsız düzülmüş gil daxmalardan ibarət idi. 1960-cı illərdən başlayaraq qısa müddət ərzində ölkənin paytaxtı «neft dollarları» hesabına əsaslı surətdə dəyişmişdir. İndi nəinki köhnə şəhərdən, hətta onun keçmişi barədə təsəvvür yarada biləcək heç bir qədim tikili qalmamışdır. Yalnız yenidən qurulmuş əl-Küt

qalası etnoqrafiya muzeyinə çevrilmişdir.

Dəniz sahilindən başlayan Doha İran körfəzi boyunca 7 km məsafədə uzanır. Bura şəhərin ən cazibəli yeridir. Palmalar və güllər sahilə xüsusi yaraşıq verir. Dəniz sahili boyunca gözəl memarlıq üslubu ilə yeni-yeni binalar tikilmişdir. Binalar hündür deyil və hiss olunur ki, şəhərin memarları «göydələnlərlə» şəhəri doldurmaq və onun formalaşmış memarlığını dəyişdirmək fikrində deyillər. Burada 12 mərtəbəli bina sanki göydələni xatırladır.

Parlamentin iqamətgahı – Doha qəsri özünün böyüklüyü və möhkəmliyi ilə fərqlənir, Milli bank zərif İslam memarlıq ənənələrini xatırladır, arı şanına bənzədilən universitet binası insanı heyrətləndirir. Şəhər yalnız bəzi məhəllələrində sırf ərəb memarlıq üslubunu saxlamışdır. Lakin onun irili-xırdalı yüzlərcə məscidi Dohanın şərtsiz müsəlman şəhəri olduğunu daim yada salır. Hər bir məscid yerləşdiyi məhəlləyə yaraşıq verir. Şəhərin son dərəcə təmizliyi və səliqə-səhmanı həm turistləri heyrətləndirir, həm də «yaşıllar partiyasının» hər bir üzvünün arzusuna müvafiq gəlir.

Şəhər əhalisi sürətlə artdığından XXI əsrin əvvəlləri üçün şəhər əhalisinin sayı 400 min nəfərə çatmışdır. Bu da ölkə əhalisinin 50 faizini təşkil edir. Doha ölkənin siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. İran körfəzi regionunda mühüm tranzit-ticarət mərkəzlərindən biri olan Dohada metal emalı müəssisələri, sement zavodları, istilik elektrik stansiyaları fəaliyyət göstərir. Şəhərdə əsasən qədim əlyazmaları ilə zəngin olan milli kitabxana, milli və etnoqrafik muzeylər fəaliyyət göstərir. Paytaxtda ölkənin və regionun ən böyük və müasir avadanlıqlarla təchiz olunmuş «Əl-Cəzirə» informasiya agentliyi və televiziya kanalı fəaliyyət göstərir.

Son onilliklərdə Qətərdə neft hasilatı ilə sıx bağlı olan iki yeni müasir şəhər salınmışdır. Bunlardan biri paytaxtdan 96 km şimal-qərbdə əs-Salva körfəzinin sahilində neft-kimya sənayesinin mərkəzi olan Duhan şəhəridir. Şəhərdə neft məhsulları istehsalı üzrə müxtəlif müəssisələr vardır. Duhan müasir avtomobil magistralı və boru kəməri vasitəsilə Doha şəhəri ilə birləşdirilmişdir. Duhandan gələn təbii qaz ilə paytaxtın su təmizləyici qurğuları və elektrik stansiyaları işləyir.

Dohadan 35 km cənubda, körfəz sahilində Umm-Səid şəhəri yerləşir. Bu şəhər ilk növbədə sənaye bölgəsi və ölkənin qapısı kimi inkişaf etmişdir. Umm-Səid limanı ölkədəki poladəritmə, neft-kimya



və mayeləşdirilmiş təbii qaz müəssisələrinə xidmət edir. Bu limandan müxtəlif adda idxal və ixracat məhsulları daşınır. Avtomobil yolları Umm-Səid şəhərini paytaxt və Duhanla birləşdirir.

### 4. İqtisadiyyatı

Qətər inkişaf etməkdə olan ölkələr arasında ötən əsrin 70-ci illərinin «neft erasından» bəhrələnən dövlətlərdən biridir. Neft və təbii qaz bu ölkənin «taleyini» əsaslı surətdə dəyişdirmiş, onun sosial iqtisadi simasında dərin iz buraxmışdır. Qətərin olduqca zəif milli təsərrüfatı neftin hesabına qısa müddətə yüksək inkişaf səviyyəsinə çatmışdır. XXI əsrin əvvəlləri üçün ÜDM həcmi 19 mlrd. dollara yaxınlaşmış, adambaşına düşən milli gəlir isə 20 mln. dolları ötmüşdür. Son 30 ildə (1975 – 2005) bu ölkədə ən yeni texnika və avadanlıqlarla təchiz olunan neft-qaz mədənləri, yataqlardan onların çıxarılması və emalı, neft-kimya, qaz mayeləşdirici müəssisələr, metallurgiya zavodları, su təmizləyici və suvarma qurğuları, limanlar, müasir memarlıq üslubunda binalar, yollar və s. tikilmişdir. Yaxın vaxtlara qədər kasıb ölkə sayılan Qətərin sosial-iqtisadi nailiyyətləri iqtisadiyyatın daxili inkişafı hesabına deyil, əsasən neft və təbii qaz ixracatından banklara yığılan gəlir hesabına olmuşdur. «Neft dolları» adlanan bu vəsait ilk növbədə sənaye obyektlərinin tikintisinə və dövlətin digər ehtiyaclarına istiqamətləndirilir.

Sosial-iqtisadi inkişafının indiki mərhələsinə çatmaq üçün Qətər uzun bir yol keçmişdir. 1929–1933-cü illərin dünya iqtisadi böhranına qədər əmirlik Paris və Bombey bazarlarında yüksək qiymətləndirilən mirvari hesabına dolanırdı. Dünya iqtisadi böhranı və yapon sahibkarı Mikimoto tərəfindən süni yolla mirvari əldə edilməsi ölkəni dolanacaq mənbəyindən məhrum etdi. Məhz həmin vaxtlarda İngiltərə–İran neft şirkəti yarımada və onun şelf sularının sərvətləri ilə maraqlanmağa başlamışdır.

1935-ci ilin mayında, Qətərin o vaxtkı hakimi Şeyx Abdulla ben-Kasim ilə uzun və çətin sürən danışıqlardan sonra İngiltərə–İran neft şirkəti 75 il müddətinə Qətərin 10 min kv. km ərazisində neft yataqlarının kəşfi və istismarı hüququnu «Petroleum development kompani of Katar» şirkətinə vermiş və 1938-ci ilin oktyabr ayından həmin şirkət Qətərin cənub-qərbində indiki Duhan şəhəri yaxınlığında ilk neft buruğunu qazmışdır. Artıq 1940-cı ilin

yanvarında Qətərdə maye yanacaq əldə edilmişdir. İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar bütün işlər dayandırılmış və yalnız 1947-ci ildə neftçıxarma işləri bərpa olunmuşdur. 1949-cu ilin yanvarında isə 15 min ton neftlə yüklənmiş ilk tanker Qətər sahillərindən Avropaya yola salınmışdır.

1952-ci ildə «Petroleum development kompani of Katar» şirkətinin neft-qaz kəşfiyyatı və istismarı hüququnu «Katar petroleum kompani» (KPK) şirkəti ələ keçirmiş və həmin ilin dekabrında ingilis şirkəti «Şell» yarımadanın şərq sahilindən şelf bölgəsinin 75 il müddətilə ona konsessiya verilməsi barədə Qətərin şeyxi ilə müqavilə imzalamışdır. 1953-cü ildə «Şell-Katar» neft şirkəti fəal axtarış işlərinə başladı. Yeddi ildən sonra isə sənaye əhəmiyyətli zəngin yataqlar kəşf edilmiş və neft çıxarılmasına başlanılmışdır.

1935-ci ildə bağlanan ilk müqaviləyə əsasən xarici şirkətlər ölkədən çıxarılan hər ton neftə görə Qətər şeyxinə bir dollar verməli idilər. 1951-ci ildə bu rəqəm 3 dollara çatdırılmış, bir ildən sonra isə qonşu İranda neft sənayesinin milliləşdirilməsindən qorxuya düşən KPK «gəlirin bərabər bölüşdürülməsi» Prinsipi ilə razılaşmağa məcbur olmuşdur.

1973-cü ilin oktyabr hadisələri ilə bağlı maye yanacağın qiyməti nəinki bir neçə dəfə qaldırılmış, həm də neft hasil edən Ərəb ölkələrinin sərvətləri üzərində xarici kapitalın bilavasitə nəzarəti azalmış, regionun bir sıra ölkələrində isə xarici şirkətlərə məxsus olan müəssisələrin milliləşdirilməsi prosesi başlanmışdı. Qətər də bu prosesdən kənarda qalmamışdır.

Xarici neft şirkətləri ilə münasibətlərin dəyişdirilməsi barədə işgüzar danışıqlara başlayan Qətər bölgü nisbətini öz xeyrinə dəyişdirməyə nail olur. 1974-cü ilin iyulunda Qətər əmiri ölkədə baş Neft Korporasiyasının (Katar Ceneral Petroleum Korporeyşn) yaradılmasına icazə verir. Bu təşkilata neft sənayesinin bütün sahələrində fəaliyyət göstərmək, yerli və xarici şirkətlərin səhmlərini almaq, yeni şirkətlər yaratmaq hüquqları verilir.

1976-cı ildə KPK, 1977-ci ildə isə «Şell of Katar» şirkətlərinin bütün kapitalı dövlətin əlinə keçir. 70-ci illərin axırlarında neft siyasəti sahəsində bütün məsuliyyət Qətər Baş Neft Korporasiyasına tapşırılır. 80-cı illərin əvvəllərində neftin hasilatı, nəql olunması, saxlanılması, təmizlənməsi, təbii qazın çıxarılması, emalı, satışı, neft-qaz sənaye müəssisələrinin tikintisinə tam nəzarət bu təşkilata



tapşırılmışdır. 70-ci illərin ortalarından başlayaraq Qətərin neft ixracatında əldə etdiyi gəlir bir neçə dəfə artmışdır. 1974-1975-ci maliyyə ilindən başlayaraq Qətər tarixində ilk dəfə olaraq «neft dollarlarının» böyük bir hissəsi sənaye istehsalının inkişafına və kənd təsərrüfatının yüksəldilməsinə ayrılır. Ölkənin ÜDM-da sənayenin payı 49 faiz, xidmət sahələrinin payı 50 faiz, kənd təsərrüfatının payı isə 1 faizə bərabərdir.

**Sənayenin aparıcı sahələri.** Qətər iqtisadiyyatının əsasını neft-qaz hasilatı və onların emalı təşkil edir. Son illər neft ehtiyatının tükənməsi ilə əlaqədar onun hasilatı getdikcə azalmaqdadır. Çıxarılan neftin təxminən yarısı şelf zonasının payına düşür. Ötən əsrin 70-ci illərinin ortalarından 80-ci illərin əvvəllərinə qədər çox qısa müddətdə Qətər həm «neft sıçrayışını», həm də onun tənəzzülünü görmüşdür. Sıçrayışın əvvəlində neft ixrac edən digər ölkələr kimi, Qətər də əldə etdiyi «neft dollarlarını» iqtisadiyyatın sürətli inkişafına sərf etmişdir.

Ölkədə neft hesabına yaşamağın və varlanmağın uzun sürməyəcəyini yaxşı başa düşürlər. Gec-tez neft ehtiyatı az olan Qətər «neft dollarlarından» məhrum ola bilər. Bu səbəbə görə hakim dairələr neftdən əldə edilən gəlir hesabına həmişə ölkənin iqtisadiyyatının müxtəlif sahələrini inkişaf etdirməyə təşəbbüs göstərmişlər. Bununla da onlar Qətərdə elə bir iqtisadi model yaratmaq istəyirlər ki, gələcəkdə ölkənin iqtisadiyyatı yalnız neft və qazdan asılı olmasın.

Ötən əsrin 90-cı illərinin əvvəllərində qətərlilər iqtisadiyyatlarının möhkəmliyinə yenidən arxayın olmağa başlamışlar. Onlar dövlətin gələcək inkişafını dünya bazarında təbii qaza olan tələbatın artması və Qətərin zəngin təbii qaz ehtiyatlarına malik olması ilə əlaqələndirirlər. Mütəxəssislərin hesablamalarına görə artıq XXI əsrin birinci rübündə Qətərdə təbii qaz nefti tam əvəz edəcəkdir. Mülahizələrə görə ölkədə aşkar edilmiş neftin ehtiyatı yalnız 20-30 ilə çata bilər. Qətər isə əvvəllər olduğu kimi, yanacaq ixracatçısı kimi öz mövqeyini saxlayacaq, sənaye sahələrini, o cümlədən neft-kimya, gübrə, alüminium və s. sahələri inkişaf etdirəcəkdir. Bununla yanaşı, Qətər, həm də Yaponiya və Avropa ölkələrini təbii qaz ilə təmin edəcəkdir.

Qətər ölkədə «əsrin layihəsi» adlandırılan Nord-Fild yatağından ildə 8 mlrd. kub m. təbii qaz çıxarır. Çıxarılan təbii qazın

bir hissəsi ölkə tələbatı (elektrik stansiyalarında, su təmizləyici qurğularda, sənayedə) üçün sərf edilir, Bir hissəsi isə emal olunaraq butan, propan və yanacaq kimi ixrac edilir. İxrac edilən təbii qaz məhsullarından əldə edilən gəlirin qaz sənayesinin gələcək inkişafına sərf edilməsi nəzərdə tutulmuşdur. Artıq Qətər hökuməti bu sahənin inkişaf etdirilməsi üçün Fransanın «TOTAL», İtaliyanın «ENİ», ABŞ-ın «XANT» şirkətləri ilə müvafiq müqavilələr bağlamışdır.

Xarici şirkətlərin köməkliyi ilə ölkədə təbii qazın mayeləşdirilməsi üzrə zavod, mayeləşdirilmiş qaz daşınması üçün tankerlər, okean gəmilərinin qəbulu üçün liman tikilir. Bu layihələrin həyata keçirilməsi Qətərə 5-6 mlrd. dollara başa gələcəkdir. Təbii qaz üzrə layihələrin həyata keçirilməsi Qətəri dünyanın iri təbii qaz ixracatçısına çevirmişdir. Yaponiya ilə bağlanmış müqaviləyə görə 1997-ci ildən etibarən Qətərdən Yaponiyaya hər il 8 mlrd. kub m-dən 12 mlrd. kub m-ə qədər mayeləşdirilmiş qaz göndərilməlidir. Qonşu Ərəb ölkələrini təbii qazla təmin etmək məqsədi ilə yeni qaz kəmərlərinin çəkilişi nəzərdə tutulur. Aydın məsələdir ki, bütün bu layihələrin həyata keçirilməsi üçün ilk növbədə regionda sabit vəziyyət, ədalətli sülh yaratmaq vacibdir.

Ölkədə neft-qaz sənayesi ilə yanaşı, digər sənaye sahələrinin təməli ötən əsrin 70-ci illərin əvvəllərində qoyulmuşdur. Qətərdə yanacaq resursları bol olduğundan energetika sənayesi sürətlə inkişaf etmişdir. Buradakı istilik elektrik stansiyalarında ildə təqribən 7 mlrd. kvt/saat elektrik enerjisi istehsal edilir.

Ölkədə neft emalı və neft-kimya sənayesi inkişaf etdirilir. Umm-Səid şəhərində iri neft emalı müəssisəsi fəaliyyət göstərir. Neft emalı müəssisələrinin ümumi gücü 4 mln. tona yaxındır. Umm-Səiddə etilen istehsal edən neft-kimya kombinatı, təbii qazın mayeləşdirilməsi üzrə zavod, azot gübrəsi istehsal edən iki müəssisə, qara metallurgiya müəssisəsi tikilmişdir.Umm-Baba və Doha şəhərlərinin yaxınlığında yerləşən ölkənin ilk müəssisələrindən biri olan, lakin daima yeniləşdirilən sement sənayesinin, elektrik stansiyalarının, su təmizləyici qurğuların gücü artırılır.

Ölkədə əhalinin və sənaye müəssisələrinin sayının sürətlə artması ilə əlaqədar dəniz suyunu təmizləyən köhnə qurğuların gücü artırılır. Vüseylə şəhərində nəhəng su təmizləyici müəssisə tikilmişdir. Layihəyə görə zavodun tikintisi 1,3 mlrd. dollara başa gəlməlmişidir. Bu müəssisənin tikintisində Böyük Britaniya şirkəti də



iştirak edir.

Onu da qeyd etmək lazımdır ki, Qətər kapitalının iştirakı ilə başqa ölkələrdə, məsələn Fransanın Dyünkerk şəhərində etilen istehsal edən neft-kimya müəssisəsi tikilmişdir. İdxal məhsullarının bəzilərinin yerli məhsullarla əvəz edilməsi üçün dövlət tərəfindən hər cür yardım göstərilir. Dövlət yüngül sənaye və xidmət sahələrinin inkişafı üçün sahibkarları həvəsləndirir. Ölkənin kustar sənaye müəssisələrində yun parça, gön-dəri məmulatı, metal və zərgərlik əşyaları istehsal olunur. Kustar sənaye müəssisələrinə ölkənin hər yerində rast gəlinir. Yeyinti sənayesinin inkişaf etdirilməsinə yerli sahibkarlar, xüsusi firma və şirkətlər cəlb olunmuşdur. Bu sahələrin müəssisələrində un, şəkər, spirtsiz içkilər və s. istehsal olunur.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Qətərdə kənd təsərrüfatı ümummilli məhsulun cəmi 1 faizini verir. Bu neft və qaz sənayesinin yüksək inkişafı ilə deyil, əsasən kənd təsərrüfatına yararlı torpaq sahələrinin məhdudluğu ilə əlaqədardır. Kənd təsərrüfatına yararlı torpaq sahələri ölkə ərazisinin təqribən 3 faizini təşkil edir. Bu sahədə çalışanların sayı da ildən-ilə azalır. Balıqçılıq təsərrüfatı da daxil olmaqla aqrar bölmədə işlək əhalinin yalnız 3 faizi çalışır. Onlar ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının cəmi 20 faizini ödəyir.

Qətərdə torpaq sahibkarlığının tarixən iki forması: mülk (xüsusi torpaq sahibkarlığı) və dira (köçəri və yarımköçərilər arasında xüsusi torpaq sahibkarlığı) mövcud olmuşdur. Qətərin hakim dairələri aqrar siyasətdə xüsusi bölməni inkişaf etdirməyi üstün tutur və bu məqsədlə torpaq sahibkarlarına hər vasitə ilə kömək edir. Burada əsas məqsəd yerli istehsal hesabına ölkə əhalisinin ərzağa, xüsusilə meyvə-tərəvəzə, paxlalı bitkilərə olan təlabatını qismən ödəməkdir. Südlük istiqamətli heyvandarlıq, quşçuluq və balıqçılıq sahələri çox sürətlə inkişaf edir. Qətər kənd təsərrüfatı problemlərinin həlli ilə bağlı ümumərəb tədbirlərində yaxından iştirak edir.

Əkinçilik yarımadanın şimalında qrunt suları çox olan vahələrdə inkişaf etmişdir. Belə vahələrdə qarğıdalı, darı, yonca və tərəvəz yetişdirilir. Ölkənin şimal və mərkəz hissələrindəki vahələrdə hələ qədim zamanlardan xurma becərilir. Xurma ağaclarının kölgəsində nar, sitrus meyvələri, banan yetişdirilir. Əkin sahələrinin 30-35 faizi xurma plantasiyalarının və bağlarının payına düşür.

Vahələrdə tərəvəz və bostan bitkiləri də yetişdirilir. Köçəri təsərrüfatlarının əvvəlki əhəmiyyətini itirməsinə baxmayaraq Qətərdə 9 minə qədər dəvə, 7 mindən artıq qara mal, 80 minə qədər qoyun və keçi bəslənilir. Umm-Kafnda heyvandarlıq və quşçuluq, Əbu-Saildə qoyunçuluq fermaları tikilmişdir.

Dəniz ovçuluğu ölkə əhalisinin qədim peşələrindən biridir. Ölkədə ildə 2 min tona qədər müxtəlif növ balıq ovlanır. Doha şəhərində ər-Ruvay və əl-Vəkra qəsəbələrində hazırlanan ənənəvi yelkənli balıqçı qayıqları, ən müasir texnika ilə təchiz edilmiş balıq ovlayan gəmilərlə əvəz olunur. Balıq ovu üzrə yaradılmış milli şirkətin xüsusi donanması və balıqdondurma müəssisələri vardır.

Dənizdən mirvari çıxarılması əvvəlki əhəmiyyətini itirsə də bu ənənəvi peşə ilə məşğul olanlar da vardır. Mirvari Böyük Mirvari dayazlığında çıxarılır. Bu dayazlıq Bəhreynin sahil sularından Birləşmiş Ərəb Əmirliklərinin sahillərinə qədər 500 km-lik məsafədə uzanmışdır. Burada 220 dayaz yer və say (dəniz dibində hündürlük) yerləşir ki, həmin ərazilərdə mirvari molyuskaları törəyib artır.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** Ölkədə neft və təbii qaz hasilatının artırılması, yeni sənaye müəssisələrinin tikilməsi, köhnələrinin təkmilləşdirilməsi, müasir şəhərlərin salınması, kənd təsərrüfatının və xarici ticarət əlaqələrinin genişləndirilməsi nəqliyyat şəbəkəsinin inkişafına səbəb olmuşdur. Qətərdə, paytaxtı Duhan və Umm-Səid şəhərləri ilə birləşdirən ilk şosse yolu hələ İkinci Dünya müharibəsindən əvvəl çəkilmişdir. Müharibədən sonra Doha–Umm-Səllal–Hor, Doha–Zikrik, Doha–Səlva, Doha–əl-Haur–ər-Ruvays–əz-Zübar istiqamətində mühüm avtomobil yolları çəkilmişdir. 60-cı illərin axırlarından XXI əsrin əvvəllərinə qədər şosse yollarının uzunluğu 8 dəfə artaraq 1500 km-ə çatmışdır. Qətər şosse yolları vasitəsilə Səudiyyə Ərəbistanı, BƏƏ və Omanla əlaqə saxlayır. Boru kəmərlərinin uzunluğu 2050 km-dir. Ölkədə dəmir yolu yoxdur.

Neft və mayeləşdirilmiş qaz ixracatının, ümumiyyətlə, xarici ticarət dövriyyəsinin genişlənməsi, ölkənin başlıca limanlarının yenidən qurulmasını tələb etmişdir. Doha və Umm-Səid limanlarında daha böyük işlər görülmüşdür. 1966-cı ildə tikilmiş Doha limanı yalnız kiçik dəniz gəmilərini qəbul edə bilirdi. Limanda yenidənqurma işləri aparıldıqdan sonra Doha limanına iri okean gəmiləri daxil olur. Metallurgiya və neft-kimya kompleksinə xidmət edən Umm-Səid dəniz limanı yenidən qurulduğundan o, müxtəliftipli



ən müasir okean gəmilərini qəbul edə bilir. Ölkənin başlıca dəniz qapısı sayılan Umm-Səid limanında idxalat və ixracat məhsullarının çox böyük hissəsi keçir. Hor-Şakik limanında da yenidənqurma işləri aparılmışdır.

Ölkənin həyatında hava yolları getdikcə mühüm əhəmiyyət kəsb edir. Qətərin paytaxtında beynəlxalq əhəmiyyətli təyyarə limanı vardır. Bu limandan nəinki sərnişin, həm də ölkəyə gətirilən və tez xarab olan ərzaq məhsulları, bəzi qiymətli təcili yüklərin daşınmasında istifadə olunur.

Ölkə ən müasir rabitə əlaqələrinə malikdir. Yerin süni peyki vasitəsilə dünyanın 120-dən artıq ölkəsi ilə telefon əlaqələri saxlayır.

Asiyada getdikcə güclü maliyyə mərkəzlərindən birinə çevrilən Qətərin müasir infrastruktur sahələrinə malik olması onun bank işləri üzrə daha faydalı əməliyyatını təmin edir. Qətərdə xarici ölkələrlə əlaqədar olan 20-dən artıq bank fəaliyyət göstərir.

**Xarici ticarət.** Xarici ticarət ölkənin iqtisadiyyatı üçün həyatı əhəmiyyətə malikdir. Qətər müstəqillik əldə etdikdən sonra ölkədə milli pul vahidindən – Qətər rialından istifadə olunur. Ölkənin sabit gəlir mənbəyinə malik olması, Qətərlə ticarət əməkdaşlığını yaratmaq istəyən xarici ortaqların sayını da artırmışdır. İxracatda neft, mayeləşdirilmiş qaz, metal, neft-kimya məhsulları, idxalında isə maşın və avadanlıq, ərzaq məhsulları, nəqliyyat vasitələri, əhali arasında geniş istifadə olunan sənaye məhsulları üstünlük təşkil edir.

Son illər Qətər, Bəhreyn və Küveyt kimi onunla qonşu olan ölkələrlə xarici malların geri ixracatçısına (reeksportçusuna) çevrilir. Ölkənin tranzit-ticarət mərkəzi kimi mövqeyini gücləndirməyə çalışan Qətər hökuməti geri ixracat məhsullarına qoyulan bütün vergiləri ləğv etmiş və idxal malları rüsumuna yenidən baxmışdır. Başlıca olaraq idxal olunan çəltik, şəkər, meyvə-tərəvəz, qəzet və ölkəyə gələn turistlər gömrük rüsumundan azad edilmiş, idxal olunan digər mallara isə olduqca aşağı vergi təyin edilmişdir.

Qətərin əsasən Yaponiya, Fransa, Almaniya, İtaliya, Böyük Britaniya və ABŞ-la ticarət əlaqələri saxlayır. Son vaxtlar İran körfəzi sahili Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində fəal çıxış edir və bu ölkələr arasında Ümumi Bazar və vahid valyuta yaradılması təklifini müdafiə edir.

Ölkədə nəzərdə tutulan iqtisadi inkişaf proqramının həyata keçirilməsi üçün tələb olunan ən yeni maşın və avadanlığın,

tankerlərin, sutəmizləyici qurğuların, bütöv sənaye komplekslərinin və s. Qərb ölkələrindən alınması üçün Qətər böyük məbləğdə vəsait sərf etmişdir. Qətər hökuməti elm, maarif və səhiyyənin inkişafına, istehlak xarakterli sənaye məhsullarının idxalına bolluca vəsait xərcləmişdir. Lakin yanacaq ixracatından valyuta gəliri, xeyli müddət ölkənin idxalat xərcindən artıq olduğundan Qətərdə böyük miqdarda kapital yığılmışdır. Dövlət bu kapitalı inkişaf etmiş ölkələrin sənayesinə qoyur, iri Qərb şirkətlərinin səhmlərini alır, mehmanxalar və birgə müəssisələr tikir. Qətər hətta Qərbi Avropa ölkələrinə borc da verir.

**Maliyyə sistemi.**1990-cı ilin başlanğıcında Qətərin qızıl-valyuta ehtiyatı 13 mlrd. dollar, xarici dövlət avurları 12 mlrd. dollar, xarici kapital qoyuluşu isə 25 mlrd. dollar qiymətləndirilmişdir. O vaxt cəmi 400 min əhalisi olan bir ölkə üçün bu göstəricilər çox böyük rəqəmlərdir. «Neft dollarları» əldə edilməsinə görə Qətər region ölkələri arasında Səudiyyə Ərəbistanı, İran, BƏƏ və Küveytdən sonra 4-cü yerə çıxmışdır. Səhmlərin əldə edilməsi Qətər milli burjuaziyasının nümayəndələrini Qərbin işgüzar ortaqlarına çevirir.

Dövlət tərəfindən iri xarici şirkətlərin qiymətli kağızlarının alınması və Qərb ölkələrinə borc verilməsi Qətərin iqtisadiyyatını dünya təsərrüfatına bağlayır. Qətər də Əməkdaşlıq Şurasına daxil olan digər ölkələr kimi inkişaf etməkdə olan ölkələrə güzəştli kreditlər verir. Qətər kapitalı Şura üzvü olan digər ölkələrin kapitalı ilə birlikdə dünya iqtisadiyyatının inkişafına və beynəlxalq münasibətlərin bəzi məsələlərinin həllinə xeyli təsir göstərir.

Beləliklə, Qətər neft və təbii qaz ölkəsi olmaqla yanaşı, həm də böyük kapital ixracatçısıdır. Onun kapitalı dünya təsərrüfatının bir çox sahələrində dövriyyədədir. Kapital qoyuluşu dairəsini genişləndirmək, müştərək müəssisələrin tikintisi üçün yeni-yeni ortaqlar və sahələr axtarır.

## LİVAN RESPUBLİKASI*

* Ərəbcə adı Əl Cumhuriyyət əl Lübnaniyyədir.



### 1. Coğrafi mövqe və təbiət

**Coğrafi mövqe**. Aralıq dənizinin şərq sahilində yerləşən Livan Respublikası şimaldan və şərqdən Suriya, cənub-şərqdən İsrail, cənubdan müsdəqil Fələstin ərəb dövləti yaratmaq məqsədilə BMT tərəfindən ayrılmış ərazi ilə həmsərhəddir. Aralıq dənizinin Livan sahillərində əmələ gətirdiyi təbii buxtalarda Beyrut, Sayda, Tripoli kimi böyük portlar salınmışdır.

Livan Asiya, Afrika və Avropanın bir-birilə yaxınlaşdığı yerdə – Aralıq dənizi hövzəsini İran körfəzi bölgəsi ilə birləşdirən beynəlxaq əhəmiyyətli yollar üzərində yerləşir. Coğrafi mövqeyinin belə əlverişli olması ölkənin iqtisadiyyatına təsir göstərmiş və onu Yaxın Şərqin böyük tranzit-ticarət mərkəzinə çevirmişdir. Livanın ərazisi 10,5 min. kv. km-dir. Bu göstəriciyə görə dünyanın 159-cu dövlətidir.

**Səth quruluşu və faydalı qazıntıları.** Livan əsrarəngiz təbiətə malik ərəb ölkələrindəndir. Təsadüfi deyil ki, onu Yaxın Şərqin İsveçrəsi, Aralıq dənizinin «incisi» adlandırırlar. Sərin dağ dərələri və gözəl dəniz sahili çimərlikləri vardır. Səth qurluşuna görə əsasən dağlıq ölkədir. Ərazisinin beşdə dörd hissəsi 500 m-dən yüksəkdə yerləşir. Təbii şəraitinə görə ölkəni dörd təbii-coğrafi rayona ayırmaq olar: Sahil düzənliyi; Cəbəl Lübnan (Livan) dağ massivi; Bəqa çökəkliyi; Cəbəl Əş-Şeyx və Cəbəl Əş-Şərqi (Antilivan) dağları.

Livan (qərbdə) və Antilivan (şərqdə) dağ silsilələri ölkə ərazisini şimaldan cənuba kəsib keçir. Sıldırım dağ massivlərində 3000 m-dən artıq olan yüksəkliklər vardır. Ölkənin ən hündür yeri Qurnət Əs-Səud dağıdır (hünd. 3083m). Antilivan dağları ölkənin şərqində Suriya ilə sərhəd boyunca uzanır. Bu dağlar cənubda Əş-Şeyx dağ massivinə (hünd. 2814) keçir. Əş-Şeyx dağları (Avropa ədəbiyyatında Hermon) çox sıldırımlı olub bitki örtüyündən tam məhrumdur.

Ölkənin dağ massivləri mezazoyun* əhəng və qumdaşlarından ibarət çökmə suxurlardan təşkil olunduğundan burada karst mağaralarına** rast gəlmək olur. Bunlardan biri Ceyt mağarasıdır.

* **Mezazoy** – Yerin geoloji tarixində era. Mezazoy erasının yaşı 160-170 mln. Ildir.

** **Karst mağarası** – təbii sularla həll olunan suxurlarda yaranmış boşluqlar. Karstların yerüstü və yeraltı formaları olur.

Mağaranın tavanından sızan damcılardan əmələ gələn əhəngli ərp yığını süni işıqlandırılarkən «bülluru» xatırladır və bu qeyri-adi mənzərə insanı heyrətləndirir. Mağara ölkənin mühüm turizim obyektidir.

Livan dağları qərbdə sahil düzənliyinə enir. Sahildüzənliyinin ən ensiz yeri 1, enli yeri isə 10 km-dir. Düzənlik başdan-başa portağal və banan plantasiyaları ilə örtülüdür. Ölkənin ən böyük şəhərləri də sahil düzənliyində salınıb.

Bəqa çökəkliyi Livan və Antilivan dağları arasında yerləşir. Çökəkliyin uzunluğu 120 km, dərinliyi isə 750-900 m-dir. Ölkənin ən böyük çayı Nəhr əl-Litanı bu çökəklikdən axır. Bəqa çökəkliyinin cənubu Livanın sıx məskunlaşmış və mühüm kənd təsərrüfatı rayonu hesab olunduğu halda, şimalı əksinə, daşlı səhradır. Səhrada yay aylarında baş verən qum qasırğaları təsərrüfata böyük ziyan vurur.

Livan ərazisi seysmik zonada yerləşdiyindən Bəqa çökəkliyi və sahil düzənliyində tez-tez zəlzələ hadisələri baş verir. Livanda faydalı qazıntı azdır. Ölkə tikinti materialları ilə nisbətən zəngindir. Bunlardan mərmər, gips, əhəng daşı xüsusilə əhəmiyyətlidir. Livanda dəmir və qurğuşun filizləri də aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Livanda subtropik Aralıq dənizi tipli iqlim hakimdir. Ölkə iqliminin formalaşmasına ərazinin səth quruluşu və Aralıq dənizinin təsiri böyükdür. Yay uzun, isti və quru, qış isə mülayim və yağmurlu keçir. Aralıq dənizi sahillərində iyul ayının orta temperaturu müsbət 28, yanvarınkı müsbət 13 dərəcə təşkil edir. Dağlara qalxdıqca subtropik iqlim mülayim iqlimlə əvəz olunur. Dağlıq ərazilərdə iyul ayında orta temperatur müsbət 6 dərəcədən aşağı düşmür. Hündür dağların zirvəsi dekabrdan mayadək qarla örtülü olur.

Bəqa çökəkliyi üçün isti və quru iqlim səciyyəvidir. Burada yay aylarında gündüz temperatur 35 dərəcəyədək yüksəldiyi halda gecə çox sərin keçir. Yağıntıların paylanmasında ərazi üzrə fərqlər mövcuddur. Dağlararası çökəkliklərə il ərzində 400, ölkə daxilində dağlara 1000 mm, dağların Aralıq dənizi sahili yamaclarına isə 2500-3000 mm-ə qədər yağıntı düşür. Ölkəyə yağıntı əsasən payız-qış mövsümündə yağır.

Yay mövsümünün quraq keçməsinə baxmayaraq, havada rütubət yüksək olur (xüsusilə sahildə).

Ölkənin ən mühüm çayı Nəhr əl-Litanidir. Uzunluğu 182 km olan bu çay Bəqa çökəkliyi ilə axaraq Aralıq dənizinə tökülür. İkinci böyük



çay ölkənin şimal-şərqindən axan Əl-Asidir (uz. 400 km). Əl-Asi yuxarı axınında cəmi 30 km məsafədə Livana məxsusdur. Başlanğıcını Livan dağlarından götürən qısa çaylar çoxdur. Çaylarda daşqınlar qışda və baharda olur. Ölkənin çayları gəmiçiliyə yararlı deyil. Lakin dağ çayları olduğundan onların hidroenerji ehtiyatı böyükdür. Əl-Litani üzərində bəndlər və kiçik su elektirik stansiyaları tikilmişdir.

**Torpaq və bitki örtüyü.** Livanda qəhvəyi, boz-qəhvəyi torpaqlar üstünlük təşkil edir. Sahil düzənliyi və dağ yamaclarında yüksək məhsuldar qırmızı torpaqlar yayılmışdır. Livan zəngin floraya malik ərəb ölkələrindən biridir. Sahil düzənliyi həmişəyaşıl bitkilərlə örtülüdür. Livan dağlarının qərb yamaclarında palıd, ağcaqayın, dəfnə, şam, yabanı zeytun və s. bitir. Yüksəkliyə qalxdıqca ardıc, kökü kəsilməkdə olan Livan sidri* yayılmışdır.

Ölkə ərazisinin 13 faizi meşələrlə örtülüdür. Livanın şərqində quraqlığa davamlı bitkilər (püstə, tikanlı kollar və digər kserofit bitkilər) yayılmışdır.

Livan təbiətinə biganə qalan ölkə deyil. Turizm və istirahət ölkə iqtisadiyyatına valyuta gətirən əsas sahələrdən biri olduğundan livan hökuməti təbiətin qayğısına, ətraf mühitin mühafizəsinə ciddi fikir verir. Bu məqsədlə ölkədə qoruq və yasaqlıqlar, mühafizə olunan xüsusi ərazilər yaradılmışdır. Lakin əfsuslar olsun ki, Yaxın Şərq böhranı, xüsusilə İzrail ilə hərbi qarşıdurması onun təsərrüfatına və təbiətinə böyük ziyan vurur.

### 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi

Livan qədim tarixə malik ərəb ölkələrindən biridir. Müasir Livanın yerləşdiyi ərazinin əlverişli cografi mövqeyi, təbii coğrafi xüsusiyyətləri eramızdan çox-çox əvvəl burada əhalinin məskunlaşmasına səbəb olmuşdur. Eramızdan əvvəl IV-II minilliklərdə sahil düzənliyində və Livan dağlarının ətəklərində məskunlaşmış finikiyalılar bu ərazidə bir neçə quldar şəhər dövlətlər yaradırlar. Sonradan bu şəhər – dövlətlər regionda daha güclü feodal dövlətlər olan Assur, Babil və Əhəmənilər tərəfindən zəbt olunur.

Eramızın birinci yüzilliyində Livan, Finikiya ilə bərabər Roma

* **Livan sidri** – hündürlüyü 25-40 m-ə çatan, enli, çətirli, iynəyarpaqlı ağacdır. Ağacın silueti ölkənin milli bayrağında da əks etdirilmişdir.

imperiyasının tərkibinə daxil olur. Romalılar Finikiya şəhərləri və qalalarının yerində Roma üslubunda məbədlər, saraylar tikir, körpülər salır, yollar çəkir. Livanda bu günədək saxlanılan orijinal memarlıq nümunələrinin xarabalıqları Roma işğalı dövrünə aiddir. Eramızın ilk yüzilliklərindən Livanda xristianlıq yayılmağa başlayır. Yeddinci yüzillikdə Livan Yaxın Şərqdə get-gedə qüvvətlənən Ərəb xilafətinin tərkibinə qatılır. Yerli xalqların danışdığı aramey dili ərəb dili ilə əvəz olunur, əhalinin bir hissəsi İslam dinini qəbul edir, digərləri xüsusilə dağlıq bölgələrdə yaşayanlar isə İslama qədərki etiqadlarını (maronizmi)* saxlayırlar.

XIII-XVI yüzilliklərdə Livan Misir məmlüklərinin, 1516-cı ildə isə Osmanlı türklərinin əsarəti altına düşür. Türklər təqribən 400 il əvvəl Livanı öz təsiri altında saxlaya bilmişlər. 1860-cı ildə müsəlman-xristian münaqişəsindən bəhanə kimi istifadə edən Fransa, xristianları müdafiə etmək məqsədilə Livanı işğal edir. Bir ildən sonra İngiltərə və Türkiyənin təzyiqi ilə Fransa öz qoşunlarını Livandan çıxarır. Fransa, İngiltərə, Avstriya, Prussiya, Rusiya və Türkiyə nümayəndələrindən ibarət Beynəlxalq Komissiya ölkəyə muxtariyyət verir və ölkə rəsmi olaraq Livan adlanır.

1918-ci ilin payızında ingilis-fransız qoşunları Livanı yenidən işğal edir. 1920-ci ildə İngiltərə ilə Fransa arasında gizli sövdələşməyə əsasən Livan Fransanın mandatlığı altında idarə olunan dövlətə çevrilir. 1926-cı ilin mayında Livan respublika şəklində idarə olunan dövlət kimi tanınmağa başlasa da konstitusiyaya görə ölkənin xarici siyasəti, milli ordu və müdafiə məsələləri Fransa tərəfindən tənzim olunurdu. Ölkənin müstəqilliyini məhdudlaşdıran konstitusiya maddəsi ləğv olunduqdan sonra 1943-cü il noyabrın 22-də Livan rəsmi olaraq müstəqil respublika elan olunur. O vaxtdan 22 noyabr günü – ölkənin milli bayramı kimi qeyd olunur. Lakin Fransa öz qoşunlarını ölkədən 1946-cı il dekabrın 31-də çıxarır.

XX yüzilliyin ikinci yarısından başlayaraq müstəqil Livanın siyasi həyatında ziddiyətlər daha da kəskinləşir. İstiqlaliyyət qazandığı ilk illərdə Livan hökumətinin yeritdiyi siyasət 1958-ci ildə

* **Maronizm** – dini icmaları V-VII yüzilliklərdə Suriyada və Livanda Şərq xristian kilsəsinin parçalanması nəticəsində yaranmışdır. Dini təlimin əsasını Maron adlı bir şəxs qoymuşdur. Maronitlər ərəb dilində ibadət edirdilər.



xalq üsyanına səbəb olur. Üsyanı yatırmaq məqsədilə Livan prezidenti ABŞ-dan kömək istəyir. Bu isə ABŞ-ın Livanın daxili işlərinə qarışmasına və ölkəyə qarşı təcavüzünə səbəb olur. 1958-ci ildə rəhbərliyə gələn yeni hökumət ölkənin daxili və xarici siyasətində müstəqil istiqamət seçir və İsrail təcavüzünə məruz qalan ərəb ölkələri ilə həmrəy olduğunu bildirir.

1968-ci ildən Livan ərazisində Fələstin müqavimət hərəkatının (FMH) fəaliyyət göstərməsi İsrailin Livana basqını üçün bəhanə olur. 1969-cu ildən 1982-ci ilədək Livanda Fələstin Azadlıq Təşkilatının (FAT) rəhbər orqanları və ordu hissələri yerləşmişdi. 1975-ci ilin aprelində fələstinlilər ilə Livanın sağ xristian qüvvələri arasında baş verən vətəndaş müharibəsi ölkədə kəskin siyasi böhrana səbəb olur. Böyük insan təlafatı və iqtisadi dağıntılarla nəticələnən və 19 ay davam edən hərbi əməliyyatlar, əsasını Suriya qoşunları təşkil edən ərəb ölkələri birgə qüvvələrinin Livana daxil edilməsindən sonra dayandırılır.

1978-ci ilin martında İsrail Livanın cənub rayonlarını işğal edir. Dünya ictimaiyyətinin təzyiqi ilə İsrail qoşunları həmin ilin iyulunda ölkədən çıxarılır və Livanın cənub bölgələrinə, yəni İsrail ilə sərhəd bölgələrinə BMT qoşunu yeridilir. 1982-ci ilin yayında İsrail yenidən Livana qoşun çıxarır və 1985-ci ilə qədər ordu hissələrini Livanda saxlayır. Eni 10 km-ə qədər olan cənub bölgə İsrailin təsiri altında qalır. 1983-cü il mayın 17-də Qərb dövlətləri Livanı İsrail ilə «sülh müqaviləsi» bağlamağa məcbur edir. Bir ildən sonra isə bu müqavilə qüvvədən düşür.

2006-cı ilədək ölkənin cənub ərazilərində sabitlik yaratmaq mümkün olmamışdır. Həmin ərazilərə mərkəzi hökumət nəzarət edə bilmir. Məhz Fələstin muxtariyyətində İsrailin və onun tərəfdarlarının terrorçu təşkilat hesab etdikləri «Hizbulla»nın muxtariyyətinin parlament seçkilərində qalib gəlməsi və Livanın cənubundakı hakim mövqeyi İsraili 2006-cı ilin iyul ayında yenidən Livana hücum etməyə sövq edir. Təqribən 35 gün ərzində ölkənin böyük şəhərləri və «Hizbulla» təşkilatının bütün məntəqələri dağıdılır. BMT-nin sülh məramlı qüvvələrinin Livanın cənub bölgələrində yerləşdirilməsi ilə əlaqədar İsrail – Livan münaqişəsinin qarşısı alınır.

Livan Respublikası 1992-ci ilin 18 sentyabrında Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. Lakin əfsuslar olsun ki, ölkələrimiz arasında iqtisadi münasibətlər geniş inkişaf edə

bilməmişdir.

**Dövlət quruluşu**. Livan parlament şəklində idarə olunan respublika olsa da, siyasi sistemi qeyri-sabitliyi ilə fərqlənir. Sonrakı dəyişikliklərlə 1926-cı ildə qəbul olunmuş konstitusiya qüvvədədir. 1943-cü ildə əldə olunmuş razılaşmaya əsasən dövlət və hökumət rəhbərliyində vəzifələr konfessional (yəni dini icmalar) prinsip əsasında bölünür. Dövlət rəhbəri olan prezident ancaq xristian – maronit ola bilər. Veto hüququna malik olan prezidentin fəaliyyət müddəti altı ildir. Baş nazir sünnü məzhəbli, parlamentin sədri isə şiə məzhəbli müsəlman olmalıdır.

Konstitusiyaya əsasən icraedici hakimiyyət prezidentin əlində cəmlənmişdir. O, Baş nazirlə bərabər ayrı-ayrı nazirləri də təyin edir. İnzibati cəhətdən Livan 5 mühafəzə bölünür. Qanunverici hakimiyyət bir palatalı parlamentə məxsusdur. Parlamentə deputatlar konfessionallıq prinsipi əsasında seçilir. Parlamentin 128 deputatı 4 illik müddətə seçilir. Parlament ölkə prezidentini seçir, onun təqdim etdiyi hökumət üzvlərini təsdiq edir. Hüquq sistemi dini məhkəmələr istisna olmaqla Fransa modeli əsasında qurulmuşdur. Xarici siyasətinin formalaşmasında Suriyanın, İranın, Fransanın rolu böyükdür. Livanda bir neçə siyasi partiya fəaliyyət göstərir. Bunların ən böyükləri Mütərəqqi-Sosialist partiyası; Livan Kommunist partiyası; Ərəb Sosialist Dirçəliş partiyası və başqalarıdır.

Silahlı qüvvələrin sayı 16 mindən 18 minə qədər olan müxtəlif dini təriqətləri təmsil edən ordudan və kiçik (800 nəfərlik), əsasən xristianlardan ibarət hərbi hava (450 nəfərlik) və hərbi dəniz qüvvələrindən ibarətdir. Ordunun heç də hamısı mərkəzi hökumətə sadiq deyil. Ordu əsas etibarilə ABŞ-da, Böyük Britaniyada və Fransada istehsal olunmuş hərbi sursatla təchiz olunmuşdur. Daxili təhlükəsizlik qüvvələrinin böyük hissəsi 1987-ci ildə ordunun tərkibinə daxil edilmişdir. Nizami ordu ilə yanaşı, dini təriqətlərin özlərinin milis qüvvələri də mövcuddur.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

2005-ci ildə Livanda 4,5 mln nəfərin yaşaması qeydə alınmışdır. Bu demoqrafik göstərici ölkədə mövcud olan ayrı-ayrı statistik tədqiqatların nəticələri əsasında əldə edilmişdir. Ölkədə əhalinin ümumi



siyahıya alınması 1932-ci ildə aparılmışdır. Tam və dəqiq olmayan bu siyahıya alınmaya görə o vaxt xristianların (maronitlərin) sayı 792, müsəlmanların sayı 536 min nəfər olmuşdur. Sonrakı illərdə siyahıyaalınma işləri yerinə yetirilməmişdir. Təbii ki, ilk siyahıya alınmadan 75 il keçdikdən sonra ölkədə güclü demoqrafik dəyişikliklər baş vermişdir. Heç kəsdə şübhə oyanmır ki, bu müddətdə müsəlman əhalinin sayı xeyli artmışdır. Ötən əsrin 90-cı illərində əhalinin orta illik təbii artım tempi 7,5 faiz olmuşdur.

Livan əhalisinin 90 faizdən çoxunu ərəblər təşkil edir. Ölkədə Livan (2,7 mln nəfər), Fələstin (600 min) və Suriya (100 min) ərəbləri ilə yanaşı, kürdlər, farslar, ermənilər, çərkəzlər və b. xalqların nümayəndələri yaşayır. Ölkənin rəsmi dövlət dili ərəb dilidir. Livan ziyalıları və burjua nümayəndələri arasında fransız dili geniş yayılmışdır. Livanda 10-dan artıq dini icmalar (müsəlmanlar üçün – sünnü, şiə, druz*, xristianlar üçün – maronit, pravoslav, həmçinin katolik, erməni qriqorian və s.) mövcuddur. Əhalinin 70 faizindən çoxunu müsəlmanlar təşkil edir. Gözlənilən uzunömürlülük 71 ildir. Kişilər üçün – 69, qadınlar üçün – 73 yaşdır. Yaşlı əhalinin təqribən 90 faizi savadlıdır.

Livan urbanizasiya səviyyəsi yaxşı inkişaf etmiş müsəlman ölkələrindən biridir. Dəniz sahili düzənlikdə, Livan dağlarının cənub yamaclarında əhali sıx, Bəqa çökəkliyində isə seyrəkdir. 1978-ci il İsrail təcavüzündən sonra ölkənin cənub rayonlarından Beyrut, Tripoli, Sayda şəhərlərinə əhali axınının təsirilə urbanizasiya genişlənmişdir. Ölkə əhalisinin 80 faizi şəhərlərdə yaşayır. Ən mühüm şəhərləri Beyrut, Tripoli, Sayda, Zəhla, Surdur.

Beyrut əhalisinin sayına (1,5 mln. nəfər, 1998), iqtisadi və mədəni əhəmiyyətinə görə ölkənin ən böyük şəhəridir. Aralıq dənizi sahilində yerləşmiş Beyrut (qədimdə Beruta, Berit adlanırdı), Finikiyanın ticarət və port şəhəri kimi eramızdan əvvəl XVIII yüzillikdən (bəzi mənbələrə görə XV yüzillikdən) məlumdur.

Milli vətənpərvər qüvvələrə və Fələstin Azadlıq hərəkatına qarşı daxili irtica, İsrail və ABŞ hərbiçiləri tərəfindən törədilən

* **Druzlar** – müsəlman dini təriqətlərindən biri. XI əsrin əvvəllərində ismaililər arasında təbliğat aparan Dərazinin (təriqətin adı da buradandır) fəaliyyəti nəticəsində yaranmışdır.

azğınlıqlar nəticəsində (əsasən 1975-76, 1982-83-cü illər) Beyrutun xeyli hissəsi dağıdılmışdır. Finikiya, Roma, Bizans tikililərinin qalıqları, XIII-XVI əsr məscidləri, kilsələr, XX yüzilliyin sonlarındakı dağıntılara qarışaraq Beyrutun xarici görkəmini bir qədər dəyişmişdir.

Ölkənin sənaye müəssisələrinin 70 faizi Beyrut və onun ətrafında cəmlənmişdir. Şəhərdə toxuculuq, yeyinti, gön-dəri, neft emalı, sement, əlvan metallurgiya, metal emalı müəssisələri var. Beyrut ölkənin mühüm nəqliyyat qovşağı, ticarət-maliyyə, mədəni-maarif və turizm mərkəzidir. Şəhərin yaxınlığında beynəlxalq əhəmiyyətli təyyarə limanı fəaliyyət göstərir. Beyrut müasir şəhərdir. Şəhərdə Avropa memarlıq üslubunda tikilmiş çoxmərtəbəli evlər, mehmanxanalar, inzibati binalar köhnə tikililərlə təzad təşkil edir.

### 4. İqtisadiyyatı

Aralıq dənizi sahilində, mühüm yollar kəsilişindəki əlverişli coğrafi mövqeyi Livanı maliyyə bank sistemi inkişaf etmiş bir dövlətə çevirmişdir. 1943-cü ildən hakimiyyət başına gələn milli burjua nümayəndələri şəxsi kapitalın (həm xarici, həm milli) inkişafına meydan açan «Azad iqtisadiyyat» və «Azad bazar*» siyasəti yürütməyə başlayır. Livan biznesmenlərinin Qərb və Şərq arasında həyata keçirdiyi vasitəçilik və maliyyə əməliyyatları ölkənin tranzit-ticarət və turizm mərkəzlərindən birinə çevirmişdi. 1970-ci ilədək bu sahələr ölkənin milli gəlirinin 70 faizini verirdi. 1968-ci ildən sonra Livanın iqtisadiyyatı İsrail təcavüzünə və vətəndaş müharibəsinin dağıntılarına məruz qalmışdır.

Mütəxəsislərin fikrincə, 1996-cı ildən ölkənin ümumi daxili məhsulu artmağa başlamışdır. 1997-ci ildən ümumi daxili məhsulun dəyəri 13,5 mlrd ABŞ dollarına bərabər olmuşdur. İllik artım yüksək olmasa da, onun mövcudluğu mikroiqtisadi sabitlik siyasəti və bərpa prosesinə büdcə ayırmalarının müvəffə-qiyyətlə yerinə yetirilməsi

* **Azad bazar** – dövlətin amiranə-bürokratik müdaxiləsindən azad olunmuş bazar. Azad bazar – bazar qanunlarının tam dolğunluğu ilə, fəaliyyətdə olması, qiymətlərin tələb və təklif arasındakı faktiki nisbətlərinin təsiri altında müəyyənləşdirilməsi, başqa sözlə, inhisarçılığın tam ləğvi ilə və s. səciyyələnir.



ölkənin son onilliklərdəki sarsıntılardan dirçəlməsinə sübutdur. Dirçəlişin bariz nümunələrindən biri də budur ki, Livan iqtisadiyyatı 1997-ci ildə vətəndaş müharibəsinin başa çatdığı 1990-cı il ilə müqayisədə təqribən 70 faiz artmışdır.

2004-cü ildə Livanda ümumi daxili məhsulun həcmi 22,5 mlrd. dollara çatmışdır. Adambaşına düşən rəqəm isə 5 min dollara yaxın olmuşdur. ÜDM orta illik artım tempi 90-cı illərin ortalarında 5,4 faiz, 2004-cü ildə isə təqribən 2 faiz olmuşdur.

Təbii ehtiyatlar baxımından faydalı qazıntıların qətiyyən olmaması və tarixən formalaşmış beynəlxalq vasitəçilik funksiyasının mövcudluğu ölkənin təsərrüfat həyatının istiqamətlərini formalaşdırmışdır. Qabaqcıl mövqelər bunlardır: tranzit, xarici ticarət, nəqliyyat, beynəlxalq bank əməliyyatları və turizm. Ümumdaxili məhsul istehsalında kənd təsərrüfatı, meşəçilik və balıqçılığın payı 12, sənaye sahələrinin payı 21, müxtəlif xidmətlərin payı isə 67 faizdir. Məşğulluq strukturu baxımından iş qabiliyyətli adamların 7 faizi kənd təsərrüfatı, 31 faizi sənaye və 62 faizi isə xidmət sahələrində çalışır.

**Sənayenin aparıcı sahələri**. Neft emalı zavodları Sayda və Tripoli şəhərlərindədir. Bu müəssisələr tranzit kəmərlərə gələn xam neft əsasında işləyir. Mühüm sənaye müəssisələrinin əksəriyyəti Beyrut və onun ətrafında cəmlənmişdir. Bu bölgədə bir neçə toxuculuq müəssisəsi, qənnadı fabriki, alüminiumdan məmulatlar hazırlayan müəssisələr fəaliyyət göstərir. Livanda olan sənaye müəssisələrinin beşdə ikisi yeyinti sənayesinin payına düşür. Bu sahənin ən böyük müəssisələri şəkər, meyvə və tərəvəz konservləri istehsal edən zavodlardır.

Toxuculuq təsərrüfatın ən qədim sahələrindəndir. İpək parçalar yerli, pambıq parçalar isə əsasən Misir və Suriyadan idxal olunan xammaldan istehsal olunur. Beyrut və Tripoli yaxınlığında sement zavodları var. İdxal olunan hissələrdən hazır məmulatlar, məsələn, elektrik motorlar, soyuducu, televizor və s. yığılır.

Maliyyə sistemi və turizm Livan iqtisadiyyatının inkişaf etmiş sahəsi olub, Beyrut Yaxın Şərqdə ən iri maliyyə-bank mərkəzlərindən biri hesab olunur. 2002-ci ilədək Beyrutda 70 kommersiya bankı fəaliyyət göstərirdi. Sonradan ölkənin siyasi həyatının qeyri-sabitliyi üzündən həmin bankların böyük bir qismi Bəhreyn paytaxtı Manama və Küveyt paytaxtı Əl-Küveytə köçürüldü.

Livanın bəyaz qumlu dəniz sahilləri, həmişəyaşıl meşələrlə örtülü dağları, maraqlı təbii abidələri, tarixi memarlıq nümunələri və xidmət sahəsinin nümunəvi təşkili ölkəni beynəlxalq səviyyəli turizm mərkəzinə çevirmişdir. Lakin həm maliyyə-bank sisteminin, həm də beynəlxalq turizmin inkişafı Livanın özünün və Yaxın Şərqin siyasi vəziyyətindən çox asılıdır.

Sənaye sahələri əsasən əhalinin ərzağa, geyimə, yanacağa, ev ləvazimatına olan tələbatının ödənilməsinə yönəldilmişdir.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Livanda işləmək qabiliyyəti olanların təqribən 7 faizi iri torpaq sahibkarlığı üstünlük təşkil edən kənd təsərrüfatı sahələrində çalışır. Ölkədə təqribən 400 min ha sahə becərilir. Bunun dörddə biri suvarılır. Sitrus meyvələri, alma, zeytun və tərəvəz yetişdirilməsi nisbətən yaxşı inkişaf etdirilmişdir. Üzümçülük və tütünçülüyün də rolu az deyil. Hər il orta hesabla 330-360 min ton sitrus meyvələri (əsasən portağal və limon), 200 min ton alma, 40 min ton zeytun yığılır.

Əldə olunan məhsulun xeyli hissəsi qonşu Ərəb və Avropa ölkələrinə ixrac olunur. Dənli bitkilərdən arpa, buğda, texniki bitkilərdən şəkər çuğunduru və tütün əkinləri üstünlük təşkil edir. Heyvandarlıq kənd təsərrüfatının geri qalmış sahəsidir. Quşçuluq və balıqçılıq nisbətən inkişaf etmişdir.

Yerli əhalinin qida rasionunun əsasını buğda, paxlalı bitkilər və tərəvəz təşkil edir. Ərzaqla özünü təminat təqribən 30 faiz həddindədir.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** Livanda avtomobil nəqliyyatı nisbətən yaxşı vəziyyətdədir. Şosse yollarının uzunluğu təqribən 6700 km-dir. Vətəndaş müharibəsi başqa sahələrdə olduğu kimi yol təsərrüfatına da böyük ziyan vurmuşdur. Livandan avtomobil yolu ilə Suriyaya, İsrailə getmək mümkündür. Ölkədə dəmiryollarının uzunluğu çox deyil (cəmi 222 km).

Qonşu ərəb ölkələrindən çıxarılan neftin bir qismi boru kəmərləri vasitəsilə Livan portuna gəlib çıxır. Beyrut, Tripoli və Sayda ölkənin ən böyük dəniz portları və magistral neft kəmərlərinin son nöqtələridir. Hava nəqliyyatına «Midl end eyrlayn» şirkəti nəzarət edir.

**Turizm.** Livan iqtisadiyyatında özünəməxsus yer tutur. 2003-cü ildə Livana təqribən 800 min xarici turist gəlmişdir. Turizmdən gələn gəlir təqribən 1,0 mlrd. həcmində olmuşdur. Livan ənənəvi



turizm ölkəsidir. İkinci Dünya müharibəsindən sonra valyutaların sərbəst mübadiləsi, sadələşdirilmiş gömrük qaydaları, həmçinin qonşu ölkələrlə müntəzəm rabitə sayəsində turizm sahəsindən gələn gəlirlər 1950-1975-ci illərdə on dəfədən çox artmışdır. Sonrakı illərdə ölkədəki silahlı qarşıdurmalar və iri mehmanxanaların dağıdılması nəticəsində turizm tənəzzülə uğramışdır. 1990-cı illərin ortalarından Livan iqtisadiyyatındakı turizm sektorunun mövqeləri qismən bərpa olunmuşdur. 2005-ci ildə ölkəyə gələn turistlərin sayı 1,1 mln, turizmdən əldə olunan gəlir isə 5,4 mlrd. dollar təşkil etmişdir.

Bu göstəricilər daha yüksək ola bilərdi. Lakin ölkə ərazisindəki qeyri-sabitlik turizmin daimi inkişafını məhdudlaşdırır.

**Xarici ticarət.** Ölkə iqtisadiyyatında xarici ticarət xüsusi əhəmiyyət kəsb edir. Dövlətin xarici siyasəti tərəfdaşların diversifikasiyasına və xarici investisiyaların cəlb edilməsinə yönəlmişdir. Mal ixracatının həcmi 2005-də 1,5 mlrd. dollar, idxal həcmi 7 mlrd. dollar olmuşdur. İxracat strukturunda əsasən meyvə və tütün (20 faiz), toxuculuq məmulatı (12 faiz), elektrik avadanlığı (10 faiz), zərgərlik məmulatları (10 faiz), kağız (8 faiz), dərmanlar və parfümeriya yer alır. İdxalın üçdə bir hissəsini ərzaq, dörddə bir hissəsini maşın və avadanlıq təşkil edir. Kütləvi istehlak malları, kimyəvi məhsullar və yanacaq idxal strukturunda üstünlük təşkil edir. Xarici ticarətdə əsas tərəfdaşları Avropa İttifaqı ölkələri, ABŞ və Fars körfəzi ölkələridir. Ölkənin pul vahidi - Livan funtudur.

**Maliyyə sistemi.** Hökumətin ən mühüm vəzifələrindən biri Livana məxsus olan Yaxın Şərq regionunun maliyyə və investisiya mərkəzi rolunun bərpasıdır. Lakin ölkənin maliyyə bazarı hazırkı vaxtadək olduqca passivdir və az sayda bağlanmış sazişlər həddindədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində dağıdılmış iqtisadiyyatın bərpası dövlət borcunun artması hesabına aparılırdı. Xarici borc 2003-cü ildə 28 mlrd. dollara çatmışdır.

Büdcə-maliyyə adaptasiyası proqramına müvafiq olaraq 1999-2003-cü illərdə büdcənin gəlir hissəsini kəskin şəkildə artırmaq nəzərdə tutulurdu. Bu dövlət müəssisələrinin özəlləşdirilməsi, vergi tutmada yükləmə, sosial ödəniş məsrəfinin ixtisarı və xaricdə çalışan Livan vətəndaşlarının qazancları hesabına keçirilməli idi.

2003-cü ildə birbaşa xarici investisiyaların məbləği 1,0 mlrd. dollara çatmışdır. 2000–2005-ci illərdə ölkə iqtisadi kömək qismində

3,5 mlrd. dollar almışdır. 2005-ci ildə xarici borc 9,3 mlrd dollar həddinə çatmışdır.

# MİSİR ƏRƏB RESPUBLİKASI*

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe**. Misir iki qitədə Afrikanın şimal-şərqində və Asiyanın cənub-qərbində Sina yarımadasında yerləşir. Ərazisinin təqribən 3 faizi Asiyada, qalanı isə Afrikadadır. Bu hissələri bir-birindən Süveyş kanalı** ilə kəsilmiş Süveyş bərzəxi birləşdirir. Süveyş kanalı Afrika ilə Asiya arasında şərti coğrafi sərhəddir. Misirin ərazisi 1,0 mln. kv.km-dir. Konfiqurasiyasına görə ərazi düzbucaqlı kvadrata bənzəyir. Bu kvadratın hər hansı bir tərəfinin uzunluğu 1000 km-ə yaxındır.

Misir qərbdən Liviya, cənubdan Sudan, şimali-şərqdən İsrail və BMT-nin Fələstin ərəb dövləti üçün ayırdığı ərazi ilə həmsərhəddir. Ölkə şimalda Aralıq, şərqdə Qırmızı dənizlərin suları ilə əhatələnir. Misirin mühüm dəniz və hava yolları kəsilişində yerləşməsi onun geosiyasi mövqeyinin üstünlüyüdür.

**Səth quruluşu və faydalı qazıntıları**. Atlantik okeanından Fars körfəzinə qədər uzanmış Böyük Səhra – Ərəbistan geoloji plitəsinin üzərində yerləşmiş Misirin relyefi orta hündürlüyü 300-1000 m arasında olan yaylalardan ibarətdir. Nisbətən hündür dağlar Sina yarımadasındadır. Ölkənin cənubundan şimalına Nil çayı uzanır.

Nil çayından qərbdə səthi əsasən daşlı və çınqıllı olan Liviya səhrası yerləşir. Ölkə ərazisinin təqribən 70 faizini təşkil edən bu səhranın qərb tərəfinin səthi qumlarla örtülüdür. «Qum dənizi» adlanan ən böyük qum yığımı ölkənin qərb sərhəddindən şimali-qərb və şərq sərhədlərinə qədər uzanır.

---

* Ərəbcə adı Cumhuriyyət Misir əl-Arabiyyədir.
** **Süveyş kanalı** şlüzü olmayan gəmiçilik kanalıdır. 1869-cu ilin 11 noyabrından fəaliyyət göstərir. Uzunluğu 161 km, eni 130-150 km-dir. Gəmilər kanaldan 11-12 saata keçir. Kanal dünyanın bütün ölkələri üçün açıqdır. Atlantik okeanından Hind okeanına ən qısa su yolu Süveyş kanalından keçir.



Nil çayından şərqə doğru Ərəbistan səhrası yerləşir. Bu səhranın Misir ərazisində orta hündürlüyü 300-700 m. arasındadır. Bu səhrada onlarca vadiyə rast gəlmək olar.

Sina yarımadası səthinin əksər hissəsini Ət-Təhrif yaylası tutur. Səthinin çox hissəsi daşlı olan yaylanın hündürlüyü Aralıq dənizinə tərəf açılır. Yarımadanın cənub hissəsində qədim kristallik çöküntülərdən ibarət orta hündürlüklü dağlar yerləşmişdir. Ölkənin ən hündür nöqtəsi olan Cəbəl-Katrin (2637 m.) dağı buradadır. Yarımadanın qərb hissəsindən Süveyş kanalı keçir.

Misirin Aralıq dənizi sahili bölgəsi təbii buxtalarla, demək olar ki, parçalanmamışdır. Ölkənin böyük dəniz limanları olan İsgəndəriyyə və Port-Səid süni yaradılmış buxtalar ətrafında salınmışdır. Qırmızı dənizin Misir sahilləri, demək olar ki, başdan-başa mərcan rifləri ilə örtülmüşdür.

Nil vadisi və Nil deltasının Misirin təbiətində özünəməxsus yeri var. Nil vadisi uzunluğu 1500 km, orta eni 10 km və ətrafı səhralardan ibarət olan böyük bir oazisdir. Ölkənin cənubunda dərə bir qədər ensiz, şimalında isə əksinə bir qədər enlidir. Nil dərəsi şimalda Nil deltasına keçir. Səthi çay gətirmələrindən ibarət deltanın cənubdan şimala uzunluğu 175 km, qərbdən-şərqə isə 220 km-dir. Sahəsinə görə (22 min kv.km) Nil deltası dünya deltaları içərisində böyüklərindən biridir.

Misir müxtəlif faydalı qazıntılarla təmin olunmuş ölkələrdəndir. Sina yarımadasında, əsasən onun cənub-qərb hissəsində və Qırmızı dənizin sahil bölgələrində polimetal filizlər və gips aşkar olunmuşdur. Süveyş kanalının qərb sahilində və Liviya səhrasının şimal hissəsində neft yataqları var. Həm Ərəbistan, həm də Liviya səhralarında dəmir filizi və məhdud halda qızıl yataqlarının olması məlumdur. Sinanın dağlıq bölgəsində volfram, qızıl və mis yataqları var. Səhralarda qiymətli tikinti materiallarına da rast gəlmək olar. Bunlardan başqa ölkənin müxtəlif yerlərində fosforit, xörək duzu, kömür yataqları da aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Aralıq dənizi sahil zolağı istisna olmaqla ölkənin iqlimi kontinental tropikdir. Bütün ərazi üçün havanın quru və az buludlu olması səciyyəvidir. Yağıntıları çox azdır. Orta eni 30-40 km olan Aralıq dənizi bölgəsində isə xüsusi iqlim tipi formalaşıb. Bu zolaqda yaz və yay ayları quraq və isti, payız və qış isə mülayim və rütubətli keçir.

Ölkənin şimalından cənubuna getdicə havanın temperaturu artır, yağıntıların miqdarı azalır. Aralıq dənizi bölgəsində orta illik temperatur müsbət 20 dərəcə olduğu halda, Nilin orta axarında bu rəqəm 22-yə, cənubunda isə 26 dərəcəyə bərabərdir. Paytaxtda yay aylarında hava 30-35 dərəcə qızdığı halda, gecələr 0 dərəcəyədək çatır. Ümumiyyətlə, Misirdə sutkalıq temperatur amplitudu yüksəkdir. Səhrada gündüz temperatur 50 dərəcəyədək yüksəlir, gecə isə 0 dərəcəyə enir. İnsan səhhəti üçün əlverişli olmayan belə iqlim şəraiti səth örtüyünün dəyişməsinə də təsir göstərir. Belə ki, temperaturun kəskin dəyişməsi ilə səhralarda olan qayalarda çatlar əmələ gəlir. Küləklərin təsiri ilə qayalardan qopan qırıntılar ətraf sahələrə yayılır. Güclü küləklər səhranı yumşaq qum örtüyündən məhrum edir və çökəkliklərin yaranmasına səbəb olur. Misirdə ilin ən isti ayları avqust, sentyabrdır. Bu aylarda əraziyə, demək olar ki, yağış yağmır.

Misirdə iqlimin formalaşmasında daimi əsən küləklərin də rolu böyükdür. Yaz aylarında burada 50 gün sərasər xəmsin küləkləri əsir. Bu küləklər başlamamışdan əvvəl üzücü istilər başlayır, sonra isə güclü külək qum fırtınaları yaradır və toz buludu əmələ gəlir. Gündüz çox vaxt hava qaralır, yollarda gediş-gəliş çətinləşir, mütləq rütubət aşağı düşdüyündən nəfəs almaq belə ağırlaşır. Əkin sahələri qum və tozla örtülür, ağacların yarpaqları büzüşür və quruyur. Bəzi bitkilər isə tamamilə məhv olur.

Misirdə yağışlar əsasən dekabr və yanvar aylarında düşür. Ən çox yağıntı Nil deltasının qərb tərəfinə düşür. Ölkəyə orta hesabla bir ildə 180 mm yağıntı düşür. Məsələn, Qahirə şəhərinə il ərzində 30-35 mm, cənubda yerləşmiş Asuan şəhərinə isə cəmi 3-5 mm yağış düşür. Ölkənin daxili rayonlarında isə yağmursuz keçən illər tez-tez müşahidə edilir.

Yağışlar əsasən leysan şəklində düşdüyündən Nil deltasında bərk örtüyü olmayan yolların müvvəqqəti sıradan çıxmasına səbəb olur. Dağlıq ərazilərdə, xüsusilə Sina yarımadasdındakı dağlara qar yağsa da qar örtüyü çox davamsız olur.

**Daxili sular.** Ölkənin daimi axara malik çayı və əsas su mənbəyi Nildir. Nil[*] çayı Misirin iqtisadi həyatında xüsusilə

[*] **Nil çayını** misirlilər Əl-Bəhr adlandırır. Nilin uzunluğu 6671 km-dir.



əhəmiyyətlidir. O, suvarmada, əhalinin içməli su ilə təminatında əsas mənbə olmaqla yanaşı, həm də mühüm nəqliyyat yoludur. Nil vadisi və deltası hələ qədim dövrlərdən əhalinin məskunlaşdığı ərazilər olmuşdur. Ölkənin bütün əhalisi və təsərrüfat yolları burada cəmlənmişdir. Nildə daşqınlar yay-payız mövsümünə təsadüf edir. Axımı nizama salmaq məqsədilə Nil və onun qolları üzərində iri bəndlər (Köhnə Asuan, Yüksək Asuan), SES-lər (Asuan, Əl-Fəyyum) tikilmişdir.

Yüksək Asuan bəndi tikildikdən sonra ölkənin cənubunda nəhəng su anbarı yaradılmışdır. Bəndlərlə yanaşı suvarma kanalları çəkilmişdir. İsmailiyyə, Əl-Mahmudiyyə, Yusif, İbrahimiyyə və digər kanalların ümumi uzunluğu 35 min km-dən çoxdur. Yerüstü sulardan müvəqqəti axınların-vadilərin əhəmiyyəti böyükdür. Dağlara düşən yağıntılardan sonra bu vadilər su ilə dolur. Köçərilər bu suları süni hovuzlara toplayır, ondan həm məişətdə, həm də kiçik sahələrin suvarılmasında istifadə edirlər. Yağmursuz illərdə vadilər tamamilə quruyur.

Ölkənin səhra rayonlarında qrunt sularının əhəmiyyəti misilsiz dərəcədədir. Misir zəngin yeraltı su ehtiyyatlarına malikdir. Nildən qərbdə Liviya səhrasında «yeraltı Nil»in olması ehtimalı təsadüfi deyildir. Lakin yeraltı sulardan hələ lazımi səviyyədə istifadə olunmur. Bu sular həm təbii, həm süni yolla səthə çıxır. Yeraltı sulardan Hərqa, Dəhlə, Fərəfra, Bəhariyyə, Siva və digər sa- hələrdə geniş istifadə olunur. Nil vadisi, Ərəbistan səhrası və Sina yarımadasının bəzi quraq rayonlarında da yeraltı suların əhəmiyyəti böyükdür.

**Torpaq və bitki örtüyü.** Ərazisinin çox yerində şoran, Nil vadisi və deltasında, həmçinin vahələrdə allüvial torpaqlar yayılmışdır. Nil vadisi və deltasının torpaqları Nilin Efiopiya yayla-

O, Afrikanın beş ölkəsinin, o cümlədən 1,5 min km məsafədə Misirin ərazisi ilə axır. Nilin dərəsi Asuandan Qahirəyə qədər olan sahədə 20-25 km-dir. Qahirə şəhərindən şimala Nilin deltası başlayır. Delta 22-24 min kv. km sahəni əhatə edir. Çoxlu qollar və göllərlə parçalanır, sahilboyu ilə İsgəndəriyyədən Port-Səid şəhərinədək 260 km məsafədə uzanır. Nilin məcrası ondan artıq qola ayrılır. Gəmiçiliyə yararlı ən mühüm qolları şərqdə Dilat, qərbdə isə Pəşiddir. Nil suyunun bir hissəsi İbrahimiyyə kanalı və Yusif qolu vasitəsilə Birget-Harun gölünə axıdılır və həmçinin Fəyyum vahəsinin suvarılmasına sərf edilir.

sından gətirdiyi dağ süxurlarının qırıntılarının çökməsi nəticəsində formalaşmışdır. Bu torpaqların tərkibində dəmir, alüminium, kalsium, maqnezium elementləri çoxdur. Bunlardan başqa torpağın tərkibində bitkilərin inkişafı üçün böyük əhəmiyyətə malik fosfor turşusu, kalium kimi duzlar da vardır. Nil vadisi və deltasında torpağın formalaşmasına insanlar da böyük təsir göstərmişdir. Əsrlər boyu bu ərazilərdə əkinçiliklə məşğul olunduğundan torpaq təbii münbitliyini itirmişdir. Süni gübrələrdən geniş istifadə olunur. Bu isə Nil vadisi və deltasında müxtəlif – sarı-boz, səhra, karbonatlı, gilli-boz və digər torpaq növlərinin yaranmasına səbəb olmuşdur.

Misirdə mədəni bitki örtüyünə Nil vadisi və deltasında və vahələrdə rast gəlmək olar. Aralıq dənizi sahilboyu zonasında ağot (ceyranotu), gəvən, dəvətikanı, itburnu geniş yayılmışdır. Qışda efemerlərdən süsən, lalə, qaymaqçiçəyi, nərgizgülü çiçəklənərək səhranın həyatsız simasını tamamilə dəyişdirmişdir. Sahilboyu zonadan cənubda Liviya səhrasında kserofit kol bitkiləri yayılmışdır. Qırmızı dəniz sahilində şora kol bitkisi üstünlük təşkil edir. Nil vadisi və deltasında təbii bitki örtüyünə yalnız deltanın şimalındakı göllər rayonunda rast gəlmək olar.

Misir hökuməti təbiətin mühafizəsinə, ekoloji tarazlığın pozulmamasına diqqətlə yanaşmağa çalışır. Aralıq və Qırmızı dənizin sahil bölgələrində milli parklar salınmış, nadir fauna və flora nümunələrini qorumaq üçün yasaqlıqlar yaratmışdır. Səhra landşaftı ekoloji baxımdan tez pozulan bir landşaft olduğundan onlara da xüsusi fikir verilir. Amma vəsaitin və mütəxəsislərin çatışmaması səbəbindən bu işlər o qədər də səmərəli aparılmır.

### 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi. Azərbaycan Respublikası ilə münasibətləri

Misir dünyada bəşəri sivilizasiya ilə bağlı ən qədim dövlətlərdən biridir. E.ə Yuxarı və Aşağı Misir şahlıqları yaranmışdır. Bu şahlıqlar dövründə irriqasiya sistemləri yaradılmış, daş və misdən hazırlanmış alətlər bir qədər də təkmilləşdirilmişdir. E.ə III minillikdə Nil vadisinin ilk quldar dövlətləri fironların (Faraon) hakimiyyəti altında mərkəzləşmiş vahid dövlətdə birləşmişdir.

Şahlıqları idarə edən fironlar özləri üçün nəhəng ehramlar (piramidalar) tikdirir. Müharibələrdə əsir alınmış qullar tərəfindən tikilmiş Heops, Hefren ehramları, daşdan yonulmuş şir heykəlləri və b.



abidələrin qalıqları indiyə qədər qalmaqdadır. Hər il dünyanın müxtəlif yerlərindən on minlərlə turist bu qədim abidələri görmək üçün Misirə səyahət edir. Misirin əlverişli coğrafi mövqeyi və sərvətləri onun müxtəlif dövrlərdə işğalçı dövlətlər tərəfindən zəbt olunmasına səbəb olmuşdur.

Bizim erayadək Misir assuriya, fars, yunan və b. işğalçı dövlətlərin təsiri altında olmuşdur. VII yüzilliyin əvvəllərinə yaxın Misirdə yaşayan qibtilər xristianlığı qəbul edirlər. 639-cu ildə Misirə Ərəbistan yarımadasından ərəblər gəlməyə başlayır. 640-641-ci illərdə ərəb qoşunları Misirdəki Bizans ordusunu darmadağın edir və ölkədə onların hakimiyyətinin möhkəmlənməsinə mane olur.

Sonradan Misir ərəb xilafətinin tərkibinə qatılır və paytaxt İskəndəriyyə şəhərindən Fustata köçürülür. Bu da ökldə ərəbləşmə və islamlaşma prosesinin sürətlə getməsinə şərait yaradır. 969-cu ildə Misir Fatimilər sülaləsindən olan xilafətinin başçılıq etdiyi İsmaillilər tərəfindən zəbt edilir. Misir o vaxt geniş əraziləri zəbt etmiş Fatimilər xilafətin mərkəzinə çevrilir. Fatimilər xilafəti dövründə Misirin iqtisadi və siyasi qüdrəti xüsusilə artır.

XI yüzilliyin ortalarında Fatimilər xilafəti dağılmağa başlayır. Əvvəlcə Məğrib (Qərb) ölkələri Misirdən ayrılır. Həmin vaxtda Yaxın və Orta Şərqdə Səlcuqlar sülaləsinin hakimiyyəti qüvvətlənir. Onlar qısa müddətdə Suriya, Fələstin, Dəməşqi zəbt edirlər. XI yüzilliyin sonu XII yüzilliyin əvvəllərində səlibçilər (xaçpərəstlər) Suriya və Fələstinin sahil rayonlarını, Yerusəlimi zəbt edir. Misirə ardıcıl hücum edərək Tinnis, İsgəndəriyyə şəhərlərini dağıdır, Qahirəni mühasirəyə alırlar. 1171-ci ildə Fatimilər xilafəti Misirdə hakimiyyəti ələ keçirmiş Əyyubilər tərəfindən dağıdılır, xilafətin sosial-iqtisadi və siyasi strukturunu ləğv edir.

1250-ci ildə Misirdə hakimiyyəti məmlüklər ələ keçirir. 1517-ci ildə türk sultanı I Səlim Misiri işğal edərək məmlüklərin* hakimiyyətinə son qoyur və ərazini Osmanlı imperiyasının tərkibinə qatır. Bundan sonra Misirdə torpaqların bir hissəsi Qahirədəki türk padşahına xərac vermək şərti ilə məmlük feodallarının əlində qalır.

* **Məmlüklər** – Əyyubilər sülaləsinin (1171-1250) seçmə qoşun dəstələrini təşkil etmiş döyüşçü qullar. Məmlüklər Misirdə yaşayan türk, gürcü, çərkəz və Qafqaz xalqlarının digər nümayəndələri olmuşdur.

1798-ci ildə fransız ordusu Misiri işğal edir. Lakin 1801-ci ildə fransızlar İngiltərə – Türkiyə qoşunlarına təslim olur və Misirdə Osmanlı imperiyasının hökmranlığı bərpa olunur.

XVII yüzilliyin sonu Osmanlı imperiyası zəiflədikdən sonra məmlüklər Misirdə öz hökmranlığını bərpa edir və məmlük hakimi Əli bəyin başçılığı ilə müstəqil dövlət yaradılır. 1808-ci ildə Misir hakimi Məhəmmədəli paşa islahatlar həyat keçirməklə Misiri qüvvətli dövlətə çevirmək məqsədini qarşıya qoyaraq ixracat əhəmiyyətli kənd təsərrüfatı və eləcə də sənayenin bəzi sahələrini inkişaf etdirir.

XIX yüzilliyin 30-cu illərində Misirə xarici kapital axını güclənir. Fransa və İngiltərə Misirin milli bazarlarını tədricən ələ keçirməyə başlayır və ölkədə xaricilərə məxsus müəsisələr yaradılır. Qərbi Avropa şirkətlərinin fəaliyyəti ilə nəqliyyat-rabitə şəbəkəsi, dəniz limanları, Süveyş kanalı inşa edilir. 1882-ci ildə İngiltərə öz ordularını Misirə yeridir, ingilis ordusu ölkəni zəbt edərək onu öz müstəmləkəsinə çevirir. Lakin Misir formal olaraq Osmanlı imperiyasının tərkibində qalır. Uzun illər ölkə İngiltərənin hərbi-siyasi nəzarəti altında olur. Lakin xalqın müstəmləkəçiliyə qarşı getdikcə güclənən mübarizəsi rəsmi Londonu 1922-ci ildə Misirin müstəqilliyini formal olaraq tanımağa məcbur edir. Əslində isə XX yüzilliyin ortalarına qədər Böyük Britaniya Misir üzərində özünün hərbi-siyasi və iqtisadi nəzarətini saxlayırdı.

II Dünya müharibəsində Böyük Britaniya Misirin ərazisindən, təbii ehtiyatlarından və ordusundan Liviyada İtaliya-Almaniya qoşunlarına qarşı hərbi əməliyyatlar üçün istifadə edir. Müharibə illərində ölkədə inqilabi və demokratik meylli qüvvələr artır. Misir burjuaziyası qüvvətlənir, milli şirkətlər yaranır. Müharibədən sonrakı illərdə milli-azadlıq hərəkatı tamamilə yeni xarakter aldığından 1948-ci ilin mayında ölkədə hərbi vəziyyət elan olunur. Kommunistlər və demokratik qüvvələr təqib olunur və həbsə alınır.

Daxili siyasi vəziyyətin kəskinləşməsi şəraitində hərbçi Camal Əbdül Nasirin rəhbərliyi ilə «Azad zabitlər» gizli təşkilatı 1952-ci il iyulun 23-də ölkə-də inqilabi çevriliş edir, kral taxt-tacdan əl çəkərək ölkəni tərk edir. 1953-cü il iyulun 18-də Misir respublika elan olunur. Üç ildən sonra isə respublikanın ilk konstitusiyası qəbul edilir və C.Ə.Nasir ölkənin prezidenti seçilir. Ölkədə mütərəqqi sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsinə başlanılır.



1956-cı ilin iyulunda ingilis ordusu Misirdən çıxarılır və Süveyş kanalı milliləşdirilir. Kanal milliləşdirildikdən sonra Böyük Britaniya, Fransa və İsrail Misirə qarşı hərbi təcavüzə başlayır. Bir sıra sülhsevər dövlətlərin köməyi ilə Misir xalqı tezliklə bu təcavüzü dəf edir.

1958-ci ildə Misir və Suriya birləşir və Birləşmiş Ərəb Respublikası adlanan dövləti təsis edirlər. 1961-ci il sentyabrın 1-də onlar yenidən müstəqil dövlətlərə ayrılırlar. 1967-ci ildə qonşu ərəb ölkələri və Misir yenidən İsrailin təcavüzünə məruz qalır.

C.Ə.Nasirin vəfatından sonra (sentyabr, 1970) onun müavini Ənvər Sədat prezident seçilir. Başda Ə.Sədat olmaqla Misir hökuməti rəhbərləri 1974-cü ildə ölkədə siyasi və iqtisadi böhranın yaranmasına səbəb olan «İqtisadiyyatın liberallaşdırılması», «açıq qapılar» və s. adlar altında imperialist dövlətlərə yaxınlaşmaq siyasəti yürütməyə başlayır. 1978-ci ildə Misir ABŞ-ın vasitəçiliyi ilə İsraillə Kemp-Devid sövdələşməsini, 1979-cu ildə isə seperat sülh müqaviləsini imzalayır. Bu hadisədən sonra Ərəb ölkələri (Sudan və Omandan başqa) Misirlə diplomatik münasibətlərini pozur, onunla siyasi və iqtisadi əlaqələrdə uzaqlaşmağa səy göstərirlər. Misirin Afrika Birliyi Təşkilatı və digər regional təşkilatlarda iştirakı qadağan olunur.

Ə.Sədat sabiq SSRİ və digər dövlətlərlə münasibətlərini məhdudlaşdırmağa başlayır. Hakimiyyətdə olduğu son dövrdə həm sol, həm də sağ müxalifətçi qüvvələrə qarşı cəzanı qüvvətləndirir, nəticədə müsəlman ekstre-mist təşkilatlarının üzvləri tərəfindən 1981-ci il oktyabrın 6-da öldürülür.

Prezident Hüsnü Mübarək hakimiyyətə gəldikdən sonra (1981-ci il, oktyabr) xarici və daxili siyasətdə bəzi dəyişikliklər edilir. Müxalifətçi partiyaların (kommunist partiyası istisna olmaqla) fəaliyyətinə icazə verilir, müxalifətçilərin əksəriyyəti həbsdən azad edilir. Bununla belə Misirin yeni rəhbərləri Kemp-Devid sövdələşməsinə sadiq qaldıqlarını bildirirlər. Sina yarımadasından İsrail qoşunları çıxarılır (1982, aprel).

Misirin Ərəb ölkələri və digər dövlətlərlə pozulmuş münasibətləri H.Mübarəkin prezidentliyi dövründə yenidən bərpa olunur.

**Dövlət quruluşu.** Dövlət quruluşuna görə Misir unitar respublikadır. 1971-ci il konstitusiyası (1980-ci ildə dəyişikliklər

etməklə) qüvvədədir. Dövlət başçısı referendum yolu ilə 6 il müddətinə seçilən prezidentdir. Prezidentin yenidən seçilmə hüququ qeyri-məhduddur. Onun namizədliyini xalq məclisi tərəfindən irəli sürülür. Prezidentin səlahiyyət hüquqları genişdir. O, konstitusiya və qanunlara riayət olunması, milli birliyin qorunmasına nəzarət edir, fövqəladə vəziyyət və müharibə elan edir, milli müdafiə şurası və Ali hakimiyyət şurasının sədri funksiyasını yerinə yetirir, özünün müavinini, baş nazir və hökumət üzvlərini təyin edir, nazirlər şurası ilə birlikdə dövlətin ümumi siyasət xəttini müəyyən edir və onun həyata keçirilməsinə nəzarət edir. 2005-ci ildə Məhəmməd Hüsnü Mübarək 5-ci dəfə prezident seçilmişdir.

Ali qanunvericilik birpalatalı Xalq Məclisinə, Ali icraedicilik isə Baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Parlamentin 10 üzvünü, Nazirlər Şurasını prezident təyin edir. Ölkənin milli bayramı 23 iyul günüdür (İnqilab günü, 1952-ci ildən qeyd olunur).

Misir onlarca beynəlxalq, regional, siyasi və iqtisadi təşkilatların üzvüdür. O, 1945-ci ildən BMT-nin, 1958-ci ildən Ərəb Dövlətləri Liqasının, 1963-cü ildən Afrika Ölkələri Birliyinin, 1970-ci ildən İslam Konfransı Təşkilatının üzvüdür. Ölkə inzibati cəhətdən 26 əyalətə (mühəffəzə) bölünür.

Misirdə çoxpartiyalı sistem mövcuddur. 1978-ci ildə yaradılmış və prezident Hüsnü Mübarəkin rəhbərlik etdiyi Xalq Demokratik Partiyası – hakim partiyadır. O, iri torpaq sahibləri, sənaye-ticarət nümayəndələri, dövlət aparatında yuxarı təbəqənin və ziyalıların mənafeini müdafiə edir. 1952-ci il inqilabadək fəaliyyətdə olan «Vəfd» partiyasının əsasında 1984-cü ildə yaradılan «Yeni Vəfd» partiyası iri və orta sənaye-ticarət nümayəndələri və torpaq sahibkarlarının marağını müdafiə edir. Ölkədə Sosialist Zəhmətkeşlər Partiyası, Milli Mütərəqqi Partiya, Liberallar Partiyası və başqa təşkilatlar fəaliyyət göstərir. 1929-cu ildə yaradılmış Müstəqil Qardaşlar, dini-siyasi təşkilatı gizli fəaliyyət göstərir.

**Azərbaycan Respublikası ilə münasibətlər.** Azərbaycan Respublikasının Yaxın və Orta Şərq ölkələri ilə əlaqələrində Misir Ərəb Respublikası xüsusi yer tutur. Bu ölkə ilə Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci il martın 27-də yaradılmış və 1993-cü ilin martında Bakıda Misirin səfirliyi açılmışdır. Misirin region və İslam dünyasında rolunu və nüfuzunu nəzərə alan Azərbaycan



Respublikası hökuməti 1994-cü ilin sentyabrında Misirdə öz səfirliyini açmışdır.

İki ölkə rəsmiləri arasında keçən müddətdə bir sıra qarşılıqlı səfərlər həyata keçirilmiş və çoxsaylı dövlətlərarası və hökumətlərarası müqavilələr bağlanmışdır.1992-2005-ci illərdə iki dövlət arasında ikitərəfli və çoxtərəfli əlaqələr kifayət qədər intensiv olmuşdur.

1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının prezidenti H.Əliyev BMT-nin əhali və inkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir prezidenti H. Mübarəklə keçirilən görüş Azərbaycan-Misir münasibətlərinin möhkəmləndirilməsində və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük rol oynamışdır.

2002-ci il oktyabrın 3-də Azərbaycan Respublikasının prezidenti H.Əliyev Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında hökumətlərarası iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə müştərək komissiyaların yaradılması haqqında sərəncam imzalanmışdır.

Müasir dövrdə informasiya mübadiləsinin mühüm əhəmiyyətini nəzərə alaraq Misir ilə Azərbaycan arasında mətbuat-informasiya mübadiləsinin yaxşılaşdırılması barədə müqavilə imzalanmışdır. Misir-Azərbaycan əlaqələrinin mühüm formalarından biri də ticarətdir. Azərbaycandan Misirə yeyinti, elektrotexnika məhsulları ixrac edilir, idxalatın həcmi ixracatdan yüksəkdir. Misirdən respublikamıza çoxçeşidli məhsullar gətirilir.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Dünyada az ölkə tapılar ki,onun əhalisi əsasən bir etnosdan ibarət olsun. Əhalinin etnik tərkibinə görə misirlilərin 98 faizi avropoid irqinə mənsub olan bir etnosdur. Əhalinin 97 faizi ərəblərdən və qibtilərdən (koptlardan) ibarətdir. Əhalinin təqribən 2-3 faiz – nubiya və bərbər tayfalarıdır.

2005-ci ildə Misirdə 75,0 mln nəfərdən artıq adamın yaşaması qeydə alınmışdı. (1971-ci ildə 34 mln, 1992-ci ildə 68,0 mln nəfər). Proqnozlara görə 2015-ci ildə əhalinin sayı 85 mln nəfərə yaxınlaşacaq.

Əhalinin sayına görə Misir ərəb və region ölkələri arasında 1-ci, Afrikada isə 2-ci (Nigeriyadan sonra ) yerdədir. Ölkədən xaricə,

əsasən ərəb ölkələrinə qazanc arxasınca gedən miqrantların sayı 3,0 mln nəfərdən artıqdır.

Misir əhalinin təbii artımı yüksək olan ölkələr sırasındadır. Əhalinin təbii artımı orta hesabla 2 faizə yaxındır. Misir əhalisinin orta ömür müddəti kişilər üçün 65, qadınlar üçün 67 yaşdır. Hər min nəfərə 26 nəfər anadan olur, 8 nəfər isə ölür. Yaşlı əhalinin 60 faizə qədəri savadlıdır. Ölkədə 14 universitet fəaliyyət göstərir. Bunlar içərisində nəinki Misirdə, eləcə də regionda tanınmışlar – Qahirə və İsgəndəriyyə universitetləridir. İslam ilahiyyətçiləri arasında Qahirədəki Əl-Əsxar universiteti böyük nüfuza malikdir.

Müasir Misir əhalisinin formalaşmasına VII yüzillikdə bu ərazini işğal edən ərəblər təsir göstərmişlər. Yerli əhali tədricən ərəblərlə qarışmış, onların dillərini, dinlərini və adət-ənənələrini qəbul etmişlər.

Ölkə əhalisi ərazi üzrə çox qeyri-bərabər paylanmışdır. Ərəblər əsasən Nil çayı vadisi və deltası, Aralıq və Qırmızı dənizin sahilləri, Süveyş kanalı zonasında, qibtilər böyük şəhərlərdə, bərbərlər Liviya ilə sərhəd bölgələrində, nubiyalılar isə ölkənin cənubunda məskunlaşmışlar.

Misirin dövlət dili ərəb dilidir. Bərbərlər, nubiyalılar həm ərəb, həm də öz dillərində danışırlar. Ölkənin dövlət dini İslamdır. Müsəlman dindarların əksəriyyəti sünnilərdir. Qibtilər ərəb dilində danışsalar da, dini etiqadlarına görə xristianlardır. Ölkə üçün orta sıxlıq hər kv.km-ə 75 nəfərdən artıqdır. Nil çayı vadisi və deltasında əhali çox sıx (hər kv.km-ə 1300-1600 nəfər) Liviya və Ərəbistan səhralarında çox seyrəkdir (hər kv.km-ə 1-3 nəfər). Əhalinin təqribən yarısı şəhərlərdə yaşayır.

Kənd əhalisi yüksək sıxlığı ilə səciyyələnir. Qahirə-İsgəndəriyyə şosse yolu boyunca əhalisinin sayı 10-15 min nəfər olan iri kəndlərə rast gəlmək olar. Misirdə urbanizasiyanın sürəti yüksəkdir. Ən böyük şəhərləri Qahirə, İsgəndəriyyə, Port-Səid, Süveyş, Asuan, Məhəllə-əl Kubra , Əsyut və b.-dır.

Qahirə Nil çayı deltasından cənubda, əsasən Nilin sağ sahilindəki 2 kiçik adada (Cəzirə və Rod) qərarlaşıb. Əhalisinin sayına görə nəinki Misirin və ya Afrikanın, eləcə də bütün İslam dünyasının ən böyük şəhəridir. Bu şəhərdə ətrafı ilə birlikdə 13,0 mln. nəfərdən artıq adam yaşayır. Qahirədə sənaye sahələrinin və əhalinin sürətli artımının qarşısını almaq məqsədi ilə şəhərdən 30-35



km məsafədə, səhrada yeni peyk-şəhərlər salınır. Bu şəhərlərin hər birində 400-500 min əhalinin yaşaması və yeni iş yerlərinin yaradılmasi nəzərdə tutulmuşdur.

Qahirənin yerində hələ e.ə. XVII yüzillikdə Babilistan, bir qədər sonra Fustat (köhnə Qahirə) adlı yaşayış məskəni olmuşdur. 969-cu ildə Fustatın şimalında Fatimilərin sərkərdəsi Cövhər əl-Saqali özünə iqamətgah tikdirərək onu «Əl-Qahirə» (ərəbcə «qalib» deməkdir) adlandırır. Qahirə 2 əsrə yaxın müddətdə Fatimilər xilafətinin paytaxtı olur (973-1171). Sonralar əyyubilər, məmlüklər, fransız və ingilislər tərəfindən işğal edilir. Müstəqil paytaxt olana qədər Qahirənin əhalisi sürətlə artır, şəhər siyasi və iqtisadi cəhətdən inkişaf edir, milli azadlıq uğrunda aparılan nümayiş və üsyanların mühüm mərkəzinə çevrilir.

Qahirə 1953-1958-ci illərdə Misir Respublikasının, 1958-1971-ci illərdə Birləşmiş Ərəb Respublikasının, 1971-ci ildən isə Misir Ərəb Respublikasının paytaxtıdır. Ölkədə sənaye istehsalının 1/4 hissəsi Qahirənin payına düşür. Şəhərdə və onun ətrafında metallurgiya (Heluanda), metal emalı, maşınqayırma, toxuculuq, yeyinti, sement, kağız, dəri-ayaqqabı, kimya, poliqrafiya sənaye müəssisələri vardır. Ölkənin mühüm dəmir, şosse və su yolları bu şəhərdən keçir. Paytaxtın təyyarə limanı Afrika qitəsinin ən böyük təyyarə limanlarından biridir. Şəhər həm də iri ticarət-maliyyə mərkəzidir.

Qahirə nəinki Misirin, həm də bütün ərəb mədəniyyətinin, elminin və incəsənətinin mərkəzidir. Müasir şəhər köhnə (Fustat) və yeni hissədən ibarətdir. Yeni Qahirə Qərbi Avropanın və Amerikanın böyük şəhərlərindən seçilmir. Burada enli prospektlər, geniş meydanlar, bulvarlar, çoxmərtəbəli hökumət idarələri, səfirliklər, mehmanxanalar, banklar və s. vardır. Qahirənin şərq və cənub rayonlarını əhatə edən köhnə hissədə Roma və Bizans tikililəri, məscidlər, məqbərələr, qala divarlarının qalıqları və qədim ərəb mədəniyyətini təmsil edən digər memarlıq abidələri qorunub saxlanılır. Qahirədə Misir Ərəb Respublikasının ali təhsil ocağı olan Qahirə Universiteti, digər ali təhsil müəssisələri yerləşir.

Qahirədə metropoliten fəaliyyət göstərir. Qahirənin mərkəzi Ərəb Dövlətləri Liqası təşkilatının mənzil iqamətgahının yerləşdiyi Ət-Təhrir meydanıdır. Şəhərin işgüzar mərkəzi Qəsir-ən-nil və Təlaab-Xarb küçələri hesab olunur. Qahirə yaxınlığında qədim

Misirin yaşayış məntəqəsi olan Giza şəhəri yerləşir. Öz piramidaları ilə məhşur olan bu şəhər əslində Qahirə ilə birləşmişdir.

Qahirədə milli kitabxana və onlarca məhşur muzeylər fəaliyyət göstərir. Bunlar içərisində 1858-ci ildə yaradılmış Misir muzeyi, 1908-ci ildə yaradılmış Qahirə muzeyi, 1881-ci ildə yaradılmış İslam İncəsənəti muzeyi, 1891-ci ildə yaradılmış Geologiya muzeyi, 1939-cu ildə yaradılmış Misir incəsənəti muzeyi şəhərə gələn turistlərin diqqətindən yayınmır.

## 4. İqtisadiyyatı

Ötən əsrin ortalarına qədər Misir, sənaye sahələri zəif inkişaf etmiş mo-nokultur (təkbitkiçilik) kənd təsərrüfat ölkəsi olmuşdur. Misir hökuməti 1952-ci ildən başlayaraq ölkədə əsaslı sosial-iqtisadi dəyişikliklər həyata keçirir. Bu müddətdə xarici mülklər milliləşdirilmiş, kənd təsərrüfatında yarımfeodal, mülkədar torpaq sahibliyini tədricən aradan çıxaran islahatlar keçirilmişdir.

Ötən əsrin 50-60-cı illərində, dövlət sektorunun gücləndirilməsi siyasəti yeridilmiş, beşillik planlar həyata keçirilmiş, tutarlı kapital mülkiyyətçilik və iri torpaq sahibliyi məhdudlaşdırılmış, kəndlilərə torpaq paylanmışdır. 70-ci illərdən başlayaraq ölkəyə xarici kapitalın cəlb edilməsinə və Qərblə iqtisadi əlaqələrə üstünlük verilmişdir. Misirdə 90-cı illərin əvvəllərindən sosial-iqtisadi inkişafın bazar iqtisadiyyatı modelinə keçidi başlanmışdır. Bu halda dövlət təsərrüfat subyekti qismində öz mövqelərini zəiflətmişdir. Turizm ,yüngül və yeyinti sənaye müəssisələri özəlləşdirilmiş, valyuta qanunvericiliyi liberallaşdırılmışdır. Hazırda ümum daxili məhsulun 70 faizi özəl sektorun payına düşür, bütün kapital qoyuluşunun 60 faizi də özəl sektora aiddir.

2005-ci ildə Misirin ümumdaxili məhsulunun həcmi 70 mlrd. dollara yaxın olmuşdur. Milli gəlirin adambaşına düşən həcmi isə 3 min dollardan artıq olmuşdur. 1990-2005-ci illərdə iqtisadi artım tempi hər il 4-5 faiz olmuşdur.

Ölkə iqtisadiyyatının sahələr üzrə strukturuna görə: ümum daxili məhsul istehsalının 14 faizi kənd təsərrüfatı və balıqçılığın (işçi qüvvəsinin təqribən 30 faizi bu sahə ilə məşğuldur); 30 faizi



sənaye və tikintinin (işçi qüvvəsinin 20 faizi); 56 faizi xidmət sahələrinin payına düşür.

**Sənayenin aparıcı sahələri.** Misirin sənaye sahələri içərisində hasilat sənayesinin xüsusi mövqeyi var. Ölkə təbii ehtiyatların müxtəlifliyi ilə fərqlənir. Ölkədə daş kömür, volfram, qızıl, mis, dəmir və manqan filizləri, fosforlar, müxtəlif inşaat materialları, neft, təbii qaz yataqları var.

Neft yataqları Süveyş kanalının hər iki sahili boyunda yerləşir. Afrikada sənaye üsulu ilə ilk dəfə neft çıxarılmasına (1896-cı il) və emalına (1913-cü il) Misirdə başlanılmışdır. Ölkədə neft ehtiyatı o qədər çox deyil (500 mln ton). İllik hasilat isə 40 milyon tondan çoxdur. Misirdə neft ehtiyatı işləri ilə onlarca şirkət məşğul olur. Ən böyükləri Misir-Amerika qarışıq şirkəti (Qalf oil Petroleum Company) Süveyş körfəzindəki Morqan yatağında, Petrobel şirkəti Belayim yatağında neft çıxarır. Təbii qaz çıxarılmasına ötən əsrin 70-ci illərindən başlanılmışdır, təbii qaz ehtiyatları 55 mln. $m^3$ həddindədir. Ölkədə həm neftin, həm də təbii qazın ehtiyatları az olduğundan tükənmək üzrədir. Ona görə ölkəyə xammal və yanacaq idxalı tədricən artır.

Dəmir filizi ehtiyatı isə müstəsnalıq təşkil edir, çünki Asuan şəhərinin cənub-şərqində yeni yataqlar aşkar edilmişdir. Dəmir filizinin ehtiyatı 400 mln. ton həddindədir. Sina yarımadasında kəşf olunmuş Mağara daş kömür yatağının ehtiyatı 30 mln. tona yaxındır. Kömürün çıxarılmasına Böyük Britaniya şirkətləri nəzarət edir. Xörək duzu Sina yarımadasının şimalında yerləşmiş göllərdən çıxarılır.

Energetika sənayesi yüksək Asuan hidroenerji kompleksi istifadəyə verildikdən sonra inkişaf etməyə başlamışdır. Hidrotexniki kompleksdə olan su elektrik stansiyası ildə 10 mlrd. kvt/saatdan artıq elektrik enerjisi istehsal edir. Ölkədə mövcud olan su və istilik elektrik stansiyalarında 65,0 mlrd. kvt/saat (2004) elektrik enerjisi istehsal olunur. İstilik elektrik stansiyaları Asuan, İsgəndəriyyə, Qahirə, Port-Səid rayonlarındadır. Enerjiyə artan tələbatı nəzərə alaraq Günəş enerjisindən səmərəli istifadə olunması nəzərdə tutulur. Ölkədə Günəş enerjisi ilə işləyən suqızdırıcı qurğular az da olsa mövcuddur.

Emaledici sənaye 300-dən artıq iri müəssisələrdə cəmlənmişdir. Ölkədə toxuculuq, tikiş, metallurgiya, metalemalı,

maşınqayırma sənaye sahələri inkişaf etdirilir.

Metallurgiya müəssisələrində polad, çuqun, alüminium istehsal olunur. Ölkənin mühüm qara metallurgiya kombinatı Heluanda, əlvan metallurgiya müəssisələri isə Hər-həmmadi və İsmailliyədədir. Misirdə ildə 2,5 mln. ton polad, 170 min ton alüminium, 7,0 mln. ton azot gübrələri, 1,6 mln. ton superfosfat, 22 mln. ton sement istehsal olunur.

Neft emalı sənayesi inkişaf etdirilir. Dövlət və xüsusi şirkətlərə məxsus neftayırma müəssisələri İsgəndəriyyə, Süveyş, Qahirə və Tantadadır. Neft emalı müəssisələri 1 ildə 45 mln. ton neft emal edə bilirlər. Kimya sənayesi azot və fosfor gübrələri, boyaq maddələri və digər kimyəvi məhsullar istehsalı üzrə ixtisaslaşmışdır. Əsas mərkəzləri Asuan, Süveyş, Heluan və digər şəhərlərdir. Tikinti materialları sənayesi zəif inkişaf etmişdir. Sement istehsalı tələbatın cəmi 50 faizini ödəyir.

Maşınqayırma minik və yük avtomobillərinin, müxtəlif elektromexaniki məmulatların (məişət təyinatlılar üstünlük təşkil edir) yığılması ilə məşğuldur. Maşınqayırmanın mühüm mərkəzləri Qahirə, İsgəndəriyyə, Heluan, Port-Səiddir. İsgəndəriyyədə gəmi təmiri müəssisələri fəaliyyət göstərir.

Ən müasir avadanlıqlar ilə yaxşı təchiz olunmuş sahə parfumeriya-kosmetika istehsalı sayılır. Bu sahə üçün zəruri nadir xammal xüsusi ilə müxtəlif efir yağları mövcuddur. İstehsal olunan salon mebeli öz keyfiyyəti ilə məşhurlaşmışdır.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Vaxtilə ölkə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edən kənd təsərrüfatı əvvəlki mövqeyini bir qədər itirmişdir. Misirdə «torpaq qıtlığı» və ərzaq çatışmamazlığı hələ XX yüzilliyin əvvəllərində ölkə əhalisinin 80 faizinin kənd rayonlarında yaşadığı vaxtda kəskin problemlərdən idi. Həmin dövrdə əhalinin cəmi 1 faizini təşkil edən «torpaq aristokratları» becərilən torpaqların 40 faizini mənimsəmişdi. İngiltərə müstəmləkəçilərinin nəzarətində becərilən əmtəəlik pambıq əsas kənd təsərrüfatı bitkisi sayılırdı. 1952-ci ildən ölkədə aqrar islahatlar keçirilir. İslahatlar nəticəsində monokultur təsərrüfat forması elmi cəhətdən əsaslandırılmış növbəli əkinlərlə (məsələn, yonca, qarğıdalı, pambıq, buğda, çəltik) əvəz olunur. Becərilən torpaqların bir hissəsi kəndlilərə paylanılır.

1952-ci il inqilabından sonra bir neçə mərhələdə aparılan aqrar



islahatlar 70-ci illərə qədər Misir kəndlərində mühüm sosial dəyişikliklərə səbəb olsa da, sonrakı illərdə iri torpaq sahibkarlarının mənafeyi yenidən qorunmağa başlanılır. Becərilən torpaqların 95,3 faizini və eləcə də mühüm kənd təsərrüfatı texnikası sahibkarların əlində cəmlənmişdir. Torpaqsız kəndli-fəllahlar muzdla işləyir, bəzi kəndlilər torpağı icarə götürərək icarə haqqını məhsul ilə ödəyir. Xam torpaqların mənimsənilməsi və meliorasiyası, gübrə, toxum əldə edilməsi, kreditlər verilməsində dövlət bölməsinin rolu böyükdür. Nil vadisi və deltası rayonunda mövcud olan məhsuldar torpaqlar və bol su hələ qədim zamanlardan burada məskunlaşan əhalini əkinçiliklə məşğul olmağa sövq etmişdir.

Bu məqsədlə Nil çayı üzərində su qurğuları yaradılır və suvarma kanalları çəkilir. Misirin getdikcə artmaqda olan əhalisini kənd təsərrüfatı məhsulları ilə təmin etmək, dünya bazarına uzunlifli pambıq ixracını yüksəltmək məqsədilə suvarma əkinçiliyinin genişləndirilməsi Nildən daha səmərəli istifadə olunmasını tələb edir. Nilin axınını tənzimləmək üçün suvarma sistemi yaradılır*. Hazırda əkin üçün yararlı ümumi sahə ölkə ərazisinin 1 faizdən bir qədər çoxunu təşkil edir. Kənd təsərrüfat məhsuldarlığının artım tempi əhalinin artım sürəti ilə üst-üstə düşür. Ərzaq problemi əhəmiyyətli dərəcədə idxal hesabına həll edilir (hər il 3 mlrd. dollarlıq həcmdə). Kənd təsərrüfatında başlıca sahə suvarılan əkinçilikdir. Suvarma əkinçiliyi kənd təsərrüfatı məhsulunun 70 faizdən çoxunu verir. Heyvandarlığın 22 faiz, balıqçılığın payı isə təqribən 7 faiz təşkil edir.

Ölkədə yetişdirilən əsas kənd təsərrüfatı bitkiləri bunlardır: pambıq (hər il orta hesabla 400 min ton), buğda (təqribən 6 mln. ton), qarğıdalı (təqribən 6 mln. ton), çəltik (5 mln. ton), müxtəlif tərəvəzlər (təqribən 17,5 mln. ton). Bunlarla yanaşı şəkər çuğunduru, paxla, sitrus bitkiləri, üzüm, alma yetişdirilir. Hər il 2-3 dəfə məhsul yığılır. Pambıq istehsalının həcminə görə Misir dünyada qabaqcıl yerlərdən birini tutur. Misir pambığı yüksəkkeyfiyyətli – uzunliflidir.

---

* 1898-1902-ci illərdə Asuan şəhəri yaxınlığında bənd tikilir. Bəndin uzunluğu təqribən 2 km, eni 8 m, hündürlüyü 54 m-dir. Su anbarının tutumu 5,5 mlrd. kub metrdən çoxdur. 1960-1971-ci illərdən köhnə Asuan bəndindən 6 km cənubda uzunluğu 4 km, hündürlüyü 110 m, su anbarının tutumu 160 mlrd. kub metr olan bənd tikilmişdir.

Təbii otlaqlar məhdud olduğundan heyvandarlıq lazımi səviyyədə inkişaf edə bilməmişdir. Oturaq əhali iribuynuzlu qaramal, ev quşları saxlamağa üstünlük verir. Əkinçilik rayonlarında heyvandarlıq südlük istiqamətindədir. Köçərilər dəvə, qoyun, keçi bəsləməyə üstünlük verirlər. Mal-qara az məhsuldardır və daima yem çatışmazlığı ilə üzləşir. Ölkəyə böyük həcmdə ət məhsulları idxal olunur.

Balıqçılıq daxili tələbatı ödəmək məqsədi ilə inkişaf etdirilir. Balıq və digər dəniz məhsulları misirlilərin qidasında mühüm yer tutur. İqlim şəraiti və əhalinin peşəkarlığı balıqçılığın inkişafı üçün əlverişlidir. Nil çayında, göllərdə, Aralıq və Qırmızı dənizin sularında müxtəlif balıq növləri ovlanır.

**Nəqliyyatı, xarici ticarəti və maliyyə sistemi.** Misirdə nəqliyyatın bütün növləri vardır. Daxili yükdaşımanın 85 faizi avtomobil nəqliyyatının payına düşür. Şosse yollarının ümumi uzunluğu 48 min km-dir. Qahirə-İsgəndəriyyə, İsgəndəriyyə-Mərsə-Mətruh-Əs-Səlmum, Qahirə-Süveyş, Süveyş-Port-Səid, Qahirə-Qürdəqa, Qahirə-Əsyut mühüm avtomobil magistrallarıdır. Dəmir yollarının uzunluğu – 7,7 min km-dir. Qahirə-Asuan, Qahirə-İsgəndəriyyə, Qahirə-Süveyş, Port-Səid-İsmailliyyə mühüm dəmir yollarıdır. Misir iqtisadiyyatında çay nəqliyyatının da rolu böyükdür. Nil çayı deltasındakı kanalların əksəriyyəti gəmiçilik üçün yararlıdır. Daxili su yollarının uzunluğu 3,4 min km-dən artıqdır. Misirin ərazisindən beynəlxalq dəniz və hava yolları keçir. Süveyş kanalının əhəmiyyəti xüsusilə böyükdür. Yük dövriyyəsinə görə o, dünyanın iri gəmiçilik kanallarındandır. Hər il kanaldan orta hesabla 350 mln. ton yük daşınır (dünya dəniz yüklərinin 14 faizi). Misir hökuməti kanaldan hər il orta hesabla 2 mlrd. dollar gəlir götürür.

Ölkənin xarici ticarəti dəniz nəqliyyatı ilə həyata keçirilir. Mühüm limanları İsgəndəriyyə, Süveyş, Port-Səid, Ras-Qərib, Ras-Şükeyr və Səfaqadır. Port-Səidin yaxınlığındakı Şərq limanında iri gəmilərin yan almasını təmin etmək üçün dərinsulu kanal inşa edilmişdir. Həm də həmin ərazi azad ticarət zonası elan olunmuşdur. Misirin özünün milli dəniz donanması vardır. Süveyş körfəzi rayonundan İsgəndəriyyə şəhərinə neft kəməri çəkilmişdir.

Misir ərazisindən 30-dan artıq beynəlxalq hava xətti keçir. Ölkənin bütün şəhərlərinin yaxınlığında beynəlxalq dərəcəli təyyarə meydanları var. Qahirədə yerləşən təyyarə limanı ən iri beynəlxalq



hava yolları qovşağıdır.

Turizm ölkə iqtisadiyyatının gəlirli sahələrindəndir. Misirin turist cəlb edən təkrarolunmaz təbii şəraiti, diqqətəlayiq tarixi-mədəni abidələri vardır. Ölkədə turizmin müxtəlif növləri (ekskursiya, kurort-məzuniyyət və s.) inkişaf etdirilir. 1970-ci ildən 1990-ci ilədək ölkəyə gələn turistlərin sayı 2 dəfə artaraq ildə 2 mln. nəfərə çatmışdır. 2005-ci ildə isə ölkəyə təqribən 8,2 mln. əcnəbi turist gəlmişdir. Misirə turist axını Qərbi Avropa ölkələri (40 faiz), ərəb ölkələri (38 faiz), ABŞ (14 faiz) və digər bölgələrdəndir (8 faizdir). Ölkəyə gələn turistlləri ilk növbədə Qahirə, Luksor və Asuandakı mühüm tarixi abidələr və muzeylər maraqlandırır. Turizmdən gəlir 7,0 mlrd. dollardan artıqdır.

**Xarici ticarət.** Xarici ticarətində xroniki kəsirə baxmayaraq bu sahə Misir iqtisadiyyatında çox mühüm əhəmiyyətə malikdir.

1974-cü ildən ölkə rəhbərliyi «açıq qapı» siyasətini yeridir. Məqsəd xarici investisiya və texnologiyaları ölkəyə cəlb etmək, həmçinin region ölkələri ilə əməkdaşlığı nizama salmaqdır. 2003-cü ildə ölkədən mal ixracatının dəyəri 6,6 mlrd. dollar, idxal dəyəri 14,6 mlrd. dollar olmuşdur. Dövlət neft və neft məhsulları, pambıq və düyü ixracatına inhisarı öz əlində saxlamışdır. Ənənəvi ixracat malları aşağıdakılardır: neft və neft məhsulları (bütün ixracat həcminin 50%-ə yaxını), alüminium, çiyidli-pambıq, iplik, parça, əczaçılıq malları, sintetik yuyucu malları, tütün məmulatları və son dövrlərdə bu siyahıya təbii qaz da əlavə edilmişdir.

İdxal məhsulları: taxıl, ət və süd məhsulları, metal prokatı, avadanlıq, nəqliyyat vasitələri, elektrik mühərrikləri, ağac materialları, yanacaq və neft məhsulları. İxracatdan əldə olunan vəsait idxal məsrəflərinin 30 faizini ödəyir. Yaranmış kəsir fərqi turizmdən, Süveyş kanalından istifadədən, xaricdə işləyən misirlilərin pul köçürülmələri hesabına ödənir.

Misirin ixrac mallarının ən böyük alıcısı ABŞ-dir. Misirə ən çox mal göndərən isə Avropa İttifaqı ölkələridir. Misir 2001-ci ildən Avropa İttifaqının assosiativ üzvüdür. Bunun sayəsində Misir malları (ərzaq, pambıq və iplik istisna olmaqla) Avropa İttifaqı ölkələrinin bazarlarına gömrük rüsumu qoyulmadan çıxarılır.

Ölkənin pul vahidi – Misir funtudur. 1 ABŞ dolları təqribən 4 funta (2004-cü il) bərabərdir.

**Maliyyə sistemi.** Mərkəzi bankın başçılıq etdiyi bank sistemində

80 bank daxildir (2005-ci ildə). Bunlardan Milli bank, Qahirə bankı, İsgəndəriyyə bankı, Misir bankı (bütün bank aktivlərinin 70 faizi bunların payına düşür) qabaqcıl banklardır. Özəl banklardan «Beynəlxalq Kommersiya Bankı» və «Misir İnterneşnl» bankları (aktivlərin 10 faizi) gözə çarpandır. Bank sisteminin liberallaşmasında əsas mərhələ dövlət bankı səhmlərinin özəl şəxslərə satışına icazə verən 1998-ci il qanununun qəbul edilməsidir. Ölkədə inflyasiya səviyyəsi 2003-cü ildə 3,1 faiz olmuşdur. Misir özünün milli pul vahidinin konversiya edilməsinə nail olmuşdur.

Ölkədə maliyyə sahəsinin özəlləşdirilməsinə imkan verəcək kifayət dərəcədə möhkəm iqtisadi baza mövcuddur. Bu durum hökumət üçün iqtisadiyyatın perspektivli sektorlarını vergidən azad etməyə yol açmışdır. Ödənc balansı son onillik müddətində defisitlə təkmilləşdirilmişdir. Xarici borclar 2004-cü ildə 24 mlrd. dollar (ümumi daxili məhsulun 36 faizi) səviyyəsinə çatmışdır. Paris klubu çərçivəsindəki danışıqlar nəticəsində Misir xarici borcların 24,5 mlrd. dollar məbləğinin mərhələlərlə silinməsinə və borcların qalıq hissəsinin ödənişinin 25 il müddətində həyata keçirilməsinə nail olmuşdur.

Ölkə iqtisadiyyatını qaldırmaq, yoxsulluq və işsizlikdən yaxa qurtarmaq üçün Misir hökuməti müxtəlif yollardan istifadə edir. Bunlardan biri də Azad İqtisadi Zonaların yaradılmasıdır. İlk belə zona Port-Səid şəhərində yaradılmışdır. İsgəndəriyyə şəhərinə yaxın Qahirə-İsgəndəriyyə avtomobil trassında Əl-Əmriyyə adlı Azad Ticarət Zonası təşkil edilmişdir. Burada topdan satış ticarəti və yüklərin saxlanılması əməliyyatları həyata keçirilir. Belə funksiyalı Azad Ticarət Zonası Süveyş, Naser-Siti, İsmailiyyə və Safaq şəhərlərində təşkil edilmişdir.

Azad Ticarət Zonası rejimi investorları gömrük rüsumundan, digər vergilərdən və ödəmələrdən azad edir. Belə iş üsulu Misirə idxal olunan avadanlıq, mexanizm və nəqliyyat vasitələrinə şamil edilir. Obyektin istifadəyə verilməsindən sonra investorun həyata keçirdiyi gəlir bölgüsü vergi qanunvericiliyinin təsirindən azaddır. Misir qanunvericiliyinə görə ayrı-ayrı müəssisələrə onların harada yerləşməsindən asılı olmayaraq Azad Ticarət Zonası rejimində fəaliyyət göstərmələrinə icazə verilir. Bu, lisenziya ilə rəsmiləşdirilir.



# OMAN SULTANLIĞI*

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqeyi.** Ərəbistan yarımadasının cənub-şərqində yerləşmiş Oman, şimaldan Birləşmiş Ərəb Əmirlikləri, qərbdən Səudiyyə Ərəbistanı Məlikliyi, cənub-qərbdən Yəmən Respublikası ilə həmsərhəddir. BMT məlumatlarına əsasən sahəsi təqribən 212 min kv.km-dir. Ərazisinin böyüklüyünə görə Ərəbistan yarımadası dövlətləri içərisində ancaq Səudiyyə Ərəbistanı Məlikliyindən geri qalır, dünya miqyasında götürüldükdə isə 75-ci dövlətdir. Oman sultanlığı dövlət sərhədləri dəqiq təyin olunmamış (başqa sözlə de-markasiya olunmamış) dövlətlərdən biridir. Qonşuları ilə sərhəd mübahisələri tam həll edilməsə də sərhəd məntəqələri mövcuddur və gömrüyün bütün rəsmi şərtlərinə əməl olunur.

Şimal-Şərqdə Oman körfəzi, cənub-şərqdə isə Ərəbistan dənizinə 2000 km məsafədə çıxışı Oman sultanlığının coğrafi və hərbi strateji mövqeyinin üstünlükləridir. Sahillər kiçik gəmilərin dayanması üçün əlverişli olan dayaz körfəzlərlə kəsilib parçalanmışdır. Buradakı bəzi şəhərlər (Məsqət, Sib, Habur və b.) hələ orta əsrlərin dənizçilik xəritələrinə salınmışdır. Omanın bu bölgəsi Hindistan, İraq, İran kimi ölkələrlə ticarətdə mühüm rol oynamışdır.

**Səth quruluşu və faydalı qazıntıları.** Ölkə ərazisinin 82 faizini hündürlüyü 500 metrə qədər olan səhra və yarımsəhralar, 15 faizini hündür yayla və dağlar, 3 faizini isə hündürlüyü 200 metrə qədər olan dənizsahili ovalıqlar tutur. Omanın ən aşağı nöqtəsi dəniz səviyyəsindən 33 m, ən yüksək nöqtəsi 3353 m hündürlükdədir. Oman körfəzi sahilində ensiz Əl-Bəttin ovalığı uzanır. Ovalığın qərbində o qədər də hündür olmayan Əl-Həcər və Əl-Gərbi dağları yerləşir. Dağlar cənub-qərbdə tədricən yüksəlir. Müsəndam yarımadasının şimal hissəsindən Ras-əl-hədd burnuna qədər 1000 km məsafədə Həcər dağları uzanır. O, üç hissəyə: Qərbi, Şərqi və Mərkəzi Həcər dağlarına bölünür. Həcər dağlarının ən yüksək nöqtəsi olan Şam zirvəsi (3353 m) Mərkəzi Həcər dağlarında yerləşir. Həcər

* Şəhərin banisi Oman -ben-İbrahimin şərəfinə belə adlandırılıb.

dağları strukturuna və geoloji quruluşuna görə İrandakı Məklqi dağlarına bənzəyir. Həcər dağlarının şimali-şərqində eni 45-50 km-ə çatan Əl-Bəttin adlanan sahil ovalığı yerləşir. Həcər dağlarından qərbə hündürlük tədricən enir və xarici görünüşcə gölə bənzər çınqıllı düzənliyə, daha sonra isə Rəb-əl-Xali səhrasına keçir

Rüb-əl-Xali səhrasının Omana aid olan hissəsinin uzunluğu 1100, eni 550-600 km-dir. Səhradan cənub-qərbdə Dofar təbii-coğrafi vilayəti yerləşir. Dofar vilayəti dəniz səviyyəsindən 1000-1300 m hündürlükdədir.

Neft və təbii qaz istisna olmaqla ölkənin təbii sərvətləri zəif öyrənilmişdir. Ölkədə manqan, xromit, mis, dəmir filizləri ehtiyatları haqqında məlumatlar vardır. Ölkənin müxtəlif bölgələrində duz, Sur şəhəri yaxınlığında daş kömür yataqları aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Oman tropik enliklərdə yerləşdiyindən ölkədə tropik iqlim hakimdir. Sahil ərazilərin iqlimi subtropik, rütubətli, daxili bölgələrdə isə quru, kəskin kontinental, gündüz və gecə temperaturlarının fərqli olması ilə səciyyələnir. Sahildə may-iyun aylarında temperatur +40 dərəcə C-yə çatır. Daxili bölgələrdə yay aylarında temperatur +50 dərəcə C-yə qədər yüksəlir. Noyabrın axırından martın əvvəlinədək keçən payız-qış mövsümü kifayət qədər yumşaq və sərin keçir.

Ölkənin paytaxtı Məsqət dünyanın ən isti iqlimi olan şəhərlərindən biridir. Omanda yanvar ayının orta temperaturu +21 dərəcə C, iyun ayının isə +34 dərəcə C-dir. Orta illik temperatur +27-28 dərəcə C-dən aşağı düşmür. Yazda və yayın əvvəllərində Ərəbistan yarımadasının səhralarından əsən küləklər havanın hərarətini çox yüksəldir. İlin sərin keçən aylarında ərazidə şimal-şərq mussonları hakim olduğundan dağlara yağıntı nisbətən çox düşür (500 mm-ə qədər).

Həm daxili bölgələrdə, həm də sahillərdə yağıntıların miqdarı dəyişkəndir (25 mm ilə 125 mm arasında). Yağıntılar əsasən qışda və yayın əvvəlində düşür. Ən yağıntılı ay fevraldır. Əl-Əhdar yaylası məsaməli su keçirən süxürlardan təşkil olunduğundan buraya yağan yağış suları torpağın səthində durmur və tezliklə aşağı horizontlara süzülür. Nəticədə onlar qrunt sularının yaranmasına səbəb olur.

Qrunt sularından da Əl-Bəttin sahil ovalığının məhsuldar torpaqlarını suvarmaq üçün istifadə olunur. Fələc adlanan bu süni yeraltı suvarma kanalları ölkənin bir çox bölgələrində əkinçiliyi



inkişaf etdirmək üçün çox əlverişlidir. Bu suvarma sisteminin üstünlüyü ondan ibarətdir ki, buxarlanma nəticəsində suyun itməsi təhlükəsi aradan qalxır, hətta uzunsürən quraqlıqda su axını burada tamamilə kəsilmir, əhəng qatı altında yığılan suyun təbii çıxış yerlərində vahələr əmələ gəlir.

Cənub-qərb mussonları Dofarın dağlıq hissələrinə də rütubət gətirir. Yağıntılar dağların yuxarı hissələrindəki subalp və alp çəmənlərinə həyat verir və dərələrdə subtropik bitkilərin inkişafına səbəb olur ki, bu da Ərəbistanın təbii landşaftı üçün tamamilə qeyri-adi haldır. Sahildəki düzənliklərin bəzi yerlərində xurma bitir.

Omanda daimi axarı olan çaylar yoxdur. Yağış halında düşən atmosfer çöküntülərinin bir qismi torpağın altına keçərək vadilər vasitəsilə Oman körfəzinə tərəf axır, bir qismi isə səhralarda itib batır. Bu vadilərin suayırıcısı Həcər dağlarıdır. Bu dağlardan şimalda Əs-Səlil, Əl-Ayn, cənubda isə Xəlfə vadiləri uzanır. Ölkənin ən böyük (uzunluğu 200 km) vadisi Xəlfədir.

**Torpaq və bitki örtüyü.** Omanın torpaq örtüyü, fauna və florasını isti və quraq iqlim formalaşdırır. Qışda yağıntılar yağan vaxt səhra, yabanı acı qarpız tağları və dəvələrin çox sevdiyi qırmızımtıl kolluqlarla örtülür. Bəzi vadilərdə ilb adlanan qollu-budaqlı ağaclara da rast gəlmək olur. İlbin oduncağından tikintidə istifadə edilir, albalıya oxşar qırmızı rəngli meyvələri yeyilir, yarpaqları isə keçilər üçün yemdir. Ölkədə Vadi-Serin adlanan təbii qoruq yaradılmışdır. Omanın sahil sularında sənaye əhəmiyyətli qiymətli balıqlar (tunets, makrel, sardin, köpək balığı), başayaqlılar (kalmar, iblis), buğumayaqlılar (lanqust, krevet) və s. vardır.

Omanın təbii landşaftı pozulmağa daha tez məruz qaldığından son illərdə ölkənin ekoloji durumunun tarazlığına, ətraf mühitin mühafizəsinə diqqət artırılır. Təbii landşaftı qorumaq üçün ölkənin bəzi bölgələrində qoruqlar salınsa da, amma bu işlər lazımı səviyyədə inkişaf edə bilməmişdir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Ərəb ölkələrinin tarixi ilə məşğul olanların fikrincə Omanın ərazisi ən qədim dövrlərdən məskunlaşmışdır. Eramızdan əvvəl IV-III minilliklərdə Omanın dəniz sahilləri Cənub-Qərbi Asiya ilə Cənubi Asiya ölkələri arasında gedən ticarətdə mühüm rol oynayırdı. Eramızdan əvvəl birinci minilliyin əvvəllərində Omanda yəməni ərəb tayfa birliklərinin hakim mövqe tutması onun Cənub-Qərbi Ərəbistan ilə əlaqələrinin möhkəmlənməsinə, dövlətin formalaşmasına və iqtisadiyyatının inkişafına təsir göstərdi. Lakin VI yüzillikdə Sasanilərin basqınları, qonşu bədəvi tayfaların dağıdıcı hücumları Omanı çox sarsıtdı.

VII yüzillikdə Ərəb xilafətinin tərkibinə qatılmaqla Oman feodal münasibətləri inkişaf edən bir dövlətə çevrilir. VIII yüzilliyin ortalarında isə Oman (ibadi məzhəbinin rəhbərliyi altında) müstəqillik əldə edir. İbadilər silahlı çıxış və üsyandan imtina edir, dini təbliğat vasitəsilə xəlifə canişinləri ilə yaxşı münasibət saxlamağa çalışırdılar. Bu hərəkat sonradan şərqi Afrikaya da yayıldı. İbadilər Omanda öz imamlığını yaratdılar. İbadi imamları həm dini, həm də siyasi hakimiyyətə malik idilər.

Konstantinopolun (İstanbul) 1453-cü ildə türklər tərəfindən zəbt edilməsi Avropa ölkələrini şərqə doğru yeni dəniz yolları axtarmağa vadar etdi. 1507-ci ildə Portuqaliya admiralı Alfonso Albukerkin gəmiləri dənizdən Məsqət şəhərini atəşə tutduqdan sonra sahil şəhərlərini talan etdilər. Sonradan Omanın dəniz sahilləri Hollandiya, Fransa, XVII yüzillikdə İngiltərə və Nəcd ərəbləri arasında mübarizə meydanına çevrilir. Omanın müasir sərhədləri daxilində əvvəllər Məsqət sultanlığı və Oman imamlığı adlanan inzibati vahidlər mövcud olub. Hələ XIX əsrin əvvəllərində coğrafi və hərbi-strateji baxımdan əlverişli mövqeyi olan Oman və Məsqət İngiltərənin nəzarəti altında idarə olunurdu. Məsqət sultanlığı ilə İngiltərə arasında isə "Xüsusi müqavilələr" imzalanmışdı.

1913-cü ildə Oman imamlığı Məsqət sultanlığının tərkibindən ayrılaraq özünü müstəqil dövlət elan edir. İngiltərə tərəfindən silahlandırılan Məsqət sultanlığı Oman imamlığını özünə tabe etdirmək üçün onunla 7 il müharibə aparır. Bu müddətdə imamlığı özünə tabe etdirə bilmədiyindən 1920-ci ildə bağlanmış Sib



müqaviləsinin şərtlərinə əsasən Oman imamlığı Məsqət sultanlığından ayrılaraq müstəqil elan olunur.

35 ildən sonra yenə də rəsmi Londonun yaxından iştirakı ilə Məsqət sultanının qoşunları imamlığın ərazisini zəbt edir və İngiltərə onu Məsqət sultanlığının bir bölgəsi elan edir. Bir neçə ərəb ölkəsi Böyük Britaniyanın bu siyasi addımını pisləyir. 1958-ci ildən etibarən Oman-Məsqət münaqişəsi BMT-nin Baş Məclisinin sessiyalarında dəfələrlə müzakirə olunsa da rəsmi London Oman imamlığının müstəqilliyi barədə beynəlxalq səviyyələrdə qəbul olunan qərarları, verilən qətnamələri «qulaqardına» vurur.

Ötən əsrin 60-cı illərinin ortalarında Omanda mühüm hadisələr baş verir. 1967-ci ilin avqustunda ilk neft quyusu fontan vurur. Əgər bu hadisəyə qədər Oman, əsasən qonşu ölkələrə kənd təsərrüfatı məhsulları satıb, bir ildə 1mln. funt sterlinq dəyərində gəlir əldə edirdisə, 1967-ci ildə bu rəqəm 13, 1970-ci ildə isə 73 mln. funt sterlinqə bərabər oldu. Amma o vaxt hakimiyyətdə olan Sultan Səid ben Teymur «Allahın bəxş etdiyi nemətin» gətirdiyi vəsaitdən səmərəli istifadə edə bilmirdi.

Deyilənlərə görə banklara etibar etməyən sultan neft satışından əldə olunan vəsaiti hər gün üstündə yatdığı döşəyin altında yığıb saxlayırmış. Ümumiyyətlə isə o, hər cür yeniliyin əleyhinə olub. Məsələn, sultan öz təbəələrinə eynək taxmağı, ictimai yerlərdə siqaret çəkməyi qadağan etmişdir. O vaxtlar ölkə işıqsız, qəzet-jurnalsız və idxalına qadağan qoyulmuş radio, telefon və avtomobilsiz yaşayırdı. Yeni ev tikmək və ya radioqəbuledici almaq istəyənlərin hər biri sultandan icazə almalı idi.

1970-ci ilə qədər Omanda cəmi iki məktəb və bir şəhər xəstəxanası mövcud idi. Məktəblər ancaq oğlanlar üçün idi. Sultan sarayından təyyarə meydanına qədər çəkilmiş yeganə asfalt yolun uzunluğu 12 km-dən çox deyildi. Gün batandan sonra Məsqət şəhərinin qapıları bağlanırdı. Hər hansı bir iş üçün gecə küçəyə çıxmağa məcbur olan şəxs əlindəki neft lampası ilə mütləq özünü işıqlandırmalı idi. Əks təqdirdə onu istintaqsız və məhkəməsiz həbsxana gözləyirdi.

Belə bir şəraitdə yenə də Böyük Britaniyanın köməyi ilə 1970-ci ilin 23 iyulunda Omanda saray çevrilişi təşkil olunur və Sultan Səid ben Teymurun oğlu Kabus ben Səid ben Teymur atasının taxt-tacına sahib olur və Omanı müstəqil dövlət elan edir. 1970-ci ilin

avqustunda isə paytaxtı Məsqət şəhəri olan dövlət Oman Sultanlığı adını qəbul edir. Omanın tərkibinə islahatçı sultan kimi daxil olmuş Kabus ben Səid Səidilər səlaləsindən 14-cü sultandır.

Sultan Kabusa atasından əslində çox kasıb, siyasi və etnik cəhətdən çox qeyri-sabit bir ölkə miras qalmışdır. O vaxtlar ölkə iqtisadiyyatının əsasını təşkil edən neftçıxarma xarici şirkətlərin əlində idi. Nəzərə alsaq ki, ölkədə mütəxəssis yox idi, əslində onların hazırlığı üçün imkanlar da yox idi onda problemin ağırlığı, vəziyyətin gərginliyi aydın olar. Geriliyin bir səbəbi də dövlət sərhədlərinin demarkasiya olunmamasında idi. Bundan başqa ölkənin müxtəlif bölgələri arasında hərc-mərclik hökm sürürdü. Nisbətən inkişaf etmiş sahil bölgələri ilə geri qalmış mərkəz bölgələri arasında əlaqələr, demək olar ki, mövcud deyildi.

Hakimiyyətə başladığı ilk gündən sultan Kabus özünün daxili siyasətinin əsas istiqamətlərini bir sözlə – «modernləşdirmə» sözü ilə təyin etdi. Bununla yanaşı öz təbəələrinin mömünlüyünü nəzərə alaraq sultan belə bir şüar da irəli sürdü: «Bizim qanunumuz da, konstitusiyamız da Qurani Kərimdir». Bundan sonra o ölkədə modernləşdirmə işlərinə başladı. Yol tikintisi işlərini alman, tibb işlərini isveç, arxeologiya işlərini italyan, memarlıq işlərini kiprli, parksalma işlərini filippin mütəxəssislərinə tapşırdı. 1970-ci ildə Oman radiosu, beş ildən sonra isə televiziyası ilk verilişlərinə başladı. 1973-cü ildə ölkənin ilk beynəlxalq təyyarə meydanı, bir ildən sonra isə dəniz portu fəaliyyət göstərməyə başladı.

Modernləşdirmə proqramının əsas istiqamətlərindən biri də təhsil sahəsində baş verdi. 1972-ci ildə oğlanlar və qızlar üçün onlarca pulsuz məktəblər açılır. 1986-cı ildə isə Sultan Kabus adına ölkənin ilk universiteti fəaliyyətə başlayır. Ötən əsrin 70-ci illərinin ortalarından sultanın fərmanı ilə Milli inkişaf şurası yaradılır və 1976-80-ci illəri əhatə edən ilk beşillik plan qəbul edilir. Sonradan iqtisadi və sosial inkişafın digər beşillik planları da qəbul edilir.

**Dövlət quruluşu.** Oman mütləq monarxiyadır. Müstəqil Omanın ilk konstitusiyası 1996-cı ildə qəbul edilmişdir. Dövlətin rəhbəri sultandır. Hakimiyyət yalnız kişilərə ötürülür. Qanunvericilik hakimiyyəti sultana, icra hakimiyyəti isə sultana və hökumətə mənsubdur. Sultan hökumətə rəhbərlik edir və eyni zamanda xarici işlər, müdafiə və maliyyə nazirləri vəzifələrini də əlində saxlayır. Hökumətin tərkibinə sultan Kabusun şəxsi nümayəndəsi (Baş nazir



müavini) və 25 nazir daxildir.

Konstitusiyaya görə ikipalatalı məşvərətçi orqan-Oman Şurası (83 üzvü vardır) və Dövlət Şurası (48 üzv) fəaliyyət göstərir. Ali məhkəmə orqanları – İslam və şəriət məhkəmələridir. Ölkədə siyasi partiyaların və həmkarlar ittifaqlarının fəaliyyəti qadağan edilmişdir.

Oman sultanlığı BMT, Ərəb Dövlətləri Liqası, İslam Konfransı Təşkilatlarının üzvüdür. Ölkənin milli bayramı – 18 noyabr günüdür. 1971-ci ildən ölkə bu günü – Milli gün bayramı kimi geniş qeyd edir.

Oman dünya birliyində öz layiqli yerini tutmaq üzrədir. 1970-ci ilə qədər Omanın beynəlxalq sahədəki bütün maraqlarını Böyük Britaniya təmsil edirdi. 1971-ci ildən Oman qısa müddətdə xarici, ilk növbədə ərəb, sonra İslam, daha sonra dünyanın başqa dövlətləri ilə münasibətlərini nizama salır. Hazırda ölkədə 70-ə qədər xarici ölkənin səfirlikləri fəaliyyət göstərir. Sultanlıq da dünyanın 50-yə yaxın ölkəsində öz səfirliyini açmışdır. Ümumiyyətlə, Oman sultanlığı Qərb təmayüllü istiqamət götürmüş ölkələrdən biridir. Böyük Britaniya və ABŞ ilə münasibətləri çox yaxındır. Dövlət idarəçiliyində Böyük Britaniya müşavirlərinin rolu hələ də öz əhəmiyyətini saxlayır. ABŞ-in hərbi hava qüvvələrinə isə istənilən vaxt Omanın bəzi təyyarə meydanlarından istifadə etmək imkanı verilib.

**Azərbaycan Respublikası ilə münasibətləri.** Oman sultanlığı Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir (30.XII.1991). İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin 13 iyulunda yaranmışdır.

Oman sultanlığı beynəlxalq təşkilatlar (BMT, İKT və s.) çərçivəsində Ermənistan Respublikasının Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı qətnamələrinin qəbul edilməsində Azərbaycanın mövqeyini daim müdafiə etmişdir. İki ölkənin xarici işlər nazirləri arasında diplomatik yazışmalar həyata keçirilir. Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı məlikliyindəki səfiri həm də Oman sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

2003-cü ildə «Azərbaycan Hava Yolları» Dövlət Konserninin nümayəndə heyəti Omanda olmuş və Oman sultanlığı hökuməti arasında hava əlaqələri yaratmaq barədə saziş imzalamışlar.

2004-cü ilin martında Oman Mərkəzi Bankının nümayəndə heyəti Azərbaycana səfər etmiş, təcrübə mübadiləsi aparılmış və əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Azərbaycan Respub-

likasının xarici işlər naziri 2005-ci ilin aprel ayında Omana etdiyi rəsmi səfər çərçivəsində sultanlığın baş nazirinin müavini, xarici işlər naziri və başqa nazir və rəsmi şəxslərlə görüşmüşdür. Səfər zamanı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman sultanlığı Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanmışdır.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

2005-ci ilin məlumatlarına əsasən Oman əhalisinin sayı 3 mln. nəfəri ötmüşdür. Bu göstəriciyə görə dünyada 135-ci yeri tutur. Oman illik təbii artımı böyük olan ölkələrdən biridir. Ötən əsrin 90-cı illərində əhalinin illik artım tempi 3,7 faizə bərabər idi. Hazırda bu rəqəm 3 faizə enmişdir. Əhalinin təqribən 1/3-i iki şəhərdə – paytaxt Məsqət və liman şəhəri Mətrahda məskunlaşıb. XXI yüzilliyin əvvəlləri üçün hər 1000 nəfərə anadan olanların sayı 42, ölənlərin sayı isə 12 nəfərdir. Körpələr və uşaqlar arasında ölüm halları çoxdur. Gözlənilən uzunömürlülük 75 ildir (kişilər üçün 71, qadınlar üçün 73 yaş). Əhalinin təqribən 80 faizi ərəb, qalanları isə Pakistan və Hindistandan gələn müsəlmanlardır. Bu yerlərə gəlib çıxmış Yəmən ərəbləri (yəmənilər) ölkənin şimalında, Səudiyyə Ərəbistanı məlikliyinin Nəcd əyalətindən gələn ərəb tayfaları (nizarilər) isə cənubda məskunlaşmışlar.

Yeddinci yüzilliyin axırlarında omanlılar Şərqi Afrikaya daxil olaraq yerli əhalinin formalaşmasına da müəyyən dərəcədə təsir etmişlər. Omanın qul tacirləri uzun əsrlər boyu Ərəbistan yarımadasının müxtəlif bölgələrinə Afrikadan gətirdikləri qulları satmaqla məşğul olmuşdur.

Qədim adət və ənənələrinə sadiq qalan Oman əhalisi iki qrupa: «ərəb ariba» (yerli ərəblər) və «musta ariba» (qarışıq ərəblər) bölünür. Omanın dəniz sahillərində məskunlaşan ərəblərin Afrika zənci qulları ilə qarışığından mulatlar törəmişdir. Ona görə omanlıların bir qisminin xarici görünüşlərində qara rəngli çalarlar üstünlük təşkil edir. Bununla belə ölkənin daxili bölgələrində yaşayan tayfalar avropoid irqini qoruyub saxlamışlar.

Omanlılar arasında tarixdə məskunlaşmış şəxsiyyətlər də az olmayıb. Dənizçi Sindbadın omanlı olması hamıya məlumdur. Məşhur səyyah Vasqo da Qamanın gəmilərinin Hindistana omanlı



bosman Əhməd ben Məcid aparıb. XVII yüzillikdə omanlı səyyah və dənizçi Əbu Übeydə ben Abdulla ben Qasim yelkənli gəmidə ilk dəfə dünya səyahətinə çıxıb.

Omanda rəsmi dil ərəb dilidir. Şəhərlərdə ingilis dili də çox işlədilir. Dövlət dini İslamın təriqətlərindən olan ibadilikdir. Bu təriqətin meydana gəlməsi VII yüzilliyin ortalarına təsadüf edir. Həmin dövrdə müsəlman siyasi təşkilatları yaranır. Bu təşkilatlar VIII yüzilliyin ortalarında Omanda öz imamlığını yaradırlar. İbadi tərəfdarları özlərini «həqiqi müsəlman» və ya «məsləkinə görə canını fəda edən» adlandırırlar. Ölkə sultanı ibadilərin başçısı sayılan imamdır. Əhalinin böyük bir hissəsi sünnü, farslar, pakistanlılar və hindlilər isə şiə müsəlmanlardır. Şiə icması sayca az olsa da nüfuzludur. Onlar Əl-Bəttin düzənliyində daha çox məskunlaşmışlar.

Omanın dövlət dili ərəb dilidir. İngilis, bəluc, urdu və hindi dilləri də geniş yayılmışdır.

Yaşlı əhalinin 76 faizi savadlıdır. Təhsilin bütün növləri pulsuzdur. Ali təhsil verən məktəblərdən ən nüfuzlusu 1985-ci ildə Məsqətdə təsis olunan Sultan Kabus Universitetidir. 3 min nəfərdən çox tələbə xaricdə təhsil alır. Omanda 1972-ci ildən təhsil pulsuzdur və hər iki cinsdən (kişilər və qadınlar) olanlar üçün eyni şərait yaradılmışdır. Son 30 ildə ölkədə 300 ibtidai məktəb açılmışdır. Humanitar, tibb, təbiət elmləri, kənd təsərrüfatı, texnika, iqtisadiyyat və pedaqoji ixtisaslar üzrə kolleclərdə tələbə hazırlığı aparılır. Şəhərlərdə qadınlar ictimai həyatda kişilərlə bərabər çalışırlar.

Omanda yaşayanların təqribən 55 faizi şəhərlərdə, qalanları isə kənd yerlərində məskunlaşıb. Məsqət, Mətrah, Nəzva, Səlalə, Sur nisbətən böyük şəhərlərdir.

Paytaxt Məsqətdə 400 min nəfərə yaxın əhali yaşayır. Körfəz sahilində, sıldırım dağ yamaclarında yerləşmiş Məsqət bütün göstəricilərə görə ölkənin ən böyük şəhəridir. XVI yüzillikdə şəhəri dənizdən qorumaq məqsədilə portuqaliyalılar onu daş hasarla əhatəyə alır (Bakının İçərişəhəri kimi). Məqsətin köhnə tikililəri də bu hissədə qalmışdır.

Əhalinin sayı artdıqca Məsqət şimala doğru genişlənmiş və onun 4-5 km-də Mətrah adlanan peyk şəhər salınmışdır. Əslində bu şəhərlər artıq birləşmişlər. Yeni şəhərdə müasir üslubda evlər, küçələr, yaşıllıqlar salınmışdır. Möhtəşəm görkəmi olan sultan sarayı da yeni hissədədir. Məsqətdə məscidlərin sayı məktəblərin sayından

çoxdur. Məsqət eyni zamanda ölkənin ən böyük nəqliyyat mərkəzidir. Şəhərin yaxınlığında beynəlxalq dərəcəli təyyarə meydanı fəaliyyət göstərir. Məsqətdə 40-a yaxın məscid vardır. Qahirə və Bağdaddan fərqli olaraq onların yaranma tarixini müəyyənləşdirmək o qədər də asan deyil. Şəhərdə olan məscidlər başqa ərəb ölkələrində yerləşən məscidlərdən tamamilə fərqlənir. İbadilər öz təlimlərində İslam dinində olan qayda-qanunları sadələşdirirlər. Ona görə də ibadilərin məscidləri minarə və digər bəzək-düzəyə malik deyil.

### 4. İqtisadiyyatı

Neft və qazçıxarma sənayesi istisna olmaqla Oman iqtisadiyyatı o qədər də güclü inkişaf edə bilməmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərindən isə Omanda güclü iqtisadi inkişaf hiss olunmaqdadır. İqtisadi inkişafa təkan verən amil isə neft çıxarmaqdır. Lakin neftin ehtiyatı o qədər də böyük deyil. Buna görə neft satışından əldə olunan gəlir ilk növbədə ölkənin iqtisadi mexanizminin yaradılmasına, təsərrüfatın digər sahələrinin inkişafına yönəldilir.

Sənaye sahələrinin yaradılması sahəsində əvvəlcə sement, ərzaq, gübrə və mal-qara üçün yem istehsal edən kiçik və orta həcmli müəssisələrin tikintisinə «yaşıl işıq» yandırıldı. Yeni yaradılan müəssisələrə hökumət tərəfindən müəyyən güzəştlər edilirdi. Məsələn, ölkə rəhbəri yerli omanlıların iştirakı olmadan xaricilərin biznes sahəsində fəaliyyətinə icazə vermir. Dövlət milli mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət yetirir və bütün bu proses «omanlaşdırma» adlanır.

İran körfəzinin neft çıxaran digər ərəb ölkələrindən (Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Səudiyyə Ərəbistanı) fərqli olaraq Oman rəhbərliyi öz vətəndaşları üçün «parnik şəraiti» yaratmır, yəni ancaq omanlı olduqlarına görə onlara pul güzəştləri edilmir. Oman rəhbərliyi yaxşı başa düşür ki, 40-50 ildən sonra ölkədə neft ehtiyatları tükənəcək. Ona görə də bu sahədən əldə edilən vəsait ilk növbədə ölkənin iqtisadi inkişafına təkan verə biləcək obyektlərin tikintisinə qoyulur.

2004-cü ildə ölkənin ümumdaxili məhsulunun dəyəri 22 mlrd.



dollar olmuşdur. Əhalinin hər nəfərinə təqribən 8000 dollar düşür. Ötən əsrin 70-ci illərinin ortalarından neft sektoru iqtisadiyyatın dayağı və əsas gəlir mənbəyinə çevrilmişdir. Ölkə iqtisadiyyatı beşillik planlar üzrə inkişaf edir. Hazırda 2006-2010 illəri əhatə edən yeddinci beşillik həyata keçirilir. Çoxsahəli iqtisadiyyatın inkişafı, əcnəbi işçi qüvvəsini yerli sakinlərlə əvəzləmək üçün milli kadrların ixtisaslarının artırılması əsas vəzifələrdir. Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi cox əhəmiyyətli sayılır. İqtisadiyyatın sahələr üzrə strukturuna nəzər saldıqda ümumdaxili məhsulun 3 faizi kənd təsərrüfatından, 40 faizi sənayedən, 57 faizi xidmət sahələrindən əldə olunur. İqtisadiyyatın orta illik artım tempi 4 faizdir.

**Sənayenin aparıcı sahələri. Ö**tən əsrin 70-ci illərinin əvvəllərindən ölkədə hasilat sənayesinin inkişafında tərəqqi baş verir. Ölkədə neft axtarışı ilə məşğul olmağa 1967-ci ildən sonra başlamışlar. İlk dəfə 1956-cı ildə «Petroleum konseşinz ltd» şirkəti Fəhud rayonunda neft quyusu qazmışdı. Ölkə üzrə neftin kəşf edilmiş ehtiyatları 735 mln. ton (2003), təbii qaz ehtiyatı 815 mlrd kub metrdir. Bu iki sərvət ölkə sənayesinin aparıcı sahələridir. İllik hasilat müvafiq olaraq 45 mln. ton və 10.5 mlrd kub metrdir.

Omanın kontinental şelfində neft axrarışı işləri ilə məşğul olan mütəxəssislərin fikrincə dəniz dibində böyük ehtiyatı olan yataqlar mövcud ola bilər. Ölkədən çıxarılan neftin bir qismi «Eşlend kompani» şirkətinin 1982-ci ildə tikdirdiyi neftayırma zavodunda emal olunur. Bu müəssisənin məhsulları ölkə tələbatını ödəyir, çıxarılan neftin əksər hissəsi isə ixrac olunur. Yaponiya, Fransa və Hollandiya Oman neftinin əsas alıcılarıdır. Ölkənin büdcə gəlirlərinin əsas mənbəyini neft satışından əldə olunan gəlir təşkil edir. Neft istehsalı və ixracı ölkədə möhkəm valyutanın yaranmaasına səbəb olmuşdur.

Neftin kəşfiyyatı və çıxarılması illə «Petroleum Dìvelopment of Oman» şirkəti məşğul olur. Şirkət kapitalının 60 faizi Oman dövlətinə məxsusdur. Ölkədə təbii qaza olan tələbatı ödəmək və dünya bazarına təbii qaz ixrac etmək məqsədilə 80-ci illərin əvvəllərində tədbirlər hazırlanmışdır. 1989-cu ildə dövlət bölməsinin kapitalı əsasında İbal-Məsqət qaz kəməri istifadəyə verilmişdir. Bu magistral qaz kəmərindən ölkənin şimalında yerləşmiş Rusayal sənaye mərkəzinə qollar ayrılır.

Təbii qazdan kibrə istehsalına başlanmışdır. 2000-ci ildən istehsal gücü 6,2 mln ton olan maye qaz zavodu fəaliyyət göstərir. Dünya bazarında neftin qiymətinin dəyişməsindən asılı olaraq ölkə neftdən bir ildə 8-10 mlrd. ABŞ dolları həcmində gəlir əldə edir. Neft və təbii qazdan başqa Omanda mis, xromit daş kömür, qızıl, qurğuşun və s. çıxarılır. Çıxarılan mis filizi Səudiyyə Ərəbistanı kapitalının köməyilə tikilmiş mis əritmə zavodunda emal olunur.

Emaledici sənaye inkişaf etdirilir. Bu sahənin müəssisələrində sement, plastik kütlə məmulatları, soyuducu, un istehsal edilir, meyvə konservləri, Şərq şirniyyatı hazırlanır, xurma qablaşdırılır, balıq qurudulur. İqtisadiyyatın daha sürətli inkişafına maneçilik törədən amil energetika bazasının zəifliyidir. Ölkədə mazut və qazla işləyən bir neçə istilik elektrik stansiyası fəaliyyət göstərir.

Region ölkələrinin hamısında olduğu kimi Omanda da kustar sənətkarlıq bizim günlərədək öz əhəmiyyətini itirməmişdir. Kustar müəssisələrdə yeyinti məhsulları (xurma, qəhvə, Şərq şirniyyatı və s.) istehsal olunur, gümüş, qızıl və misdən müxtəlif zinət məmulatları hazırlanır, omanlıların çox sevdikləri soyuq silah (xəncər, bıcaq), həmçinin dəri, müxtəlif parçalar, xalça-palaz istehsal edilir. Dəniz sahillərində yaşayan sənətkarlar qayıq hazırlamaq üzrə ixtisaslaşmışlar.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Oman tarixən maldarlıq və əkinçilik ölkəsi kimi tanınırdı. İndinin özündə də vahə əkinçiliyi və köçəri maldarlıq öz əhəmiyyətini saxlaya bilmişdir. Omanın lap qədimdən şöhrət tapdığı arıçılıq heyvandarlıqda xüsusi yer tutur. Ərazinin cəmi 7 faizi əkinçiliyə yararlıdır. Əl-Bəttin vadisi və sahil düzənliyi ölkənin mühüm əkinçilik rayonlarıdır. Omanda suvarma məqsədilə yaradılmış yeraltı kanallardan – fələclərdən istifadə geniş yayılmışdır. Əkin sahələrinin 95 faizi suvarılır.

Əkinçilikdə xurma becərilməsi üstünlük təşkil edir. Ən böyük xurma plantasiyaları Əl-Bətindədir. Hər il orta hesabla 150-160 min ton xurma toplanır. Xurma plantasiyalarında xurma ilə yanaşı subtropik və tropik meyvələr – limon, manqo, banan, nar, üzüm və s. yetişdirilir. Limon yetişdirilməsi xüsusilə əhəmiyyətlidir. Yığılan limonun xeyli hissəsi ixrac olunur. Dənli bitkilərdən suya və münbit torpağa çox tələbkar olmayan durra əkinləri üstunlük təşkil edir. Buğda və arpa suvarılan torpaqlarda, tütün və şəkər qamışı isə ölkənin cənubunda yetişdirilir. Omanda tərəvəz və bostan bitkiləri də



becərilir.

Heyvandarlıq ənənəvi sahə olsa da ekstensiv xarakter daşıdığından lazımi səviyyədə inkişaf edə bilməmişdir. Ölkənin fiziki-coğrafi şəraiti davar və dəvə saxlamaq üçün əlverişlidir. Balıq və mirvari ovu omanlıların ənənəvi vərdişlərindən sayılır. Sahil sularında ilboyu balıq ovlanır (bir ildə 100 min ton). Ovlanan balığın 80 faizi ixrac edilir. Ən böyük balıq vətəgələri Barka yaxınlığındadır. Sahildə balığın emalı üzrə müəssisələr tikilmişdir. Omanlılar Ərəbistan dənizi sahillərində dəniz bağaları da ovlayırlar. Bağanın əti yeyilir, qunu isə satılır. İllik balıq ovu 120 min ton həddindədir.

**Nəqliyyatı və xarici siyasəti.** Omanda nəqliyyat sistemi zəif inkişaf etmişdir. Ölkədə dəmir yol xətti yoxdur. Daxili bölgələr ilə əlaqələrdə avtomobil yolları ilə bərabər karvan yolları da öz əhəmiyyətini saxlamışdır. Son illərdə xarici mütəxəssislərin köməyilə Oman körfəzi sahilboyu Məsqət-Əs Suhar istiqamətində 790 km uzunluğunda müasir tələbatlara cavab verən şosse yolu çəkilmiş, Məsqət yaxınlığında beynəlxalq dərəcəli təyyarə meydanı, Mina Kabusda isə iri dəniz portu salınmışdır. Soxar şəhərində ən müasir gəmilərə xidmət edən dərinsulu port salınır.

**Xarici ticarət.** Oman iqtisadiyyatı üçün xarici tacarətin əhəmiyyəti ölçüyəgəlməzdir. Ölkədən neft, neft məhsulları, balıq, meyvə, tərəvəz və s. ixrac edilir. Çox işlənən mallar, maşın və avadanlıq, nəqliyyat vasitələri, çatışmayan ərzaq və s. idxal olunur. Əsas etibarilə Böyük Britaniya, Yaponiya, Hollandiya, ABŞ, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Səudiyyə Ərəbistanı ilə ticarət edir. Milli pul vahidi Oman rialıdır. Bir rial təqribən 3 ABŞ dollarına bərabər tutulur.

Oman xarici iqtisadi əlaqələrində İran körfəzi ölkələrinin əməkdaşlıq Şurasına daxil olan ölkələrlə qarşılıqlı sərfəli əlaqələrin möhkəmləndirilməsinə üstünlük verir. Omanın telekommunikasiya sistemi İran körfəzi zonasında qabaqcıl sayılır. Omana hər il 400-500 min nəfər əcnəbi turist gəlir.

# SURİYA ƏRƏB RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqeyi.** Yaxın Şərq ölkələrindən biri olan Suriya Asiya qitəsinin qərbində yerləşir. Beş ölkə – Türkiyə, İraq, Ürdün, Livan və İsraillə həmsərhəddir. Şimal-şərqdə 183 km məsafədə Aralıq dənizinə çıxışı var. Sahəsi 185,2 min kv. km-dir. 1967-ci ildə baş vermiş İsrail-Ərəb müharibəsi nəticəsində Suriya torpaqlarının Colan təpəlikləri adlanan kiçik bir hissəsi (təqribən 1,0 min kv. km) İsrail tərəfindən zəbt olunub. Sahəsinə görə dünya ölkələri içərisində 86-cı yeri tutur.

Ölkənin coğrafi və hərbi-strateji mövqeyi çox əlverişlidir. Qərbi Asiyanı Afrika və Aralıq dənizi ölkələri ilə birləşdirən mühüm hava, avtomobil yollarının bəziləri Suriya ərazisindən keçir. Digər tərəfdən Aralıq dənizinə birbaşa çıxışı olmayan İraq və Ürdün Suriya torpaqlarından keçməklə Avropa və Şimali Afrika ölkələri ilə əlaqə saxlayır.

**Səth quruluşu və faydalı qazıntıları.** Suriyanın ərazisi iki: dağlıq qərb və düzənlik şərq hissəyə ayrılır. Ərazinin çox hissəsi şimal-qərbdən cənub-şərqə Mesopotamiya ovalığı ilə İran körfəzinə tərəf meylli olan, hündürlüyü 700-200 metr arasında tərəddüd edən yüksəklikdir. Qərb hissə sahilboyu düzənliklərdən, dağ sistemlərindən və tektonik mənşəli dərələrdən ibarətdir.

Ölkənin qərbində yerləşmiş düzənlik təqribən 200 km məsafədə ensiz (10- 30 km) zolaq şəklində Aralıq dənizi sahili boyunca uzanır. Şərqə getdikcə düzənlik tədricən dağlıq bölgəyə birləşir.

Suriya sözünə ilk dəfə klassik antik ədəbiyyatında Esxil* və Herodotun** əsərlərində rast gəlinir və belə güman edilir ki, bu yunan

* **Esxil** – qədim yunan dramaturqu. Yunanıstan – İran müharibəsində iştirak etmişdir. Əsərlərində dövrünün fəlsəfəsi, siyasi-ictimai, əxlaqi məsələlərinə toxunulmuşdur.

** **Herodot** – qədim yunan tarixçisi. Tarix adlanan məşhur əsərin müəllifi. Bir neçə Şərq ölkəsinin tarixi, coğrafiyası, əhalisi, ictimai-siyasi quruluşu barədə məlumat vermişdir.



mənşəli söz olub, Assuriya sözünün təhrif olunmuş şəklidir. Ərəb tarixçiləri və səyyahları Suriya ərazisini həmişə Əş Şam adlandırmışlar. Ulu şairimiz Nizami Gəncəvinin «Sirlər xəzinəsi» əsərindəki «Kərpickəsən kişinin bir cavanla hekayəti» şerində Şam (ölkə paytaxtı Dəməşqin əvvəlki adı) şəhərində baş vermiş hadisələrdən danışılır.

Suriyalıların Bəhr adlandırdıqları Aralıq dənizi sahilboyu düzənliyi, eləcə də bütün ölkənin təbii incisidir. Aralıq dənizinin bu hissəsində su təmiz, şəffaf və istidir. Yanvar-mart ayları istisna olmaqla burada ilboyu çimmək olar. Çimərliklər bəzi yerlərdə çınqıl adlanan xırda daşlarla, bəzi yerlərdə açıq sarı qumlarla örtülüdür.

Laziqiyyə (Latagiya) limanı istisna olmaqla Suriyada əlverişli təbii liman yoxdur. Vaxtilə sovet mütəxəssislərinin köməyilə Laziqiyyədə müasir dəniz limanı salınmışdır. Sahildə yerləşmiş kiçik buxtalardan ancaq yerli əhəmiyyətli gəmiçilikdə istifadə olunur. Ölkənin Livan və Türkiyə ilə sərhədləri dağlıq bölgələrdən keçir. Suriyanın ən hündür yeri Livan sərhədindəki Əş Şeyx dağlarındadır (2814 m). Ölkənin cənub-şərqini Suriya səhrası tutur. Bu səhra Ürdün, İraq və Səudiyyə Ərəbistanı ərazilərinə də daxil olur. Əslində bu səhra quru çay dərələri ilə kəsilmiş yayladır. Yaylanın şimal hissəsində Tədmor Avropa ədəbiyyatında (Palmira) vahəsi yerləşir. Ölkənin şimal-şərqində Dəclə və Fərat çayları arasında Cəzirə yaylası yerləşir. Cəzirə yaylasının şimal hissəsi təsərrüfat baxımından inkişaf etmiş bir ərazi kimi tanınır. Əbd-əl-Əziz dağları bu yaylanı şimal və cənub hissələrə bölür.

Uzunluğu 200, eni 15-30 km olan Aralıq dənizi sahilindəki düzənlikdən şərqə qırışıq dağlar uzanır. Əl-Ğab adlanan tektonik mənşəli dərə bu dağları bir-birindən ayırır. Eni 15-20 km olan Əl-Ğab dərəsi ilə Əl-Asi (Avropa ədəbiyyatında Oront) çayı axır. Əl-Ğabdan cənubda yerləşən dağlar Ənsariyyə adlanır. Bu dağların ətəklərindən Hələb-Laziqiyyə və Həmat-Baniyas istiqamətində müasir tələbatlara cavab verən şosseyolu çəkilmişdir.

Son vaxtlar aparılan geoloji kəşfiyyat işləri nəticəsində ölkədə əhəmiyyətli faydalı qazıntı sərvətləri aşkar edilmişdir. Sənaye əhəmiyyətli ehtiyatı təqribən 300 mln. t. olan neft əsas etibarilə ölkənin şimal-şərqində (Suadiyyə, Rumelan, Qaraçuk, Deyrik, Xirvə yataqları) yerləşmişdir. Tərkibində kükürdün faizi çox olan Suriya neftinin nəql olunması və emalı bir qədər çətindir. Tədmor vahəsi

ətrafında fosforit çıxarılır. Laziqiyyə və Hələb şəhərləri ətrafında aşkar edilmiş mərmər, təbii asfalt, şüşə istehsalında istifadə olunan kvars qumları, daşduz yataqlarının iqtisadi əhəmiyyəti böyükdür. Ölkədə aşkar edilmiş dəmir filizinin tərkibində dəmirin faizi aşağı (30-32) olduğundan ondan geniş istifadə olunmur.

Suriya təbiəti üçün səciyyəvi olan hallardan biri də vahələrin, yəni suvarılan əkinçilik sahələrinin olmasıdır. Ürəksıxıcı təbiəti olan səhralar içərisində adda-budda görünən yaşıl vahələr sözün tam mənasında cənnəti xatırladır. Belə vahələr içərisində Dəməşq Qutası çox məşhurdur. Ümumiyyətlə, Suriya dağlarının ətəklərində yerləşmiş bütün vahələr Quta adlanır. Dəməşq Qutasının sahəsi 300 kv. km-ə bərabərdir. Qədim zamanlardan bizim günlərə qədər Dəməşqin hər hansı bir tərifi ilk növbədə Qutanın təsviri ilə başlayır. Ərəb müəllifləri onu «Şərqin incisi», «Allah vergisi» və s. gözəl adlarla adlandırırlar.

Müsəlman rəvayətlərinin birində deyildiyi kimi, gəncliyində Məkkədən Dəməşqə karvan aparıb gətirən Məhəmməd peyğəmbər (S) bir dəfə gül-çiçəyə bürünmüş Dəməşq Qutasını gördükdən sonra oraya daxil olmaq istəməyib. Ondan yolunu nə üçün başqa yerdən saldığını soruşduqda cavab verir ki, mən cənnət barədə fikirlərimin alt-üst olmasına razı ola bilmərəm. Dəməşq Qutasında badam, qoz, alma, əncir, ərik, sitrus meyvələri və s. yetişdirilir. Suriyanın ikinci məşhur Qutası Tədmordur. Bu vadi Suriya səhrasının şimalında Əl-Asi və Fərat çayları arasında yerləşmişdir. Burada əsasən xurma və zeytun yetişdirməklə məşğul olurlar.

**İqlimi və hidroqrafiyası.** Suriyada Aralıq dənizi tipli subtropik iqlim hakimdir. Ölkənin qərb bölgəsində yumşaq dəniz iqlimi mövcud olduğu halda daxili bölgələrdə və şərqdə kontinentallıq artır. Suriyanın Aralıq dənizi bölgəsinin ürəkaçan təbiəti, xüsusilə səfalı iqlimi ölkənin digər yerlərinin təbiəti və iqlimi ilə təzad təşkil edir. Aralıq dənizi sahilində ən isti ay olan iyunun orta temperaturu müsbət 25-26 °C, Suriya səhrasında isə 45-50 °C dərəcədir. Dəniz sahili bölgəyə 800-900, ölkənin qərbində yerləşmiş Ənsariyyə dağlarının yamaclarına 1500, səhra və yarımsəhralara isə 50-80 mm yağıntı düşür.

Ölkənin ən böyük çayı Fəratdır. Suriya ərazisində bu çay Bəlx, Xabur, Deyr əz-Zor qollarını qəbul edir. Ümumi uzunluğu 2300 km olan Fərat 675 km məsafədə Suriya ərazisindən axaraq İraqa daxil



olur. Fəratda səviyyənin tənzimlənməsi, ucuz elektrik enerjisi əldə olunması və suvarma problemini qismən həll etmək üçün tərkibində azərbaycanlı mütəxəssislərin də olduğu sabiq SSRİ-nin iqtisadi və texniki köməkliyilə hidroenerji kompleksi tikilib istifadəyə verilmişdir. Fərat kimi Türkiyədən başlayan Dəclə cəmi 50 km məsafədə Suriya ərazisindən axır. Dəclə istisna olmaqla Suriya çaylarının su ehtiyatı 50 mlrd. kub metrdir, bunun 25 mlrd. kub metri Fəratın payına düşür.

Fərat çayı dərəsi qədim xalqların və sivilizasiyaların beşiklərindən biri hesab olunur. İran körfəzinə tökülənə qədər Fərat Dəclə ilə birləşir. İki çayarası və ya Mesopotamiya* adlanan hövzədə hələ 5 min əvvəl şumerlərin mədəniyyəti yüksək inkişaf səviyyəsinə çata bilmişdir.Suriya ərazisində Fərat çayının dərinliyi 4-7 metr arasında tərəddüd edir. Fərat çoxlilli çaydır. Hesablanmışdır ki, o, ildə təqribən 15 mln. ton lil axıdır. Bu lilin əksəriyyəti onun dərəsinə və deltasına çökür. Belə lilli torpaqlarda isə pambıq, şəkər qamışı, çəltik və meyvə-tərəvəz yetişdirmək çox əlverişlidir.

**Torpaq və bitki örtüyü.** Suriyanın fauna və flora aləmi o qədər də zəngin deyil. Aralıq dənizi sahili bölgəsində vahələrin və çay dərələrinin məhsuldar torpaqlarında istiliksevən Aralıq dənizi bitkiləri bitir. Humusdan məhrum olmuş səhra torpaqlarında isə ancaq istiyə və quraqlığa davamlı alçaqboylu ağaclara və kolluqlara rast gəlmək olar. Dağların ətəyində tala şəklində meşələr də qalmışdır.

Suriya hökuməti təbiətinə biganə qalan dövlət deyil. Ölkədə ekoloji tarazlığı qorumaq üçün milli parklar, qoruqlar və yasaqlıqlar salınmışdır. Amma bu işlər lazımlı səviyyədə inkişaf edə bilməmişdir.

---

* **Mesopotamiya** (yunanca mezos – orta, potamos – çay, ərəbcə Mabeyn ən nehreyn) Dəclə və Fərat çaylarının hövzələri arasında təbii-coğrafi vilayət. Şərqin qədim mədəniyyət mərkəzlərindən biridir. Bu ərazidə eramızdan əvvəl IV və III minilliklərdə Şumer, Akkad, Ur, II minilliyin əvvəllərində isə Babilistan dövləti yaranmışdır.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Suriya qədim tarixə malik olan ölkələrdən biridir. Əldə olunan məlumatlara əsasən, demək olar ki, eramızdan əvvəl III minilliyin ikinci yarısında Suriyada tayfa quruluşu mövcud olmuş və burada yaşayanların əksər hissəsi oturaq həyat tərzi sürməyə meyl göstərmişlər. Ölkənin əlverişli coğrafi mövqeyi, şəhərlərin və kiçik quldar dövlətlərin yaranması üçün nə qədər münasib idisə, xarici müdaxiləçilər üçün də bir o qədər tamahlandırıcı idi.

Eramızın 633-640-cı illərində Suriya büsbütün ərəblər tərəfindən zəbt edilir. Suriyanın ərəb hakimi Müaviyyə 661-ci ildə özünü Ərəb dünyasının xəlifəsi, Dəməşqi isə Ərəb dünyasının paytaxtı elan edir. VIII yüzilliyin ortalarınadək Suriya Əməvilər xilafətinin siyasi, mədəni və iqtisadi mərkəzinə çevrilir. Məhz bu illərdə Suriyada şəhərlər və ticarət inkişaf etdirilir. VIII yüzilliyin ortalarından Ərəb-İslam dünyasında hakimiyyət Abbasilər sülaləsinin əlinə keçdiyindən, Suriyanın, xüsusilə Dəməşqin Ərəb-İslam dünyasındakı mövqeyi zəifləməyə başlayır. Xilafətin paytaxtı isə Bağdada köçürülür.

Sonrakı yüzilliklərdə də Suriya üçün əmin-amanlıq illəri olmur. Suriya torpaqları səlcuqların, səlibçilərin, Misir məmlüklərinin*, monqolların işğalı altına düşür. XII yüzilliyin axırlarına yaxın Səlahəddin Əyyubinin** Yaxın Şərqdəki müvəffəqiyyətli hərbi əməliyyatları Suriya tarixinin parlaq səhifələri hesab olunur. 1187-ci ildə Fələstin ətrafında səlibçiləri darmadağın etmiş Səlahəddin Əyyubi Qüds şəhərini (indiki Yerusəlim), Suriya və Fələstin torpaqlarını azad etmişdir.

1516-cı ildə Yaxın və Orta Şərqdə çox qüvvətlənmiş Osmanlı imperiyası Suriyanı öz tərkibinə qatır. XIX yüzillikdən başlayaraq

* **Məmlüklər** – Əyyubilər sülaləsinin (1171–1250-ci illər) seçmə qoşun dəstələrini təşkil etmiş döyüşçü qullar. Məmlüklər türk, gürcü, çərkəz, çeçen və başqa Qafqaz xalqlarının nümayəndələri olmuşlar.

** **Səlahəddin Əyyubi (1138–1193)** – Əyyubilər sülaləsinin banisi. Mənşəcə türkləşmiş kürddür. Səlib yürüşünün iştirakçıları ilə döyüşən müsəlman qoşunlarına rəhbərlik etmişdir. Mahir döyüşçü, sərkərdə və siyasətçi kimi tanınır.



Avropanın inkişaf etmiş dövlətləri Suriya ilə maraqlanmağa başlayırlar. 1918-ci ildə türklər Suriyadan həmişəlik getsə də onların yerini fransızlar tutdu. 1928-ci ilin aprelində Suriya rəsmi sürətdə Fransanın mandatlı ərazisi* elan olundu.

1943-cü ilin dekabrında Fransanın Suriya üzərindəki mandatı ləğv edilir. Amma sonuncu yadelli əsgər Suriya torpaqlarını 1946-cı ilin aprelin 17-də tərk edir. O vaxtdan etibarən hər il aprelin 17-də Suriyada Milli bayram – Müstəqillik günü qeyd olunur. Dəməşqin mərkəzi meydanlarının birində iti nəzərləri uzaqlara zillənən, əlində ölkənin azadlıq və müstəqillik rəmzini bildirən məşəl tutmuş suriyalı ərəbin bürüncdən heykəli ucaldılıb. Heykəlin barelyefini isə Suriya xalqının azadlıq uğrunda mübarizəsinin müxtəlif anlarını əks etdirən rəsmlər haşiyələndirir.

1944-cü ildən etibarən yeni yaradılmış gənc Suriya hökuməti ölkənin xarici siyasi müstəqilliyini möhkəmləndirmək üçün bəzi tədbirlər həyata keçirməyə başlayır. 1944-ci ilin iyulunda Sovet İttifaqı ilə Suriya arasında diplomatik münasibətlər yaradılır. 1945-ci ilin fevralında Suriya faşist Almaniyası və Yaponiyasına müharibə elan edir. 1945-ci iln martında Suriya Ərəb Ölkələri Cəmiyyətinin yaradılmasında fəal iştirak edir, 1945-ci ilin oktyabrında isə o, BMT-yə üzv qəbul olunur.

1948-49-cu illərdə Suriya Ərəb ölkələrinin İsrail təcavüzü əleyhinə hərbi əməliyyatlarında iştirak edir. 50-ci illərin ortalarından Suriyanın siyasəti açıq antiimperialist xarakter kəsb edir. 1967-ci ilin iyununda Suriya özü İsrail təcavüzünə məruz qalır. Bu müharibə nəticəsində ölkənin cənub-qərbindəki Colan təpələri adlanan əyalət (sahəsi 1,6 min kv. km) İsrail tərəfindən işğal olunur.

1973-cü ilin oktyabrında baş vermiş İsrail – Ərəb müharibəsindən sonra Suriya ordusu Colan təpələri əyaləti ərazisinin təqribən 1/3 hissəsini, o cümlədən əyalətin inzibati mərkəzi Əl-Quneytra şəhərini İsrail təcavüzündən azad edir. Colan təpəli rayonun qalan hissəsi (təqribən 1 min kv. km) həm də İsrail işğalı altındadır.

1963-cü il martın 8-də Suriyada hakimiyyət Ərəb Sosialist

* **Mandatlı ərazi** – Millətlər Cəmiyyətinin mövcud olduğu dövrdə (1919–1946) beynəlxalq hüquqda Millətlər Cəmiyyəti adından keçmiş Osmanlı imperiyası ərazisinin bir hissəsini, yaxud Almaniya müstəmləkələrini idarə etmək üçün verilmiş səlahiyyət.

Dirçəliş Partiyasının (ərəb abbeviaturası BƏS) əlindədir. 1963-cü ildən etibarən hər növbəti ilin 8 martı Suriyada İnqilab günü kimi geniş qeyd edilir. 1966-cı ilin fevralın 28-də ölkəyə rəhbərlik BƏS partiyasının sol cinahının əlinə keçir. 1970-ci ilin noyabrında isə hakimiyyətə general Hafiz Əsədin başçılıq etdiyi qrup gəlir.

Suriyada Ərəb Respublikasının siyasi həyatı üçün Fələstin və Livan probleminin nizama salınması çox mühüm əhəmiyyət kəsb edir. Ərəb Ölkələri Cəmiyyətinin və Livan hökumətinin razılığı ilə Suriyanın 40 min nəfərə yaxın əsgər və zabiti Livan torpağında onun İsraillə sərhəd bölgələrində cəmləşdirilir. Onlar Livandakı dini-siyasi qruplaşmalar arasında tez-tez baş verən münaqişə və çəkişmələrin qarşısını almaqda Livan hökumətinə köməklik göstərməli idilər.

Sonradan İsrailin təkidi, Livan hökumətinin razılığı ilə Suriya əsgərləri Livandan çıxarılır. Suriyalı əsgərlər Livandan çıxdıqdan sonra 2006-cı ilin iyun ayında Livan torpağında fəaliyyət göstərən Fələstin müxtariyyətində hakimiyyətə gəlmiş Həmas təşkilatının İsrailin terrorçu hesab etdikləri hərbi-siyasi birləşmələrini məhv etmək üçün İsrail Livana hücum etsə də, təqribən 40 gündən sonra BMT-nin Təhlükəsizlik Şurasının bu hadisəyə dair xüsusi qətnaməsinə əsasən Livanın cənub bölgələrindən çıxmağa məcbur olur. İsrail əsgərlərinin zəbt etdiyi Livanın cənub bölgələrinə əsasən BMT-nin sülhməramlı qüvvələri və Livan ordusunun əsgərləri yerləşdirilir.

ABŞ başda olmaqla imperialist dövlətləri Suriyanın yeritdiyi müstəqil xarici siyasətlə, rəsmi Dəməşqin Fələstin xalqının haqq işinin tərəfdarı kimi Suriyanı özlərinin tərtib etdikləri «qara siyahıya» salaraq onu terrorçu dövlət adlandırırlar. Rəsmi Vaşinqton və digər NATO dövlətləri öz vətəndaşlarını Suriyaya turist səfərləri etməkdən çəkindirirlər.

**Dövlət quruluşu.** Suriya seçilmə məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. Konstitusiyaya görə dövlətin başçısının səlahiyyət müddəti 7 ildir. Namizədliyi Ərəb Sosialist İntibah Partiyasının səmanəti ilə parlament tərəfindən irəli sürülür və ümumxalq referdumunun təsdiqinə təqdim olunur. 1971-ci ildən 2000-ci ilə qədər bu vəzifəni Hafiz Əsəd yerinə yetirirdi. Onun vəfatından sonra bu vəzifəyə oğlu Bəşşar Əl-Əsəd seçilmişdir (17.VII.2000). Suriya prezidentinin hüquqları böyükdür. O, silahlı qüvvələrin Baş Komandanı və Müdafiə Şurasının sədri vəzifələrini yerinə yetirir. Nazirlər Şurası bütövlükdə və ayrı-ayrılıqda prezident



və parlament qarşısında məsuldur.

Qanunvericilik hakimiyyəti Xalq Şurası adlanan birpalatalı parlamentə məxsusdur. Deputatların səlahiyyət müddəti 4 ildir. Qanunvericilik sistemi İslam hüququna və mülki hüquqa söykənir. Ölkədə xüsusi İslam Məhkəmələri fəaliyyət göstərir. İcraedici hakimiyyət prezident və Nazirlər Şurası tərəfindən icra edilir. Nazirlən Şurası icraedici hakimiyyətin ali orqanıdır. İnzibati cəhətdən ölkə 14 mühəfəzə (əyalətə) bölünür. Paytaxt Dəməşq ayrıca inzibati vahid kimi idarə olunur. Mühafizələrin və onların inzibati mərkəzlərinin adları eynidir.

Suriya BMT-nin, Ərəb Ölkələri Cəmiyyətinin, İslam Konfransı Təşkilatının, başqa beynəlxalq və regional təşkilatların üzvüdür. Suriyada bir neçə siyasi partiya, həmkarlar, gənclər, qadın təşkilatları fəaliyyət göstərir. Ölkənin daxili və xarici siyasəti Ərəb Sosialist Dirçəliş partiyası (BƏS) tərəfindən tənzim olunur. Partiyanın baş katibi Bəşşar Əsəddir.

BƏS-dən başqa Suriyada digər partiyalar da fəaliyyət göstərir. Bu partiyaların hamısı Mütərəqqi Milli Cəbhə adlanan təşkilatın tərkibindədir. Ölkə parlamentindəki 250 deputat yerinin 16-sı Milli Cəbhənin tərəfdarlarının, bunun 135-i təkcə Ərəb Sosialit İntibah Partiyasının (BƏS) üzvləridir.

Suriyanın daxili və xarici siyasəti Ərəb Sosialist Dirçəliş Partiyası tərəfindən tənzim olunur. Bu partiya 1947-ci ilin aprelində Dəməşqdə, bütün ərəb xalqlarının istiqlaliyyəti və birliyi uğrunda mübarizə şüarları ilə çıxış edən xırda burjua-millətçi qrupların birləşməsi nəticəsində yaranmışdır. «Birlik, azadlıq və sosializm» partiyanın proqram şüarlarıdır. BƏS partiyasının bir sıra ərəb ölkələrində bölmələri mövcuddur.

**Azərbaycan Respublikası ilə münasibətləri.** Yaxın və Orta Şərqin nüfuzlu dövlətlərindən biri hesab edilən Suriya Ərəb Respublikası Azərbaycan Respublikası arasında diplomatik əlaqələr 1992-ci ilin martın 28-də yaradılmışdır. Ölkələrimiz arasında əməkdaşlıq indiyə qədər əsasən BMT və İslam Konfransı Təşkilatı çərçivəsində həyata keçirilir.

Suriya Ərəb Respublikası ilə siyasi, iqtisadi sahələrdə ikitərəfli əlaqələri möhkəmləndirmək məqsədilə 1997-ci ilin aprelində Azərbaycan Respublikasının Prezidenti Dəməşqdə Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi barədə qərar qəbul etmişdir.

1997-ci ilin payızında ölkəmizin xarici işlər naziri Suriyaya rəsmi səfər etmişdir. Səfər zamanı keçirilmiş görüşlərdə regional və beynəlxalq problemlər, Ermənistanın Azərbaycana qarşı yönəltdiyi işğalçı siyasətinin ağır nəticələri, Yaxın Şərq problemi və qarşılıqlı maraq doğuran bir sıra siyasi-iqtisadi məsələlər müzakirə olunmuşdur.

Azərbaycanla Suriya arsında ticarət əlaqələri hələlik birtərəfli istiqamətdədəir. Azərbaycana Suriyadan gətirilən məhsulların dəyərcə 70 faizə qədəri yüngül sənaye məhsullarının payına düşür. Suriyadan kimya və neft-kimya, metallurgiya, agac emalı sənaye məhsulları da idxal edilir. Vaxtilə Suriyada fəaliyyət göstərmiş sovet neftçiləri məhz Azərbaycan Dəniz Neft Qurğularını Layihələşdirmə İnstitutunun layihəsi əsasında Süveydə, Qaraçuk və Rumelan neft yataqlarını istifadəyə verməyə kömək etmişlər. Suriyada işləmiş həmyerlilərimizin əksəriyyəti dövlət mükafatlarıyla təqdim olunmuş, neftçi Lətif Sadıqovun adı «Suriyanın fəxri vətəndaşları» kitabına yazılmışdır.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Suriyada yaşayanlar barədə məlumat eramızdan öncə VI minilliyə aid edilir. Laziqiyyə şəhərinin 15 km-də Uqarit adlanan qədim şəhərin xarabalıqları aşkar edilmişdir. Qədim suriyalıların əsas məşğuliyyəti əkinçilik və maldarlıq olub. Ölkənin şimalında qədim karvan yollarının kəsişdiyi ərazilərdə yaşayanlar isə sənətkarlıq və ticarətlə məşğul olmuşlar. Onlar Ön Asiyada mövcud olan tayfa və qəbilələrin dillərində danışırdılar. Bu dillərin əksəriyyəti semit qrupuna aid idi. Eramızın VII yüzilliyindən etibarən Suriyada ərəb dili, İslam dini və mədəniyyəti güclü kök salıb inkişaf edə bilmişdir.

2005-ci ilə olan məlumatlara əsasən Suriyada 20 mln nəfərə yaxın adam yaşayır. Təqribən 2 mln. suriyalı xaricdə işləyir. Müasir Suriya təbii artımı böyük olan ölkələrdən biridir. 1990-2005-ci illərdə orta illik artım 3 faizə yaxın olmuşdur. Orta ömür müddəti 69 ildir (kişilər üçün 68, qadınlar üçün 70 yaş). Etnik tərkibinə görə əhalinin 90 faizi suriyalı ərəblərdir. Azlıqda qalan xalqlar içərisində kürdlər üstünlük təşkil edir. Ölkədə ermənilər də məskən salmışlar. Kürdlər ölkənin şimalının dağlıq rayonlarında Hələb və Həsəkə vilayətlərində yaşayır. Son illərdə şəhərlərə köçüb gələn kürdlərin sayı artmır.



Kürdlər indiyədək öz qəbilə-tayfa quruluşlarını qoruyub saxlaya bilmişlər.

Dövlət dili – ərəb dilidir. Dövlət dini sünni məzhəbli İslam dinidir. Dindarların təqribən 80 faizə yaxını bu dinə etiqad bəsləyirlər. Əhalinin bir qismi ələvilər və druzlardır. Əhalinin təqribən 10 faizii xristian məzhəblidir. Ölkənin yaşlı əhalisinin təqribən 75 faizi savadlıdır. Ən böyük ali təhsil ocaqları Dəməşq, Hələb, Hims və Laziqiyyə şəhərində yerləşmiş universitetlərdir.

Suriya əhalisi ərazi üzrə qeyri-bərabər yerləşmişdir. Orta hesabla hər kv. km-ə 110 nəfərə yaxın adam düşür. Əhalinin böyük bir qismi ölkənin qərbindəki əyalətlərdə və Aralıq dənizinin sahilində yaşayır. Burada sıxlıq hər kv. km-ə 700 nəfərdən çoxdur. Suriya səhrasında daimi yaşayış məskənləri ancaq Fərat çayı dərəsində və yeraltı sular üzə çıxan vahələrdədir.

Suriyada daxili və xarici miqrasiya mövcuddur. Daxili miq-rasiyalar əsas etibarilə kənd yerlərindən şəhərlərə və əksinə, əhalisi sıx olan əyalətlərdən əhalisi seyrək olan əyalətlərədir. Suriyalıların bir qismi əsas etibarilə iş axtarmaq məqsədi ilə Avropa və Amerika ölkələrinə müharicət etmişlər.

Suriya Ərəb Respublikasında yaşayanların təqribən 60 faizini şəhərlilər, qalanlarını isə kənd yerlərində yaşayanlar təşkil edir. Ölkədə əhalisinin sayı 300 min nəfərdən artıq olan altı şəhər (Dəməşq, Hələb, Hims, Həmat, Deyr-əz-Zur və Laziqiyyə) var. On üç şəhərin əhalisi 50 min, 45 şəhərin əhalisi isə 10 min nəfərdən çoxdur. Şəhərlərdə yaşayanların 80 faizi mühəfzə (əyalət) mərkəzinin əhalisidir.

**Dəməşq** (ərəb dilində «təşəbbüs», «fəaliyyət» mənasını bildirir) nəinki Suriyanın, eləcə də dünyanın ən qədim şəhərlərindən biridir. Dəməşq barədə ilk məlumat e.ə. 1500-cü ilə təsadüf edir. Eramızdan əvvəl X yüzilliyin əvvəllərindən e.ə. 732-ci ilə qədər şəhər qədim Dəməşq padşahlığının paytaxtı olub.

Çoxəsrlik tarixi boyu Dəməşq assuriyalılar, farslar, makedoniyalılar, romalılar tərəfindən dəfələrlə təzyiqə və az qala məhv olmağa məruz qalıb, lakin bir müddətdən sonra ticarət və mədəniyyət mərkəzi kimi yenidən dirçələ bilib. Eramızın 635-ci ilində ərəblər tərəfindən zəbt olunana qədər Dəməşq bizansların hakimiyyəti altında idarə olunub. Eramızın 661-750-ci illərində Dəməşq Əməvilər xilafətinin paytaxtı olduğundan müsəlman

dünyasının ən böyük siyasi, dini və ticarət mərkəzinə çevrilir.

XIII və XIV yüzilliklərdə Dəməşq monqollar tərəfindən basqına məruz qalır və Tamerlan ordusu tərəfindən dağıdılır. 1516-cı ildən I Dünya müharibəsinin axırına kimi Suriya və Dəməşq də Osmanlı imperiyasının tərkibinə daxil idi. Müasir Dəməşq Bərədə çayının hər iki sahilində Kasyun dağının ətəklərində dəniz səviyyəsindən təxminən 700 metr hündürlükdə yerləşib. Təyyarədən şəhərə baxanda o, çay boyunca yaşıl zolaqla əhatə olunmuş böyük ovalığı xatırladır. Belə güman olunur ki, Suriyada mövcud olan bütün qızılgül növlərinin vətəni Dəməşqdir. Əgər Bakıda və Azərbaycanda həvəskarlar üzüm tənəklərini tağlara qaldırırlarsa, Dəməşqdə və Suriyada qızılgülləri tağlara qaldırırlar. Şəhərin coğrafi mövqeyi çox əlverişlidir. O, Aralıq dənizindən Mesopotamiya və İran körfəzinə, Kiçik Asiyadan Ərəbistan yarımadasına və Misirə gedən mühüm nəqliyyat yollarının kəsişdiyi yerdə yerləşsə də, onun mövcudluğu həmişə burada suyun bolluğu ilə bağlı olub. Dəməşq vadisi şəhəri su ilə təchiz etməklə bərabər onun ətrafını əhatə edən bağ, bostan və üzümlüklərdə, bir sözlə şəhər ətrafının yaşıl qurşağında yetişdirilən kənd təsərrüfatı məhsulları ilə də təmin edir.

Qədim Şərq şəhərlərinin hamısında olduğu kimi, Suriya paytaxtının da yeni və qədim hissələri var. Ümumiyyətlə, Dəməşqdə yeniliyə və köhnəliyə, antikliyə və ultramüasirliyə hər addımda təsadüf etmək olar.

Ümumi şəhər ansanblında müasir tikililər daha geniş yer tutduğundan, şəhərin Avropa görkəmi daha tez nəzərə çarpır. Eyni zamanda dövlət tərəfindən tikilmiş yeni binalar, məktəblər, müəssisələr, banklar, qospitallar öz xarici görkəmlərində ərəb memarlıq üslubunu saxlayır. Binaların əksəriyyəti ağ əhəngdaşından tikildiyindən onlar şəhərə parlaqlıq və gözəllik verir.

Dəməşqdə 3 mln. nəfərdən artıq adam yaşayır. Bunların 90 faizi ərəblərdir. Ərəblərdən başqa şəhərin bəzi məhəllələrində kürdlər, türklər və avropalılar məskunlaşıb. Dəməşqdə yaşayanların 90 faizə qədəri etiqadlarına görə sünni müsəlmanlardır. Şəhərdə irili-xırdalı 300-dən artıq məscid fəaliyyət göstərir. Şəhər əhalisinin 100 min nəfəri provaslav və katolik etiqadlıdır. İlk xristian kilsələrindən birinin patriarxiyası* Dəməşqdə yerləşib.

---

* Pravoslav xristian kilsəsinin başçısının yüksək rütbəsi. Həqiqi mənası ata hökmranlığı.



Dəməşq bütün göstəricilərinə görə ölkənin ən iri sənaye şəhəridir. Burada bir neçə toxucu-əyirici fabrik, şüşə, əzcaçılıq, sement, elektrokabel istehsal edən müəssisələr, xalça fabriki, şəkər, konserv, meyvə suyu, pasterizə edilmiş süd istehsal edən zavodlar, həmçinin elektrik stansiyaları, metallurgiya və maşınqayırma müəssisələri var. Dəməşqin fabrik-zavod müəssisələrinin əksəriyyəti şəhərin kənarlarında salınıb.

Dəməşq həmçinin ölkənin mühüm tranzit-nəqliyyat mərkəzidir. Aralıq dənizi vasitəsilə Ürdünə və İraqa gələn yüklərin böyük bir qismi Dəməşqdən keçir. Dəməşq ölkə dəmir yollarının qovşağı olsa da, daxili yük və sərnişin daşımalarında avtomobil nəqliyyatının rolu böyükdür. Dəməşqin bir neçə km-də beynəlxalq dərəcəli aeroport var.

Bütün paytaxtlar kimi Dəməşq də ölkənin siyasi-ictimai və mədəni həyatında böyük rol oynayır. Bütün böyük müəssisələr, elm, mədəniyyət və poliqrafiya mərkəzləri Dəməşqdədir.

Suriyalıların bütün ölkədə ən müqəddəs hesab etdikləri yer, Dəməşqin memarlıq incisi sayılan Əməvilər məscididir. Bu tarixi abidə İslama qədərki qədim Yupiter ibadətgahının yerində tikilib. Eramızın IV yüzilliyində yenidən qurulan bu tarixi abidə müqəddəs İohan krestitel kilsəsi adlandırılmışdı. Suriya ərazisindəki xristian abidələri Əməvi rəhbərliyini ciddi düşündürmüş və əsaslı quruculuq işlərinə sövq etmişdir. Böyük xərc və əziyyətlə başa gələn bu məscid binası müsəlman ölkələrində sonralar tikilən bu tipli binalar üçün həqiqi nümunə olmuşdur.

Dəməşqin görkəmli yerlərindən biri də şəhərin türk qubernatoru Əsəd paşa əl-Əzəmin 1750-ci ildə tikdirdiyi və sonradan əl-Əzəm adlandırılmış saraydır. Bu sarayda Suriya sənətkarlarının uzaq keçmişdən şöhrət qazandıqları Dəməşq dekorativ incəsənətinin bütün növləri təsvir olunub. Saray tikilərkən istifadə olunan tikinti daşlarının müxtəlif rəng çalarları, incə mozaika, ciddi harmoniya və rənglərin simmetrik düzülüşü zərif kübarlıq təsəvvürü yaradır.

Dəməşqə gələnləri Süleymaniyyə dərviş məscidi də cəlb edir. Şəhərdə və bütün ölkədə ən zərif və gözəl məscid kimi tanınan Süleymaniyyə 1554-cü ildə inşa edilmişdir. Süleymaniyyə məscidinin minarələri və böyük günbəzləri şəhərin, demək olar ki, hər yerindən görünür.

## 4. İqtisadiyyatı

İstiqlaliyyətini 1943-cü ildə əldə etsə də, Suriya ancaq II Dünya müharibəsindən sonra müstəqil siyasi və iqtisadi inkişaf yoluna qədəm qoydu. Milli və iqtisadi müstəqilliyinin ilk illərində Suriya Yaxın və Orta Şərqdə kapitalizm münasibətləri hələ rüşeym halında olan aqrar-xammal ölkələrindən biri idi. O zaman ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi.

Suriya hökumətinin həyata keçirdiyi ilk tədbirlər sırasına yerli pulun xarici valyutadan asıllığının qarşısını almaqdır. Milli sənayeni inkişaf etdirmək məqsədilə dövlət bir sıra bankları, hərəsində 100 nəfərdən artıq fəhlə çalışan müəssisələri, habelə sığorta şirkətlərini milliləşdirdi. Ölkənin yeraltı sərvətləri ümumdövlət mülkiyyəti elan olundu, elektrik stansiyalarının üzərinə dövlət nəzarəti qoyuldu.

Suriya hökumətinin iqtisadiyyat sahəsində həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də dövlət bölmələrinin yaradılması idi. Bu prosesin ilk illərində dövlət keçmiş müstəmləkə inzibati idarəsinə mənsub olan mülkiyyəti, xarici şirkətlərə məxsus olan zavod və fabrikləri pul ilə onlardan satın alırdı. Artıq 1965-ci ilin əvvəlləri üçün İraq və Səudiyyə Ərəbistanından başlayıb Suriya ərazisindən keçən neft kəmərləri istisna olmaqla xarici kapital Suriyada öz mövqeyini, demək olar ki, tamamilə itirdi. Sonrakı illərdə dövlət bölmələrinin genişləndirilməsi işinə diqqət daha da artırıldı. Hazırda Suriya sənayesinin istehsal etdiyi ümumi məhsulun yarıdan çoxu dövlət bölmələrinin payına düşür.

İqtisadiyyatın aparıcı sahələrini ələ keçirən Suriya hökuməti planlı inkişaf yolunda ilk addımlarını atmağa başladı. İlk beşillik planın (1961-1965) yerinə yetirilməsi üçün iqtisadiyyata 2,7 mlrd. Suriya funtu məbləğində kapital qoyulmuşdu. Bu plana görə ölkənin ümumi sənaye artımı hər il 7 faizdən az olmamalı idi.

1966-1970-ci illəri əhatə edən II beşillik planın vəzifələrini həyata keçirmək üçün ölkə iqtisadiyyatına təqribən 5 mlrd. Suriya funtu məbləğində kapital qoyulur. İkinci beşillik plan sənaye və nəqliyyat tikintisinə, istilik-energetika bazasının möhkəmlənməsinə və sosial-ictimai məsələlərin inkişafına xüsusi diqqət verməli idi. 1967-ci ildə baş vermiş İsrail-Ərəb müharibəsi beşillik planların həyata keçirilməsinə maneçilik törətdi.

XX əsrin axırlarına yaxın Suriyanın sosial-iqtisadi vəziyyəti bir



qədər ağırlaşdı. Bunun səbəbləri çoxdur. Bu səbəblər içərisində dünya bazarında neftin satış qiymətlərinin stabil olmaması, bəzi ərəb ölkələrinin Suriyaya göstərdikləri əvəzsiz köməkdən imtina etmələri, Livanda ekspedisiya korpusunun saxlanması, Fələstinin açıq-aşkar müdafiə etməsi ilə əlaqədar İsrail və Qərb ölkələri ilə münasibətlərindəki gərginlik və s. bu qəbildən olanlardır. Xarici mütəxəssislər belə hesab edirlər ki, Suriyanın dövlət büdcəsinin 40-45 faizi hərbi xərclərə sərf olunur.

Region ölkələrinin əksəriyyətindən fərqli olaraq Suriya iqtisadiyyatında dövlət öz aparıcı rolunu saxlamaqdadır. Maliyyə, xarici ticarət, dəmir yolu, hava nəqliyyatı və s. tamamilə dövlətin nəzarətindədir. Bununla yanaşı son illərdə iqtisadiyyatda liberallaşdırma və şəxsi bölmənin genişləndirilməsi istiqamətində addımlar atmağa başlanılmışdır. Şəxsi bölmə kənd təsərrüfatı, parakəndə satış, turizm və mehmanxana biznesində, xidmətin müxtəlif sahələri, mənzil tikintisində özünə geniş yer tuta bilmişdir.

2000-ci ildə yeni prezident hakimiyyətə gəlməklə ölkəyə xarici kapitalın cəlb edilməsi üçün geniş işlər görməyə başlanılmış, bütün əsas fondların 30 faizdən çoxunun yer aldığı dövlət sektorunun yenidən qurulması proqramının icrası başlanılmışdır.

2005-ci ildə ölkənin ümumdaxili məhsulunun həcmi 60 mlrd. ABŞ dollarına çatmışdır. Bu isə adambaşına 3500 dollar düşməsinə səbəb olmuşdur. İqtisadiyyatın inkişaf tempi 90-cı illərdə 5,6 faiz təşkil etsə də, 2005-ci ildə bu rəqəm 3,2 faiz həddinə enmişdir.

İqtisadiyyatın sahələr üzrə strukturuna (2004-ci il) kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq Ümumdaxili məhsulun 27 faizini, sənaye sahələri 23 faizini, xidmət sahələri isə 50 faizini təşkil edirdi.

**Sənayenin aparıcı sahələri.** Sənaye Suriya iqtisadiyyatında sürətlə inkişaf edən sahələrdən biridir. Ölkə sənayesində hasilat, neft emalı, metal emalı, hərbi, energetika, kimya, tikinti, yüngül yeyinti sahələri nisbətən inkişaf etmişdir. Əmək qabiliyyətli əhalinin 30 faizə qədəri bu sahələrdə çalışır.

Hasilat sənayesi son illərdə iqtisadiyyatın nisbətən dinamik sahəsinə çevrilmişdir. Neft ehtiyatlarının təqribən 500 mln. tona yaxın olması məlumdur. İllik hasilat isə orta hesabla 30 mln. tondur. Suriyada bərk yanacağın az olması, təbii qaz və su resurslarından zəif istifadə ölkənin enerji balansında neft çıxarmanın rolunu

qüvvətləndirmişdir.

Suriya ərazisində Rumelan, Cibis, Hələb, Cənubi Fərat və Tədmor adlanan 5 iri neft sənaye rayonu ayırmaq olar. 2005-ci ilə olan məlumata əsasən ölkədə 72 neft-qaz yatağı açılıb. Ancaq bu yataqların əksəriyyətinin nefti ağır, parafinli və kükürdlüdür. Hazırda ölkədə sənaye istismarında 7, təcrübə-sınaq istismarında isə 16 yataq fəaliyyət göstərir.

Suriya ərazisində əsas neft rayonu Rumelandır. Ölkədə olan neft ehtiyatının və çıxarılan neftin yarıdan çoxu bu yatağın payına düşür. Ölkə rəhbərliyi Suriyanın neftçıxarma sənayesinin gələcəyini dövlətə məxsus neft şirkətlərinin xarici partnyorlarla əməkdaşlığında görür. 1989-cu ildən bəri Suriyada ABŞ, Böyük Britaniya, Rusiya, Almaniya, Fransa, Norveç şirkətləri neft və qaz kəşfiyyatı işləri ilə məşğul olurlar. Suriyanın neft emalı müəssisələrinin illik gücü 12 mln. tondur. Hims və Bəniyasda yerləşən bu zavodlarda texniki yanacaq, müxtəlif sürtgü yağları və b. məhsullar istehsal olunur. Suriyada neftlə bərabər təbii qaz da çıxarılır.

Ölkədə neft və qazla yanaşı dəmir filizi (ehtiyatı 450 mln. ton), fosfat (ehtiyatı 1,5 mlrd. ton), sement, daşduz da çıxarılır. Yerli fosforit əsasında ölkədə mineral gübrə istehsalına başlanılmışdır. Fosfat gübrələri daxili tələbatı ödəməklə yanaşı ixrac da olunurlar. Kimya sənayesi gübrə və yuyucu maddələrlə yanaşı, lak və boyalar, sintetik materiallar, əczaçılıq və kosmetika məhsulları istehsal edir.

Emaledici sənayenin payına Suriya milli sənayesinin təqribən 20 faizi düşür. Emaledici sənaye sahələri içərisində kapital qoyuluşuna, fəhlələrin sayına və ümumi məhsulunun dəyərinə görə ən inkişaf etmiş toxuculuq sənayesidir. Suriyanın toxuculuq sənayesinin əsasını pambıqtəmizləmə, əyirici, tikiş, trikotaj və corab istehsal edən müəssisələr təşkil edir. Suriyanın toxuculuq sənayesi yerli xammal əsasında inkişaf etməyə başlamışdır. Ölkədə 150 mindən artıq dəzgahı olan ondan artıq əyirici fabrik vardır. Bu fabriklərdə bir ildə təxminən 35 min ton pambıq parçaya olan daxili tələbatını tamamilə ödəyir və müəyyən hissəni ixrac etməyə imkan yaradır. Ölkədə toxuculuq məmulatı istehsalı ildən-ilə artır.

Pambıq parça ilə yanaşı ölkədə yun və ipək parça toxuculuğu da inkişaf etdirilir. Suriyada hər il orta hesabla 2 min ton yun ipliyi hazırlanır. Suriya toxuculuq sənayesinin ixrac üçün istehsal etdiyi hazır məmulatı ilk növbədə Ərəb ölkələrinə, pambıq ipliyi isə Rusiya, Ruminiya, Almaniya, İtaliya və başqa ölkələrə göndərir.



Yeyinti sənayesi əhəmiyyətinə görə toxuculuq sənayesindən sonra ikinci yeri tutur. Yeyinti sənayesinin əsasını şəkər, bitki yağı, konserv, içki, tütün məmulatı istehsalı ilə məşğul olan müəssisələr təşkil edir.

Suriyanın təbii şəraiti şəkər istehsalı üçün əlverişli hesab olunur. Son illərdə şəkər çuğunduru əkin sahələri 13,5 min hektardan 36,0 min hektara qədər, məhsul toplanması 201,6 min tondan 1,3 mln. tona qədər, bir hektardan orta məhsuldarlıq isə 15 tondan 36 tona qədər artmışdır. Ölkədə olan 7 şəkərçuğunduru emalı zavodlarının (Hims, Əzra, Raqqa, Deyr-əz-Zur, əl-Tab, Miskin və Təl-Sabah) birgünlük istehsal qüvvəsi 750 tondan 4000 tona qədər artmışdır. Ölkədə bitki yağı istehsal edən irili-xırdalı yüzlərcə kiçik müəssisə var. Konserv zavodlarının sayı ondan çoxdur. Bir neçə dövlət tütün fabriki bir ildə 5 min ton tütün məmulatı istehsal edir.

Suriyada böyük tikintilər başlandığından tikinti materialları sənayesinin, xüsusilə sement istehsalının əhəmiyyəti xeyli artmışdır. Köhnə müəssisələrinin modernləşdirilməsi və yeni zavodların tikintisi hesabına sement istehsalı ilə «Ceneral sement kompani» şirkəti məşğul olur. Bu şirkətin yeddi şəhərdə (Dəməşq, Hələb, Həmət, Laziqiyyə və s.) iri müəssisələri var. İstehsal olunan sementin böyük hissəsi ölkə daxilində istifadə olunur. Bununla belə qonşu ölkələrə hər il 500-600 min ton sement ixrac edilir.

Sement zavodlarından başqa ölkədə dəmir-beton şpalları hazırlayan zavod, şüşə zavodu, ağac emalı zavodları və tikinti sənayesinə lazım olan başqa müəssisələr var. Suriyada kağız və karton istehsal edən bir neçə müəssisə var. Bu müəssisələr bir ildə 35 min ton məhsul istehsal etmək qüvvəsinə malikdirlər. Yerli müəssisələrin istehsal etdikləri kağız və karton məmulatı ölkə ehtiyacını ödəyə bilmir.

Metallurgiya, metal emalı və maşınqayırma sənayesi 400-dən artıq müxtəlif təmir, mexaniki və metalemaledici müəssisələrdə cəmlənmişdir. Ölkədə idxal olunan hissələrdən soyuducu, paltaryuyan maşın, televizor, elektrik və su sayğacları istehsal edən müəssisələr var.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Əmək qabiliyyəti olan adamların təqribən yarısını özündə birləşdirən kənd təsərrüfatı ölkə milli gəlirinin ancaq 20 faizini yarada bilir, kənd təsərrüfatında üç

bölmə: dövlət, kooperativ və kiçik kəndli təsərrüfatları fəaliyyət göstərir. 1958-ci ildə icarə münasibətləri və aqrar islahatlar haqqındı ilk qanun qəbul olunur. 1963 və 1970-ci ildə aqrar islahat qanunlarına mühüm əlavələr edildikdən sonra torpaq sahibkarlarının mülkiyyəti bir qədər məhdudlaşdırılmışdır.

Aqrar islahatlardan sonra dövlətdən torpaq almış kəndlilər arasında kooperativ hərəkat genişlənməyə başlayır. Hazırda Suriyada 1,8 mln. hektar sahəsi olan 4500-dən artıq kooperativ təsərrüfat var. Ölkə kənd təsərrüfat məhsulları istehsalının 45 faizi bu kooperativlərin payına düşür.

Ümumi sahəsi 18,4 mln. hektar olan Suriya torpaqlarının 8,7 mln.-u kənd təsərrüfatı üçün əlverişlidir, bunun isə təqribən 6,0 mln. hektarından istifadə olunur. Fərat vadisində və oazislərdə suvarılan əkinçilik üstünlük təşkil edir. Becərilən torpaqlarda əsasən dənli (buğda, arpa, qarğıdalı), texniki (pambıq, tütün, şəkər çuğunduru) bitkilər yetişdirilir. Suriyada bostan və tərəvəz bitkiləri, üzüm və meyvə bağları da geniş ərazi tutur. Kənd təsərrüfatı məhsuldarlığının qeyri-sabit və aşağı səviyyədə olması onun texniki-iqtisadi geriliyi ilə bağlıdır. Suriyada əl əməyindən və qoşqu heyvanlarının gücündən hələ çox istifadə olunur. Yem çatışmazlığı üzündən heyvandarlıq lazımi səviyyədə inkişaf edə bilməmişdir. Ölkədə ət, yağ, yun, dəri və bağırsağa (kolbasa istehsalı üçün) olan tələbatın müəyyən hissəsi yerli imkanlar hesabına ödənilir.

Əsasən ekstensiv istiqamətdə (yəni kəmiyyətə üstünlük verməklə inkişaf edən) heyvandarlığın məhsuldarlıq səviyyəsi aşağıdır. Baytarlıq mədəniyyətinin zəif inkişafı, otlaqların çatışmazlığı, müharibələr və başqa səbəblər üzündən son illərdə ev heyvanlarının sayı bir qədər azalmış, təbii artım isə çox zəif olmuşdur.

Suriya hökuməti heyvandarlıqdakı geriliyi aradan qaldırmaq üçün nümunəvi fermalar, elmi-tədqiqat mərkəzləri yaratmışdır. Ölkədə əhalinin ət məhsullarına olan tələbatını ödəmək üçün böyük şəhərlərin ətrafında broyler təsərrüfatları yaradılır. Suriyanın sahil sularında balıq ovu inkişaf etdirilir (ildə orta hesabla 12-13 min ton balıq ovlanır).

**Nəqliyyatı, xarici ticarəti.** Suriyanın nəqliyyat şəbəkəsi o qədər də yaxşı inkişaf edə bilməmişdir. Burada hər min kv. km əraziyə təqribən 6 km uzunluğunda dəmir və 65 km uzunluğunda şosse yolu düşür. Bu göstəriciyə görə Suriya qonşuları Türkiyə və



İraqdan geri qalır. Ölkə daxili yük və sərnişin daşımalarının 80 faizə qədəri avtomobil yollarının payına düşür. Suriyanın bərk örtüklü avtomobil yollarının uzunluğu 40, dəmir yollarınınkı isə 3,1 min km-dir. Boru kəməri nəqliyyatı neftin İraq və Səudiyyə Ərəbistanından tranzit axınına, həmçinin ölkə neftinin nəqlinə hesablanmışdır.

Ölkənin avtomobil yollarının 5 min km-i iqtisadi və strateji əhəmiyyətinə görə beynəlxalq dərəcəlidir. Suriyadan avtomobillə Livana, Ürdünə, İraqa, Türkiyəyə getmək olar. Ölkə daxili ən mühüm dəmir yolu Qamışlı-Laziqiyyə (uz. 758 km) xəttidir. Dəniz nəqliyyatı lazımi səviyyədə inkişaf edə bilməmişdir. Laziqiyyə, Tartus və Bəniyas ölkənin ən böyük dəniz portlarıdır. Dəməşq və Hələb şəhərlərinin yaxınlığında beynəlxalq dərəcəli təyyarə portları fəaliyyət göstərir.

**Xarici ticarət.** Ölkə iqtisadiyyatında xarici ticarət xüsusi əhəmiyyət kəsb edir. Xarici iqtisadi siyasət sahəsində Suriya hökuməti balanslaşdırılmış yanaşma nümayiş etdirir. Ərəb həmrəyliyinə meyllidir və invistisiya ab-havasının yaxşılaşdırılmasına çalışır. Suriya ixracatının əsasını neft, pambıq, sement, arpa, diri heyvan, müxtəlif meyvələr, yun, gön-dəri və s. təşkil edir. Ölkə ixracatından gələn gəlirin təqribən 40 faizi neft və neft məhsullarının, 30 faizi toxuculuq və gön-dəri məmulatının, 10 faizi kimyəvi məhsulların payına düşür. Suriya maşın və avadanlığa, nəqliyyat vasitələrinə, qara və əlvan metallara olan tələbatının təqribən 90, qənd, çay, qəhvə, çəltik, ət məhsullarına olan tələbatının 40 faizini idxal hesabına ödəyir. Bunlardan başqa böyük həcmdə meşə materialları, əhali tərəfindən çox işlənən məmulatlar da idxal olunur.

2005-ci ildə xarici ixracatının dəyəri 6,0 mlrd. dollar həcmində olmuşdur. Əsas alıcıları Qərbi Avropa ölkələri, Türkiyə və Livandır. Elə həmin il idxalın həcmi 5,0 mlrd. dollara bərabər olmuşdur. Ukrayna satıcı dövlətlər sırasında liderdir. Ölkənin pul vahidi – Suriya funtudur. Son illərdə Dəməşq, Tartus, Hələb və Laziqiyyədə Azad ticarət zonaları təsis olunmuşdur. Lakin onlar hələlik lazımınca təşəkkül tapmamışlar.

2005-ci ildə ölkənin xarici borcu 30,0 mlrd. dollardan bir qədər artıq olmuşdur. Suriya Asiya ölkələri ilə əlaqələrinə xüsusi fikir verir. Rusiya ölkədə 40-dan artıq obyekti inşa etməklə yanaşı, ölkə ordusunu müasir silahlarla da təchiz edir. Rusiyaya borcu 12 mlrd. dollardır.

# SƏUDİYYƏ ƏRƏBİSTANI MƏLİKLİYİ

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe**. Səudiyyə Ərəbistanının yerləşdiyi Ərəbistan yarımadası üç tərəfdən dənizlə (şərqdə İran və Oman körfəzləri, cənubda Ədən körfəzi və Ərəbistan dənizi, qərbdə Qırmızı dəniz) əhatə olunmuş iri coğrafi vahiddir. Yarımadada bir neçə ərəb dövləti yerləşir. Bunlardan ən böyüyü Səudiyyə Ərəbistanı məlikliyidir. Ərazisi 2,15, başqa mənbələrə görə 2,21 mln. $km^2$-dir. Səudiyyə Ərəbistanının dövlət sərhədi bəzi bölgələrdə dəqiq müəyyənləşdirilməmişdir. Ərazisinin böyüklüyünə görə region ölkələri arasında birinci, dünyada 13-cü yeri tutur.

Ərazi və sərhəd məsələsi ötən əsrin 50-ci illərinə qədər Cənubi Ərəbistan və İran körfəzində bir sıra ərəb əmirliklərini öz nəzarəti altında saxlayan Böyük Britaniya müstəmləkəçiləri tərəfindən bilərəkdən dolaşıqlığa salınmış və indiyə qədər qəbilə, sülalə münasibətləri və iqtisadi amillərlə ağırlaşmış, çətin həll olunan problemə çevrilmişdir. Məlikliyin Yəmən, Oman və Birləşmiş Ərəb Əmirlikləri ilə dövlət sərhədi dəqiq demarkasiya olunmamışdır. 1969-cu ildə Səudiyyə Ərəbistanı – Küveyt xüsusi dövlət komissiyası Küveytlə Səudiyyə Ərəbistanı arasında yerləşmiş «Bitərəf zona» adlanan ərazini bölüşdürmək barədə razılığa gəlmişlər.

Səudiyyə Ərəbistanı əlverişli coğrafi və strateji mövqeyi olan region ölkələrindən biridir. Avropa, Asiya və Afrika arasında mərkəzi mövqe tutan Səudiyyə Ərəbistanı qərbdən Qırmızı dəniz, şərqdən İran körfəzinin suları ilə əhatə olunmuşdur. Dəniz sərhədlərinin ümumi uzunluğu 2510 km-dir.

**Səth quruluşu və faydalı qazıntıları**. Geoloji cəhətdən Ərəbistan yarımadası Afrikanın şimal-şərq sahilinin davamı olan qədim qaya süxurlarından ibarət bir platformadır. O qədər də uzaq olmayan geoloji dövrdə bu regionda bir sıra nəhəng çatlar əmələ gəlmişdir ki, bunun nəticəsində sonralar Qırmızı dənizin suları altında qalan dərə formalaşmışdır. Ərəbistan platformasının meylliyi qərbdən şərqə olduğundan Qırmızı dənizin şərq sahili İran körfəzi sahilindən hündürdür. Ərəbistan yarımadasının ən uca dağları Şərq sahildədir



(Cəbəl-Şəfa və Cəbəl-Hicaz).

Cəbəl-Şəfanın davamı olan Hicaz dağları qırılmaz zəncirvarı deyildir. Bu dağlar en dairəsi istiqamətində dərin dərələr, keçidlər və «Hərrat» adlanan nəhəng lava sahələri ilə bir-birindən ayrılır. İlk baxışdan Hərrat sahələri adamı heyrətə gətirir: qara, kələ-kötür, nəhəng kömür parçalarına bənzəyən bu daşlar 10 km-lərlə səthi əhatə edir, insana ay landşaftı təsiri bağışlayır. Burada yer başdan-başa lava ilə örtülmüşdür, təkcə küləyin gətirdiyi qumla dolmuş kiçik çuxurlarda, bu yerlərin cansızlığını daha da nəzərə çarpdıran qısaömürlü səhra çiçəyi bitir (hərrat-qaynar olmaq, isti olmaq deməkdir).

Səudiyyə Ərəbistanında ən yüksək zirvələr Hicaz (mənası manea, sədd deməkdir) dağ sistemindədir. Burada orta hündürlük dəniz səviyyəsindən 2000 m yüksəkdir. Cəbəl-İbrahim kimi ayrı-ayrı zirvələrin hündürlüyü 2500 m-dən çoxdur. İqlim şəraitinə görə ölkənin ən gözəl yeri məhz buradır. Belə ki, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşən və əlverişli iqlimi olan Ət-Taif şəhəri ölkənin ən məhşur istirahət yerlərindən biri sayılır.

Ölkə ərazisinin əksər hissəsini Böyük və Kiçik Nəfud və Rub-əl Xali səhraları tutur. Böyük Nəfud səhrasından sel sularının və küləyin gətirdiyi qum yığınlarından əmələ gəlmiş yerlərin landşaftının səciyyəvi xüsusiyyəti səhranın at ayağının izini xatırladan nəhəng çuxurlarla (ərəblər bunu fulci adlandırır) örtülü olmasıdır. Bəzi fulcilərin diametri 2 km-ə, dərinliyi 80 m-ə çatır. Böyük Nəfuddan cənubda yerləşən Kiçik Nəfud səhrasının dyunları (qum təpələri) arasında səhra otlarına, yayın ən isti günlərində belə yaşıllığını və təravətini saxlayan alçaqboylu tikanlı kollara rast gəlmək olar. Ona görə də bu rayon bədəvilərin ən çox sevdiyi otlaq yeridir.

Ərəbistan yarımadasının ən böyük səhrası (sahəsi təqribən 1,0 mln. $km^2$) olan Rub-əl Xalidə (ərəbcədən tərcümədə boş dörddə bir deməkdir) şiddətli küləyin təsirindən qumun üst qatı daim hərəkətdə olduğundan adamda elə təsəvvür yaranır ki, hündür qum yığınlarının üstündən tüstü çıxır. Səhranın Bəhr-əs-Səfi adlanan qərb hissəsi, xüsusən pis ad çıxarmışdır. Buradakı qumlar at üçün keçilməzdir, «səhra gəmisi» adını qazanmış dəvələr də barxanların ətəklərində qarnına qədər quma batır. Ölkənin Əl-Həsa adlanan İran körfəzi sahilləri səthi qumlu düzənliklərdən ibarətdir.

İlk nəzərdə qəribə görünsə də ərazisinin çox hissəsini cansız qum yığınları təşkil edən Səudiyyə Ərəbistanı hökuməti Avtsriyanın

«Şerf» şirkətindən qum almaq barədə saziş imzalamışdır. Xüsusi texnologiyaya əsaslanan bu qum «qeyri-adi keyfiyyətlərə» malikdir. Xüsusi emaldan sonra o uzun müddət rütubəti özündə toplamaq və saxlamaq qabiliyyətinə malik olur. Mütəxəssislərin fikrincə, belə qumun 1 kub metri tərkibində 60 litr su saxlamaq imkanına malikdir. Toplanmış sudan sonradan lazım olan vaxt istifadə etmək olar. Səudiyyə Ərəbistanından başqa Uqanda, Keniiya, Yaponiya da bu cür qumları idxal edib, ondan istifadə edirlər.

Ötüb keçmiş sellərin, çayların «vadi» adlanan böyük və kiçik yataqları Ərəbistan yarımadası relyefinə ayrı bir xüsusiyyət verir, onlar müxtəlif istiqamətlərdə uzanıb gedirlər. Ərəbistan iqliminin daha yağışlı qədim dövründə aramsız olaraq vadilərdən axan sellər və çaylar Rub-əl Xali səhrasından İran körfəzinə tərəf axırdılar.

Ölkədə yağışlı dövrlərdə cəmi bir neçə vadi su ilə dolur. Məsələn, mənbəyi Məkkə şəhəri yaxınlığından başlayan Fatimə vadisində daşqın vaxtlarında axar suyun eni bəzən bir neçə kilometrə çatır. Səudiyyə Ərəbistanının qərbində ən mühüm vadi Dəvasir vadisidir. Bişə, Rəniyə, Tətlit və bir çox başqa adsız çay yataqlarının «birləşməsindən» əmələ gəlmiş Dəvasir vadisi və Səudiyyə Ərəbistanının qərbindəki başqa bütün quru çay yataqları kimi Kiçik Nəfudun qumlarında sona yetir. Bir neçə ildən bir, xüsusilə uzun müddət yağan yağışlardan sonra bu vadilər su ilə dolur.

Buna baxmayaraq Dəvasir sisteminin bütün vadilərində çox da böyük olmayan dərinlikdə yeraltı sular vardır. Bunlardan xurma ağaclarının və bəzi taxıl bitkilərinin becərilməsində istifadə edirlər. Məsələn, Bişə vadisinin Dəvasirlə birləşdiyi yerdən 250 km məsafədə zəngin yeraltı su təbəqəsi mövcuddur. Bu vadidə əs-Sülayil şəhəri istiqamətində 100 km məsafədə yeraltı sular 1-2 metrə qədər dərinlikdən çıxır.

Əsrin əvvəllərində Ərəbistana gəlmiş avropalı səyahətçi Douti yazır ki, Dəvasir vadisinin oazisləri bədəvi qəbilələrini xurma ilə təchiz edir. Buradakı xurma ağacları meşəlikləri sürətlə gedən dəvə ilə üçgünlük yol uzunluğundadır. Dəvasir, Tətlit, Həmd, Bişə və Rəniyə vadilərində qədim kəndlərin xarabalıqlarına da rast gəlmək olur. Bu onu göstərir ki, keçmişlərdə bu yerlərin əhalisi indikindən xeyli çox imiş.

Qırmızı dənizin Səudiyyə Ərəbistanına aid edilən ərazi suları daxilində onlarla kiçik adalar Səudiyyə Ərəbistanına məxsusdur. Bu



adaların səthi qayalıqlardan, mərcan riflərindən, yaxud qumluqlardan ibarətdir. İran körfəzinin sahilləri isə daha girintili-çıxıntılıdır. Lakin qumlu alçaq sahil, kiçik körfəzlərin dayazlığı onlardan gəmiçilik məqsədilə istifadə olunmasını çətinləşdirir. Bəhreyn boğazı eyniadlı arxipelaqı materikdən ayırır. İran körfəzi sahilində Dəmman ticarət və Ras-Tənnur neft limanları fəaliyyət göstərir.

Səudiyyə Ərəbistanı faydalı qazıntılar, xüsusilə də yanacaq sərvətləri ilə yaxşı təmin olunmuş ölkələrdən biridir. Neft ehtiyatına görə o dünyada birinci yeri tutur. Ehtiyatı 37,3 mlrd. tondan artıq olan neftin ən iri yataqları ölkənin şərqində və İran körfəzinin şelf zonasındadır. Təbii qazın ehtiyatı 6,4 trln. $m^3$-dir. Qaz ehtiyatına görə dünyada yeddinci-səkkizinci yerdədir.

Son tədqiqatların nəticəsində ölkənin qərb hissəsində Fatimə vadisi rayonunda tərkibində metalın faizi 47-yə çatan və ehtiyatı böyük olan dəmir filizi yataqları aşkar edilmiş və həmin yataqlar əsasında metallurgiya müəssisəsi tikilmişdir. Yəmənlə sərhəd bölgələrində mis və digər polimetal filizlər, Ciddə şəhərindən şimalda uran filizi yataqları tapılmışdır.

Bunlardan başqa ölkədə ehtiyatı 1 mlrd. tondan artıq olan daşduz yataqları da aşkar edilmişdir. Daşduz Cizan şəhərinin yaxınlığında çıxarılır. Səudiyyə Ərəbistanı tikinti materialları ilə də zəngindir. Ölkənin çox yerində daş, gips, gil, qum və s. vardır. Yerli əhali bunlardan geniş istifadə edir. Yanbo şəhərindən şimalda böyük gips yataqları yerləşib. Dəmman yaxınlığında yerli əhəngdaşı əsasında sement zavodları fəaliyyət göstərir. Səudiyyə Ərəbistanı hökuməti 1972-ci ilin iyulundan neftdən başqa ölkənin digər mineral sərvətlərinin istismar edilməsini nizama salan yeni qanun qəbul etmişdir. Bir sıra güzəştləri olan bu yeni qanun xarici və yerli sahibkarları faydalı qazıntıların kəşfiyyatını aparmağa daha da həvəsləndirir.

**İqlimi və hidroqrafiyası**. Səudiyyə Ərəbistanının ərazisi bütövlükdə quru subtropik zonadadır. Bu zonada yağıntı az, temperatur isə yüksəkdir. Ölkənin mərkəzi hissəsində sahil bölgələrindən fərqli olaraq (bu bölgələrdə havanın yüksək hərarətinə yüksək nəmişlik də əlavə olunur) havanın quruluğu istiyə dözməyə imkan verir. Qırmızı dənizin şərq sahilində ilin 10 ayı çox isti keçir. Buxarlanmış hava tez bir zamanda adamın əynindəki paltarı isladır. İran körfəzi sahilində istiyə dözmək Qırmızı dəniz sahillərinə nisbətən daha asandır.

Səudiyyə Ərəbistanında hava şəraitinin və temperaturun for-

malaşmasında küləklər mühüm rol oynayır. Ölkənin şərq hissəsində şimal və şimal-qərb küləkləri hökm sürür (ərəblər bu küləkləri «şemal» adlandırırlar). Bu küləklər qış aylarında temperaturun kəskin surətdə aşağı düşməsinə səbəb olur və Hind okeanından əsən ılıq hava axınını dağıdır. İnsan orqanizminə daha çox zərər vuran isti Şərq küləyini ərəblər «səmum» adlandırırlar. Bu söz «zəhərli», «zərərli» mənalarını bildirir.

Hind okeanının musson küləkləri ölkəyə yağış gətirir. Bu yağışlar subtropik zonalarda olduğu kimi adətən güclü, qısamüddətli olduğundan təsərrüfata, evlərə böyük ziyan vurur. Mərkəzi Ərəbistanda və Nəcddə yağışlar yay və qış aylarında, Hicazda isə qışın və yazın əvvəllərində yağır. Ölkənin şərq hissəsində yağışlar adətən noyabr, dekabr aylarında başlayıb may ayında qurtarır. Ən yağışlı yer Asir adlanan cənub-qərb rayonudur.

Burada il ərzində sahilə 200 mm, dağlara 600 mm-ə qədər yağıntı düşür. Mərkəzi rayonlarda və Nəcddə il ərzində yağıntı 100 mm-ə yaxın, Hicaz dağlarında bundan bir yarım, iki dəfə çox olur. Ölkənin şərq hissəsində (Dəhran rayonu) yağıntının orta illik miqdarı 75 mm-dir, lakin bəzən bu 175 mm-ə qədər artır, ya da 25 mm-ə qədər enir.

Ərəbistan yarımadası platforıması şərqə tərəf getdikcə alçaqlaşdığından qərb rayonlarında yağan yağışlar suyadavamlı təbəqələrə qədər süzülüb keçir və şərq rayonlarının yeraltı rezervuarlarında yığılıb qalır. İran körfəzi rayonunda quyu qazmaqla təmiz şirin suyun asanlıqla əldə edilməsi bununla bağlıdır. Əl-Həsa və Əd-Katif oazislərində əsrlərdən bəri ərəblər quyunu əl ilə qazıb su çıxarırlar. İran körfəzi rayonu sahillərində, hətta körfəzin dibində belə şirin su fəvvarələri aşkar edilmişdir. Bu səbəbdən də sahil rayonunun şirin su ilə təchiz olunması, yarımadanın başqa hissələrinə nisbətən qat-qat yaxşıdır.

Qərbdə, dəniz səviyyəsindən 200-400 m hündürlükdə olan Dəhnə qumluqlarında isə su azdır. Burada yağış suyunu kiçik hovuzlara yığır, əl ilə 70 m, bəzən daha dərin quyular qazırlar. Kifayət qədər yaxşı içməli su əldə etmək üçün qazma üsulu ilə 160-230 m dərinliyə qədər quyu qazmaq və güclü nasoslardan istifadə etmək lazım gəlir. Bir çox yerlərdə su şor çıxır və içmək üçün yararlı olmur.

Səudiyyə Ərəbistanında daimi axara malik çaylar, eləcə də



şirin sulu göllər yoxdur. Buna baxmayaraq çox yağıntılı illərdə su nəinki çayların quru yatağını (vadini) doldurur, hətta müvəqqəti axınlar və göllər yaradır. Bu cür göllərin suyu çirkli və duzlu olduğundan ondan məişətdə istifadə olunmur. Qalın qum qatından keçərək yaxşıca süzülən və keyfiyyətinə görə bulaq suyundan seçilməyən yeraltı suların əhəmiyyəti böyüyür.

**Torpaq və bitki örtüyü**. Səudiyyə Ərəbistanında bitki örtüyünün kasıblığı (Asir dağlarının terraslarını və mədəni bitkiləri olan yaşıl vadilər istisna olmaqla), səthin qumlu və daşlı, temperaturun yüksək və yağıntının az olması ilə izah olunur.

Burada ən çox yayılmış ağac xurma palmasıdır. Bu ağac vətəni olan Ərəbistan yarımadasından qədim Mesopotamiyaya , Misirə, İsrailə və başqa ölkələrə yayılaraq Yaxın Şərqin bir çox xalqlarının müqəddəs ağacına çevrilmişdir. Səudiyyə Ərəbistanında bizim başa düşdüyümüz mənada meşə yoxdur. Amma burada alçaqboylu tamarisk* cəngəllikləri çoxdur. Bu kollar qumlu torpaqda yaxşı inkişaf etdiyindən onları süni surətdə də becərirlər.

Yeri gəlmişkən, səhrada yaşamağın nə qədər çətin olması, ərazisinin çox hissəsi cansız qumlardan ibarət olan Səudiyyə Ərəbistanında kəskin surətdə hiss olunur. Dəhşətli istiyə və nəfəsqaraldan bürküyə qalib gəlmək, qum tufanlarının vurduğu zərəri minimuma endirmək, susuz, təbii bitki örtüyündən məhrum olmuş səhrada təqribən 25 mln. əhalinin normal həyatı və dinamik surətdə inkişafı, sənaye, kənd təsərrüfatı və məişət xidmətləri üçün kifayət qədər içməli su mənbəyi tapmaqda elm və texnikanın, o cümlədən, kosmonavtikanın nailiyyətlərindən istifadə etməyi bacaran adamlara qibtə etməmək olmur.

İçməli su ilə təminat Səudiyyə Ərəbistanı dövləti qarşısında duran ən ümdə problemlərdən biridir. Hazırda ölkədə 30 su təmizləyici qurğu fəaliyyət göstərir ki, onlar bir ildə bir mln.$m^3$ təmiz su istehsal edə bilirlər. Amma bir tərəfdən bu özü azlıq edir, digər tərəfdən baha başa gəldiyindən Səudiyyə Ərəbistanı bu problemin həlli üçün çıxış yolları, alternativ variantlar axtarır.

Bu yollardan biri də Antarktidanın şelf və ya materik

---

* **Tamarisk** - alçaqboylu istiyə və susuzluğa davamlı ağac və kol. Qumların irəliləməsinin qarşısını almaq üçün əkilir.

buzlaqlarından istifadə etməkdən ibarətdir. Mütəxəssislər hesablamışlar ki, Antarktida aysberqlərinin (suya düşmüş buz dağı) Səudiyyə Ərəbistanı sahillərinə gətirmək texniki cəhətdən çətin deyil və buzlaq suyu təmizlənmiş dəniz suyundan dəyərcə 50-70 faiz ucuz başa gələ bilər. İkinci variant isə aysberqlərin Səudiyyə Ərəbistanına nisbətən Antarktidaya xeyli yaxın yerləşmiş Cənubi Afrika Respublikası sahilərinə çatdırmaq, həmin buzlaqdan alınmış təmiz suyu tankerlərə dolduraraq Səudiyyə Ərəbistanına göndərməkdir.

Səudiyyə Ərəbistanı hökuməti təbiətinə biganə qalan dövlət deyil. Ölkədə ekoloji tarazlığı qorumaq üçün milli parklar, qoruqlar və yasaqlıqlar salınmışdır. Amma bu işlər lazımi səviyyədə inkişaf edə bilməmişdir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Səudiyyə Ərəbistanı köçəri ərəb tayfalarının çox qədimdən məskunlaşdığı ərazilərdəndir. Ərəb tayfaları ilkin dövrlərdə ölkənin şimal-şərqində, eramızdan əvvəl ikinci minillikdə isə Ərəbistan yarımadasının hər yerində yayılmışdır. Məkkə şəhəri tezliklə Ərəbistanın mühüm siyasi, ticarət mərkəzinə çevrilir. Məkkəlilər yeddinci əsrin ortalarında qonşu tayfaları öz ətrafında birləşdirdilər. Hicaz əyalətində yeddinci əsrdə yeni din – İslam və ilk müsəlman teokratik dövləti – xəlifət yaranır. Xəlifətin ilk paytaxtı Mədinə şəhəri olur.

Ərəb xəlifəti VII-VIII əsrdə Əməvilərin, VII-IX əsrlərdə Abbasilərin hakimiyyəti altında olur. X-XII yüzilliklərdə Ərəbistan yarımadasında müstəqil əmirliklər, sultanlıqlar yaranır. XVI əsrdə ərəb ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı (o vaxtlar Hicaz adlanırdı) Osmanlı imperiyasının təsiri altına düşür. XVIII yüzilliyin ortalarında türklərin Ərəbistandan çıxarılması hərəkatı başlanır. Bu hərəkata Nəcd əyalətinin Səudilər sülaləsindən olan Əmir Məhəmməd ibn Səud başçılıq edir. O, qarşısında Ərəbistanı İslamın vəhhabilik* təriqəti bayrağı altında birləşdirib azadlıq hərəkatına

* **Vəhhabilik** – ortodoksal İslamda yaranmış dini-siyasi cərəyan. XVIII əsrin ortalarında Nəcddə türk sultanlarına qarşı ərəblərin azadlıq hərəkatı.



başlamaq məqsədi qoymuşdu. XX əsrin əvvəllərində Ərəbistan yarımadasında əmirliklərin birləşdirilməsi və vahid mərkəzi dövlət yaradılması uğrunda mübarizə daha geniş vüsət alır. Nəhayət, 1926-cı ilin yanvarında Nəcd əmirliyinin hakimi Əbdül Əziz ibn Səudun başçılığı ilə müstəqil dövlət yaradılır. Əbdül Əziz ibn Səud özünün «Hicaz, Nəcd və Birləşdirilmiş digər əyalətlərin» məliki elan edir.

1932-ci il sentyabrın 23-də Səudiyyə Ərəbistanı adı almış məlikliyin tarixi-coğrafi əyalətlərinin (Hicaz, Nəcd, Əl-Həsa və Əl-Asir) bir dövlət tərkibində birləşdirilməsi haqqında məlikin fərmanı elan olunur. O vaxtdan Səudiyyə Ərəbistanı məlikliyi dünya xəritəsinə düşmüş və həmin gün milli bayram şəklində geniş qeyd olunur. 1943-cü ildə Səudiyyə Ərəbistanı məlikliyi ilə diplomatik münasibətlər yaradan ABŞ, 1951-ci ildə «Qarşılıqlı müdafiə və qarşılıqlı yardım» haqqında saziş imzalayır.

Səudiyyə Ərəbistanı inkişaf etmiş ölkələr ilə iqtisadi və siyasi əlaqələri genişləndirmək, antikommunizm siyasəti yürütməklə yanaşı ərəb ölkələrinə qarşı İsrail təcavüzünü pisləyir və bu təcavüzdən ziyan çəkmiş ərəb ölkələrinə və ümumiyyətlə, müsəlman ölkələrinə maddi yardım göstərir.

Xarici mütəxəssislərin və fəhlələrin ilk dəstələri Səudiyyə Ərəbistanında ötən əsrin 60-cı illərindən görünməyə başladı. Neftçıxarmanın sürətli artımı illərində milyonlarla fəhlə Ərəbistana axışıb gəldi. Ərəb ölkələrinin, Hindistanın, Pakistanın, Banqladeşin, Cənubi Koreyanın, Tayvanın, Filippinin və s. ölkələrin mütəxəssisləri təyyarə meydanları, magistral yollar, iri müəssisələr, elektrik stansiyaları, bank binaları tikdilər, yaşıllıqlar saldılar və indiyədək bu sahillərdə işləyib xidmət edirlər.

Şübhə yoxdur ki, əcnəbilər məlikliyin yerli əhalisi kimi sosial nemətlərdən istifadə edə bilmirlər. Onların iş günü formal olaraq normalaşdırılsa da, əmək haqqı yerli əhaliyə verilən əmək haqqından xeyli aşağıdır. Buna baxmayaraq xaricilər aşkar, yaxud gizli surətdə Səudiyyə Ərəbistanına o ümidlə axışıb gəlirlər ki, bir neçə ildən sonra öz gələcəklərini təmin edəcək qədər vəsait qazanıb vətənlərinə

Banisi Məhəmməd ibn Əbd Vəhhabdır. Vəhhabilər Qurani-Kərimi qəbul etsələr də, İslam dinində müqəddəslərə pərəstişi, dərvişliyi rədd etmiş, cihata böyük diqqət vermişlər.

qayıda bilsinlər.

Ölkənin tarixində hakimiyyətə qarşı ən böyük çıxış İslam ənənəçilirənin üsyanı oldu. 1979-cu il noyabrın 20-də səhər minə yaxın adam Məkkədə müsəlman dünyasının əsas müqəddəs yeri olan Əl-Həram məscidini tutdu. «İslam dinindən ayrılmış, amerikanlaşmış hakimiyyəti» devirmək şüarı altında keçirilən üsyan İranda baş vermiş fevral inqilabından da ilham almışdı. Hakimiyyət orqanları Məkkədə üsyanı yatırsa da, bəzi dəyişikliklər etməyə məcbur oldu. Söz verildi ki, məsləhətverici məclis yaradılacaq, dövlət vəsaitlərinin xərclənməsi üzərində nəzarət artırılacaq, korrupsiyaya qarşı mübarizə gücləndiriləcək. Bundan əlavə hökumət şiələrin yaşadığı bölgələrin inkişafı üçün ayrılan maliyyələşdirməni xeyli artırdı, onların dini həyatdakı məhdudluğunu bir qədər azaltdı.

Səudiyyə Ərəbistanı Cəmiyyətində ölkənin idarəçiliyində iştirak etmək istəyənlər çoxdur. İçərisində hakim ailənin şahzadələri olan qüvvələr kapitalist inkişaf yolunun gələcəyini təmin etməyə, rejimin demokratikləşdirilməsinə nail olmağa can atırlar. Digər tərəfdən İslam fundamentalizminin güclü cərəyanı islahatların qabağını almağa çalışır və belə bir şüar irəli sürür: «Əgər elektrik işığı dinin alovunu kölgədə qoyursa, onu söndürmək daha yaxşıdır».

Məlikliyin hakim dairələri üçün yenilik tərəfdarları ilə İslam ənənəçiləri arasında müəyyən çıxış yolları tapmaq bir qədər çətindir. Buna baxmayaraq Səudilər sülaləsinin həm siyasi, həm də sosial-iqtisadi həyatda rollarının saxlanılması, mütləqiyyətin hələ yaşamağa qadir olduğunu göstərir.

**Dövlət quruluşu.** Səudiyyə Ərəbistanı məlikliyi mütləqiyyət formalı idarəetmə üsuluna malik teokratik monarxiyadır. Qurani-Kərim konstitusiyanı əvəzləyir. Məlik dövlətin rəhbəri olmaqla yanaşı həmçinin Səudiyyə Ərəbistanı ərazisində yerləşən iki müqəddəs məscidin (ərəbcə Xadümül hərəmeyn) və bütün ölkə müsəlmanlarının başçısıdır. 1982-ci ildən ölkənin məliki Əs-Səudilər ailəsindən olan Fəhd ben Əbdül Əzizin vəfatından sonra (2005-ci il 1 avqust) ölkə vəliəhti əmir Abdullah bin Əbdüləziz Əl Səid sülaləsinin ailədaxili razılığına əsasən Səudiyyə Ərəbistanı məlikliyinin dövlət başçısı – Məlik, ali baş komandan, eyni zamanda Baş nazir elan edilmiş, o da sələfi kimi 2 Müqəddəs Ocağın Xadimi titulunu götürmüşdür. Vəliəhdlik mexanizmi rəsmi olaraq 1992-ci ildən təsbit edilmişdir. Taxt-tacın vəliəhdi məlikin sağlığında ülamaların razılığı



ilə təyin edilir. Dövlətdə bütün rəsmi vəzifələri Əs-Səudilər ailəsinin üzvləri tutur. Əs-Səud nəslinin 5 mindən çox şahzadəsi içərisində dövlətin əsasını qoyan İbn Səidin oğlu və nəvələrindən otuzu və iri qəbilə başçıları idarəetmə sistemində əsas rol oynayır. Ali hakimiyyət orqanlarına – dövlət başçısı və vəliəhd, Nazirlər Şurası, Məşvərət Şurası, Ali Məhkəmə Şurası daxildir. Əslində ölkə bütünlüklə bir ailənin malikanəsidir. Bu ailənin içərisində birlik və həmrəylik müxtəlif qruplaşmaların mənafelərini nəzərə almaqla elə mühafizə olunur ki, heç bir qruplaşma hakimiyyəti inhisarlaşdıra bilməsin. İdarəetmə sistemində yüksəkrütbəli rühanilərdən ibarət Üləmalar Şurası mühüm rol oynayır. Bütün qanunvericilik aktlarının layihələri dini baxışlara müvafiqliyi cəhətdən qabaqcadan razılaşdırılmalıdır.

Ölkədə ictimai əsayişi qoruyan orqanlarda xüsusi bölmələr yaradılmışdır. Bu struktur həyat tərzinin və insanların (o cümlədən əcnəbilərin) davranışının islam normalarına və ənənələrinə uyğunluğuna diqqətlə və qısqanclıqla nəzarət edir. Səudiyyə ərəbləri ictimaiyyətində tayfa bölgüsü prinsipi güclüdür. Tayfalara şeyxlər rəhbərlik edir. Ərazi inzibati baxımdan ölkə 4 tarixi bölgəyə və 13 əyalətə bölünür.

Səudiyyə Ərəbistanında heç bir siyasi partiya və həmkarlar təşkilatı yoxdur. Bunları yaratmaq rəsmən qadağan olunub, əslində onların yaranmasına ehtiyac yoxdur. Yaranmış bütün problemlər şəriət qayda-qanunlarına əsasən nizamlanır. Ölkədə radikal şiə qruplaşmaları «Səudiyyə Hisbullahı», «İslamçı Hicaz Cihadı» sayılır. 1990-cı ildə yaranmış «İslahatlar Uğrunda Şiə Hərəkatı» daha mötədil qruplaşma hesab edilir.

Səudiyyə Ərəbistanı bitərəflik siyasətini özünün rəsmi xarici siyasət kursu elan etmişdir. Dövlət öz xarici siyasətində ilk növbədə ərəb və islam ölkələri ilə münasibələrini genişləndirir. Səudiyyə Ərəbistanı ABŞ və dünyanın digər ölkələri ilə də əlaqələrini ildən-ilə artırır. 1990-cı ilin avqustunda İraqın Küveytə təcavüzü ilə əlaqədar olaraq ABŞ və onun müttəfiqlərinin qoşun hissələri Səudiyyə Ərəbistanında yerləşdirildi. Bu hadisə Səudiyyə Ərəbistanı ilə ABŞ və digər Qərb dövlətlərinin yaxınlaşmasına təkan verdi.

Səudiyyə Ərəbistanı məlikliyi BMT-nin, Ərəb Ölkələri Cəmiyyətinin, İslam Konfransı Təşkilatının, İran körfəzi ərəb dövlətlərinin, başqa beynəlxalq və regional təşkilatların üzvüdür.

**Azərbaycan Respublikası ilə münasibətləri**. Ərəb dünyasının

və müsəlman aləminin ən nüfuzlu dövlətlərindən biri də Səudiyyə Ərəbistanı məlikliyidir. Təsadüfü deyildir ki, prezident Heydər Əliyev müsəlman dövlətləri arasında üçüncü (Türkiyə və İrandan sonra), ərəb dövlətləri arasında isə birinci səfərini Səudiyyə Ərəbistanı məlikliyinə etmişdir. 1994-cü ilin aprelində Azərbaycan Respublikası sabiq Sovet İttifaqının müstəqillik qazanmış müsəlman dövlətləri arasında birinci olaraq Səudiyyə Ərəbistanı məlikliyində öz səfirliyini açmışdır.

Bu vaxta qədər isə Səudiyyə Ərəbistanı ilə Azərbaycan Respublikası arasında, demək olar ki, heç bir əlaqə olmamışdır. Prezident Heydər Əliyev ilk dəfə bu ölkəyə 1994-cü ilin aprelində səfər etmişdir. 1994-2004-cü illər ərzində müxtəlif sahələrdə çoxsaylı səfər mübadilələri edilmişdir. Səudiyyə Ərəbistanı tərəfindən dövlətin rəsmi şəxsləri, eyni zamanda iri şirkət rəhbərləri və iş adamlarından ibarət nümayəndə heyətləri Azərbaycanda səfərdə olmuşlar.

Səudiyyə Ərəbistanı Ermənistanın təcavüzü ilə əlaqədar bütün beynəlxalq və regional təşkilatlarda Azərbaycanın mövqeyini daim dəstəkləyir. İki ölkənin səhiyyə nazirliklərinin hazırladıqları birgə proqrama əsasən bir qrup azərbaycanlı həkim Səudiyyə Ərəbistanında öz ixtisası üzrə fəaliyyət göstərmişlər.

1999-cu ilin iyununda Azərbaycanda Səudiyyə Ərəbistanının səfirliyi fəaliyyətə başlamışdır. Məlikliyin rəhbərləri 2002-ci il avqustun 11-də qondarma «Dağlıq Qarabağ Respublikası»nda keçirilmiş «prezident seçkilərini» pisləmiş və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etmişdir. Rəsmi Ər-Riyad dəfələrlə bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca, Ermənistan Respublikası ilə heç bir siyasi, iqtisadi və mədəni əlaqələr qurulmayacaqdır.

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı məlikliyi arasında iqtisadiyyat, ticarət, investisiya, texniki, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi təsdiq edilmişdir.

Azərbaycan Respublikası – Səudiyyə Ərəbistanı məlikliyi Müştərək Komissiyasının birinci iclası 2001-ci ilin fevralında Bakıda keçirilmişdir. Müştərək Komissiyanın işinin sonunda iki ölkə arasında protokol imzalanmışdır.

2002-ci ilin dekabrın 28-də Səudiyyə İnkişaf fondu Bakı



şəhərində orta məktəb binalarının tikilməsi layihələrini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası hökumətinə 35,7 mln. rial həcmində kredit ayrılması barədə qərar qəbul etmişdir. 2004-cü ilin fevralın 14-15-də Ər-Riyadda Səudiyyə Ərəbistanı-Azərbaycan Respublikası Hökumətlərarası Müştərək Komissiyasının ikinci iclası keçirilmiş və iclasın sonunda müvafiq protokol imzalanmışdır.

2005-ci ilin yayında Azərbaycan Respublikasının xarici işlər naziri Səudiyyə Ərəbistanı məlikliyində rəsmi səfərdə olmuşdur. 2007-ci ilin avqust ayında Səudiyyə Ərəbistanı məlikliyinin rəsmiləri respublikamızda olmuşlar. (hər iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi qərara alınmışdır. Səudiyyə Ərəbistanında çalışan azərbaycanlı mütəxəssislərin sayı ildən-ilə artır. 2007-ci ilin ortalarına olan məlumata görə Səudiyyə Ərəbistanında 232 azərbaycanlı həkim çalışır. Ailəsi ilə birlikdə bunların sayı 800 nəfərə çatır.) Bu səfərlər çərçivəsində ölkə rəsmləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərin mövcud vəziyyəti, perspektivləri müzakirə olunmuşdur.

Səfərlər zamanı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Səudiyyə Ərəbistanı məlikliyi Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında «Anlaşma Memorandumu» imzalanmışdır.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

2005-ci ilə olan məlumatlara əsasən ölkədə yaşayanların sayı 24,0 mln. nəfərə çatmışdır (o cümlədən 6,0 mln. nəfər əcnəbi). Səudiyyə Ərəbistanı doğumu artırmaq üçün ciddi-cəhd göstərən ölkələrdən biridir. Məsələn, ölkədə hamiləliyin qarşısını alan vasitələrdən istifadə etməyə qadağa qoyulmuşdur. Əhalinin artım tempi yüksəkdir. Ötən əsrin 1995-2000-ci illərində artım tempi 2,8 faiz olmuşdur. Əvvəlki beşillikdə isə bu rəqəm 3,3 faizə bərabər idi. İndi isə 2,5 faizə enmişdir. Təqribən 150 min nəfər Səudiyyə ərəbi xarici ölkələrdə yaşayır. Demək olar ki, ölkə əhalisinin 85 faizi ərəblərdir. Onların arasında əsl Səudiyyə Ərəbləri, həmçinin Yəməndən, Ürdündən, Fələstindən və digər qonşu dövlətlərdən olan ərəblər seçilir. Gəlmə ərəblərin hamısı qazanc arxasınca gələnlərdir.

Rəsmi dil – ərəb dilidir. Dövlət dini – sünnü məshəbli islam

dinidir. Yaşlı əhalinin 80 faizi savadlıdır. İbtidai təhsil məcburidir. Hər 15 şagirdə 1 müəllim düşür, bu isə dünyada ən yüksək göstəricidir. Bununla belə təhsilin bütün səviyyələrində əvvəllər olduğu kimi dini tərkib tutarlıdır. Oğlan və qızlar üçün təlim ayrıcadır. Ölkədə yeddi dövlət Universiteti fəaliyyətdədir. Pedoqoji heyət əsasən xaricilərdən ibarətdir. Dövlət təhsil müəssisələri ilə yanaşı 21 kişi və 12 qadın özəl institutu da vardır.

Ölkədə orta ömür müddəti 73 ildir. Kişilər üçün 71, qadınlar üçün isə 75 ildir. Tibbi yardım ölkənin vətəndaşlarına olduğu kimi, əcnəbilərə də göstərilir. Hər min nəfər əhaliyə 3,2 xəstəxana çarpayısı düşür, xəstəxanalar ən müasir tibbi avadanlıqlarla təchiz olunmuşlar.

Səudiyyə Ərəbistanının yerli sakinləri rəmzi mənada vergi ödəsələr də eyni zamanda çox sayda maddi yardım alırlar. Təhsil və tibbi xidmət pulsuzdur. Şagird dərslikləri, dəftərləri, geyim formalarını və yeməyi pulsuz alır. Peşə təlim məktəblərində oxuyanların aylıq stipendiyası 500 ABŞ dollarıdır. Xarici ölkələrdə təhsil alan tələbələrin stipendiyası öz ölkəsində oxuyanlar üçün olduğundan 3 dəfə çoxdur. Ali və orta təhsil müəssisələrinin bütün müdavimləri üçün işədüzəlmə qanunvericiliklə təsbit olunmuşdur.

Məktəbəqədərki uşaq baxçaları, doğum evləri, sanatoriyalar dövlətin dotasiyası hesabına fəaliyyət göstərirlər. Doğum, toy və ölüm hallarında da müavinət verilir. Az gəlirli ailələrə yaşayış evi pulsuz verilir.

Ölkə əhalisi ərazi üzrə çox qeyri-bərabər yayılmışdır. Orta sıxlıq hər kv. km-ə 10 nəfərdən bir qədər artıqdır. Qırmızı dəniz və İran körfəzi sahilləri, həmçinin paytaxt bölgəsində əhali sıxdır. Ölkə ərazisini təqribən 60 faizi oturaq əhalidən məhrumdur. Belə bölgələrdə isə hətta köçərilərin belə ayağı dəymədiyi sahələr vardır.

İşlə məşğul olan əhalinin 90 faizi dövlət sektorunda çalışır, əhalinin sürətli artımı şəraitində iş yerləri ilə təminat zəruri olduğundan əcnəbi işçi qüvvəsinin öz sakinləri ilə əvəzlənməsi proqramı həyata keçirilir.

Səudiyyə Ərəbistanı şəhər əhalisinin sayı sürətlə artan ölkələrdən biridir. Oturaq həyata keçməyə başlamış bədəvilər və digər peşə sahibləri daha əlverişli iş axtarmaq məqsədi ilə şəhərlərə miqrasiya edir. Hazırda əhalinin 80 faizə yaxını şəhərlərdə yaşayır. Ölkənin ən mühüm şəhərləri Ər-Riyad, Ciddə, Məkkə, Mədinə, Ət-



Taif, Dəhran, Dəmman, Xüfuf, Bureydə və başqalarıdır.

**Ər-Riyad** sürətlə inkişaf edən şəhərlərdən biridir. O, həm Səudiyyə Ərəbistanının paytaxtı, həm də Nəcd tarixi coğrafi əyalətinin inzibati mərkəzidir. Şəhər əhalisinin sayı 3,0 mln. nəfərdən artıqdır. Paytaxtın tarixi çox qədim deyil. O, 1821-ci ildə Vəhhabilər dövlətinin inzibati mərkəzi kimi salınmışdır.

Müasir Ər-Riyad ölkənin ən böyük siyasi, iqtisadi və mədəni mərkəzidir. Şəhərdə neftemalı, sement, yeyinti, toxuculuq, maşınqayırma sənaye müəssisələri, istilik və atom elektrik stansiyaları fəaliyyət göstərir. Ər-Riyadda bir neçə ali məktəb fəaliyyət göstərir. 1957-ci ildən fəaliyyət göstərən Ər-Riyad universiteti ölkənin ilk ali məktəbidir. Bu universitetdə təhsil ərəb və ingilis dillərindədir. Şəhərdə İslam universiteti də fəaliyyət göstərir. O da qeyd olunmalıdır ki, Səudiyyə Ərəbistanından olan gənclərin bir qismi Qərbi Avropa və Amerika universitetlərində təhsil alırlar.

**Məkkə** bütün dünya müsəlmanlarının adını əzbər bildikləri şəhərdir. Ölkənin qərbində yerləşmiş Məkkə Hicaz əyalətinin inzibati mərkəzidir. Şəhər Qırmızı dənizin sahillərindən 70-75 km aralıdır. Rahat avtomobil yolları onu ölkənin digər böyük şəhərləri ilə birləşdirir.

Səudiyyə Ərəbistanının başqa şəhərlərində olduğu kimi Məkkənin də əhalisi sürətlə artır. 1970-ci ildə bu şəhərdə 200, 2005-ci ildə isə 700 min nəfər yaşayırdı. Ziyarət zamanı şəhər əhalisinin sayı bir neçə dəfə artır. Şəhərdə kimya, toxuculuq, metal emalı, yeyinti, əczaçılıq, zəmzəm quyusunun «müqəddəs suyunu» şüşələrə dolduran müəssisələr var. Dini ayin əşyaları (kiçik namaz xalçaları, müqəddəs kitablar, təsbeh və s.) istehsal edən kiçik müəssisələri çoxdur. Şəhərdə dini tədris ocaqları ilə yanaşı tibb işçiləri və orta məktəblər üçün müəllim hazırlayan kolleclər var. Ümumdünya İslam Cəmiyyətinin və İslam Konfransı Təşkilatının mənzil-qərərgahı Məkkə şəhərindədir.

Məkkə İslamın ən müqəddəs şəhəridir. Burada İslam dininin ən müqəddəs məbədi Kəbə (Allahın evi) yerləşir. Müsəlman dünyasında ikinci müqəddəs məkan Mədinə şəhərində Məhəmməd peyğəmbərin (S) məzarı yerləşən məsciddir.

## 4. İqtisadiyyatı

Səudiyyə Ərəbistanı İslam dünyası ölkələri içərisində iqtisadi inkişaf xüsusiyyətlərinə görə seçilən dövlətlərdən biridir. İslam dünyasının əksər ölkəri kimi Səudiyyə Ərəbistanı Məlikliyi də təzadlı, İslam fundamentalizmi ilə ultramüasirliyin birgə addımladığı bir yerdir. Dünyanın ən kamil mütəxəssislərinin inşa etdikləri geniş və çox rahat avtomobil yolları, uca və yaraşıqlı ofis və mehmanxanalar, ən mükəmməl kompyüter sistemi, fasadı keramika ilə bəzədilmiş universitet binaları, heyrətamiz gözəlliya malik məscidlər, milyon tonlarla çıxarılan qara qızıl, dənizdə ən mükəmməl texnika ilə təchiz olunmuş neft körpüləri, səbrlə öz növbəsini gözləyən supertankerlər… Bütün bunlarla yanaşı hər gün müəzzinin maqnitofon lentinə yazılmış beş rükət namaza çağıran məlahətli səsi, qara çadralara və baş örtüklərinə bürünmüş qadınlar, şəhər meydanlarında minlərlə adamın gözləri önündə yerinə yetirilən qətllər, bütün bunlar ölkədə baş verən hadisələrdir, onun bu günündür, çox güman ki, həm də sabahıdır.

Əlbəttə güclü iqtisadi dirçəlişə nail olmaq Səudiyyə Ərəbistanı üçün heç də asan olmamışdır. Əsrimizin əvvəllərində bu ərazi türk imperiyasının ən geridə qalmış əyalətlərindən biri idi. Avropada və Amerikada Ərəbistan dəvələrdən, xurma agaclarından, başdan-başa qara örtüyə bürünmüş gözəl qadınlardan, sirli Məkkədən və min bir gecə nağıllarından ibarət bir ölkə kimi tanınırdı. Bu ölkədə dəyişikliklər İkinci Dünya müharibəsindən sonra başlandı və Qərb ölkələrinin yardımı ilə Səudiyyə Ərəbistanı 20-30 il ərzində geri qalmış aqrar-heyvandarlıq ölkəsindən, orta səviyyədə inkişaf etmiş sənaye-aqrar ölkəyə çevrildi, başqa sözlə desək, feodalizm dövründən bir-başa kapitalizmə sıçradı.

Səudiyyə Ərəbistanının ümumdaxili məhsulunun (ÜDM) həcmi 2004-cü ildə 200 mlrd. dollara bərabər olmuşdur.

İqtisadi artım tempi 1990-2000-ci illərdə heç də yüksək olmamışdı. Orta hesabla hər il 2,1 faizi, yəni əhalinin artım tempindən aşağı olmuşdur. Lakin bu rəqəm 2000-2005-ci illərdə 4-4,5 faizə qədər yüksəlmişdir. Neftin satış qiymətlərindəki kəskin dəyişiklər və vergi daxilolmalarının olmaması ilə əlaqədar hökumət yeni gerçəkliyə uyğunlaşa bilməmiş, bu səbəbdən də ötən əsrin son onilliyində dövlət xərclərinin səviyyəsi gəlirləri üstələmişdi. İranla müharibə aparan İraqın müdafiəsinə xəzinədən 26 mlrd. dollar xərclənmişdir.



İran körfəzində ABŞ-la birgə İraqa qarşı müharibə əməliyyatlarında iştirak Səudiyyə Ərəbistanına 55 mlrd. dollara başa gəlmişdir. Bura o xərclər də əlavə edilmişdir ki, İslam həyat tərzinin nümunəvi olmasını nümayiş etdirilməsi məqsədi ilə çox baha başa gələn və təkəbbürlü layihələrin icrasında həyata keçirilmişdir.

Milli özəl sektora dövlət öz köməyini əsirgəmir. O da nəzərə alınmalıdır ki, son vaxtlaradək milli sahibkarlığın olmaması üzündən iqtisadiyyatın bütün ağırlığı dövlətin çiyinlərinə düşürdü. Dövlət sektoru indi də sənaye və nəqliyyatda əsas mülkiyyətçidir. XXI əsrin əvvəllərində Ümumi Daxili Məhsulun 65 faizi dövlət sektorunun payına düşürdü. Lakin son 5 ildə bu pay getdikcə azalmaqdadır. Nəhəng dövlət şirkətlərinin özəlləşdirilməsi planı hazırlanır («Arabian Eyrlaynz» və öz kapitalının həcminə görə dünyanın ən iri 300 şirkəti arasında olan SABİK sənaye qrupu). Hökumət əcnəbi investorları cəlb etməklə kifayətlənmir. Bu tədbirdə ölkənin xarici banklarda olan 450 mlrd. dollar vəsaitinin də iştirakı nəzərdə tutulur.

İqtisadiyyatının sahə strukturuna gəldikdə ümumdaxili məhsulun 51 faizi sənaye və tikintinin, 44 faizi xidmət sahələrinin və cəmi 5 faizi kənd təsərrüfatının və balıqçılığın payına düşür.

**Sənayenin aparıcı sahələri**. Hasilat sənayesi ölkənin ən inkişaf etmiş sahələrindən biridir. Məliklik neftlə zəngindir. Neft ehtiyatları bol olmaqla (təqribən 36,0 mlrd. ton – dünya neft ehtiyatının 25 faizi) yanaşı onun keyfiyyəti də yüksəkdir. İllik hasilat 200 mln. tondur. İri neft yataqları Havar və Abkaykdır. Tərkibcə çox yüngül olan neft Barri və Şüayba yataqlarından hasil edilir. Yataqların istismarı şəraiti ideala yaxındır: yəni dərinlik o qədər də çox deyil, daxili təzyiq və quyuların məhsuldarlığı yüksəkdir. Məsələn, ABŞ-da olduğundan 400 dəfə çoxdur.

Neft sektoru həm ÜDM-un, həm də ixracatın 62 faizini təşkil edir. Bu sərvət eyni zamanda milli gəlirin təqribən 75 faizini yaradır.

Öz əhəmiyyətinə görə ölkədə ikinci dərəcəli sərvət təbii qazdır. Artıq 5 yataqda kəşfiyyat işləri tamamlanmış, qaz ehtiyatının 6,4 trln $m^3$ (dünya qaz ehtiyatlarının təqribən 6 faizi) olması məlum olmuşdur. İllik təbii qaz hasilatı 40 mlrd. $m^3$ həddindədir. Artıq ölkənin enerji istehlakı strukturunda qazın payı 40 faizi ötmüşdür. Ən iri istehlakçı sutkada ümumi istehlak gücü 122 mln. $m^3$ olan 5 ədəd qaz emalı zavodlarıdır. Qaz emalında ayrılan kükürd ixracata və yerli rezin istehsalı sənayesinə yönəldilir. Neft və qazdan savayı, kömür,

sink, boksit, mis, qızıl, gümüş, fosfat, uran, daş, duz və bariy kimi maddələrlə zəngin sənaye əhəmiyyətli yataqlar aşkar edilmişdir. Ölkədə illik qızıl hasilatı 3 tona çatdırılmışdır.

Tikinti sənayesi zəngin yerli xammal bazasına (gips, mərmər, gil, əhəng və tikinti daşı və s.) arxalanır. Dağlıq ərazidə sənayedə geniş istifadə olunan kitrənin* istehsal olunduğu bitki yetişdirilir.

Energetikanın əsasını istilik elektrik stansiyaları təşkil edir. Hazırki vaxtda neftlə bağlı olmayan sənaye sektorunun ÜDM-da payı 38 faizə çatmışdır. Sənaye müəssisələri əsasən sahil bölgələrində yerləşdirilmişdir. Səudiyyə Ərəbistanında olan sənaye müəssisələrinin sayı 3 mini keçmişdir. Bu müəssisələrdə 10 min addan çox məhsul istehsal olunur.

Ölkənin sənayeləşdirilməsində əsas cəhətlər bunlardır:

- İşlərin yüksək sürət və keyfiyyətli icrası;
- Texnoloji səviyyənin yüksək olması;
- Planlaşdırılan layihələrin miqyasının nəhəngliyi.

Müəssisələr vahid uzunmüddətli plan üzrə bütöv sənaye kompleksi şəklində, sosial və istehsal infrastruktur əvvəlcədən hazırlanır, Səudiyyə Ərəbistanındakı bütün sənaye sahələri ARAMKO şirkəti çərçivəsində formalaşır. Bu məhşur şirkət dünya neftinin 10 faizdən çoxunu istehsal edir. 1976-cı ildə sənayenin əsas sahələri bazasında Səudiyyə dövlətinə məxsus SABİK şirkəti yaradılmışdır. Onun müəssisələrində polad, plastik kütlə, gübrə, məişət təyinatlı müxtəlif məmulatlar istehsal olunur. SABİK 15 müəssisəni özündə birləşdirir.

Ciddə, Dəmmam və Cubaylda 3 metallurgiya müəssisəsi fəaliyyət göstərir. Ümumi istehsal gücünə görə bu müəssisələr 2 mln. ton polad, 1 mln. ton polad armatur və böyük diametrli borular istehsal edə bilir. Avstraliyadan gətirilən gil torpaqdan alüminium istehsal edən müəssisə var.

Ölkədə yığma müəssisələri əsasən elektrotexniki məişət cihazlarının istehsalı ilə məşğuldur. Belə müəssisələr böyük şəhərlərdə cəmləşmişlər. Səudiyyə Ərəbistanında hətta «Mersedes» yük maşınları da yığılır. Belə istehsal sahələri üçün bütün zəruri

* **Kitrə** – müxtəlif akasiya növlərinin çəltilmiş növlərindən sızan və havada qaladıqda bərkiyən şəffaf kütlə. Onu suda həll etdikdə keyfiyyətli yapışdırıcı məhlul alınır.



maşın və avadanlıqlar idxal olunur.

Səudiyyə Ərəbistanı dünyada ən qabaqcıl şirinləşdirilmiş su istehsalçısıdır. Quraq ölkəni iqtisadiyyatı üçün bu xüsusi əhəmiyyət kəsb edir. İstifadə edilən suşirinləşdirici qurğular ölkənin içməli suya olan ehtiyacının 70 faizini ödəyir. Mövcud su kəmərlərinin ümumi uzunluğu 30 min km-dən çoxdur.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Sənaye sahələri ilə müqayisədə kənd təsərrüfatı o qədər də yaxşı inkişaf etməmişdir. Ölkə ərazisinin cəmi 4,2 faizə qədəri becərilir. Mühüm kənd təsərrüfatı rayonları Əl-Asir əyalətinin dəniz sahilləri və Tihamə vadisidir. Məkkə, Mədinə, Əl-Taif, Bureyda, Anayza, Ər-Riyad, Əl-Xüfuf, Əl-Katif və digər vahələrdə irriqasiyanı genişləndirmək yolu ilə əkinçiliyi inkişaf etdirmək olar.

Kənd təsərrüfatının mühüm sahəsi bitkiçilikdir. Xurma və mədəni bitkilərin becərilməsi xüsusi əhəmiyyət kəsb edir. Hökumət kənd təsərrüfatının intensivləşdirilməsi üzrə çox geniş proqram qəbul edib. Səudiyyə Ərəbistanı ərzaqla özünü təminatı 90 faizə çatdırıb. Kənd təsərrüfatına aid dövlət proqramı həm dövlət xətti ilə, həm də özəl sektora arxalanmaqla həyata keçirilir. Fermerlərə və kəndlilərə faizsiz kreditlər verilir, xarici texnikanın, kimyəvi məmulatların, məhsuldar toxum növlərinin yarısı dövlət hesabına ödənilir. 200 hektaradək sahənin becərilməsi üçün torpaq pulsuz paylanır.

Hökumət dənli bitkilər və xurma üçün satınalma qiymətlərinin dəyişməz qalmasını təmin edir. Orta hesabla torpaq payı 15 min hektar olan iri səhmdar kənd təsərrüfatı şirkətləri nisbətən rentabelli olmaları ilə fərqlənirlər. Bütün dövlət tədarükü onların payına düşür. Bunlarla yanaşı torpaq payı 120 hektaradək olan ortaölçülü fermalar da mövcuddur. Ölkə üzrə kənd təsərrüfatı məqsədləri üçün istifadə olunan torpaqların ümumi sahəsi 53 mln. hektardır.

Taxılın hər hektarından orta məhsuldarlıq 45 sentnerə çatır, lakin bu nəticəyə çəkilən məsrəflər taxılın dünya bazarındakı qiymətlərindən 2 dəfə baha başa gəlir. Bu səbəbdən dövlət taxıl istehsalını milli tələbat həddində məhdudlaşdırır. Otlaqlar əvəzi ödənilmədən paylanılır, demək olar ki, rəmzi qiymətlərlə.

Heyvandarlıqla məşğul olanlara müxtəlif növ subsidiyalar, kreditlər verilir, güzəştlər edilir. Ölkədə müasir baytarlıq xidməti təşkil edilmişdir. Dövlət xaricdən yem idxalını mərkəzləşdirmişdir. Bundan başqa, dövlət öz hesabına cins mal-qara artımını təmin edir.

Qədim zamanlarda qoyunçuluq, atçılıq və dəvəçilik xüsusi əhəmiyyətə malik olmuşdur. Son zamanlarda öz təsərrüfatlarında quşçuluq və dəvəquşu yetişdirilməsinə başlanılmışdır. Qırmızı dəniz və İran körfəzi balıq və digər dəniz məhsulları ilə boldur. Lakin hələ ki, dəniz məhsulları ölkə sakinlərinin qida rasionunda geniş yer tutmur.

**Nəqliyyatı, xarici ticarət və maliyyə sistemi**. Ərazinin hər yeri məskunlaşdığından nəqliyyat şəbəkəsi lazimi səviyyədə inkişaf edə bilməmişdir. Ölkənin əsas nəqliyyat növü avtomobil nəqliyyatıdır. Bərkörtüklü avtomobil yollarının ümumi uzunlğu 50 min km-ə qədərdir. Qrunt yollarının uzunluğu isə 100 min km-dən artıqdır. Dəmir yollarının ümumi uzunluğu 1400 km-dir. Ən böyük dəmir yol xətti Ər-Riyad – Dəhran – Dəmmamdır. Sonradan bu yol Mədinə və Ciddəyədək uzadılmışdır.

Səudiyyə Ərəbistanı neft və təbii qaz çıxaran iri ölkə olduğundan boru kəmərləri müvafiq surətdə yaxşı inkişaf etmişdir. Boru kəmərlərinin uzunluğu 9 min km-ə yaxınlaşır. Ölkənin 5 iri dəniz limanı və beynəlxalq səviyyəli 23 aeroportu var. Ticarət gəmiçilik donanmasının irili-xırdalı 70 gəmisi var.

Səudiyyə Ərəbistanında müasir kommunikasiya vasitələrinin bütün növləri mövcuddur. 7 yerüstü peyk stansiyası fəaliyyət göstərir. Telefonlaşdırma səviyyəsinə görə Səudiyyə Ərəbistanı inkişaf etmiş ölkələrdən geri qalmır.

Ölkədə dini turizm inkişaf etdirilir. İslamın müqəddəs yerlərinə ziyarət qədim zamanlardan mövcud idi. Hər il Həcc ziyarəti müddətində Məkkə və Mədinəyə xarici ölkələrdən gələn 1,5-2,0 mln. müsəlman qədəm basır, bu da öz növbəsində ölkəyə böyük gəlir gətirir.

**Xarici ticarət.** Xarici iqtisadi əlaqələri ilk növbədə İslam və Ərəb həmrəyliyinin möhkəmləndirilməsinə yönəldilmişdir. Bunu İslam və Ərəb birliyi təşkilatlarının müdafiəsi naminə keçirilən çoxsaylı və olduqca bahalı aksiyalarda iştirak göstərir. Regional iqtisadi əməkdaşlığın təşkilində əsas rolu Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası oynayır. Bu təşkilata Səudiyyə Ərəbistanı ilə birlikdə Küveyt, Qətər, Oman, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyn daxildir. İran körfəzinə çıxışı olan bu ərəb dövlətləri Səudiyyə Ərəbistanı ilə sıx əlaqələrlə bağlıdır. Xarici iqtisadi və hərbi-strateji siyasətdə isə Məliklik ABŞ-la ittifaqa önəmli yer verir.



2004-cü ildə ölkədən mal ixracının həcmi 90,0 mlrd. dollara yaxın olmuşdur. Onun strukturunda 90 faizlik payı neft və neft məhsulları, 6 faizi kimyəvi məhsullar təşkil edir. Səudiyyə Ərəbistanından ixrac edilən məhsullar əsasən Yaponiyaya (ixrac həcminin 18 faizi), ABŞ-a (16 faiz), Cənubi Koreyaya (10 faiz) və Sinqapura (8 faiz) göndərilir. Ölkə idxalının dəyəri isə 35 mlrd. dollardan bir qədər artıqdır. Bunun 35 faizini maşın və avadanlıq, 15 faizini nəqliyyat vasitələri, 20 faizini ərzaq, 11 faizini kimyəvi məhsullar təşkil edir. İdxal olunan mallar əsasən ABŞ-dan (idxal dəyərinin 21 faizi), Böyük Britaniyadan (9 faiz), Almaniyadan (8 faiz), Yaponiyadan (8 faiz) və qonşu ölkələrdəndir.

**Maliyyə sistemi.** Ölkədə cəmləşmiş birbaşa xarici investisiyaların həcmi 30 mlrd. dollardan artıqdır. Ölkə iqtisadiyyatına ən çox sərmayə yönəldən dövlət ABŞ-dır. Bununla belə Səudiyyə Ərəbistanı özü də çox güclü dünya investorları sırasındadır. Ölkə dünyanın aparıcı maliyyə fondlarının və təşkilatların üzvüdür. Digər ölkələrə maliyyə yardımının ümumi həcminə görə Səudiyyə Ərəbistanı ancaq ABŞ-dan geri qalır.

Böyük həcmdə kapital ixracı onunla izah edilir ki, bolluca yaradılan neft dollarları ölkənin daxili bazarında həzm edilmir, daxili bazar dar çərçivədədir və yerli elita özünü daxili böhranlardan və milliləşdirilmələrdən sığortalayır.

Səudiyyə Ərəbistanının maliyyə və iqtisadi siyasət orqanı ölkənin valyuta agentliyidir. Bu agentlik Mərkəzi Bank rolunu oynayır. Maliyyə Nazirliyinin tabeliyində 5 dövlət bankı və 9 sığorta şirkəti fəaliyyət göstərir. Xarici kapitala malik bank yaradılması da nəzərdə tutulur.

Ötən əsrin 90-cı illərində büdcədə kəsir sabit olmuşdur. Dövlət borclarının həcmi 2004-cü ildə 200 mlrd. dollara yaxın olmuşdur. Hökumət həm ölkə daxilində, həm də xaricdə istiqraz dövriyyəsinə əl atmağa məcbur olmuşdur.

# TÜRKİYƏ RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqeyi.** Türkiyə iki qitədə: Avropa və Asiyada ticarət və hərbi-strateji yollar kəsiyində yerləşir. Türkiyənin Avropa hissəsi Şərqi Frakiya və ya Rumeli, Asiya hissəsi isə Anadolu adlanırr. Ərazisinin 3 faizi ( 23,7 min kv.km) Avropa, qalan hissəsi Asiyadadır.

Avropa və Asiya hissələrini bir-birindən Bosfor* (İstanbul və ya Boğaziçi) və Dardanel** (Çanaqqala) boğazları, Qara dənizi, Aralıq dənizi və Dünya okeanı ilə əlaqələndirən Egey dənizi ayırır.

Türkiyənin coğrafi və geosiyasi mövqeyinin xüsusiyyəti onun hələ qədim zamanlardan Avropanın Asiya, Qara və Aralıq dənizi ölkələri və xalqlarını bir-biri ilə əlaqələndirən yollar qovşağında yerləşməsidir. Ölkə ərazisindən Avropanı Asiyanın bir sıra ölkələri ilə birləşdirən beynəlxalq əhəmiyyətli şosse və dəmir yolları keçir.

Türkiyə ərazisi qərbdən-şərqə 1600 km, şimaldan-cənuba 600 km məsafədə uzanır. Quru sərhədlərinin uzunluğu 2753 km-dir. Türkiyə şimal-qərbdə Bolqarıstan və Yunanıstan, şimal-şərqdə Gürcüstan, Ermənistan, şərqdə İran, cənubda Suriya və İraq ilə həmsərhəddir. Türkiyə-Azərbaycan sərhədinin uzunluğu 11 km-dir.

Türkiyə üç tərəfdən dənizlərlə – şimaldan Qara, qərbdən Egey, cənubdan Aralıq dənizləri ilə əhatə olunmuşdur. Dəniz sahillərinin uzunluğu (Mərmərə dənizi, boğazlar və adaların sahilləri daxil olmaqla) 8333 km-dir. Türkiyə sahilləri boyu ərazi sularının sahəsi 6 dəniz mili təyin edilmişdir.

Qara dəniz boğazları mühüm iqtisadi-ticarət və hərbi-strateji əhəmiyyətə malikdir. Bu əhəmiyyət Qara dəniz və Dunay sahili

* **Bosforun** uzunluğu 30 km, eni 760 – 3500 m, maksimum dərinliyi 120 m-dir. Bosforun cənub hissəsində Avropa materikinə Qızıl Buynuz körfəzi (Xalic) yerləşir. Bunun üzərində bir neçə körpü salınmışdır: köhnə (Qalat) və yeni (Atatürk). 1973-cü ildə Bosfordan uzunluğu 1,5 km, hündürlüyü 64 m olan Üsküdar körpüsü salınmışdır ki, bu körpü İstanbulun Avropa hissəsini Asiya ilə birləşdirir. İkinci asma körpü ondan kiçikdir və 1988-ci ildə inşa edilmişdir.

** **Dardanel** Egey və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu 60 km, eni 1375 – 9275 m, maksimum dərinliyi 100 m-dir. Mərmərə dənizinin Bosfor və Qızılbuynuz körfəzi sahillərində dünyanın gözəl şəhərlərindən biri, Türkiyənin isə ən böyük şəhəri – İstanbul yerləşir.



dövlətlər üçün daha böyükdür. Çünki bu dövlətlər Aralıq dənizi sahili və digər ölkələrlə daimi əlaqələr yaratmaqla yanaşı, həm də təhlükəsizliyin qorunmasında maraqlıdırlar. Gəmilərin bu boğazlardan keçmə rejimi 1936-cı ilin iyununda İsveçrənin Montre şəhərində beynəlxalq konfransın qərarına əsasən tənzimlənir.

**Səth quruluşu və faydalı qazıntıları.** Türkiyə dağlıq ölkədir. Ölkənin dəniz səviyyəsindən orta yüksəkliyi 1132 metrdir. Türkiyənin Asiya hissəsinin qərbində Kiçik Asiya yaylası (orta hündürlüyü 1000 metr) yerləşir. Onun daxili hissəsi qədim tektonik nüvə - Anadolu yaylasıdır.

Yaylanın səthi hamar deyil, burada dərələrlə parçalanmış yüksək dağ silsilələri, geniş quru düzənliklər vardır. Anadolu yaylası oroqrafik cəhətdən üç rayona bölünür: Qərbi, Daxili və Şərqi Anadolu.

Qərbi Anadolu oroqrafik rayonu Egey və Mərmərə dənizlərinin sahillərini əhatə edir. Sahildən hərəkət edərkən alçaq sıra dağların, dərin enli çay vadiləri ilə əvəz olunduğu aydın görünür. Buradakı dağlar orta yüksəkliyə malikdir (Uludağ – 2543 m). Türkiyənin ucqar şimal-qərbi, yəni Şərqi Frakiya dərə-təpəli düzənlik olduğundan kənd təsərrüfatı üçün əlverişlidir. Düzənlik şimal-şərq və şimaldan çox da yüksək olmayan dağlarla əhatələnir.

Daxili Anadolu oroqrafik rayonu Anadolu yaylasının çox yüksək hissəsidir. Burada bir neçə axarsız hövzə vardır ki, bunların da bir-birindən dağ tirələri ayırır. Hündürlüyü 850 m olan dağ tirəsində ölkənin paytaxtı Ankara şəhəri yerləşir. Yaylanın cənubunda sönmüş vulkanlar yüksəlir. Bunlardan ən hündürü Kayseri şəhərindən cənubda yerləşmiş Erdjieş dağıdır (3917 m).

Şərqi Anadolu oroqrafik rayonu şimalda Pont, cənubda Şərqi Tavr arasında İranla sərhəd yaxınlığından Böyük Ağrıdağ (Böyük Ararat) sönmüş vulkanı ucalır. Türkiyənin ən yüksək nöqtəsi (5137 m) buradadır. Türkiyənin Asiya hissəsi şimalda və cənubda dağ sistemləri ilə əhatə olunmuşdur.

Şimali Anadolu (Pont) Qara dəniz sahillərinə paralel 100 km məsafədə uzanır. Bu dağlarda orta yüksəklik 1500 m-dir. Pont dağ silsiləsinin şərqində yüksəklik (Kackar – 3932 m) qərbinə nisbətən çoxdur (Yaralıgöz – 2019 m).

Türkiyənin cənubunda Aralıq dənizi boyu və ondan şərqə Türkiyə-İran sərhədinədək digər mürəkkəb dağ sistemi Tavr (Toro-

slar) uzanır. Dağ sistemləri çox parçalandığından o, Qərbi (Liki), Mərkəzi (Kili) və Şərqi Tavrlara bölünür.

Qərbi Tavr dağ sistemi Antalya körfəzi və Antalya düzənliyini əhatə edir. Yüksək dağ qurşağı (Ağ dağ – 3014 m, Elmalı – 2490 m) dərin vadilərlə ayrılmış və dərələrlə parçalanmışdır.

Mərkəzi Tavrlar daha yüksək olması ilə seçilir. Bir çox yüksəkliklərdə hündürlük 3000 m artıqdır (Medetsiz – 3525 m, Aydos – 3480 m). Kili yarımadasının cənub hissəsində dağ sistemi Aralıq dənizi sahillərinə qədər enir. Sahildəki Analya, Anamur, Manavqat, Silifke rayonlarında allüvial düzənliklər var.

Mərkəzi Tavrların şimal-şərq davamı Antitavr silsiləsidir. Bu silsilə tədricən alçalaraq Uzunyayla platosu ilə qovuşur. Mərkəzi Tavrları məşhur aşırım Kiri Darvazası kəsir. Buradan Kiçik Asiya mədəniyyətini Şərq ölkələrinə yayan qədim yollar keçmişdir. Hazırda aşırımdan dəmir və şosse yolu çəkilmişdir.

Şərqi Tavr Murat çayı və Van gölündən cənuba ölkənin şərq sərhədinədək uzanır. Şərq hissəsi (Xakyari) çox yüksəkdir, bəzi dağların zirvələri daim qarla örtülü olur və 4000 metrdən artıq yüksəlir (Buzul, 4116 m) Şərqi Tavrdan cənubda geniş çökəklik (Diyarbakır) yerləşir. Çökəklik cənuba getdikcə tədricən alçalır.

Türkiyədə müxtəlif filiz, dağ-kimya, yanacaq-energetika xammalı ehtiyatları aşkar olunsa da, onların sənaye ehtiyatı azdır. Torosdakı xromit filizi yataqları ölkənin mühüm təbii sərvətidir, ehtiyatına görə Türkiyə dünyada qabaqcıl yerlərdən birini tutur. Torosdakı xromit filizi yataqları ölkənin mühüm təbii sərvətidir, ehtiyatına görə dünyada qabaqcıl yerlərdən birini tutur (ümumdünya ehtiyatının 8 faiz). Daş və boz kömür, dəmir, mis (4 faiz), volfram (7 faiz), uran (5 faiz), molibden və manqan filizləri, boksit, civə, sürmə (25 faiz) yataqları da aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Türkiyə Aralıq dənizi subtropik iqlim qurşağında yerləşsə də kəskin parçalanmış dağlıq relyef, atmosfer dövranının mürəkkəb şəraiti müxtəlif iqlim rayonlarının yaranmasına səbəb olmuşdur. Ölkədə beş iqlim rayonu ayrılır: Qara dəniz sahili, Aralıq dəniz sahili, Daxili Anadolu, Şərqi Türkiyə, Yuxarı Mesopotamiya.

Qara dəniz sahillərində yüksək rütubətlə səciyyələnən mülayim isti; Aralıq dənizi sahillərində isti quraq yay və mülayim yağmurlu qışı olan Aralıq dənizi iqlimi; Daxili Anadolu quru, kəskin kontinental; Şərqi Türkiyədə sərt iqlim şəraiti; Yuxarı Mesopotamiyada isti və quru iqlim hakimdir.



Dənizlərdən daxili rayonlara doğru kontinentallıq artır. Şərqi Anadoluda yayda temperatur +40 dərəcəyədək yüksəldiyi halda, qışda – 30 dərəcə C-dək aşağı düşür. Qara və Aralıq dəniz sahillərində temperatur yayda + 25-28 dərəcə C-dək, qışda +7-10 dərəcə C olur. Orta illik yağıntıların miqdarı 700 mm-dir. Qara dəniz sahillərinə 2500 mm yağıntı düşür. Ölkədə ən az yağıntı Daxili Anadoluya (200 – 400 mm) düşür.

Konya düzənliyi istisna olmaqla Türkiyə ərazisində çay şəbəkəsi sıxdır. Lakin bu çaylar dağ mənşəli olduğundan gəmiçiliyə yararlı deyil. Axının sürətli olması yüksək dağlıq sahələrdə belə onları donmağa qoymur. Çayların hidroenerji əhəmiyyəti böyük olsa da, bundan hələ kifayət qədər istifadə olunmur. Yerüstü suların bir hissəsi suvarmada istifadə olunur. Əksər çayları az suludur, rejimləri dəyişkəndir, yayladan axan çaylar yayda quruyur. Ölkənin çayları Qara, Egey, Mərmərə və Aralıq dənizi hövzələrinə aiddir.

Qara dəniz hövzəsi çayların sayına görə zəngindir. Qızıl İrmak (uz. – 1355 km), Sakarya (uz. – 824 km), Yaşıl İrmak (uz. – 519 km), Çorox (uz. – 466 km) kimi nisbətən iri , 500-dən artıq orta və kiçik çay bu hövzəyə aiddir.

Yaxın və Orta Şərqin ən iri çaylarından olan Dəclə (uz. – 1900 km) və Fərat (uz. – 2800 km) başlanğıcını Türkiyə ərazisindən, Kürdistan dağlarından götürür, İraq ərazisində birləşərək Şətt–ül–Ərəb çayı adı altında İran körfəzinə tökülür. Fərat Qarasu və Murat çaylarının qovuşmasından əmələ gəlmişdir. Murat çayının mənbəyindən Suriya sərhədinədək uzunluğu 1263 km-dir. Dəclə başlanğıcını yüksək dağ gölü olan Gölcükdən götürür, Türkiyə ərazisində 523 km məsafədə axır. Kürdistan yaylasında Kür və Araz dağ çaylarının da mənbəyi yerləşir. Bu çaylar Xəzərə tökülür. Kür (uz.1279 km) Allahuəkbər dağından başlayır və Türkiyə ərazisi ilə 150 km məsafədə dərin dərə ilə axır. Araz (1509 km) Bingöl dağından başlayır, qollar qəbul edərək cənub-şərq istiqamətində Türkiyə sərhədi ilə axır. Arazın Türkiyə ərazisində uzunluğu 548 km-dir.

Türkiyə ərazisinin 9,2 min kv.km-i göllər təşkil edir. Ən böyüyü axarsız, yüksək dağ, həm də duzlu göl olan Vandır (3713 kv km). Dəniz səviyyəsindən 1646 metr yüksəkdə yerləşir.

**Torpaq-bitki örtüyü.** Türkiyənin torpaqları dağ torpaqları

olduğundan az məhsuldardır və təbii halda əkinçiliyə az yararlıdır. Yer səthinin 80 faizini örtən bu torpaqlar dağ-çəmən, dağ-meşə, dağ-çöl torpaqlarına bölünür. Ərazinin 20 faiz düzənlik torpaqlardır. Qərbi Anadolunun dağətəyi rayonları, Qara və Aralıq dənizinin bəzi sahillərində boz düzənlik torpaqları yayılmışdır. Qırmızı torpaqlar Qara dəniz zonasındadır.

Mərkəzi Anadolunun geniş çölləri qoyun və keçilər üçün otlaq kimi istifadə olunur. Şərqi Anadolunun qara torpaqları olan çöl əyalətləri əkinçilik üçün əlverişlidir, bura ölkənin taxıl anbarı sayılır. Lakin əsrlər boyu heyvanlar üçün örüş kimi istifadə olunduğundan ərazinin bəzi sahələrində torpaq-bitki məhv edilmişdir.

Mülayim isti iqlim və bol yağıntı Qara və Egey dənizi sahillərində zəngin subtropik bitki örtüyünün yaranmasına səbəb olmuşdur. Dağların cənub yamacları enliyarpaqlı sıx meşələrlə (fıstıq, palıd, vələs, ağcaqayın, çinar) örtülüdür, bu meşələrdə şümşad, zoğal, fındıq ağacları da yayılmışdır. Dağ ətəklərində bağlar, üzümlüklər, ondan yuxarıda isə iynəyarpaqlı meşələr, lap üstdə alp çəmənlikləri yayılmışdır.

## 2. Ölkənin qısa tarixi , idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Türkiyə dövləti Kiçik Asiyada XIV yüzillikdə yaranmışdır. İşğalçılıq müharibələri nəticəsində XIV-XVI yüzilliklərdə Osmanlı imperiyası yaranır. XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində imperiya zəifləyir və Avropa ölkələrinin yarımmüstəmləkəsinə çevrilir.

1918-23-cü illərdə baş vermiş milli azadlıq hərəkatı İslam dünyasında Azərbaycandan sonra respublika şəklində idarə olunan ikinci dövlətin yaranmasına səbəb olur (1923.10.29).

Respublikanın ilk prezidenti görkəmli dövlət xadimi general Mustafa Kamal Paşa olur. Mustafa Kamal Paşanın rəhbərliyi ilə islahatların həyata keçirilməsi ilə ölkəni etatizmə (dövlət kapitalizmi) sövq edir. II Dünya müharibəsindən sonra ABŞ və NATO-nun digər üzvlərinin Türkiyəyə təsiri artır. XX əsrin 70–80-ci illərində dövlət bölməsinə istinad edərək (ümummilli məhsulun 50 faiz) aparılan sənayeləşmə siyasəti ölkədə – energetika, dağ-mədən, qara və əlvan metallugiya, kimya, neft emalı, maşınqayırma və digər sahələrin



yaranmasına səbəb oldu. Bununla yanaşı dövlət bölməsinin maddi yardımından geniş istifadə təsərrüfatlar arası balansın pozulmasına, infilyasiyanın güclənməsi və valyuta çətinliklərinə səbəb olur. İqtisadiyyatda struktur böhran ötən əsrin 70-ci illərinin axırlarında kəskinləşir ki, bu da sosial narazılıqlar, tətil hərəkatları, siyasi həyatın qeyri-sabitliyi, irtica təşkilatlar tərəfindən terror azğınlığı ilə müşaiyyət olunurdu.

**Dövlət quruluşu.** Türkiyə unitar parlament respublikasıdır. 1982-ci il Konstitusiyasına görə dövlət başçısı parlament tərəfindən 7 il müddətinə bir dəfə seçilən prezidentdir. Prezidentin fəaliyyət qabiliyyəti olmadıqda və ya vəfat etdikdə onun səlahiyyətlərini TBMM-nin sədri icra edir. Qanunverici orqan birpalatalı parlament – Türkiyə Böyük Millət Məclisidir. TBMM-nın deputatları partiya səlahiyyətləri üzrə proporsional sistem ilə 5 il müddətinə seçilir. 2007-ci ilin oktyabr ayında Türkiyə Respublikasının Böyük Millət Məclisi ölkə konstitusiyasına (Ana yazı) dəyişiklik edir. Keçirilmiş referenduma görə ölkə prezidenti bundan sonra parlament tərəfindən deyil, xalq tərəfindən 5 il müddətinə seçiləcək. Bir şəxs iki dəfə dövlət başçısı seçilə bilər. İcraedici hakimiyyət Baş nazir başda olmaqla Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Baş nazir prezidentin təklifilə parlament tərəfindən 4 turdan ibarət səsvermə yolu ilə seçilir. İnzibati cəhətdən ölkə 80 ilə (vilayətə) bölünür.

Mühüm partiyaları: Ədalət və İnkişaf partiyası, Cumhuriyyət Xalq Partiyası, Milliyyətçi Hərəkat Partiyasıdır. Ana Vətən və Doğru Yol Partiyaları Demokratik Partiya adı altında birləşmişdir. Demokratik Sol Partiyası sosial-demokratik təmayüllüdür.

2007-ci il avqust ayında prezident seçkilərində 3 partiyadan namizəd iştirak etmişdir: Ədalət və İnkişaf Partiyası, Demokratik Sol Partiyası, Milliyətçi Hərəkat Partiyası. Seçkidə Ədalət və İnkişaf Partiyası qələbə qazanmış və Abdulla Gül Türkiyə Respublikasının 11-ci prezidenti seçilmişdir.

1949-cu ildən Türkiyə Avropa Şurasının, 152-ci ildə NATO-nun, 1960-cı ildə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Qara Dəniz Əməkdaşlıq Şurasının Üzvüdür. 1963-cü ildən Avropa İttifaqı ilə əlaqə statusu almış, 1964-cü ildə İran və Pakistan birgə iqtisadi inkişaf təşkilatına (inkişaf naminə regional əməkdaşlıq) daxil olur. Avropa İttifaqı ilə inteqrasiyasının genişlənməsini 1995-ci il martda imzalanmış gömrük ittifaqı

müqaviləsi səbəb olmuşdur. 1980-ci ildən Amerika–Türkiyə arasında «birgə müdafiə və iqtisadiyyat sahəsində əməkdaşlıq haqda müqavilə» mövcuddur.

**Azərbaycan Respublikası ilə münasibətlər.** Azərbaycan və Türkiyə Respublikaları arasında münasibətlərin əhatəli, qarşılıqlı əməkdaşlıq və dostluq zəminində olmasına bir sıra amillər təsir göstərmişdir. Əvvəla, hər iki ölkənin əhalisi tarixi köklərlə bir-birilə sıx bağlıdır. İkincisi, həri iki ölkə arasında əlverişli nəqliyyat sistemi mövcuddur. Üçüncüsü, hər iki ölkənin iqtisadiyyatının inkişafına səbəb olan təbii ehtiyat potensialının zənginliyi və s.

Göstərilən bu və digər amillər Türkiyə–Azərbaycan münasibətlərinin 1992-ci ildən sonra tamamilə yeni məcrada qurulmasına imkan yaratmışdır. Hər iki ölkə arasında çoxşaxəli diplomatik, iqtisadi, mədəni əlaqələr mövcuddur. Azərbaycanda Türkiyənin iş adamları üçün geniş istehlak bazarı olduğu kimi, Türkiyədə də azərbaycanlı mütəxəssislərin fəaliyyəti üçün şərait yaradılmışdır.

Türkiyə və Azərbaycan arasında ticarət əlaqələri ildən-ilə genişlənir. Təsadüfi deyildir ki, Azərbaycanın Asiya ölkələri ilə idxalatının təqribən 45 faizi, ixracatının isə 38 faizi Türkiyənin payına düşür. Türkiyədən respublikamıza elektrotexnika avadanlığı, kimya, neft-kimya, yüngül, maşınqayırma və metal emalı sənaye məhsulları, meşə materialları və s. ixrac edilir. Nəqliyyat, energetika sahəsində əməkdaşlıq mövcuddur. Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tiflis-Ərzurum qaz kəməri, tarixi «İpək yolu»nun bərpası, Bakı-Sədərək-Dilucu-İqdır, avtomobil yolları, Bakı-Tiflis-Qars dəmir yolu hər iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

2007-ci il noyabrın 6-8 tarixində Türkiyə Respublikası prezidenti Abdullah Gülün Bakıda rəsmi səfərdə olması, bir sıra mühüm görüşlərlə yanaşı Azərbaycan-Türkiyə biznes Forumunda çıxış etməsi hər iki ölkə arasında münasibətlərin dərin olmasını bir daha sübut etdi.

Bakıda keçirilən Türk Dövlət və Cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında (2007-ci il, 17-19 noyabr) isə Türkiyə Respublikasının Baş naziri Ərdoğan, sabiq prezident Süleyman Dəmirəl iştirak etmişlər.

### 3. Əhalisi və şəhərlər. Paytaxtın qısa səciyyəsi



Türkiyədə əhalinin ilk siyahıya alınması 1927-ci ildə aparılmışdır. 1927 və 2007-ci illərdəki siyahıya alınmanın nəticələri göstərir ki, ölkə əhalisi 80 il ərzində 5 dəfədən çox artmışdır (cədvəl 1 ). Cədvəl 1

**Əhalinin artımı və sıxlığı**

| Əhalinin siyahıya alındığı illər | Əhalinin sayı, Mln. nəfər | Ümumi artım, min nəfər | 1 kv, km-də əhalinin sıxlığı, nəfər |
|---|---|---|---|
| 1927 | 13,6 | - | 18 |
| 1940 | 17,8 | 1662.9 | 23 |
| 1960 | 27,7 | 3690.0 | 36 |
| 1980 | 44,7 | 4389.3 | 58 |
| 1990 | 56,4 | - | 71,8 |
| 1997 | 65,2 | - | 83,6 |
| 2007 | 70,5 | - | 90 |

Türkiyə üçün yüksək təbii artım (2 faiz) səciyyəvidir. Ölkədə orta sıxlıq 1 kv. km-də təqribən 90 nəfərdən artıqdır. Şərqi Frakiya, Anadolunun dəniz sahilləri sıx, Mərkəzi və Şərqi Anadolu isə seyrək məskunlaşmışdır.

Əhalinin yaş quruplarındakı dinamikadan aydın olur ki, XX əsrin 70-ci illərilə müqayisədə 2005-ci ildə 0–14 yaşda olanlar azalmışdır. Əmək qabiliyyətli əhali isə (15–64) artmışdır (cədvəl 2).

Cədvəl 2

**Əhalinin yaş qrupları (faizlə)**

| Yaş qrupu | İllər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1980 | 1995 | 2005 |
| 0 – 14 | 41.15 | 37.8 | 33 | 29.5 |
| 15 – 64 | 54.45 | 57.65 | 63 | 65.1 |
| 65 və yuxarı | 4.4 | 4.55 | 4 | 5.4 |
| Cəmi: | 100 | 100 | 100 | 100 |

Əmək qabiliyyətli əhalinin 33 faizi qadınlardır. Əmək qabiliyyətli əhalinin artması digər problemin – işsizliyin meydana gəlməsinə səbəb olmuşdur.

Ölkə əhalisinin məşğuliyyət strukturundakı dəyişikliklər göstərir ki, ötən əsrin 70-ci illərindən başlıyaraq aqrar bölgədə işləyənlərin sayı azalmışdır. Lakin aqrar bölmədən uzaqlaşanların heç

də hamısı digər sahələrdə işlə təmin olunmur. 1979-cu ildə ölkədə 2,3 mln. işsiz qeydə alınmışsa, 2005-ci ildə bu rəqəm 6 mln.-u ötmüşdür.

Dövlətin işsizliyə qarşı mübarizə siyasətinin ən mühüm istiqamətlərindən biri əmək ehtiyatlarının xarici dövlətlərə göndərilməsi təşkil edir. XX əsrin 70-ci illərinədək türk vətəndaşları əsasən Qərbi Avropaya (AFR) göndərilirdi. Lakin Qərbi Avropada iqtisadi və struktur böhranlarla əlaqədar Türkiyə fəhlə qüvvəsi Yaxın və Orta Şərqin neft çıxaran ölkələrinə istiqamətləndirilir. 80-ci illərin ortalarında bu region da immiqrant işçilərin sayını azaldır. Əhalinin 2,5 mln.-dan çoxu xarici ölkələrdə ( AFR, Avropa İttifaqının digər ölkələri, Yaxın Şərq dövlətləri, Azərbaycan) çalışır.

Ölkə əhalisinin 87 faizi türklərdir. 1923-cü ildəki Lozanna sülh müqaviləsinə görə Türkiyə qonşu dövlətlərin bir neçəsilə əhalinin dəyişməsi haqda müqavilə imzalamışdır. Bununla belə, kiçik türk qrupları hazırda da xarici ölkələrdə yaşayır. Türklər arasında kiçik etnik qrup – yüryük və təxtaclar vardır ki, bunlar Anadolunun cənub-şərq və qərbində yayılmışlar.

Ölkədə türklərdən sonra ikinci böyük xalq kürdlərdir* (8 mln. nəfər). Ölkənin şərqindəki on əyalətin əhalisinin əksəriyyəti kürdlərdir. Digər xalqlardan ərəblər (1 mln. nəfər) cənub-şərq əyalətlərində əsasən Xatayda yaşayırlar. Qara dəniz sahilləri və Anadoluda yaşayan çərkəzlər, lazlar, acarlar türklərlə qaynayıb qarışmışlar. Türkiyədə islam dininin sunni təriqətinə etiqad edilir.

Türkiyə urbanizasiya səviyyəsinin yüksək olduğu ölkələrdəndir. Ölkədə şəhər əhalisi 80 il ərzində (1927-2007) artaraq 50 mln nəfərə çatmışdır. Ölkə əhalisinin 72 faizi şəhərlərdə yaşayır. Əhalisinin sayı 1 mln.-dan artıq olan şəhərləri – İstanbul, İzmir, Ədənə, Ankara, Bursa, Antalyadır. Urbanizasiya prosesi ölkənin qərb rayonlarında sürətli getmişdir. Bu proses mərkəzi və şərqi Anadolunun bir sıra şəhərlərini də əhatə etmişdir. Qədim şəhərlərlə yanaşı yeni sənaye və inzibati mərkəzlər yaranmışdır. Ölkə əhalisinin 25 faiz əhalinin sayı 500-750 min nəfər olan şəhərlərdə yaşayır.

**Ankara** (ilkin adı Ankira, Anqora) Anadolu yaylasında, Ankara və Cubuq çaylarının qovuşduğu yerdədir. Şəhər e.ə.VII

* Kürdlərin bir hissəsi İran, İraq, Suriya və digər ölkələrdə yaşayır onların sayının 15-16 mln. olduğu ehtimalı vardır.



yüzillikdə Finikiya padşahı Midas tərəfindən salınmışdır. 1073-cü ildə türklər tərəfindən zəbt edilmişdir. 1354-cü ildə Osmanlı imperiyasına qatılmışdır. 1923-cü ildən Türkiyə Respublikasının paytaxtıdır. Respublika illərində şəhər sürətlə böyümüş, əhalisi artmışdır.

Tarixi tikililərlə yanaşı 1958-ci ildə Kamal Atatürkün dəfn edildiyi muzey – mavzoley kompleksi qiymətli abidədir. Mühüm nəqiliyyat düyünüdür. Şəhərdə elektrotexnika, aviasiya, maşınqayırma, toxuculuq, dəri və yeyinti sənayesi inkişaf etmişdir.

**İstanbul** (yunanlar Bizans, romalılar Konstantinopol, ruslar Çarqrad, türklər İstanbul adlandırmışlar) e.ə. 660-cı ildə Bizans imperiyasının yunan yaşayış məskəni kimi salınmışdır. E.ə. 330-cu ildə Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 330-395-ci illərdə Roma imperiyası-nın, 395-1453-cü illərdə isə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə şəhər türklər tərəfindən tutulmuş 1918-ci ilə qədər Osmanlı imperiyasının, sonra isə 1923-cü ilin oktyabrınadək Türkiyə Respublikasının paytaxtı olmuşdur.

İstanbul Bosfor boğazının hər iki sahilində, iki qitədə yerləşir. Şəhərdə Bizans, Roma və Osmanlı dövrünün tikililəri tarixi-memarlıq abidələri kimi qorunub saxlanılır.

İstanbul Türkiyənin mühüm sənaye və ticarət-maliyyə mərkəzidir. Ölkədə istehsal olunan sənaye məhsullarının 1/4-ü onun payına düşür. Beynəlxalq əhəmiyyətli nəqliyyat qovşağıdır.

Dünyanın gözəl şəhərlərindən olan İstanbulun sürətlə böyüməsi sosial və ekoloji problemlərin meydana gəlməsinə səbəb olmuşdur. Bu problemləri aradan qaldırmaq məqsədilə Türkiyə hökuməti kompleks infrastruktur tikililərin inşasına xüsusi diqqət yetirir.

### 4. İqtisadiyyatı

Ötən əsrin 80-ci illərində ağır iqtisadi böhrandan və kredit verən ölkələrin təzyiqindən çıxış axtarmaq məqsədilə inkşafın yeni strategiyasına keçilir. Yeni strategiyada dövlət tərəfindən nizamlanmaya yenidən baxılması və iqtisadi sahəyə dövlətin birbaşa müdaxiləsindən tədricən imtina edilməsi, iqtisadiyyatın rəqabət qanunlarına tabe olmaqla tam bazar münasibətlərinə keçirilməsi,

iqtisadi inkişafı sürətləndirmək və müasirləşdirmək məqsədilə xarici amil və ehtiyatların hər vasitə ilə istifadə olunmasına şərait yaratmaq, ölkənin xarici məhsul və kapitalın azad hərəkəti üçün açıq elan edilməsi, idxalatı əvəz edəcək ixracat istiqamətli sənayeləşmə modelinə kecilməsi və s. nəzərdə tutulmuşdur. Lakin Türkiyədə yeni iqtisadi model dövlət tərəfindən planlaşdırmanı aradan qaldırmır, milli marağı qoruya bilən bazar qüvvələri və dövlət tərəfindən nizamlanma, açıq iqtisadiyyat və proteksionist* tədbirlərin əlaqələndirilməsi yolları axtarılır.

Ölkənin son illərdəki iqtisadi inkişafı Türkiyənin dünya təsərrüfatında «reytinqinin» artması ilə yanaşı getməsə də daxili struktur irəliləyişlərə səbəb olmuşdur. Ötən əsrin 80-ci illərinin ikinci yarısından milli məhsul istehsalında sənayenin payı kənd təsərrüfatını üstələmişdir, halbuki əvvəllər kənd təsərrüfatı ÜMM-da üstün yer tuturdu.

Bütövlükdə müasir Türkiyə iqtisadiyyatının inkişafı xarici təmayüllü inkişaf etməkdə olan ölkələrə aiddir. İşçi qüvvəsinin fəal emiqrasiyası, xarici ölkələrdə yerinə yetirilməli tikinti işləri, qonşu ölkələrlə ənənəvi məhsullar: paltar, ayaqqabı, şirniyyat, sənətkalıq məhsulları, geniş miqyasda xırda topdansatış ticarəti və s.

Türkiyə sənaye – aqrar ölkədir. 2005-ci ildə ÜMM 8 faiz artmışdır (sənaye 27, kənd təsərrüfaı 15,7 faiz). 1997-ci ildə adambaşına ÜMM 3000 dollar olmuşdur. Sənayenin aparıcı sahələri hasilat sənayesi ötən əsrin 80-ci illərində sənaye məhsulunun cəmi 6 faiz vermişdir. Faydalı qazıntıların ixracatında əsaslı irəliləmə olmamışdır. Xarici bazarda mühüm əhəmiyyət qazanmış xromit hazırda ixracat strukturunda əvvəlki mövqeyini itirmişdir. Hasilat sənayesi kömür (3 mln. ton daş, 45-55 mln. ton qonur kömür cıxarır) və dəmir filizinə (4 mln. ton) olan tələbatı ödəmir, neft çıxarılması tədricən artır (4 mln. ton).

Emaledici sənaye 90-cı illərin əvvəllərində sənaye bölməsi məhsullarının dəyərcə 77 faizini ödəyirdi. Bunun əsas hissəsi yeyinti və yüngül sənayenin (35 faiz) payına düşür. Ölkədə emaledici sənayenin dəyərcə 18% yeyinti sənayesi verir. Toxuculuq sənayesi

---

* **Proteksionizm** – kapitalist ölkələrindən gətirilən mallara yüksək kömrük qoymaqdan ibarət himayəçilik sistemi deməkdir.



daha inkişaf etmiş sahə olub, istehsalın yüksək mərkəzləşdirilməsi, xüsusilə milli şəxsi iri kapitalın mövqeyini güclü olması ilə səciyyələnir. Bu sahənin məhsulları Avropa ölkələri ABŞ, Rusiya, Azərbaycan və digər ölkələrə ixrac olunur. Türkiyə ötən əsrin 80-ci illərində Avropa İqtisadi Birliyi ölkələrinin toxuculuq məhsullarına olan tələbatının 1/3-ni ödəyirdi. Ümumi ixracat həcminin 1/3-ni toxuma malları və hazır paltar təşkil edir.

Tikinti, qara və əlvan metallurgiya, kimya - əczaçılıq, avtomobilyığma və digir sahələrlə bağlı sənaye sahələri inkişaf etmişdir. İstehsal vasitələri istehsalı aşağı səviyyədədir, müasir maşın və avadanlığa olan tələbat idxalat hesabına ödənilir. Türkiyə Avropa İttifaqının zəif inkişaf etmiş dövlətlərinə yaxınlaşmış (bəzi göstəricilərə görə onları ötmüş), Misir, Suriya kimi dövlətləri isə ötmüşdür (adambaşına sement, qara metal, televizor və s. istehsalına görə).

Energetikanın mühüm xammalı olan neft (enerji balansının 53 faiz) əsasən idxal edilir. 1980-ci ildə istehlak 16 mln. ton olmuşsa, 90-cı illərin əvvəllərində 30 mln. tonadək yüksəlmişdir. İstehlakın 10-12 faiz yerli istehsal hesabınadır. Neft Batman, Qılı, İzmir, Əliağa şəhərlərindəki ümumi emal gücü 33.5 mln. ton olan dövlət və Mersin şəhərindəki transmilli şirkətin iştirakı ilə qarışıq kapitala məxsus müssisələrdə emal olunur.

İri «Petkin» (Yarımca) neft-kimya kompleksindən başqa 1985-ci ildə Əliağada ikinci neft-kimya kompleksi istifadəyə verilmişdir. Nəticədə neft məhsulları istehsalı 20 faiz artmışdır. Təbii qaz ölkədə 80-ci illərdən çıxarılır. Qaza olan tələbat Ankara, İstanbul, İzmirdəki zavodlar və İzmir və Əliağadakı neft emalı zavodlarındakı maye qazdan istifadə etməklə ödənilir. Türkiyə 1987-ci ildən sabiq SSRİ-dən (1991-ci ildən Rusiya), 2008-ci ildən Azərbaycandan qaz alır.

Energetika sahəsində ötən əsrin 80-ci illərində irəliləyişlər olmuşdur. On il ərzində elektrik stansiyalarının ümumi gücü 6 mln. kvt-dan 16-ya çatmışdır (o cümlədən 34,5 faiz SES-lərin hesabına).

1990-cı ildə Türkiyə qonşu ölkələrə (Bolqarıstan, Rumıniya, Albaniya, Gürcüstana 900 mln. kvt./s) elektrik enerjisi ixrac etmişdir. Yaxın Şərqdə iri sayılan istilik elektrik stansiyası – «Afşin-əlbistan», «Keban» və «Karakala» su elektrik stansiyalarının istehsal gücləri genişləndirilmişdir. 1990-cı ildə Fərat çayı üzərində «Atatürk» bəndinin tikintisi başa çatdırılmış (ildə 8,9 mlrd. kvt/s elektrik ener-

jisi), yeni su anbarı işə salınmaqla, iri suvarma massivi yaradılmışdır.

Son 15 il ərzində ölkədə qara metallugiyanın inkişaf etdirmək Avropa və qonşu ölkə bazarlarına daxil olmaq məqsədilə Türkiyə inkişaf etmiş ölkələrdə qara metallurgiyanın ekoloji təhlükəsini məhdudlaşdırmaq meylindən istifadə edir. Polad istehsalı 1981-ci ildə 2,4 mln. tondan, 2005-ci ildə 12,7 mln. tona çatdırılmışdır. Bununla yarısı tam dövriyyəli 3 iri dövlət müəssisəsində Qaraböyük, Ereqli, İskenderunda qalan yarısı əsasən İzmir rayonundakı 15 xüsusi kiçik zavodlarda istehsal olunur.

Polad və prokat Türkiyə ixracatında əhəmiyyətinə görə toxuma mallardan sonra ikinci məhsuldur. Başlıca metallugiya bazası Zonquldaq-Ereqli daş kömür hövzəsi (Qara dəniz sahilində) və Qərbi Anadoluda boz kömür yataqları və İES-i ilə əlaqədardır. Seydişehirdə sabiq SSRİ-nin texniki əməkdaşlığı il tikilmiş alüminium zavodu fəaliyyət göstərir. 1989-cu ildə 200 min ton gil torpaq, 60 min ton alüminium istehsal olunmuşdur.

Maşınqayırmada idxal olunan hissələrdən nəqliyyat vasitələri yığma və istehsalı mühüm əhəmiyyət kəsb edir. Türkiyədə avtomobil və traktoryığma sənayesində transmilli şirkətlər (Ford, FİAT, Reno, Mersedes, Daymler-Bents, Britiş Motor, Kraysler və b.) fəal iştirak edir. Transmilli şirkətlər yerli iri kapitalla əməkdaşlıq edir. Nəqliyyat vasitələri quraşdırılması bütövlükdə yüksək səviyyədə deyil və illər üzrə tərəddüd mövcuddur. 90-cı illərin ortalarında xarici lisenziyalarla 75 min yük avtomobilli və dartıcı, 5-7 min avtobus, 250 min minik avtomobili, 20 min traktor istehsal olunmuşdur. Quraşdırmanı başa catdıran 19 müəssisə fəaliyyət göstərmişdir (İstanbul, Bursa, Adapazarı, İzmir, İzmit, Aksaray, Mersin). Türkiyədə dəmir yol avadanlıqları zavodu SİDEMAŞ (Sivasda), yük və sərnişin vaqonları zavodu ADMAŞ (Adapazarda), ELMAŞ (Eskişehirdə) – lokomotiv istehsalı fəaliyyət göstərir.

Gəmiqayırma sənayesini inkişaf etdirmək və müasirləşdirmək üçün cəhd edilir. Bu sahəyə 10 dövlət və xüsusi bölməyə məxsus müəssisələr xidmət edir. Ölkədə 8 iri tərsanə – Pendik, Gölçük, (sualtı qayıq), Camialtı, Taşkizaq, İsteniye, Xalic, Xasköy və Alaybey mövcuddur. İstanbuldan 40 km cənub-şərqdə – Tuzluda müasir tərsanənin inşası başa çatdırıldığından gəmiqayırmanın əsas bazası buraya köçürülmüşdür. Son illərdə Türkiyə özünün təyyarəqayırma sənayesini yaratmışdır (Eskişehr və Kayseri). Ankara yaxınlığında



Myürteddə «F-16» təyyarəsi yığılır. Ölkədə vertolyotyığma zavodu da vardır.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Becərilən torpaqlarlın çox hissəsi (90 faiz) xüsusi mülkiyyətə məxsusdur. Dövlət torpaq fondu – meşələr, əkinə yararlı sahələr bir qayda olaraq kənd əhalisinin ümumi mülküdür və onların istifadəsindədir. Torpaqların bir qismi vəqf (məscidlərin) xüsusi mülkiyyətidir. Aqrar münasibətlərdə feodal qalıqlar – pay ayırmaqla muzdurluq, su torpaq haqqını işləməklə ödəmə, borc asılılğı saxlanılır. Kəndlərdə siyasi mühiti sabitləşdirmək və aztorpaqlıların üstünlük təşkil etdiyi rayonlarda aqrar ziddiyyəti zəiflətmək məqsədilə 1984-cü ildə suvarılan torpaqlar haqda qanun qəbul edilmişdi.

Kənd təsərrüfatından gələn gəlirin 2/3 hissəsi bitkiçiliyin payına düşür. İkinci yer heyvandarlığa məxsusdur. Meşə və balıqçılığın rolu zəifdir. Dənli bitkilər (əkin sahələrinin 82 faiz) xüsusilə əhəmiyyətlidir. Əsasən buğda və arpa əkilir. Qarğıdalı, covdar, vələmir, darı, cəltik becərilir. Texniki bitkilər əkin sahələrnin 12 faizini tutsa da əhəmiyyəti böyükdür (yerli sənayeni xammalla təmin edir, bir qismi ixrac olunur). 1995-ci ildə ölkədə 20 mln.ton buğda, 8,0 mln.m arpa, 2,0 min ton pambıq, 500 min ton fındıq, 250 min ton tütün yığılmışdır.

Əkinçilikdən fərqli olaraq heyvandarlıq (quşçuluq istisna olmaqla) ekstensiv əsaslarla heyvanların sayını artırmaqla inkişaf etdirilir. İribuynuzlu mal-qaranın sayı 20, xırdabuynuzlu 70, o cümlədən qoyunların sayı 50 mln. başdır (1995).

**Nəqliyyatı və xarici ticarəti.** Türkiyə inkişaf etmiş nəqliyyat şəbəkəsinə malikdir. Daxili sərnişin və yükdaşımalar əsasən avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Dəmir yollarının uzunluğu 3,4 min km-dir, bərk örtüklü avtomobil yolları 60 min km-dir. Mühüm dəniz portları – İstanbul, İzmir, Samsun, İskenderundur. Türkiyədə nəqliyyat vasitələrinin sayı artır. Əgər 1987-ci ildə 1000 nəfərə 26 vahid nəqliyyat vasitəsi düşürdüsə, 2005-ci ildə bu göstərici 2 dəfə artmışdır. 1988-ci ilin iyulunda Bosfor üzərində ikinci asma körpünün istifadəyə verilməsi avtomobil nəqliyyatının inkişafında mühüm əhəmiyyətə malikdir, çünki Türkiyədə tranzit yüklərin daşınması valyuta gəlirini yüksəldir. Dəmir yol nəqliyyatının inkişafı avtomobil yolları ilə rəqabətə dözümlü səviyyədə deyildir.

Dəniz gəmiçiliyi inkişaf etmişdir. Xarici ticarət əlaqələrində

nəqliyyatın bu növü mühüm rol oynayır. 1987-ci ildə dövlətə məxsus «Türk hava yolları» təyyarə şirkəti həm daxili, həm də xarici sərnişin daşımalarında mühüm rol oynayırdısa, hazırda ölkədə bir neçə xüsusi təyyarə şirkətləri yaradılmışdır ki, bunlar əsasən daxili sərnişin daşımaları ilə məşğul olur.

Qərblə həmçinin Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionu ölkələrinin ticarət-iqtisadi əlaqələrində Türkiyənin vasiticilik və əlaqələndirici rolu – Türkiyə ərazisindən tranzit daşınmaları, neft ötürülməsinin artması ilə genişlənir. Bu rol gələcəkdə İran, Qazaxıstan, Türkmənistan, Azərbaycandan Avropa, Ukrayna və Baltikyanı ölkələrin yeni neft və qaz kəmərlərinin istifadəyə verilməsi ilə daha da artacaqdır.

Azərbaycanla Türkiyə arasında magistral Bakı-Tbilisi-Kars dəmir yolunun tikintisinə 2007-ci il noyabrın 21-də üç respublikanın (Azərbaycan, Türkiyə, Gürcüstan) prezidentlərinin görüşündə start verildi. Bu yol bölgədə təhlükəsizlik, əməkdaşlığın, daşıma xərclərinin 30 faizədək azalacağına zəmanət verməklə yanaşı, iqtisadi və siyasi cəhətdən çox əlverişlidir; həm də Şərq-Qərb dəhlizin açılmasıdır.

**Xarici ticarət.** Xarici ticarət sahəsində bazar iqtisadiyyatı proqramının həyata kecirilməsində daha böyük irəliləyişlər olmuşdur. 1980–95-ci illərdə ixracat dəyər qiymətləri ilə 2,2 mlrd.-dan 21,6 mlrd. dollaradək yüksəlmişdir (10 dəfə). İdxalatın artım sürəti aşağı olmuşdur: bu dövr ərzində 4.8 mlrd.-dan 33,7 mlrd. dollara, yəni 7 dəfə yüksəlmişdir. Xarici ticarət dövriyyəsində defisit 5 dəfə artmışdır, bu kəskin problem hələ də həllini gözləyir.

İxracatın 80 faiz emal sənaye məhsulları (toxuculuq, tikiş məmulatı – 27 faiz, qara metal – 12 faiz, meyvə və qoz 7 faiz, tütün – 4 faiz) təşkil edir. İdxalatda neft, sənaye xammalı, maşın və avadanlıq üstünlük təşkil edir. Ticarət əlaqələri Avropa İttifaqı ölkələri (ixracatın 60 faiz, idxalatın 50 faiz), regionun qonşu ölkələri (20 faiz), ABŞ (7 faiz və 12 faiz), MDB (6 faiz və 9 faiz) ilədir. Rusiya-Türkiyə arasında ticarət-iqtisadi əməkdaşlığın yeni formaları haqda müqavilə imzalanmışdır. Türkiyə-Azərbaycan əlaqələri əhatəlidir. Bu əlaqələrdə iqtisadi əməkdaşlıq və ticarət, xüsusilə əhəmiyyətlidir.

1994-cü ildə bağlanmış neft müqaviləsinə görə Xəzər nefti Gürcüstandan keçərək Türkiyəyə çatdırılmışdır. «Bakı-Tiflis-Ceyhan» adlanan bu neft kəməri 2006-cı ilin iyulunda istifadəyə verilmişdir. Hazırda Xəzərin Azərbaycana aid hissəsindən çıxarılan neft Aralıq dənizi sahilində yerləşən Ceyhan portundan tankerlərlə dünya bazarlarına çıxarılır.



Türkiyənin təbii qaza olan və ildən-ilə artan tələbatını ödəmək üçün Xəzərin Azərbaycana aid hissəsindən çıxarılan təbii qaz "Bakı-Tbilisi-Ərzurum" təbii qaz magistral kəməri ilə Ərzurum şəhərinə çatdırılması və oradan da başqa yerlərə nəql edilməsi planlaşdırılır.

# ÜRDÜN* HAŞİMİLƏR MƏLİKLİYİ

## 1. Coğrafi mövqe və təbiəti

**Coğrafi mövqeyi**. Ərəbcə Məmləkə-Əl Ürdüniyyə adlanan bu dövlət Cənubi-Qərbi Asiyada Aralıq dənizinin şərqində yerləşmişdir. Sahəsi 89,2 min kvadrat km-dir. Sahəsinin böyüklüyünə görə dünya dövlətləri arasında 110-cu yeri tutur. Ölkə Suriya, İraq, Səudiyyə Ərəbistan və İsraillə həmsərhəddir. Əslində Ürdünün Fələstinlə də dövlət sərhədi olmalı idi. BMT-nin müstəqil Fələstin dövləti üçün hələ 1947-ci ildə ayırdığı torpaqları İsrail zəbt etdiyindən hələlik bu sərhəd rəsmi dövlət səviyəsində mövcud deyil. Ölkənin cənubdan kiçik məsafədə Qırmızı dənizin Əqəbə körfəzinə çıxışı var.

**Səth quruluşu və faydalı qazıntıları.** Ürdünün təbiəti ilk baxışda yeknəsək görünsə də onun özünəməxsus çalarları, gözəllikləri və qəribə təzadları vardır. Ölkə ərazisinin çox hissəsini əsasən şərqə doğru alçalan səhra və yarımsəhralar tutur. Şərqdəki qumlu səhralaradan qərbə getdikcə relyef tədricən dəyişir, yəni hündürlük 400-500 metrdən 1200-1800 metrə qədər yüksəlir. Nisbətən hündür dağlar ərazinin cənubundadır. Məsələn, Ram dağının hündürlüyü 1754 m, Əş-Şəranın hündürlüyü isə 1734 metrə bərabərdir.

---

* **Ürdün sözü** İordan çayının adından götürülmüşdür. Sami dilində «axın» və «şırıldayan» mənasını bildirir. Toponimin ürdün sözündən yaranma ehtimalı da var. Ərəblər və digər müsəlman ölkələri İordaniyanı Ürdün adlandırırlar. Ölkə 1946-cı ilin 25 mayınadək Transiordaniya adlanırdı.

Ölkənin səth qurluşundakı təzadlardan biri də ondan ibarətdir ki, Şərq hissədəki səhra və yarımsəhralar zonasını, qərbdəki, qismən dağlıq ərazini şimaldan cənuba doğru meridian istiqamətində uzanan Qhor tektonik çökəkliyi ayırır. Bu çökəkliyin cənub davamını əl-Ərəb vadisi təşkil edir. Ölkənin, demək olar ki, yeganə çayı olan Ürdün bu çökəkliklə axır və dünya ədəbiyyatında məhşurlaşan Ölü dənizə tökülür. Qhor çökəkliyi planetimizin ən dərin çökəkliyi hesab edilir. Dərinliyi okean səviyyəsindən 793 metr aşağıdır. Eni 7-8 km, bəzi yerlərdə 20-25 km-ə çatır.

Ürdün faydalı qazıntılarla o qədər də zəngin deyil. Ölkə ərazisinin çox hissəsi, xüsusilə şərq bölgəsində faydalı qazıntıları aşkar etməkdən ötrü geoloji kəşfiyyat işlərini aparmaq nisbətən çətindir, çünki bu bölgədə su mənbələri, demək olar ki, yox dərəcəsində olmaqla yanaşı mövcud yeraltı sərvətlər yaşayış məntəqələrindən və ya magistral yollardan uzaqda yerləşmişdir. Buna görə də ölkədəki təbii sərvətlər o qədər də yaxşı öyrənilməmişdir. Ölkənin ən mühüm faydalı qazıntısı ərazinin əksər yerlərində rast gəlinən yüksək keyfiyyətli fosforit yataqlarıdır.

Fosforit ehtiyatına görə Ürdün regionda birinci, dünyada isə beşinci yeri tutur. Ürdündə fasforiti «boz qızıl» adlandırırlar. Ölkənin ən böyük fosforit yataqları Ər-Rüseyf, Ən-Həsa və Şeydidə cəmləşmişdir. Bu yataqlar içərisində ən perspektivlisi Şeydi yatağıdır. Fosforitlə yanaşı ölkə mineral duzlar və tikinti materialları ilə də zəngindir. Ölü dəniz müxtəlif duz ehtiyatının xəzinəsidir. Burada duzun ehtiyatı 40 mln. tondan artıqdır. Ölü dənizin təbii sərvətlərindən səmərəli istifadə etmək məqsədilə 1982-ci ildə Lisan yarımadasında emaledici müəssisə tikilib istifadəyə verilmişdir. Ürdün tədricən dünyanın iri gübrə istehsalçılarından birinə çevrilə bilər. Fosfor və duzlardan əlavə ölkədə ehtiyatı böyük olmayan dəmir, mis, manqan filizləri və uran yataqları aşkar edilmişdir.

**İqlimi və hidroqrafiyası.** Ürdün ərazicə kiçik dövlət olsa da, relyefinin müxtəlifliyi, həmçinin ölkənin yerləşdiyi coğrafi enlik burada yayı isti və quru, qışı yumşaq və nisbətən rütubətli keçən subtropik iqlimin formalaşmasına səbəb olmuşdur. İlin təqribən 6-7 ayında havalar çox isti və quru olur. Bəzi aylarda heç bir damla da yağış yağmır. Yağıntılara yalnız oktyabrdan-aprelə qədər təsadüf edilir. Orta illik yağıntının miqdarı ərazinin şimal-qərbində 400-500 mm, şərqində isə 100-120 mm-dir.



Ölkənin müxtəlif rayonlarındakı iqlim şəraiti relyefin müxtəlifliyi ilə izah olunur. Bu səbəbdən şərq bölgədə havanın orta temperaturu yanvarda 7-9 dərəcə C (İordan çayının sahillərində 15-16 dərəcə C), iyulda 28-38 dərəcə C (Qhor vadisində 48-50 dərəcə C) arasında dəyişir. Ölkənin şərqindəki səhra zonasında bu iqlim göstəricilərinin kəmiyyəti bir qədər yüksək olur. Yəni sutkalıq və aylıq amplituda artdığından iqlim sərtləşir.

Ölkənin bütün ərazisi üçün yay mövsümündə qeyri-müntəzəm və daima əsən qərb küləkləri səciyyəvidir. Ərəbistan yarımadasındakı səhralardan əraziyə «Sirokko» adlanan qızmar külək əsir. Sirokko otları, əkinləri yandırır məhv edir, qum fırtınaları yaradır. Bu səbəbdən də ölkədə bitki örtüyü çox kasıbdır. Yalnız səth axınları olan yerlərdə xurma və zeytun plantasiyaları salınmışdır. Ölkədə həqiqi mənada su mənbəyi olan cəmi bir çay var. Bu, daimi axara malik olan İordan çayıdır. Bundan əlavə vadilər, quru dərələr, payızda yağışlar mövsümü zamanı sulu olurlar. Bu yağış sularını toplayıb suvarmada istifadə etmək ötrü ölkədə bəndlər tikilmişdir.

İordan çayı ölkədə daimi axarlı su arteriyasıdır. Çayın ümumi uzunluğu 252 km-dir. Mənbəyini Hərmun dağ massivindəki Cəbəl-əş-Şeyl silsiləsindən götürən çay Qhor cökəkliyi ilə axaraq Huma və Təbəriyyə göllərindən keçib Ölü dənizə tökülür. Çay öz axarı boyunca çoxlu astanalar əmələ gətirmişdir. Bu çay üzərində su elektrik stansiyası da tikilmişdir. Maraqlı cəhətlərdən biri də budur ki, xristianların və müsəlmanların müqəddəs yazılarında İordan çayı haqqında çoxlu əfsanələr, rəvayətlər mövcuddur. Xristianların müqəddəs yazılarında göstərilir ki, İsa Peyğəmbər (İisus Xristos) İordan çayında xaç suyuna salınmış, yəni xristianlığı qəbul etmişdir.

Ürdünü məşhurlaşdıran təkcə təbiətindəki müxtəliflik deyil, həm də milyon illərlə burada qərar tutan Ölü dənizdir. İordan çayı, səthə çıxan bulaqlar və digər kiçik axarlar həyat mənbəyi, yaşıllıqlara təkan verən amil olduğu halda, ölkədəki nadir su hovuzu olan Ölü dəniz hər şeyi məhv edib duza döndərir.

Ölü dəniz Cənub-Qərbi Asiyanın axarsız göllərindən biridir. Mənası öz adını ifadə edir. Cünki bəzi bakteriyalar istisna olmaqla onun suyunda heç bir canlı varlıq yaşaya bilməz. Ölü dənizdəki duz məhlullarının qalıqları dünya okeanı suyundan 7,5 dəfə artıqdır. Suyun səthində uzanan adamlar duzun xışıltısını eşidir. Ölü dənizdə suyun orta duzluluğu 260-270 promilldir. İordan çayındakı

balıqlardan təsadüfi üzüb gölə gələnlər dərhal ölür və duzun içərisində daş kimi bərkiyir. Dənizin sahəsi 1050 kv. km , uzunluğu 76 km, maksimum dərinliyi 356 metrdir.

Ürdünlülər Ölü dənizi müqəddəs sayır və onun haqqında çoxlu əfsanələr söyləyirlər. Arxeoloqlar 1955-ci ildə Ölü dənizin yaxınlığında aşkar etdikləri mağaradan dulusçuluq əşyaları və məişətdə işlədilən digər əşyalar tapmışlar. 1960-cı ildə dənizdə tədqiqat aparan arxeoloji ekspedisiyanın mütəxəssisləri 70 metr dərinlikdə qədim zamanlarda yoxa çıxan iki qədim şəhərin – Sadoma və Qomorra şəhərlərinin xarabalıqlarını və eni təqribən 4 metr olan yol aşkar etdilər. Mənbələrdən görüldüyü kimi 3-4 min əvvəl Ölü dənizin səviyyəsinin ən aşağı düşdüyü vaxtlarda romalılar burada yol çəkmişlər.

Dənizin suyundakı duz adamların dərisindəki yara-xoranı sürətlə azaltmaq xassəsinə malikdir. Əfsanəyə görə İbrahim peyğəmbərin Lut adlı nəvəsini Sadoma və Qomorra dağılarkən mələklər ölümdən xilas edib, o burada sığınacaq tapıb. Hətta indinin özündə də aydın və sakit havada ən yüksək təpədən baxanda dənizin dibində həmin şəhərlərin xarabalıqlarını görmək olar.

Ürdündə iri su mənbələri, göllər olduqca azdır. Nisbətən iri və sulu gölü Əl-Əzraqdır. Bu gölün suyu borular vasitəsilə ölkədə içməli suyun çatışmadığı onlarca yaşayış məntəqəsini təmin etməyə imkan verir. Bu gölün yerləşdiyi bölgə milli park elan edilmişdir. Bu bölgədə məskunlaşan fauna və flora aləmi dövlət tərəfindən qorunur. Ölkə ərazisində isti su mənbələri də mövcuddur. Zərqameyn qaynar bulağı bu qəbildəndir. Əfsanəyə görə vaxtilə burada çar Böyük İrodun hamamı yerləşərmiş. Bu qaynar bulaq eyni zamanda böyük müalicə ocağıdır. Turistlər bu ekzotik İrod hamamında özlərini buğa vermək və müalicə olmaq fürsətini əldən vermirlər. Lakin turistləri qorumaq üçün polislər növbə çəkirlər. Çünki özlərinin ənənələrinə sadiq qalan bədəvilər əksər hallarda alt paltarında çimirlər. Buna görə də paltarını tam soyunub lüt çimən avropalıları daşa basır, təhqir edirlər.

**Torpaq və bitki örtüyü.** Nisbətən rütubətli sahələrdə təbii şəkildə bitən yulğun kollarına rast gəlmək olar. Ölkədə qısaömürlü elə gül növləri var ki, onlar qızmar hava şəraitində çiçəkləyib kürəciklər əmələ gətirirlər. Kürəciklər torpağa quma düşüb rütubətli mövsüm başlayana qədər qalır, sonra isə yenidən göyərirlər.



Dəvətikanı səhraların maraqlı bitkilərindəndir. Bu bitki qızmar günəş istisində kiçik yarpaq açıb yaşıl rəng alır. Maraqlı burasıdır ki, digər səhra bitkiləri istiyə, susuzluğa davam gətirməyib məhv olduğu halda dəvətikanı 20 m-dən aptıq dərinliyə kök atır və qrunt suları ilə qidalanır. Ölkədə bitki örtüyü kimi fauna aləmi də kasıbdır.

Bəzən ölkə ərazisindəki çökək, alçaq səthlərdə su, rütubət, nəmlik nişanələri, həmçinin qrunt sularının səthə yaxın olduğu ərazilərdə səhraların yaşıl «gözcükləri» əmələ gəlir. Amma bir müddətdən sonra bunlar günəşin qızmar istisinə dözməyib məhv olub gedir. Daimi yaşıllıqlara yalnız ölkənin qərb hissəsində, yəni İordan çayının sahillərində rast gəlmək olar.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Ürdün dövlətinin ərazisi tarixin müxtəlif dövrlərində bu regionda yaranan daha güclü imperiya və dövlət birliklərinin tərkibinə daxil olmuşdur. Artıq hamıya məlumdur ki, İordan çayının qərb sahilləri dünya mədəniyyətinin qədim ocaqlarından biridir.

Mütəxəssislərin fikrincə, Ürdünün yerləşdiyi ərazidə çox qədimlərdən sami tayfaları yaşamışlar. E.ə. IX-VII minilliklərdə burada yaşayan əhali ovçuluq və ibtidai əkinçiliklə məşğul olmağa başlayır. Arxeoloqların Ölü dənizlə Əqəbə körfəzi arasındakı şəhər xarabalıqlarında aşkar etdikləri mis mədənləri 7-8 min il əvvəl bu yerlərdə güclü dövlətin, böyük şəhərlərin olmasını bir daha təsdiq etdi. Tarixdə məhşur olan Sadoma, Qomorra şəhərləri bu ərazidə olublar. Eramızdan əvvəl birinci minillikdə indiki Ürdün ərazisinin bir hissəsi İsrail və Yəhudi padşahlığının tərkibində idi. Sonradan bu ərazi VII yüzillikdə Ərəb xilafətinə qatılana qədər Makedoniyalı İsgəndər, Misir və Roma qoşunları tərəfindən zəbt edilir.

Ürdünün müsəlman tarixi VII əsrin ortalarına təsadüf edir. Bu ərəfədə cənubdan gələn ərəblər Ürdün ərazisini zəbt edərək burada İslam dinini və ərəb dilini yaymağa başlayırlar. Ölkə XVI yüzilliyin əvvəllərindən 1918-ci ilədək Osmanlı İmperiyasının tərkibində olmuşdur. Birinci Dünya müharibəsindən sonra San-Remo konfransının (1920-ci il) qərarı ilə Böyük Britaniya mandatlığında olan Fələstin adlanan ərazinin, 1921-ci ildən sonra isə Transiordaniya adlanan əmirliyin tərkibində qalır.

1946-cı ilin 25 mayında müstəqillik əldə edən Transiordaniya Ürdün məlikliyi adını qəbul edir. Həmin vaxtdan 25 may – müstəqillik günü kimi qeyd olunur. Əmir Abdulla ölkənin məliki elan olunur. 1958-ci ilin payızına qədər Ürdün ərazisində Böyük Britaniyanın ölkəyə zorla qəbul etdirdiyi qanunlar qalırdı. 1958-ci ilin 2 noyabrında ingilis qoşunları ölkədən çıxarılır.

**Dövlət quruluşu.** Ürdün kosntitusiyalı monarxiya şəklində idarə olunur. 1952-ci ildən 1999-cu ilin 7 fevralına qədər dövlətin başçısı xalq içərisində, Yaxın Şərqdə, eləcə də bütün dünyada öz siyasəti ilə böyük hörmət qazanmış məlik Hüseyn Ben Təllal olub. Məhəmməd peyğəmbərin (S) nəslindən (Haşimilər) olan Hüseyn Ben Təllalın vəfatından sonra oğlu Abdulla Ben Hüseyn Ben Təllal ölkə taxt-tacına sahib olmuşdur.

Ölkənin ali qanunvericilik hakimiyyəti senat və deputatlar palatasından ibarət Milli Məclisdən ibarətdir. Senatın üzvləri məlik tərəfindən 4 il müddətinə təyin olunur. Deputatlar palatasının üzvləri də 4 il müddətinə amma ümumi seçkilər vasitəsilə seçilir. İcraedicilik hakimiyyəti Baş nazirin rəhbərlik etdiyi hökumət tərəfindən yerinə yetirilir. İnzibati cəhətcə ölkə 10 mühəfəzə (əyalətə) bölünür. Ürdün xalqı hər il 25 may gününü (1946-cı ildən etibarən) müstəqillik günü və 14 noyabr gününü (1999-cu ildən etibarən) Məlikin anadan olduğu gün kimi milli bayram kimi qeyd edilir.

1975-ci ildə ölkədə olan bütün siyasi partiya və ictimai təşkilatların fəaliyyəti qadağan olunmuşdur. O vaxta qədər isə ölkədə Demokratik, Ərəb Sosialist Dirçəliş, Kommunist və b. partiya və təşkilatlar fəaliyyət göstərirdi. 1991-ci ildən sonra partiyaların fəaliyyətinə icazə verildi. Hazırda ölkədə 20-ə qədər siyasi partiya və təşkilat açıq fəaliyyət göstərir. Ürdün Xalq Birliyinin Demokratik Partiyası, Kommunist Partiyası, İslam Hərəkatı Cəbhəsi nisbətən böyük partiyalardı.

Ürdün BMT-nin Ərəb Ölkələri Cəmiyətinin, İslam Ölkələri Təşkilatının başqa beynəlxalq və regional təşkilatların üzvüdür. Yaxın Şərq münaqişəsinin ədalətli şəkildə həll olunması uğrunda mübarizə aparır. Ürdün 1988-ci ildə Əlcəzairdə özünü müstəqil dövlət elan etmiş Fələstini tanımışdır. 1994-cü ilin 26 oktyabrında isə İsrail ilə sülh müqaviləsi imzalamışdır. Bu müqavilədən sonra hər iki ölkə diplomatik səviyyədə əlaqələr yaratmışlar.

**Azərbaycan Respublikası ilə münasibətlər.** Ürdün Haşimilər



məlikliyi 1991-ci ilin dekabrın 28-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. (Türkiyədən sonra ikinci dövlət).

1993-cü ilin fevralında Ürdün dövlətinin yüksək səviyyəli nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı 1993-cü il fevralın 13-də Azərbaycan Respublikası ilə Ürdün Haşimilər məlikliyi arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol, Birgə Bəyanat və hökumətlər arasında texniki, iqtisadi və mədəni əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycanın və Ürdünün ali rəhbərləri ilk dəfə 1994-cü ilin yanvarında Davos Ümumdünya İqtisadi Forumunda və 2000-ci ilin dekabrında İslam Konfransı Təşkilatının Kasablanka zirvə toplantısında təkbətək görüşmüşlər. Görüşlər zamanı dövlət başçıları ikitərəfli münasibətlərin inkişafı məsələlərini geniş müzakirə etmişlər. Azərbaycan və Ürdün arasında dövlət və hökumət başçıları, xarici işlər nazirləri səviyyəsində mütamadi məktub mübadilələri aparılır. Respublikamızın ali və orta ixtisas məktəblərində Ürdün üçün müxtəlif ixtisaslı kadrlar hazırlanır.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Ürdün ərazisinin qədim əhalisi xanaanlar və sami tayfaları hesab edilir. Sami tayfaları bu ərazidə daha qədimdən məskən salmışlar. Müstəqillik əldə etdikdən sonar Ürdün hökuməti əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırması, təhsil sisteminin qaydaya salınması sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə başlamışdır.

2005-ci ilin əvvəlləri üçün ölkədə 5.4 milyon nəfərə yaxın adamın yaşaması qeydə alınmışdır.Bu göstəriciyə görə dünyanın 108-ci dövlətidir. Əhilisinin 95 faizini ərəblər təşkil edir. Ölkədə çərkəz, çeçen, yunan, kürd və başqa xalqların nümayəndələri də yaşayır. Çərkəzlər (bu ad altında Şimali Qafqazdan gələn bütün xalqlar nəzərdə tutulur) və çeçenlər Əmman və onun ətrafında yaşayır. Ölkə əhalisinin təxminən 4-5 faizini köçəri və yarımköçərilər təşkil edir.Köçərilər arasında indiyədək qəbilə-tayfa bölgüsü saxlanılmışdır.

Ürdündə yaşayanların hamısı yerli, yəni Ürdün ərəbləri deyil. Burada Fələstin ərəblərinin sayı Ürdün ərəblərinin sayından az deyil. Fələstinlilərin işgüzarlığı, əməksevərliyi, istedadlı olmaları ərəb-islam dünyasında hamıya bəllidir. Fələstin ailələrində uşaqların, demək olar ki, hamısı ali təhsil (əsasən Qərb ölkələrinin universitetlərində) alırlar.

Ölkənin ziyalı təbəqəsini Fələstin ərəbləri təşkil edir. Ölkə iqtisadiyyatının bir çox sahələri, xüsusilə biznes və ticarət onların əlindədir. Amma orduda, polisdə və gömrükdə zabit vəzifələrinə, həmçinin Xarici İşlər Nazirliyində mütəxəssis kimi işə qəbul olunmurlar. Fələstinlilər bir çox məqamlarda yerli ərəblərdən seçilirlər. Məsələn, danışdıqları dil bir növ şəhər dili, yəni əbədi dil kimi səslənir. Ürdün ərəblərinin danışdıqları dil isə bədəvi (çöl) ərəblərinin dilinə yaxındır. Təbii ki, geyimlərində də fərq var. Ürdün hökuməti bütün fələstinlilərə Ürdün pasportu vermir. Məsələn, Qəzza bölgəsində yaşayanlara Ürdün vətəndaşı pasportu vermir.

Ürdün İslam ölkələri içərisində yeganə dövlətdir ki, burada köçəri həyat tərzi sürən əhali arasında xristianlarda olub. Onlar özlərini XI-XII yüzilliklərdə bu yerlərdə hakimiyyəti ələ keçirmiş səlibçilərin[*] nəsilləri sayırlar. Ötən əsrin 90-cı illərinə qədər əhalinin təbii artımı 4 faiz təşkil edirdi. Sonrakı onilliklərdə təbii artım bir qədər aşağı enmişdir (3-2,5 faiz). Ölkədə gözlənilən orta ömür 72 yaşdır, o cümlədən kişilər üçün 72, qadınlar üçün 74 yaşdır.

Dövlət dili ərəb dilidir. Əhali ərəb dilinin Suriya dialektində danışır. Şəhərlərdə yaşayanlar ingilis dilindən də istifadə edir. Ölkə üzrə orta sıxlıq hər $km^2$ 60 nəfərdən artıqdır. İordan çayının qərb, şimal şərq sahilləri, Əmman şəhəri və ətrafında əhali sıx, səhra və yarımsəhra bölgələrində isə seyrəkdir. Ölkə əhalisinin təqribən üçdə iki hissəsi şəhərlərdə yaşayır. Əmman, Əs-Zərqa, İrbit, Nablus ölkənin ən böyük şəhərləridir. Ürdündə tarixi şəhərlər də az deyil.

Ürdündə, xüsusilə onun paytaxtı **Əmmanda** uzun müddət olmayan şəxs yenidən bu şəhərə gəlsə, gözlərinə inanmaya da bilər.

[*] **Səlib və ya xaç yürüşləri**.1096-1270-ci illərdə Fələstindəki xristianlara məxsus müqəddəs yerlərin müsəlman asılılığından azad etmək şüarı altında katolik kilsənin təşəbbüsü ilə Qərbi Avropa feodallarının Yaxın Şərqdəki işğalçı müharibələri.



Son illərdə burada salınmış, xarici görünüşü ilə seçilən, əsasən dörd mərtəbəli (hökumət Əmmanda dörd mərtəbədən hündür ev tikməyə icazə vermir) villa – mülklər paytaxta xüsusi yaraşıq verir. Məsələ ondadır ki, Yaxın Şərqin neftlə zəngin olan ölkələrində 10-12 il işləyən Fələstinli ərəb, topladığı vəsait hesabına regionun nisbətən sakit və sabit şəhəri kimi tanınan, həm də tarixi vətəninin yaxınlığında yerləşmiş Əmmanda mülk alıb, yaşamağa üstünlük verir. Bu cür mülklərin orta qiyməti 200-300 min ABŞ dollarına bərabərdir. Onlar bütövlükdə, ya da mərtəbə-mərtəbə satılır. Mülkün xarici divarına onun tikintisinə hökumətin rəsmi icazə verməsi barədə lövhə vurulur.

Əhalisinin sayı 1,5 mln. nəfərə çatmış paytaxtın tarixi-arxeoloji baxımdan ən görkəmli yeri Filadelfiya adlanan qədim hissəsidir. Burada isə ən gözəgəlimli, «turistlərin tələsi» hesab edilən yer Roma dövrünün xarabalıqlarının yerləşdiyi Haşimilər meydanıdır. Bu meydandakı 6 min oturacaq yeri olan qədim Roma teatrında indiyədək müxtəlif festivallar və digər musiqili-əyləncəli proqramlar keçirilir. Haşimilər meydanından qarşıdakı təpə üzərindəki Herkules[**] məbədinin və VII-VIII əsrlərdə ərəblərin inşa etdikləri qala və bürclərin qalıqları aydın görünür. Qədim Roma kimi Əmman da yeddi təpə üzərində salınmışdır. Açıq səma altındakı tarixin yadigarlarını dövlət mühafizəsinə götürülmüşdür.

Əmmandan cənubda yerləşən və dünyanın «səkkizinci möcüzəsi» sayılan qədim (e.ə. III əsrdə salınıb) **Petra** şəhəri diqqəti çox cəlb edir. Maraqlı burasıdır ki, bu şəhərdəki bütün yaşayış binaları, saraylar, qəbirlər və s. yalnız sal qayalardan yonularaq düzəldilmişdir. Petrada elə bir tikiliyə rast gəlmək olmaz ki, o bir-birinin üzərinə qoyulmuş bir neçə daşdan düzəldilsin. Burada daş dövründə yaşamış insanların ev əşyaları, daş alətləri tapılmışdır. Qədim Nabatey çarlığının mərkəzi olan Petra, tədricən dövlətin ən zəngin bir şəhərinə çevrilmişdir. Bu şəhərin var-dövlətini, sərvətlərini ələ keçirməyə çoxları can atsa da, şəhər hər tərəfdən yüksək qayalarla əhatə olunduğundan buna nail olmaq o qədər də asan olmayıb. Misir

[**] **Herkules** (Herakl) – qədim yunan mifologiyasında fiziki cəhətdən ən güclü qəhramanlardan biri. Zevsin və Alkmenanın oğlu. Herkulesə sitayiş qədim Yunanıstan və Romada geniş yayılmışdır.

piramidaları kimi insanı heyrətə salan Petra xarabalıqları əslində ölkənin rəmzinə çevrilmişdir.

Ürdünün məşhur tarixi yerlərindən biri də paytaxtdan 40-45 km aralı, yaşıl dərədə yerləşmiş **Geraş** şəhərinin qalıqlarıdır. Yunanlar tərəfindən salınmış bu şəhərin qədim adı yunan hökmdarı Antioxanın şərəfinə Antioxa adlandırılmışdı. Tarixi boyu bu şəhər bir çox hökmdarlar tərəfindən zəbt olunumuşdur. Makedoniyalı İsgəndər, Filadelfiyalı Ptolomey, Pompey və b. bu şəhəri ələ keçirmişlər. E.ə. 63-cü ildə bu şəhəri zəbt edən Pompey onu romalaşdırmağa başlayır. Romalıların hakimiyyəti dövründə şəhərin ərazisi təqribən iki dəfə böyüyür. Yunanlıların tikdirdiklərindən əlavə romalılar burada sütunlarla bəzədilmiş küçələr salır, üç teatr, bir cıdır meydanı, imperator Adrianın şərəfinə Zəfər tağı tikir, Artemida* məbədinin ucaldırlar. Eramızın I əsrində bu şəhərdə 16-18 min nəfərin yaşaması guman edilir.

Eramızın IV əsrində Roma imperiyası zəifləyir və onun torpaqları Bizans imperiyasının əlinə keçir. Bizanslılar da şəhərdə özlərinə xas olan abidələr, başqa tikililər ucaldırlar. VII əsrdə baş vermiş güclü zəlzələ bu abidələrin, tikililərin çoxunu yararsız hala saldı. Bu şəhərlərdə müxtəlif tarixi dövrlərdə yaradılan mədəniyyət abidələrinə ikinci böyük zərbəni xaçpərəstlər (səlib yürüşü iştirakçıları) vurur. İkinci Bolduinin rəhbərliyi altında şəhərə daxil olan xaçpərəst əsgərlər dini ainləri üçün nəzərdə tutulan yerləri kazarmalara, binaları isə istehkamlara çevirərək şəhəri dağıdırlar. Şəhəri tərk edərkən onlar insan əli ilə yaradılan sənət nümunələrini yerlə yeksan etmişlər. Sonradan arxeoloqlar açıq səmada, qumların altında qalmış bu mədəniyyət izlərinin qalıqlarını aşkar edə bilmişlər.

## 4. İqtisadiyyatı

Ürdün orta səviyyəli inkişaf etmiş sənaye-aqrar ölkədir. Ürdün tarixən əkinçilik və maldarlıq ölkəsi kimi formalaşmışdır. İkinci Dünya müharibəsi illərində iqtisadiyyatda bir qədər dirçəliş

* **Artemida –** qədim yunan mifologiyasında məhsuldarlıq ilahəsi, heyvandarlıq və ovçuluğun himayəçisi.



olmuşdur. O vaxt ölkəni idarə edən ingilis müstəmləkəçiləri hərbi şəhərciklər və anbarlar tikir, yollar və neft kəmərləri inşa edir, məhsuldar torpaqlardan maksimum dərəcədə istifadə edirdilər. Bu illərdə sənaye sahələri birtərəfli inkişaf edirdi, yəni əsasən kustar müəssisələrinə, yeyinti və toxuculuq sahələrinə nisbətən fikir verirlirdi. Məsələn, 1955-ci ildə Ürdünün sənayesi milli gəlirin cəmi 10 faizini təşkil edirdi. Əhalinin 70 faizi kənd təsərrüfatı sahələrində çalışırdı.

Milli müstəqillik əldə olunduqdan sonra hökumət iqtisadiyyatın dirçəldilməsi üçün müəyyən addımlar atmağa başlayır. İlk növbədə xarici mütəxəssislərin və xarici kapitalın köməyilə mədən sənayesinin (əsasən fosforit çıxarılması və Ölü dənizdən müxtəlif duzların istehsalı) inkişafına diqqət artırılır. Sonrakı illərdə ərzaq məhsullarının yetişdirilməsinə xüsusi fikir verilir. Ötən əsrin 80-ci illərindən etibarən xarici turizm sahəsi də ölkəyə böyük həcmdə valyuta gətirməyə başlayır. Məsələn, 2005-ci ildə Ürdünə 2,9 mln. nəfər xarici turist gəlmiş və bu sahədən əldə olunan gəlir. 441 mln. dollara bərabər olmuşdur.

Əgər əvvəllər sənaye müəssisələrinin əksəriyyəti paytaxt yaxınlığında cəmləşmişsə də sonrakı illərdə hökumət yeni-yeni mərkəzlər yaratmağa başlamışdır. Hökumət mövcud istehsal mərkəzləri yaxınlığında sənaye-şəhər peykləri yaratmağa fikir verməyə başlayır. Ölkədə ixtisaslı kadrların lazımi səviyyədə olmaması da iqtisadiyyatın, xüsusilə sənayenin hər tərəfli inkişafına mənfi təsir göstərmişdir. Əmək qabiliyyətli əhalinin ölkədən getməsi xarici ölkələrdən fəhlə qüvvələrinin gətirilməsinə səbəb olmuşdur.

Son 50 ildə Ürdün iqtisadiyyatı böyük nailiyyətlər əldə edə bilmişdir. 2004-cü ildə ümumdaxili məhsulun dəyəri 23,0 mlrd. dollara çatmış, onun adambaşına düşən həcmi isə 4000 dollardan artıq olmuşdur. Son 10 ildə ölkə iqtisadiyyatının artım sürəti 4-5 faizdən aşağı düşməmişdir.

Dövlətin iqtisadi siyasəti təsərrüfatın bütün sahələrində bazar mexanizmlərinin aktivləşdirilməsinə yönəldilmişdir. Dövlət müəssisələrinin bir qismi özəlləşdirilsə də, ölkədə işsizlik problemi mövcuddur.

İqtisadiyyatın ərazi strukturunda xidmət sahələrinin payı 72, sənayenin payı 26, kənd təsərrüfatının payı isə 2 faizə bərabərdir.

**Sənayenin aparıcı sahələri.** Yarım əsr əvvəl Ürdünün sənaye-

si rüşeyim halında idi. İndi isə ölkədə iri sənaye müəssisələri fəaliyyət göstərir. Əvvəllər yalnız kənd təsərrüfatı ölkəsi kimi tanınan Ürdündə hazırda sənaye sahələri kənd təsərrüfatını 13 dəfə üstələyir. Ölkə sənayesinin sürətli inkişafını ləngidən səbəblər çoxdur:

- Ölkədə qiymətli faydalı qazıntıların, xüsusilə yanacaq sərvətlərinin olmaması;
- Sənayenin inkişafına təkan verə biləcək daxili bazarın məhdud olması;
- Kapitalın çatışmazlığı və ixtisaslı mütəxəssislərin az olması;
- Energetika və nəqliyyat şəbəkəsinin zəif inkişafı;
- Ölkənin xarici sərmayələrdən və dünya bazarından asılılığı və s.

Sənaye sahələri içərisində fosfor kübrələr istehsalı və onunla əlaqəli olan sahələr nisbətən yaxşı inkişaf etmişdir. Mədən sənayesi öz növbəsində kimya sənayesinin inkişafına təkan vermişdir. 1982-ci ildə Əqəbə şəhərində fosfat əsasında mineral gübrələr istehsal edən zavod işə salınmışdır. Sonradan yenidən qurulmuş və müasir texniki avadanlıqla təmin olunmuş bu müəssisə 1 ildə orta hesabla təqribən 1,8–2,0 mln. ton fosfat, 600 min ton kükürd, 150 min fosfat turşusu istehsal etmək qüvvəsinə malikdir. Kimya sənayesi müəssisələrində yuyucu tozlar, müxtəlif növ sabunlar, şampun və s. istehsal olunur.

Ölkənin özündə neft çıxarılmasa da, Əz-Zərqa şəhərində iri neft emalı müəssisəsi fəaliyyət göstərir. BMT Təhlükəsizlik Şurasının qərarına əsasən Ürdün yeganə dövlət idi ki, ona daxili tələbatını ödəmək üçün İraqdan neft idxal etmək icazəsi verilmişdir. İraq nefti kəmər vasitəsilə Əz-Zərqa şəhərindəki müəssisəyə göndərilir. Bu müəssisənin istehsal etdiyi neft ölkənin neft məhsullarına olan tələbatını ödəmək qüdrətinə malikdir.

Ölkədə metal emalı sənayesi hələlik rüşeym halındadır. Bu sənayenin müəssisələri ildə 150 min ton dəmir çərçivələr, metal hissələr istehsal edən bir neçə kiçik müəssisə fəaliyyət göstərir. Bu müəssisələrdə az miqdarda çuqun, boru və alüminium istehsal olunur.

Xidmət sahələri sənaye, tikinti və kənd təsərrüfatının bəzi sahələrinin inkişafı ölkənin elektrik enerjisinə olan tələbatını artırmışdı. İqlimin quraqlığı və çaylarda suyun azlığı hidrostansiya vasitəsilə ucuz elektrik enerjisi əldə etməyə imkan vermir. Ona görə də elektrik enerjisi xaricdən baha qiymətə gətirilən yanacaqla işləyən istilik elektrik stansiyalarında əldə olunur. Təbii ki, Ürdün elektrik



enerjisinə olan tələbatını tam ödəyə bilmir.

Son illərdə ölkədə idxal olunmuş hissələrdən avtomobil və məişət texnikası (soyuducular, radio-televiziya cihazları) yığan müəssisələr tikilib istifadəyə verilmişdir. Ürdündə yeyinti sənaye müəssisələri çoxdur. Bunların içərisində nisbətən böyükləri Nablusdakı zeytun yağı istehsal edən zavod, Əmmanda meyvə konservləri və şirələr istehsal edən müəssisə, Əqəbədə şəkər istehsal edən zavoddur.

**Kənd təsərrüfatının aparıcı sahələri.** Ürdündə su mənbələrinin azlığı üzündən torpağın cəmi 14-15 faizi becərilir. Əkinçilik kənd təsərrüfatının əsas sahəsidir. İordan çayının dərəsi isə əsas əkinçilik rayonu hesab edilir. Ölkədə əsasən taxıl, meyvə, tərəvəz, şəkər qamışı, tütün, zeytun, üzüm, arpa, qarğıdalı və s. becərilir. Zeytun becərilməsi ölkənin kənd təsərrüfatında mühüm əhəmiyyət kəsb edir. Onun ən yaxşı növlərindən konserv hazırlanır, zeytun yağı çəkilir. Sənayedə zeytundan sabun bişirmədə istifadə olunur.

Becərilən torpaqların çox hissəsini dəmyə əkinləri təşkil edir. Əkin sahələrinin ancaq 10 faizə yaxını suvarılır. Təbii ki, quraq keçən illərdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı xeyli azalır. Ürdünün kənd təsərrüfatında tərəvəzçilik mühüm əhəmiyyət kəsb edir. Ölkənin torpaq-iqlim şəraiti tərəvəzin qonşu ölkələrə nisbətən 3-4 həftə tez yetişməsinə imkan verir. Bu isə tərəvəzin qonşu ölkələrin bazarlarına erkən çıxarmağa və baha satılmasına səbəb olur. Ölkədə kənd təsərrüfatının intensivləşdirilməsi, məhsuldarlığın artırılması və əhalinin kənd təsərrüfatı məhsulları ilə təmin edilməsindən ötrü müəyyən dövlət tədbirləri həyata keçirilir.

Heyvandarlıq ekstensivdir. Yem otları az əkildiyindən mal-qara ilboyu açıq otlaqlarda saxlanılır. Maldarlıqla əsasən köçəri həyat sürən əhali məşğul olur. Ölkədə dəvə saxlanılmasına xüsusi fikir verilir. Böyük şəhərlərin ətrafında quşçuluq fermaları və broyler təsərrüfatı yaranmaq üzrədir.

Ölkə daxili istehsal hesabına tərəvəz və quru subtropik meyvələrə olan tələbatını tam ödəyə bilsə də, dənli bitkilələ olan tələbatının cəmi 30-35 faizini, ət və süd məhsullarına olan tələbatını ancaq yarıya qədərini ödəyə bilir.

**Nəqliyyat və xarici ticarəti.** Ölkənin müasir nəqliyyat şəbəkəsi əslində daxili tələbatı tam ödəmək iqtidarında deyil.

Ürdünün əsas nəqliyyat növü avtomobil nəqliyyatıdır. Bərkörtüklü avtomobil yolların ümumi uzunluğu 10 min km-ə yaxındır. Ötən əsrin axırlarından başlayaraq həm avtomobil parklarının, həm də parklardakı avtomobillərin sayının çoxalması hiss olununr. Bu da öz növbəsində beynəlxalq marşrutlarla da yük və sərnişin daşınmasının artmasına səbəb olmuşdur. Ölkəyə avtomobil göndərilməsində Yaponiya şirkətlərinin rolu böyükdür. Əmman-Əqəbə, Əmman-Yerusəlim, Əmman-Dəməşq yolları, demək olar ki, birinci dərəcəli yollardır.

Ölkədə dəmir yollarının ümumi uzunluğu 600 km qədərdir. Suriya sərhədindəki Dərya şəhərindən ölkənin cənubundakı Əqəbə şəhərinə qədər uzanan dəmir yol xətti şübhəsiz bütün ehtiyacları ödəmək iqtidarında deyil. Ölkənin həm dəmir yol xəttinin, həm də vaqon parkının müasirləşdirilib yenidən qurulmasına ehtiyac var. Dəməşqdən Məkkəyə qədər Hicaz dəmir yolunun da yaradılması layihəsi müzakirə olunur. Dəmir yoluna nisbətən hava nəqliyyatı daha inkişaf etmiş hesab edilir. 1963-cü idə ölkədə «Aliyə» adlanan milli aviaşirkət yaradıldı. Bu şirkətin təyyarələri əsasən beynəlxalq səfərlərə xidmət edir. Əmman və Əqəbə şəhərlərində beynəlxalq dərəcəli aeroportlar fəaliyyət göstərir. Ölkədə dəniz nəqliyyatı lazımınca inkişaf edə bilməmişdir. Ölkənin iqtisadiyyatında mühüm rol oynayan xarici ticarət əlaqələr Qırmızı dənizdə yerləşmiş Əqəbə limanı vasitəsilə də həyata keçirilir.

Xarici ticarət ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Ürdün sənaye malları, yanacaq və ərzaq məhsullarının böyük əksəriyyətini idxal edir. İdxal olunan məmulatlarının dəyəri hər il artdığından ölkənin xarici ticarət dövriyyəsi də artır. 2005-ci ildə ölkə ixracatının dəyəri 3,5 mlrd. ABŞ dollarına bərabər olmuşdur. Bunun 22 faizini fosfat tərkibli materialların, 15 faiz potaşın, 8 faizi fəraş meyvə və tərəvəzin payına düşür. Həmin il idxalatın dəyəri 5,6 mlrd. dollara bərabər olmuşdur. Bunun 18 faizi müxtəlif maşın və avadanlıqların, 12 faizi yanacağın, 10 faizi ərzağın payına düşür. Ölkənin ticarət əlaqələrində tərəf müqabilləri Hindistan, Səudiyyə Ərəbistanı, ABŞ, Almaniya və digər dövlətlərdir. Dövlətin milli pulu Ürdün dinarıdır. Təqribən 0,8 dinar 1 ABŞ dollarına bərabər tutulur.



# YƏMƏN* RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe.** Ərəbistan yarımadasının cənub və cənub-qərbində yerləşmiş Yəmən Rıespublikası şimaldan və şimal-şərqdən Səudiyyə Ərəbistanı, şərqdən Oman dövlətləri ilə həmsərhəddir. Səudiyyə Ərəbistanı ilə sərhədlərinin xeyli hissəsi demarkasiya (yəni sərhəd nişanları qoylmamış) olunmamışdır. Yəmən coğrafi və hərbi strateji mövqeyi əlverişli olan ölkələrdən biridir. Qərbdən 500 km məsafədə Qırmızı dənizə,cənubdan və cənub-şərqdən 1200 km məsafədə Ərəbistan dənizi və Oman körfəzinə çıxışı var.Dənizlərdə yerləşmiş və ona məxsus adalarla birlikdə sahəsi 532 min kv.km-dir.Bu göstəriciyə görə dünyanın 48-ci ölkəsidir.

Yəmən sözünün meydana gəlməsinin müxtəlif yozumu var. Qədim mənbələrə görə bu söz Ərəbistan yarımadasının cənubunda yaşamış sami tayfalarından olan qəbilə başçıları Yəmən ibn Kəhtan və ya Yəmən ibn Heydərin adı ilə bağlıdır. Başqa mənbələrə görə bu ad ölkənin Məkkədəki müqəddəs Kəbəyə münasib coğrafi mövqeyi ilə izah olunur. Belə ki, «yaminan» - sağ tərəf deməkdir. Bir sıra tədqiqatçılar ölkənin adını «yumn» - xoşbəxtlik sözü ilə əlaqələndirirlər. Yeri gəlmişkən xatırladaq ki, qədim coğrafiyaşunaslar və tarixçilər Yəməni «Arabia Feliks»(Xoşbəxt Ərəbistan) adlandırmışlar.

**Səth quruluşu və faydalı qazıntıları.** Səth quruluşu çox mürəkkəbdir. Bu ərazidə bir-birindən fərqlənən beş təbii-coğrafi bölgə aydın seçilir:

1. Sahilboyu təpəli düzənlikləri əhatə edən Tihamə ovalığı;
2. Cəbəl adlanan dağlıq hissə;
3. Mərkəzi yaylalar;
4. Qurumuş çay dərələri ilə kəsilmiş Ərəbistan dənizinin və Oman körfəzinin sahil zolağı;
5. Hədramaut vadisi.

Yəmən ərazisinin təqribən 15 faizini tutan Tihamə ovalığı

* Ərəbcə adı «Əl – Cumhuriyyət –əl Yəməniyyə»dir.

Qırmızı dənizlə dağ silsilələri arasında ensiz qurşaq kimi uzanır. Ölkə daxilində Tihamənin uzunluğu 500 km-ə qədər, eni isə 40-70 km arasında dəyişir. Ovalığın 5-15 km enində olan sahilboyu hissəsi həyatsız səhranı xatırladır. Buna baxmayaraq quru çay vadilərinin mənsəbində və bəzi buxtaların ətrafında məskunlaşmış yerlərə də rast gəlmək olar.

Cəbəl dağlıq bölgəsi Tihamə ovalığından şərqə, Səudiyyə Ərəbistanı sərhədlərindən ölkənin cənub sərhədlərinə kimi eni 150-200 km olan dağlardan ibarətdir. Ölkənin ən hündür dağları Cəbəl bölgəsindədir. Cəbəl-Nebi dağı (hündürlüyü – 3760 m) nəinki Yəməndə, həm də bütün Ərəbistan yarımadasında ən hündür dağdır.

Mərkəzi yaylalar bölgəsi sönmüş vulkan konuslarından ibarət dağlıq yerdir. Mərib şəhəri yaxınlığında bu dağlar çox da yüksək olmayan Şarki adlanan yaylaya keçir. Şarkidə vadi və quru çay dərələri çoxdur. Şərqə və şimala doğru yaylanın hündürlüyü azalır və o dünyanın ən iri qum səhralarından olan Rub-əl-Xaliyə qovuşur.

Sahil zolağı bölgəsi ölkənin cənubundakı dəniz sahillərini əhatə edir. Burada hündürlüyü 500-800 metrə çatan alçaq dağlara rast gəlmək olar. Bu bölgənin coğrafi mövqeyi təbii şəraiti əlverişli olduğundan o Yəmənin sıx məskunlaşmış hissəsidir.Ədən, Əl-Mukəllə, Şükrə, Zəncibar kimi nisbətən iri şəhərlər bu bölgədədir.

Hədramaut vadisi bölgəsi Ərəbistan dənizi sahilinə paralel, ondan 150-250 km aralı yerləşmişdir. Qərbdən şərqə tərəf vadi ensizləşir. Ərəbistan səhralarından dağ sistemləri ilə ayrılan Hədramaut vadisi yeraltı sularla zəngin olduğundan o ölkənin ən mühüm kənd təsərrüfatı rayonlarından hesab olunur.

Faydalı qazıntılar da daxil olmaqla Yəmənin təbii sərvətləri zəif öyrənilmişdir. XX yüzilliyin tikinci yarısında ABŞ, Almaniya, Böyük Britaniya, İsveç, Sovet ittifaqı mütəxəssisləri Yəməndə geoloji kəşfiyyat işləri aparsalar da onun nəticəsi böyük olmamışdır.

Yəməndə dəmir filizi, mis, boksit, qurğuşun,uran, qızıl, gümüş, daş kömür, mərmər, gips, kvars qumları, daşduz və bir sıra faydalı qazıntılar aşkar edilsə də, bu sərvətlərdən ancaq daşduz və tikinti materiallarının ehtiyatı çoxdur. Tihamə, Şarki və Hədramaut tarixi-coğrafi vilayətlərində neft və təbii qaz aşkar olunsa da, onlar çox dərin laylarda yerləşdiyindən, kommunikasiya sisteminin aşağı səviyyəsi və başqa səbəblər üzündən az miqdarda çıxarılır.

**İqlimi və hidroqrafiyası**. Yəmən tropik iqlim qurşağında



yerləşir. Ölkə iqlimi üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, ərazidə iki – lap isti və nisbətən mülayim mövsüm ayrılır. İsti mövsüm aprelin ikinci yarısından başlanır və oktyabra qədər davam edir. Onun ilk 40-50 günü xüsusilə dözülməz olur. Yerlilər bunu «Əl-Ərvaniyə» adlandırır. Bu mövsümdə Tihamədə sutkalıq orta temperatur + 30 C dərəcədən artıq olur. Qızmar yay günlərində kölgədə temperaturun +40 C dərəcədən yuxarı qalxdığı hallara tez-tez təsadüf edilir.

Okyabrın ikinci yarısından aprelin ortalarına qədər davam edən mülayim mövsümdə havanın temperaturu aşağı düşür və isti küləklər zəifləyir.Yəmən ərazisində rütubətin və yağıntıların paylanmasında kəskin fərqlər var. Tihamədə rütubətlilik 80-90, Ədən körfəzi sahilində 65-70 faizdir. Şərqə və şimala doğru getdikcə rütubətlilik 50 faizə qədər azalır. Tihaməyə il ərzində 100 mm-ə qədər yağış yağır. Lakin elə illər də olur ki, ora heç yağış düşmür. Dağətəyi ərazilərdə və dağlarda yağıntıların miqdarı çoxalır (2000 mm-dək).

Yəməndə daimi axara malik olan çay yoxdur. Səth suları leysan yağışlarından sonra yaranır. Musson yağışları dövründə dərələrdə və dağətəyi vadilərdə daşlı-çınqıllı sellər əmələ gəlir. Buna görə ölkənin səthi vadi və quru çay dərələri ilə örtülüdür. Bunların bəziləri yağmurlu dövrlərdə öz sularını dərələrə qədər axıdır. Yəmənin su ehtiyatı qrunt sularıdır. Bu sular əsasən artezian quyuları vasitəsi ilə səthə çıxarılır. Məişətdə yağış sularını toplayan sututarlardan da istifadə olunur. Şarkidə, Vadi-Ədna məcrasında məşhur Mərib bəndi tikilmişdir. Ölkədə su probleminin həlli məqsədilə görülən tədbirlərə baxmayaraq məskunlaşmış bir çox yerlərdə, xüsusilə ölkənin şimal-şərqində «su qıtlığı» açıq-aydın hiss olunur.

**Torpaq və bitki örtüyü**. Yəmənin torpaqları zəif məhsuldar torpaqlar kimi tanınır. Ümumiyyətlə, ölkə ərazisinin çox hissəsini səhralar, yaylalar və dağlar tutduğundan onun qiymətli torpaq resursları azdır. Ölkənin bitki örtüyü də zəifdir. Daşqın sularının müvəqqəti basdığı yerlərdə, vadilərin ətrafında akasiya, xurma, ilb*, küstüm ağaclarına və kat adlanan kollara rast gəlmək olar. Dağlara qalxdıqca meşələr çoxalır. Mədəni bitkilərdən dağ ətəklərində buğda,

---

* **İlb** – qol-budaqlı ağacdır. Gövdəsindən tikinti işlərində istifadə olunur. Albalı boyda sarı rəngli meyvəsi yeyilir.

yulaf, arpa, qarğıdalı, kat və s. yetişdirilir. Yəmən iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlət olduğundan və müvafiq mütəxəssislərlə təmin olunmadığından ölkə ekoloji tarazlığına, ətraf mühitin mühafizəsinə lazımı diqqət ayıra bilmir.

## 2. Qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibəti

Yəmən dünyanın qədim dövlətlərindən biridir. Eramızdan əvvəl bu ərazidə Hədramaut, Səba, Main adlanan dövlətlər mövcud olmuşdur. Yeddinci yüzilliyin əvvəllərində Yəmən ərazisi Ərəb xilafətinin tərkibinə daxil edilir.O vaxtdan etibarən Yəməndə feodal münasibətləri və ərəb-islam mədəniyyəti formalaşır. IX yüzilliyin əvvəllərində Yəmən ərazisinin bir hissəsi şiə təriqətli Zeydi* imamlarının təsiri altına düşür. Yəmənin sonrakı tarixi tayfalararası münasibətlər, sülalələrin bir-birini əvəz etməsi ilə bağlı olmuşdur.

XIX əsrin ikinci yarısından etibarən Yəmən tarixində əsaslı dəyişikliklər baş verir. Hələ XIX yüzilliyin əvvəllərindən başlayaraq ingilis gəmiləri Ədən portuna daxil olmağa başlayır və şəhərin Hindistana gedən dəniz yolu üzərində əlverişli mövqeyi onun Böyük Britaniyanın hərbi dəniz bazasına çevrilməsinə səbəb olur. 1839-cu ildə Böyük Britaniya Ədən şəhərini zəbt edir, sonrakı illərdə isə bütün ərazini özünün protektoratı elan edir.

Birinci Dünya müharibəsi qurtardıqdan sonra imam Yəhya Şimali Yəmən ərazisini müstəqil dövlət, özünü isə ölkənin məliki elan edir. 1934-cü ildə Böyük Britaniya – Yəmən müqaviləsinə əsasən Böyük Britaniya Yəmən məlikliyinin müstəqilliyini,Yəmən məlikliyi isə Britaniyanın xeyrinə Ədən protektoratlığını tanıyır. 1937-ci ildə Ədən rəsmi şəkildə Böyük Britaniyanın müsəmləkəsi elan olunur.

Cənubi Yəmən vətənpərvərləri 1963-cü ildən ingilis müstəmləkəçilərinə qarşı silahlı mübarizəyə başlayır. Təqribən 4 il yarım

---

* **Zeydilər**- şiə təriqətinin bir qolunu təşkil edirlər.Bu təriqətin adı şiə imamı Məhəmməd Bağırın qardaşı Zeyd ibn Əlinin adından götürülmüşdür.Məhəmməd Bağırın passivliyindən narazı olan şiələr onun qardaşı Zeydin başına toplaşmışdılar. Zeydin tərəfdarları Əli nəslindən seçilən imamın başçılığı ilə teokratik dövlət yaratmağa cəhd göstərən xüsusi təşkilat yaradırlar.



davam edən mübarizə və danışıqlardan sonra 1967-ci ilin noyabrın 30-da Ədəndə 128 il dalğalanan ingilis bayrağı endirilir və Cənubi Yəməndə müstəqil dövlət yaradılır.1970-ci ilin noyabrın 30-dan bu dövlət Yəmən Xalq Demokratik Respublikası adlanır.

İngiltərə müstəmləkəçiləri Yəməni iki hissəyə bölməyə nail olsalar da, Cənub ilə Şimal arasında minilliklər ərzində formalaşmış ailə, etnik, ticarət-iqtisadi əlaqələrini qıra bilmədilər. Yəmənlilər – biz vahid xalqıq deyərkən təkcə yaşadıqları ərazinin coğrafi yaxınlığını deyil, həm də qədim və müasir tarixlərini, din, dil, adət-ənənələrinin ümumiliyini nəzərdə tuturdular. O da xatırlanmalıdır ki, 1990-cı ilə qədər hər iki dövlətin sosial-iqtisadi inkişafı müxtəlif istiqamətdə getmişdir.

1979-cu ildə Yəmən Ərəb Respublikası və Yəmən Xalq Demokratik Respublikası sərhədində silahlı münaqişə baş verir. Bu münaqişə 1981-ci ildə dayandırılır. Lakin 1986-cı ildə Cənubi Yəməndəki hadisələrlə əlaqədar yenidən kəskinləşir. 1987-1988-ci illərdə hər iki Yəmən dövlətinin rəhbərliyi arasında baş verən danışıqlardan sonra vəziyyət normallaşır. Bu danışıqlar nəticəsində Yəmən dövlətləri arasında vətəndaşların sərbəst gediş-gəlişinə icazə verilir.

Süni surətdə parçalanmış eyni millətin yaşadığı ərazidə əslində formal olaraq yaradılmış iki dövlətin birləşməsi həm Şimali, həm də Cənubi Yəməndə yaşayanların çoxdankı arzusu idi. Bu dövlətlərin birləşməsi gözlənildiyindən də tez oldu. Hər iki dövlətin parlamenti birləşmə ərəfəsində vahid dövlətin konstitusiya layihəsini təsdiq etdiyindən 1990-cı il may ayının 22-də yeni dövlət – Yəmən Respublikasının yaradılması elan edildi. O vaxtdan 22 may milli bayram – Yəmən birliyi günü kimi qeyd olunur.

Yeni vahid dövlət yarandıqdan sonra beş nəfərdən ibarət prezident şurası və hökumətin tərkibi müəyyən olunur. Bu hadisə Yəmən xalqının səbisizliklə gözlədiyi birliyə nail olunması ilə yanaşı, həm də müasir dövrdə «Bölünmüş dövlətlərin» demokratik yolla birləşməsi təcrübəsində ilk addım atmış dövlət kimi xüsusilə əhəmiyyətli idi. Həmin ilin 3 oktyabrında vahid xalqı iki dövlətdə yaşamağa məcbur olan Almaniya Federativ Respublikası və Almaniya Demokratik Respublikası da birləşdi.

İlkin razılaşmalara əsasən Yəməndə yaradılacaq dövlət strukturları və qanunvericilik hakimiyyəti keçid dövründə, parlament seçkilərindən sonra 2,5-2,8 ilə başa çatmalı idi. Parlament seçkiləri

1993-cü ilin aprelində başa çatır. Amma bir ildən sonra, 1994-cü ilin mayında seperatçı əhval-ruhiyyəli ərəb şeyxləri Şimal ilə Cənub arasında vətəndaş müharibəsi törədirlər. Həmin ilin iyulunda Şimali Yəmənin qoşun hissələri, Cənubun qoşunlarını məğlub edir və müharibə dayandırılır.

Ölkənin fəaliyyətdə olan konstitusiyası 1991-ci ildə qəbul edilsə də, vətəndaş müharibəsindən sonra, daha doğrusu, 1994-cü ilin sentyabrında o müəyyən dəyişikliklərə uğrayır. Məsələn, ölkədə prezident və vitse-prezident vəzifələri bərqərar olunur, qanunvericilikdə islama, şəriətə istinad ön plana çəkilir. 1991-ci il konstitusiyasında qəbul olunmuş çoxpartiyalı prinsip dəyişmir.

**Dövlət quruluşu.** Dövlət quruluşuna görə Yəmən respublikadır. Dövlətin başçısı yeni Konstitusiyaya əsasən ümumi səsvermə yolu ilə iki dəfədən çox olmamaq şərtilə 7 il müddətinə seçilən prezidentdir. O, eyni zamanda ölkədəki silahlı qüvvələrin ali baş komandanıdır. Qanunverici hakimiyyət ikipalatalı parlamentə məxsusdur. Yuxarı palata Məşvərət Şurası (111 yer) prezident tərəfindən təyin edilir. Nümayəndələr palatasının deputatları (301 yer) 7 il müddətinə seçilirlər. Deputatlar hökumətin tərkibini təsdiq etmək, müvafiq qərarlar qəbul etmək hüquqlarına malikdirlər. İcraedicilik hakimiyyəti prezidentə və Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur.İnzibati cəhətcə ölkə 17 əyalətə bölünür.

Yəməndə bir neçə siyasi partiya fəaliyyət göstərir. Əsas partiyalar: Ümumxalq Konqresi, İslahat İslam Qrupu, İslah, Yəmən Sosialist Partiyasıdır. Adı çəkilən ilk iki partiya hakimiyyətdə olanlar, sosialistlər isə onlara müxalifətdə duranlardır. Səudiyyə Ərəbistanının rəsmi dairələri tərəfindən dəstəklənən İslah Partiyasının ölkənin siyasi həyatındakı mövqeyi ildən-ilə genişlənir. Müxtəlif istiqamətli bloklardan yaradılmış bu partiyada aparıcı rol «Müsəlman qardaşları» təşkilatına məxsusdur.

Yəmən BMT-nin, Ərəb Ölkələri Cəmiyyətinin, İslam Konfransı Təşkilatının, başqa beynəlxalq və regional təşkilatların üzvüdür.

**Azərbaycan Respublikası ilə münasibətləri.** Azərbaycan Respublikası ilə Yəmən Respublikası arasında diplomatik münasibətlər 1992-ci ilin fevralın 25-də yaradılmışdır. İkitərəfli əlaqələr, əsasən diplomatik yazışmalar səviyyəsində olsa da, beynəlxalq təşkilatlarda iki ölkə arasında məhsuldar əməkdaşlıq həyata keçirilir.

Yəmən Respublikası Birləşmiş Millətlər Təşkilatı və İslam konfransı Təşkilatı çərçivəsində Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü ilə bağlı qərarların qəbul edilməsində Azərbaycanı birmənalı olaraq dəstəkləyir. Yuxarıda adı çəkilən təşkilatların həyata keçirdiyi bir sıra siyasi tədbirlərdə iki ölkənin nümayəndələri arasında müxtəlif səviyyələrdə görüşlər keçirilmişdir.



### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

2005-ci ilin əvvəlləri üçün Yəməndə yaşayanların sayı 20,0 mln. nəfəri ötmüşdür. Bu göstəriciyə görə dünyanın 58-ci ölkəsidir. Yəmən təbii artımı böyük olan ölkələrdən biridir. Onun əhalisinin ümumi sayı hər il 2,5-2,6 faiz artır. Əhalinin 90 faizini ərəblər təşkil edir. Bundan başqa ölkədə Hindistan və Pakistandan gəlmələr somali, yəhudi, həbəş və b. xalqların nümayəndələri yaşayır. Mütəxəssislərin fikrincə təqribən 2,0 mln. yəmənli ölkə sərhədindən kənarda yaşayır. Yerli ərəblər qədim zamanlardan Cənubi Ərəbistanda yaşamış ərəb tayfalarının nəsilləridir.

Yəmənlilər antropoloji xüsusiyyətlərinə görə Aralıq dənizi tipinə aid edilsələr də, onların sifət cizgilərində Şərqi Afrika və Cənubi Asiya irqlərinin izlərinə təsadüf etmək olar. Tihamə ərəbləri uzun müddət Şərqi Afrikanın müxtəlif ölkələrindən gələn tünd rəngli adamlarla qarışdığından onlarda zənci və efiop irqinə mənsub əlamətlər nəzərə çarpır.

Ölkə üzrə əhali çox qeyri-bərabər yerləşib. Əhalinin sıxlığı hər kv.km.-də 37 nəfərdən bir qədər artıqdır. 20,0 mln. nəfərin 65 faizi Cəbəl dağlıq bölgəsində cəmlənmişdir.Burada orta sıxlıq 200 nəfərə çatır. Ölkənin şərq hissəsində isə orta sıxlıq 3 nəfərə qədər enir. Yəməndə köçəri və yarımköçəri həyat tərzi keçirən əhalinin sayı ildən-ilə azalır.Hazırda onların sayı 100 min nəfərdən artıq deyil.

Yəmən Respublikasının rəsmi dövlət dili ərəb dilidir.Əhali ərəb dilinin Yəmən dialektində danışır.Əhali qrupları arasında Yəmən dialektinin müxtəlif danışıq tərzi yayılmışdır. Cənubi Yəmən dialekti üstünlük təşkil edir. Böyük şəhərlərdə ingilis dili də işlədilir. İslam dövlət dini səviyyəsindədir. İslam dini VII yüzilliyin ortalarına yaxın qəbul edilmişdir. Ölkə müsəlmanlarının yarıdan çoxu sünni, qalanları şiədir. Şiələr Zeydi təriqətinin tərəfdarlarıdırlar. Ölkənin şimali qərbində və dağlıq bölgələrində yaşayanların əksəriyyəti Zeydi

təriqətli şiələr, qalan yerlərdə yaşayanlar isə sünni müsəlmanlardır.

Ölkə əhalisinin 2/3 hissəsi kənd yerlərində yaşayır. Daxili miqrasiya kəndlərdən şəhərlərə, həmçinin dağlıq rayonlardan intensiv əkinçiliyin inkişaf etdiyi Tihamə, Hədramaut bölgələrinədir. Uzun tarixi dövr ərzində Yəmənin dünyanın başqa ölkələri ilə iqtisadi, mədəni əlaqələrinin zəif olması, şəhərlərin özünəməxsus orta əsr görkəminin saxlanılmasına səbəb olmuşdur. Yalnız ölkənin paytaxtı Sənanın,Taizin və dəniz sahillərində yerləşmiş bəzi şəhərlərinin görkəmində türk milli memarlıq üslubunun əlamətləri aydın seçilir. Yəmənin böyük şəhərlərinə Səna, Ədən, Taiz, Hodeyda aid edilir. Səna ölkənin siyasi, Ədən isə iqtisadi mərkəzidir.

Bütün göstəricilərə görə **Səna** ölkənin ən böyük şəhəridir. Əhalisinin sayı 1,0 mln. nəfərə çatmış Səna dəniz səviyyəsindən 2150 metr hündürlükdə, qərbdən və şərqdən dağlarla əhatə olunan geniş və məhsuldar torpaqları olan düzənliyin ortasında yerləşir. Səna ölkənin əsas siyasi-inzibati, mədəni-maarif və sənaye mərkəzidir. Burada dövləti idarə edən idarələr, mühüm tədris müəssisələri, əsas sənaye sahələri cəmlənmişdir. Paytaxtın iqtisadi həyatında metal emalı, tikinti, yüngül və yeyinti sənaye sahələri üstünlük təşkil edir. Səna müasir tələblərə cavab verən şosse yolları vasitəsilə Taiz, Hodeyda, Ədən şəhərləri ilə sıx əlaqə saxlayır. Şəhərin yaxınlığında beynəlxalq dərəcəli təyyarə meydanı var. Paytaxtda milli ənənələrə, incəsənətə çox böyük qayğı ilə yanaşırlar. Sənanın ən milli koloritli yeri-köhnə şəhərdir. Köhnə şəhər YUNESKO-nun qərarına əsasən memarlıq abidəsi kimi qorunur.

Əhəmiyyətinə görə ölkənin ikinci şəhəri əvvəllər Cənubi Yəmənin paytaxtı olmuş **Ədəndir**. Əhalisinin sayı 500 min nəfəri ötmüş şəhərin çox əlverişli mövqeyi var. Süveyş kanalı istifadəyə verildikdən sonra (1869-cu il) Ədənin bir port kimi əhəmiyyəti çox artmışdır. Ədəndə ən inkişaf etmiş məhəllə Krater adlanır. İri dövlət müəssisələri, banklar, sığorta idarələri bu məhəllədədir. Ədən ölkədə həm də ikinci böyük mədəni-maarif mərkəzidir. Şəhərdə bələdiyyə kitabxanası, arxeoloji muzey, radioteleviziya mərkəzi, idxal olunan nefti emal edən iri müəssisə, gəmi təmiri zavodu, yüngül və yeyinti sənaye müəssisələri fəaliyyət göstərir.

## 4. İqtisadiyyatı



BMT-nin təsnifatına görə Yəmən iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr qrupuna aid edilir.Ölkənin daxili məcmu məhsulunun illik dəyəri 11,0 mlrd., milli gəlirin adambaşına düşən payı isə 700 ABŞ dollarından bir az artıqdır.Ölkə təsərrüfatının geri qıalmasının səbəbləri çoxdur. İqtisadi inkişafa yeddi ilə qədər davam edən vətəndaş müharibəsi mənfi təsir göstərmişdir.

İqtisadi artım tempi 1990-2001-ci illərdə 5,6 faiz olmuşdur. Sonrakı illərdə bu rəqəm 3,5-ə enmişdir. İqtisadi siyasət ölkənin geriliyinin aradan qaldırılmasına yönəldilmişdir. Əhalinin üçdə-bir hissəsi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Ümumdaxili məhsulun 20 faizi kənd təsərrüfatı və balıqçılığın, 35 faizi sənayenin, 45 faizi isə xidmət sahələrinin payına düşür.

**Kənd təsərrüfatının aparıcı sahələri**. Ölkədə Afrika darısı, arpa, buğda, qarğıdalı, çəltik və,s əkilir. Məhsuldar illərdə 1,2 mln. tona yaxın taxıl əldə edilsə də, bu tələbatını ödəmir. Darı və kalış yerli torpaq-iqlim şəraitinə uyğunlaşdığından suvarma tələb etmir. Onları həm quru çay dərələrində, həm də mərkəzi yaylalarda becərirlər. Bağçılıq inkişaf etmişdir. Burada xarici bazar üçün xurma, banan, ananas, papayya*, manqo, daxili bazar üçün üzüm, ərik, nar, gavalı, əncir və.s yetişdirilir.

Yəməni dünya bazarında tanıdan onun məşhur qəhvəsidir. XVII yüzillikdən burada qəhvə dənindən istifadə olunur.Yəmən qəhvəsi Avropa ölkələrinə Mokko portundan daşındığı üçün onun ən qiymətli növünü «Mokko» adlandırmışlar. Dünya ölkələrində qəhvənin bu növü çox yüksək qiymətləndirilir. Qəhvə ağacları 1200-2000 metr yüksəkliklər arasındakı terraslarda** yetişdirilir. Bar verən ağacdan bir ildə 6-7 kq məhsul əldə olunur. Yəməndə yetişdirilən qəhvənin tərkibində kofeinin faizi yüksəkdir. Əhalinin yoxsul təbəqəsi qəhvə qabığından və onun emalından qalan tullantıdan «kişr» adlanan içki hazırlayır.

Qəhvə əkinləri hesabına genişləndirilən kat kolları əsasən Mərkəzi yaylalarda və Taiz şəhəri ətrafında geniş yer tutur.

---

* **Papayya** – xarici görünüşünə görə meyvəsi yemişə oxşayan ağac. Onu bəzən yemiş ağacı da adlandırırlar.

** **Terras** – (latınca torpaq , yer mənalarını bildirir) – dağ yamacları, göl və dəniz sahillərinin pilləvars relyef formaları. Terraslardan əkin yerləri, yolların çəkilişi və s. məqsədi üçün istifadə olunur.

Yəmənlilər tərkibində narkotik maddə olan bu bitkinin yarpağını çeynəməyi xoşlayırlar. Daxili bazarda kat yarpağı yüksək qiymətləndirilir.

Texniki bitkilərdən pambıq və tütün əkinləri üstünlük təşkil edir. Burada uzun lifli Sudan pambığı (Lambert növü) becərilir. Tütün əsasən Hədramautda yetişdirilir. Bostançılıq və tərəvəzçilik yəmənlilərin qədim peşələrindən sayılır.

Heyvandarlıq kənd təsərrüfatının ən zəif inkişaf etmiş sahəsidir. Təbii yem bazasının çox məhdud olması bu sahənin inkişafını ləngidir. Ərəb ölkələrinin əksəriyyətindən fərqli olaraq Yəməndə qaramalın zebu cinsinin saxlanması xüsusi əhəmiyyət kəsb edir. Dəvə saxlanılmasının da əhəmiyyəti böyükdür. Yəmənin Qırmızı dəniz, Ədən körfəzi sahilləri balıq və digər dəniz sərvətləri ilə zəngindir. Balıqçılıq donanması müasir texniki avadanlıqla təchiz olunub. Ovlanan balığın xeyli hissəsi qurudulduqdan sonra ixrac olunur. Ölkə özünü ərzaq məhsulları ilə yalnız 50 faiz təmin edə bilir.

**Sənayenin aparıcı sahələri**. Yəmən sənayesi rüşeym halındadır. Son illərdə xarici kredit və xüsusi kapital qoyuluşu hesabına bəzi sahələrin inkişafı üçün imkanlar yaranmışdır.

Neft hasilatı və ilkin emal müəssisələri hasilat sənayesində üstün yer tutur (ehtiyatı 550 mln. ton, illik hasilat təqribən 20 mln. tondur). Ölkədə həmçinin xörək duzu, dəmir filizi və bəzək daşları çıxarılır. Səna, Ədən,Taiz, İbb, Əl-Mükəllə şəhərlərində yerli miqyasda iri görünən istilik elektrik stansiyaları tikilmişdir. Mədən sənayesi neft, təbii qaz, daşduz, tikinti materialları çıxarılmasına əsaslanır. Emaledici sənaye gətirilmə və yerli xammala istinad edir. Ədən yaxınlığında yerləşmiş Əl-Bureyk və Mərib şəhərlərindəki neftemalı zavodları ölkənin ən mühüm sənaye müəssisələridir. Mərib Əl Səlif istiqamətində neft kəməri çəkilmişdir. Yeyinti sənaye çörək bişirmə, konserv, sərinləşdirici içkilər, şirniyyat, küncüt, pambıq yağı, süni buz və s. istehsal edən müəssisələrlə təmsil olunmuşdur.

Yüngül sənayeyə məxsus müəssisələr, əsasən kənd təsərrüfatı məhsullarının emalı və əhali tərəfindən çox işlənən məmulatların istehsalı üzrə ixtisaslaşmışdır. Bunların içərisində pambıqtəmizləmə zavodları, gön-dəri məmulatları istehsal edən müəssisələr, toxuculuq, xalçaçılıq və tikiş fabrikləri, mebel, siqaret, kibrit istehsal edən müəssisələr xüsusilə əhəmiyyətlidir.

Sənətkarlıq inkişaf emiş sahədir. Burada zərgərlik,dəri aşılama,



dulusçuluq, tikiş, çəkməçilik peşələri xüsusilə seçilir. Səna və Ədən ölkənin ən böyük sənətkarlıq mərkəzləridir. Lakin son illərdə ənənəvi Yəmən sənətkarlığının əhəmiyyəti xarici ölkələrdən ucuz malların ölkəyə gətirilməsi ilə əlaqədar xeyli azalmışdır.

**Nəqliyyatı və xarici ticarəti**. Yəmənin nəqliyyatı zəif inkişaf etmişdir. Geniş ərazi tutmuş dağlıq bölgələr indiyədək ölkənin başqa rayonları ilə faktiki olaraq yalnız karvan yolları və cığırlar vasitəsilə əlaqə saxlayır. Ölkədə dəmir yolu xətti olmadığından daxili əlaqələrdə əsas işi avtomobil nəqliyyatı yerinə yetirir. Yəmən portlarına daxil olan yüklərin ölkə daxilində paylanmasında və əks daşınmalarında avtomobil nəqliyyatı həlledici rol oynayır. Avtomobil hərəkət edə bilən yolların uzunluğu 20,0 min km-dir. Bunun 11 min km-i bərkörtüklü yollardır. Ölkənin avtomobil parkı 400 min avtomobillə təmsil olunub ki, bununda təqribən 40 faizi yük avtomobilləridir.

Dəniz nəqliyyatı çox zəif inkişaf etmişdir. Yəmən Respublikası bayrağı altında, mexaniki mühərrik və yelkənlə işləyən bir neçə kiçik gəmi üzür. Dənizlə daşınan iri həcmli yüklərin əksəriyyəti fraxt* olunmuş gəmilərlə daşınır. Ölkənin ən böyük dəniz portu Ədəndir. Bu porta böyük okeanın gəmiləri və neft tankerləri daxil ola bilər. Əhəmiyyətinə görə ölkənin ikinci portu Hodeyda, üçüncü isə Əl-Mükəllədir.

Hava nəqliyyatı yaranmaq üzrədir. 1961-ci ilə kimi ölkədəki bütün təyyarələr şəxsən məlikə məxsus olduğundan onun ailəsinə və yaxın adamlarına xidmət edirdi. Xarici ölkələrlə hava əlaqəsi Efiopiya aviasiya şirkətinin Asmara-Hodeyda-Taiz xətti fəaliyyətə başladıqdan sonra mümkün olmuşdur. Hazırda «Yəməniyyə» adlanan milli aviaşirkəti fəaliyyət göstərir. Səna, Ədən və Əl-Mükəllə şəhərlərində beynəlxalq dərəcəli təyyarə portları var.

**Xarici ticarət.** Ölkə iqtisadiyyatında xarici ticarətin rolu böyükdür. Ölkənin ərzaq məhsullarına olan tələbatının təqribən 70 faizi idxal olunur. Ölkənin vahid milli pulu yoxdur. Alış-veriş işlərində Yəmən rialı və Yəmən dinarından istifadə olunur. Ölkənin xarici borcu 6, daxili borcu isə 7 mlrd. ABŞ dolları qədərdir. Fars

* **Fraxt** – yükün, yaxud sərnişin daşınması müqabilində nəqliyyat vasitəsi sahibinə verilən haqq.

körfəzində baş vermiş müharibə ölkənin maliyyə həyatına böyük zərər vurmuşdur. Belə ki, Yəmən rəhbərliyi bu müharibədə İraq tərəfində durduğundan rəsmi Ər-Riyad Yəmənə göstərdiyi maddi yardımı xeyli azaltmış və Səudiyyə Ərəbistanında işləyən təqribən 1 mln. yəmənli ərəbi ölkəsindən çıxartmışdır.

# III HİSSƏ

# ORTA ŞƏRQ DÖVLƏTLƏRİ

## ƏFQANISTAN İSLAM RESPUBLİKASI

### 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe**. Cənubi-Qərbi Asiyanın Orta Şərq adlanan bölgəsində yelləşmiş Əfqanıstan şimaldan Türkmənistan, Özbəkistan və Tacikistan, şimali-qərbdən Çin və Hindistan, şərqdən və cənubdan Pakistan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Əfqanıstan dənizlərdən çox uzaq yerləşmiş Asiya ölkələrindəndir. Ona yaxın olan İran körfəzi ölkənin cənub-qərb sərhədlərindən 500 km aralıdır. Sahəsi 652 min kv. km-dir. Bu göstəriciyə görə dünyanın 40-cı dövlətidir. Ölkənin Pakistan ilə sərhədi mübahisəli bir yerdir. Bu sərhəd Əfqanıstan tərəfindən rəsmi şəkildə tanınmayıb. Siyasi ədəbiyyatda bu sərhədi Dürand xətti də adlandırırlar. B.Britaniyanın xarici işlər nazirliyinin katibi olmuş Dürand 1893-cü ildə Əfqanıstanla Pakistan sərhədini (daha doğrusu, o vaxt İngiltərə müstəmləkəsi olmuş Hindistan) zorla Əfqanıstan hökumətinə qəbul etdirmişdir.

**Səth quruluşu və faydalı qazıntıları**. Relyefinə görə Əfqanıstan dağlıq ölkədir. Ərazisinin təqribən 80 faizini dağlar və yaylalar təşkil edir. Düzənliklər ölkənin kənarlarındadır. Ölkənin şimal-şərqində Hindiquş dağlıq qurşağı yerləşmişdir. Əncuman aşırımı ilə şərq və qərb hissələrə ayrılmış Hindiquşda ən hündür zirvələr onun şərq bölgələrindədir. Ölkənin ən hündür nöqtəsi Novşah zirvəsidir



(7455 m.).

Hindiquş dağ sistemi mürəkkəb oroqrafik vahid olan orta hündürlüklü silsilələrlə əhatələnmişdir. Şimalda bu dağlar Baktriiya düzənliyinə keçir. Ölkənin mərkəzi hissəsi mürəkkəb səth quruluşu olan Həzəracat yaylasından ibarətdir.

Cənubi Əfqanıstan axarsız düzənliklərdən ibarətdir. Burada «dəşt» adlanan səthi daşla örtülü səhralarla yanaşı, «kəvir» adlanan səthi gillə örtülü səhralara da rast gəlmək olar. Dəşte-Namib, Dəşte-Mərq və digər səhralar Şimali Afrika və Ərəbistan yarımadasındakı susuz əraziləri xatırladır. Ölkənin ən böyük kəvirləri isə Həməksar və Qaudi Zirradır. Pakistan sərhədi boyu Gərmsər və Reqistan adlanan qumlu səhralar yerləşmişdir.

Ölkənin geoloji quruluşunun mürəkkəbliyi faydalı qazıntıların da müxtəlifliyinə səbəb olmuşdur. Ərazidə təbii qaz, neft, mis, qurğuşun, dəmir filizi, sink, qızıl, kömür, duz və s. yataqlarının olması məlumdur. Bu yataqların əksəriyyəti hündür dağlıq rayonlarda yerləşdiyindən onlardan səmərəli istifadə müəyyən çətinliklərlə bağlıdır. Əfqanıstan hələ qədimdən qiymətli daşlar sayılan lazurit və zümrüdlə zəngin olub. Bu yataqlar əsasən Bədəxşan vilayətindədir.

**İqlimi və hidroqrafiyası**. Mürəkkəb səth quruluşuna malik olan Əfqanıstanın iqlimi də mürəkkəbdir. Ölkənin iqlimi kəskin sutkalıq və illik temperatur tərəddüdü ilə səciyyələnən quru subtropikdir. Qışda ölkəyə şimaldan Arktikadan soyuq, yayda isə İrandan və Pakistandan quru və isti hava kütləri daxil olur. Yağıntıları azdır. Qış və yaz aylarında düşən yağıntıların miqdarı əksər rayonlarda 100-300 mm-dən artıq olmur. Dəşte-Mərq səhrasına isə il ərzində 40-50 mm yaıntı düşür. Ölkəyə ən çox (800 mm) yağıntı onun cənub-şərqinə düşür. Yağıntılar az düşdüyündən Əfqanıstanın kənd təsərrüfatı süni suvarmadan çox asılıdır.

Dənizə çıxışı olmayan Əfqanıstan qapalı hövzədə yerləşir. Çayların əksəriyyəti ölkənin daxili rayonlarından başlayır və ölkə daxilində qurtarır. Daxili hövzəyə aid edilməyən ən böyük çayları Kokça və Kunduzdur. Amudəryaya tökülən bu çaylar sularını Aral dənizinə axıdılır. Su sərvətləri ilə Əfqanıstanın şərq və cənub-şərqi nisbətən yaxşı təmin olunmuşdur. Buradan axan Kabil çayı Əfqanıstanın məhsuldar Kabil, Cəlalabad vahələrinin suvarılmasında mühüm əhəmiyyət kəsb edir. Sərhəd çayı olan Amudərya ölkənin ən sulu çayıdır. O, üuxarı axınında Pənc adlanır. Ölkənin daxili

rayonlarından Əfqanıstan miqyasında bol sulu sayılan Hilmənd çayı axır. Bu çayın suvarma əhəmiyyəti çox böyükdür.

**Torpaq və bitki örtüyü**. Əfqanıstanda su qıtlığı ilə yanaşı məhsuldar tolrpaq qıtlığı da mövcuddur. Dağların əksər yamacları torpaq örtüyündən tamamilə məhrumdur. Boz torpaqlar daha geniş yayılmışdır. Əfqanıstanda 3500 növ bitki yayılmışdır, bunun xeyli hissəsi endemik bitkilərdir.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Əfqanıstan zəngin tarixi keçmişə malik ölkələrdən biridir. Arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmişdir ki, onun şimalı Daş, cənubi isə Tunc dövründən etibarən məskunlaşmışdır. Əfqanıstan ərazisində yaşayan xalqların tarixi qonşu İran, Orta Asiya, Pakistan xalqlarının tarixi ilə sıx bağlıdır. Müxtəlif dövrlərdə, eramızdan əvvəl VI minillikdən eramızın XVII əsrinə qədər müasir Əfqanıstanın ərazisi yerləşdiyi regionun və dünyanın daha güclü dövlətlərinin, məsələn, Əhəmənilər, Makedoniyalı İskəndər, Yunan, Bəlx, Kuşan, Sasani, Əmir Teymur, Böyük Moğol, Səfəvi, Nadir şah Əfşarın hakimiyyəti altında olmuşdur.

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra, Əfqanıstanın şərq hissəsində Dürrani adlanan müstəqil dövlət yaranır. Bu dövləti özlərini puştu (əslində paşto) adlandıran əfqanların Dürravni qəbiləsinin başçısı Əhməd şah yaradır. Onun qonşu dövlətlərlə apardığı müharibələr nəticəsində Dürranilər dövlətinin sərhədi xeyli genişlənir. Lakin bir tərəfdən iri feodalların didişməsi, digər tərəfdən Yaxın və Orta Şərqdə hərbi-siyasi və iqtisadi mövqeyini möhkəmlətməyə çalışan İngiltərə vahid Əfqanıstan dövlətinin yaradılmasına hər vasitə ilə mane olurdu.

1838-ci ilin oktyabrında Əfqanıstanı zəbt etmək niyyətilə İngiltərə (ingilislər Hindistana qısa yol əldə etməyə can atırdılar) onunla müharibəyə başlayır və ölkənin bəzi əyalətlərini zəbt edir. 1842-ci ildə ölkənin hər yerində güclənmiş xalq hərəkatı London rəsmilərini məcbur edir ki, qoşunlarını Əfqanıstandan çıxarsın. 1878-ci ildə İngiltərə ikinci dəfə Əfqanıstana qarşı işğalçılıq müharibəsinə başlayır. Əfqanıstanda yaşayan xalqların inadlı müqaviməti İngiltərəni Əfqanısçtanı müstəmləkəyə çevirmək arzusundan əl çəkməyə məcbur edir.



1919-cu ilin əvvəllərində Hindistandan Əfqanıstan ərazisinə qoşun çıxaran İngiltərə Türküstana hücum etmək istəyirdi. 1919-cu il fevralın 20-də ölkə əmiri Həbibulla xan öldürülür, fevralın 21-də isə onun oğlu Əmənulla xan Əfqanıstanın əmiri olur. Həmin ilin 28 fevralında o, ölkənin müstəqilliyini elan edir. Lakin İngiltərə Əfqanıstanın müstəqilliyini tanımaqdan imtina edirdi. Üçüncü İngiltərə – Əfqanıstan müharibəsi 1919-cu il mayın 3-də başladı. Əvvəlki iki müharibədə olduğu kimi canlı qüvvə və hərbi texnika cəhətdən üstünlük ingilislər tərəfində idi. Lakin sərhəd rayonlarında yaşayan puştu tayfalarının ingilislərin əleyhinə üsyanları, habelə Hindistanın özündə azadlıq hərəkatının genişlənməsi təcavüzkarın vəziyyətini çətinləşdirdi. 1919-cu il iyunun 3-də İngiltərə – Əfqanıstan arasında müvəqqəti barışıq, avqustun 8-də isə Pakistanın Ravalpindi şəhərində ilk sülh müqaviləsi imzalandı və ölkə krallıq üsul-idarəsilə müstəqil dövlət kimi idarə olunmağa başlandı.

1973-cü il iyulun 18-də Məhəmməd Davudun rəhbərliyi altında baş vermiş çevriliş Məhəmməd Zahirşah hakimiyyətini devirir, ölkənin adı dəyişdirilib Əfqanıstan Respublikası elan olunur. Yeni hökumət əsaslı dəyişikliklər həyata keçirəcəyini xalqa vəd etsə də, əslində heç bir sosial, iqtisadi və ictimai-siyasi problemlər həll olunmur. 1978-ci il aprelin 27-də (hicri tarixilə 1357-ci ilin saur ayının 7-də) Əfqanıstan Xalq Demokratik Partiyasının və Əfqanıstan İnqilab Şurasının rəhbərliyi altında ölkədə daha bir inqilab (bəzi mənbələrə görə çevriliş) baş verir.

Üç gündən sonra ölkənin adı yenidən dəyişdirilir və Əfqanıstan Demokratik Respublikası adlanan dövlətin yaradılması elan olunur. Həmin ilin sonlarına yaxın sabiq sovet qoşunları Əfqanıstana yeridilir. Bu, ölkənin daxili problemlərini daha da çətinləşdirir. Geniş kütlələr tərəfindən çox pis qarşılanan sovet ordusu daxili problemləri daha da kəskinləşdirdi. Əfqanıstan ilə əlaqədar qarşısına qoyduğu məqsədə nail olmayan sovet hökuməti 1989-cu ilin 15 fevralınadək qoşunlarını oradan çıxarır.

1992-ci ildə Əfqanıstanda yeni çevriliş baş verir və hakimiyyət talibançılar (mədrəsələrdə oxuyan tələbələr) hərəkatının əlinə keçir. Onlar dövlətin adını yenidən dəyişir və ölkə Əfqanıstan İslam Respublikası adlandırılır. Talibançılar ölkə konstitusiyasının fəaliyyətini dayandırır və vətəndaş müharibəsinə başlayırlar. Ölkə paytaxtını ələ keçirdikdən sonra, onlar nəzarət etdikləri ərazilərdə öz

idarəçilik qurumlarını yaradırlar.

2001-ci il noyabr ayının 17-də ölkədə baş vermiş antiterror çevriliş nəticəsində talibançıların hakimiyyəti devrilir və dekabrın 21-dən hakimiyyət yeni təşkil olunmuş keçid hökumətinin əlinə keçir.

2001-ci ilin payızında Nyu-Yorkda baş vermiş terror hadisələrindən sonra ABŞ hökuməti Əfqanıstana sülh məqamlı qüvvələrini göndərir, dünyanın bir sıra dövlətləri, o cümlədən, Azərbaycan Respublikası sülhü təmin etmək məqsədilə Əfqanıstana kiçik hərbi kontingentini göndərmişdi.

**Dövlət quruluşu**. 2004-cü ilin əvvəllərində ölkənin Ümumxalq məclisi (Loya Cirkəsi) növbəti iclasında Əfqanıstan yeni konstitusiyasını qəbul edir və ölkənin prezidenti vəzifəsinə keçid hökumətinin başçısı Həmid Karsay seçilir.

**Azərbaycan Respublikası ilə münasibətlər**. Əfqanıstan-Azərbaycan əməkdaşlığının tarixi qədim zamanlara təsadüf etsə də, bu əsasən mədəni sahələrə aid olmuşdur. Sabiq sovet dövlətindən Əfqanıstanda yüzlərlə azərbaycanlı mütəxəssis çalışmışdır. Əfqanıstanın təbii sərvətlərinin tədqiq olunmasında, mütəxəssis kadrların hazırlanmasında Azərbaycanın rolu böyük olmuşdur. Yüzlərlə əfqanlı gənc Bakının ali təhsil ocaqlarında müxtəlif ixtisaslara yiyələnmişlər.

Əfqanıstan İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Əfqanıstan Azərbaycanın müstəqilliyini 1991-ci ilin 21 dekabrında tanımış və 1994-cü il noyabrın 16-da iki ölkə arasında diplomatik əlaqələr yaranmışdır.

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı səfirliyi yeni zamanda Əfqanıstan İslam Respublikasında akreditə olmuşdur. Əfqanıstan İslam Respublikasının Rusiya Federasiyasındakı səfirliyi isə yeni zamanda öz ölkəsini Azərbaycan Respublikasında təmsil edir.

Rəsmi diplomatik münasibətlər yaradıldıqdan sonra iki ölkə arasında yalnız bir sənəd – Ticarət-iqtisadi, Elmi-texniki və Mədəni əməkdaşlıq haqqında Protokol imzalanmışdır. Lakin buna baxmayaraq ölkə rəsmiləri arasında beynəlxalq təşkilatlar çərçivəsində çoxsaylı görüşlər olmuşdur. İslam Konfransı Təşkilatı, EKO, BMT və digər beynəlxalq hökumətlərarası təşkilatların



iclaslarında ölkə başçılarının görüşləri müntəzəm olaraq keçirilir. Belə görüşlərdən biri 2001-ci ildə ulu öndərimiz Heydər Əliyev və Əfqanıstan prezidenti Həmid Karzay arasında (İstambul, EKO təşkilatının toplantısında) xüsusi olaraq təşkil edilmiş iki ölkə arasındakı münasibətlərin geniş müzakirəsi aparılmışdır. Bundan başqa 2005-ci ilin may ayının 9-da Əfqanıstan İslam Respublikasının prezidenti H.Karzay yolüstü Bakıda səfərdə olmuşdur.

2005-ci il aprelin 21-22-də Bakı şəhərində TRASEKA Dövlətlərarası komissiyanın iclası keçirilmişdir. İclasda Əfqanıstan İslam Respublikasının nəqliyyat naziri İnayətullah Qasimi iştirak etmişdi.

Hazırda Azərbaycandan Əfqanıstanın paytaxtı Kabil şəhərinə birbaşa hava nəqliyyatı əlaqəsi yaradılmışdır. Əfqanıstanda daxili vəziyyət stabil olmadığından hər iki ölkə arasında iqtisadi əməkdaşlıqın lazımi səviyyədə inkişaf etməməsinə baxmayaraq, bu sahənin inkişafı üçün potensial imkanlar böyükdür.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

Əfqanıstan tarixində əhalinin siyahıya alınması işləri ilk dəfə 1979-cu ildə aparılmışdır. O vaxt burada 15,5 mln. nəfərin yaşadığı qeydə alınmışdı. Əfqanıstan təbii artımı böyük olan ölkələrdən biri olsa da, burada əhalinin ümumi sayı zəif artır. Bunun səbəbi həm ölkədə təqribən 20 il müddətində vətəndaş müharibəsinin davam etməsi, həm də qeyri-stabilliklə əlaqədar köçüb gedənlərin sayının çox olmasındadır. BMT-nin müvafiq sənədlərində Əfqanıstanda 25,6 mln. nəfərin (2005-ci il) yaşaması qeyd olunur. Bu göstəriciyə görə Əfqanıstan dünya ölkələri içərisində 53-cü yeri tutur.

Ölkə üzrə orta sıxlıq hər kv. km-ə 40 nəfərə yaxındır. Əhalinin xeyli hissəsi mənimsənilən torpaq sahələri, mühüm şəhərlər, çay vadiləri və dağ dərələrində məskunlaşmışdır. Kabil və Qəndahar vadiləri, Hərirud düzənliyi, Məzari-Şərif, Bəqlan, Cəlalabad bölgələrində əhali nisbətən sıxdır.

Əfqanıstanda həm xarici, həm də daxili miqrasiya mövcuddur. 1978-ci il aprel inqilabından sonra ölkə ərazisini tərk etmiş 4 mln. nəfərdən artıq əfqan müxtəlif səbəblər üzündən xaricə, əsasən Pakistana, İrana və Hindistana getmişdir. Köçəri və yarımköçərilər də

daxil olmaqla Əfqanıstan əhalisinin xeyli hissəsi kənd yerlərində, təqribən 25 faizi isə şəhərlərdə yaşayır.

Əfqanıstanda 30-dan artıq millətin və xalqın nümayəndəsi yaşayır. Antropoloji cəhətdən Əfqanıstanın əhalisi cənub avropoidlərin hind-pamir qrupuna aid edilir. Ölkənin cənub və şimal-şərq hissələrində İran, şimal-qərbində isə türk dilli xalqlar məskunlaşmışlar. Şərqdə Pakistanla sərhəd boyunca hind-ari qrupuna aid edilən xalqlar yaşayır.

Əfqanıstanda say etibarilə ən böyük xalq puştulardır. Onlar Əfqanıstan-Pakistan sərhədi boyunca geniş ərazidə, əsasən Hindiquş silsiləsinin cənubunda məskunlaşmışlar. Taciklər sayca Əfqanıstanın ikinci xalqıdır. Hazırda ölkədə taciklər yaşayan üç sahə ayrılır: Herat vadisi; Bədəxşan vilayəti; Pəncşer, Qorbənd və Salanq çaylarının dərələri.

Sayca ölkənin üçüncü xalqı olan özbəklər Əfqanıstanda Hindiquş silsiləsindən şimalda qədim zamanlarda yaşayırdılar. Həzaralar əsasən Kabil – Herat-Həzəracat dağlıq rayonu arasında olan ərazilərdə məskunlaşmışlar. Türkmənlər isə Türkmənistan Respublikası ilə sərhədin yaxınlığında yaşayaraq köçəri və yarımköçəri həyat sürürlər. Bu xalqlardan başqa Əfqanıstan ərazisində əfşar, qızılbaş, qırğız, brahuilər və başqa xalqların nümayəndələri yaşayır.

Əfqanıstanın dövlət dili puştu və dəri (bəzi mənbələrdə dari yazılır) dilləridir. 1936-cı ilə qədər dövlət dili yalnız dəri dili (buna farsi-kabuli də deyilir) olmuşdur. 1936-cı ildən puştu dili ikinci, 1964-cü ildən isə birinci dövlət dili statusu qazanmışdır. Əslində ölkədə yaşayanlar 30-dan artıq dildə danışır. Əhalinin 90 faizi puştu və ya dəri dilində, ya da iki dildə danışa bilir. Lüğət tərkibinə görə bu dillər bir-birindən uzaq olsalar da, hər ikisi İran dilləri qrupuna aid edilir.

Əfqanıstan əhalisinin, demək olar ki, hamısı müsəlmandır. İslam dininin sünni məshəbi geniş yayılmışdır. Ölkənin ictimai və siyasi həyatında İslam dininin rolu çox böyükdür.

**Kabil** ölkənin ən böyük şəhəridir. Qədim şəhər olan Kabil mühüm nəqliyyat qovşağında yerləşir. Şəhərin əhalisi 3 mln. nəfərə yaxındır. Puştulardan başqa şəhərdə taciklər, özbəklər, həzaralar və digər xalqların nümayəndələri də yaşayır. 1504-cü ildən Böyük Moğolların, 1773-1818-ci illərdə Dürrani dövlətinin paytaxtı



olmuşdur. İngiltərə-Əfqanıstan müharibələri zamanı şəhər ingilis qoşunları tərəfindən işğal edilir. 1880-ci ildən Əfqanıstan dövlətinin paytaxtıdır.

Kabil eyniadlı çayın sahilində,1800-1900 metr yüksəklikdə yerləşir. Şəhərin məhəllələri Kabil çayının hər iki sahilini tutur. Şəhərin köhnə hissəsi Kabil çayının sağ sahilindədir və səciyyəvi Şərq simasını saxlamışdır. Çayın sol sahilindəki yeni hissədə keçmiş kral iqamətgahı, Məhəmməd Nadir şahın türbəsi, xarici səfirliklərin binası, parklar, iri yaşayış məhəllələri yerləşir. Kabil şəhəri cənub-qərb istiqamətində böyüyür. Kabil ölkənin siyasi, mədəni mərkəzi olmaqla yanaşı, həm də iqtisadi mərkəzidir. Şəhərdə avtomobil təmiri zavodu, asfalt-beton zavodu, yeyinti və yüngül sənaye müəssisələri, əczaçılıq fabrikləri və s. vardır. Ölkənin iqtisadi və mədəni həyatında mühüm əhəmiyyəti olan digər şəhərlər Məzari-Şərif (rəvayətə görə Həzrət Əlinin qəbrinin burada olması güman edilir. Məzari–Şərif şərafətli qəbir deməkdir), Herat, Qəndahardır.

### 4. İqtisadiyyatı

Əfqanıstan dünyanın ən geridə qalmış ölkələrindən biridir. Ölkədə adambaşına düşən milli gəlir ildə 100 dollara yaxındır (2006). İqtisadiyyatı zəif inkişaf etmiş Əfqanıstanın geriliyinə səbəb tarixən onun aqrar ölkə olması və buradakı vətəndaş müharibəsi olmuşdur.

**Kənd təsərrüfatının aparıcı sahələri**. Əfqanıstanın aqrar quruluşundakı gerilik kənd təsərrüfatında texniki təchizatın aşağı səviyyəsi ilə izah olunur. Kənd təsərrüfatında görülən işlərin əksəriyyəti əvvəllər olduğu kimi, hələ də əl ilədir. Əkinçilik süni suvarmaya möhtacdır. İqlimin çox quraq olması, atmosfer yağıntılarının fəsillər üzrə qeyri-bərabər düşməsi əkin sahələrinin suvarılmasını tələb edir. Ölkədə ümumi əkin sahəsi 4,5 mln. hektardır, bunun 2,6 mln. hektarı suvarılan torpaqlardır. Lakin ölkədəki münaqişələr ucbatından bu torpaqlardan səmərəli istifadə olunmur.

Suvarma əkinçiliyi Hilmənd çayı hövzəsində, Kabil çayı və onun qollarının vadilərində, şimalda Hərirud çayı vadisindədir. Əfqanıstan bitkiçiliyində taxılçılıq əsas yer tutur. Buğda ölkənin bütün rayonlarında becərilir. Bu onunla izah olunur ki, ölkədə

nəqliyyat şəbəkəsi zəif inkişaf etdiyindən, hər bölgə ilk növbədə öz çörəyi ilə özünü təmin etməyə çalışır. Buğda ilə yanaşı Əfqanıstanda qarğıdalı, çəltik və arpa da yetişdirilir.

Texniki bitkilər Şimali Əfqanıstanda geniş yayılmışdır. Pambıq və tütün əkinləri nisbətən geniş sahədə becərilən texniki bitkilərdir. Pambıq ölkədə ötən əsrin 50-ci illərindən becərilir. Əvvəllər bu sahənin inkişafı həm pambıq parça müəssisələrini xammalla təmin etmək, həm də dünya bazarında pambığın satış qiymətinin yüksəlməsi ilə əlaqədar idi. Ən məhsuldar illərdə Əfqanıstanda 150-160 min ton pambıq yığılırdı. Hazırda isə bu sahədə də geriləmə vardır.

Bağçılıq və üzümçülük ölkədə ənənəvi təsərrüfat sahəsi sayılır. Bu sahədə əmtəəlik püstə, badam, qoz, üzüm və meyvə istehsalı mühüm əhəmiyyət kəsb edirdi. Vətəndaş müharibəsi digər sahələrdə olduğu kimi üzümlüklər və bağlara da böyük zərər vurmuşdur. Cəlalabad irriqasiya kompleksinin suyu ilə suvarılan torpaqlarda sitrus meyvələri və zeytun becərilməsinə xüsusi fikir verilir.

Heyvandarlıqla həm köçəri, həm də oturaq həyat tərzi sürən kəndlilər məşğul olur. Mövsümi otlaqlar axtarmaq məqsədilə köçərilər adətən eyni istiqamətdə hərəkət edərək, yay aylarında Hindiquş və digər dağlıq rayonlara qalxır, qışda isə Hind və Pənc çaylarının dərələri ilə aşağı – ovalıqlara enirlər. Heyvandarlıqla oturaq həyat tərzi sürən kəndlilər də məşğul olur. Ölkədə aqrar bölmədə ümumi məhsulun 30 faizi heyvandarlığın payına düşür. Bu sahədə qaragül dərili qoyunçuluq, xüsusilə əhəmiyyətlidir. Əfqanıstan qaragül dərisinin mühüm ixracatçısıdır. Ölkədə xarici valyuta gəlirinin artıb-azalması qaragül qoyunçuluğunun vəziyyətindən çox asılıdır. Qoyunçuluğun bu növü ekstensiv istiqamətdədir. Qaragül dərili qoyunçuluq ölkənin şimal və şimal-qərbində Fəryab, Bəlx vilayətlərində daha yaxşı inkişaf etmişdir. Ən məhsuldar illərdə ölkədə 1,3-1,4 mln. ədəd qaragül dərisi istehsal olunur. Dünya bazarında onun alıcıları çoxdur. Qaragül dərisi dövlətin əsas xarici gəlir mənbəyi olduğundan, ən yaxşı otlaqlar bu sahə üçün ayrılır.

**Sənayenin aparıcı sahələri**. Əfqanıstanda sənaye müəssisələri ilk növbədə kənd təsərrüfatı xammalına əsaslanır. Müharibə nəticəsində əksəriyyəti dağıdılmış fabrik-zavod müəssisələrinin tikintisinə ötən əsrsn 50-60-cı illərində başlanılmışdır. Bu sahədə



Əfqanıstana xarici ölkələr, o cümlədən sabiq Sovet İttifaqı da kömək etmişdir. Tərkibində azərbaycanlılar olan sovet mütəxəssisləri Əfqanıstanda 100-dən artıq müxtəlif obyekt tikilib istifadəyə vermişlər. Bu mütəxəssislərin ölkədə apardıqları geoloji kəşfiyyat işləri nəticəsində neft, təbii qaz, mis, dəmir filizi, qrafit və s. yataqları aşkar edilmişdir.

Toxuculuq tarixən inkişaf etmiş sənaye sahələrindən biridir. 1978-ci il inqilabına qədər Heratda əyirici fabrik, Qəndaharda yun və pambıq parça toxuculuğu, Bəlxdə toxuculuq fabrikləri fəaliyyət göstərirdi. Toxuculuq sənayesinin ən böyük müəssisələri dövlətə məxsus idi. Hazırda bu müəssisələrin əksəriyyəti öz fəaliyyətini dayandırmışdır. Xalçaçılığın Əfqanıstanda tarixi çox qədimdir. Bu sənət ölkənin şimal və şimal-qərb rayonlarında daha yaxşı inkişaf etmişdir. Xalçaçılıqla ölkədə yaşayan türkmənlər və taciklər daha çox məşğul olurlar.

Kustar sənətkarlıq əhalinin ən mühüm məmulatlara olan tələbatını ödə-məkdə xüsusi əhəmiyyət kəsb edir. Bu sahənin əsas məhsulları metaldan hazırlanmış mətbəx qab-qacağı, səbət, mebel, xalça-palaz, naxış tikmələr, təsbeh, şirniyyat və s. istehsalıdır. Kustar sənətkarlıq əhalinin işlə təmin edilməsində də mühüm rold oynayır. Bu sahənin bir sıra məhsulları ixrac olunur.

**Nəqliyyatı və xarici ticarəti**. Ötən əsrin ikinci onilliyinə qədər karvan yolları ölkənin yeganə nəqliyyat yolları sayılırdı. Bunun bir səbəbi də ölkənin səth quruluşunun mürəkkəbliyinin müasir nəqliyyat şəbəkəsinin inkişaə etdirilməsinə maneçilik törətməsidir. Nəqliyyat probleminin həlli məsələlərində sabiq SSRİ-nin və ABŞ-ın rolu böyük olmuşdur.

Əfqanıstanda dəmir yol və su nəqliyyatı olmadığından avtomobil nəqliy-yatı mühüm əhəmiyyət kəsb edir. Kabil-Qəndahar-Herat, Kabil-Calalabad, Kabil-Pulu Xumru istiqamətində olan yollar ən intensiv yollardır. Avtomobil yolları Əfqanıstanı çay limanları, həmçinin Türkmənistan, İran, Pakistanla əlaqələndirir. Kabil-Şerxan yolu Hindquş dağlarını kəsib keçərək ölkənin şimal və mərkəz rayonlarını əlaqələndirir. Yolun əsas hissəsi 2700 metr uzunluğunda olan tuneldir. Bu tunel 3500 metr yüksəklikdən Salanq aşırımından keçir.

2007-ci ilin avqust ayının 26-da Əfqanıstan və Tacikistan arasında sərhəd çayı olan Pənc üzərində uzunluğu 700 metr olan

körpünün açılışı olmuşdur. Körpünün tikintisi ABŞ tərəfindən maliyyələşdirilmiş və 37 mln. dollara başa gəlmişdir. Bu körpü hər iki ölkə arasında iqtisadi əlaqələri genişləndirməklə yanaşı, Mərkəzi və Cənubi Asiya arasında İpək yolunun bərpasına xidmət edəcəkdir.

**Xarici ticarət**. Əfqanıstanın ixracatında ənənəvi məhsullar – təbii qaz, qurudulmuş meyvə, pambıq, parça, qaragül dərisi və s., idxalatında isə yanacaq, maşın və avadanlıq, nəqliyyat vasitələri, ərzaq, çox işlənən istehlak malları, silah (gizli yolla) üstünlük təşkil edir. Ticarət əlaqələrinin miqyası o qədər də geniş deyildir. Ölkənin pul vahidi əfqanidir.

# İRAN İSLAM RESPUBLİKASI

## 1. Coğrafi mövqeyi və təbiəti

**Coğrafi mövqe**. İran* Cənub – Qərbi Asiyada (və ya Orta Şərqdə) əlverişli geosiyasi mövqeyə malik olub, sahəsi 1,6 mln. kv. km-dir. Ölkənin sahəsi B.Britaniya, Fransa, İtaliya, İsveçrə kimi inkişaf etmiş dövlətlərin birlikdə götürülən ərazisinə bərabərdir. Avrasiyada bu göstəriciyə görə Rusiya, Çin, Hindistan, Səudiyyə Ərəbistanı və İndoneziyadan geri qalır. Sahəsinin böyüklüyünə görə dünya ölkələri sırasında 17-ci yerdədir. Ölkə şimaldan Ermənistan, Azərbaycan və Türkmənistan şimal-şərqdən Əfqanıstan, cənub-şərqdən Pakistan, qərbdən İraq və Türkiyə ilə həmsərhəddir. Şimaldan, cənub-qərbdən və cənubdan dənizə çıxışı var. Sərhədlərinin ümumi uzunluğu 8 min km-dir, bunun üçdə biri dəniz sərhədləridir. Azərbaycan Respublikası ilə 611 km məsafədə həmsərhəddir və bu sərhəd əsasən Araz çayı boyuncadır.

**Səth quruluşu və faydalı qazıntıları**. İran dağlıq ölkədir. Dağlar, yaylalar ərazisinin təqribən beşdə dörd hissəsini təşkil edir. İranda iki əsas relyef forması xüsusilə seçilir: şimal-qərbdən cənub-

* **İran** – qədim fars dilində «aria», «arxiya» sözlərinin dəyişdirilmiş forması olub, «nəcib», «əsl nəcabətli» mənalarını bildirir. Keçmişdə yüksəkvəzifəli şəxslərə verilmiş bu ad sonralar bütün ölkəyə şamil edilmişdir.



qərb istiqamətində uzanan dağ silsilələri və mərkəzdəki yüksək düzənliklər sistemi.

Ölkənin mərkəzində yerləşmiş İran yaylasının əsas hissəsini Dəşte-Kəvir və Dəşte-Lut səhraları tutur. Şoran tirələrdən ibarət olan Dəşte-Kəvir (dəşt- bərk torpağa malik səth, kəvir – şoranlıq) kənd təsərrüfatına tamamilə yararsız, nəqliyyat üçün təhlükəli sayılır. Dəşte-Lut (lut, yəni bitkisiz) isə Yer kürəsinin ən bürkülü və quraq səhralarından biridir. Dəşte-Kəvirdən fərqli olaraq burada qumla örtülü sahələr çoxdur. Dəşte-Lut səhrası üçün səciyyəvi xüsusiyyət qum təpələrinin üstünlüyüdür. Bu qum təpələri sütun, qüllə və qalanı xatırladan təbii landşaft formaları yaratmışlar. Hər iki səhrada yaşayış məskənlərinə ensiz kənar zolaqlarda rast gəlmək olar. İran yaylasını dağlar əhatə edir. Bu dağların ən möhtəşəmi Elburs sistemidir. Elbursun və eləcə də bütün İranın ən hündür dağı Dəmavənddir* (hünd. 5604 m.). Dəmavənd iranlılar üçün gözəllik, əzəmət və qüvvət rəmzidir.

Elburs dağ sistemi mürəkkəb relyefə malik olduğundan, ərazi təsərrüfat fəaliyyətinə müəyyən dərəcədə cəlb olunmuşdur. Dağ keçidlərindən yollar çəkilmiş, yeraltı suların üzə çıxdığı ərazilərdə isə intensiv əkinçilik aparılır. Elburs sistemi şərqdə Türkmən-Xorasan dağlarına keçir. Bu dağlar sıldırım yamaclara malikdir, lakin dağlar arasındakı məhsuldar vadiləri kənd təsərrüfatı üçün yararlıdır.

İran yaylasının cənub kənarlarından Zaqros dağ sistemi başlayır. Cənub-şərqdə bu dağ sistemi Cənubi İran dağları ilə əvəz olunur. Ölkənin şimal-qərb hissəsi də dağlıqdır. Burada çökəkliklərlə parçalanmış Kordestan, Talış, Boqrovdağ, Qaradağ, Ağrıdağ silsilələri uzanır.

İranın böyük düzənlikləri əsasən ölkənin kənar hissələrindədir. Bunlardan təsərrüfat və turizm baxımından ən mühümü Xəzərsahili (və ya Cənubi Xəzər) ovalığıdır. Ölkə ərazisinin cəmi 5 faizini təşkil edən bu ovalıqda əhalinin 20 faizi yaşayır. Mesopotamiya ovalığının aşağı hissəsi İran ərazisinə daxil olur. İran və Oman körfəzlərinin sahilləri düzən olsa da, əkinçiliyə yararlı deyildir.

İran faydalı qazıntılarla zəngin ölkədir. Bunlar içərisində mineral enerji sərvətləri, xüsusilə neft və təbii qaz dünya

* **Dəmavənd –** püskürən, tüstüləyən qala mənasını bildirir.

əhəmiyyətlidir. Neft ehtiyatına görə regionda, həm də dünyada qabaqcıl mövqeyə malikdir. Ölkənin ən mühüm neft yataqları qərbdə və şimaldadır. Xəzər şelfində də neft axtarışı işlərinə başlanılmışdır. Ölkədə təbii qaz ehtiyatı da çoxdur (14 trilyon kub m.). Mineral enerji sərvətlərindən kömürün əhəmiyyəti də böyükdür. Ən mühüm yataqları şimal dağ massivi və qərbdədir.Son illərdə enerji məqsədilə nüvə xammalından istifadəyə meyl güclənmişdir. Bu isə bir sıra Qərb ölkələrini, ilk növbədə ABŞ rəsmilərini daha çox narahat edir. İranda qara metal (dəmir filizi) və əlvan metal (mis, qurğuşun, sink, qalay, sürmə, boksit və s.) filizləri də çıxarılır. Dəmir filizi yataqları əsasən Kerman, Semnan, Tehran rayonlarında, əlvan metal filizləri isə şimal və qərb əyalətlərindədir. İran tikinti və üzlük materialları (mərmər, qranit, yaşəm daşı, gil, gips, əhəng daşı və s.), qiymətli daşlarla da (firuzə, əqiq və s.) zəngin ölkədir.

**İqlimi və hidroqrafiyası**. Ölkənin əksər hissəsinin iqlimi subtropik kontinental, Xəzər dənizi sahilində rütubətli, İran və Oman körfəzlərinin sahillərində isə tropikdir. İqlimin əsas xüsusiyyətləri ölkənin coğrafi mövqeyi ilə yanaşı, həm də relyefin müxtəlifliyi, ərazidə hakim olan atmosfer dövranı ilə müəyyən olunur. İqliminin xüsusiyyətlərindən biri də yalnız həddən artıq yüksək yay temperaturu deyil, eləcə də çox aşağı qış temperaturu ilə əlaqədar onun kəskin kontinentallığıdır.

İranın əksər yerlərində yay ayları çox isti və quraq, qış soyuq və şaxtalı keçir. İlin isti dövründə dağlıq sahələr istisna olmaqla, ölkənin hər yerində hava +25-30 °C-dək qızır, bu isə istilik sevən bitkilərin (pambıq, tütün, çəltik və s.) becərilməsinə imkan verir. Mütləq maksimum temperatur isə 50 °C-dək yüksəlir. Qışda ölkənin şimalında temperatur mənfi 7-10 °C, cənubunda isə +15-18 °C təşkil edir. Mərkəzi düzənliklərdə – 20° çatan şaxtalar müşahidə edilir.

İranın şimal-qərbindən cənub-şərqinə doğru orta illik yağıntıların miqdarı azalır. Məsələn, Cənubi Xəzər ovalığına orta hesabla 2000 mm yağıntı düşdüyü halda, mərkəz və şərq bölgələrinə 100-50 mm yağıntı düşür.

İran yerüstü sularla zəngin deyil. Çayların əksəriyyəti ölkənin şimalında Elburs dağ sistemi ilə Xəzər dənizi arasında qalan ensiz zolaqda, cənub-qərbdə Xuzestanda və qərbdə Cənubi Azərbaycandadır. Ərazisinin digər bölgələrində daimi axara malik



çaylar yoxdur. İranın bütün çayları 3 hövzəyə aid edilir. Axımın 18 faizi Xəzər dənizi, 63 faizi İran körfəzi, 19 faizi axara malik olmayan daxili hövzənin payına düşür. Axara malik olmayan daxili hövzə ölkə ərazisinin 65 faizini əhatə edir.

İranda ən böyük çay Karundur (uz. 850 km). Karun çayı İran əkinçiliyi tarixində mühüm rol oynamışdır. O, həm də ölkənin gəmiçiliyə yararlı yeganə çayıdır. İllik axımın miqdarına görə ikinci çay Səfidruddur. Çayın çoxsaylı qolları var, bu qollardan suvarma kanalları başlanğıcını götürür. İranın mərkəzi əyalətlərinin suvarılmasında Zayəndərud, şimal bölgələrinin suvarılmasında Araz, Qorqan çaylarının əhəmiyyəti çox böyükdür. Araz çayı sərhədboyu ilə 800 km məsafədə axır. Çay üzərində sabiq sovetlər dövründə müştərək su qovşağı inşa edilmişdir. Araz çayı üzərində Azərbaycan Respublikası ilə də müştərək irriqasiya kompleksi yaradılmışdır.

Ölkədə yerüstü sulara aid edilən göllərin əhəmiyyəti də böyükdür. Göllərin əksəriyyəti (Urmiya, Dəryaçeye-Nəmək, Nəyriz, Nəməkzar və s.) axarsızdır. Bəzi göllər isə yayda quruyur və şoranlıqlar əmələ gətirir.

İranda yerüstü sulardan başqa süni suvarmada və məişətdə mühüm rol oynayan yeraltı suların əhəmiyyəti də böyükdür. Bu sular yeraltı kanallar (kəhriz və ya kanat) vasitəsilə yer səthinə çıxarılır. Ölkədə mövcud olan 30 min kəhrizin* 20 minindən istifadə edilir. İran səyahətçisi Əli Əsgər Mohəcərin «Səhranın səması altında» kitabında kəhriz haqda belə deyilir: «Kəhriz İran həyatının təcəssümüdür. O, tarlaların susamış qan damarlarına təzə qan vermək üçün tələsmədən dərinliklərdən qalxır, tədricən kənd və şəhərlərin ətrafına çəkilir. Kəhriz səs-küylü və arsız dağ çaylarına bənzəmir. O heç vaxt öz vücudunu diqqəti cəlb etmək üçün biruzə vermir ki, onun xalqa xidmət yolunda necə yorulduğu və zəiflədiyi görünsün. Nəzərə çarpmadan özü üçün sakit axır və həmişə həyat və ümid mənbəyi olmaq səyi ilə çalışır». Bu mənalı sitat İranda kəhrizlə suvarmanın

---

* **Kəhriz** – qrunt sularını yer səthinə çıxarmaq üçün Yaxın və Orta Şərq, Orta Asiya, Azərbaycanda səciyyəvi sayılan quyudur. Texniki cəhətdən maili lağım (hünd. 1,0-1,4 m, eni 0,5-0,8 m) şəbəkəsindən ibarətdir. Daş və ya bişmiş kərpicdən hörülən bu lağımlar bir-birilə şaquli quyular vasitəsilə birləşdirilir. Kəhriz qazılması İranda xüsusi sənət sayılır və bunun sirri atadan oğula ötürülərək davam etdirilir.

əhəmiyyətinin daha bir sübutudur. Ölkədə yeraltı sular kəhrizlərdən başqa quyular vasitəsilə də səthə çıxarılır. Xuzestan, Fars, Esfəhan əyalətlərində artezian quyularından geniş istifadə edilir.

**Torpaq və bitki örtüyü**.Təbii şəraitin sərtliyi ölkənin torpaq örtüyündə də özünü biruzə verir. İranda torpaqların məhsuldar qatı çox zəifdir, əksər yerlərdə isə çınqıllı və ya duzludur. Quru səhra iqlimi, ana suxurların çınqıllı olması, duzluluğu və yeraltı suların şor olması məhsuldar torpaq qatı yaratmır. Ölkədə müxtəlif torpaq növləri: dağ yamaclarında daşlı-çınqıllı, çay dərələrində ağır gilli torpaqlar yayılmışdır.İqliminin quraqlığı, yağıntıların qıtlığı, bitki örtüyünün zəifliyi ucbatından İran ərazisinin geniş hissəsində özünəməxsus torpaq əmələgəlmə prosesi gedir. Bu cür torpaqlara ekstraarid torpaqlar deyilir. İqlim şəraiti əlverişli olan dağlıq ərazilərdə torpaq əmələgəlmə prosesi daha fəal gedir. Dağ yamaclarında şabalıdı-dağ, yüksək rütubətli yerlərdə boz-çəmən, dağ-çəmən torpaqları yayılmışdır.

Coğrafi mövqe, relyefin müxtəlifliyi, iqlimin və torpaq şəraitinin fərqli cəhətləri İranda rəngarəng floranın əmələ gəlməsinə səbəb olmuşdur. Ölkənin bitki örtüyünün tərkibi müxtəlif (6 min növdən artıq) olsa da, geniş əraziləri əhatə edən səhra və quru çöllərin kserofit bitkiləri üstünlük təşkil edir. İran ərazisinin təqribən bir faizində, əsasən Xəzər sahilində, Elburs və Boqrovdağın yamaclarında dəniz səviyyəsindən 2500 metr yüksəklikdə sıx enli-yarpaq, Cənubi Azərbaycan dağlarında, Araz çayı vadisində isə seyrək meşələr yayılmışdır.

İranın fauna aləmi Mərkəzi Asiya və Aralıq dənizi zoocoğrafi yarıməyalətinə aid edilir. Ölkə balıq ehtiyatı ilə də zəngindir. Mirvari ovu öz əhəmiyyətini hələ də saxlamışdır. İran körfəzi dünya mirvari ovunun mərkəzi sayılır. Bu körfəzdə qiymətli sədəf alınan mollyusk növləri də vardır.

## 2. Ölkənin qısa tarixi, idarəolunma sistemi və Azərbaycan Respublikası ilə münasibətləri

Müasir İranın ərazisi qədim məskunlaşma ocaqlarından biri olub. Eramızdan əvvəl IV minillikdə İranın Xuzestan, Lurestan və digər əyalətlərində məskunlaşan əhali taxıl becərməyə və qoyun,keçi



saxlamağa başlayır. Ölkənin cənub-qərbinin əlverişli aqroiqlim şəraiti isə buranın əkinçilik və heyvandarlığın ilk ocaqlarından birinə çevrilməsinə səbəb olmuşdur. Eramızdan əvvəl III minilliyin əvvəllərində İranın cənub-qərbində ilk sinifli cəmiyyətin meydana gəlməsi də əkinçilik və heyvandarlıq mədəniyyətinin inkişafı ilə izah olunur. Əvvəlcə ayrı-ayrı şəhər-dövlətlər, sonralar isə Xuzestan əyalətində Elam dövləti meydana gəlir. Şumer və Akkadi (Mesopotamiya) mədəniyyətinin təsiri altında olan bu dövlət e.ə. VII əsrdə Midiya dövlətinin hakimiyyəti altına düşür və müstəqilliyini itirir.

E.ə. II minilliyin sonunda İran ərazisinə şimaldan Hind-Avropa tayfalarının İran qrupuna aid edilən pars və irandilli xalqların əcdadları hesab olunan ari tayfaları gələrək ölkənin mərkəz və qərb rayonlarında məskunlaşırlar. Midiya və pars qəbilələrinin birləşməsi nəticəsində qədim dünyanın iri dövlətlərindən olan Əhəmənilər (b.e.ə. 558-330) hakimiyyəti yaradılır. Əhəmənilər dövlətinin sərhədlərinin getdikcə genişlənməsinə baxmayaraq, Makedoniyalı İskəndər bu dövləti süquta yetirir.

Eramızın III əsrində İranda Sasanilər sülaləsi çox qüvvətlənir. Qonşu əraziləri zəbt etməklə sərhədlərini genişləndirir. Lakin Əhəmənilər kimi bu dövlətin daxilində də ziddiyyətlər mövcud idi. Eramızın VII əsrində Sasanilərin yaratdığı dövlət ərəblər tərəfindən darmadağın edilir.Bundan sonra İran ərazisi Ərəb xilafətinin, Səlcuqların, Çinqizxan və Hülaküxanın, Əmir Teymurun yaratdıqları imperiyaların tərkibində olub. Orta əsrlərdə İranda hakimiyyət Səfəvilərin əlinə keçir. Bu dövlətin paytaxtı əvvəlcə Təbriz, sonra Qəzvin, daha sonra isə Esfahan şəhəri olur. Səfəviləri Qacarlar sülaləsi (1796-1925) əvəz edir, paytaxt Tehran şəhərinə köçürülür.

Avropada kapitalizmin inkişaf etdiyi bir şəraitdə geri qalmış feodal quruluşlu İran bu ölkələr üçün istismar obyektinə çevrilir. İngiltərə, ABŞ, Rusiya, Fransa və Almaniya İranı özlərinin xeyrinə müqavilələr bağlamağa vadar edir, ona ağır şərtlərlə borc verməklə, ölkənin iqtisadi həyatına, daxili və xarici siyasətinə müdaxilə etmək imkanı əldə edirlər.

İmperializm zülmünün güclənməsi və daxili ziddiyyətlərin kəskinləşməsi İranda inqilab üçün zəmin yaratdı. 1905-ci ildə başlanmış inqilabı hərəkat feodal hakimiyyətinə qarşı yönəlmişdi. Lakin İran xalqı bu və sonrakı inqilabların bəhrəsini görə bilmədi.

1906-cı ildə birinci konstitusiya qəbul edildikdən sonra ölkə parlamentli monarxiya elan olunur. 1920-ci ilin may ayında sabiq sovet Rusiyası ilə İran arasında diplomatik münasibətlər təsdiq olunur, 1921-ci il fevral ayında isə hər iki ölkə arasında müqavilə imzalanır. Bu, Qərb dövlətlərini, ilk növbədə ABŞ, B.Britaniya və Almaniyanı narahat etməyə bilməzdi. B.Britaniya İranda hakimiyyəti öz nəzarəti altında saxlamaq məqsədilə ölkədə dövlət çevrilişi etməyə nail olur. 1921-ci ildə İranda dövlət çevrilişi baş verir və hakimiyyəti Pəhləvilər sülaləsi ələ keçirir. Rza Pəhləvi 1925-ci ildə İran şahı elan olunur. İkinci Dünya müharibəsindən sonra Qərb dövlətlərinin İrana qarşı münasibətlərində yeni istiqamət meydana gəlir. Bu siyasət ABŞ və B.Britaniyanı maraqlandıran sabiq Sovet İttifaqı ilə sərhəddə yerləşən İranın yalnız hərbi-strateji mövqeyi ilə deyil, həm də onun nefti ilə bağlı idi.

1978-ci ildə qüvvətlənən sosial-iqtisadi çətinliklər şəraitində İranda hökumətə qarşı kütləvi nümayişlər, daha sonra isə mühüm istehsal sahələrində (neft sənayesi, nəqliyyat, rabitə və s.) kütləvi tətillər baş verir. İran xalqı siyasi, sosial, iqtisadi və mədəni sahələrdə köklü dəyişikliklər tələb edirdi. Mütərəqqi qrup və təşkilatların, həmçinin müsəlman şiə ruhanilərin əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olan başçısı Ayətullah Müsəvi Ruhulla Xomeyninin rəhbərliyi ilə ümumxalq hərəkatı daha da qüvvətlənir. İnqilab xarakterli bu hərəkat nəticəsində 1979-cu il fevralın 11-də İranda monarxiya rejimi devrilir. Həmin vaxtdan 11 fevral milli bayram – İnqilab günü kimi geniş qeyd olunur. 1979-cu il aprelin 1-də ölkənin adı dəyişdirilir və dövlət İran İslam Respublikası adlandırılır. Həmin ilin dekabrında keçirilmiş ümumxalq referendumunda İranın yeni konstitusiyası qəbul olunur. Konstitusiyada ruhanilərin ölkə həyatında rəhbər rolu bir daha təsbit edilir. Ölkədə ictimai həyatın bütün sahələrində islam fundamentalizmi dərin kök salmışdır.

1979-cu il inqilabından sonra İranın ABŞ-la münasibətlərində «soyuqluq» yaranır. İraqla müharibə, daha sonra Abu-Musa, Tombe-Bozorq, Tombe-Kuçek adalarının zəbt edilməsi ərəb ölkələri ilə münasibətlərini gərginləşdirir. İran İslam Respublikasının Küveyt (1991), Əfqanıstan (2001) və İraq (2003) münaqişələrində bitərəf mövqeyi əksər dövlətlərlə münasibətlərinin stabilləşməsinə səbəb olur. Avropa İttifaqı dövlətləri ilə münasibətləri genişlənir.



**Dövlət quruluşu**. Konstitusiyaya görə dövlətdə ali vəzifələr bir-birindən asılı olmayan qanunvericilik, icraedicilik və məhkəmə sistemindən ibarətdir. Bu sistemlər isə ölkənin siyasi və dini rəhbərinin nəzarəti altındadır. İranın dövlət başçısı əslində prezidentdir, lakin prezident Ali Dini Rəhbərə tabedir. Konstitusiyaya görə fəqih, yəni ali dini və ya siyasi nüfuzlu şəxs əslində ölkənin bütün həyatına rəhbərlik etməlidir. Ayətullah Ruhulla Xomeyni ömrünün axırınadək bu vəzifəni yerinə yetirmişdir. 1989-cu ilin 4 uyulunda dövlətin ağsaqqallar şurası Ayətulla Seyid Əli Xameneyini bu vəzifəyə təsdiq edir.

Birbaşa seçkilər yolu ilə seçilən ölkə prezidentinin səlahiyyət müddəti 4 ildir. Eyni adam bu vəzifəni iki dəfə tuta bilər. 2005-ci il 17 iyunda bu vəzifəyə Mahmud Əhmədinecad seçilmişdir. İslam Şurası Məclisi adlanan bir palatalı parlament üzvlərinin sayı 290 nəfərdir. Birbaşa və gizli səsvermə yolu ilə seçilən parlament deputatlarının fəaliyyət müddəti 4 ildir. 1989-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklərə əsasən Baş nazir vəzifəsi ləğv edildiyindən icraedici hakimiyyətə Prezident rəhbərlik edir.

İran İslam Respublikasının konstitusiyasına və 1981-ci ildə verilmiş fərmana əsasən ölkədə siyasi partiyaların və qeyri-islam təşkilatlarının fəaliyyəti qadağan olunmuşdur. Ölkənin yeganə və nüfuzlu partiyası 1979-cu ildə yaradılmış İslam Respublikası partiyasıdır. Bu partiyaya müxalifətdə duran təşkilatlar isə İranın Azadlığı Uğrunda Hərəkat, İran Kürdüstanı Demokratik Partiyası, İran Xalq Partiyası, İran Xalq Mühacidlər Təşkilatı və başqalarıdır.

İnzibati cəhətdən ölkə 25 inzibati əyalətə ayrılmışdır. Tarixi Azərbaycan torpaqları Qərbi Azərbaycan (inzibati mərkəzi Urmiya şəhəri), Şərqi Azərbaycan (inzibati mərkəzi Təbriz), Zəncan (inzibati mərkəzi Zəncan) və Ərdəbil (inzibati mərkəzi Ərdəbil) inzibati əyalətlərində birləşir. Əyalətlər ayrı-ayrı inzibati rayonlara bölünür. Rayonlar daxilində kəndlər ayrılır.

**Azərbaycan Respublikası ilə münasibətləri**. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 12 mart 1992-ci ildən mövcuddur. Hər iki dövlət arasında dostluq, əməkdaşlıq, mehriban qonşuluq barədə Tehranda 1992-ci ilin may ayının 7-də Protokol imzalanmışdır. İran-Azərbaycan əlaqələri çoxəhatəlidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci ildən başlayaraq qonşu İran dövləti ilə müxtəlif sahələr –

sənaye, kənd təsərrüfatı, tikinti, rabitə, nəqliyyat, təhsil, səhiyyə, ticarət, təhlükəsizlik barədə birgə əməkdaşlıq haqda Memorandum və Sazişlər imzalanmışdır. Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin İran İslam Respublikasına rəsmi səfəri zamanı (26 yanvar 2005-ci il) hər iki hökumətin arasında əvəzsiz yardım, Araz çayının hidroenergetika potensialının istifadəsi, mülki aviasiya, dəmir yol nəqdiyyatı və digər sahələrdə mühüm sazişlər və Anlaşma Memorandiumu imzalanmışdır. İran İslam Respublikasının prezidenti Mahmud Əhmədi Nicat Azərbaycanda səfərdə olduğu vaxtda (21-22 avqust, 2007) hər iki ölkə rəsmiləri arasında müxtəlif sahələrdə (o cümlədən energetika və nəqliyyat) Sazişlər və Memorandiumlar imzalanmışdır.

İran və Azərbaycan iqtisadi əlaqələrində ticarət dövriyyəsinin həcmi ildən-ilə artır. Azərbaycanın İrandan idxal etdiyi məhsulların dəyəri İrana ixrac etdiyi məhsulların dəyərindən çoxdur. İrandan Azərbaycana əsasən tikinti materialları, yanacaq, yeyinti sənaye məhsulları, kənd təsərrüfatı məhsulları və s. gətirilir. Azərbaycandan isə İrana metallurgiya, maşınqayırma avadanlığı, yüngül sənaye məhsulları ixrac olunur. Azərbaycan İranla hava nəqliyyatı (Bakı-Tehran), dəniz nəqliyyatı (Bakı-Noşəhr, Bakı-Ənzəli), dəmir yolu (Naxçıvan-Culfa-Təbriz-Tehran), avtomobil yolu ilə (Bakı-Astara-İran) ticarət əlaqələri saxlamaq imkanına malikdir. Tarixi İpək yolunun bərpası İran-Azərbaycan arasında iqtisadi əlaqələrin daha da təkmilləşməsinə xidmət edəcəkdir.

### 3. Əhalisi və şəhərləri. Paytaxtın qısa səciyyəsi

İran əhalisi sürətlə artan ölkələrdən biridir. 50 il bundan əvvəl əhalinin təbii artımı 1,5 faiz təşkil edirdisə, hazırda bu göstərici 2 faizi ötmüşdür. 1956-57-ci illərdə ilk siyahıya alınmaya görə ölkədə 18,9 mln. əhali yaşayırdısa, 1996-cı ildə əhalinin sayı 60 mln., 2003-cü ildə 66,4 mln.-a çatmışdır. Son 20 ildə əhali 20 mln. nəfər artmışdır. İranda təbii artımın yüksək olması erkən nigah, tibbi xidmətin yaxşılaşdırılması və digər səbəblərlə izah olunur.

Ölkədə ərazi üzrə əhalinin sıxlığında kəskin fərqlər mövcuddur. Əlverişli iqlim şəraiti və torpaq ehtiyatları, ən başlıcası isə su mənbələrinin olması əhalinin yerləşməsinə təsir göstərir. Bu



səbəbdən də ölkə əhalisinin 80 faizi şimal və şimal-qərb əyalətlərində cəmlənmişdir. Xəzərsahili ovalıq, Urmiya gölü ətrafı, dağətəyi bölgələr əhalinin sıxlığına görə seçilir. Ərazisinin üçdə iki hissəsini əhatə edən səhra və yarımsəhralarda 1 kv. km-də orta sıxlıq 3-4 nəfərdən artıq deyildir.

İranda yaşayanların 60 faizi şəhərlərdə məskunlaşıb. Şəhər əhalisinin artmasına ilk növbədə ölkədaxili miqrasiyalar təsir göstərmişdir. Sənayenin inkişafı, bununla bağlı şəhərlərdə iş tapmaq imkanının kəndə nisbətən çox olması, şəhərlərin mədəni şəraitinin yüksək olması və s. kənd əhalisini cəlb edən əsas səbəblərdir. İran dünya sivilizasiyasının qədim mərkəzlərindəndir, bu özünü əhalisinin etnik tərkibində də əks etdirir. İran əhalisinin etnik cəhətdən formalaşmasında e.ə. II minilliyin ortalarında İran yaylasında məskunlaşan ari tayfalarının böyük rolu olmuşdur. İran tarixi və mədəniyyətinin inkişafına ari qrupuna aid midyan və fars tayfalarının daha çox təsiri olmuşdur. İran ərazisinin dəfələrlə müxtəlif xalqların basqınına məruz qalması da ölkə əhalisinin çoxmillətli tərkibində izini qoymuşdur.

Ölkədə 40-dan artıq xalq var. İranda azlıqda qalan xalqların və tayfaların sayı ya dəqiq verilmir, ya da onların əksəriyyəti İrandilli xalqlar kimi göstərilir. Çox vaxt islam dininə mənsub olan bütün xalqları və tayfaları iranlı, digər dinlərə mənsub olanları (ermənilər, aysorlar, yəhudilər və s.) azlıqda qalan xalqlar adlandırırlar.

İran statistikasına görə sayca ökənin ən böyük xalqı farslardır (48-50 faiz). Farslar əsasən Elburs dağlarından cənubda, ölkənin şərq və cənub rayonlarında daha sıx məskunlaşmışlar. Farsların yayıldığı ərazilər şimal-qərbdə Urmiya gölündən başlayaraq cənub-şərqdə Oman körfəzinə qədər geniş sahəni əhatə edir. Cənubi Azərbaycan istisna olmaqla ölkənin bütün əyalətlərində farslar şəhər əhalisinin çox hissəsini təşkil edirlər. İran dil qrupuna farslardan başqa kürdlər (7-9 faiz), gilanlılar, lurlar, bəluclar, tatlar, talışlar və başqa xalqlar daxildir.

İranda sayca ikinci böyük xalq azərbaycanlılardır. İran statistikasında həmişə azərbaycanlıların sayı az göstərilmişdir (24-26 faiz).Türkdilli xalqlar arasında təbii artımın yüksək olması nəzərə alınarsa, onların ümumi sayının 30 mln.-a, azərbaycanlıların isə 25 mln.-a çatmasına şübhə qalmır. Azərbaycanlılar Şərqi və Qərbi Azərbaycan, Zəncan, Ərdəbil əyalətlərində, həmçinin Tehran,

Qəzvin, Həmadan, Ərak və digər şəhərlərdə məskunlaşmışlar. Fars və türkdilli xalqlardan başqa İranda ərəblər, ermənilər, assuriyalılar, brahuilər və başqa xalqların nümayəndələri yaşayır.

İranın dövlət dili fars dilidir. Bəzi əlavələrlə fars əlifbası ərəb qrafikasına əsaslanır. Farsların danışıq dilində ərəb, türk, ingilis dillərindən götürülmüş sözlər çoxdur. Ölkədə hakim din islamdır. İran müsəlmanlarının (ölkə əhalisinin 98,8 faizi) 90 faizindən çoxu şiədir. Məşhəd və Qum şəhərlərinin məscidləri dünya müsəlmanlarının ən çox ziyarət etdikləri dini mərkəzlərdir. Ölkə əhalisinin 80 mini xristiandır.

Təbii artımın yüksək olması ölkədə şəhərlərin böyüməsinə və urbanizasiyanın genişlənməsinə səbəb olmuşdur. Tehran, Esfahan, Təbriz, Məşhəd, Şiraz, Əhvaz İranın böyük şəhərlərindəndir. Bütün göstəricilərə görə, ölkənin ən böyük şəhəri olan **Tehranın** adı fars dilində «təmiz», «gözəl» mənasını bildirir. Əhalisinin sayına görə (12 mln. nəfər) o, nəinki İranın, eləcə də İslam dövlətlərinin iri şəhərlərindən biridir. Tehran Elbursun ön dağlıq hissəsində 1100-1300 metr yüksəklikdədir. Şəhərdən 80 km aralı Dəmavənd vulkanı ucalır.

Tehran IX əsrdə İranın qədim paytaxtı Rey şəhərinin yaxınlığında salınmışdır. Qacarlar sülaləsini hakimiyyətə gətirmiş Ağa Məhəmməd şah Tehranı 1796-cı ildə dövlətin paytaxtı elan edir. XX əsrin ikinci yarısından Tehran sürətlə böyüməyə başlayır. Ölkənin sənaye istehsalının 30 faizi Tehran müəssisələrinin payına düşür. Tehran həm də İranın mühüm nəqliyyat qovşağı, siyasi, maliyyə və mədəni mərkəzidir.

**Təbriz** Cənubi Azərbaycanın tarixi, siyasi, mədəni və iqtisadi mərkəzidir. Acıçayın vadisində 1300-1400 metr hündürlükdə yerləşmiş şəhər 852, 1721,1780, 1884 və 1936-cı illərdə güclü zəlzələlərə məruz qalmışdır. Təbriz hələ eramızdan əvvəl şəhər-qala olmuşdur. Qazan xanın hakimiyyəti dövründə (1295-1304) Təbriz Yaxın və Orta Şərqin ən böyük sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Əhalisinin sayı 2 mln. nəfərdən artıq olan Təbriz İranın mühüm sənaye və nəqliyyat mərkəzidir. Təbriz qədim memarlıq abidələri ilə zəngindir. Təbriz bazarı Şərqin qədim, iri və gözəl bazarlarından biridir. Şəhərdə 200-dən artıq məscid vardır. Şəhərin yaxınlığında məşhur memarlıq komplekslərinin qalıqları (Əlişah məscidi, Ərk qalası, Göy məscid və s.) mühafizə olunur. XX əsr tikililərindən Bələdiyyə idarəsinin binası, Təbriz Universiteti kompleksi, Gülüstan bağı və s. fərqlənir. Təbriz şərq miniatür məktəbinin mərkəzi kimi də məşhurdur.



**Esfahan** İranın iri sənaye və mədəni mərkəzlərindən biridir. Qədim fars dilində «hərbi düşərgə» mənasını bildirən bu şəhər dağlararası dərədə Zayəndərud çayı sahilində yerləşir. Əhalisinin sayı 2,6 mln. nəfərdir. Tehrandan sonra İranın ikinci iqtisadi mərkəzidir. Toxuculuq sənayesinin inkişafına görə Esfahanı «İranın Mançestri» adlandırırlar. Esfahan İranın qədim şəhərlərindən biridir. Hələ Sasanilər dövründə o, inzibati və iqtisadi mərkəz kimi seçilirdi. Şəhərin inkişaf dövrü Səfəvilərin hakimiyyəti illərinə təsadüf edir. Şəhərdə onlarca möhtəşəm məscid, mədrəsə qorunub saxlanılır.

## 4. İqtisadiyyatı

İran iqtisadiyyatının inkişafında .ölkənin beynəlxalq əmək bölgüsü sistemində müstəmləkə istismarı səciyyəvi amil olmuşdur və bu amilin təsiri ayrı-ayrı inkişaf dövrlərində müxtəlif olmuşdur. Ölkənin müstəmləkələşdirilməsi onun milli iqtisadiyyatında kapitalist bünövrəsinin formalaşmasına səbəb olmuş, dünya ticarət əlaqələrinə cəlb olunmasına imkan yaratmışdır.

İqtisadi cəhətdən İran inkişaf etməkdə olan ölkələr qrupunda orta mövqe tutan dövlətlərdən biridir. XX əsrin 60-cı illəri İranın iqtisadi inkişafında mühüm dövr sayılır, çünki həmin illərdən ölkədə neft çıxarmanın sürəti artmağa başlamışdı. Bu vəziyyət eyni zamanda İranın inkişaf etmiş ölkələrdən və dünya bazarından asılılığını da artırırdı. 1979-cu il inqilabından sonra İran rəhbərliyi başqa ölkələrdən iqtisadi asılılığa son qoyan tədbirlər həyata keçirməyə başladı. Lakin 1980-1988-ci illərdə İraq – İran müharibəsi ölkənin iqtisadi inkişafını iflic vəziyyətinə saldı. Ölkə iqtisadiyyatına 700 mlrd. ABŞ dolları həcmində ziyan dəydi. Müharibə nəticəsində emaledici sənaye sahələrinin istehsal avadanlığının 60 faizi sıradan çıxmış və ölkə büdcəsinin 40 faizi hərbi xərclərə sərf olunmuşdu.

**Sənayenin aparıcı sahələri**. Sənayenin inkişafı üçün müxtəlif amillərin (müxtəlif faydalı qazıntılar, bol əmək ehtiyatı və s. ) olmasına baxmayaraq, bu sahənin ixtisaslaşması məhdud çərçivədədir. İqtisadiyyatının aparıcı sahəsi neft və qazçıxarma və bunların emalıdır. Neft-qaz sektoru ölkənin ümummilli məhsulun 20, valyuta

gəlirinin 85 faizini yaradır. 1973-cü ilə qədər ölkədə neftin 90 faizini Beynəlxalq Neft Konsorsiumu (BNK) çıxarırdı. 1973-cü ildə BNK ilə İran Milli Neft Şirkəti (İMNŞ) arasında müqavilə bağlanır. Müqaviləyə əsasən neftin çıxarılması, emalı və satışı İMNŞ-nin ixtiyarına verilir. Lakin BNŞ 1978-ci ilin sonunadək neft satışının 80 faizinə nəzarət etmiş, İran neftinin alıcıları arasında vasitəçi rolunu oynamışdır. 30 ilə yaxındır ki, İranda neft sərvətinin yeganə sahibi dövlətə məxsus İran Milli Neft Şirkətidir.

XX əsrin sonlarına yaxın İranda neft-qaz çıxarılması işində Rusiyanın «Qazprom», Fransanın «Total» və «Elf Agiten», Malayziyanın «Petronas» və İtaliyanın «Eni» şirkətləri fəal iştirak etməyə başlamışlar.

İranda 180 mln. ton neft (2007-ci il) çıxarılsa da , neft emalı müəssisələrinin istehsal gücü zəif olduğundan neft məhsullarına olan tələbat ödənilmir və İran hər il 7,0-8,0 mln. ton neft məhsulları idxal edir. Ölkədə böyük həcmdə təbii qaz da çıxarılır. Mühüm təbii qaz yataqları ölkənin cənub-qərbindədir. Təbii qaz yataqlarının ümumi ehtiyatı 14 trillion kub metrdir. Hər il orta hesabla 58-60 mlrd. $m^3$ qaz çıxarılır. İstehsal olunan təbii qazın bir hissəsindən sənaye müəssisələri və məişətdə istifadə olunur, digər hissəsi isə ixrac edilir. Neft emalı müəssisələri Abadan, qaz emalı müəssisələri isə Bəndər-Xomeyni şəhərlərindədir.

İran hökuməti neftdən gələn gəlir hesabına emal sənaye sahələrini inkişaf etdirmişdir. Bu sahədə baş verən dəyişikliklər üç istiqamətdə olmuşdur:

• İdxal olunan hazır sənaye məhsullarının azaldılması;

• Yerli istehlak, həm də ixracat əhəmiyyətli mühüm sahələrin (maşınqayırma, metallurgiya, neft-kimya, atom energetikası və s.) yaradılması;

Yüngül və yeyinti sənayesinin texniki cəhətdən təkmilləşdirilməsi.

İranın ən böyük qara metallurgiya müəssisəsi Esfahan şəhəri yaxınlığındadır. Bu müəssisənin tikilməsində sabiq Sovet İttifaqının böyük rolu olmuşdur. Bundan başqa Əhvaz, Buşəhr, Məşhəd şəhərlərində də qara metallurgiya, Tehranda və Ərakda əlvan metallurgiya müəssisələri vardır. Maşınqayırma sənaye müəssisələri Təbriz, Ərak, Tehran, Qəzvin, Rəşt şəhərlərindədir və bu müəssisələrdə avtomobil, elektrotexnika və radiotexnika avadanlıqları istehsal edilir.



Kimya və neft-kimya iqtisadiyyatın aparıcı sahələri olmaqla, xüsusilə əhəmiyyətlidir. Bu sahənin xammalı ölkədə mövcuddur. 1969-cu ildə Abadan şəhəri və Hərq adasında neft emal edən iri müəssisələr fəaliyyətə başlayır.

İran iqtisadiyyatının sürətli inkişafına mane olan səbəblərdən biri elektrik enerjisi istehsalının kifayət qədər olmamasıdır. Ölkədə istehsal olunan elektrik enerjisinin (50 mlrd. kvt.s. 2005) üçdə iki hissəsi istilik elektrik stansiyalarının payına düşür. İran hökuməti bu problemi aradan qaldırmaq məqsədilə nüvə enerjisindən daha geniş miqyasda istifadə etmək iqtidarındadır. Rusiyalı mütəxəssislərin köməyilə Buşəhr (Buşir) şəhərindəki atom elektrik stansiyasının istehsal gücü artırılmışdır. İranda nüvə proqramının reallaşdırılması tədbirləri Qərb dövlətlərinin, ilk növbədə ABŞ-ın hakim dairələrini İrana qarşı hədələyici bəyanatlarla çıxış etməyə vadar etmişdir. İran rəsmiləri isə nüvədən dinc məqsədlər üçün istifadə ediləcəyini etiraf edirlər.

İranda yerli xammala əsaslanan tikinti materialları sənayesi də inkişaf etdirilir. Ölkənin əksər şəhərlərində kərpic, sement, şüşə və şüşə məmulatları, mərmər, əhəng daşı və s. istehsal edən müəssisələr var. Bu sahənin bəzi məhsulları qonşu ölkələrə də ixrac olunur.

İranda ənənəvi milli sənətkarlıq öz əhəmiyyətini saxlamışdır. Ölkədə xalçaçılığın tarixi çox qədimdir. Təbriz, Məşhəd, Esfahan xalçaları zərifliyi, bədiiliyi, rənglərinin sabitliyi ilə dünya şöhrəti qazanmışdır. Ən qədim Təbriz xalçaları B. Britaniya, ABŞ, Fransa muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. İranda süni lifdən maşınla toxunan xalçalar da bir sıra xarici ölkələrin, o cümlədən Azərbaycanın istehlak bazarlarını «bəzəyir». Ölkədə sənətkarlar tərəfindən qızıl, gümüş və mis məmulatlarına mina ilə bəzək vurmaq, həmçinin milli tikmələr işi yaxşı inkişaf etdirilir.

İranda kənd təsərrüfatı xammalı əsasında yeyinti sənayesi inkişaf etmişdir. Yeyinti sənayesinin tərkibi mürəkkəb və çox sahəlidir. Bu sahənin çox məhsulları həm də ixrac olunur.

**Kənd təsərrüfatının aparıcı sahələri**. XX əsrin 60-cı illərinədək İran aqrar ölkə kimi tanılırdı. Lakin bu sahədə inkişaf həmişə ləng getmişdir. Səbəbi isə məhsuldar torpaq və su qıtlığı, aqrar quruluşun vəziyyəti və s. olmuşdur. İslam inqilabının

qələbəsindən sonra aqrar sektorda islahatlara baxmayaraq bu sahədə köklü və mütərəqqi dəyişikliklər baş vermədi. Ölkədə ərazinin təqribən 10 faizi (17 mln. ha) əkinçilik məqsədləri üçün istifadə olunur. Bunun cəmi 4,2 mln. hektarı suvarılır.

Qədim İran mədəniyyətinin inkişafı həmişə suvarma ilə əlaqədar olmuşdur. Ölkənin irriqasiya sistemi digər Şərq ölkələri ilə müqayisədə iki xüsusiyyətinə: birincisi, suvarmanın müxtəlif növlərindən istifadə olunması, ikincisi, suvarmada yeraltı suların (xüsusilə kəhriz suları) üstünlüyünə görə fərqlənir.

Bitkiçilik kənd təsərrüfatının aparıcı sahəsidir. Ölkədə dənli bitkilər istehsalı xüsusi əhəmiyyət kəsb edir. Becərilən torpaqların üçdə iki hissəsi dənli bitkilərin payına düşür. Buğda və çəltik əkinləri geniş sahəni əhatə edir. Çəltik əkinləri əsasən Xəzərsahili Gilan, Qorqan, Mazəndəran əyalətlərindədir. Ölkədə çəltiyin müxtəlif növləri (sədri, çampa, əkuli və s.) becərilir və bunların məhsuldarlığı da müxtəlifdir.

Texniki bitkilərdən pambıq, şəkər çuğunduru, tütün, çay və s. becərilir. Ölkədə paxlalı və yağlı bitkilər, ədviyyat da becərilir. Bağçılıq inkişaf etdirilir. Heyvandarlıq xırdabuynuzlu maldarlıq istiqamətindədir və yarımköçəri təsərrüfatlar üstünlük təşkil edir. İribuynuzlu malqara oturaq təsərrüfatlarda bəslənilir.

**Nəqliyyatı və xarici ticarəti**. Nəqliyyat əlaqələri cəhətdən İran əlverişli coğrafi mövqeyə malikdir. Uzaq Şərqlə Aralıq dənizi ölkələri arasında olan mühüm ticarət yolları İran ərazisindən keçirdi. Əhəmənilər hakimiyyəti dövründə «Şah yolu», «Babilistan-Əfqanıstan yolu», eramızın IV-VI əsrlərində məşhur «İpək yolu», ərəblərin İrana gəlməsilə «Xorasan yolu» və digər istiqamətlərdə çəkilmiş yollar İranın dünya bazarına fəal cəlb olunmasına imkan yaratdı.

XX əsrin əvvəllərində İranda yol tikintisi işlərində əvvəlcə B.Britaniya, sonra isə Rusiyanın böyük marağı və rolu olmuşdur. XX əsrin ortalarında sabiq SSRİ, ABŞ, B.Britaniya, İtaliya, Belçika ölkənin müxtəlif bölgələrində yol tikinti işlərində iştirak etmişlər.

Çay nəqliyyatı istisna olmaqla İranda nəqliyyatın digər sahələri inkişaf etmişdir. Ölkənin yük və sərnişin daşımalarında avtomobil nəqliyyatının rolu böyükdür. Avtomobil yollarının ümumi uzunluğu 60 min km-dir. Tehran-Məşhəd, Tehran-Qəzvin-Təbriz-Culfa (İran), Tehran-Rəşt, Tehran-Qorqan ölkənin ən mühüm və böyük magistrallarıdır. İran dəmir yollarının ümumi uzunluğu 6 min km-ə



yaxındır. Bunun təqribən 300 km-i elektrikləşdirilmişdir. İranı Pakistan, Azərbaycan ilə əlaqələndirən dəmir yol xətti mövcuddur. Ölkənin ən uzun dəmir yol magistralı şimalda Xəzər dənizi sahili bölgəni cənubda İran körfəzi ilə birləşdirən yoldur.

**Xarici ticarət**. Son illərdə İranda ümumdaxili məhsulun həcmi artmağa başlamışdır. Dünya üzrə ümumdaxili məhsulun bir faizi İranın payına düşür. İran iqtisadiyyatında özəl sektorun payı da yüksəlmişdir. Ölkə iqtisadiyyatında xarici kapital və investisiyaların əhəmiyyəti də böyükdür.

İranda neft, bəzi sənaye və kənd təsərrüfatı məhsulları, istehlak malları ixrac olunur. İdxalatın dəyərcə 50 faizini maşın, avadanlıq və sənaye sahələri üçün xammal, 30 faizini ərzaq məhsulları təşkil edir. AFR, Yaponiya, İtaliya, Fransa, B.Britaniya, Ermənistan, Türkiyə, Azərbaycan və digər ölkələrlə ticarət əlaqələri saxlayır. Pul vahidi rialdır.